AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# GÜNEY AZƏRBAYCAN FOLKLORU

## V KİTAB

BAKI – 2015

**Layihənin rəhbəri:** **Muxtar KAZIMOĞLU (İMANOV)**
AMEA-nın müxbir üzvü

**Tərtib edənlər:** f.ü.f.d. **Mətanət MAŞALLAH qızı (ABBASOVA)**
Dr. **Hüseyn ŞƏRQİDƏRƏCƏK (SOYTÜRK)**

**Mətnlər transliterasiya edənlər:** f.ü.f.d. **Mətanət MAŞALLAH qızı (ABBASOVA)**
**Kəmalə OSMANOVA**
**Lalə ŞABANOVA**

**Redaktor:** **Aydən Mustafayev**

**Güney Azərbaycan folkloru, V kitab.** Bakı, Elm və təhsil, 2015. 388 səh.

Kitabda Güney Azərbaycanın zəngin şifahi xalq yaradıcılığı nümunələri toplanmışdır.

Folklorinstitutu.com

G 4603000000 Qrifli nəşr
N-098-2015

© Folklor İnstitutu, 2015.

## ÖN SÖZ

AMEA Folklor İnstitutunun nəşr etməkdə olduğu "Güney Azərbaycan folkloru" adlı çoxcildlik xalq ədəbiyyatının bir araya gətirilməsi, müxtəlif tarixi-ictimai proseslər kontekstində bu ədəbiyyatın inkişaf istiqamətlərinin öyrənilməsi baxımından mühüm əhəmiyyət daşıyır. İlk cilddə Güneyli həmkarımız Məmmədəli Qövsi Fərzanənin uzun illər Cənubda topladığı folklor materialları professor İsrafil Abbaslının elmi redaktorluğu ilə hazırlanıb nəşr olunmuşdur. ("Güney Azərbaycan folkloru", I kitab, Toplayanı: M.Q.Fərzanə, Elmi redaktoru: prof. İ.Abbaslı, tərtibat: S.Abbaslı. Bakı, 2013). Məmmədəli Qövsi Fərzanənin təqdim etdiyi örnəklər əsasən Təbriz, Yekanat və Həmədan ərazilərindən toplanılmışdır. Toplamada mətnlərin dil və üslub özəllikləri tam şəkildə saxlanılmamış, informator-söyləyicilər haqqında məlumat verilməmiş, örnəklərin hansı ərazilərdən əldə olunması da qeydə alınmamışdır. Xalq ədəbiyyatı söyləyicilərinin gizli saxlanılması, onlar haqqında məlumatların verilməməsinə baxmayaraq, toplama materiallarının Güney folklorundan ayrıca kitab kimi nəşr olunması bu işin gələcək inkişaf perspektivləri ücün yol acmış oldu.

Güney Azərbaycan folklorunun növbəti cildi də Məmmədəli Qövsi Fərzanə və Behruz Həqqinin toplama materialları əsasında tərtib olunaraq cap edildi. ("Güney Azərbaycan folkloru", II kitab. Toplayanlar: Behruz Həqqi, Məmmədəli Qövsi Fərzanə. Tərtib edən və ön sözün müəllifi: fil.ü.f.d. Sönməz Abbaslı. Elmi redaktorları: fil.ü.f.d R.Xəlilof, A.Mustafayev. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2014). Bu cildin ardınca Səməd Behrəngi və Bəhruz Dehqaninin uzun illər xalq arasından topladıqları müxtəlif nağıllar orijinaldan trasliterasiya olunaraq kitab şəklində hazırlandı (Güney Azərbaycan folkloru. III kitab. Elmi redaktoru: fil.ü.f.d. M.M.Abbasova. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2014).

Cənublu həmkarlarımız, ziyalılarımızın könüllü əməkdaşlığı, Güneydə "Xudafərin ", "El bilimi" dərgilərinin ziyalı qrupunun bilavasitə fəaliyyəti nəticəsində folklor nümunələrinin

qaynaqları və toplayıcıları qeydə alınmaqla sistemli şəkildə jurnal səhifələrinə çıxarıldı. Bu isə Güney folklorunun öyrənilməsi işində bizim üçün əsaslı şərait yaratdı.

Güney Azərbaycan Folklorunun IV cildi də məhz "Xudafərin" jurnalının təsisçısı doktor Hüseyn Şərqidərəcək və əməkdaşlarının topladıqları materiallar, Cənub folkloruna aid kitablardan transliterasiyalar əsasında hazırlanaraq dərc olundu (Güney Azərbaycan folkloru, IV kitab. Tərtib edənlər: Dr. Hüseyn Şərqidərəcək, fil.ü.f.d. Mətanət Abbasova. Elmi redaktoru: fil.üz.f.d Qədim Qubadov. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2015). Ayrı-ayrı folklor nümunələrinin xalq arasından toplanması işinin surətləndirilməsi istiqamətində AMEA Folklor İnstitutu tərəfindən konkret bölgə materialları-Təbriz folklor örnəkləri də işlənib hazırlandı (Təbriz folklor örnəkləri. Toplayıcılar: Kazim Abbasi, Əhəd Fərəhməndi, Əli Bərazəndə, Məhəmməd Əlipur Müqəddəm. Redaktoru: fil.üz.f.d. S.Qaybalıyeva, Bakı, "Elm və təhsil" nəşriyyatı, 2013). Yeni toplama və tərtibdə hazırlanan kitablarda söyləyicilər haqqında ilkin pasportlaşdırılma aparıldı və Cənubda nəşr olunan folklora aid kitabların da qaynaqları bu örnəklərə əlavə edildi.

Təqdim olunan növbəti cildimiz də müxtəlif yazılı mənbələrdən folklor materiallarının secilərək transliterasiya olunması və konkret informatorlardan yazıya alınaraq bir araya gətirilən toplama işinin nəticəsidir. Folklor örnəkləri əsasən Təbriz, Miyana, Xoy, Ərdəbil, Heris, Mamağan, Tufarqan və.s. bölgə materiallarını əhatə edir.

Kitabda verilən nümunələrin toplanılması əsasən aşağıdakı istiqamətlərdə aparılmışdır:

1. Güneydə ayrı-ayrı vaxtlarda nəşr olunan folklor ədəbiyyatlarından uyğun materialların transliterasiya əsasında əldə olunması.

2. Müxtəlif dərgilərdən ("Varlıq","Xudafərin", "El dili və ədəbiyyatı") uyğun folklor nümunələrinin seçilib hazırlanması.

3. Güneyli həmkarlarımızın bilavasitə təqdim etdikləri materiallar.

4. Az sayda da olsa güneyli söyləyicilərdən birbaşa söhbətlər əsasında toplanan materiallar.

Qeyd olunduğu kimi, kitabda toplanan folklor nümunələrinin bir qismi Cənubda cap olunan folklor müntəxabatlarını əhatə edir. Bu sırada topluda atalar sözləri və məsəllər, bayatılara ayrıca yer verilmişdir. Yeri gəlmişkən qeyd edək ki, Güneydə atalar sözlərinin toplanıb, cap etdirilməsi ilə bağlı daha cox işlər görülmüşdür. Məhəmməd Həsən Yusufun toplaması əsasında Tehranda 1998-ci ildə cap olunan ("El sözləri") nümunələr ərəb və latın əlifbaları ilə hazırlanmışdır. Əlavə olaraq, kitabda ərəb əlifbasındakı sözlərin farsca qarşılığına da yer verilmişdir. Azərbaycan afşarlarının atalar sözlərindən ibarət **"**Ferhengi zərbül-meselha-yı afşarı– Azərbaycan" kitabında da, əvvəl sözün özü, sonra latıncası və daha sonra da farsca şərhi verilmişdir. Təqdim etdiyimiz kitabdakı atalar sözləri və məsəllərin də əksəriyyəti Dr.Hüseyn Feyzullahi Vəhidinin "Atalar sözü, ağlın gözü "(Təbriz, 1366, 109 s.), Əli Zəfərxahın "Ata-babalar deyiblər" (Təbriz, 1370, 74s.), Zöhre Vəfayinin "Zərbülməsəllər"( Təbriz, 1374, 215 s.), Əli Məhəmmədi Bürüncenin "Ferhengi zərbülmeselhay-e afşarı Azərbaycan" (Təbriz, 1379) kitabları və.s mənbələrdən götürülmüşdür.

Bayatılara gəldikdə isə topludakı bu nümunələrin əksəriyyəti informatorlardan toplanan və pasportlaşdırılan nümunələrdir. Bununla yanaşı, "Qoca Təbriz. Təbriz bayatıları" (Toplayanı İbrahim Təbibi, Təbriz. 2005), "Bayatı bulağı" (Toplayanı Cəmşid Şeybani, Təbriz, 1387), "Azərbaycan bayatıları" (Toplayan: Niqabi, Təbriz, 1363), "Təbrizdən dörd dəftər" (Toplama: Əhməd Azərlu, Bakı, Azərnəşr, 1994) və s. məlum mənbələrdən də istifadə olunmuşdur.

Qeyd etdiyimiz kimi, toplama materiallarının əsaslandırıldığı ikinci mühüm mənbə Güney mətbuatından əldə olunan nümunələrdir. Xalq illərlə öz mənəvi ünsiyyətini daha cox mətbuat vasitəsilə həyata keçirmiş və mətbuat bunun üçün əsas vasitə olmuşdur. Siyasi-ictimai problemlərin sırasında burada milli-mənəvi məsələlər də mətbuatın güzgüsündən kənarda qalmamışdır. Bu baxımdan Güney mətbuatının orqanları sırasında ənənəvi

olaraq “Varlıq” dərgisinin də xüsusi rolu olmuşdur. Məlumdur ki, doktor Cavad Heyətin redaktorluğu, onun aparıcı əməkdaşlarının – H.Nitqi, M.Fərzanə, S.S.Niya, Q. Beqdili və.s səyi ilə 1979-cu ailin aprelində ilk nömrəsi işıq üzü görmüşdür. Elmi-ədəbi toplu olaraq jurnal öz səhifələrində klassik irs, türkologiya, çağdaş ədəbiyyat məsələləri ilə yanaşı, Azərbaycan folkloru nümunələri, onların toplama variantlarının nəşri, tədqiqi məsələlərinin də işıqlandırmışdır. Doktor C. Heyət ixtisasca həkim olmasına baxmayaraq Azərbaycan ədəbiyyatı, folkloruna xüsusi maraq göstərmiş, bir cox araşdırmalarını məhz bu istiqamətdə aparmışdır. Onun “Azərbaycan ədəbiyyatına bir nəzər” (Tehran, 1980, 1990; Bakı, ”Yazıçı”nəşriyyatı, 1993), “Azərbaycan şifahi xalq ədəbiyyatı” (Tehran, 1948, Bakı, “Azərnəşr”, 1989), “Türklərin tarix və mədəniyyətinə bir baxış” (Tehran, 1988, Bakı, “Azərnəşr”, 1993) kitabları, “Dədə Qorqud kitabı”, “Ölməz söz xəzinəmizdən incilər” (“Varliq, 1981, s.4) və s. məqalələri folklor və ədəbiyyatımıza olan marağın nəticəsidir. Məhz bu səbəbdən dərgidə folklorla bağlı toplama araşdırmalarının yer alması mütəmadi xarakter daşımışdır. “Varlıq “dərgisi ilə yanaşı, toplama işində əsas mənbə kimi götürdüyümüz mətbuatın sırasında “Xudafərin”, “El bilimi” dərgilərinin də ayrıca yeri vardır. Qeyd olunan dərgilər bilavasitə folklor örnəklərinin toplanması və nəşri məsələləri ilə bağlı olduğundan kitab ücün daha əhəmiyyətli bir mənbəyə çevrilmişdir. Kitabda nağıl, inanclar, bayatılar, alqışlar və deyimlərin əksəriyyəti yuxarıda adı çəkilən jurnal səhifələrindən toplanılaraq transliterasiya edilmişdir. Jurnalların bizim işimiz ücün elmi-mənəvi tərəfdən ikinci bir üstünlüyü folklor nümunələrinin söyləyicilər haqqında məlumatlarla birlikdə təqdim edilməsindədir.

Kitabda qeydə alınan örnəklərin əksəriyyəti jurnal əməkdaşlarının Güneyin ayrı-ayrı bölgələrinə ekspedisiyası zamanı yazıya aldıqları materiallara əsaslanır. Belə ki, Təbriz, Miyana, Xoy və. s. ətrafından toplanan bu nümunələr paspotrlaşdırılmış, bölgələrin dialekt, şivə xüsusiyyətləri mümkün dərəcədə qorunmuşdur. Bizə təqdim olunan folklor örnəklərində bu xüsusuda

diqqət cəkən maraqlı toplam nümunələrindən biri Təbrizli Susən xanım Nəvadeyi Rəzinin anası İsmət xanımdan (İsmət xanım Nəvadeyi Rəzi) qələmə aldığı folklor örnəkləridir. Pasportlaşmada İsmət xanımın məşhur maarifpərvər hacı Məmməd ağa və hacı Hüseyn ağa Naxcivaninin bacısı qızı olması haqqında məlumat verilir. Onun 1907-ci ildə Təbrizdə anadan olması və 1982-ci ildə dünyasını dəyişməsi qeyd olunur. Əldə olunan materialın özəlliyi ondan ibarətdir ki, "Ənnəmlə mən" başlığı ilə təqdim və dərc olunan nümunə bioqrafik, xatiratalr şəklində ana ilə qızın dialoqu üzərində qurularaq qələmə alınmışdır. Ana qızına öyüd verərək ataların hikmətindən şirin bir ləhcə ilə atalar sözlərini izah edə-edə belə danışır: "Bala! evin sözü də olar, bezi də. Yanı, həyat çelişkilərdən (təzadlardan) oluşur, xoşluq da olar, naxoşluq da, şadlıq da olar ğəm də. Dava-dalaş da olar, barış da. Hamısına qabı olmalıdır insanın. Evlər ayrıdi, sözlər birdi. Yanı hamı evlərdə həyat, yaxşıdan-pısdən axıb keçir, sözləri içəri salıb kimsəyə deməyib gizlətməklə bir yerə varılmaz. Bütün evlərdə çətinliklər var, çətinliklər bir-birinə bənzər. Kişi saman çöpü olsun, duvara yapışsın! Yanı Allah heç evi kişisiz eləməsin, hətta başaracaqsız və vecəgəlməz olsa da, yenə oldusu olmadısından yeydir. Adamın Şimirdən əri ossun, imam Hüseynnən oğlu olmasın. Yanı oğlan nə qədər yaxşı da olsa, bir gün ayilə qurub gedəcək, arvad– uşağını hamıdan üstün tutacaq, ama ər nanəcıb də olsa, insana qalıb yaman gündə dadına çatar. Düyüsünün başını dişliyən olmiyip. Yanı çox qıtmırdır, süfrəsinin başında heç kım oturmayıb, xeyri kimsəyə dəyməyib. Cuvanazən dəyi ki, iynəsinin başi şişip! Yanı fərastlı və işüzü bilən qadın deyil, yırtıq-yamaq eləməz, tikiş tikəməz."

İsmət xanımın qızı ilə söhbətlərində tez-tez işlətdiyi atalar sözləri, danışdığı nağıllar, türkəcarələr, xalq oyunları, tapmacalar və.s haqqında məlumatlar bütöv folklor materialı kimi mətnlərdən secilərək toplama materialları sırasına salınmışdır. "Qarı nənə", "Pıspıslı Püstə xanım", "Narbənazık və Nazikbənazik" və.s nağıllar, xalq deyimləri, türkəçarələr, lətifələr və.s örnəklərin əksəriyyəti məhz İsmət ananın söylədiyi mətnlərə əsaslanır.

Susən xanımın "Ənnəmlə mən "yazısından bəhs edən Əlirza Sərrafi yazır: "...Susən xanımın "Ənnəmlə mən" yazısındakı gözəllik və yenilik ondan ibarətdir ki, əsərdə ənnənin dilindən yazılan bütün sözlər, eləcə də onunla ənnəsinin arasında gedən qarşılıqlı diyaloqlar təmamilə Təbriz diyalekti ilə yazılmışdır. Beləliklə də Susən xanım yazıçılıq sahəsində öz usta olduğunu sərgiləmişdi. Ona görə də onu bu cəsarətinə görə təbrik etəməliyəm. Bundan əlavə folklor baxımından da bu əsərə önəmli yer vermək olar. Əsərdə yer-yer tapmaca, qoşmaca, ata sözü, deyim və s. qeydə alınıb. Sahədən toplanan xalq ədəbiyyatı haqqında gənəl ilkələrdən birisi də odur ki, folklor materyalında əl aparılmayıb, toplandığı kimi qeydə alınsın (baxmayaraq ki, bu ilkəni bir çoxları rəayət etmir), ancaq onu rəayət edənlər, bu tapıntılara sadıq yanaşdıqları üçün əsərlərinin sənədiyətin daha da gücləndirmiş olurlar. Bu tip folklor çalışmaları həm düzgün elmi əsaslar ilə üst–üstə düşür, həm də dialektoloji, yaxud ləhcəşünaslıq baxımından da səciyyəvi xarakter daşıyırlar."[1]

İnformatorlar, qaynaqlarla bağlı xüsusi olaraq görülən işlərdən biri də güneyli söyləyicilərlə birbaşa ünsiyyətin qurulması və onların dilindən folklor örnəklərinin yazıya alınmasıdır. Azərbaycan ailələrinə qonaq qismində gələn, eləcə də yaxın qohumlarını ziyarət edən bir cox güneyli söyləyicilərlə əlaqə yaradıb, görüşdük. Bunlardan biri və bizim işimizə yaxından kömək edən Maral ana olmuşdur. Bu baxımdan kitabda toplanan bayatıların əksəriyyəti urmiyalı, 82 yaşlı Maral Pourxalilin dilindən qələmə alınmışdır. Qeyd edək ki, yaşlı olmasına baxmayaraq Maral nənə qədim bayatılarımızın bir coxunu öz hafizəsində qoruyub saxlaya bilmişdir. Maral nənə ilə görüşümüzdə onun həyacanı və sevinci bizi də kövrəltdi. İstiqanlı, gülərüz bu ağbircək bizim gəlişimizi coxdan gözləyirmiş kimi bayatını-bayatıya qoşdu. Maral nənənin söylədiyi bayatılarının əksəriyyətinə Vətən həsrəti, ayrılıq qəmqüssəsi yüklənmişdi. İnformator gözünün nəmini silə-silə əvvəlcə

---

[1] Əlirza Sərrafi. "Mən və ənnəm" yazısının dili haqqında. "El bilimi", 29-cu sayı, səh.32

bayatıları şifahi şəkildə avazsız söylədi. Bir necə bayatıdan sonra sözlərini avazla deməyə başladı. Zümzümə edə-edə avazla oxuduğu bu bayatılara öz ağrısını da qatdı. Maral ana ilə söhbətimizdə biz ondan digər folklor janrları haqqında məlumat toplamağa calışsaq da informator nağıl, rəvayətlər haqqında həvəssiz, yarımcıq informasiya verdi. Sonra yenə də qədim bayatılarımızı öz şirin Təbriz ləhcəsində zümzümə etməyə başladı.

Güney folklorunun toplanması işində bayatılarla bağlı diqqətimizi cəkən mühüm məqamlardan biri yerli rəvayətlərə qoşulan bayatıların Güney folklorunda daha sıx yayılması faktıdır. Toplama zamanı aşağıdakı bayatı mətni özünün çoxsaylı variantları ilə daha çox qeydə alınmışdır:

Mən aşiq kəmanə çalar,
Qaşın kəmanə çalar.
Qızıla çalmayan canım
İndi səmanə çalar.

Bu bayatının yaranmasında Qarabağ bölgəsindən əldə olunan materiallarda müşahidələrimizin bir coxu Laçın rayonu ərazisi ilə bağlıdır. Lacın rayonu Bozlu kəndinin aşığının dilindən söylənilən bir rəvayətə görə, el aşığı aclıq olduğu ücün qışda kənd camaatından borc saman alır. Aşıq samanın müqabilində yazda borc sahiblərinin toyunu pulsuz edəcəyinə söz verir. Rəvayətə görə, aşıq sonralar sazının, sözünün qiymətdən düşməsini yanıqlı bir dillə qələmə alaraq bu bayatını çağırır və nəticədə bayatı xalqın dilində bir məsələ çevrilir (İnformator Abdullayev Natiq İslam oğlu, Laçın rayonu, Bozlu kəndi. Toplayan M.Abbasova).

Yeri gəlmişkən qeyd edək ki, əldə etdiyimiz toplama materiallarının araşdırılmasında bizim üçün çətinlik yaradan məsələlərdən biri məhz bayatı mətnlərinə bağlı olmuşdur. Belə ki, nəzərdən keçirilən bayatıların bir çoxu sonradan "qurama" şəklində qəlibə salınmış, kobud inproviziasiyada təqdim olunmuşdur. Bu bayatı nümunələrinin orijinal mətnlərdən seçilməsi isə tərtibatda bizdən ayrıca diqqət tələb edir.

Kitabda Təbriz, Miyana, Ərdəbil ərazilərindən toplanan xalq oyunlarına da geniş yer verilmişdir. Digər geniş yayılmış oyun

növləri sırasına ana və körpə uşaq arasında yaranan ilkin oyunlar da əlavə olunmuşdur. "Barmaq", "Pişdə, pişdə, pişdə..." və. s oyunlar yaranması və oyun mexanizminin tarixiliyi baxımından xüsusi əhəmiyyət kəsb edir. Qeyd edək ki, bir cox hallarda bu qrup oyunlar toplama işində nəzərdən qacırılaraq qeydə alınmır. Ancaq qeyd edək ki, məişət uşaq oyunlarının ilkin qaynaqları sırasında bu örnəklərin toplanılıb, öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

Toplama işində bir cox hallarda say üstünlüyü baxımından nağıllar xüsusilə secilir. "Güney Azərbayacan folkloru"nun digər seriyalarında olduğu kimi, təqdim olunan kitabda da nağıllara ayrıca yer verilmişdir. Təssüflə bildirməliyik ki, toplanan nağıl mətnlərinin əksəriyyətində dialekt, ləhcə xüsusiyyətləri saxlanılmamış, bu mətnlər toplayıcının danışıq üslubuna uyğun düzəlişlərdə yazıya alınmışdır. Eyni bir nağıl mətnində iki müxtəlif forma və üslub sintezi yolverilməzdir. Bununla yanaşı, kitabada orijinal nağıl mətnlərinə xüsusi diqqət yetirilmışdir. "Tənbəl Əhmədin" nağılı, "Səfeh arvad», « Nazikbənazikin nağılı », « Pıs-Pıslı Püstə xanım", "Sərçə" nağılı, "Qarı nənə", "Юah Abbasэ"эn napэlэ və.s. mətnlər orijinal napəl təhkiyəsində, Təbriz ləhcəsində yazэya alэnmэюdэr.

Təqdim olunan mьxtəlif folklor цrnəkləri sэrasэnda xalq lətifələri də ayrэca yer alэr. Kitabdakэ lətifələrin bir coxu bizə məlum, xalq arasэnda yaюayan Molla Nəsrəddinin adэ ilə baplэ, eləcə də məlum motivli məiюət lətifələridir. Bu nьmunələrin sэrasэnda konkret bцlgəyə aid lokal lətifə nьmunələri də qeydə alэnmэюdэr. Ərdəbilli юeyx Məhəmmədin dilindən sцylənilən bir cox məzəli əhvalatlar məhz bu юəxsin həyatэ, baюqalarэn mьnasibəti əsasэnda yaranmэю, xalq arasэnda geniю yayэlmэюdэr. "El bilimi"ndə Mupanlэ Məhəmmədəli Nəhavəndinin юeyx Məhəmməd haqqэnda materialэna əlavə olaraq onun haqqэnda belə bir məlumat verilir: "Ərdəbil xalqэnэn dilində sцzləri yaypэn olan, bəlirsiz nədənlərə gцrə aplэ baюэndan зэxmэю, azarsэz bir dəliyə зevrilən, зeюidli olaylarla qarюэlaюdэqda dahiyanə sцzlər deyib hamэnэ heyran edən Ərdəbilli єeyx Məhəmməd цz zamanэnda adlэ bir юəxs kimi sцzləri dildən-dilə gəzib, məclislərin nəqli olaraq hələ də apzэndan зэxan sцzlər atalar sцzь və xalq deyimi

kimi Ərdəbillilərin dilində gəzir və gəzməkdədir”. Kitabda bu istiqamətdə ərdəbilli юeyx Məhəmmədlə baplэ 7 əlavə lətifə mətni verilmiюdir.

Folklor цrnəklərinin kitab ьсьn hazэrlanmasэnda mətnlərin orijinallэpэ mьmkьn dərəcədə saxlanэlmюdэr. Yalnэz mьəyyən sцzlər qeyri-etik səciyyə daюэdэpэndan bu ifadələrin yeri nцqtələrlə iюarələnməklə boю saxlanэlmэюdэr. Bu qrup ifadələrsə daha зox atalar sцzь, xalq deyimlərində qeydə alэnmэюdэr.

Toplama materiallarэnэn araюdэrэlmasэ, ayrэ-ayrэ bцlgə sцyləyicilərinin zəngin repertuarэ belə bir fikri vurpulamapa əsas verir ki, Gьneydə folklor ənənəsini qoruyub saxlayan zəngin bir mьhit mцvcuddur. Gьney folklor mьhiti bu gьn həm də milli heysiyyat kimi mənəvi amilə baplэ xьsusi həssaslэqla qorunur.

Güney folklorunun zəngin ümumtürk tarixi qaynağının öyrənilməsi imkan verir ki, bu gün milli folklor normativliyinin kulturoloji, regional xüsusiyyətlərdə qorunması və inkişaf perspektivliyi, onun etnik-estetik bütövlüyü müəyyən olunsun. Bu baxımdan Güney Azərbaycan folklorunun toplanılması, onun zəngin irsinin üzə çıxarılması görüləcək işlərimizin davamlılığı və məsuliyyətinə daha çox bağlıdır.

***Mətanət Abbasova***
***Filologiya üzrə fəlsəfə doktoru***

# UŞAQ FOLKLORU

## LAYLALAR

Laylay dedim yatınca,
Gözlərəm ay batınca.
Gözümə şiş batırram,
Sən hasilə çatınca.

Oyaq qallam yatınca,
Gözlərəm ay batınca.
Qolum yasdıq eylərəm,
Sən hasilə çatınca.

Laylay quşlar havada,
Balaları yuvada.
Gecə-gündüz əllərim
Sənin üçün duada.

Laylay dedim boyunca,
Baş yasdığa qoyunca.
Yat sən gül yatağında,
Baxım sənə doyunca.

Laylay deyim boyunca,
Baş yasdığa qoyunca.
Pardaxlan qızılgülüm,
Bir iyləyim doyunca.

Laylayın uca-uca,
Dağların boyu uca.
Körpələr cavan oldu,
Öldülər qarı-qoca.

Laylayın otağında,
Gül töküm yatağında.
Gül açılsın qönçəsı,
Qızarsın yanağında.

Qızıl gül bitib suda,
Birin çək, birin buda.
Mən durum keşiyində,
Sən yat şirin yuxuda.

Oxunur əzan, bala,
Dur geyin, bəzən, bala.
Boyuna anan qurban,
Tap-tapı gəzən bala.

Laylay bala, gül bala,
Atmaz elin el, bala.
Başa bəla gətirən,
Əvvəl olar dil, bala.

Laylay ürəyim, bala,
Arzum, diləyim, bala.
Ürəyimin bağından
Açan çiçəyim, bala.

Laylay həyatım, bala,
Arzu, muradım, bala.
Nə ki şirin– şəkər var,
Yuxuna qatım, bala.

Laylayın huşla yuxla,
Qəmləri boşla yuxla.
Bu yan çəmən, o yan gül,
Birini xoşla yuxla.

Laylayın lala-lala,
Dağdan axdı şalala.
Gözlərin ulduzlara,
Qaşın bənzər hilala.

Laylay çallam balama,
Xumar gözlü balama.
Yan üzərlik, qadalar
Toxunmasın balama.

Laylay nazım ağlama,
Sözüm, sazım ağlama.
Yazda dolan bulud tək,
Can-cığazım ağlama.

Dağların qalasına,
Baharın lalasına.
Balama qurban ollam,
İllah da balasına.

Laylay, qaşları çatma,
Kirpik, oxların atma.
Yatanda da ayıq yat,
Yatanları oyatma.

Laylay, balam aslana,
Bənzəri var aslana.
Ananın könlü qıymaz,
Bala gözü islana.

Laylay dedim adına,
Tanrı yetsin dadına.
Boya-başa çatanda,
Məni də sal yadına.

Dağların lalasına,
Gül düşüb talasına.
Bacılar qurban olsun,
Qardaşın balasına.

Sarı gül sayasına,
Qızılgül tayasına.
Tanrı səni saxlasın,
Bizim gül sayasına.

Laylayım al başına,
Sancılsın tel başına.
Kim səni istəməsə,
Qalmasın il başına.

Əzizim, lalasına,
Bu dağın talasına.
Əzəl balama qurban,
Sonra da balasına.

Gəlin çıxaq damlara,
Yalvaraq adamlara.
Su tökək, çadır quraq,
Dədən gələn yullara.

Laylay dedim boyuna,
Balam getsin qoyuna.
Sürüynən quzu gələr,
Naz balamın toyuna.

Laylay, balam boyuna,
Qurban kəsim boyuna.
Ölməyəydim, görəydim,
Qızlar gəlsin toyuna.

Laylay, gözündə qara,
Sürmə gözündə qara.
Bir belə ağlamaqdan,
Qalmaz gözündə qara.

Laylayın başı qara,
Gözləri, qaşı qara.
Lala kimin gözündə,
Bir xal var, başı qara.

Laylay, qadan daşlara,
Qoyun, quzu, qoşlara.
Qara telin bənzəyir
Göy kəkilli quşlara.

Yurd yox, anadan sora,
Gül yox, laladan sora.
Anaya nə əzizdir
Körpə baladan sora?

Laylay, balam ayıxıb,
Süd süzləyib acıxıb.
Ya kal durub yuxudan,
Ya qucağa darıxıb.

Laylayınam, baş qara,
Gözün üstə qaş qara.
Ana könlü oxşayır,
Dağda ərimiş qara.

Laylay, dağı qar alıb,
Ağaclardan bar alıb.
Balamın gözləri tək,
Hava rəngi qaralıb.

Laylay, göydə ağ bulud,
Dərə bulud, dağ bulud.
Qıymam balam ağlaya,
Sən dayanma, yağ, bulud.

Yatmaz gecə,
Yar yarın atmaz gecə.
Ana baladan ayrı,
Dincəlib yatmaz gecə.

Laylay dedim gülüncə,
Danışınca, gülüncə.
Balama laylay dedim,
Ellərinin dilincə.

Balam yatır beşikdə,
Bülbül oxur eşikdə.
Sən yat, yuxun algilən,
Mən durmuşam keşikdə.

Laylayın öz dilində,
Çalaram öz dilində.
Ruzusu bol olarmış,
Olan quzu ilində.

Laylayın ilmə-ilmə,
Kim atdı dağda güllə?
Yaralı ov gözündən,
Qan axdı gilə-gilə.

Laylay dedim səsilə,
Sən də yat həvəsilə.
Bağçada bülbül oxur,
Gül açar nəğməsilə.

Laylayın gülə-gülə,
Gül açıb baxar gülə.
Günün, ilin sovuşsun,
Dodağın gülə-gülə.

Laylay, dur bax üzümə,
Başını qoy dizimə.
Axşam qonaq getməyə,
Sürmə çəkim gözümə.

Qurban aran, dağ sənə,
Güllü bağça, bağ sənə.
A laylay oğlum, laylay,
Tutmuşam qaymaq sənə.

Oxşasın dilim sənə,
Güvənsin elim sənə.
Meydanda atı çapdır,
Mən də güvənim sənə.

Qurbanam özüm sənə,
Varımdır sözüm sənə.
İşıqlı ulduz kimi,
Tikmişəm gözüm sənə.

Anan tel düzər sənə,
Bacın gül bəzər sənə.
Tanrı ilə əhdim budur,
Dəyməsin nəzər sənə.

Laylayın sinə-sinə,
Toyuqlar getdi ninə.
Analar laylay çalır,
Balaca körpəsinə.

Laylayın dənə-dənə,
Dərdlərin gəlsin mənə.
Bir deyib min güləsən,
İllərin dönə-dönə.

Çıxaram yol düzünə,
Baxaram gül üzünə.
Hər nənənin balası,
Şirin olar özünə.

Laylay, qurulu püstə,
Başın qoy dizim üstə.
Qoy tamah dişin çıxsın,
Onda məndən bal istə.

Qurban ollam bu qıza,
Kişləsən gəli bizə.
Edərəm hamıya pilov,
Qoyaram önünüzə.

Ayparatək üzə bax,
Qələmqaşlı gözə bax.
Deyirsən sevim səni,
Anan deyən sözə bax.

Laylayınam, biri yox,
Biri vardı, biri yox.
Bağlarında balam tək,
Təzə gülü, təri yox.

Laylay, xoruz banladı,
Günəş saçın salladı.
Səhər tezdən durmağı,
Nazlı balam anladı.

Layla dadı, bal dadı,
Layla məni aldadı.
Nə balda, nə şəkərdə,
Tapılmaz layla dadı.

Laylayın lala çıxdı,
Qoşa gül lala çıxdı.
Şükür, balam böyüdü,
Yeriyib yola çıxdı.

Laylaydan ay alışdı,
Bağçamızda ilişdi.
Beşiyinin üstünə,
Ulduzların yığışdı.

Laylay balam, ay batdı,
Günəş çıxdı, ay batdı.
Gözlərin yum, yatgilən,
Gecədir, zülümatdı.

Laylay, güllərin ağı,
Açılıbdır yarpağı.
Birdir ana gözündə,
Körpə qarası, ağı.

Laylay, evim çırağı,
Laylay, gözümün yağı.
Yat oğlum, bir azdan,
Açılacaq sübh çağı.

Laylay, üzüm mılağı,
Laylay, gülab bulağı.
Burnu fındıq kimidir,
Püstə boyda qulağı.

Laylay, Səhəndin dağı,
Nə gözəldir oylağı.
Aslan igid bəsləyir,
Balam kimi torpağı.

Laylay, güllərin ağı,
Bəzəyir bağça-bağı.
Qırmızısı yanağın,
Göyçək üzündür ağı.

Laylay, gözüm işığı,
Evimin yaraşığı.
Danışandan olmuşam,
Mən dilinin aşığı.

Laylay, gülün budağı,
Gülsün balam dodağı.
Hər anaya şirindir,
Dünyada öz uşağı.

Laylay layın qurbanı,
Günlər sayın qurbanı.
Sənin xatirin üçün,
Ollam dayın qurbanı.

Laylay, dağın maralı,
Sürüsündən aralı.
Tanrı, burda görməyim,
Bir ov salan yaralı.

Atıban tut balamı,
Şəkərə qat balamı.
Şəkərdən acı olsa,
Götürüb at balamı.

Laylay, canın qurbanı,
El laylayın qurbanı.
Sən get şirin yuxuya,
Olum canın qurbanı.

Laylay, məhəbbət kanı,
Laylay, ədəb məkanı.
Harda məhəbbət olsa,
Güllәndirər tikanı.

Qızıl üzüyün yanı,
Laylay, gözün qurbanı.
Yuxuya get, yoruldum,
Beşiyimin sultanı.

Əzizim, bal anbarı,
Bal barı, bal anbarı.
Alçalın, uca dağlar,
Görsənsin balam barı.

Laylay, narın danası,
Qızıl üzüm danası.
Şirindilli uşağa,
Qurbandır öz anası.

Çəpan-çəpan əlləri,
Ağrımasın qolları.
Ağrısa da ağrısın,
Özgələrin qolları.

Tarı-tarı haq tarı,
Gəl bacadan bax, Tarı.
Kim balamı sevməsə,
Onun evin yıx, Tarı.

Laylay, ağam balası,
Gözüm ağı-qarası.
Bir gülməyin aparır,
Hər nə ürək yarası.

Laylay, pambıq qozası,
Bağın gül darvazası.
Badam şükufəsi sən,
Yaz gülünün tazası.

Laylay, yolların başı,
Kəleybərin dağ-daşı.
Burda bir at kişnəyir,
Çağırır yar-yoldaşı.

Gözlərimdən yaş gəli,
Dingirləni, daş gəli.
Sən yat, mən layla edim,
Gör ki, neca xoş gəli..

Atıban, tutdum səni,
Əcəb ovutdum səni.
Can qoydum, cəfa çəkdim,
Şükür, böyütdüm səni.

Laylay, kəklik fərəsi,
Güllü çiçək dərəsi.
Balamın Savalandan,
Gələr balı, kərəsi.

Laylay, gülün dəstəsi,
Ağacların püstəsi.
Anan kimin olmasın,
Gözün yollar xəstəsi.

Laylayın ətək-ətək,
Quş gəlib tökdü lələk.
Səninçün arzuladı,
Dimdiyində xoş dilək.

Laylayınam, gül çiçək,
Altına salam ipək.
Səndən yatıb yuxlamaq,
Anandan laylay demək.

Laylayın alçaq-alçaq,
Balam böyüdü, ancaq...
Ürəyi dəryalar tək
Böyükdür, göylü– alçaq.

Laylay, yağış ələdi,
Dağda qoyun mələdi.
Analar körpəsinə,
Yaxşı dilək dilədi.

Laylay, gözün iridi,
Boy-buxunun pəridi.
Deyin, balam maşallah,
Ayaq tutub yeridi.

Laylayın bir quş idi,
Hasara qonmuş idi.
Əl uzatdım tutmağa
Mələklər tutmuş idi.

Laylayın qəmli-qəmli,
Olmasın balam qəmli.
Ölmə qızılca ilə,
Gedəsən, qalam qəmli.

Əzizim, asma məni,
Hay-küyə basma məni.
Qoyma tifil ağlaya,
Ağzına bas məməni.

Bu yola səni,
Sallam bu yola səni.
Yalvarram Şah Mərdana,
Atsın bu qola səni.

Laylayın yumaq-yumaq,
Emmizə gəldi qonaq.
Atı oxşar boz ata,
Nəbidir başda papaq.

Laylay, balam axdı, sel,
Səmədimi aldı sel.
Qara balıq dəryada,
Can verəndə yandı el.

Mənim gül butam, oğul,
Ətrinə batam, oğul.
Bir arzum var ürəkdə,
Toyunu tutam, oğul.

Bürünüb dona bülbül,
Köç etdi sona bülbül.
Balam dil açan günü,
Mat qaldı ana bülbül.

Laylay balam, gül balam,
Oxudu bülbül, balam.
Yoldaşların gözləyir,
Dur çıx qabağa, balam.

Laylay, mərcanlı balam,
Laylay et, canlı balam.
Anan südün yeyərsən,
Olarsan canlı balam.

Laylay balam, gül balam,
Sən mənim sünbül balam.
Laylayıma yatasan,
Oyatsın bülbül balam.

Laylay, balamsan badam,
Köməyin olsun xudam.
Ağlayanda qəmliyəm,
Sən güləndə mən şadam.

Laylayınam, gül balam,
Telləri sünbül balam.
Kəpənəkdən, serçədən,
Yuxusu yüngül balam.

Laylay balam, gül balam,
Mən sənə qurban, balam.
Qan eyləmə könlümü,
Gəl mənə bir gül balam.

Laylay, əməyim balam,
Çayım, çörəyim balam.
Gözləyirəm o gün ki,
Görəm köməyim, balam.

Laylay balam, can, balam,
Mən sənə qurban, balam.
Ağlayıban könlümü,
Gəl eyləmə qan, balam.

Sənə nolubdur, balam?
Rəngin solubdur, balam.
Oyan bir gül yuxudan,
Məməm dolubdur, balam.

Laylay dedim, yat balam,
Qəm-kədəri at, balam.
Şirin yuxu içində,
Bənövşəyə bat, balam.

Laylayına yat, balam,
Gün ilə çıx, bat, balam.
Mən arzuma çatmadım,
Sən arzuna çat, balam.

Laylay, ahu göz balam,
Laylay, şirin söz balam.
Gözəllikdə dünyada,
Təkdir mənim öz balam.

Laylayınam, öz balam,
Qaşı qara göz balam.
Dilin baldan şirindir,
Dodağında söz balam.

Laylay, dilin düz balam,
Dil açgınan tez, balam.
Mən oturum, sən danış,
Şirin-şirin söz, balam.

Laylay balam, bal balam,
Yanağı qırmızı lalam.
Səhər tezdən yerindən
Dur anana ver salam.

Laylayın oyaq ollam,
Yatmaram, oyaq ollam.
Sən gecələr yatınca,
Göz ollam, qulaq ollam.

Yol üstə bulaq ollam,
Axaram, bulaq ollam.
Sən mənim öz balamsan,
Özüm göz-qulaq ollam.

Laylay, səni tanıram,
Sözlərini qanıram.
Yuxuda ah çəkəndə,
Mən od tutub yanıram.

Yuxudan qalxdı sərsəm,
Səhər gülünü dərsəm.
Neynirəm dünya malın,
Bir qoxlasam, bir öpsəm.

Laylay deməsəm, ölləm,
Qəmin yeməsəm, ölləm.
Uzaq yerdə nənəm var,
Nənə deməsəm, ölləm.

Layla-layla edərəm,
Layla haqdan dilərəm.
Səni verən Tanrıdan,
Can sağlığı dilərəm.

Dərdi, qəmi yemişəm,
Düşməni əyləmişəm.
Balam girsə qapıdan,
Quzu qurban demişəm.

Laylay gülüm gülabım,
Alma, heyva, gülabım.
Dərya kimin geyinmiş,
Ayaqdan başa abım.

Laylay, qolum-qanadım,
Laylay, gələcək adım.
Oğul toyu görməkdir,
Bu dünyada muradım.

Laylay, güllü zanbağım,
Gülşənim, bağça-bağım.
Almasım, berelyanım,
Qolbağım, boyunbağım.

Laylay, qızıl qolbağım,
Bulağım, bağçam-bağım.
Sən gülməsən, inanma,
Bir an qaça dodağım.

Laylay, meyvəli bağım,
Laylay, şamama tağım.
Tanrıdan sonra mənim,
Sənsən arxam, dayağım.

Laylay dedim maralım,
Sən qızar, mən saralım.
İncə dişlərin çıxsın,
Gündə sənə nar alım.

Laylay, dövlətim, malım,
Başımda ipək şalım.
Sən şirin yuxla, mən də
Yanında ayıq qalım.

Başına mən dolanım,
Mən dönüm, mən dolanım.
Tanrı səni saxlasın,
Sayəndə mən dolanım.

Laylay, duzum, duzdanım,
Laylay, dinim, imanım.
Bala kimin dünyada,
Olmaz əziz gümanım.

Laylay, gülüm baharım,
Qış günündə zumarım.
Yaşayışın bağında,
Dadlı-tamlı nobarım.

Laylay, damım-divarım,
Sənsiz yoxdur qərarım.
Sənsən güllü, çiçəkli,
Bağça-bağım, baharım.

Laylay, yaşıl çinarım,
Şöhrətim, iftixarım.
Narın-narın nar gülü,
Dişləri inci narım.

Laylay, canım ciyarım,
Gündüzüm, gecə yarım.
Ürəyimi sinəmdən,
İstəyəsən, de yarım.

Laylay, bacım-qardaşım,
Qərib yerdə sirdaşım.
Qəmli qurbət elində,
Sənsən mənim yoldaşım.

Laylay, səsim, avazım,
Laylay, çiçəkli yazım.
Sənsən mənim dünyada,
Neyim, kamanım, sazım.

Layla edim mən daim,
Yuxun olsun mülayim.
Tanrıma çox yalvarram,
Olasan mənim payım.

Laylay ulduzum, ayım,
Laylay şamama payım.
Sən get şirin yuxuya,
Mən də nəfəsin sayım.

Xırdacasan, can dedim,
Ağlama, mən can dedim.
Balam dil açan günə
Bir quzu qurban dedim.

Laylay dedim, can dedim,
Can sənə qurban dedim.
Sən yatdın, mən tək qaldım,
Yuxudan oyan dedim.

Balama laylay dedim,
Yatmadı, laylay dedim.
Küçədə oynayanda,
Yıxıldı, ey-vay dedim.

Laylay, şəkərim, qəndim,
Laylay, uca Səhəndim.
Dünya gözəllərindən,
Mən balamı bəyəndim.

Beşiyin bəzəyəydim,
İçinə gül düzəydim.
Nə dedim ki, sən küsdün
Mən dilimi kəsəydim.

Əziziyəm, öz ərkim,
Öz ahım var, öz ərkim.
Balam səfərə çıxıb,
Mən dözərəm, dözər kim?

Laylayın, yonca gülüm,
Gül açıb qönçə gülüm.
Bacısı qardaşına,
Toxuyur xalça-kilim.

Laylay, üzüm kişmişim,
Bağlarda gül bitmişim.
Bir az dayan, ağlama,
İndi yanar bişmişim.

Mən sənə qalam deyim,
Gül deyim, lalam deyim.
Yat, incitmə ananı,
Sağ olsun, balam deyim.

Laylay, mənim zinətim,
Sümüyüm, qanım, ətim.
Dağ kimin dayağımsan,
Sənsən mənim cürətim.

Laylay mənim diləyim,
İki gözdə bəbəyim.
Yeddi bacı-qardaşı,
Gəl ol mənim köməyim.

Laylay, dağ boyu duzum,
Ay körpə əmlik quzum.
Banladılar xoruzlar,
Yuxla, ay dan ulduzum.

Balam bir soyun görüm,
Sərv tək boyun görüm.
Tanrıdan arzum budur,
Balamın toyun görüm.

Laylay, mənim bəbəyim,
Bir arzum, bir diləyim.
Pis gündə, pis ayaqda
Sənsən mənim köməyim.

Qurbanam özüm, özüm,
Yuxusuz necə dözüm?
Gecəni gündüz kimin,
Tikmişəm sənə gözüm.

Laylay, telinə qurban,
Şirin dilinə qurban.
Min quzu-qoyun olsun,
Sən, tək gəlinə qurban.

Mən aşıq, quzu qurban,
Qoç qurban, quzu qurban.
Qurban qəbul olmasa,
Qoy anan özü qurban.

Layla dedim ucadan,
Səsim gəldi bacadan.
Baban səfərə gedib,
Ağlama gəl acıdan.

Laylay, yerin yarpaqdan,
Qundağın gül budaqdan.
Canın kimin yiyə dur,
Elin olan torpaqdan.

Balama quzu qurban,
Əllisi, yüzü qurban.
Maldan nə var qurbana,
Nənəsi özü qurban.

Laylay, dedim ucadan,
Səsim çıxmaz bacadan.
Tanrı səni saxlasın,
Boğmadan, qızılcadan.

Laylay, balam narından,
Gül qurbanın narından.
Başın qoy sinəm üstə,
Laylay deyim narından.

Gözlərin qarasından,
Yaş axır arasından.
Olarmı heç əl çəkə
Ana öz balasından.

Laylay, balam o başdan,
Yuxusu gəldi obaşdan.
Bu baş çəkim zəhmətin,
Dincim allam o başdan.

Laylayınam, bala can,
İki igid, iki xan.
Sənin böyük babandır,
Səttar ilə Bağırxan.

Laylayınam, xan oğlan,
Boyuna qurban, oğlan.
Qoç Koroğlu, qoç Nəbi,
Övladı aslan oğlan.

Layla edim yatgınan,
Bağ gülünə batgınan.
Bağ gülü kölgə salıb,
Kənarında yatgınan.

Gül əkdim, gül olasan,
Suvaram gövərəsən.
Çöldəki seyran təkin,
Meylin mənə salasan.

Dilərəm, bəy olasan,
Aləmnən öy olasan.
Qərənfil çumbuğu tək,
Gündə yüz rəng olasan.

Laylay dedim yatasan,
Qızılgülə batasan.
Mən arzuma çatmadım,
Sən arzuna çatasan.

Laylası birdən-birdən,
Beşiyi inci, dürdən.
Laylay de, balam yatsın,
Yuxusu qızılgüldən.

Laylay dedim ellərdən,
Ətir dolu güllərdən.
Tanrı özü saxlasın,
Gələn aylar, illərdən.

Laylayın birdən-birdən,
Beşiyin qızılgüldən.
Diləyin uzaq qalsın,
Gül balam, yaman gözdən.

Layla dedim yatasan,
Qönçə gülə batasan.
Qönçə gül dən-dən olsun,
Sən altında yatasan.

Laylay dedim biləsən,
Düşməyəsən dilə sən.
Boya– buxuna çatıb
Oynayasan, güləsən.

Laylay, gülün biri sən,
Mələkmisən, pərisən?
Bu il iməkləyirsən,
Gələn il də yeri sən.

Laylay balam, tərkimsən,
Düşüncəmsən, dərkimsən.
Uca boy Savalanım,
Səhəndimsən, Ərkimsən.

Laylay balam, gülümsən,
Gülümsən, bülbülmsən.
Bağçanın gözəl gülü,
Süsənim, sünbülümsən.

İməkləyib gəzərsən,
Özünü əzdirərsən.
Boya-başa çatanda
Məni atıb gedərsən.

Sən ömrümün gülüsən,
Bağçamın bülbülüsən.
Gül dodağın güləndə
Neynəyirsən gülü sən?

Laylayın şirin-şirin,
Baladır baldan şirin.
Dodağın bal pöhrəsi,
Qaymaqdan dadlı dilin.

Günəşli gündüz sənin,
Dərə sənin, düz sənin.
Elə sevinc gətirən,
Bu xoş günümüz sənin.

Balam oynur, yatmayın,
Sözünə söz qatmayın.
Laylay deyin balama,
Yatsa da oyatmayın.

Laylayın şirin-şirin,
Yuxla, yat şirin-şirin.
Başın qoy sinəm üstə,
Sübhətək şirin-şirin.

Nənəm layla eyləsin,
Layla bilməz, neyləsin.
Əgər layla bilməzsə,
Beşik desin bələsin.

Laylayın incitməsin,
Kimsəni insitməsin.
Arzum budur, qəm gülü
Sinən üstə bitməsin.

Laylay balam ürəyin,
Dərdi mənə ürəyin.
Yatdığın yer şehlidir,
Dur, qoy açım bələyin.

Bağçalar bağa dönsün,
Dağın yaylağa dönsün.
Bircə kəlmə din, danış,
Ürəyim dağa dönsün.

Bala, ömrün çox olsun,
Göylün-gözün tox olsun.
Sənə laylay çağırım,
Düşmənlərin yox olsun.

Yerin gül-çiçək olsun,
Torpağın çiçək olsun,
Bir balaca sayın ki,
Balamdan göyçək olsun.

Layla edərəm naçar,
Laylay dərd önün açar.
Sən o gülə bənzərsən,
Həftədə bir gün açar.

Qapımızda var çinar,
Yarpağı dinar-dinar.
Mənim bir tək balamı,
Saxlasın pərvərdigar.

Alçalar, ay alçalar,
Alçalar, kamançalar.
Laylayını mən çallam,
Özgələr yaman çalar.

Laylay, yandı çırağlar,
Beşikdədir uşaqlar.
Yeddi yuxu içində,
Balam behişt sorağlar.

Şan bağlayan arılar,
Qonar gülə, sarılar.
Balama qurban olsun,
Yaşı ötmüş qarılar.

Bala demə, qan olar,
Yel əsər, tufan olar.
Balalar gəzən yerə,
Analar qurban olar.

Yağış yağar göl, olar,
Karvan keçər, yol olar.
Sənin talesiz nənən,
Yatmaz, yatmaz, kor olar.

Laylayın hamar-hamar,
Naz balam gözün yumar.
Üstü gül, altı çiçək,
Yuxusun orda tapar.

Laylay balam, gələn var,
Dağdan çölə enən var.
Əmin, atan, qardaşın,
Bir də qayım nənən var.

Laylay laylası gələr,
Yatar, yuxusu gələr.
Uzaq-uzaq yollardan
İndi dayısı gələr.

Laylay, balam iməklər,
Yavaş-yavaş təpiklər.
İncə bulud beşikdə,
Laylay çalar mələklər.

"Araz" qırağı "Ləklər",
Çırmanıb ağ biləklər.
Balam məni görəndə,
Həm gülər, həm iməklər.

Yolçular yolu gözlər,
Dağları dolu gözlər.
Atası qurbətdədir,
Balası yolu gözlər.

İgid qalasın istər,
Dağın lalasın istər.
Mən balamı istərəm,
Balam balasın istər.

Əzizim, dilə dəyər,
Yalan söz dilə dəyər.
Laylayın şirin dadı,
Beş min yad dilə dəyər.

Sudan sel iyi gəlir,
Damdan gül iyi gəlir.
Ay mənim bircə balam,
Səndən gül iyi gəlir.

Qoxusu güldən gəlir,
Güldən, bülbüldən gəlir.
Balamın gül beşikdə
Yuxusu birdən gəlir.

Göyərçin havadadır,
Əl yetməz yuvadadır.
Bir əlim başın altda,
Bir əlim duadadır.

Göydə ulduz naşıdır,
Kim balamın yaşıdır.
Qız gözümün qarası,
Oğlan ürək başıdır.

Laylay, uşaq şirindir,
Dil yumuşaq, şirindir.
Ana üçün hər nədən,
Körpə uşaq şirindir.

Laylay, gülüm belə yat,
Başını qoy gülə, yat.
Mən qəmini çəkərəm,
Sən bax gülə-gülə yat.

Laylay, dağa çən otdu,
Şeh oturdu, çən otdu.
Kim nə dedi balamın?
Yaş gözdə dən-dən otdu.

Balam mənim gülümdür,
Gülümdür, bülbülümdür.
Ölsə analar ölsün,
Bala ölsə zülümdür.

Laylay kirpiyi oxlu,
Sən ki, gözəlsən oxlu.
Sənə qurban kəsərəm,
İldə bir dənə toxlu.

Laylayın çıxdı qamış,
Yaz gəlibdir, çıxdı qış.
Bir üstən, biri altdan,
Inci-inci çıxdı diş.

Laylay, sərin buzlu su,
Uşaqların pozlusu.
Duzluların nazısan,
Nazlıların duzlusu.

Laylay balam, yaz oldu,
Buludlar gözü doldu.
Bağçada bir gül açdı,
Bağbanın üzü güldü.

Qızılgül butam, laylay,
Ətrinə batam, laylay.
Balam ərsəyə gələ,
Toyunu tutam, laylay.

Laylay, nar quş üzümü,
Eylər quş nuş üzümü.
Yuxla sənə gətirsin,
Quşlar meyxoş üzümü.

Laylay, bülbülüm, laylay,
Sarı sünbülüm, laylay.
Bağçalarda gül çoxdur,
Bir qızıl gülüm laylay.

A laylay, bəyim laylay,
Gözəl-göyçəyim laylay.
Qurbət ölkə, yad eldə,
Arxam, köməyim laylay.

Laylay, güllü bağa tay,
Al lalalı dağa tay.
Ətirlisən, nazlısan,
Şamamalı tağa tay.

Almanı soymaq olmaz,
Nimçəyə qoymaq olmaz.
Bala demə, baldı bal,
Yeməkdən doymaq olmaz.

Dağlarda əkin olmaz,
Əkməsən, əkin olmaz.
Bala ana qoynunda,
Yatmasa, səkin olmaz.

Mən deyirəm ay olmaz,
Yaz olmasa yay olmaz.
Çox analar qız doğdu,
Bizim qıza tay olmaz.

Boya-buxuna dolan, gəz,
Boynuma qol dola, gəz.
Cavanlar seyranında,
Sən də bir igid ol gəz.

Laylay, bağlar çiçəksiz,
Faydası yox çiçəksiz.
Görüm balam böyüsün,
Qızılcasız, çiçəksiz.

Laylayın ulduz-ulduz,
Sayılmaz göydə ulduz.
Boya– başa çatınca,
Yatmadım gecə-gündüz.

## MÜXTƏLİF UŞAQ NƏĞMƏLƏRİ

Çox sevərəm üzümü,
Gecə yumdum gözümü.
Bağa sarı tez qaşdım,
Bağ duvarından aşdım,
Əl atanda üzümə,
Bir şey batdı dizimə.
Baxdım gördüm arıdı,
Qanadları sarıdı.
Arı döndü dev oldu,
Bağ da döndü ev oldu.
Qorxub dedim: “ey-vay ana, xuxudu”,
Anam dedi, qorxma bala, yuxudu.
Mən yuxudan oyandım,
Yasdığıma dayandım.
Duz gətdilər yaladım
Su içəndə caladım.
Mən hammını oyatdım
Sora başım qoyub yatdım.

* * *

Dostumudu ha , dostumudu!
O kişi mənim dostumudu.
Geddi bazara, gəlmədi
Yaylığımı gətimədi.
Yaylığımın ucu qərə,
Yalvardım peyqümbərə
Bəlkə dostum gələ,
Yaylığımı gətirə.

* * *

Hapuşala ha, hapuşala,
Hapuşala bir quş idi,
Duvara qunmuş idi,
Bəy oğlu görmüş idi,
Oxunan vurmuş idi.
Oxun başi mil– mili,
Gəl oxu bizim dili.
Bizim dil hara dili?
Bizim dil Urmu dili.
Urmunun ağaşdarı
Bar gətirib başdarı.
Çıxdım Tütün kəndinə,
O yana baxdım tütündü,
Bu yana baxdım tütündü.
Tütün gülabətündi.
Gülabətün xırdası,
Cəfərin yumurtası.
Cəfər özü havada,
Yumurtası tavada.
Cəfər özü nə yesin?
Bircə belə dət yesin!

* * *

Allahümmə səllisi,
Keçinin səqqəllisi.
Keçi çıxdi minbərə,
Yalvardi peyğəmbərə.
Üşüdüm ha, üşüdüm,
Dağdan alma daşıdım,

Almalarımı aldılar,
Məni zulma saldılar.
Mən zulumnan bezarəm,
Dərin quyu qazarəm.
Dərin quyu beş geçər
İçində ərkəş geçər.
Ərkəç qazanda qeynər,
Qənbər yanında oynar.
Qənbər dəyil qəmişdi,
Beş barmaği gümüşdi.
Gümüşi verdim tata,
Tat mənə darı verdi.
Darını səpdim quşa,
Quş mənə qanat verdi.
Qanadlandım uşmağa,
Həq qapısın aşmağa.
Həq qapısi kilitdi,
Kilit dəvə boynunda
Dəvə milan yolunda.
Milan yoli sərbəsər,
İçində ahu gəzər.
Ahunun balaları
Məni gördi ağladı,
Tumanına qığladı.
Tumanı dəlih– dəlih,
Qurbağa bölüh-bölüh,
Qurbağanı haxladım,
Həsən bəyə saxladım.
Həsən bəyin nəyi var?
Çaqqır-çüqəqur çayı var,
Gümüşdən qaşığı var.
Bircə batman g. . . var
Beşcə batman biti var.

* * *

Əl atdım
Kiçik qızın məməsinə,
Böyük qız
Hərayladi nənəsinə.
Nənəsi çıxdi dama,
Bir daş vırdı qabırqama.
Qabırqamı tuta –tuta,
Getdim xana.
Xan dedi:
– Qaaaaşi qərə, göööözi qərə,
Nə düşmüsən bu çöllərə?
Dırmaşısan söyüddərə?!
Verrəm səni igitdərə,
Bağlatdırram söyütdərə!
Yügürtdürrəm ağ itdərə!
Uzun– uzun uzatdılar,
Qabırqamı düzətdilər.

* * *

Keçəl– keçəl bamiyə,
Getdi mərizxaniyə.
Mərizxana bağlıdi,
Keçəlin başi yağlıdi.
Keçəl dedi:“Vay başım”
Qazanda qeynər aşım.
Aşımi içən oleydi,
Nanana-nanay, nanay nay!…

Keçəl, keçəl, daz keçəl,
Hər yanda pərvaz keçəl.
Qış gəlib qurtarmısan,
Budu gəlir yaz keçəl.

* * *

Keçəl, keçəl mərəndə,
Arpa, buğda səpəndə,
Bir arpanı beş eylər,
Yeddi qazan aş eylər.
Gəlin yığılaq başına,
Zəhər qataq aşına.

* * *

Keçəl, aşın bişibdi,
Noxudların şişibdi,
On iki keçəl bir yerdə,
Xarta-xurta düşübdür.

* * *

Ocaq başında
Kürsü qurmuşam,
Ət alıb şorba qoymuşam.
Şorba calandı,
Əmqızi yandı.
Eşşəh, anqırma
Uşağ oyandi.
Ocaq başında
Kürsü qurmuşam
Ət alıb.......

* * *

Aman zaman içində,
Xəlbir saman içində.
Dəvə dəllahlıx elir,
Köhnə hamam içində.
Qarışqa şıllaq atdi,
Dəvənin budı batdi.
Hamamçının tasi yox,
Odunçı baltasi yox.
Bazara bir tazi çıxdi
Boynunda xaltasi yox.

* * *

Mindim faytona,
Atlar yıxıldı.
Mindim daşqıya,
Təkəri sındı.
Mindim eşşəyə,
Sağ qıçı sındı.
Mindim qatıra,
Sol qıçı sındı.

* * *

Xırdaca bacım bi qətrə
Getdi qırnadan su gətirə.
Nənəsi dedi, dıqqılısan
Küzəni salıb sındırısan.

* * *

Yek, yek, yekə danışma,
Do, do, donbalağ aşma.
Sə, sə, səfeh danışma,
Çar, çar, çadravu aşma.
Pənc, pənc, pəncərədən qaşma.
Şiş, şiş, şişmə, sən Allah.
Həyt, həyt, həytə bıcarsan.
Həşt, həşt həştəbixarsan,
Nuğ, nuğ, nuğul satansan,
Də, də, dəxil satansan.
(Əl-ələ verib uşaqlar fırlana-fırlana oxuyurlar).

* * *

Göygöz Ömər,
Göydə gəzər.
Milçək tutar,
Başın əzər.

* * *

Biz açanda süfrəni,
Pişik yedi küfdəni.
Anam geddi vurmağa,
Pişik qalxdi cırmağa.
Kırıkdırdi anamı,
Cırmaqladi Sonanı.
Sona qorxub ağladı,
Ana əlin bağladı.

* * *

Ha geşdim ha, ha geşdim,
Vurdum Gilani geşdim.
İki xoruz əlləşdi,
Biri qana bələşdi.
Qan geddi çaydan aşdı,
Çaydan göverçin uşdu.
Göverçin alataxta(dağda),
Yuvasi bula taxta(bozdağda),
Yarım yatıb otaxda.
İnci, mərcan fil-fili,
Gəl oxu bizim dili.
Bizim dil Urmu dili.
Urumdan gələn atlar,
Ağzında yüyən çatlar.
Heyvanın ağacları,
Bar gətirməz başları.
Vurdum, başı üzüldü,
El yaylağa düzüldü.
El yaylaqdan gəlincə
Yarı canım üzüldü.

* * *

Həsən ağa,
Həsən ağa,
Doldu yarağa.
Mindi ulağa,
Sürdü bağa.
Bir quş vurdu,

O da qurbağa.
Verdi qonağa.
Qonaq yemədi,
Saldı yağa.
Başladı qovurmağa,
Qoydu qabağa,
Başladı
Yemağa.
Yedi qurbağa,
Düşdü yatağa.

* * *

Qurum-qurum qurbağa
Yügürdüm kücə bağa.
Kücə bağdan qız çıxdı,
Qızı sıxdım bucağa,
Bucaqdan yumaq çıxdı.
Yumağı verdim tata
Tat mənə darı verdi.

## Bibili qoz

Bibili qoz ha, bibili qoz
Bibim gördü bir dənə qoş.
Biri ceyran, biri boz.
Mindim bozun boynuna
Sürdüm Xalxal yoluna.
Xalxal yolu daşlıca,
Usta qələm qaşlıca.
Usta məni oxutdu,
Qara daşa toxutdu.
Qara daşın yolları,
Qızıldan nərdivanı.
Atım, niyə kişnərsən?
Arpa ücün kişnərsən?
Arpanı hardan tapaq?
Xan qızı xandan tapaq.
Xan qızı xalı toxur,
İçində bülbül oxur.

## Digər variant

Bibili qoz ha, bibili qoz,
Bibim gördü bir dənə boz.
Mindim bozun boynuna,
Sürdüm Sarsar yoluna.
Sarsar yolu buz bağlar,
Dəstə-dəstə gül bağlar.
Kaş ölməyeydim qaleydim
Bir dəstə o güllərdən
Saç bağıma saleydım.

## Yüz altun bir quş idi....

Bacadan baxdım işıq idi,
Çəngəsi dolu qaşıq idi.
Qız süpürər toz eylər,
Oğlan qıza göz eylər.

Oğlan qızın xatunu,
Boynunda yüz altunu.
Yüz altun bir quşumuş,
Dəryaya qonmuşumuş.
Şah oğlu görmüşümüş,
Oxulan vurmuşumuş.
Ox məndən həzar-bazar,
Kətan köynəklər yazar.
Kətan köynək mil-mili,
Gəl oxu bizim dili.
Bizim dil Urmu dili.
Urmudan gələn atlar,
Arpanı yeyər, catlar.
Arpanın kökün yedim.
Şahim Şirvana dedim.
Şahım Şirvan icində
Qılıncı qan icində.
Məndən kicik qardaşlar,
Oynar meydan içində.

## Pıs-pıslı xala

- Pıs-pıslı xala, haradan gəlirsən?
- Gilandan.
- Hanı bəs şələn?
- Aldılar.
- Niyə verirdin?
- Vurdular.
- Sən də vuraydın?
- Olar iki idi, mən bir idim.
Onlar vurduqca mən kiridim.

## Turşulu aş içmişəm....

Turşulu aş içmərəm,
Dərvazadan keçmərəm.
Dərvaza mənim olsun,
Qırmızı donum olsun.
Geyim gedim Tehrana,
Tehranda toyum olsun.
Qızlar gəlsin toyuma,
Qurban olsun boyuma.

* * *

Bizə üç ad bəllidi:
Şəkərlidi, ballıdı,
Əli, Vəli, Pirvəli,
Məhəmməd ondan irəli.
Fındıq satan, qoz satan,
Rəhmətlik sənin atan.
Fatma, Tükəzban,
Zübeydə bir can.
Tükəzban deyir,
Fatma hey yeyir.
Fatma, Tükəzban,
Qarışdı hər yan.
Kişnədi göylər,
Dağıldı evlər.
Fatma, Tükəzban,
İkisi bir boyda.
Fatma dalaşdı,
Zubeydə qaşdı.

Barıdan aşdı,
Çarxa dolaşdı,
Təndirə düşdü.

* * *

Nərgizə bax, nərgizə,
Qurd gəlib boynun ьzə.
Gцtьrək qazaq Təbrizə.
Təbrizin agaclarэ,
Bar gətirib uclarэ.
Apa dayэmэn qaюlarэ,
Tцkьlьb qabaq dиələri.

* * *

Əmi oplu!
– Bəli!
Bizim toyux sizdəmi?
– Bəli!
-Kиələ, gəlsin.
– Gəlmiri.
-Vur qэзэ sэnsэn!
– Sэnmэrэ.
Sal təndirə!
– Yanmэrэ.

**(Sanama)**

Bir iki,
Bizimki.
Üç-dörd,
Qapını ört.
Beş-altı,
Baş altı.
Yeddi-səkkiz,
Firəngiz.
Doqquz, on,
Qırmızı don.
On bir, on iki,
Yezidin börkü.

* * *

Baş barmaq,
Başala barmaq.
Uzun Hacı,
Qıl turacı,
Xırdaca bacı.
Bu vurdu,
Bu tutdu,
Bu bişidi,
Bu yedi
"Vay" çulçuluya qalmadı

* * *

Bura bir xərmənidi,
Bura bir quş qondu.
Biri vurdu,
Biri tutdu,
Biri pişirdi,
Biri yedi,
Cöcülüyə qalmadı.

## YANILTMACLAR

Adam mədənə getmiş, mədəndə badam yemiş, madam ki, mədəndə badam yemiş, bəs niyə bizə verməmiş?

Ağ balqabaq, boz balqabaq, boş balqabaq, ağ balqabaq.

Atı min, iti qoy, iti min, atı qoy.

Aşpaz Abbas bozbaş asar, o başda, bu başda.

Ay dəyirmilənməyə nə qalıb?

Al bu taqqatuqları taqqatuqçuya taqqatuqlanmaya götür, əgər taqqatuqları taqqatuqçu taqqalamasa, taqqatuqları taqqatuqçudan taqqatuqlaşmadan götür gəl.

Ay axsaq aşpaz, Həsən şah! Aşpazlar aş bişirirlər, sən də gəl aş bişir, ay aşpaz Həsən şah.

El-aləm al dana aldı, aldandılar, biz bir al dana alıb aldanmadıq.

İt iti itir, bit biti itir, it biti itir, it getdi, bit getdi, it, bit getdi.

Bazarda nə ucuz? Mis ucuz, duz ucuz, küncüt ucuz.

Bu eşşək əski eşşək.

Bu əlimdəki təsbeh, əmamələnməlimi, əmamələnməməlimi?

Boz atın boş torbasın boş as başından, apar islat, yaş as başından.

Bu qara qantar qırx kilo qara qatran darter.

Bu qarpız da qarın sancılandıranlardanmış.

Bu köşə yaz köşəsi, bu köşə qış köşəsi, ortada su süzəsi.

Bu gün çərşənbə axşamıdır, çərşənbə axşamlaşırsan, gəl çərşənbə axşamlaşaq, çərşənbə axşamlaşmırsan, çərşənbə axşamlaşmayaq.

Bu mumçunun mumu ümumi mumdur.

Bu mis çox pis mismiş, bu misin sinsi pismis, bu mis Kaşan misi imiş.

Bu yoğurtu sarımsaqlasaq da yeyək, bu yoğurtu sarımsaqlamasaq da yeyək.

Bu yoğurtu mayalayıb saxlasaq da, mayalamayıb saxlasaq da olar.

Bir pinəçi birinci dəfə bir neçə başmağı bir-birlərinə inci kimi pinədi.

Cümə günü, cümə məçiddə, cüvə Cabbarın cübbəsinin cibinnən, cütduğuni cübütdülər!

Cümaxşamı, mən sənnən cümaxşamılaşacam, sən mənnən cümaxşamılaşsan da sənnən cümaxşamılaşacam, sən mənnən cümaxşamılaşmasan da sənnən cumaxşamılaşacam.

Çatı gətir çay içində, çal qatıra çayı çataq.

Döt dəfə denə: qıx küp, qıx qırpı qırıx küp.

Dal sarxar, qartal qalxar, qartal qalxar, dal sarxar.

Dəyirmana girdi köpək, dəyirmançıdan yedi kötək, həm kötək yedi köpək, həm kəpək yedi köpək.

Dilim-dilim olasan, ay dilim, dedim dinmə. Dedi: dinməz idim, dindirdilər, dindim mən.

Getdim gördüm bir dərədə yeddi qara qaşqa, təpəl, səkil keçi var. Dedim: ay yeddi qara qaşqa, təpəl, səkil keçi, mənim də yeddi qara, qaşqa təpəl, səkil keçimi gördünüzmü? Dedi:" sənin o yeddi qara qaşqa, təpəl, səkil keçin mənim o yeddi qara, qaşqa təpəl, səkil keçimin yeddi qara qaşqa, təpəl, səkil balasıdır".

Girdim təndirə, sildim , süpürdüm, silkindim.

Haqqı Haqqının haqqını istədi, Haqqı Haqqının haqqını vermədi, Haqqı da haqqının haqqından gəlmiş.

Haqqı Haqqının haqqını yemiş, Haqqı Haqqıdan hakimə şikayət etmiş, hakim Haqqıya haqqını verməmiş, Haqqı da Haqqının haqqından keçmiş.

Haqlı haqlının haqqını yemiş, haqlı haqlıdan haqqın istəmiş, haqlı haqqının haqqını verməmiş, haqlı da haqqını haqdan almış.

Havva xala, təndir qala, kösöv götür, məni qovala.

Qovalamalaşsan da qovalamalaşacağam, qovalaşmasan da qovalamalaşacağam.

Tamarzılı topal Şaban yatar, çatar, satar saman.

## TAPMACALAR

Ayağları yapbaca, gözləri
bibalaca.
**(Dəvə)**

Ay gəlir adamınan,
Bir xonça badamnan.
Nə dili var, nə ağzı,
Danışır adamınan.
**(Yazı, kitab)**

Ağı var, pambıq kimi,
Yaşılı soğan kimi.
Şeytana bənzər duranda,
Mollaya bənzər quduranda.
**(Sağsağan)**

Atılıb düşər– qırmızı bişər.
**(Qovurqa)**

Adam deyil, hey qacır
Ayna deyil, nur sacır.
**(Su)**

Axşam doğular,
Səhər yer oyar.
Axşam yığılar,
Səhər dağılar.
**(Toyuq-cücəsi)**

Ağanəzər, ay ağanəzər,
Adı dağları bəzər,
Başında cüt ağac gəzər.
**(Qoç)**

Ağac başında qarğa,
Ağzı dolu qovurqa.
**(Xaş-xaş)**

Ağacdır, kötüyü yox,
Bağırsaqdır, qanı yox,
Oxuyur, amma ağzı yox.
**(Kamança)**

Ağacda var bağırsaq.
Yel babamı cağırsaq,
Ağzın acıb oxuyar.
**(Tar və kaman)**

Ağacına çıxmaq olmaz,
Silkələsən, yığmaq olmaz.
**(Mərci-mərcimək)**

Ağacın üstə küpə,
Nə küpədir, nə tıpı.
**(Dolu)**

Ağ otun alasına,
Gün düşüb qalasına.
Eylə də quş olur ki,
Dən verməsin balasına.
**(Toyuq)**

Ağ ilən qara barışır,
Bir-birinə yarışır.
Dost görəndə sevinir,
Düşmən görür alışır.
**(Məktub)**

Bir siçanım var, oyunbaz,
Yuviyə girər, da çıxmaz,
Molla, buna pitik yaz,
Görax çıxar, ya çıxmaz?
(**Açar**)

Bir quşum var, nəhani
Gəzər cümlə– cəhani.
İstərəm kəsib yiyim
Nə əti var, nə qani.
De görax bu nədi?
(**Təyyarə**)

Bizdə bir kişi var,
Ağzında iki dişi var.
(**Maşa**)

Göydə bir quş uçar ki,
Əyağında nalı va.
(**Arı**)

Bağda tappıldar,
Suda şappıldar.
(**Balta**)

Babamın bir donu var,
Qatdamaq olmaz.
İçi dolu əşrəfilən,
Sanamaq olmaz.
(**Göy və ulduzlar**)

Biz idik, bizlər idik,
Otuz iki qızlarıdıq,
Hey əzildik, hey bozulduq,
Biz taxçıya düzüldük.
(**Ağızda 32 diş**)

Bu boydana boyu var, ev
dolusu toyu var.
(**Çıraq**)

Bir közdə iki cürəsi.
(**Yumurta**)

Bu boydana boyu var,
Qırmızıdan donu var.
(**İydə**)

Bir cuval unum var, içində
var danə!
(**İydə**)

Beş bıdağı, bir yarpağı.
(**Əl**)

Bizdə bir kişi var,
Hər gələnə əl verir.
(**Qapı dəstəsi**)

Bir ağacım var, on iki
budağı,
Hər budağın da otuz
yarpağı,
Hər yarpağın bir üzü qarə,
bir üzü ağ.
(**İl, aylar, gecə, gündüz**)

Bir qızıl öküzüm var,
Harda yatsa ot bitməz.
(**Od, atəş**)

Biri gedər, gəlməz,
Biri yatar, durmaz.
(**Tüstü, kül**)

Bir balaca misiri
Bəylər onun yesiri.
(**Güllə**)

Bir balaca boyu var,
Darayıdan donu var.
(**Qarğıdalı**)

Bizdə bir kişi var
Saqqalı damı götürüb.
(**Çıraq**)

Bizdə bir kişi var
Uzun-uzun yatışı var.
(**Fərmoş**)

Bazardan aldım qara idi,
Evdə oldu qırmızı.
(**Kömür və od**)

Başı vardır, beyni yox,
Beyni var, sümüyü yox.
(**Başmaq**)

Bazarda tapılmaz,
Təndirdə yapılmaz,
Ovucda durmaz,
Tərazidə olmaz,
Ondan şirin zad olmaz.
(**Yuxu**)

Bağda iki meyvə var,
Biri qara, biri ağ.
Qaranı yeyərlər,
Ağı yeməzlər.
(**Orucluq günləri**)

Çay qabaqda, yol damaqda,
Dədəsi üç yaşında
Oğlu bazara gedir.
(**Arı**)

Çatı su içər, dana şişər.
(**Balqabaq, boranı**)

Durub, durub əylənər,
Məni görüb, bəylənər,
Adam kimin yeriyər,
Adam kimin əylənər.
Denə görax bu nəmənədi?
(**Kölgə**)

Dağdan gəlir əlli xanım,
əlləri xınalı.
(**Kəklik**)

Dağda tappıldar,
Suda şappıldar,
Obama beyman
Kəttə Süleyman.
(**Dolu, balıq, it, xoruz**)

Dörd gəlinim var, dördü də
bir boyda.
(**Otağın bucaqları**)

Dam-dam üstə,
Tövlə dam üstə,
Bizim ilditim,
Sizin dam üstə.
(**Tüstü**)

Dam üstə sarı köpək.
(**Balqabaq, boranı**)

Daşdandı, dəmirdəndi,
Xörəyi xəmirdəndi.
Aləmə yemax verər,
Özü doymaz, nədəndi?
(**Dəyirman**)

Dağdan gəlir kəhər at
Eyni gözəl kəhər at.
Əyağında qıl sicim
Düyünü gözəl kəhər at.
(**Saz**)

Dağda dəleyman gördüm
Suda Süleyman gördüm.
Otsuz, duzsuz aş gördüm.
(**Pendir**)

Dəyirmana can verir
Xırmana da gərəkdir.
(**Yel-külək**)

Evdə bir quyu var,
İcində suyu var.
Ağzında ilan
Bir gövhər yanan.
(**Lampa cırağı**)

Evimizdə bir kişi var,
Nənəmnən işi var.
(**Süpürgə**)

Əyri-müyrü hara gedirsən,
Papağın dələn sənə nə?
(**Baca və tüstü**)

Əyri-əyri boy atar,
Saqqalı yerə çatar.
Salxım-salxım sallanar
Altında çoban yatar.
(**Söyüd ağacı**)

Əyağı yoxdu qaçar,
Qanadı yoxdu uçar.
(**Bulud**)

Gecə də gedər, günüz də
gedər,
Yerindəki yerində.
(**Dəyirman**)

Gündüzlər dolanar, gecələr
ağzı açıq yatar.
(**Başmaq**)

Göydən gəlir
gumburagumbur,
Başına tökülür yumuru
dəmir,
Yerdə sındır, içini gəmir.
(**Qoz**)

Gəlirdim kətdən,
Səs gəldi bətdən.
Ağzı sümükdən,
Saqqalı ətdən.

(**Xoruz**)

Göydən yerə sallanar,
Hər nə versən allanar.

(**Yağış, uşaq**)

Həftədə bir dəfə başın kəsərəm, nə qanı çıxar, nə canı.

(**Dırnaq**)

Hap pahı,
Kərki sapı,
Hap hapı,
Qızıl küpi,
Dövran dönər,
Çiçək səpər.

(**Təndir və lavaş**)

Xalaya dəyməz, əmiyə dəyər.
Allaha dəyməz, billaha dəyər.

(**Dodaqlar**)

İplik taxıb dişinə,
Papax qoyub başına,
Quyruğu suda,
Başı quruda.

(**Lampa**)

İki dam arasında bir qırmızı kəlim var, nə quruyar, nə donar.

(**Dil**)

İki yol arasında bir qırmızı tər dəstmal.

(**Dil və ağız**)

İki dağ arsında bir çoban öldürdülər.

(**Bit və onu öldürən iki barmaq**)

İki qardaş bir-birini görməz.

(**Gözlər**)

İlim-ilim ilinməz,
Onun dibi görünməz.
And içibdir bu topuş,
Hec zaman yol yeriməz.

(**Su səhəngi**)

Kağızına, ha kağızına,
Xub yaraşır ağzına.
Hər kəs onu tappasa,
Dəliyi dədəsinin ağzına.

(**Sığara**)

Qəndə oxşar, dadı yox,
Göydə gəzər, qanadı yox.

(**Qar**)

Qırx pilləkan,
Min bir otax.

**(Yarpaq kələm)**

Qapı dalında çil-çil dovşan.
(**Süpürgə**)

Qara toyuq çökdü yerə,
Boğarsığın tökdü yerə.
(**Qara qazan və ocaqdakı odunlar**)

Nə əli var, nə əyaği,
Nə başi var, nə qulaği,
Gahdan ağlar, gahdan gülər.
(**Söz**)

O nədi ki, gecə gündüz yol gedər.
(**Saat**)

O yan çəpər, bo yan çəpər,
İçində atdı çapar.
(**Kipriklər və göz**)

O yan qala Məhəmməd,
Bu yan qala Məhəmməd,
Yaş yapıran, quru çəkirəç,
Səlli ilə Məhəmməd.
(**Təndir və çörək**)

O hansı quşdur, uşduğu yuvasına qayıdıb girə bilməz?
(**Söz**)

On beş buğdadan bir fətir.
(**Ay**)

O tay qaya, bu tay qaya
Atıldım mindim daya.
(**Boyunduruq**)

O tay çəpər, bu tay çəpər
içində atlı çapar.
(**Nehrə**)

Oxuyur, bulbul deyil,
Üzür balıq deyil,
Atılır cəkirgə deyil.
(**Qurbağa**)

O nədir, dörd ayağı var, hər ayağında üç barmağı, hər barmaqda otuz dırnaq.
(**Fəsil-ay-gün**)

O nədir, yanır. Isti verir, tüstü vermir.
(**Gün**)

Onun adı Pəridir,
Könlümə müştəridir.
Axşam anadan oldu,
Səhər durdu yeridi.
(**Sığırcın**)

O nədir ki, quyruğundan tutanda qorxusundan qan qusar.
(**Caydan və cay**)

O hansı meyvədir, onu geyərlər.
(**Pambıq**)

O nədir həlqə-həlqədir,
Şorbanın dadı ondadır,
Bir nəfər kəssə onu,
Acığından ağladır.
(**Soğan**)

O hansı heyvandır,
Nə zənciri, nə yuvası.
Nə arpası, nə buğdası,
Güldən tutar mayasın,
Mumdan tikər qayasın.
(**Arı**)

Pişigin, pişigim oyunbaz,
İki sərçədi oyunbaz.
Biri girir dəliyə,
Molla, buna pitik yaz,
Görək çıxar, ya çıxmaz.
**(Qıfıl**)

Suda balıq, quyruğu yanıq.
(**Piltə**)

Tap, bu nədi tapbaca,
Qulaqları yapbaca..
(**Dəvə**)

Uzun-uzun uzanmış,
Uzanmışkən dayanmış.
Dayanmış da beş qarış
Beş qarışdan qan dammış.
**(Barmaq– xınalı dırnaqlar)**

Ustalar, ay ustalar.
Şəfa tapsın xəstələr,
O hansı quşdur, deyin,
Öz quyruğun dəstələr.
(**Cəhrə**)

Üstü daşdır,daş deyil,
Altı daşdır, daş deyil,
İldə bir yumurtlayar,
Toyuğa möhtac deyil.
(**Tısbağa**)

Yer atda çöllü qoduq.
(**Ölü**)

Yer atdan oxlov gedər.
(**İlan**)

Yer altında sarı biz.
(**Yerkökü**)

Zəngi zəng içində,
Zəngi həvəng içində.
Nə yerdədi,
Nə göydə,
Şəhri -firəng içində.
(**Saat**)

Zil kilim, zincir kilim,
ağırdı, silkə bilmirsən.
(**Göy**)

Xanım oyandı,
Cama boyandı.
Cam sındı,
Qana boyandı.
(**Nar**)

Tap bu nədi, tapmaca,
Yol üstə sarı boğca.
(**Təzək**)

# OYUNLAR

## ATLANMAQ

1. Daldan qaça-qaça gəlib uzununa atlanmaq.
2. Bir yerdə durub cüt qıçlı uzununa atlanmaq.
3. Göyə atlanıb neçə dəfə ayaqları bir-birinə vurmaq.
4. Sağ əli ilə sol qıçın baş barmağından tutub bir qıçlı bu maneədən atlanmaq.

## KÜRD GƏLDİ

Xoyun "Kürtti" kəndi və o tərəf kəndlər, bəlkə də əksər kəndlərdə uşaqlar yay fəsli gedib kəndin yanından axar çayda çımən zaman isti qumların üstündə oturub qıçların açar və qumları qıçların arasına yığardılar. Əllərini dalbadal qumların üstünə tapbatap çalar, çapar atın ayaqlarının səsini çıxarar və deyərdilər:

– Kürd gəldi, kürd gəldi.

## EŞŞƏYİ SUVARDIN?

Biri yoldaşının qulağından yapışıb deyər:
– Eşşəyi suvardın?
Cəvab verər:
– Suvardım.
Soruşar:
– Nə suyuyla?
Cəvab verərsə "soyuq suyula", qulağını burub deyəcək:
– Ağzı dondu, ağzı dondu.
Cəvab verərsə, "isti suyla", yenə qulağını burub deyəcək:
– Ağzı yandı, ağzı yandı
Deyərsə "ılıq suyla", qulağın buraxar.
Bəziləri yenə qulağın burar və deyər:
– Ürəyi bulandı, ürəyi bulandı.

## SİLİM, SÜPÜRÜM?

Bir uşaq xəbərsiz daldan gələr, əllərini yoldaşının gözlərinə qoyar və soruşar:

– Silim, süpürüm?

Cəvab verərsə, Allaha bağışla, əllərini gərək çəkəsən.

## PİŞİBDİ

Bu oyunu yekə-yekə gənclər də oynayarlar. İki nəfər əl-ələ yapışar, qalan oyunçular deyərlər: "Pişibdi!"

Çalışarlar fürsət tapıb əllərinin sapbasıyla o iki nəfəri qorusunlar. O iki nəfər qovalayar ta oyunçuların birini tutsunlar və səy edərlər ki, bir-birlərindən ayrılmasınlar. Yoxsa əlləri bir-birindən üzülərsə, təklikdə hər kimi tutarsalar kov deyil və hərəsin bir yerdə basıb döyəcəklər, ta güc billahla gəlib yenidən əl-ələ versinlər. Bu iki nəfər hər kimi tutarsalar o gərək özünə bir yoldaş tapıb, bu iki nəfərin yerini tutsunlar.

## TAPADAN TAPAYA

Muğanın mərkəzi Germi şəhərində bu oyunu oynayarlar. Oyunçular bölünüb topa-topa müəyyən fasilələrdə durarlar. Hər tapada üç, ya dörd nəfər əl-ələ yapışıb dayrə durarlar və bir nəfər də onların ortasında durar. İki nəfər eşikdə-birinin əlində qayış o birini qovzalayıb vurmaq istəyər. O da qaçar bir tapanın arasına təpilər. Ortadakı oyunçu gərək topdan çıxsın. İndi qalıb zirəkliyinə ki, neçə qayış yeyincə özünü başqalarının arasına salsın. O topanın da arasından çıxıb başqa topada özünə yer etməlidir. Beləliklə, yol idamə tapar.

## ALDIRMA

Oyunçuların biri yatar (əyilər, əllərini dizlərinə qoyar). Qalan oyunçular yan tərəfdən bir-bir gələr. Çüt əllərin onun kürəyinə qoyar, qıçların açaraq üstündən atlarlar. Hər kim atlana bilməsə, o, yatar. Elə ki, gəlib atlandı, yatan bir az ucalar. Atlanmağın ikinci sırası

başlayar və hər kəs atlana bilməzsə, yatan oyunçuyla yerin dəyişməlidir. Hər biri atlananda oyunçular bir sözü deyərlər: əvvəlidi dəyməzlər (hər kəs atlanıb yerə düşəndə yatana bir qımıx vurar.)

– Dörddü?

– Bir g... (Yerə düşəndə bir g.... vurar, yəni g....nü tapdayar yatana)

– Beşdi,

Gümüşdü.

– Altı qızıl

Səpmədi. (Bu sözü deyəcək yerin otları, ya çör-çöpündən göyə səpər və atlanar.)

– Yeddi-can,

Qərə guş

Təxtə çıxarmış.

Yeddinci dəfə hər oyunçu bu sözü deyər, qıçın aşırar onun belində bir az oturar və enər. Beləliklə, oyun bitər.

## ÇİLİK DƏSTƏ

Bu oyuna geniş bir sahə lazımdır. Oyuna lazım olanı deyərlər: neçə dənə dəstə? (hərəsi təqriba 5 santimetr boyunda) Birini, ya ikisini, ya üçünü yer dəstəsi qoyarlar, birini də oyunçu əlində tutar. Bir qarış boyunda ağacdan çilik düzəldirlər ki, iki başın da bıçaqla bir az yontalayarlar.

Çiliyin boyu balaca olarsa, ona "ulduzu çilik" deyərlər. Oyunçular iki bölünərlər. Oyunu hansı tərəfin başlamasını bu yolla təyin edərlər. Tərəfin birindən bir nəfər dəstəni götürüb gedər istədiyi qədər yer dəstəsindən açar və durar. Müqabil tərəfin ustasına deyər:

– Dəstə gulan.

O, deyər:

– Sizə, bizə?

Cavab verər, məsələ bizə.

O, dəstəni ayağının dibindən yerə qoyar, parçanı dəmir arşınla ölçən kimi yeri ölçə-ölçə gələr. Əvvəlində deyər: bu sizə. İkin-

cisində deyər: bu bizə. Üçüncüsü bu sizə, və.......ta dəstə yetişər yer dəstəsinin üstünə. Hansı tərəfin adı gələrsə, o tərəf oyuna başlayar.

Tərəflərin birindən bir nəfər çilik götürüb istədiyi qədər yer dəstəsindən fasilə açar. Üzün müqabil tərəfin ustasına tutub deyər:

– Dəydizim, dəydizəsən?

Usta deyərsə, dəydizəyəm o, bir az dalıya gedər və yer dəstəsindən uzaqlaşar. Yenə soruşar:

– Dəydizim, dəydizəsən?

Neçə dəfə yuxarıda qeyd olunan kimi, yer dəstəsindən uzaqlaşandan sonra axırda iki haltı vardır.

Usta cəvab verər:

– Dəydizəm.

Çilik olan razı olar və deyər:

– Gəl, dəydiz.

Usta gələr, çiliyi yer dəstəsinə atar. Dəydizə bilərsə, oyunu o dəstə başlayar.

Usta cavab verər:

– Dəydiz!

Əlində çilik olan qəbul edər. Dəydizə bilərsə, oyunu onun tərəfi başlayacaq yoxsa, qarşı tərəf.

Tərəfdən bir nəfər oyuna başlayar. Əvvəl "xotgi" qurar. Yəni, sol əli ilə çiliyi göyə atar və sağ əlindəki dəstəylə göydə çiliyə möhkəm gövsəyər. Çilik göyə meyillənər və gedib uzaq məsafədə yerə düşər. Meydanda olan oyunçulardan biri çiliyi götürər və yer dəstəsini tuşlayıb atar. Dəydizə bilərsə, oyunçu ölər və ikinci gəlib oyuna başlayar. Dəydizə, oyunu ikinci mərhələsi ilə ədamə verər: çiliyi gətirər, yer dəstəsinin qabağında pil qoyar.Yəni piliyin bir başını balaca bir dik yerə söykəyib və bir halətdə qoyar ki, çiliyin ucu göydə qalsın. Dəstə ilə möhkəm çiliyin ucuna vurar, çiliy göyə qovzandıqda dəstə ilə möhkəm çiliyi göpsəyər. Çiliyə müqabil tərəf yer dəstəsinə atıb dəymədən çilik öz-özünə pil durarsa, oyunçu məsəla deyər: bu üç, dördə qalarsa, çiliyi vurar. Çilik yerə düşəndən sonra həqqi var, əli ilə pil qoyub yerdə vursun. Çünki əvvəl dəfə çilik özü pil durmuşdur.

Bu oyunun qaydalarından:

1. Bu oyunun qaydalarından biri "pəlmə tutmaq"dır. Çiliyi börk, ya əl ilə göydə tuta bilərsələr, oynayan oyunçu ölər. Əlbəttə, əvvəldə şərt kəsərlər ki, piləmə var, ya yox.

2. Çiliyi atanda yer dəstəsinə yetişməyib düşərsə, oyunçu çiliyi düşdüyü yerdən pil qoyub vuracaq. Yəni, daha çiliyi qaytarıb yer dəstəsinin yanında pil qoymağın lüzumu yoxdur.

3. Çilik su arxına düşüb və müqabil tərəfdən biri deyərsə, "su bülbülü", su çiliyi nə qədər apararsa da deyil, çiliyi gətirər, arxa düşdüyü yerdən hesablanar. Çilik düşərsə, tərəf çiliyi dəydirmək istəyəndə oyunçu dəstəni yer dəstəsinin o yan– bu yanına vurar və deyər:

– Bir şahı verdim qənd ala.
Bunun üstündən atlana.

Yəni bu sözü deməklə arzu edər ki, çilik yer dəstəsinə dəyməsin.

## ƏL-ƏLƏ

Balaca uşaqlar əl-ələ yapışar və yeriyə-yeriyə oxuyardılar:

Əl-ələ, kətan kələ,
Biz gedirik babamgilə.
Babam mənə papıç alıb,
İçi dolu kişmiş alıb.
Bir tayı sənin,
Bir tayı mənim.
Donbalan pis.

Bunu deyib cümbəlib yerə oturardılar. Ayağa qalxar, yenidən bu qoşmanı oxuyardılar.

## YERDƏ QALAN QURD

Uşaqlar hamısı deyərlər: "Yerdə qalan qurd olsun". Hərə qaçıb dik bir yerə çıxar və qurd yerdə qalar. Pilləkən, hovuzun yerdən uca duran qırağı, yerdə quyulmuş bir daş, hər nə isə yer səviyyəsindən uca duran hər bir zad, dik yer də ola bilər. Uşaqlar bu dikdən o biri dikə qaçar, yerlərin dəyişərlər. Ta görəsən neçəsi yerə yenib qurddan münasibət saxlayaraq deyirlər, məsəla: "Həsən qurd, gəl məni ud"

Qurd onları qovalayar. Dikə çıxmamış, ayaqları yerdə ikən onları vura bilərsə, vurulan oyunçu qurd olacaq.

## QURD OYUNU

Qurdu belə seçərdik ki, hammı bir əlini qoyardı qulağına və birgə deyərdilər:

– Qum...pa...ni...yə

Kö...mə...ki...yə

Bunu deyib hər kəs əlini gətirərdi aşağıya. Bəziləri əlinin üzün gətirərdi, bəziləri də əlinin içini gətirərdi. Əli tək gələn çıxardı eşiyə. O qədər "qumpaniyə" elərdilər ki, axıra biri qalardı. Axıra qalan qurd olardı. Uşaqlar dağılışıb haraylardılar:

– Quuuuuut... , gə məni tuuut!

Qurd yumulardı uşaqların üstünə, hər kimi tutsaydı,o, qurd olardı. Uşaqların hansı pilləyə, ya da uca hər bir yerə çıxa bilsəydi amanda qalardı və qurd onu tutammazdı. Qurd da çəmində durardı ki, tərəf ucalıqdan düşüb qaçsın, bu da onu yaxalasın. Uşaq qurda deyərdi:

– Nolar, bi damci pişih yoli ver, qaçım!

Qurd bir addım gedərdi dalı. İnsaflı qurd olsaydı, iki addım gedərdi.

Qurd deyərdi:

– Di qaş daaa...

Uşaq yalvarardı:

– Sən Allah, bi zərrə də get dalı, mən qaçım.

Ya da yalannan: "Bax ora, bax ora" deyib qurdu yahaldıb süzülüb qaçardı qurdun əlindən.

O qədər küçədə uşaqlarla oynadıq ki, hamımız xurd– xəmir, ac və susuz üz qoyardıq evlərimizə.

## ZAQQI-ZAQQI

Iki uşaq üz-üzə durar və əl-ələ yapışarlar. Belə ki, hər biri sağ əli ilə o birisinin sol əlindən və sol ilə sağ əlindən yapışar. İkisi birgə deyərlər:

– Zaqqı-zaqqı,
İmam haqqı.
Zaqqını belə döndərərlər.

Sonra ikisi də əllərini buraxmadan dönəcəklər. Belə ki, dala duracaq və əlləri başlarının üstündə çatılı qalacaqdır. Yenə "zaqqı" deyib, əllərini buraxmadan dönər, əvvəlki kimi üz-üzə durarlar. Bu oyun hövsələləri qaçmayana qədər idamə tapar.

## ÇOBAN-ÇOBAN

On nəfər hüdudunda (az, ya çox) oyunçu əl-ələ yapışar, bir nəfər usta səfin bir başından və bir ayrı usta səfin o biri başından yapışarlar. İki usta belə sual-cavab edərlər:

Birinci usta:
– Çoban, çoban!
İkinci usta:
– Bəli, çoban
- İnək harada?
- Aladağda.
- Nə yeyir?
- Xurma.
- Nə çıxar?
- Burma.
- Ağılı nədən?
- Ağ daşdan.
- Kürəyi nədən?
- Gümüşdən.
- Hansı qızın toyudur?

İkinci usta öz yanındakının əlindən yapışıb, oyunçunun adını deyəcək. Məsələ, Bəhruz qızımın.

Birinci usta:
– Nə ilə gələk?
Məsələ, deyər: zırna, qavalla.

Birinci usta başda olaraq oyunçular "dambadimbılı– zırhazır" deyə-deyə gəlib birisi ustanın, toyu olanın altından əyilib səfi ilə

keçər və yerlərinə qayıdarlar. Beləliklə, toyu olan oyunçunun özü dalına dönüb, qolları bir-birinin üstündə əli qoltuq qalacaq. Yenə həman sual-cavab təkrar olar və hər oyunçunun toyunda çeşidli səslərdə gəlib köçərlər. Məsəla, birində qurbağa səsi, bir ayrısında pişik, ya qarğa, ya it ...səsləriylə.

İndi iki ustanın arasındakı oyunçuların hamısının üzü dal tərəfə dönüb və əl qoltuqda qalıblar. Birinci usta deyir:

– Dədəm deyir, bir az fındıq sındırsınlar.

Oyunçular hamısı ayaqların yerə döyər, ağızlarıyla fındıq sındırmaq səsləri (çıq– çıq– çıq) çıxardarlar. Usta dədəsinin hər nə əmr edərsə, oyunçular icra edərlər. Məsəla, deyəndə meydanı silib süpürsünlər, oyunçular ayaqlarının altını yerə çəkər və yalandan süpürərlər. Axırda usta deyər:

– Dədəm deyir ipi bir az qısaltsınlar.

İki tərəfdən oyunçular araya basqı yaparlar. Yenə usta deyər: "Dədəm gedir oduna, deyir ipi bir az uzadın". Hər iki usta çəkib səfi uzatmağa çalışarlar. İndi iş burasındadır ki, oyunçuların çox müqavimətindən sonra, səf bir yerdən qırılacaq. Şadlıq səsləri içində o iki oyunçunun it quslu yapışar və g..– g.. vurarlar.

## HAQIŞDA

Oyunçular iki dəstəyə bölünərlər. Dəstələrin biri bir qıçın yığar və tən qıçlı atlana-atlana (haqışda) içəridəkiləri qovaqlayar, cəhd edər onları vursun. Hər hansına əli dəyərsə, o gərək oyundan çıxa. Əgər içəridəkilərin biri məhdudədən eşiyə çıxarsa, yanıb oyundan çıxar. Haqışda gedən yorulana kimi içəridəkiləri qovalayıb vurmaya çalışacaq. Elə ki, düşdü, (ayağın yerə qoydu) yoldaşlarının bir ayrısı haqışda gələr və oyun, beləliklə, idamə tapar. İçəridəkilərin hamısı vurularsa, bu dəfə eşikdəki dəstə içəri girər, o birisi dəstə eşikdə qalar.

Yox, əgər içəridəkilərdən bir nəfər can qurtarıb vurulmazsa, eşikdəkilərin hamısı düşərsə, yenə haman dəstə içəridə qalar və oyun yenidən başlanar.

## ANA, MƏNİ QURDA VERMƏ

Oyunçularin biri qurd olar, qalanı bir-birinin dalında bir sütun şəklində durub, hərə öz qabağındakının dal ətəyindən yapışar. Başda duran ana rolunu ifa edər və qurdla üz-üzə durar. Qurd hücum edər ki, uşaqların birini tutub aparsın. Qurd hayandan həmlə edərsə, ana sürətlə ona qarşı çıxar. Daldakı uşaqlar da yerlərin dəyişməklə çalışarlar dayma sütun şəklində analarının dalında pənah tutsunlar.

Qurd deyər:

– Belə-belə quyruq qoparram.

Anası deyər:

– Belə-belə daşlar ataram.

Uşaqlar deyər:

– Ana, məni qurda vermə,
Saqqızımı kürdə vermə.

## GETDİ GƏLƏ HA, GETDİ GƏLƏ....

Oyunçuların arasından bir molla, ya usta seçilir. Molla yanın bir dik yerə qoyub oturar, ya divarın dibində çömbələr. Başqa oyunçular isə dairə şəklində mollanın qabağında çömbələrlər. Başdakı oyunçunun əlinə bir qayış verərlər. Molla yavaşca yanındakı oyunçunun məsləhətiylə bir quş, məsəla, hacıleyləyi nəzər it quslu, yəni bir nəfərin sağ əlilə sağ qıçından bir adam, sol əli, sol qıçından bir ayrı adam yapışar, yerdən bir az qalxızıb göydə saxlayarlar. Bu cürə ki, üzü və qarnı göyə sarı olar, tutaraq deyər:

– Bir quşum var, bu qəddəmə.

Əlinin birini aşağıda, birini yuxarıda hacıleyləyin boyunca açar. Oyunçular deyərlər:

– Getdi gələ ha, getdi gələ.

Molla deyər:

– Dimdiyi var bu qəddəmə.

İki əlini hacıleyləyin dimdiyi uzunluğunda açar. Oyunçular deyərlər:

– Getdi gələ ha, getdi gələ.

Molla nəzərdə tutulan quşun nə yeyib içdiyini, ətinin həlal, ya haram olduğunu deyər:

– Əti sənin, sümüyü mənim.

Əti həlal olarsa deyər:

– Əti mənim, sümüyü sənin.

Axırda deyər:

– Tapın görüm.

Oyunçular bir-bir, əlində qayış olan cavab verər. Məsəla, deyərsə, "qaz", molla deyər: "qayışı ver qaza" Habelə ikinci və üçüncü oyunçu əgər cəvabı düz verərsə, molla deyər: "vur çatlasın", O isə oyunçuları qovalayıb qayışla vuracaq. Haçağ molla desə "palan", oyunçular yüyürəcəklər əlində qayış olanın üstünə, yumruq və şapalaqla tapdayacaq və çalışacaqlar ki, əlindən qayışı alsınlar. O da səy edərək özünü mollaya yetirərsə, oyun bitər və yenidən başlanar.

## DANQALA PİŞTOV

Bir dirək, ya bir qalın uzun taxtanı bir iri, yoğun dirəyin, ya da dik yerin üstünə qoyarlar. Birtəhər ki, dirəyin yarısı o yanda, yarısı bu yanda qalsın. Dirəyin hər başına bir, ya neçə nəfər elə minər ki, taraz olunsun. Dirəyin bir ucunda oturan qıçların yerə vurar, belə ki, dirəyin bu başı göyə qovzansın. Beləliklə, dirəyin bir ucu qovzanar, bir ucu yenər və bu əməl təkrar olar. Oyunçular gedə-gedə deyərlər:

– Danqala piştov Məhmədi,

Getdi qalaya, gələnmədi.

## AÇIL-AÇIL

Uşaqlar əllərini yumar, yumruqlarını daşı daş üstünə qoyan kimi bir-birinin üstünə qalayarlar. Əlbəttə, yumruqlar üstə qərar tutarlar. Oyunun ustası işarə barmağını üstəki əlin içinə dürtərək deyər:

– Kilid, açıl, açıl.

Kilid açılar və kənara gedər. Habelə ikinci və üçüncü və s. əllər açılarlar. Gələr yetişər lap daldakı ələ. Usta barmağını o əlin içinə soxaraq deyər:

– Kilid, açıl, açıl.

O əlin yiyəsi deyər:
– Açılamıram.
Usta deyər:
– Kilid hanı?
Cəvab verər:
– Düşüb suya.
– Su hanı?
– İnək içdi.
– İnək hanı?
– Başını kəsdim yedim.
– Hanı bəs mənim payım?
– Qoymuşduq qərə qazanın altına, pişik gəldi, yedi.

Usta və oyunçular əlləriylə saqqallarını yolan kimi edərək deyərlər:
– Saqqalım vay, bığlarım vay. Vay saqqalım, vay bığlarım.

## İYNƏ-İYNƏ OYUNU

Bu oyunu oynamağa lap azı iki adam gərəkdir olsun (uşaq olursa lap yaxşıdır). Oyunda iştirak edənlər əllərini bir-birinin yanına uzadır, bir halda ki barmaqları bükük olar. Əl altında qərar tapan oyunçuların yaşlısı oxuyar:

İynə-iynə,
Ucu düymə.
Bərbərinci
Şum ağacı,
Səfər səkkiz,
Gilan doqquz.
Şatır keçi,
Qotur keçi,
Hoppan-hoppan,
Yırım-yırtıl,
Su iç, qurtul.

Hər bir kəlmənin bir hecasının deyilişində hər oyunçu əl barmaqlarından sıra ilə birini açar. “Qurtul” kəlməsinin sonuncu heca-

sını, yəni “tul” hecasını xüsisi əda ilə deyərlər. Hər bir barmağın üstündə bu heca oxunsa o barmaq oyundan qırağa qoyular. Sonra sözlər başdan oxunar və həmin işlər təkrar olar. Sonuncu iştirakçının ki sonuncu barmağı qırağa qoyulmayıb, oyunu uduzub və oxuyanın tərəfindən cəzalanar. Sözləri oxuyan onu üzüqoylu yatırdar və ondan bir sual soruşar. O, bu suala cavab verirsə, bağışlanar, yoxsa uduzanın kürəyindən yumruğunan vura-vura belə deyirlər:

– Vurun-vurun, yalan deyib,
Çal eşşəyə palan deyib,
Qarı nənəsinin ətin yeyib.

## ZOLAQ ATMAQ

Duvarin dibində bir zolaq qazarlar. Yəni, məsəla, təqribən bir alma gizlənən yekəliyində. Təqribən iki metr duvardan aralı bir balaca cızıq çəkərlər. Oyunçuların biri “dib” durar. Yəni, duvar dibi zolağın yanında durar. Ötəki oyunçular bir-bir ayağın cızığın dalına qoyar və əlindəki bir badamı zolağa atarlar. Əlbəttə, mümkündür badamların hamısı zolağa düşsun, ya neçə dənəsi eşiyə atlana. Zolaqlardan eşikdəkiləri badam atan yığıb cibinə qoyar. Zolağa düşənləri sayarlar. Tək olarsa badamların hamısını “dib” duran yığışdırıb özünə götürər. Cüt olarsa onların sayınca badam ödəməlidir. Görərsən bir nəfər badamların hamısını uduzub lütlənir, gəlib oturar zolağın dibində, özünə pul yığar. Yəni “dib” duran hər dəfə udduqca bir, ya iki dənə ona badam, pul verər. Elə ki, bir az pul yığdı, durub oyuna qarışar. Zolağı ərik çərdəyi və hərdən alma çərdəyindən də oynayarlar.

## GİRDƏKAN DIĞIRLATMAQ

Duvarin dibində, bir dik yerdən bir neçə oyunçu bir dənə ceviz qoyar. Ceviz öz-özünə dığırlanar və gedib bir yerdə dayanar. İkinci oyunçu duvarın dibində münasib bir yerdə bir ceviz qoyar. Gedib əvvəlki cevizə dəyərsə, ikisini də götürər, özü bir ceviz dığırlayar. Dəyməzsə, üçüncü oyunçu cevizini dığırladar. Birinə dəyərsə hamısını yığışdırar. Üçüncü oyunçununku da dəyməzsə,

dördüncü oyunçu cevizi dığırladar. Heç birisininki dəyməzsə, qayıdar başa, birinci oyunçu ikinci cevizini dığırladar. Bir oyunçunun cevizi yerdəkilərin birinə dəyərsə, onda hamısını yığışdırar.

## RƏNGƏ KƏSMƏ

İki nəfər hərəsi bir qarpızı seçib kəsərlər. Hər hansının qarpızı o birisindən rəngli olarsa, qarpızların ikisi də onunkudur. Həmişə qırmızı çıxan qarpız sarını udar. Öncədən danışarlar ki, hərif dur, ya yox. Hərif nəştov olarsa uduzana qarpız yetişməz. Əlbəttə, hər halda qarpızların pulunu uduzan verər.

## ÜZÜMDƏN SU ÇIXARTMAQ

Neçə nəfər bir üzüm giləsini araya qoyar. Məsəla, biri deyər: Mən bundan on damcı su çıxardaram. İkincisi onu üstələyər. Deyə-deyə bir şeyi hərraca qoyan kimi hərə damcıların sayını artırar. Axırda, məsəla, biri otuz damcı çıxardıram deyəndə, o birisilər razılaşar. Bu adam bir dənə iynəni üzüm giləsinə soxar, üzümü iynədən yuxarı, aşağı aparmaqla iynənin ucundan damcı-damcı su damar. Əgər razılaşmış sayıda, ya çox damcı su çıxarda bilərsə udar, az olarsa uduzar. Əlbəbttə, burada bir məbləğ pul da nəzərə alarlar.

## NAR DƏNƏSİ

Qərar qoyarlar hər kim narı yeyib, bir dənə də yerə salmazsa, oyunu udar.

## KÜS OYUNU

Bu oyun 12 yaşdan yuxarı oğlan uşaqlarının oyunlarındandır. Oyunda iştirak edənlərin sayı 13 nəfərdən çox olmalıdır. Bu oyunda əvvəldə bir yekə çala qazarlar, məsələn, dərinliyi 15 və en uzunu 30 santimetr əndazəsində. Hər adam özünə bir zuvdurməli ağac götürər və əsl həvədən qıraqda özünə bir kiçik həvə də qazar

və onu başqalarına da göstərər. Sonra bir ağacı 15-10 santımetr əndazəsində kəsib və çiling qayırarlar.

Oyun başlanar:

Əvvəldə hamı ağacların həvədən zuvdurərlər. Kimsənin ağacı o birilərdən uzaq zuyursa, o çilingi böyük həvənin qırağında əl ağacının başına dayayıb və zuydurərkən birinin adını səsləyir. Çiling durduğu yerdə növbəti adam ağacını böyük həvədən zuydurar. Əgər çilingə dəyirsə, o da birini səsləyir. Yoxsa küs atmalıdır. Ondan qabaqkı adam ki, çilingi zuydurmuşdu, onu dikinə qoyub əl ağacıyla vurub həvədən uzaqlaşdırar. Uduzan adam əgər göydə çilingi vura bilsə, oyun qurtarar, amma vura bilməsə o gərək çilingi həvəyə doğru ata-ata gətirə və bu halda başqa oyunçular çalışarlar ki, çilingi ağacları ilə vurub, uzaqlaşdırsınlar. Əgər uduzan adam əliylə belə çilingi atanda o adamın ki ağacı çilingə toxunur, onun həvəsini ağacı ilə tuta, həvəsin əldən verən adam küs atmağa davam verməlidir. Bu oyun ta çiling böyük həvəyə düşüncə idama tapar.

## ÜZÜK-ÜZÜK

Çoxlu qış gecələrində ailələr bir yerə yığışıb baş qatmaq üçün bu oyunu oynarlar. İştirak eləyənlər iki qrup olub hər qrup bir noxud əndazəsində bir şeyi əldən-ələ verib və gahdan da çox məharət ilə əllərinin içində dolandırıb gizlədərlər. Başqa qrupdan bir kimsə o üzüyü tapmaq üçün bir-bir əllərinin üstündən vurub “puk” deyə-deyə o şeyi tapmağa çalışar, tapa bilsə oyunu əlinə alar, tapa bilməsə qarşı qrupa bir imtiyaz verilər. Bu oyunda imtiyazın hansı sayda bitməsi oyunun başlanışında iki qrupun arasında bəlli olar və nəhayət uduzan qrup yeməli və başqa şeyləri udan qrupa verər. Çox yerlərdə bu oyuna “gül-gül” də deyirlər.

## QAÇMADAŞ

Bu oyun iki adamın arasında oynanar. Oyunda 10 xırda daş seçilər. Oyunçular növbə ilə daşları yığıb göyə atdıqdan sonra yerə tökülmədən onları əllərinin dalısı ilə tutarlar, yerə tökülənləri də həmən əlləri ilə (əlin dalısında olan daşlar düşməməsi şərti ilə) bir-

bir yerdən yığıb, sonunda əllərinin dalısındakı daşları yuxarı atıb əllərinin içi ilə tutarlar. Hər kimsə daşların çoxunu əlinin dalında saxlaya bilsə, oyunu udar və uduzanı cəzalandırar. Bu oyunun ən azı iki növ cəzası var. O cümlədən:

1. Quş göstərmək: daşların birini iki barmağın arasına qoyub fəşar verərlər, uduzan adam bir quş göydə tapıb göstərməyincə barmağı fəşar altında qalacaq.

2. Torpaq yalatmaq: daşların üstünü torpaqla basdırar və istərlər uduzan adam o torpaqları yalamaqla daşları bir-bir dişlərilə eşigə çıxartsın.

## HA PİŞDƏ, PİŞDƏ, PİŞDƏ....

Bu oyunda ana uşağın əlini öz əlinə alıb, o birisi əli ilə uşağın əlini tumarlayaraq oxuyur:

Pişim-pişim mavasər,
Yazıya getmə,
Yel əsər.
Bu gecə bizə qonaqsan,
Sabah gecə sərbəsər.
Kəndi altına aş qoydum,
Üstünə lavaş qoydum.
Pişik gəldi caladı,
Ha pişdə, pişdə, pişdə.

Ana yavaşca uşağın əlindən vuraraq "ha pişdə, pişdə, pişdə"ni oxuyar və uşaq əlindən vurulmasın deyə əlini çəkər.

Ovcundan qurtulduqdan sonra ana yenidən uşağın əlini alıb bir-bir onun barmaqlarından tutub deyər:

Bir, buna pilo verəcəyəm. (Birinci barmağı tutub).

İki, buna ayran verəcəyəm. (İkinci barmağı tutub).

Üç, buna qovurma verəcəyəm. (Üçüncü barmağı tutub).

Dörd, buna qəymaq verəcəyəm. (Dördüncü varmağı tutub).

Beş, buna halva verəcəyəm. (Beşinci barmağı tutub).

Sonra ana uşaqdan soruşar, neçə oldu?

– Beş oldu.

Ana uşağın əlinin içindən vuraraq “di pişdi qaç, di pişdi qaç” deyər, əllərini bir-birinə çalaraq uşağı həyəcana gətirər.

Bu oyunda ana yeməklərin adın uşaqdan soruşa bilər. Örnək olaraq deyər:

– Bir, buna nə verim?

Uşaq da cavabında öz sevdiyi yeməyi deyər.

Bu oyun uşaqlara beşədək saymağı öyrədərək onları yeməklərlə də tanış edib, o yeməkləri yeməyə həvəsləndirər.

## GƏLİNCİKLƏRİ HAZIRLAMAQ

Qaçarapba gedib dib mipbaxdan şam mejmeyisini, bir az ruznamə kağızı, bir də iynə– sap qovluğundan qeyçini gətirib düzərdim ənnəmin qabağına. Ənnəm ruznamədən bir parça uzunsovuna kəsərdi. Onu bir dəfə o yana bükərdi, bir dəfə bu yana bükərdi. Dörd– beş dəfə kağazı bu yan, o yana bükdükdən sonra onu yarım adam şəklində qeyçi ilə kəsərdi. Bükükləri açanda elə bil altı-yeddi dana oğlan əl-ələ veriblər... elə gözəl olardı ki!

Mejmeyini tərsəsinə qoyardı fərş üstünə, bir dəstə oğlanı da ayaq üstündə qoyardı mejmeyinin üzərinə.

Sonra ayrı bir kağaz götürüb, ginə büküb kəsərdi. Bu dönə açanda əl-ələ vermiş bir dəstə qız görərdin! Ağlım gedərdi, inanın!

Qızları da ayaq üstündə qoyardı mejmeyidə oğlanların qarşı tərəfinə və barmaq ucları ilə narın– narın ritm tutardı mejmeyi üstündə. Dil– dodaq arası da oxuyardı:

– Nıh na nanaaay, nanay,
Nıh na nanaaay, nanay.

Ənnəmin tutduğu ritm ilə qızlarla-oğlanlar nəmnə qəşənglikdə yallı gedərdilər....

# ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR

## A

- Ac başım, (qarnım) dinc qulağım.
- Ac toyuq (yatar) yuxuda darı görər.
- Ac deyər mən doymaram, tox deyər mən acmaram.
- Ac qudurğan olar, küt oynağan.
- Acı söz istəmirsən, ağzını şirin sözə aç.
- Adada qurd az idi, biri də gəmi ilə gəldi.
- Adam özü-özünə eliyəni, el yığılsa elyənməz.
- Adam başına eləsən, (sovursa) bir uca güllikdən eliyə (sovura). (Məsələn, adam qız alanda böyük yerdən, əsil xaniədadən ala. Müamələdə də böyük adam ilə tərəf olmaq yaxşıdı).
- Adam bir dəfə doğulub, ba bir dəfə də öləcək (nəzər: ölmək, ölməkdir, nə xırıldamaq – sarala-sarala qalmaxdan, qızara-qızara ölmək yaxşıdı).
- Adam pulu qazanar, pul adamı qazanmaz (adam öz salamatliyini pula fəda etməməlidir).
- Adam gərək bir acıyanda özünü saxlaya, bir gicibiyəndə.
- Adam gərək sözü ağzında pişirib çıxarda.
- Adam gərək yorğanına görə qıçını uzada.
- Adam gündə bir söz eşitməsə, qulağı kar olar (təəccüblü söz eşidəndə deyərlər).
- Adam gedər, ad qalar.
- Adam pulu qazanar, pul adamı yox.
- Adam gərək özünün doktoru ola.
- Adamın yağı daşarsa da, gərək vədəsinə əməl eləsin.
- Adamı paltar ilə tanımazlar.

• Adamı tanıyan yerdə qurd yesin. (Nəzər: qohum adamın ətini yesə də, sümüyünü eşiyə atmaz).
• Adamın alnına hər nə yazılıb, o da olacaq!
• Adamın ağlı gözündə olar.
• Adamın qarnının içini görən olmaz, adam zahiri hifz etməlidir.
• Adam yıxılanda bir böyük qapıya yıxıla.
• Adına inanım, yoxsa xoruzun lələyinə?
• Adın qoydun dəyirmançı, çağır gəlsin dən Koroğlu.
• Adın nədi? -Daşdəmir, -Yumşanırsan, yumşanır.
• Adın nədi? – Rəşid, birin dedin, birin eşit.
• Adını tut, qulağını bur.
• Ağ at arpa yeməz. (Özgə atına minən tez düşər).
• Ağ pul qara gün üçündür.
• Ağa toxdu, nökərə bir əppək (çörək) çoxdu.
• Ağa gətirər Nuvala, xanım tökər çuvala.
• Ağac behiştdən çıxıbdı. (Ağac, əl ağacı mənasında).
• Ağacı öz içindən qurd yeyər.
• Ağacı götürəndə oğru pişik özünü bəllədər.
• Ağanın pulu çıxar, nökərin canı.
• Ağaya bir kəlmə söz nökərə bir illik yoldu.
• Ağrımaz başına saqqız salma.
• Ağladan yanına get, güldürən yanına getmə.
• Ağlamayana pəpə (məmə) yoxdur.
• Ağır otur, batman gəl. (Yəni, sən özün bu macəraya qatma. Hər söz ilə yerindən olma.)
• Ağıllı bizi tapmaz, dəli qatmasın qırar qaçar (gələr).
• Ağıllı körpü axtarmada, dəli çırmalanıb (vurdu) çayı keçdi.
• Ağıl yaşda deyil, başdadı.

- Axa-axa sel olar, dama-dama göl olar.
- Ağıl ağıldan ötgün olar, hər işdə məşiət yaxşıdı.
- Ağ itin pambıqçıya zərəri var.
- Alanda yaxşıdı, verəndə pis.
- Aracı çəkər soyuğu, molla yeyər toyuğu.
- Alov plovdan yedi.
- Alov olmasa, plov olmaz.
- Allah bir yandan bağlıyanda, bir yandan da açar.
- Allah birinə verəndə dədəsin, nənəsin soruşmaz.
- Allah dağala (çığala) bar verməz.
- Allah dağına baxar, qar verməz.
- Allah saxlıyana heç zad olmaz.
- Allah sənə bir ağıl versin, mənə də bir çuval pul. (Birinə irad tutanda şuxluq ilə deyərlər.)
- Allah kor quşunkun (quşun ruzusun) yuvada yetirər.
- Allah verdi Xıdıra, o da yeyə qudura.
- Allah heç kəsi aclıq ilə imtahana çəkməsin.
- Allah heç kəsin əvvəlin əziz, axırın zəlil eləməsin.
- Allah yandıran çırağı keçirtmək olmaz.
- Alnı qaşqa biz vurdu. (Nəzər: ala itdən məşhurdu).
- Ana ilə qız, halva ilə duz.
- Ana evin dirəyidi.
- Anadan ayrılan quzunu qurd yeyər.
- Anadan əziz bir də anadı.
- Ananın aşı, təndirin başı.
- Anlamaza desən nökərinəm, deyər, əlbəttə.
- Anlamazınan bal yemə, anlayanla daş daşı.
- Anlayanın nökəri olasan, anlamayanın heç ağası da olmayasan.

- Arıq ata qamçı düşmən, yırtıq dama damcı düşmən.
- Arı civəyə qonar, milçək təzəyə.
- Aranda buğdadan olduq, Bağdadda xurmadan. (Nəzər: iki dindən də avara olduq).
- Arpa əkən buğda biçməz.
- Arvadı ər saxlar, bostanı yer.
- Arxalı köpək qurd basar.
- Arvadın şərikli olsun, malın şərikli olmasın.
- Arı yuvasına çöp uzatmaq yatmış fitnəni qovurzamaqdı (Nəzəri: ağrımaz başa saqqız salmaq).
- Arı sürüsü qartal yuvasın güdər.
- Arıq ata quyruğu da yükdür.
- Arıq atda təpər çox, yeriməgə hünər yox.
- Aslan boynuna çəngəl vurmazlar.
- Asta atın təpiyi bərk olar.
- Aslanın ərkək– dişisi olmaz.
- Aşağıda oturmur, yuxarıda da yer yoxdur.
- Aşıq hara getsə, sazı yanında olar.
- Aşıq gördüyün çağırar.
- At minəninkidir.
- Atı at yanında bağlasan rəngin də götürməsə, huyunu götürər.
- At iyidin yoldaşıdır.
- At min, cida götür.
- Atın qiymətini piyadadan soruşma.
- At olanda meydan olmaz, meydan olanda at.
- At öləndə yəhəri qalar, adam öləndə adı.
- At özgənin, g.. özgənin, vur çatlasın.
- At töylədə mıxı çıxarar birin yiyəsinə vurar, ikisin özünə.

- At ilə arvada etibar yoxdu.
- At qarığı gümüşdən, yol qırağı yemişdən.
- At qanlı, iyid canlı gərək.
- At yerinə eşşək bağlama, ərəblər demişkən: “kəl-limin-nəs əla qədri uqulihim”.
- At təpiyinə at dözər.
- At görəndə axsayır, su görəndə susayır.
- At minənin, ev qonanın, don geyinəndi.
- At ər altında, ər qeyrət altında.
- At olmasa yol olmaz, dil olmasa el olmaz.
- At ölər, meydan qalar, igid ölər, ad-san qalar.
- At qardaşdan yaxşıdır (artıqdır).
- At minişi özgədir, dan yerişi özgə (Heç kim bacarığı ana qarnından gətirməyibdir. Nəzər: dünya gör-götürdür).
- At minənindir, don geyənin.
- At öldürməyən baytar olmaz.
- At ölənədək otlar.
- At minən qocalmaz.
- At at olunca, yiyəsi mat olar.
- At ələ düşər, meydan ələ düşməz.
- Ata qırx yaşında təlim versən, qiyamətdə çaparsan.
- Ata güc, adama ağıl gərək.
- Ata min, haqq danış.
- Ata mindin özüvü unutma, atdan yendin atıvı.
- Ata minər, atasın danar, atdan düşər, atını danar.
- Ata yəhəri, dilənçiyə torbası ağırlıq etməz.
- Atdan düş, oddan düşmə.
- Atdan düşüb, yəhərdən düşmür.
- Atı yolu ilə, eli dili ilə tanır.

- Atı at yanında bağlasan, hayun da götürməsə, huyun götürər.
- Atı yeriməyindən, insanı bilməyindən tanı.
- Atı uduzub çuluna güvənir.
- Atı itirib noxtasın axtarır.
- Atlı piyadaya gülər.
- Atlı ilə piyadanın sövdası tutmaz.
- Atım özümdən, donum özümdən! Bəyə nökərəm?
- Atım yox aranda, ayağım yox boranda.
- Atın “daydı”, işin zaydı.
- Atın arığına qarı, iyidin yoxsuluna dəli deyərlər.
- Atın gücün karvanda, iyidin gücün meydanda gör.
- Atın çolağı seyidə nəzirdi.
- Atın sirri gözündən, mərdin sirrin sözündən.
- Atının tərkinə mindirməyəni itinin tərkinə mindirmə.
- Atlı atını sürəndə, bu da dayçasın çapırdar (Nəzər: Bu da eşşəyin minib ki, mən də Məməğandan gəlirəm).
- Atını satan, noxta allanmaz. (Nəzər: dəvəsin satan köşşək allanmaz).
- Ay aylığın, dəvə illiyin düşünər.
- Aya o qədər baxmayasan ki, düşər ayağının altına.
- Ayda-ildə bir namaz, onu da şeytan qoymaz.
- Ayda bir gəl, altına xəli salım. Gündə bir gəl, altına həsir salım.
- Aydan işıq, sudan duru.
- Ayının yetmiş iki oyunu var, yetmiş ikisi də bir armuddan ötrüdü.
- Ayaqlar baş olub, başlar ayaq.
- Ayağa düşməyən başa çıxmaz.
- Ayağı ilə gəlib başı ilə gedəcək.

- Ayağın yekəsi neybətdir, başın yekəsi dövlət.
- Allah dərd versə dərmanın da verər.
- Allah gözdən salmasın, bəndə salsa eybi yox.
- Allah qoyan nərdivanı bəndə qoyanmaz, bəndə qoyan nərdivanı Allah düz gətirməz.
- Arvad yıxan evdən Allahın da xəbəri olmaz.
- Az idi dəli-dolu, biri də gəldi dabanı cırıq.

**B**

- Bağanı ya öldür, ya da arxası üstə çevir.
- Bağlı qapıdan min bir bəla keçər.
- Baxmaqla öyrənmək olsaydı, itlər sallax başı olardı.
- Baxtımın bərgəştəsindən, şəkər əksəm duz olar.
- Balıqdan böyük xalıqdı.
- Balalı qarğa dən yeyə bilməz.
- Banlayan toyuğun başını kəsərlər.
- Baş olsa papaq tapılar.
- Baş yoxdur, ayaq yoldaşı çoxdur.
- Başına gələn başmaqçı olar.
- Başınla yeriməsən, ayağının qədrini bilməzsən.
- Başmaq palçıqsız olmaz.
- Bayquş bələdçi olsa, veranəyə yol salar.
- Beş barmağın beşi də bir boyda deyil.
- Bəy (big) verən atın dişinə baxmazlar
- Bəlkəni əksən, sənbəllə görər (İşdə bəhanə gətirən şəxsin cavabında deyilər).
- Bəni– adama yaxşılıq yoxdur (gəlmiyib).
- Bəşər (bəni– adam) şir südü əmibdir (İnsanlarda vəfa olmaz. Hər kəsə etibar edilməməlidir).

- Bilən bildiyini işlər, bilməyən barmağını dişlər.
- Bir qarın iki minnət götürməz.
- Bir “yemirəm” deyəndən qorx, bir “içmirəm”deyəndən (Bəziləri çox tərifdən sonra yeyib içməyə başlayıb, daha da çox yeyəndə deyirlər).
- Bir tikəni bilmiyən, min tikəni də bilməz.
- Bir zaddan kökəlməyəcəksən, bəs niyə arıqlayasan?
- Bir əldə iki qarpız tutmaq olmaz.
- Bir arxa ki, su gələ, ümid var, bir də gələ.
- Bir evdən iki baş çıxdı, biri gərək kəsilə. (Nəzər: tez evlənənlə tez oyanan peşman olmaz. İki (neçə) qardaşın ailələri bir ev (hitə) də yaşasalar bir gün arvadların bir-birləri ilə davaları çıxar, qardaşlar bir-birləri ilə düşmən olarlar, odur ki, qardaşlar hər nə qədər tez ayrılsalar yaxşıdır).
- Bir itin (küçüyün) qulağını kəssən, biri deyər uzundur, biri deyər gödəkdir (qıssa).
- Bir yanına soğan ək, bir yanına sarımsaq, yerin genişlənsin.
- Biri ölməsə, biri dirilməz. (Biri ölsə, onun varı, ya malı bir ayrısına yetişər).
- Biri batman olanda, biri gərək yarım batman ola. İşi məsalimət ilə hal etmək yaxşıdı.
- Birlik harada, dirlik orada.
- Birinin doqquz kürnü var, doqquzunun bir kürnü yoxdur.
- Bulaq gərək özünnən bulaq ola, su tökməynən bulaq olmaz.
- Bizə gələn, bizə oxşayar.
- Buynuzlu keçi ilə buynuzsuz keçinin qisası qiyamətə qalar.
- Börkü isti, soyuqdan ötrü başa qoymazlar. (Börk kişilik əlamətidir, sözü və əməli düz olmalıdır).
- Böyüyün böyük yeri var, kiçigin kiçik.
- Böyük sözünə baxmayan peşman olar.

- Bu ilki sərçələr bildirki sərçələrə civ-civ örgədir. (Təcrübəsiz və cavan adam təcrübəli bir adama irad tutanda deyərlər).
- Buğda əkdim, arpa çıxdı. (Əməyim zay oldu).
- Buğda əppəyinin (çörəyi)buynuzu olar. (İnsan günün və yaxşı müğəyətinin qədrini bilməz və namünasib cəfaları ilə işini və xoşluğunu əldən verər).

**C**

- Cahil dirilərin ölüsüdü.
- Cahil özü ilə düşmandır, başqası ilə necə dost olur.
- Cahildə söz əylənməz, günbəzdə qoz.
- Calanan dolu qayıtmaz.
- Camış ola, qamış ola.
- Camış şişməkdən nə anlar?
- Camış nə bilir Camal ağa kimdi?
- Can ağrısa kor gözündən yaş çıxar.
- Can çıxmayınca, xuy çıxmaz.
- Candan qonşuya pay olmaz.
- Canım – canım dedilər, varım-yoxum yedilər.
- Cavanlıqda qəfəs, qocalıqda həvəs (Bu məsəl arvadlar üçündür. Arvadlar cavanlıqda qəfəsdə olan kimidirlər. Qocalanda bir az azadlaşırlar).
- Cəhd elə dost qazan, düşmən ocaq başındadı.
- Cəhənnəmdən gələn mən, xəbər verən sən.
- Cəmdək olan yerdə qarğa dolanar.
- Cəvizlə çınar, bir yaşadı, min yaşadı.
- Cib parasız, ev dincsiz olmasın.
- Cin ayrı, şeytan ayrı.
- Cinə papaq tikir, şeytana başmaq.
- Cocuğun toxu qonağın acından yeydir.

- Cücə nənəsinin döşündə böyüyür.
- Cücə nənəsindən süd görməyib.
- Cütə getməz öküzün olsun, işə getməz oğlun.

- Cütə gedən öküz gözündən tanınar.
- Cütcü yağış isdər, yolçu quraqlıq.

**Ç**

- Çağrılan yerdən qalma, çağrılmayan yerdə olma.
- Çağrılan yerə getməyi ar etmə, çağrılmayan yerə gedib yeri dar etmə.
- Çağrılan yerdə bit, çağrılmayan yerdən it.
- Çağrılan yerə ərinmə, çağrılmayan yerdə görünmə.
- Çağrılan yerə var, çağrılmayan yerdə nəyin var?
- Çağrılmayan yerə, pişiklə it gedər.
- Çağsız çiçək açılmaz.
- Çaxmaq məndən, qov səndən.
- Çaxsa tütünür, çalsa bilinür.
- Çaxşaq üzrə ot bitməz, çağra (keçəl) ilə ut olmaz. (ut: üz, həya).
- Çalan çoxdu, oynayan yoxdu.
- Çalındıqca tikildi, dadındıqca bitindi, qırıldıqca düzüldü, düzən qalmır düzməyə, tabım yoxdur dözməyə.
- Çalınmasa tikilməz, dadınmasa bilinməz.
- Çalış qızı ucuz al.
- Çalışanın çörəyi dadlı, ərincəyin canı.
- Çalışma atadır, yer anadır.
- Çalışqanın biri iki olsa, ərincəyin ikisi bir olar.
- Çalğını çalana, sözü danışana, işi bilənə, yolu gedənə, atı sürənə, malı alana, qızı sevənə, biçini əkənə ver deyiblər.

- Çamurdan çıxdıq, palçığa batdıq.
- Çarıq tapan, dolağın da tapar.
- Çarıxçının şahidi özü ayax yalın olar.
- Çaşqın oldun bayıldın, daşqın oldun asıldın.
- Çatlaq olsa, su içindən bəlgürür.
- Çay bir olar, çeşmə min.
- Çəkinmək əyri yolun düzə olan borcudu.
- Çəngəl aslansız olmaz.
- Çıxarsan gözündü, tüpürsən üzündü.
- Çin sözün deyən, qutulur, sözün çinin deyən, tutulur.
- Çinin sözü, sözün çini: gerçəyin sözü, sözün gerçəyi.
- Çirkin bürünər, gözəl görünər.
- Çirkin olsun-qız olsun, əyri olsun, yol olsun.
- Çirkin özün gizlədi, gözəl aşkara gəzir.
- Çiy unun yılpışması çilindəndir (unun yapışması, şehindən, yaşındandır).
- Çoban baxdığın, kəndli əkdiyin yeyər.
- Çoban dayağı ilə, gəlin duvağı ilə.
- Çobana dayaq, gəlinə duvaq ver.
- Çobana vermə qızı, ya qoyun güddürər, ya quzu.
- Çobana yanaş, acımısan, karvana qoşul, yorulmusan.
- Çobanı özündən olanın qoyunu dişi doğar.
- Çobanın könlü olsa, təkədən süd sağar (təkədən: ərkək).
- Çobansız qoyunu qurd yeyər.
- Çobansız sürü yolu azar.
- Çolaq kora baxıb şükür edər.
- Çox arayandan çox soran yeydir.
- Çox bilən çox yanılır.
- Çox danışıb iş görməməkdənsə, susub işləmək yaxşi.

- Çomaxsız bəylik olmaz, bəylıq çomaqsız olmaz, daş olmasa dağ olmaz.
- Çırağ öz dibinə işıq salmaz.
- Çibin qana qonar.
- Çinarlar başların tovlayar, söyüdlər deyər: mən də, mən də.
- Çox qoyunu olanın, çox da quzusu olar.
- Çoxbilmiş tülkü quyruğundan tələyə düşər.
- Çoxdan çox olar, azdan az.
- Çox yaşayan çox bilməz, çox dolanan çox bilər.
- Çox yeməklik adamı az yeməklikdən də qoyar.
- Çörəyin yavan olsun, davalı olmasın.
- Çuvalla yeyir, xaralla aparır.

**D**

- Dağı daş bəzər, insanı baş.
- Daldan atılan daş topuğa dəyər.
- Dalı şələli qapı açmayan nemətin qədrini bilməz.
- Damdan-dama gəzən köpəyin beli sınar.
- Danın köçün axşamdan sor.
- Danışanı adam bilir, hürəni it.
- Dar başmaqdan ayaqyalınlıq yaxşıdı.
- Dayça nə qədər bərk qaçsa, arabanı çəkən atdır.
- Daş daşı sürtsə, arada olan darı əzilər.
- Daş dəmirə neylər? İkisi də güclüdür. (Mənim ondan qorxum yoxdur).
- Daş düşdüyü yerdə ağa olar.
- Dedi: – Atı hara bağlıyım? Dedi: – Bağla dilimə.
- Dedi: – Adın nədi? Dedi: – Daşdəmir. Dedi: yumşanırsan, yumşanırsan (sən də yumşanırsan).
- Dedi: – Adın nədi? Dedi: – Rəşid. Dedi: – birin de, birin eşit.

- Dedi:– Ağılsız kimdi? Dedi: – o qabaxda gedən qatmalı.
- Dedi: – Özünü yorulmuş bilsən, yoldaşını ölmüş bil.
- Dedi: – Ölməz Xədicə, görər nəvə– nəticə.
- Dedi: – Bu çəmənlərdən hamısını mən otlamışam. Dedi: – Bə hanı yal quyruğ?
- Dedi: – Bir şahı verdik, dindirdik, bir abbası veririk, əl çəkmir.
- Dedi:-Xanım, yuxarını da gördük, aşağını da. (Bir gün bir yolçu (dilənçi) bir xanımdan pay istədi. Xanım balaxanada idi. Dedi, yuxarıdayam, yuxarıda olaydın, bir zad verərdim. Aşağıda olsaydım bir zad verərdim. Hər gün də yolçu gəlib pay istədi. Xanım da dedi ki, aşağıdayam, yuxarıda olsaydım bir zad verərdim. Dedi, xanım, "yuxarını da gördük, aşağını da).
- Dedi: – Şalvarımı satıram. Dedi: – Nisyə verirsən?
- Dedi: – Qardaşın necə adamdı? Dedi: – Yoldaş olmamışam.
- Dedi: – Yapışaram qulağından, bu dağların hamısını dolandıraram. Dedi: – Sən də mən ilən dolanacaqsan?
- Dedi: – Qızım, sənə deyəcəm, gəlinim sənə andırıram.
- Dedi: – Nuri evdə? Dedi: – Qızı da evdə. Dedi: – Bəs denə Nurəli ələnnur da.
- Dədə evin yıxmışıq, görməyin dərdindən.
- Dədəm mənə kor deyib, hər gələni vur deyib (yetənə yetir, yetmiyənə bir daş atır. Dədən soğan, nənən sarımsaq).
- Dədənin ölməyindən qorxmuram, qorxuram, Əzrail qapımızı tanıya.
- Dərd bir olsa, çəkməyə nə var?
- Dərd gələndə batman ilə gələr, çıxanda misqal ilə.
- Dərdsiz, qəmsiz adam su içməklə də kökələr.
- Dərziyə dedilər, köç, iynəsin taxdı börkünə, dedi, buyurun.

- Dərzinin iynəsi itməsə, gündə yüz dəst paltar tikər.
- Dərinin güzarı dabbağxanaya düşər.
- Dəvə yaxını otlar, uzağı gözlər.
- Dəvə gördün, qığını görmədim.
- Dəvə nə qədər uzaq olsa, dərisi bir sarvana yükdür.
- Dəvəçi ilə dost olanın dərvazası gen gərək.
- Dəvəcə boyun olunca, düyməcə ağlın olsun.
- Dəvədən böyük fil var.
- Dəvəyə dedilər, boynun əyridi, dedi, haram düzdü?
- Dəvəsinə köşşə demişik.
- Dövlətlinin iti yatmaz, kasıbın ......
- Dəvənin də oynamağına az qalır.
- Dəvənin dizini bağla, sonra sığın Tanrıya.
- Dil (yağlar) doğrusun deyər.
- Diri dirilik istər.
- Dirilik birilikdədi.
- Diriyə hay verən ol, ölüyə pay verən.
- Divarın bu üzünü yıx, o üzündə pərdə qoy.
- Doğru danışanın bir ayağı üzəngidə olar.
- Dolanan ayağa daş dəyər.
- Dost məni ansın, bir quru “hal” ilə.
- Dost məni ansın, bir qoz ilə. Onun da içi puç olsun.
- Dovşana deyirlər, qaç, tazıya deyirlər, tut.
- Dövlət (hökumət) ilə dövlətlilik eləmək olmaz.
- Dövlət dovşanı araba ilə tutar.
- Dövlətliyə saxsı lazım olanda, kasıb kuzəsin sındırar.
- Dövlətdi yağı yağ üstə qoyar, kasıb da yarmanı artıra bilməz.
- Döymə dəmir qapını, döyər taxta qapını.
- Döyən-söyən ərin yox, yel aparan telin yox.

- Duz– çörək adamı tez tutar.
- Duzu yeyib duzdanı sındırma (sındırmazlar).
- Dünya beş gündü, o da xoş gündə.
- Dünya malı dünyada qalar.
- Dünyanın əyər– dönəri çoxdu.
- Dünyanı hər nə cür tutsan o cür keçər.
- Düşünən bir gülər, düşünməyən iki.

**E**

- El ağzına baxan, qadının tez boşar.
- El ağzına “ələk” tutulmaz.
- El ağzında bir söz əkən, yüzün dərər.
- El alır qız, "quda" qazanır, mən aldım qız, "qada" qazandım.
- El atı tez yorular.
- El baxır, aləm baxır, sənə də baxır, mənə də baxır.
- El çalışar, yer sevinər. Yer barlanar, el sevinər.
- El çarasız olmaz, mərd yarasız olmaz. (el çarasız, mərd yarasız olmaz).
- El düşmanına gordan yeğrək dusdax yoxdu. (yeğrək: yaxşı).
- El elə sığar, ev evə sığmaz.
- El eybin sənə deyə, sənin eybin elə deyər.
- El ərə sığınar, ər də elə. (sığınar: ümidi var)
- El gözünü dil açar.
- El hakimin əlinə, hakim elin cibinə baxar.
- El qaldı, törü qalmaz: topraq gedər, xuy gedməz.
- El qapısı gec açılar, güc açılar.
- El qazanı ilə aşın qaynamaz.
- El qonmadan, it susmaz. (el qonmasa, it susmaz).
- El qulağı su tutmaz.

- El oğlu yumurtaya qulp qoyar.
- El yaxşı, biz yaman. El buğda, biz saman.
- Elçi çox olar, qismət bir.
- Elçisi gülüm olanın başına külüm olar.
- Elçidən söz alarlar, düşmandan göz.
- Eldən gəlsə məlamət, qalanmazsan səlamət.
- Eldən qalan dil olsun, seldən qalan iz olsun, oddan qalan kül olsun.
- Elə elə ki, bir də qapıya ərik satan gəlsin.
- Elin gücü, selin gücü.
- Elin ağzı torba deyil ki, büzəsən.
- Elinə ağlayan qalmır, elindən yazan qalır.
- Elindən ısrıq, özündən üzrük, savından dönrük. (Eldən qovulmuş, sevikdən (eşqdən) üzülmüş, əhdindən dönmüş).
- Ellər köçər, dağlar qalar.
- Erkəksən də doğ, dişisən də doğ.
- Erməni deyər, müsəlmanın sonrakı ağlı məndə olaydı. (Bir iş görüb, sonra ondan yaxşı yolların olduğunu da başa düşəndə deyərlər).
- Eşşək nə bilir, döşək nədir?
- Eşşək eşşəkliyi ilə bir yerdə palçıxa batsa, daha (öldürərsən də) ordan keçməz. (İnsan bu təcrübələrdən istifadə etməlidir. Bir səhəvi ikinci dəfə təkrar etməməlidir).
- Eşşəkdən düşdük piyada olduq. (Abrımız getdi, üzü qara olduq).
- Eşşəyi qoyub palanını tapdıyır.
- Eşşəyi minərlər, halvanı yeyərlər, dövranı sürərlər.
- Eşşəyin arpası artıq düşəndə anqırar.

## Ə

- Əkin olsa, əkmək olar.
- Əkinçi yerdən umar, balıqçı göldən umar.
- Əklənən bəklənir, özlənən gözlənir, sərilən dərilir.
- Əkməmiş bitməz, dəlməmiş keçməz.
- Əl ağzı, çuval ağzı, yel ağzı.
- Əl çatmayan aş, ya qarın ağrıdar, ya baş.
- Əl çatmayan buğdadan, əlindəki saman yey.
- Əl dediyin kimindir, dil dediyin elindi.
- Əl ələ su qoyuşar, əllə üz yuvuşar.
- Əl əli yumadı, əl üzü yumadı, qolu əlsiz qaldı, əli qolsuz qaldı, suyu üzsüz qaldı, üzü susuz qaldı, yaşı külsüz qaldı, külü odsuz qaldı.
- Əl əlin örtüyüdü.
- Əl əl ilə, dəgirman yel ilə.
- Əl əli yuyar, əl də dönər üzü yuyar (nəzər: tək əldən səs çıxmaz., əthad ilə iş qabağa gedər).
- Əl iş görər, göz qorxar.
- Əl tutanın əli qopar, od tutanın əli yanar.
- Əl tutacağına od tut.
- Əl ver deyiblər, əl vermə ki deməyiblər.(Nisyə aparıb vermiənlərə deyərlər).
- Əldə veş barmağın beşi də bir boyda deyil.
- Əldən gedənə yanma.
- Əldən gəlməz iş olmaz, ayaq gedməz yol olmaz.
- Əldən tutulan qutulur, dildən tutulan dürtülür.
- Ələdik, ələdik kəpəyinə çatdıq. (Gördüyümüz işlərin nəticəsi heç oldu. Əvvəlki vəziyyətə qayıtdıq).
- Ələ salmaqdansa öz əlivi özün üçün işə tut.
- Ələkçinin qıl vərəni yanında olar.

- Əli bağlı olanı yetən döyər, yetməyən söyər.
- Əli əyrinin dili düz olmaz.
- Əli işdə, gözü dərvişdə.
- Əlifin hicəsı var, gündüzün gecəsi var.
- Əlin verər, ayaqın izlər.
- Əlinlə xəmir ovar, gözü ilə dənə qovar.
- Əlivi vuranda dizivə, onda gələrsən özüvə.
- Əllə ver, ayaqla izlə.
- Əlli, əlli üstündən, bir əlli də onun üstündən (su torpağa çıxmasın, çıxdı, qoy başdan aşsın).
- Əmir bazarı od tutsun, mənə bir dəsmal çıxsın (əmir bazarı Təbrizin ən məşhur bazarıdı).
- Ərsiz arvat, yüvənsiz at.
- Ərbabın malı çıxar, nökərin canı.
- Ərik, qurut bərabər.
- Ət yeyən quş dimdiyindən bəlli olar.
- Ət almaz, köftənin yekəsini istər.
- Əyri yük mənzilə çatmaz.
- Əyri yolu düz gedmək olmaz.

**F**

- Fağırdan zalım olmaz.
- Fələyin bir çuval qızılı var, gündə birinin dalına çatar.
- Fətirini yeyəsi namazını da qılar.
- Filin bir fikri var, filminin min fikri.
- Füzul olmasa dünya gülüstana dönər.
- Füzuli apardılar cəhənnəmə, dedi, odunlar yaşdı.

**G**

- Gah yiyəsi yəhərin belində, gah da yəhər yiyəsinin belində.
- Gecənin ərizəsini Həzrət Süleyman oxuyar.

- Getdin gördün bir yerdə hamı kordur, sən də bir gözünü yum.
- Gələn qovulmaz, olan boğulmaz.
- Gələndən bir razı, gəlməyəndən min razı.
- Görməmiş görəndə günüz də çıraq yandırar.
- Güvənmə tac-təxtinə, şahdan gədası yaxşıdır.
- Gözlə, çəkilmə o yana, cücələrin dağılar.
- Gözəllərin bəxt aynası kasad olar.
- Gül solanda öz dibinə tökülər.
- Gülmə, gülünc olana, pilovu linç olana. – Sən eləsinə gül, qulağı dinc olana.

**H**

- Hacıda pulun olsun, nə verər, nə danar.
- Haqq başı ağır olar.
- Haqq söz acı olar.
- Haqq gəlsin, nahaq gəlməsin.
- Halva-halva deməklə ağız şirin olmaz.
- Hamı aylarda xətər olar, səfər ayının adı çıxıbdır.
- Hamam suyu ilə dost tutmaq.
- Hamama girən tərləməmiş çıxmaz.
- Harda qamış, orda camış.
- Haram pul muzvəriyə gedər.
- Hesab misqal ilən, bağış xərvar ilən.
- Heyf mənim pullarım, düşdü mənim qollarım.
- Hər eşşəyin bir bizi var.
- Hər quş öz yuvasının ağasıdır.
- Hər nəyin kalı yetişər, adamın kalı yetişməz.
- Hər axan suya Araz deməzlər.
- Həm zərli, həm zorlu.

- Hər kəs öz gözün kor istəməz.
- Hər zad dadıyla, dad da duzuyla.
- Həram mal şirin olar.

**X**

- Xala (xara) dönum xarıldar, bağırsaqlarım qırıldar.
- Xaliqin verdiyi nemətdir, insanın verdiyi minnət.
- Xalqın ağzını bağlamaq olmaz.
- Xalqın ağlı gözündədi.
- Xanım sındıran qabın səsi çıxmaz.
- Xarab olmasa, abad olmaz, bulanmasa,durulmaz.
- Xeyir söyləməzə dedilər, xeyir söylə, dedi, gedəsən gəlməyəsən.
- Xeyir ilən şər yoldaşdı.
- Xədimliyi camışa versən, samanlığı özünə çıxar.
- Xəzəlləri külək qarışdırar, insanları kələk.
- Xırdaca-xırdaca daylaxlar, çuluna baxıb oynaxlar. (Yəni o, indi pullandığına görə poz (fors) verər).
- Xoruz yox idi, səhər açılmırdı. (Misal: O, elə bilir ki, o olmasa, daha bir iş görə bilmərik).
- Xoruz banı, səhər danı.

**İ**

- İgidin igiddən nəyi artıqdı? – Ehtiyatı.
- İgidin ağzını pıçaq açmaz. (Kişi üçün gülmək mandır).
- İki arvadlı kişi gecəni məsciddə yatar.
- İlan ulduz görməyincə, can verməz.
- İlan ağzından qurtardı, qurbağa ağzına düşdü.
- İlanı gördük, əqrəbə pənah apardıq.
- İlanı görənə də nəhlət (lənət), görüb öldürməyənə də nəhlət.

- İlanın yarpızdan acığı gələr, o da gəlib yuvasının ağzında bitər.
- İlxı iti qurda çönüb.
- İmansızın öhdəsindən Allahsız gələr.
- İp gəlib doğanaxdan keçər.
- İslanmışın sudan nə qorxusu?
- İşdən artmaz, dişdən artar.
- İşin bərk tut, qonşunu oğru eləmə.
- İşləməyən dişləməz.
- İt ilən pişik savaşdı, yolçunun (dilənçinin) Allahı verdi.
- İt itliyin tərgitsə, sümsünməyin tərgitməz.
- İt də bilir dağarcıqda nə var, çoban da.
- İt hürər, karvan keçər.
- İt tuladan mındar, tula da itdən mındardı.
- İt yatar qayə (qaya) kölgəsində, deyər bə öz kölgəmdi.
- İt yanında sümük gəmirir.
- İt yanında bəy kimi, bəy yanında it kimi.
- İt nə görsün, nə hürsün.
- İt qursağı sarı yağ götürməz.
- İt də gətirər huluya (cəhrə) qoşar.
- İt ac qalanda əski küllükləri gəzər.
- İt ulaya-ulaya yuvasına qurd gətirər.
- İt it ilə savaşar, qurda gedəndə arxalaşar.
- İt it ilə boğuşanda bir ayağın dalıya qoyar.
- İt itin quyruğunu iyləməsə, gücün bilməz.
- İt çörəkdən, adam məhəbbətdən qaçmaz.
- İt dəmirçidən nə aparar?
- İt sallaqxanadan sümük apardı, ayağın kəsdi.
- İt qorxan yerə hürər.

- İt qulağın kəsəndən qorxar.
- İt ilə yoldaş ol, dəyənəyivi əldən vermə.
- İtə çörək verməsən, acından hürər.
- İtə hürmək qalar.
- İtə çörək atsan, itirməz.
- İtə çörəyi yiyəsinə xatir atarlar.
- İtə deyir, qov, ova deyir, qaç.
- İti öldürəninə sürütlədərlər.
- İti itə boğdurarlar.
- İtin də balası özünə şirin olar.
- İtin əti, donuzun dişi. İtin dişi,donuzun əti.
- İtin quyruğu nadanın saqqalından yaxşıdır.
- İtin axmağı küçükləri ilə oynar.
- İtin əti acı olar.
- İtin səfeyi tazı olar.
- İtin mirası qurdundu.
- İtin yal yeməsi adamı yandırmaz, quyruğunu şax tutması yandırar.
- İtin quyruğunu ayaxlamasan, dönüb adamı qapmaz.

**K**

- Kasıbın bir atı olar, o da ayqır.
- Kasıbın sacı qızanda kündəsi qurtarar.
- Keçəl olmayasan, keçəllər şansında olasan.
- Keçəl baxar güzgüyə, adın qoyar özgüyə.
- Keçəlin əli yağlı olsa, çəkər öz başına.
- Keçdi bahar ömrümüz it kürədən keçən kimi.
- Keçi g....... çaxır töksən, qurdun pişvazına gedər.
- Keçi can hayında, qəssab piy axtarır.

- Keçi qurbanlıq olmasa da, bahası var.
- Keçi harda, biz harda?
- Keçi sürünün qabağında gələr, deyərlər qoyun gəlir.
- Keçini keçi ayağından, qoyunu qoyun ayağından asarlar.
- Keçinin qoturu bulağın gözündən su içər.
- Keçinin buynuzu gicişəndə, buynuzun çobanın ağacına sürtər.

Keçinin gici sürünün qabağında gedər.

- Keçiyə şərab versən, qurda həmlə edər.
- Kələyinən gələn küləyinən gedər.
- Kəndə gələn qonağı, öncə it qarşılar.
- Kəndin böyüyündən, şəhərin kiçiyindən qaç.
- “Kiş” deyirsən, getmir, vurursan, qıçı sınır.
- Kişi seldir, arvad göldür.
- Kişi qocaldı, evə nökər nə gərək, arvad qocaldı, evə külfət nə gərək?
- Kişidən arvad çıxar, arvaddan kişi çıkmaz.
- Kor su başının qarpızı yekə– yekə olar.
- Kotan bilir, öküz nə çəkir.
- Köhlən at yeriyəndə toz qopar.
- Köpəksiz sürüyə qurd dadanar.
- Köpəyin iyə düşəni tuladan bərk qaçar.
- Köpəyin qarnı tox olursa, gecə ulduzlara hürər.
- Köpək qocalanda qurda gülən olar.
- Köpəkoğlunun inəyi, mən sənin naxırdan qaçmanı deyim, yoxsa axura s...?
- Köhnə süpürgəni dama atarlar.

**Q**

- Qaçağa yer də dardı, göy də.
- Qadın alsan bir bəla, ondan doğar min bəla.
- Qan qandan olmasa, əti şirin gəlməz.
- Qapı həmişə bir tay üstə dolanmaz.
- Qarın kini, qardaş kini.
- Qarğa istədi qaz yerişi gedə, öz yerişini də yadından çıxartdı.
- Qarğa qarıldasa, qar gələr.
- Qarğa qarı təqlid etdi, qarıltısını da itirdi.
- Qarğa ilə dost olanın, dimdiyi p..... olar.
- Qarğa döşünü çəkməklə qar olmaz.
- Qarğa xəbərçi olar.
- Qarğa deyir: qar, qar; qəcələ deyir: zəhrimar; sərçə deyir: sənə nə var?
- Qarğa balasını oxşar:– "ağappaq" balam.
- Qarğa bir qozdan küsdü, qaldı kisəsində.
- Qarğanın mininə bir daş.
- Qarda gəz, izini bəlli etmə.
- Qart köpəy yedəyə gəlməz.
- Qaşsız üzüyü barmağa salmazlar.
- Qatırı ölənə çox söz deyirlər.
- Qatır alan sovuşdu.
- Qatırdan soruşdular: – Dədən kimdi? Dedi: – Nənəm atdır.
- Qatır şıllaq atar, elə bilər ki, dədəsi eşşəkdir.
- Qavın pişsə , sapında durmaz.
- Qazan dedi, içim qızıldı, çömçə dedi, bulanıb çıxmışam.
- Qazan oddan, insan hərəkətdən qızar.
- Qazma götür, kök axtar, qazan götür, süz axtar.
- Qəcir demişdir: dalım keçəl olmasaydı dünyanı cıynağımda götürərdim.

- Qənaət dövlətlə yarıdır.
- Qərib itin quyruğu paçası arasında olar.
- Qılınc qurşananın, at minənin, körpü keçənindir.
- Qışda ocaq başı, yayda dağ başı.
- Qışda çörəksiz, yayda köynəksiz yola çıxmazlar.
- Qışın gözü yaşlıdı.
- Qışqıraqla camış zəmidən çıxmaz.
- Qız alan alana kimin, qız verən ölənə kimin.
- Qıza dedilər, harda qışladın? Dedi:–yoxsulların canında.
- Qızım, sənə xana verim, üstündə bir dana verim.
- Qızımı ərə verdim – dalımdan bir dağ endi.
- Qızıl arvadın, qılınc kişinin.
- Qızıl açanı qılınc açmaz.
- Qızıl inək qaraqabaq gəlinə süd verməz.
- Qoca tülkü hoqqabaz olar.
- Qoç igid dayısına çəkər.
- Qoç, quzu qurbanlıq üçündür.
- Qoça buynuzu ağırlıq eləməz.
- Qoça quyruğu yük olmaz.
- Qocanı da çay aparanda "ana" deyib çağırar.
- Qoduqlu eşşək dağda qalmaz.
- Qoduqlu eşşək anqırmaz.
- Qonağı xoruz olanın anbarında dən qalmaz.
- Qonağı çox olanın uşağı ac olar.
- Qonşu qonşuya baxar, canını oda yaxar.
- Qonşu– axirət yoldaşı.
- Qorxma o gündən ki, şah qapısın kürd ala, qorx o gündən ki, şah özü də kürd ola.
- Qovurqanın yananı çırtlar.

- Qoyun quzu ayağı basmaz.
- Qoyun olmayan yerdə, keçiyə Əbdülkərim deyərlər.
- Qoyunu olmuyanın pıçağı iti olar.
- Qoyunun quzuya ziyanı yoxdur.
- Qoyunun mələdiyini quzu mələməz.
- Qulağlı qoyun bir yol ülkər, kərə (qulaqsız) qoyun iki yol.
- Qurd ilə qiyamətə qalmaq.
- Qurd qocalanda dişin çəkdirər.
- Qurd tükün dəyişir, huyun dəyişməz.
- Qurd dumanlıq sevər.
- Qurd qurda ağız çevirməz.
- Qurd görmək mübarək, görməmək daha mübarək.
- Qurd yuvası sümüksüz olmaz.
- Qurd az idi adada, biri də gəmi ilə gəldi.
- Qurd acgöz olar.
- Qurd balası qurd olar.
- Qurd acından yeriyə bilməz, deyərlər: – O qədər yeyib ki, özünü çəkə bilmir.
- Qurd keçiyə dəyməzsə, keçi Məkkəyə gedər.
- Qurd qonşusun yeməz.
- Qurd oğurladığının dərisini verər.
- Qurd tövləyə girəndən sonra it bacadan ha hürsün.
- Qurda dedilər: – Gəl səni çoban edək. Ağladı: – Qurd əti qurda haramdır.
- Qurda sən tikmək öyrət, yırtmaq dədəsinin peşəsidir.
- Qurddan soruşdular: – Nə vaxt yaylağa çıxacaqsan? Dedi: – Bizimki il iləndir.
- Qurddan qorxan qoyun saxlamaz.
- Qurdun üzü ağ olsa, avadanlığa gündüz gələr.

- Quru palçıq divara yapışmaz.
- Qudurmuş köpəyin ömrü 40 gün olar.
- Quzu çoban üçün yox, çoban quzu üçündür.
- Quzusuna qıymayan, kabab yeməz.
- Quzunun təqsiri, qurdun acmasıdı.

**M**

- Mal mal yanında bilinər.
- Mama dalısınca gedənin uşağının qırxı çıxar.
- Mama gətirəni başgir aparar.
- Meydana girən köpək kötəkdən qorxmaz.
- Məscidin qapısı açıqdı, itin həyasına nə gəlib?
- Milçək qana yığışar.
- Min acısını bir şirindən ötrü unutmalısan.
- Mis ya sınmış, ya cingildəmiş.
- Mırtlının başı yarımdır.

**N**

- Nəcibliyi atdan, vəfadarlığı itdən öyrən.
- Nə silləyə gəlir, nə gülləyə.
- Nəzir aşın içərlər, nəzir yoncanı biçərlər.
- Nisyə yeyən iki dəfə tərlər.
- Nöyütdən halva olar, dadı olmaz.

**O**

- Oba köpəksiz olmaz.
- Od ilə su bir yerdə qalmaz.
- Oğlan bəyənən qucaxda oturar, nənə bəyənən bucaxda.
- Oğlan evində xəbər yoxdu, qız evində vur-çatlasındır (toydur).

- Oğulun çövrün dədə çəkər.
- Oğlun oldu, qoy Nəzərəli, xeyri olmazsa nə zərəri.
- Oğru pişik özün gizlədər.
- Oğul oğul olsa, neylər dədə malın. Oğul oğul olmasa, yenə neylər dədə malın. (Yəni, övlad şüurlu olsa, dədə malı olmasa da özü pul qazanıb güzaran edər, dədə malına ehtiyacı olmaz. Şüurlu olmasa, dədə malını az müddətdə atıb-tutar və yoxsulluğa düşər).
- On oğul bir dədəni saxlaya bilməz, bir dədə on oğulu saxlaya bilər.
- Oruc tutma, namaz qılma, işin belə rast gəlsin? (Gözlənilməz bir müvəfəqqiyyət ələ gələndə, yaxud asanlıqla başa gələn işdə deyilər).
- Olacağa çarə yoxdu. (İnsanların taleləri alınlarına yazılıb, onu pozmaq olmaz).
- Oyuna düşənin başı da oynar, "yanı" da. (Bir işə girən hər zəhmətinə qatlanmalıdır).

**Ö**

- Öküz özünə cüt əkəndə, başı ağrıyar.
- Öküz oldu, ortaq ayrıldı.
- Öküz ölər, qanı qalar, igid ölər ünü (şöhrət) qalar.
- Öküz ölməyincə inəyə qiymət olmaz.
- Öküz olacaq dana p...... bilinir.
- Öküz dəmə çəkir, camış suluya.
- Öküzü olmayana gön borc verməzlər.
- Öküzü ölənə yol göstərən çox olar.
- Öküzü yorulana çox söz deyərlər.
- Öküzün qaşqasın döyərlər.
- Ölçməmiş biçmə.

- Ölənlər deyərlər, bə dirilər halva yeyərlər.
- Ölü aslanın saqqalını yolarlar.
- Ölü inək sütlü olar.
- Ölü qoyun südlü olar.
- Ölmək ölməkdi, nə xırıldamaq.
- Ölmək var, dönmək yoxdur.
- Ölməz Xədicə, görər nəvə-nəticə.
- Ölmüş aslandan diri köpək yaxşıdır.
- Ölmüş ata yük çatmazlar.
- Ölmüş dəvənin dərisi bir eşşəyə yükdür.
- Ölsün o yaman ki, yerinə yaxşı gələ.
- Ördək ətin, qaz ətin yeyən bilər ləzzətin.
- Ördək gəlib qaz olmaz, gəlin gəlib qız olmaz.
- Ördəyi bağlamağa ipək gərək, yar ilə oynamağa ürək gərək.
- Öz evlərinin aslanıdır, özgə evinin tülküsü.
- Öz evimin xoşluğu, əl-ayağımın boşluğu.
- Özün yat, baxtın (şansın) işləsin.
- Özün yürülmüş beləsən, yoldaşın ölmüş biləsən.

**P**

- Paxıl dolu çanağı, boş çanağa vurar.
- Paxıl nə özü yiyər, özünki ölüb qalar, olar itinki.
- Palaza bürün, el ilə sürün. (El ilə ol, eldən və onun rəsm və rəsumundan ayrılma).
- Peşkəş atın dişini saymazlar.
- Pələngə ət yeməyi, keçiyə ot yeməyi öyrətməzlər.
- Pəyədə yatıb, balaxana yuxusu görür.
- Pis toyuq cins yumurtalar, özü də iki sarılı.
- Pis zad yorğan altında olar.

- Pis at ümüt pozar, pis arvad qonaq qovar.
- Pisliyin qabağı pislikdi.
- Pişik asqırdı, səbir gəldi.
- Pişik pişiyi navdan üstə tutar.
- Pişiyin ağzı ətə yetişməz, deyər: – murdardır.
- Pişik arxasını yerə verməz.
- Pişik ölüb, siçanların bayramıdır.
- Pişik evdən çıxarkən siçanlar baş qaldırar.
- Pişiyə elçi nə gərək.
- Pişiyə dedilər: – P...... dərmandı, s..... üstün torpaqladı.
- Pişiyi elə vur, qayıdıb üzünü cırmasın.
- Pişiyin balası anasının döşündə gizlənər.
- Pişiyin qanadı olsaydı, yer üzündə sərçədən nişan qalmazdı.
- Pişiyin gözü siçan deşiyində olar.
- Piy ilə plov olmaz, yağ ilə düyü gərək. (Hər işə vəsilə lazımdır. Boş söz ilə iş olmaz).
- Piyada gedəndən at almağı öyrənmə.
- Pıçaq öz dəstəsini (sapını) kəsməz. (Nəzər: qəmə (öz) qınını kəsməz).
- Pul pulu qazanar, axmaq bel təpər.
- Pulu daş üstə qoysan, daşı əridər. (Pul ilə hər iş görünər, hər düyünü açmaq olar).

**S**

- Sadiq ilə qara daşdan murad almaq olar.
- Saxla samanı, gələr zamanı.
- Saqqaldan götürüb bığa yaxır.
- Saqqalım yoxdu, sözüm keçmir.
- Saqqalı ağarıb, ağlı ağarmayıb. (Nəzər: papağının altı boşdu).

- Saqqızı alarlar çeynəməkdən ötür. (Nəzər: aşığı yığarlar oynamaqdan ötür).
- Samanlığı dana-buzov yeyər.
- Sarala-sarala qalmaqdan qızara-qızara ölmək yaxşıdı.
- Səhər gedər naxıra, axşam gələr axıra.
- Səkkiz mıxa doqquz at bağlamazlar.
- Sən çıxan ağacları mən budaq-budaq gəzmişəm.
- Sən tülkü olsan, mən sənin quyruğunam.
- Sən saydığın qoy dursun, gör bir fələk nə sayar. (Dünyanın əyər-döndəri çoxdu).
- Səni qaldıran süpürgədi, endirən də dəstəsi.
- Səndən hərəkət, məndən bərəkət.
- Söymə yolçu (dilənmi) atamı, söyməyim xan atanı.
- Söz yerdə qalmaz. Bir gün söz sahibinin qulağına çatar.
- Sözü at yerə, sahabı götürər.
- Sözü gərək ağızda pişirib çıxardasan.
- Sözü kim deyər, eybəcər, soğanı kim yeyər, dərdəcər.
- Sözün düzünü uşaxdan soruş, uşaq deyər.
- Su aydınlıqdı.
- Su vermədi, süt ver.
- Su bir yerdə qalsa qoxar. (Adam bir yerdə çox qalsa, ehtiramdan düşər).
- Su səyəngi suda sınar. (Adam xətərli və oğurluq işində olsa bir gün o yolda da bada gedər).
- Su görəndə susuyur, at görəndə axsıyır.
- Su gəldi, çörəyi apardi.
- Su gələndə öz yolun tapar.
- Su topuğa çıxmasın, çıxdı qoy başdan aşsın.
- Susamış it quyuya baxar.

- Susmaq, tanımaq deməkdir.
- Susuz ağac bar verməz.
- Suyu çox olana qamış qoyan çox olar.
- Suyu gətirən də bir, küzəni qıran da bir.
- Suyun çağlamayanı, yalqunun söyləməyəni.
- Suyun dənizdən içən bulağ tanımaz.
- Suyun imanın odda gör.
- Suyun qaymağı buz, şorun qaymağı duz (qaymaq: bərkimək).
- Suyuna gömül, üzündə gül.
- Suyunan odun arası inamdır (imandır).
- Süd verən inəyi kəsməzlər.
- Süd ilə gələn sümüklə çıxar.
- Südlü qoyun sürüdən ayrılmaz.
- Sümüyün iliyi, kişinin biliyi.
- Sür get deməmişlər, gör keç demişlər.
- Süpürgənin qiyməti az olsa da, evin asdanasın kəsər.
- Sürüdən ayır, toruva çağır.
- Sürüdən ayrılan qoyunu qurd yeyər.
- Sürünüb qalmaqdansa, diz üsdə yaşamaqdansa, ayaq üsdə ölmək yegdir.
- Sürüyə qurd düşəndə vay bir keçilinin gününə.
- Sürüyə qurd gələndə, köpəyi yuxu tutar.
- Sütün qədrin qısır əmən dana bilər (Qısır əmən dana-iki yaşlı buzov).
- Sütdən ağzı yanan, yoqurtu püflüyərək içər.

## Ş

- Şaftalı gəlməmiş, tabağı gəldi.
- Şahın başı vəzirdi, vəzirin əli şah.

- Şahın da qaraçıya işi düşər.
- Şahin qıynaqsız olmaz.
- Şalqamı dadmasan da barı tarlasından keç.
- Şarabı içməyin yaxcıdı, içip keflənməyin ondan yaxcı.
- Şeh keçirməz, səs ötürməz.
- Şeytan ilə buğda əkən, samanın alır.
- Şeytan şəhli olar, xayin xoflu.
- Şeytandan ölü də vaz keçibdi. (Ölünün dalısıca qiybət etmək yaxşı deyil).
- Şeytanın yoldaşlığı dar ağacınacandır.
- Şeytanla ortaq olan buğda əkər, saman biçər.
- Şeytanla qabax əkənin qabax başında patlar.
- Şəkk edib inanc gətirənə, dost de, inanıb şəkk edənə, yox de.
- Şəri-şeytandan, kələyi arvaddan, quru böhtandan, bəylərin qəzəbindən özüvü qoru.
- Şərrin azı da çoxdur.
- Şirin dilin olsun, ətin, yağın özüvün.
- Şirin dilin olsun, qoruyan sözün olsun.
- Şirin dişə dosdu, acı qarına.
- Şirin yalandansa, acı gerçək yey.
- Şuxluq ilə bazar olmaz.
- Şunqarla dəvə ovlanmaz.
- Şüşəni almazla kəsərlər.

**T**

- Tabutun özgə çiynində görməyən, ölümünə inanmaz.
- Taxıl atda (altında) siçan ölməz, sümük atda it.
- Taxıl kəpəksiz olmaz.
- Tamahkarlıq baş yarar.
- Tamqan tamcı, dam dələr.

- Tamu qapısın açar tavar. (Para tamı (cəhənnəm) qapısınada güc gələr).
- Tamunu (cəhənnəmi) qızdır, uçmağı(cənnəti) bəzə.
- Tanışlıq qanun deyil, qanun kimi zorludur.
- Tanışmayan iki köpəh, qurdu görcək tanışır.
- Tanqısız (insafsız) türk olmaz, başsız börk olmaz.
- Tanrı ağacı kişidi, onu ulatmaq onun işidir.
- Tanrı bilir, bəndə görür.
- Tanrı kora necə baxsa, kor da ona elə baxar.
- Tanrı verim deyərsə, yalavaca (peyğəmbərə) nə söz qalır?
- Tanrı dərdi çəkənə verər.
- Tanrıdan artıq görmə (güdmə), oğul.
- Tanrıdan qorxmur, kişidən utanar.
- Tanrım ki, qurtuldum üzündən, qulağım dinc olmuşdur sözündən.
- Tanrıya inan, darıya güvən.
- Tapdı tapdının olsa, çöldə çoban xan olar.
- Tapılan dilək, tikilən dirək; biri çatılır, bir yapılır.
- Tapta dəmiri tanı, qaçdır atıvı tanı.
- Tarlada izin, süfrədə üzün olsun.
- Tarlayı düz al, qarını qız al.
- Tat ilə iti vurduqca tanışrağ olur.
- Tat olsun, türk olsun, söz gərək onqat (doğru) olsun.
- Tatı dadızdır, türkü qarışdır.
- Tatı gözündən vur, tikanı kökündən.
- Tayğan yügürgəni tülkü sevməz. (İti qaçan tazını tülkü sevməz).
- Taza görən daylaqlar, çuluna baxar oynaqlar.
- Tazı kinin durnadan alar, bit kinin taxtadan alar.

- Tazının topal olduğu dovşanın qulağına yetişib.
- Tazının əyəsi var isə, dovşanın tarısı var.
- Tazının heyzliyindən dovşan samanlıqda balalar.
- Tazıya deyir tut, dovşana deyir qaç.
- Tək əlin (əldən) səsi çıxmaz.
- Tək öküzün cütün, tək keçinin sütün, tək oğulun gücün sorma. (Tək öküzün cütünə, tək keçinin südünə, tək oğulun gücünə ümid olma).
- Tələsən adam işi iki dəfə görər.
- Tələsən təndirə düşər.
- Tənbəl eşşəkdi, bizləməsən yeriməz. (Tənbəl adamlara deyirlər).
- Tənbəl fikirli olar.
- Tənbəllikdən eşşəyə dayı deyir.
- Təzə gəldi bazardan, köhnə düşdü nazardan.
- Toyuğuva “kiş” demişəm, ya pişiyivə “piş”?
- Toyuq yatar, yuxusunda darı görər.
- Toyuq tapana bir yumurta verərlər.
- Toyuq istədi qaz yerişi yerisin, vurdular qıçı sındı.
- Tökülən dolu gəlməz. (Bir nəfərin malını oğru vurmuş olsa, tapılsa da hamısı gəlib əlinə çatmaz. İtən şey tapılanda salamat və kamal halda ələ çatmaz).
- Tulanın quyruğunu kəsməklə köpək olmaz.
- Tülkü tülküyə buyurur, tülkü də quyruğuna.
- Tülkü var baş qoparar, qurdun adı bədnamdır.
- Tülkü suvaqlı bağa girməz.
- Tülkü yeyəni aslan qusduranmayıb.
- Tülkü çox bilməyindən tələyə düşər.
- Tülkünün iki qapısı olar, birindən qovarsan, o birisindən əkilər.

- Tülkünün şahidi quyruğudur.

**U**

- Ucalar məgər yıxıla, alçalar dola.
- Ucuzdan bahası olmaz. (Nəzəri: lüləhini verə-verə aftafanın pulu çıxdı).
- Ulular sözünə baxmayan uluya-uluya qalar.
- Uşağ ilə uşağlıq eləmək olmaz.
- Uşaq soyuna (dədəyə) çəkər.
- Uşaq baş ağac kimidi, hər yana əysən o yana əyilər.
- Utan utanmazdan, qorx qorxmazdan.
- Utananın oğlu olmaz.
- Utanmasan oynamağa nə var?
- Uzaxdan baxana döyüş hasat (asan) gələr.

**Y**

- Ya dəvə ölər, ya dəvəçi, ya da üstündəki hacı.
- Yaxçı evlad neynər dədə malını, yaman evlad neynər dədə malını.
- Yağın yaxci yağdi, heyif ki, it dərisindədi.
- Yağışdan qurtulub, damcıya düşmək.
- Yağışla yer göyərər, alqışla ər öyünər.
- Yaxşı olacaq at ana qarnında bəllənər.
- Yaxşı at əyəsin, pis at özünü gözlər.
- Yaxşı at iyidi davadan qurtarar.
- Yaxşı at bir arvad olar.
- Yan mənə, kül olum sənə.
- Yaraqsız igid buynuzsuz qoç kimidir.
- Yaramaza yar olma.
- Yarımadıq odundan, kor olduq tüstüsündən.

- Yaslı ol, paslı olma.
- Yastuğa yastanmak, döşəyə döşənmək gərək.
- Yatan aslandan gəzəyən pişik yaxşıdır.
- Yatan öküzə yem yoxdur.
- Yatma tülkü daldasında, qoy yesin aslan səni.
- Yeməmisən qaz ətin, bilməyirsən ləzzətin.
- Yer bərk olanda öküz öküzdən görər.
- Yer bərk olanda, öküz öküzün boynuna atar.
- Yetimə "gəl-gəl" deyən çox olar, yiyə duran az.
- Yetimə "vay-vay" deyən çox olar, çörək verən olmaz.
- Yeyəndən aş, yeməyəndən də aş.
- Yol yeriməklə, borc verilməklə bitər.
- Yolçu sənə xanım dedi, sənin ağlına nə gəldi?
- Yuxarıya baxıb qəm eyləmə, aşağıya baxıb dəm eylə.
- Yuxulu-yapılı, hazır-amadə.
- Yumurta çalan toyuq da çalar.
- Yügürən atın dişinə baxmazlar.
- Yügürən at özünə qamçı yendirməz.
- Yüyrək at öz arpasın artırar.
- Yüz yol sel gəlsə dolmaz, bir gün qəm oyan yeri.
- Yüz tülkü, bir aslanın yeddi oğlu, bir dədənin yerin verməz.

**V**

- Vaxtsız banlayan xoruzun başını kəsərlər.
- Vaxtsız gələn qonağın xərci öz kisəsindən olar.
- Vardır pulun, hamı qulun, yoxdur pulun, açıqdır yolun.
- Varlı arabası dağdan aşar, yoxsul arabası yolda aşar.
- Varlının xoruzu da yumurtlar.
- Vədəsiz yarpaq yerə düşməz.

**Z**

- Zafranın sarılığın görəndən (xəsdədən) sor, dadını qoxlayandan.
- Zalımın çırağı sabahadək yanar.
- Zaman keçər, söz qalar.
- Zaman zamana uymaz.
- Zarafat dostluğu pozar.
- Zər ilə zor iş aparar.
- Zərər maldan olsun, başdan yox.
- Zərgər tükanın tozu da qızıldır.
- Zır-zır mollalıq deyil, aləm palanduzluqdu.
- Zinanın hər yerdə qabağını alsan mənfəətdi.
- Zirəm sənə su verəcəm – bu gün verəcəm, sabah verəcəm – özüm billəm haçan verəcəm.
- Zor – zoru, kor – koru görür.
- Zor olsa da başlaması, xoş olsun da qutulması.
- Zor qapıdan girincə, şəriət bacadan çıxar.
- Zorla it sürüyə gedməz.
- Zorilən bazar olmaz.
- Zurnaçının göz nəyinə gərəkdir?
- Zülm ilə abad olan, adil ilə viran olar.

## DEYİMLƏR

- Ac toyuqca ağlı yox.
- Acından bağırsaqları qırıldır.
- Acından qurut qapır.
- Acından köpük qusur.
- Acığından dişi dişini kəsir (Yəni, çox hirsli adamdır).
- Adamın Şimirdən əri olsun, imam Hüseynnən oğlu olmasın. (Oğlan nə qədər yaxşı da olsa, bir gün ailə qurub gedəcək, arvad– uşağını hamıdan üstün tutacaq, ama ər nanəcıb də olsa, insana qalıb, yaman gündə dadına çatar).
- Adı it dəftərində də yoxdur.
- Adımı dəyişdirərəm (Zahirən şərt edərək deyərlər ki, əgər filan hadisə üz versə, ya verməsə, mən adımı dəyişdirərəm).
- Ağlı pürsək (parsəng) aparır – ağılsızdır.
- Ağlı topuğundadır – ağlı yoxdur, zahirə aldanır.Yaxşı-pisi aydın edə bilmir.
- Ağzı acılıq salmaq – evdə dava salmaq.
- Ağız deyəni qulaq eşitmir – çox səs-küylüdür. Deyilən sözləri eşitmək olmur.
- Ağzı süd iyisi verir (Çox cavandır, təcrübəsi yoxdur).
- Ağzına qovut alıb (Bir məclisdə sakit oturub söhbətdə iştirak etmədikdə deyərlər).
- Ağızda it boğuşdurur.
- Axurunnan yemiyənlərdəndi.
- Aldım qoz, satdım qoz, mənə qalan şıqqaşıq (Bu müamilədə mənfəətim olmadı, təkcə mayası çıxdı və zəhməti mənə qaldı).
- Allah uşaqlarına ağıl versin (Özündən ki, sovuşubdu).
- Allah verən canı ondan almaq olmaz. (Çox xəsis və qırnıs adamdı).

Allaha çörək aparır (Yəni, qəddi çox ucadır (uzundur).

- Altdan, üstdən açılmaq – qidadan zəhərlənərək həm qusub, həm ishala düşən adam.
- Altı aylıx dünyaya gəlibsən ?
- Ana südü kimi halalın olsun (Məndən sənə gələn mənfəəti sənə bağışlayıram. Əsla incimirəm).
- Anam, bacım olsun. (Bir arvadın gözəlliyindən, yaxşılığından tərif edəndə özünün nəzər olduğunu göstərmək üçün deyərlər).
- Aralıq atı, kor Fatı.
- Arvad kimi heyüz görmək (Çox xəcalət çəkmək. Məsələn: filankəsə borcluyam, düzəldib verə bilmirəm. Onu görəndə arvad kimi heyzi görürəm).
- Arvada toy – kişiyə tor.
- At almamış axurun çəkir (çəkmə). (Ölçməmiş biçir).
- At ılxısı – köpək yığıncısı.
- Atı arıyanda (yorulanda) gör , igidi qarıyanda gör.
- Atıcı çalır, kürd oynayır (Acığı tutan bir də oynayır).
- Aşı aşıdın, qaşıqları hara qoydun? (Yoxdan yarımçılıq durub gic kimi olan uşağa, ya böyüyə deyərlər).
- Ayağı ağır.
- Az gəlləm, naz gəlləm.
- Babalı mənim boynuma (Sifariş etdiyim sözdə günah olsa, mən qəbul edərəm. Bu işi görmək sənin xeyrinədir).
- Babalın yuduq (Ona töhmət vurduq. Bu işi o görməmişdir).
- Baxcalar barı, heyvalar narı, hamı dinsə də, dinmə sən barı.
- Başı bədəninə ağırlıq eləyir.
- Başı daşa dəydi (daha...)( Gördüyü işin və getdiyi yolun səhv olduğunu bilib ibrət etdi).
- Başı havalıdır.

- Başı əlhəd daşına dəymək ( Peşman olmaq).
- Başın keşməz yerə burnuvu soxma.
- Başını pıçağa sürtmək – özünə ölüm, xalqa dərd-sər axtarır.
- Bazar içində it qulağı kəsməzlər.
- Bazarın gözünü çıxartdın (Bazara gedib münasib şey almayanda, ya baha alanda deyərlər).
- Bel ver, dəstə ver, "yüz altın" da üstə ver.
- Beşdə alacağı yox, üçdə verəcəyi (Xəyalsız adam).
- Bəxtivə daş atma – ələ gələn müqavimətin qədrini bil, əldən vermə.
- Bəlkəni əksən, şənbəllə görər (Haqqıda "bəlkə, bəlkə" çox deyəndə deyərlər.
- Bəlli deyil şirdəndir (aslan), ya şekarçıdan (ovçu). (Yəni kimin tərəfin saxladığı bəlli deyil).
- Bərəkətdir (daha) – yəni qurtarıb bir zad qalmamışdı.
- Bəy dedin, bəyənmədin.
- Bəy dediyin harda, bəyənmədiyin harda?
- Bəylik bəylik deyil, birlik bəylikdi.
- Buğdam demə, düyünü de, dünəni demə, bü günü de.
- Biləsinə filan sözü deyəndə elə bir əriyini əzirlər(Yəni, o kimsəyə o sözü deyəndə çox xoşlanır).
- Bir ağac qəbir (gor) dadır – qocalıb ömrü keçib.
- Bir ayağı gordadı (Yəni, qocalıbdır, hələ də dünyadan doymur).
- Bir batman darı töksən biri yerə tökülməz (Paltarları çox cırıq və yamaqlıdır).
- Bir bezin qırağıdırlar.
- Bir çustumdu, bir ..., hamsı da mənim dostum. (Nəzər beşdə alacağım yox, üçdə verəcəyim).
- Bir daşdı atırıq, ya tutar, ya tutmaz.
- Bir dəri, bir sümükdür – çox arıqdı.

- Bir dili var ki, ilanı yuvasından çıxardar.
- Bir əppək ye, birin də Allah yolunda ver (Get şükür elə, bu iş lap da sənin xeyrinədir).
- Bir gün ipəkdi, bir gün köpək.
- Bir iynə vur özünə, bir çuvaldız özgəyə (Hər işdə insaf və ədalət gözlənilməlidir).
- Bir əppək oldu, uçdu göyə (Bir şey itib hər nə qədər axtarandan sonra tapılmadıqda deyərlər).
- Bir ipəyə möhtacdır – çox yoxsuldur.
- Bir də məgər qulağın dalısın görəsən – daha indiyədək hər nə olubdur, daha təkrar olmayacaq.
- Bir şahıya güllə atır (Çox pulsuzdur).
- Bir misqal dilin qoyub, batman başı ilə cavab verir. (Bəziləri "bəli", "yox", "xeyr" demək əvəzinə başlarını tərpədərlər).
- Bir şahısı çıxınca, canı çıxar (Çox xəsis və qırnıs adamdı).
- Bir zad deyəndə körpü qalır suyun o tayında. (Tez inciyər və keçər. Haqq söz eşitməyə tahammülü yoxdur).
- Biri çörək olanda, biri gərək ...ola.
- Birinin aşına soyuq su qatmaq.
- Birinin qadını özgəsinə qız görünür.
- Biz də yerdən çıxmamışıq – yəni hər kəsin özünə görə əsli, nəsəbi və şəxsiyyəti var.
- Biz dədə-nənəmizə nə olduq, bunlar bizə nə ola.
- Biz ölmüşük, götürənimiz yoxdur.
- Bizdən demək, səndən eşitmək (Bizim nəsihətimizi qəbul etmirsən, amma bir gün zərərini çəkərsən).
- Bizə cücə basdırmaq düşməz (Bizim xətərli və örtülü işlər ilə işimiz yoxdur).
- Bizə gələn bizə bənzər (Nəzər: ağıllı bizi tapmaz, dəli qatmasın qırar gələr, bundan da bizə çırağ yanmaz).

- Bizi bir də əkib doğan yoxdur.
- Bizi dədə, nənə yerdən tapmayıbdı (Yalandan "sən öləsən" mayası qoyana xitabən deyərlər).
- Bizi görən gözü yoxdur (Bizə elə düşməndi, bizim paxıllığımızı edir).
- Bizim ağzımızın yemi deyil. (Çox bahadır, bizə münasib deyil).
- Bizim damımız hamıdan alçaqdı.
- Bizim düyünümüz bunun əli ilə açılan deyil.
- Bizim qapımızdan keçməz (Nəzər: bizim ağzımızın yemi deyil).
- Bizim tasımız (damdan) düşüb cingildəyib (Səsini aləm eşidib).
- Boğaz olmaq – dişi davar, ya malın hamilə olması.
- Boğazdan kəsmək – qənaət etmək.
- Börkün uca çay.
- Börkün çay çıltası otur üstündə (Bu iş baş alçaqlığı sayılır, bunu tənə üçün deyirlər).
- Bu bir bu arşın (Nəzər: dərd hazır və biz hazır).
- Bu cür övladı çay aşağı axıdım və çay yuxarı axtarım (Övladı çox şeytan və şuluğ adamdır, ərizəsiz bir uşaqdır).
- Bu daşları tök ətəyindən.
- Bu dünya quyruğu uzun dünyadır (Nəzər: dağ-dağa yetişməz, adam adama yetişər).
- Bu da eşşəyin minibdi ki, mən də Məməqandan gəlirəm ( Bu da özünü adamlara qatmaq istəyir).
- Bu gün kimi mənə aşkardı – yəqinim var, xatırcəmiəm.
- Bu zamanın adamı deyil (Çox sadə və düzgün adamdır).
- Bundan da bizə çırağ yanmaz (Buna da ümidvar olmaq olmaz).
- Bundan Fatıya tuman olmaz.
- Burda mənəm, Bağdadda kor xəlifə (Çox mütəkəbbir və özündən razı deyən adamdır).

- Canbəsər olmaq (Ölü can verəndə səs-küy salınsa can qayıdıb bir neçə dəqiqə artıq qalaraq zərər çəkib ölər).
- Canım boğazıma yığışıb (Daha zara gəlmişəm).
- Canım tutdum dişimə (Naçar qalıb hər zəhmətə hazır olaraq filan işi gördüm).
- Cibuva daş salım.
- Cinə börk tikir.
- Cin kimi – çox şeytan, cüvəllahı bir uşaq.
- Cinli olmaq – dəli olmaq.
- Ciyarım od tutub (püşlanıb) (çox susuzam, ürəyim yanır).
- Cuvanazən dəyil ki, iynəsinin başi şişip (fərastli və işüzü bilən qadın deyil, yırtıq– yamaq eləməz, tikiş tikməz).
- Çadramız kişilərin başına (Kişilər bir işdə tənbəllik göstə-rəndə qadınlar deyərlər).
- Çırtıq vursan, qanı çıxar.
- Çiçəyi çatdadı (Çox xoşhal oldu, sevindi).
- Çox şirin dilin var, bir salamda.
- Çörək ayaq tutup gedir.
- Çörək daş altdan çıxır (Pul çıxartmaq, yaşayış etmək çətin olubdur).
- Daban çəkmək (qurşanmaq) (Birinin qoltuğuna qarpız verə-rək davaya salmaq).
- Dağlardan qar bağışlayır.
- Damarlıdı – inadlı və ləcbazdı.
- Damarına düşüb.
- Daş qıyəya (qaya) neylər?
- Daş qıyəya (qaya) rast gəlib (Özündən də güclüsünə rast gəlib).
- Daş qızlar bağrına (Biri bir az narahatlıqdan şikayət edəndə deyərlər ki, bəlkə bizim yerimizə olasan).

- Daşdan yumşaq (Heç bir xörəyə irad tutmayaraq deyərlər ki, daşdan yumşaq hər nə oldu yeyərəm).
- Daşın atmaq – kimsənin tərkini qılmaq və rabitəni kəsmək.
- Daşla daş başlandı ( onda gəl ki qovqa başlandı).
- Demək olmur yerin əyridi, düz otur (Söz tez dəyər).
- Desən qızdırman var, ver mənə, deyər nöbətimdi, özüm qızdıracağam (Çox xəsis adamdı).
- Dədəsinin qanını istəyir – çox bahadır.
- Dəmirin gedib, ya kömürün?
- Dəvə buynuz çıxardanda – yalandan vədə verəndə, ya uşaqları alladanda deyərlər.
- Dəvəni çömçə ilə suvarır.
- Dəvə deyiləm ki, iki yerdən kəsilim.
- Dəvə qan gördü.
- Dəvəsi ölmüş ərəbə oxşayır.
- Dəvənin quyruğu yerə dəyəndə. ( İmkansızlıq).
- Dəyirmanın boğazına ölü salsan, diri çıxar.
- Dırnaqsızdı (çox). (Rəhmsiz və insafsız).
- Dibinə and içmək (Yeməli şeyi kimsə yeyib bir az dibində qoymuş olsa, deyərlər. Məsələn, bir zad qalmayıb, de dibinə and içərlər).
- Dindirəndən dil kirayəsi istər (Nəzər: görəndə göz kirayəsi istər).
- Dişi, dişini kəsər. (Yəni, çox hirslənibdi).
- Dişinin dibindən çıxanı demək. (Hər nə söyüş varsa, ağıza gətirmək).
- Doldurublar.... (Kimsənin əleyhinə çoxlu qeybət ilə doldurub düşmən etmək).
- Donquzu əsgikdi. (Çox dövlətlidir, ermənili məlunən dövlətli olanlar. Burda mənzur budur ki, bu da erməni kimi pulludur, fəqət qapısında donquz saxlamır).

- Dünyanın üzü qara olsun.
- Düşmanın baltasına sap olmaq.
- Düşük üzə, salıq üz.
- Düyüsünün başını dişliyən olmiyip (Çox qıtmırdır, süfrəsinin başında heç kım oturmayıb, xeyri kimsəyə dəyməyib).
- Düz yerdə yeriyə bilmir, sükunətdə şıllağ atır.
- Elə bil ki, bizi yerdən götürdülər (Yerdən götürmək– ölünü yerbəyer edərək qəbirdə qoylamaq. Yəni bizə çox minnət qoyur).
- Elə bil yerdən tapmışıq. (Çox ucuz istəyir, elə bilir ki, biz bunu tapmışıq).

Elə bil tin tutmuş adamdı (Gic, versəsiz adam haqqında söylənilir).

- Elə soyuqdur ki, iti vursan, eşiyə getməz.
- Elə söz deyir ki, bişmiş toyuğun gülməyi gəlir.
- Elə şuluqdur ki, it yiyəsini tanımır.
- Əl əldən ötgündü.
- Əli üzündə, qaldı hey!
- Əzrail ilə əlbəyaxa idim – bərk narahat idim.
- Əzrail ilə pasur oynayırdım (Naxoş idim).
- Əzrailə can verir ( Çox xəsisdir).
- Fitilin basmaq -şeytanlamaq.
- Gedəndə çörək götür, gələndə ayaq götür.
- Gej gəldi, tez evləndi.
- Gecə səhərədək bıçaq qayırmışıq (Yəni, soyuq idi yata bilməmişik).
- Gələndən bir razıyıq, gəlməyəndən iki (Bir nəfər dəvəti rədd edərək gəlməsə, cavabında deyərlər).
- Gopdan basma (Yalandan demə).

- Göbəyin falan yerdə kəsiblər (Bir adam bir yerə çox gedəndə deyərlər ki, rəvayətdir ki, uşaqların göbəkləri düşəndə hər yerdə qoylasan böyüyəndə də ora əlaqə tapar, hər vaxt fürsət tapsa, özünü oraya salar).
- Gölmək dığırlanıb duvağın tapıb.
- Gönü suya vermək (İşi xarablamaq).
- Gördün yemək, neynir demək.
- G...... zınqırovlu. (Cadugər).
- Göy – göy almaq. (Nəğdən almaq).
- Göz gözə yağı oldu.
- Gözlə uşaq salmıyasan (Bir qız, ya qadın bir yüngül şeyi gönülsüz olaraq xıqqana-zıqqana görəndə lağ ilə deyərlər).
- Gözlə göbəyin düşməsin, haa.... (Oğlanlar üçün deyərlər).
- Gözün su içməməsi. (Bir işin nəticə verməsinə ümidvar olmamaq).
- Gözübağlı quş kimi. (Nabələd və təcrübəsiz adama deyərlər).
- Gün hayandan çıxıbdır (Çox əcəbdir ki, buraya gəlmisiz).
- Gül gülü dindirər (Nağıllarda səfalı çəmənlik gülüstanları tərif edəndə deyərlər).
- Xala-xatirin qalmasın.
- Xam bez kimidir, nə ona gəlir, nə buna.
- Xan evinin darlığı, qara alaçımın genligi.
- Xaraba dəyirmanda yeddi il yatanlardandı.
- Xəbər ilə nübara bir zad qalmayıb (az qalıb).
- Xədrəcal (xərdcal) çıxıbdı.
- Xırman vədəsi vermək (Ölmə, eşşəyim, yonca bitincə).
- Xoruzlanma ...(Cavan uşaqlar kişilik edəndə deyərlər).
- Ha düz olsa , oraqcan əyrisi var.
- Haçadan, huçadan, biri də çıxdı bacadan.
- Harada aşdır, orada başdır.

- Həkim eşşək əti buyurub.
- İki göyüllü olmaq (Şəkk-şübhədə olmaq, təsnim tuta bilməmək).
- İki inəyi qabağına qatsan, birini itirər.
- İki siçan savaşsa, biri düşər quyuya (Bir evin, ya tükanın darlığından danışanda deyərlər).
- İki şeyi qabağına qatsan, birini itirər.
- İkisi də bir bezin qırağıdır.
- İkisi də batmandi, suları bir ərxə getmir (Yəni, ikisi də məğrurdur, bir– birləriylə yola getmirlər).
- İlxı iti qurda çönüb.
- İngilis qaşığı ilə Fransa p…yeyir.
- İsti aşa soyux su qatmazlar.
- İtdən utanmırsan, barı yiyəsindən utan.
- Keçi suyunu bulandırma!
- Kişi saman çöpü olsun, duvara yapışsın! (Yəni, Allah heç evi kişisiz eləməsin, hətta başaracaqsız və vecəgəlməz olsa da, yenə oldusu olmadısından yeydir).
- Köhnə saman axtarmaq.
- Qaşqabax eləmək. (Üz-göz turşutmaq, üz verməmək).
- Qara çalı kimi... (Aranı kəsən, görünən mətlub mənzərəni görməyə mane olan).
- Qara doğramaq.
- Qan eləməmişik ki... (Adam ki öldürməmişik, bir işdi, olub– keçib, əl çəkin).
- Qaz ayağı ilə qazlanmaq.
- Qaz otarmaq– sərsəri gəzmək, vaxt keçirmək.
- Qələbə duvarına bir çöp taxın (Gün hayandan çıxıb, bizi gəlib tapmısan).
- Qisas qiyamətə qalmaz, əyər ki, şah olasan.
- Qu ... deyirəm qulaq tutulur (Çox dərin bir sükut hər yanı tutub).

- Qulaq kəsmək (Borc alıb verməmək).
- Qulağı tüklü adam (Kobud, düşünməz, mal kimi bir adam).
- Qum çiçək açanda (Dəvə buynuzu çıxardanda).
- Qum kimin – çox yüngül.
- Qurd keçinin bir zadın yeməyib.
- Mal kimi.... – düşünməz, qafası qalın bir adam.
- Maşallah çox böyük adamdı, eşşəyə deyir, çəkil ki, mən gəldim.
- Məmə yeyəndən pəpə yeyənə kimi. ( Yəni, böyüklü– kiçikli hamı).
- Mən ölü, sən diri ....– bax bu xətt, bu nişan, əgər mən deyən olmasa, nə desən de.
- Mənim cəddimin sevda əli yoxdu (Bir işdən boyun qaçıranda bəhanə üçün deyərlər).
- Mənim şaqqımı sevindirmə ( Mənim xahişimi yerə salma, mənim sözümü qəbul et).
- Nə yemisən, turşulu aş... – davamız oldu, hər yandan tökülüb vurdular.
- Nənəsinin oğludur –alçaq adamdır.
- Nənəsinə gec baxanlardandı – şərəfsiz və vicdansızdır.
- Nənəsinin əmcəyini kəsənlərdəndir – öz nənəsinə də rəhm etməyənlərdəndir.
- Nənəsinin əmcəyini dişləyibdir – əsl şeytan və alçaq bir adamdır.
- O verdiyin at, bu da buyurduğun qulluq.
- Odundan, suyundan olmaq.
- Ov vurmamış dərisini satır (Nəzər: At almamış axurun çəkər).
- Ovuc ilə dağ daşımaq (Nəzər: dəvəni çömçə ilə suvarmaq. Dırnaq ilə gor qazmaq).
- Padar (dı) – vəzi çox yaxşıdı, dövlətlidi.

- Papağının altı boş olmaq – yəni ağılsızdır.
- Papağın uca qoy (Yəni, sən ki, bu məsələdən xəcalət çəkmirsən, qeyrətin yoxdur.
- Pambıq kimi – çox yumşaq.
- Pəmbəlut kimi – çox doludur.
- Pəhin kimi – tütün çox boş olanda deyərlər.
- Pişik asqırdı (Biri bir iş görüb, sonra peşman olduqda deyərlər).
- "Pir olasan" (Yəni, ömrünnən yariyəsən, çox yaşiyəsən, ömrünnən bəhrə götürməmiş getmiyəsən bu dünyadan).
- Pul-pul olmaq – bir şeyin sınıb narin-narin olub dağılması.
- Püfləsən yıxılar – çox zəif və arıqdır.
- Sağ əlin çək bizim başımıza (Yaxşı müqaviyət tapan adama xitab edərək deyərlər).
- Saxlamışam mun günümə.
- Saqqalım yoxdur, sözüm keçmir. (Biri birinin nəsihətinə, pişnihadına tövcə etməyib zərərini görəndə o söz sahibi deyər)
- Sən hər vaxt dovşan olub gə bizim ağacları gəmir.
- Sən günüz gedən yolları mən gecə gəlmişəm. Mənim başıma börk qoya bilməzsən.
- Soğan yeməmisən, niyə acmısan?
- Söyüd bar gətirəndə. (Nəzər: dəvə buynuz çıxardanda).
- Söyüd yarpağı kimi. – titrəmək, əsmək.
- Suları bir arxa getmir – yola getmir.
- Suyu qiymətinə – çox ucuz, dəyər-dəyməzinə satmaq.
- Sümük sındırmaq – təcrübə ələ gətirmək.
- Şaşeba ilə üz qızardır.
- Şeytana lənət eləməyin – savaşmaqdan əl götürün, inaddan əl çəkin.
- Şeytanın belində od qala – söz gətirib aparanlara aldanma, onlardan uzaq dolan.

- Şeytanın qıçını sındır – tənbəl olma, bir ayağa dur.
- Tapılmış oldu. (Ucuzlu şey alıb sonra qiyməti bahalandıqda deyərlər. Bu işi vaxtından qabaq fürsətdən istifadə edərək görəndə deyərlər).
- Tat kimi – dinməz və dil qanmaz (uşaq).
- Təbit (tabut) zınqırası – qoca vaxtında uşaq sahibi olmaq. Bu uşağı belə adlandırarlar.
- Təlbə kimi – qarnı təlbə kimidir, qulaqları təlbə kimidir (Təlbə qavala bənzər bir şeydir, amma dərisi tökülüdür, zir-zibil yığıb aparmağa işlənər).
- Tikəsini filankəsnən yemişəm – arvad hər kəsdən tikə yesə doğduğu uşağı ona çəkər.
- Topuna vurmaq – neçə nəfər lazım olan adamları, ya dostları bir yerdə cəm olduqları halda görmək.
- Top vursan dağılmaz (Çox əsaslı bir evdən tərif edəndə deyərlər).
- Torpağı sanı yaşasın (Bir uşağı, ya yetimi bir ölüyə oxşatmaq, ya ölü ilə rabitədə ondan söz aparılıbsa deyərlər. Məsələn: "Torpağı sanı yaşasın, lap rəhmətlik dədəsinə bənzəyir").
- Torpaq çəkdi apardı – biri gedib başqa yerdə öləndə deyərlər.
- Torpağı xəbər aparmasın – bir ölü barəsində qiybət edəndə deyərlər.
- Tolammardan çıxıbdı (elə bil...) – tolambar hamamın atəş xanəsinə və ətrafına deyilər, hər yanda kül, odun, ot, saman və tüstü olduğu üçün çox kəsif olar. Bir nəfərin bədəni, üstü–başı çox çirkli olsa deyərlər.
- Toy tutmaq– tor qurmaq.
- Toydan sora nağara.
- Toyux bir qıçlıdır ki, bir qıçlı (Yəni, məntiq başa düşmür. Dediyindən dönmür. Deyir elə mən deyəndir ki, mən deyən).

- Tükün pozmadı – bu xəbərdən heç də narahat olmadı.
- Tülkü kimi –hiyləgər.
- Tülkü tozanağı salır.
- Ucunu tutdu, ucuzluğa getdi.
- Ummadığın kötük araba çevirir.
- Üz verəndə astar istiyər.
- Yağlı əlin çək bizim başımıza (Xoş halına, dua elə, biz də sənin kimi müvafiq olaq).
- Yağlı əlin çək öz başına (Bizi aldada bilməzsən, biz bu sözlərə allanmarıq).
- Yaxına gəlmə, iyin gəlir, uzağa getmə, canım çıxır.
- Yel, qoğal kimi... – çox yüngül.
- Yersiz gəldi, yerli qaç.
- Yetənə yetir, yetməyənə bir daş.
- Yoluxda nə var, yalığa nə versin?
- Yuvulmamış qaşıq olma.
- Yüz il gərək qanqal otlayasan, ağzın dəvə ağzına oxşasın.
- Yüz oyundan çıxıb.
- Zəhər kimi – (zəhrimar kimi) çox acıdır.
- Zindan kimi – ürək darıxdırıcı bir yer.
- Zurna çalma – artıq danışma, müftə söz demə.
- Zurnaçının biri zurnaçı.... – boşboğaz adam.

## **"Baş"la bağli deyimlər**

Adam başı – adam hesabı.

Adamın başına düşmək – birdən–birə sözü bəhanə edərək çox uzatmaq.

Baş – nəfər, ədəd, böyük, üstün vahididir (Beş baş külfət, bir baş soğan, hamıdan başdır).

Baş bağlamaq – oğurlamaq, əyrilik yolu ilə ələ gətirmək. Tədarük görmək.

Baş alçaqlıq –xəcalətlik gətirən iş.

Baş alıb getmək – evin vəziyyətinin namərtəb olması, hər şeyin tökülmüş halda olması.

Baş-başa qoymaq (qoşmaq) – birini ələ salıb sərimək, şuxluq etmək.

Baş-beynimiz getdi – dəngəsər olduq, baş-beynimzii apardı, çox danışdı.

Baş başa çıxmaq – bir alverdə nə mənfəət, nə ziyan etmək, ancaq mayasını çıxartmaq.

Baş çəkmək – sərkəşlik etmək.

Baş çıxartmaq – başa düşmək.

Baş dolandırmaq – keçinmək.

Baş əymək – itaət etmək.

Baş götürüb getmək – tərk vətəni etmək.

Baş hesabı – nüfus hesabı.

Baş keçirtmək – bir təhər zaman keçirtmək.

Baş tapmaq – baş çıxartmaq.

Baş tutmaq – üz çevirmək və nəticəyə çatmaq.

Başa çatmaq – sona çatmaq.

Başa gələn – hadisə.

Baş gətirmək – tələsmək, qədimdə baş aparan qasidlər tez şahın hüzuruna çatıb ənam almaq üçün və başın iylənməməsi üçün gecəni gündüzə salaraq at çapırdılar.

Baş qaçırtmaq – bir işin altından boyun qaçırtmaq.

Baş qaldırmaq – tüğyan etmək, şuruş etmək.

Baş qoymaq – candan keçmək.

Baş mənim, baş onun – nəqafildən üz-üzə çıxdıq.

Baş saxlamaq – bir təhər yaşamaq və ehtiyat ilə rəftar etmək.

Baş vurmaq – baş çəkmək.

Başyuxarı – yoxuşa.
Başa oyun gəlmək – qorxulu hadisəyə, dərd-sərə düşmək.
Başabaş – bərabər, bu başdan o başa tamamən.
Başaşağı – yenişə.
Başaçıq – aşkar.
Başda dolandırmaq – yalançı vədələr ilə vaxtı tələf etmək.
Başdan eləmək – boş sözlər ilə birini yormaq və zillə etmək.
Başdan sovurmaq – başdan rədd etmək.
Baş-qulağın getməsi – zillə olmaq.
Başı bir eləmək – həmxurab olmaq. Məsələn, dedi, gəl başımızı bir eyləyək.
Başısoyux (lux) – laqeyd, diqqətsiz adam.
Başıaşağı adam – abırlı və kimsə ilə işi olmayan adam.
Başıma xeyir
Başımı qaşımağa macalım yoxdu – çox giriftaram, vaxtım yoxdu.
Başın bədənə ağırlıq etməsi – özünə yersiz dərdlər açmaq istəyən adam.
Başın bəndliyi – məşğul olmaq.
Başından yekə danışmaq – öz həddindən yekə sözlər demək.
Başını qılınca sürtmək – bəhanə dalısınca gəzib öcəşmək, dərd-sər axtarmaq.
Başıpozux – pərişan və nizamsız halda.
Başıuca – iftixarlı adam.
Başyuxarı cavab – başdan sorma cavab.
Diri baş –təhlükəli, cəld.
Hərə baş – quzuların və oğlaqların qabaq doğulanları.
Hoş-baş – hafizə və fikir cəmliyi.
Özbaşına – sahibsiz uşaq, kimsəyə itaət etməyən.
Öz əli, öz başıdır – kimsəyə möhtac deyil, müstəqildir.

## **“Əl”lə bağlı deyimlər**

- Əl – ayağa düşmək – özünü itirmək, bir işdən narahat olmaq, bir işin vaqi olmağının qabağını almaq üçün çalışmaq.
- Əl – ayağın itirmək – nəzər: əl – ayağa düşmək, qorxuya düşmək.
- Əl – ayağını yığışdırmaq – kimsəni yerində oturdub əlini kəsmək. Müdafiə üçün hazırlanmaq.
- Əl mənim, ətək sənin – kimsəyə mütəəssil olaraq, iltimas edib, yalvarmaq.
- Əl-əli tanıyar – bir kəsə pul, ya bir şey verdikdə, ayrı adama həvalə etsə, deyərlər: Mən səni tanıyıram. Sənə vermişəm, səndən də alacağam.
- Əl-ələ vermək – əlbir olmaq, müttəfiq olmaq. Bir-birinə kömək etmək.
- Əl – rəqib, iş rəqibi. Məsələn, bu işdən daha fayda yoxdur, əl çoxalıbdır.
- Əl suya yetirmək – qəzayı hacət etmək, su başına çıxmaq və s.
- Əl üzmək – ümidi kəsmək, naümid olmaq.
- Əldən getmək – əldən çıxmaq, bir zadı əldən vermək.
- Əldən gəlmək – imkan, bacarıq, mümkün olamaq, bacarmaq.
- Əldən-ələ düşmək – bir şeyin neçə adamın əlinə düşməsi. Bir arvadın ya, qızın pis yola düşməsi.
- Ələ dağ basmaq – töbə etmək, bir işi birdəfəlik tərgitmək. Bir növ and içmək və əhd etməkdi.
- Ələ düşmək – tapılmaq, pis yola düşmək.
- Ələ gəlmək – hasil olmaq, tapılmaq.
- Ələ salmaq – ələ gətirmək, sərimək, məsxərəyə qoymaq.
- Əli ağır olmaq – bir alverçinin səhərçağı ilk müftəsi olsa, o gün onun bazarı kasad olar. Əksinə olaraq əli yüngül adam adama siftə versə, o gün onun satışı çox olar.

- Əli ağzına çatır – güzaranı yaxşıdı, kimsəyə möhtac deyil. Özünü keçirdir.
- Əli əyri olmaq – oğru adam.
- Əli qoltuğunda qalıb – fağır olub, çarəsiz qalıb.
- Əli yüngül – əli ağır adamın ziddi.
- Əlin bağlı olmağı – bir adamın müxtəlif mənalara görə bir işi görməyə imkanı olmadıqda deyərlər.
- Əlin dalına dağ basmaq – bu da həməndi, əlbəttə, heç kim bu sözü deməklə, əlinə dağ basmaz, lakin deyər ki, mən daha əlimin dalına dağ basdım ki, bir daha filan işi görməyim.
- Əlini daldan bağlayıb – yəni bu ondan da pisdi. Məsələn, biz deyirdik filankəs xəsis adamdı. Amma indi bu onun əlini daldan bağlayıbdı.
- Əlin duz olmağı – düzgün adam.
- Əlin götür, özün yu.
- Əlini kəsmək – kimsənin dəvətlərinə, iştirakına bir yerdə son vermək.
- Əlindən gələni min qaba çəkmək – yəni, mən sənin təhdidlərindən qorxmuram. Hər nə əlindən gəlir, əsirgəmə.
- Əlimizə iş verdi – dərd – sərə saldı.
- Əlli-ayaxlı (adam) – layiq iş başaran, bacarıqlı adam.
- Əliz (əlləriz) var – əliniz var olsun, sağ olun.
- Əliz ağrımasın – əliniz var olsun.

### “Ürək”lə bağlı deyimlər

- Ağürək adam – qorxaq adam.
- Daşürəkli – çox rəhmsiz adam.
- Ürəyi tutulmaq – kədərlənmək, ürəyi sıxılmaq və s.
- Ürək sındırmaq – birinin qəlbinə dəymək.

- Ürək vermək – cürət vermək, təşviq etmək.
- Ürək yumaq – yazığı gəlmək, çox mütəəssir olmaq.
- Ürəkdən gəlmək – qıymaq, sədaqət ilə deyilən söz.
- Ürəkdən gəlməmək – qıymamaq.
- Ürəkli – qorxmaz, cəsarətli adam.
- Ürəklənmək – cürət tapmaq. Uşağın bir nəfəri görüb birdən ağlamağı. Məsələn, uşaq məni görəndə ürəkləndi.
- Ürəyə yatmaq – xoşa gəlmək – bəyənmək.
- Ürəyi açılmaq – şad olmaq, qüssəsi dağılmaq.
- Ürəyini almaq – incikliyini aradan götürmək.
- Ürəyini boşaltmaq – ürəyində olan narazılıqları dilə gətirib eşiyə tökmək.
- Ürəyi kövrək adam – ürəyi nazik və mehriban adam.
- Ürəyi qırılmaq –qorxmaq.
- Ürəyi nazik adam – həssas və mehriban adam.
- Ürəyin sərinləməsi – intiqam alaraq təlafi edib, razı düşmək. Zalımın cəzasına çatdığını gördükdə xoşhal olmaq.
- Ürəyi üzülmək – bərk qorxmaq.
- Ürəyin yağı əriməsi – nigarançılıq .
- Ürəyindən xəbər vermək – birinin istədiyi sözü danışmaq.
- Ürəyini üzmək – qorxutmaq.

## BAYATILAR

Göydə uçan durnalar,
Qanad açan durnalar.
Təbrizin göylərində
Qalmaz nacar durnalar.

Əzizim bu dağınan,
El gedər bu dağınan,
Sənə yaxşı deməzlər,
Mən ölsəm bu dağınan.

Əzizim, aydın olsun,
Gün doğsun, aydın olsun.
Gəlib şad xəbər sənə
Güzlərin aydın olsun.

Əzizinəm, gündə mən,
Kölgədə sən, gündə mən,
İldə qurban bir olsa
Sənə qurban gündə mən.

Əzizim, dolu düşər,
Qar yağa, dolu düşər.
Qəbrimi yol üstə qaz
Anamın yolu düşər.

Qəlyanı mən çəkərəm,
Doldurram, mən çəkərəm.
Cəmi dərdlər bir olsa,
Hamısını mən çəkərəm.

Mən aşiq gözdə qara,
Qaş qara, göz də qara
Yollarına baxmaqdan
Qalmadı gözdə qara.

Əzizinəm vay mənə,
Şəhərdə yox tay mənə.
Adım düşdü dillərə,
Bunnan sora vay mənə.

Bağında üzüm qara,
Ağ-qara üzüm qara.
Gedirəm dost yanına
Əlim boş, üzüm qara.

Qaşların qarasına,
Xal döydür arasına.
Öz anan qurban olsun
Gözlərin qarasına.

Mən aşiq zəmanə dönüb,
Qaşların kəmanə dönüb.
Bilmirəm dost ayrılıb,
Yoxsa zəmanə dönüb.

Əzizinəm, can sənə,
Qoy kəsim qurban sənə.
Pulum yox qurban ollam
Mən özüm qurban sənə.

Mən aşiq odu keçdi,
Qəlyanın odu keçdi.
Kor olsun ovçu gözü
Marala oxu keçdi.

Qaşların aldı məni,
Qürbətə saldı məni.
Zülflərin şahmar oldu,
Dolandı çaldı məni.

Əzizim, nə bağışlar,
Dost dostuna bağışlar.
Başım düşmən əlində
Nə kəsər, nə bağışlar.

Dərdimə çara Təbriz,
Düşmüyəsən dara Təbriz.
Sənsiz qala bilmərəm,
Mən gedim hara Təbriz.

Mən aşiq kəmanə çalar,
Qaşın kəmanə çalar.
Qızıla çalmayan canım
İndi səmanə çalar.

Leysan yağan yağışlar,
Yer üzünü naxışlar.
Təbrizin torpağına
Min bərəkət bağışlar.

Təbrizdə dağ olaydı,
Dörd yanı bağ olaydı.
Görüşünə gələydim
Şəhriyar sağ olaydı.

Əzizinəm, bir də mən
Doldur icim bir də mən.
Ömür azaldı, gün keçdi,
Cavan olmam bir də mən.
.
Təbrizdən hürü gəlir
Gözümün nuru gəlir.
Araz daha bulanmır,
Suyu dumduru gəlir.

Əzizinəm haraylar,
Həm ulduzlar, həm aylar.
Dalda qalan igidlər
Şahi-Mərdan haraylar.

Əzizim bu dağınan,
El gedər bu dağınan.
Sənə yaxşı deməzlər
Mən ölsəm bu dağınan.

Əzizim naçar ağlama,
Gündü, keçər ağlama.
Bu qapını bağlayan kişi
Bir gün açar ağlama.

Yayılıb düzə Təbriz,
Gəlməsin gözə Təbriz.
Mən sizə gələnmirəm
Gələydin bizə Təbriz.

Əzizim , daşlı qala
Çınqıllı , daşlı qala
Qorxuram gəlməyəsən
Gözlərim yaşlı qala.

Catılıb qaşın Təbriz,
Axır göz yaşən Təbriz,
Kimin dərdini çəkir,
Bacı-qardaşın Təbriz.

Təbrizdə bağ mənimdi,
Sol mənim, sağ mənimdi.
Araz dərədən axır
O dağ, bu dağ mənimdi.

Qəribə aş verərlər,
Kasanı boş verərələr.
Qərib ölsə qürbətdə
Əlinə daş verərələr.

Mən aşiqəm, yasınan
Quran oxur yasınan.
Dünya mənim deyənin
İndi gəlirəm yasınnan.

Bu dağlar qoşa dağlar,
Çatıb baş-başa dağlar.
Bir ah çəkərəm dərindən
Dönərsiz daşa dağlar.

Mən aşıq yaza nə qaldı,
Qış getdi, yaza nə qaldı?
Qələmdə günah yoxdu
İnsaf yazana qaldı.

Fələyin rəhmi mənə,
Gəlmədi rəhmi mənə.
Doldurdu qəm piyaləsin
İçirtdi zəhrin mənə.

Əzizinəm, vay mənə
Şəhərdə yox tay mənə.
Adım düşdü dillərə,
Bundan sonra vay mənə.

Aşiq döşəli yerdə
Gül, bənövşəli yerdə.
Tarı kişi bir iş işlədi
Qaldım döşəli yerdə.

Gülləri dəstə Təbriz,
Boyunu bəstə Təbriz.
Baş qoyub dincələydim,
Dizinin üstə Təbriz.

Gecə kecər ay batmaz,
Təbriz yatmayıb yatmaz.
Belə qəhrəman şəhər
Tanrı bir də yaratmaz.

Araz Kürə qovuşdu
Təbriz qəlbə yavuşdu.
Cox şükür ki, dərd-bəla,
Başımızdan sovuşdu.

Təbrizdə var sonalar,
Oğul doğar analar.
Gecə-gündüz karvanım,
Təbriz deyə yollanar.

Bəzədilər gəlini
Bağladılar belini.
Təbriz tutdu qolumdan
Mənə verdi əlini.

Xumardı gözün Təbriz,
Ötgündü sözün Təbriz,
Vurğunam ellərinə
Bilirsən özün Təbriz.

Bağcada gülün solmaz
Bu dünya belə qalmaz.
Qartalları qıy vurar,
Təbrizsiz qanaq vurmaz.

Üzüksüz barmaq olmaz,
Ürəgi yarmaq olmaz.
Təbrizin özlüyündən
Hec vaxt ayırmaq olmaz.

Bu dağlar qoşa dağlar,
Çatıb baş-başa dağlar.
Bir ah çəkərəm dərindən
Dönərsiz daşa dağlar.

Gəlmişəm bağa Təbriz,
Canım sadağa Təbriz.
Mən sənin qulun olum
Sən mənə ağa Təbriz.

Mən aşiq olmayaydı,
Saralıb solmayaydı,
Yaman dərdə düşəydim
Ayrılıq olmayaydı.

Ağlaram ağlar kimi,
Dərdim var dağlar kimi.
Xəzan ollam töküllən
Viranə bağlar kimi.

Məni görən ağlasın,
Zülfün hörən ağlasın.
Əzəl görən nə gördü,
İndi görən ağlasın.

Qara bağda bağ olmaz,
Qara salxım ağ olmaz.
Oğlu ölən ananın
Ürəyində yağ olmaz.

Quşum ucdu kələhdən,
Qolum sındı biləhdən.
Mənimki də belə gəldi
Çərxi dönmüş fələkdən.

Mən aşiqəm gülə naz,
Bülbül eylər gülə naz.
Zamandı belə keçər
Ağlayan cox, gülən az.

Mən aşiq, nəyim qaldı,
Nəyim getdi, nəyim qaldı.
Arzun gözündə qalsın
Necə kı mənım qaldı.

Araz , Araz, xan Araz,
Sultan Araz, xan Araz,
Sevgilim gəmidədi,
Gəl qəlbimi qan Araz.

Əzizim dərdi qalmaz,
Bağrında dərdi qalmaz.
Yar yarına yetişsə,
Ürəkdə dərdi qalmaz.

Mən aşıq kımı gözlər,
Tar çalan kimi gözlər.
Sağ gözüm sənə qurban,
Sol gözüm kimi gözlər.

Qərə bağın düẕü var,
Çöllərində quzu var.
İki könüḻ bır ols̊a,
Kimin on̊a sözü var.

Əlimdə ələmim var,
Qızıldan qələmim var,
Yaxından görənmirəm,
Uzaxdan salamım var.

Əzizim genə gəlləm,
Gedərəm, genə gəlləm.
Baxma yadlar sözünə,
Kafirəm dinə gəlləm.

Əzizim neylim sənə,
Düşübdür meylim sənə.
Mən dönsəm üzüm dönsün,
Sən dönsən neylim sənə.

Apardı göy at məni,
Saxladı səyad məni.
Başım qoy dizin ustə,
Çox yatsam oyad məni.

Mən aşıq məzə qanı,
Mey qanı, məzə qanı,
Qorxuram duşəm öləm
Yurdumda gəzə qannı.

Əzizinəm güləllər,
Bulbul bağda görəllər.
Dəryacan əğlin olsa,
Kasıb olsan gülərlər.

Başıva mən dolanım,
Mən dönüm, mən dolanım.
Allah səni saxlasın,
Sayəndə mən dolanım.

Qızıl gül nədən oldu,
Açıldı xəzan oldu,
Mən ayrılıq bilməzədim,
Ayrılıq səndən oldu.

Bu gələn haralıdı,
Dağların maralıdı.
Əyil üzündən öpüm,
Ürəyim yaralıdı .

Gecələr, ay gecələr,
Ay batar ay gecələr.
Səni görən gözlərim,
Nə yatar, nə dincələr.

Əzizinəm, ay olmaz,
Qış keçməsə, yay olmaz,
Sənin kimin gözələ
Gözəllikdə tay olmaz.

Arazın qırağınan,
Gul biçdim orağınan,
Gəldim səni axtaram,
Atalar sorağınan.

Dərtdilər, yaralılar,
Dərdin də bır qərarı var.
Dərtdılər dərdin desin,
Ağlasın yaralılar.

Beçara daldasına,
Namərd nə, daldası nə.
Ər gərək qarşı dura,
Durasan daldasına.

Əzizim, düyü dəmdə,
Su dəmdə, düyü dəmdə.
Əlli batman su axar,
Bir ovuc üyüdəndə.

Savalan qarsız olmaz,
Bağları barsız olmaz.
Təbiətin rəsmidir,
Gözəl vüqarsız olmaz.

Sayad dağda tor qurmaz,
Qurub boynunu burmaz.
Sınıq qabı pişləsən,
Yenə su gedər, durmaz.

Al yanaq al istəməz,
Şirin dil bal istəməz.
Uca hümmət ərbabı,
Dünyada var istəməz.

Mən aşığam, nədən dad,
Mürğ ağzından nə dən, dad.
Dəvə öz barın çəkər,
Zəngi eylər nədən dad?

Mən aşıq "Diri dağı",
Duman, gəl bürü dağı.
Ölüm tanrı əmridir,
Yamandır diri dağı.

Hayalı,
Gözəl gəzər hayalı.
Bədəsil, əsil olmaz,
Əsil gəzər hayalı.

İstəməm yad adamı,
Əridər dad adamı.
Böhtan yandıran kimi,
Yandırar od adamı.

Kəpəz dağdan qar salan,
Ulusundan dərs alan.
Ölər, bir də dirilməz,
Nəzərindən el salan.

Əziziyəm, nə çara,
Beçaradan nə çara?
Ət qoxusa duz gərək,
Duz qoxusa nə çara?

Əziziyəm gül oldum,
Yandım axır gül oldum.
Bir dil bilməz quş idim,
Oxudum bülbül oldum.

Bülbül, gedək o yana,
Məskənindi Miyana.
Sən oxu, mən ağlayım,
Bəlkə baxtım oyana.

Çayı keçmə dərindi,
Suyun içmə sərindi.
Bülbül bağa girəndə,
Toy-bayram güllərindi.

Qurbanam özüm sənə,
Hikmətim, sözüm sənə.
İşıxli ulduz kimin
Tihmişəm gözüm sənə.

Əzizim qarğalandı,
Qar yağdı, qar qalandı.
Qarğalar laçın oldu,
Laçınlar qarğalandı.

Xoruz ban qabağında,
Səbhun dan(dən) abağında.
Yarım bir bizə gələ,
Verəm can qabağında.

Balıx suda yan gedər,
Açma yaram, qan gedər.
Yazıx təbib neynəsin
Əcəl gələr, can gedər.

Ovçu vurar maralı,
Maral düşər yaralı.
Fələkə neyləmişəm,
Yardan saldı aralı.

Əzizim Qarabağı,
Gəl gəzək Qarabağı.
Bir ceyran istəmişəm,
Boynunda qara bağı.

Aşıq, qartalı qoyma,
Ovçu, maralı qoyma.
Ovun sinəmdə qaldı,
Öldüm, yaralı qoyma.

Bu dağda maral azdı,
Ay çıxdı, maral azdı.
Ağlama, maral gözlüm,
Ölmərəm, yaram azdı.

Qurd gəzir dağ üstə,
Şeh tökülür bağ üstə.
Şamamanı gizlətmə,
Qoy görünsün tağ üstə.

Əzizim, elə qalı,
El malı elə qalı.
Malın yeməyən xəsis,
Yeməsən, elə qalı.

Əzizim, elə qalı,
El malı elə qalı.
Varın ye, ləzzət eylə,
Yeməsən elə qalı.

Əzizim, ayağını,
Doğru at ayağını.
Yorğanından çıxarma,
Kəsərlər ayağını.

Gül sarı, ağac sarı,
Ağaca qondu arı.
Zəhmət çək oğlan böyüt,
Onu da ver icbarı.

Xiyabanı qazdılar,
Ağ kağızı yazdılar.
Gedin anama deyin,
Məni sərbaz yazdılar.

Ay mənim padıganım,
Gecəni harda qalım?
Emmizdə qalanmıram,
Pəs vədə necə qalım?

Xiyabanda cüt maşın,
Allah açıldı başım.
Ağlamayım, neyləyim?
İcbarıdır qardaşım.

Gedirəm Sərdəştə mən,
Olmuşam sərgəştə mən.
Gəlib əcəl fərmanı,
Yazılmışam başda mən.

Bu gün ayın dördüdür,
Çəpər dibi hörgüdür.
Gedən oğlanın əsgər,
Bu dərd məni öldürür.

Əzizim, möv düyünü,
Zuğ atar möv düyünü.
Namərdin peşəsidir,
Mərd deməz gördüyünü.

Əziziyəm, pusquda
Bayqulardır pusquda.
Namərdə bel bağlama,
Yenə durub pusquda.

Al qalyanı çək hərdən,
Rey mülkünə çəkər dən.
Namərddə kərəm olmaz,
Hər nə çəksən çək ərdən.

Burda ölüb bir cavan,
Gəlsin cavanı yuvan.
Barmaqların tökülsün,
Cavan gözünü yuman.

Gül iylədim dəstilən,
Yar sevdim həvəsilən.
Məni yardan edənin,
Günü keçsin yasilən.

Əzizim Diriyə mən,
Qurbanam Diriyə mən.
Tar-mar olsun bu yer,
Dönərəm Diriyə mən.

Dağın ərənə qalsın,
Gülün dərənə qalsın.
Mən çıxdım bağbanlıqdan,
Istər verana qalsın.

Ağ donun ağlı qalsın,
Buqçası bağlı qalsın.
Məndən üz döndərən yar,
Üzün duvaqlı qalsın.

Ha çağırdım xan dursun,
Xan əylənsin, xan dursun.
Sən məni yandırıbsan,
Tanrı səni yandırsın.

Mən Qəmbərəm dağ kimin,
Titrərəm yarpağ kimin.
Arzunu bəzədəni,
Qara geysin zağ kimin.

Əzizim belə laylay,
Çal gəlsin belə laylay.
Gəlsin düşmən başına,
Mən çalan belə laylay.

Getmə qal yan, qurax-vay,
Rəqib ölsun, quraq vay.
Əzrail canım alsın,
Yardan olsam qıraq vay.

Araz, Araz, xan araz,
Uzaqdan baxan Araz.
Yarı görə bilmədim,
Yırtılsın yaxan Araz.

Araz-Araz, xan araz,
Sultan Araz, xan Araz.
Səni görüm yanasan,
Bir dərdimi qan Araz.

Eləmi, Məşhəd olsun,
Xoy olsun, Məşhəd olsun.
Əli, əldən ayıran,
Nə gülsün, nə şad olsun.

Atlılar ata mindi,
Atlandı, ata mindi.
Kaş ola ön sırada,
Səttarxan atam indi.

Kaş Savalan olaydım,
Göylərə ucalaydım.
Elin dərdi-qəmini,
Ürəyimə yığaydım.

Əzizim, oda Salmas,
O Xoydur, o da Salmas.
Heç pərvanə mənim tək,
Özünü oda salmaz.

Mən aşığam, başabaş,
Oxu dərsin başabaş.
Eşqindən səməndərəm,
Oda yandım başabaş.

Əziziyəm, odumu?
Dağdan enən odumu?
Su od keçirən olar,
Su yandırdı odumu.

Dərd əlindən can durmaz,
Yaram çoxdur qan durmaz.
Məni elə yandırdın,
Od da elə yandırmaz.

Bir ay doğdu kənarsız,
Yar vəfasız, mən yarsız.
Geri durun ağalar,
Atəşimdən yanarsız.

Eyvanın qur ucada,
Kor möhtac quru cada.
Gülgəzin göz yaşından,
Qalmadı quru cada.

Qoy gedim qurda məni,
Tapşırma qurda məni.
Gözü yolda qalan var,
Öldürmə burda məni.

Qurd apardı quzunu,
Tapammıram izini.
Gözətlərəm gəlməsən,
Qucaxlaram dizimi.

Ay zamana, zamana,
Oxu qoydun kamana.
Eşşəklər arpa yeyir,
At həsrətidir samana.

Əziziyəm, yaxşı at
Nişan götür, yaxşı at.
İyidi cavan saxlar,
Yaxşı arvad, yaxşı at.

Savalan sultanımdı,
Sultanımdı, canımdı.
Şanlı adı dünyada,
Mənim adım-şanımdı.

Savalan ay, el dağı,
Var örkədə el dağı.
Görim əssin başuva,
Azadlığın bayrağı.

Savalan gün açılsın,
Hava düzgün açılsın,
Yetir arzum yerinə,
Gözüm o gün açılsın.

Əzizim, gül əndama,
Şeh düşər gül əndama.
Olaydım hünü, milçək,
Qonaydım gül əndama.

Əlif, lam mimi gözlər,
Tar çalan simi gözlər.
Gecələr yatanmıram,
Gözlərim səni gözlər.

Qızıl gül haça bitdi,
Sana gör neçə bitdi.
Dözəydin bu dərdə sən,
Görəydin neçə dərddi.

Qızıl güləm dər məni,
Dəsmal üstə sər məni.
Allah özü şahiddi,
Çox istirəm mən səni.

Qızıl gül dən-dən oldu,
Dərmədim, dən-dən oldu.
Mən səndən ayrılmazdım,
Ayrılıq səndən oldu.

Gecə uzun ay batmaz,
Dərdi olan heç yatmaz.
Ülkər mədəd, ay mədəd,
Dərdim sözə sığanmaz.

Pəncərəmdə pərdə mən,
Düşdüm yaman dərdə mən.
Örgətdin sinən üsdə,
Necə yatım yerdə mən.

Dumanlı dağlar göylüm,
Nisgilli bağlar göylüm.
Nə açılar, nə gülər,
Həmişə ağlar göylüm.

Ay məni götdü qaşdı,
Sümüklərim çaxnaşdı.
Xəbər verin elimə,
Mənzilim uzaqlaşdı.

Yox əzizim vay dərdim,
Tay dərmanım, vay dərdim.
Hammı əkdi gül dərdi,
Mən gül əkdim, vay dərdim.

Əzizim qazan ağlar,
Od yanar, qazan ağlar.
Burda bir qərib ölüb,
Qəbrini qazan ağlar.

Əzizim ölü dağlar,
Çeşməli, sulu dağlar,
Burda bir qərib (cavan) ölüb,
Göy kişnər, bulud ağlar.

Elim, günüm talandı,
Üstünə el qalandı.
Yad elindən el köçdü,
Dağlara daldalandı.

Dağlarda lalam qaldı,
Beşikdə balam qaldı.
Düşmən vurdu, mən öldüm,
Bir ağlar balam qaldı.

Dağlarda gəzən mənəm,
Al geyib, bəzənmərəm.
Yuvasız quşlar kimi,
Sərgərdan gəzən mənəm.

Əzizim düşər bir gün,
Atlanar düşər bir gün.
Düşmənə düşən fürsət
Mənə də düşər bir gün.

Dağlara dolu düşər,
Qar düşər, dolu düşər.
Qəbrimi yol üstə qaz,
Anamın yolu düşər.

Əzizim elə bağla,
Ümidin elə bağla.
El gülsə, sən də sevin,
Ağlasa, sən də ağla.

Əzizim Mərəndə gəl,
Güllərin düzəndə gəl,
Bir gəldin xəstə gördün,
Bir də can verəndə gəl.

Əgər sevsə el səni,
Yıxa bilməz yel səni.
Namərdə boyun əymə,
Qoy aparsın sel səni.

Əziziyəm, yüz yerdən,
Əlli yerdən, yüz yerdən.
Qolların sal boynuma,
Ayaxların yüz (üz) yerdən.

Mən aşiq oyun eylər,
Oyunlar oyun eylər.
Yar yara qovuşanda,
Bayramın oyun eylər.

Əzizim bağda dara,
Aç zülfün, bağda dara.
Bülbülü güldən ölər,
Çəkillər bağda dara.

Mən aşiq qana-qana,
Üzümlər qana-qana.
Kəpənək oda girər,
Acısın qana-qana.

Əzizim qızaranda,
Dan yeri qızaranda.
Qalsa da oğlan qalsın,
Qalmasın qız aranda.

Mən aşiq gül məkanda,
Gül bitər, gül məkanda.
Səni gördüm mən güldüm,
Mən handa, gülmək handa?

Təbriz üstü Marağa,
Zülfün gəlmir darağa.
Niyə mənnən küsmüsən,
Canım sənə sadağa.

Bahasız daşdı dünya,
Çörək ağaşda dünya.
Kimə deyim dərdimi,
Bütün qan -yaşdı dünya.

Əzizim nədən yana,
Pərvanə nədən yana.
Yaxşı dost yaman gündə,
Çəkilir nədən yana?

Ağ alma, qızıl alma,
Nimçəyə düzül, alma.
Çirkin al, əsil olsun,
Bədasil gözəl alma.

Mən aşiq daldasına,
Mərd igid daldasına.
Namərd aslan olsa da,
Sığınma daldasına.

Mən aşiq ah-zarda,
Canım dərddə, azarda.
O gündən qul oldum,
Satıldım hər bazarda.

Əziziyəm, sal yana,
Dara zülfün, sal yana.
Necəsən bir ah çəkim,
Kür quruya, sal yana.

Mən aşığam gülzara,
Yolun düşsə gülzara.
Mən sevdim zara gəldim,
Qoyma gələ gül zara.

Aşiq qaralı (qərarı) qoyma,
Ovçu, maralı qoyma.
Oxun sinəmdə qaldı,
Öldüm, yaralı qoyma.

Mən aşiq qızıl qala,
Boşqaba qızıl qala.
Namərd gəlib mərd olmaz,
Boy uca qızıl qala.

Yox əzizim sahlasa,
Xaydar gedər Sahlasa.
Bəndə bəndəyə neylər,
Xudam gözdən salmasa.

Əzizim elə bağla,
Ümüdün elə bağla.
El güləndə sən də gül,
Ağlasa, sən də ağla.

Şirvanın bucağında,
Od yanar ocağında,
Başın qoy sinəm üstə
Can verim qucağında.

Yox əzizim, ya nəsib,
Bülbül oxur, ya nəsib.
Bir gördüm yarın üzün,
Bir də görəm ya nəsib.

Əzizinəm, ya sabah,
Bülbül oxur, ya sabah.
Bu dərd məni öldürər,
Ya büyündü, ya sabah.

Savalan üstü torpax,
Çadır qurax oturax.
Birin sən de, birin mən,
İntizardan qurtulax.

Əzizim dağı danlar,
Göyül evin dağıdanlar.
Naşı ovçu vuranmaz,
Qayıdar dağı danlar.

Mən aşığam gül əllər,
Gül biləklər, gül əllər.
İyit ki yoxsul oldu,
Dindirərlər güləllər.

Aşiq min aya dəyər,
Başın minaya dəyər.
Ay var bir günə dəyməz,
Gün var, min aya dəyər.

Əzizim məzə dağlar,
Yar gələ gəzə dağlar.
Qoymaram namərd gəzə,
Bağrını əzə dağlar.

Lələ öldü, bez gətir,
Arşın apar, bez gətir.
Nə qonşudan söz apar,
Nə qonşuya söz gətir.

Qarşımızda alı yar,
Geyinibdi alı yar.
Qəm çəkmə, yazıq bikəs,
Bir gün göylün alı yar.

Əzizim, aman gündür,
Dağların duman gündür.
Dur balaların yığ basan,
Balaların yaman gündür.

Əzizim, oyan dağlar,
Yatmısan, oyan dağlar.
Bu yan zülmət -zabadı,
Necədi o yan dağlar?

Əzizinəm, nur dağlar,
Sənə yağsın nur dağlar.
Gəlmişdim dəstə görüm,
Dəstə köçüb yurd ağlar.

Əzizim, dağda nə var,
El köçüb, dağda nə var.
Məcnun xiyallı göylüm,
Leylisiz dağda nə var?

Əzizim simi gözlər,
Tar çalan simi gözlər.
Qaşın kimi qaş olmaz,
Gözlərin kimi gözlər.

Aşıq hər sözü bilər,
Əyrini, düzü bilər.
Dərdimi elə deyin,
Dərmanın özü bilər.

Qara at nalı neylər,
Qara qaş xalı neylər.
Sənin tək yarı olan,
Dövləti, malı neylər.

Kabab yanar göz ağlar,
Dil alışar, söz ağlar.
Yar yardan ayrı düşsə,
Ürək yanar, göz ağlar.

Çatılıb başız dağlar,
Bilinmir yaşız dağlar.
Hicranı sizdə düşdü,
Ağarar başız dağlar.

Əzizinəm yüzdə var,
Əllidə var, yüzdə var.
Öpməli ayaq olsa,
Tüpürməli üz də var.

Mən aşiq söz yeri var,
Üzündə göz yeri var.
Məclisdə yerın tanı,
Hər kəsin öz yeri var.

Əziz gecədən gedər,
Karvan gecədən gedər.
Gecə uzun, həmdəm yox,
Zəhləm gecədən gedər.

İbrahim ahın dilər,
Göz yaşın ahın dilər.
Yar ilə keçən günlər,
Olaydı, ah indilər.

Aranı keçən də var,
Suyundan içən də var.
Tutma namərd adını,
Ürəyi keçən də var.

Aşmağa asan dağlar,
Qar başın basan dağlar.
Qərib çox çətin gülər,
Ağlasa asan ağlar.

Əzizim, üç gül açar,
Üç yarpaq, üç gül açar.
Çağır mestanı gəlsin,
O yaxşı müşgül açar.

Dağ başında quzu var,
Ahu kimi gözü var.
Göyül, göyülü sevsə,
Kimin ona sözü var?

Əzizim, yara bağlar,
Bayquşlar yara bağlar.
Yaramı yar bağlasın,
O yaxşı yara bağlar.

Əzizim, səri neylər,
Yel əsər, sərin eylər.
İki dostun arasın,
Bir düşmən sərin eylər.

Xoş gördük, ay qonaqlar,
Mehmansız, ay qonaqlar.
Demə yoxsuldu aşıq,
Sizi bir ay qonaqlar.

Anası yanar ağlar,
Hərifi qanar ağlar.
Ana olar gövərçin,
Tabuta qonar ağlar.

Bayatı yazar, ağlar,
Yurdunda gəzər, ağlar.
Elindən ayrı düşən,
Dolanıb, gəzər ağlar.

Əzizim xəzəl ağlar,
Ağacda xəzəl ağlar.
Apar anam yanına,
O mənə gözəl ağlar.

Mən aşiq yara sızlar,
Qan axar, yara sızlar.
Yaralının dərdini,
Nə bilsin yarasızlar.

Dəsmalın yudum apar,
İtirmə, düşmən tapar.
Bu gün bazar günüdü,
Hər kəs öz yarın tapar.

Bu yola yol salaydım,
Karvanı bol salaydım.
Duraydım yolun üstə,
Boynuna qol salaydım.

Qardaş demə qan olar,
Qardaş şirin can olar.
Qardaş gələn yollara,
Bacılar qurban olar.

Bostanda tağım ağlar,
Basma yarpağım ağlar.
Sağam özüm ağlaram,
Ölsəm, torpağım ağlar.

Mənim anam baş bağlar,
Başı yuyar, baş bağlar.
Gah məni deyər, ağlar,
Gah bağrına daş bağlar.

İstəkanım qanlıdır,
İçmişəm dərmanlıdır.
Bu məclis şahid olsun,
Mən ölsəm, yar qanlıdır.

Bu dağlar haram dağlar,
Gül yoxdu dərəm, dağlar.
Ürəyim ah çəkməkdən,
Bağlıyıb vərəm, dağlar.

Qardaşlar, ay qardaşlar,
Yağış yağar, qar daşlar.
Ölsə bacılar ölsün,
Heç ölməsin qardaşlar.

O tay bu taya baxar,
Arasından çay axar.
Çıxsın mənim gözlərim,
Sənsiz dünyaya baxar.

Əzizim, az öldürər,
Sürməli göz öldürər.
İyidi qılıc kəsməz,
Tənəli söz öldürər.

Aşıq haramı, dağlar,
Loğman yaramı bağlar.
İstərəm duram gələm,
Kəsib aranı dağlar.

Əzizinəm, gülə naz,
Bülbül eylər gülə naz.
Xarab qalsın bu yeri,
Ağlıyan çox, gülən az.

Əzizim kasad olmaz,
Mərd əli kasad olmaz.
Yüz namərdin çörəyin,
Doğrasan kasa dolmaz.

Yox əzizim qalasız,
Şəhər olmaz qalasız.
Mən ki getməli oldum,
Sağlıq iylən qalasız.

Mən aşiq bilən olmaz,
Bu yerdə gülən olmaz.
Xanın zülmü yüz olar,
Rəhmini bilən olmaz.

Əziziyəm ələn gəz,
Bağda gülü dilən gəz.
Qürbətdə xan olunca,
Vətənində dilən, gəz.

Aman-aman ayrılıq,
Olar yaman ayrılıq.
Eşidəndə qalxırı,
Başdan duman ayrılıq.

Əzizim, bəsdi fələk,
Səbrimi kəsdi fələk.
Hər yerdə cadır qurdum,
Təngimi kəsdi fələk.

Odlan fələk, yan fələk,
Qəlbin olsun, qan fələk.
Kimsəsinə dərd verib,
Kimsəyə dərman fələk.

Aman fələk, dad fələk,
Heç olmadım şad, fələk.
İçirtdiyin şərbətdən,
Özün də bir dad, fələk.

Əzizim Mərəndə gəl,
Dərd artdı, gəl indi gəl.
Gözüm yollarda qalıb,
Gəlməlisən, indi gəl.

Mən aşığam qanlı gül,
Qanlı sevin, qanlı gül.
Yemiş bülbül bağrını,
Açmış ağzı qanlı gül.

Mən aşığam o yan, gül,
Oyan bülbül, oyan gül.
Baxım xumar gözlərə,
Sən yuxudan oyan gül.

Yox əzizim yazı qəm,
Qışı mehnət, yazı qəm.
Mən ölsəm sənə qurban,
Sən ölmə, mən yazığam.

Dağlarda gəzən mənəm,
Al geyib bəzənmənəm.
Yuvasız quşlar kimi,
Sərgərdan gəzən mənəm.

Dağlar dağımdı mənim,
Qəm oylağımdı mənim.
Dindirmə, qan ağlaram,
Yaman çağımdı mənim.

Əzizim şəkər canım,
Bu dərdə çəkər canım.
Nə haqqım var, nə muzdum,
Bəylərə nökər canım.

Yox əzizim, gül oldum,
Yandım axır kül oldum.
Bir dil bilməz quşudum
Oxudum, bülbül oldum.

Mənim anam, öz anam,
Qəlbimdəki köz anam.
Yad gələr yalan ağlar,
Qoy ağlasın öz anam.

Məşginin üst dağıyam,
Sözlərin müştağıyam.
Qaşın kimi qaş olmaz,
Gözlərin dustağıyam.

Əzizim üzdən oldum,
Söhbətdən, sözdən oldum.
Bir bivəfa yolunda,
Ağladım, gözdən oldum.

Mən aşiq yara canım,
Qurbandı yara canım.
Tutum qoyum qəfəsə,
Göndərim yara canım.

Qara atın nalıyam,
Üstü ipək qalıyam.
Çəkmə cəfamı, qardaş,
Mən özgələr malıyam.

Dağların qarı mənəm,
Gün vurar ərimənəm.
Qəbrimi quruda qaz,
Cavanam çürümərəm.

Əzizim, yandı bağrım,
Od düşdü, yandı bağrım.
Desəm dilim od tutar,
Deməsəm, yandı bağrım.

Əzizinəm, yüz yerdən,
Əlli yerdən, yüz yerdən.
Qolların sal boynuma,
Ayaxların yüz yerdən.

Köynəyin tikən olsun,
Qatlayıb bükən olsun.
Mənim gözüm səndədi,
Sənə göz tikən ölsün.

Əzizim çeşmə məndən,
Çay məndən, çeşmə məndən.
İnanma yad sözünə,
Yazığam, keçmə məndən.

Mən aşiq şirin-şirin,
De danış, şirin-şirin.
Nə gözəl yaranmısan,
Özü gül, adı şirin.

Əzizinəm, bir də mən,
Doldur içim, bir də mən.
Ömür əzildi, gün keçdi,
Cavan olmam bir də mən.

Mən öldüm ağlamaqdan,
Bağa su bağlamaqdan.
Bağda yarpax qalmadı,
Yarama bağlamaqdan.

O tayda yatan ağlar,
Elini satan ağlar.
Nişanlın apardılar,
Xəbərsiz yatan oğlan.

Əlində bayda gəlin,
Durubdu çayda gəlin.
Allah muradın versin,
Açılan ayda gəlin.

Yox əzizim bir üzdü,
Sonam güldü, bir üzdü.
Üzün qoy üzüm üstə,
Görən desin bir üzdü.

Qar yağdı düzə düşdü,
Sözü Təbrizə düşdü.
Hammıya püşk atdılar,
Ayrılıq bizə düşdü.

Əzizim ağlar qoydu,
Sinəmə dağlar qoydu.
Mən fələyə neylədim,
Qapımı bağlar qoydu.

Mən aşiq, neylim sənə,
Düşübdü meylim sənə.
Mən dönsəm, üzüm dönsün,
Sən dönsən, neylim sənə?

Əzizim dərmə, dərmə,
Xalların dərmə-dərmə.
Yetişmiş narı gördüm,
Çağırır, dərmə-dərmə!

Mən aşığam göz ala,
Gözəl gördüm, göz ala.
Məhəbbət o vaxt olar,
Göyül sevə, göz ala.

Əzizim dağıt üzə,
Saçların dağıt üzə.
Qorxuram bir ah çəkim,
Döndərəm dağı düzə.

Ayağım çay içində,
Gülüm yarpağ içində.
Allah mətləbin versin,
Açılan ay içində.

Əzizim vətən yaxşı,
Köynəyi kətan yaxşı.
Gəzməyə qərib ellər,
Ölməyə vətən yaxşı.

Ay məni götdü qaşdı,
Sümüklərim çaxnaşdı.
Xəvər verin elimə,
Mənzilim uzaxlaşdı.

Əzizim buda məni,
Xənçəl al, buda məni.
Gör nə günə qalmışam,
Bəyənmir bu da məni.

Bayatılar başlandı,
Eşq ürəkdə coşlandı.
Xəbər verin dostlara,
Mənim toyum başlandı.

Səhəndin buz dağları,
Tutubdu toz dağları.
Xudam kömək eyləsə,
Aşaram tez dağları.

Əzizim Xoyda qaldı,
Mərənddə, Xoyda qaldı.
Heyif ki, cavan öldüm,
Gözüm o toyda qaldı.

Bahar gəldi, gül açdı,
Sular dağları aşdı.
Həvəsə gəl, ey gönül,
Hər yan yardı, yoldaşdı.

Ay çıxdı, cilvələndi,
Çöllərə nur ələndi.
Getdi kədər, getdi qış,
Ağaclar qoncalandı.

Mən aşiq yara səni,
Göz gördü, yara səni.
İllər ayrısı canım,
Yetirərəm yara səni.

Gözüm gördü ozanı,
O sultanı, o xanı.
Sinəmə nişan çəkdim,
Gəldim deyim ox hanı?

Bulud getdi, ay hanı?
Qaşın kimi yay hanı?
Gəzdim eli, obanı,
Yara bənzər tay hanı?

Əzizim lalə nədi?
Əldə piyalə nədi?
Eşitsəydin səsimi,
Bilərdin nalə nədi?

Əzizim sözə qaldı,
Bir şirin sözə qaldı.
Yad qoşuldu dağlara,
Yurdu da bizə qaldı.

Urus gəldi dayandı,
Körpə balam oyandı.
Gedin deyin Təbrizə,
Gəncə qana boyandı.

Mən aşiq qız ilməni,
Döşünə düz ilməni.
Vəfalı yar, yar olsa,
Gözləyər yüz il məni.

Əzizim, sini-sini,
Doldur ver sini-sini.
Mən sənə göz tikmişəm,
Neylərəm özgəsini?

Əzizim qara bağı,
Gəncənin qara bağı.
Mən bir ceyran itirdim,
Boynunda qara bağı.

Əzizim odu keçdi,
Qəlyanın odu keçdi.
Gözün kor olsun ovçu,
Ceyranlar odu keçdi.

Savalan buz bağladı,
Dövrü yarpız bağladı.
Yeddi oğullu canım,
Çənəmi qız bağladı.

Ovçu vurar maralı,
Maral düşər yaralı.
Fələk, mən neyləmişdim,
Yardan saldın aralı.

Ağlaram ağlar kimi,
Sel gələr dağlar kimi.
Qəlbimdə yaralar var,
Kürəkdə dağlar kimi.

Bu dağda maral azdı,
Ovçu çox, maral azdı.
Ağlama maral gözlüm,
Ölmərəm yaram azdı.

Mən aşiq ay qabağı,
Buluddur, ay qabağı.
Yetimin üzü gülməz,
Açılmaz qaş-qabağı.

Mən öldüm, anam qaldı,
Oduma yanan qaldı.
Nə dünyadan kaman aldım,
Nə bir nişanəm qaldı.

Əzizim su dayandı,
Su durdu, su dayandı.
Dərdimi suya dedim,
Alışdı su da yandı.

Apardı tatar məni,
Qul edib satar məni.
Vəfalı yarım olsa,
Axtarar tapar məni.

Əzizim yasəməni,
Güllərdən yasəməni.
Özün öldün, qurtuldun,
Batırdın yasa məni.

Əzizim gülün dərdi,
Bağçadan gülün dərdi.
Bülbülü bülbül edən,
Olsa da gülün dərdi.

Gedərəm oturmaram,
Acı söz götürmərəm.
Yüz il ömürdən getsə
Səndən əl götürmərəm.

Gəncənin bu dağları
Gül açmış budaqları.
Ölsəm sinəmdən getməz
Yarımın dodaqları.

Qərənfil qutudadır
Xumar göz yuxudadır.
Qəm yemə, dəli könlüm
Mətləb verən xudadır.

Dolaşdım meşələrdə
Göz yaşım şüşələrdə.
Sən yatdın öz evində
Mən qaldım küçələrdə.

Araz qırağı meşə
Gətir dəsmalın döşə.
Arasına gül düzüm
Yanlarına bənövşə.

Eldən aralar məni
Vurar, yaralar məni.
Gözlərim yolda qalıb
Basır qaralar məni.

Bağa girdim əzəldən
Dəstə tutdum xəzəldən.
Bilsəydim vəfan budur
Dost olmazdım əzəldən.

Yol üstündə var çinar
Yarpağı dinar-dinar.
Bizim bu müşkül işi
Düzəltsin pərvərdigar.

Yaşım üzümdən gedər
Axar gözümdən gedər.
Çəkməyin oğlan adı
Ağlım özümdən gedər.

Yol üstündə var çinar,
Yarpağı dinar-dinar.
Görsəm yüz il yaşaram
Qonaq gəlsə bizə yar.

Əzizinəm güləm mən,
Həyat bağdır, güləm mən.
Çox ağladım, görmədim
Bircə dəfə güləm mən.

Əzizim neylər məni
Apardı sellər məni.
Düşdüm qürbət ellərə
Ağlasın ellər məni.

Qurbanam qız doğana
Kim dedi qız doğ, ana?!
Kişiyə neyləyir ki,
Bizim qız doğan ana.

Qurbanam qız doğana
Dedim ki, qız doğ, ana!
Bəxtəvər olsun başın,
Gözəl qız doğan ana.

Qonşunun qızı Bəsti
Çiyninə qoyub bəsti.
Beləsindən yeddisin
Doğ, kim deyər ki bəsdi.

Əzizinəm Qızqayıt
Kim deyər ki, qız, qayıt?
Ölsə, verrəm canımı
Yalvararam, qız, qayıt!

Mən aşiqəm əsdi yel,
Xəzan gəldi, əsdi yel.
Bağçada gülüm soldu
Nə durmusan, əs, di yel?!

Yaz qabağı sel gələr,
Şimşək çaxar, sel gələr.
Elə can verən oğul
Məzarına el gələr.

Burdan bir maya getdi,
Sallanib çaya getdi.
Cəfa çəkdim, yar sevdim
Əməyim zaya getdi.

Ağlaram aglar kimi,
Dərdim var dağlar kimi.
Xəzəl olub tökulləm,
Viranə bağlar kimi.

Mən asiq bular imiş
Nə sərin sular imiş?
Əzrailin adi var
Can alan bular imiş.

Mən asiq nəçiyəm mən
Xana ərzəçiyəm mən.
Ay ötdü, il dolandı
Dedim dilənçiyəm mən.

Otağını bəzərəm,
Hər bir yerin gəzərəm.
Gözlərəm, sən gəlməsən
Tamam onu pozaram.

Qarabağda talan var,
Zülfün üzə salan var.
Siz allah, qoyun gedim
Gözü yolda qalan var.

Gəlin gedək baş bulağa,
Qoy tökülsün daş bulağa.
Ikimiz qol-qoyun olaq,
Bir axıdaq yaş bulağa.

Dağlari gəzən mənəm,
Əhdim var bəzənmərəm.
Hər dəfə desəm də mən,
Bu dəfə dözənmərəm.

Bu yola yol salardım,
Karvanı bol salardım.
Bilsəydim son görüsdü,
Boynuna qol salardım.

Şirvanın yasdı yolu,
Su gəldi basdı yolu.
Gəlirdim səni görəm,
Əzrail kəsdi yolumu.

Arazı ayırdılar
Daş, qumnan qayırdılar.
Mən səndən ayrılmazım
Zülümnən ayırdılar.

Gecələr, il gecələr
Dərdimi bil gecələr.
Mən burda qərib öldüm
Sən orda gül gecələr.

Üzülmuşəm, üzülmüş
Xumar gözlər süzülmüş.
Olarmı mənim kimi
Dərdi dərdə düzülmüş.

Gözüm qaldı o qaşda,
O kiprikdə, o qaşda.
Məcnun tək divanəyəm
Gəzirəm dağda, daşda.

Göydə ulduz üç keçdi,
Cavan ömrüm puç keçdi.
Fələk gəl sübut eylə
Hansı günüm xoş keçdi?

Qardaşıyam, qardaşı
Qarlı dağdan qar daşı.
Allaha da xoş gələr
Bacı görsə qardaşı.

Qardaş, haray bu gündü
Əydi boynumu kündə.
Gələr gavurlar dinə
Görsə məni bu gündə.

Mən aşiqəm qan eylər,
Arı şumdan şan eylər.
Qarı düşmən dost olmaz
Fürsət düşsə qan eylər.

Mən aşiq yaxdımi gör?
Qızıldan taxdımı gör.
Məndən üzün döndərdi
Dalımca baxdımı gör?

Dağlara duman gəldi
Dolandı, yaman gəldi.
Fələk bir iş işlədi
Ömrümə talan gəldi.

Yaralıyam, yatmaram
Yurd -yuvamı atmaram.
Dərdini tək çəkərəm
Heç dərdlərə çatmaram.

Kür qırağı sərindi,
Oğlan, girmə dərindi.
Səni bu dərdə salan
Bir ala göz gəlindi.

Ağacda xəzələ bax
Dibində gözələ bax.
Ayaq yalın, baş açıq
Sərgərdən gəzənə bax.

Mən aşiq, tikan gülə,
Şeh düşər tikan gülə.
Heç kəs göz tikə bilməz
Özüm göz tikən gülə.

Durdum getdim suya mən
Sudan aldım dua mən.
Qaranquşcan olmadım
Tikəm damda yuva mən.

Addadı kür üstümdən
Atın min, sür üstümdən.
Gələn şəfa təridi
Ağlama, dur üstümdən.

Arazam, Kürə bəndəm,
Bülbüləm, gülə bəndəm.
Vallah çixib gedərəm
Bir şirin dilə bəndəm.

Yaylığın ələmlidir
Ucları qələmlidir.
Nə dinim, nə danışım
Ürəyim vərəmlidir.

Əzizinəm, yar içəridən
Yar bağrımı, yar içəridən.
Gözüm qaldı o viranədə
Çıxmadı yar içəridən.

Bu dağlar almalıdı
Alması qalmalıdı.
Burda bir gözəl gördüm
Qadasın almalıdır.

Qızıl gül həşəm oldu
Dərmədim, həşəm oldu.
Bil, sən gedəndən bəri
Ağlamaq peşəm oldu.

Yarım var bu nişanda.
Dür tökülür danışanda.
Söz vermişəm qaçacağam
Havalar qarışanda.

Qoyunu qoyun gəlsin,
Dərisin soyun gəlsin.
Sizin yar sizin olsun
Bizimki qoyun gəlsin.

Əmim oğlu havada
Quşu saldı yuvada.
Gəl özünü tez yetir
Məni verdilər yada.

Araxaliğin narışdı
Bafdası on qarışdı.
Sən aranda, mən dağda
Bu necə sifarişdi?

Gecə uzun ay batmaz,
Dərdi olanlar yatmaz.
Sənin kimi gözəli
Xuda bir də yaratmaz.

Mən aşiq ağlamazdım,
Gülərdim, ağlamazdım.
Bilsəydim vəfan budu
Sənə bel bağlamazdım.

Dağda duman yeri var,
Qaşda kaman yeri var.
Itirmişəm yarımı
Səndə güman yeri var.

Mən aşiq, bizə gəlsin
Sürmə çək, gözə gəlsin.
Daha səbrim tükəndi
Bəzənsin düzə gəlsin.

Mənim yarım naşıdı
Naşıların başıdı.
Atdananda bəy oğlu,
Düşəndə yüzbaşıdı.

Əzizinəm ha səni,
Haq saxlasın ha səni.
Xəsdə könlü nar istər,
Mənim könlüm ha səni.

Bağça məndə, bar məndə
Heyva məndə, nar məndə.
Könlüm ətdar dükanı
Hər nə desən var məndə.

Su gəldi qara dəydi
Kəklik dağlara gəldi.
Dili qurumuş canım
Nə dedim yara dəydi?

Mən aşiq, dedi məni
Qurd oldu, yedi məni.
Bir namərdə sirr verdim
Aləmə dedi məni.

Əzizim, uymamışam
Baş yastığa qoymamışam.
Sən məndən doymusansa,
Mən səndən doymamışam.

Əzizim əsdi getdi,
Səbrimi kəsdi getdi.
Qoymayın, ay adamlar,
Yar məndən küsdü getdi.

Dağları gəzdim gəldim,
Daşları düzdüm gəldim.
Yarı bivəfa gördüm
Əlimi üzdüm gəldim.

Əzizim, nəynən alım
Nəğməynən, neynən alım.
Küsdürüb yola saldım
Könlünü nəynən alım.

Mən aşiq öz dərmanı
Kəbaba köz dərmanı.
Ayağın dəyən yerdən
Götürrəm göz dərmanı.

Mən aşiq dolan bağı,
Gəz bağı, dolan bağı.
Zülfündən öyrənmişəm
Başına dolanmağı.

Zülfünü daramısan,
Yumusan, daramısan.
Çox da gözəl deyildin
Könlümə yaramısan.

Əziziyəm keçdi məndən
At oxun, keçdi məndən.
Yaxşıya körpü oldum
Yaman da keçdi məndən.

Əziziyəm, bir ay var
Bir ulduz var, bir ay var.
Gündə yarı görərdim
Görmədiyim bir ay var.

Mən aşiq, bu dağınan
Yol gedər bu dağınan.
Sənən yaxşı deməzlər
Mən ölsəm bu dağınan.

Mən aşıq, incə belə
Kəmər vur incə belə.
Qulpun sınsın, ay səhəng,
Minmisən incə belə.

Bulaq başı toz olar,
Üstü gəlin, qız olar.
Sirr verirsən qıza ver,
Gəlin hiyləbaz olar.

Göydə gedən quşa bax,
Ayağında daşa bax.
Kağız yazıb yolladım
Üstündəki yaşa bax.

Dağ ayrı, duman ayrı,
Qaş ayrı, kaman ayrı.
Sevişdik ayrı düşdük,
Gələn bir zaman ayrı.

Göydə bulut bəstidi,
Qapım yolun üstüdü.
Bir səhər gəl, bir axşam,
Görən desin dostudu.

Tut ağacı deyiləm,
Hər gələnə əyiləm.
Əyil öpüm üzündən,
Mən özgəsi deyiləm.

Bu qala daşlı qala,
Yolları daşlı qala.
Qorxuram düşəm öləm,
Yar gözü yaşlı qala.

Su gələr axar gedər,
Yar gələr, baxar gedər.
Dünya bir pəncərədi,
Hər gələn baxar gedər.

Qarabağın yolları,
Xırda tikan gülləri.
Eşitmişəm yar gəlir
Sulamışam yolları.

Pəncərədən baxdı yar,
Döndüm gördüm yoxdu yar.
Nə məndə taqət qoydu,
Nə özündə ixtiyar.

Açıq qoy pəncərəni,
Gözüm görsün gələni.
Necə qəbrə qoyallar,
Yar dərdindən öləni?

Arazam Kürə bəndəm,
Bülbüləm gülə bəndəm.
Mən gedərgi qonağam,
Bir şirin dilə bəndəm.

Ayağında yəməni,
Öldürdü qüssə məni.
Dəsmalın kəfən elə,
Göz yaşınla yu məni.

Gəliri qız çəməndə,
Yadigar istər məndən.
Nə tez mənlən dost oldun,
Nə tez ayrıldın məndən?

Eyvan güllü olaydı,
Gül sünbüllü olaydı.
Kaş ki sevdiyim gözəl
Şirin dilli olaydı.

Söz dedin aldı məni,
Çöllərə saldı məni.
Dilin şahmar ilandı,
Nə dedim, çaldı məni.

Dişlərin iki dəndi,
Dürdəndi, incidəndi.
Özün əcəb gözəlsən,
Dilin can incidəndi.

O tayda quzu gördüm,
Tükü qırmızı gördüm.
Açdım cənnət bağını,
Sevdiyim qızı gördüm.

Araz kimi axaram,
Yandıraram yaxaram.
Gözlərində gözüm var,
Həsrət ilə baxaram.

O şirin sözlərindən,
O ala gözlərindən.
Bilsəydim ayrılıq var,
Öpərdim gözlərindən.

Damnan dama damımız,
Qoşadır eyvanımız.
Sən ordan çıx, mən burdan,
Kor olsun duşmanımız.

Armud ağacı haça,
Gülüm dolaşma qoşa.
Bir mərd oğlan istədim,
Məni götürə qaça.

Gündüz ulduz əllidi,
Əllisi də bəllidi.
Mən yarımı tanıram,
Qaş-gözündən bəllidi.

Durma qapı dalında,
Gözüm qaldı xalında.
Gedim deyim anama,
Gəlim qalım yanında.

Ağacda bara baxmaz,
Heyvaya, nara baxmaz.
Gözlərim səni gözlər,
Ayrı bir yara baxmaz.

Bu dağdan atılaydım,
Qul olub satılaydım.
Bivəfa yar əlindən,
Öləydim qurtulaydım.

Qovun kəsdim yeyən yox,
Heç dərdimi bilən yox.
Yarımdan ayrı düşdüm,
Heç bir yazıq deyən yox.

Pəncərəni mıxlaram,
Dalısında yoxlaram.
Desələr yarım gəlir,
Qaçaram, qucaxlaram.

Arazda yerim coşam,
Kor deyiləm qaynaşam.
Apar sərraf yanına,
Gör nə qiymətli daşam.

Araxçınım səndədi,
Sərmişəm, çəməndədi.
Dünya gözələ dönsə,
Mənim gözüm səndədi.

Əzizim qar üstündə,
Nur dönüb, qar üstündə.
Mən bu hala düşmüşəm,
Bivəfa yar üstündə.

Ağacda göy çağala,
Dövrəsin yarpağ ala.
Allah bir qayda qoya,
Sevən, sevəni ala.

Əlində maşa qaldı,
Tutmadım, daşa qaldı.
Zəhmət çəkdim yar sevdim,
Mənə tamaşa qaldı.

Alma atdım, nar gəldi,
Kətan köynək dar gəldi.
Qonşuya kölgə düşdü,
Elə bildim yar gəldi.

Mən aşiq lalə dağı,
Bürüyüb lalə dağı.
Hər nə yara sağalsa,
Sağalmaz bala dağı.

Qapıdan biri gəldi,
Gözümün nuru gəldi.
Bu arxı kim arıtdı,
Su belə duru gəldi.

Burdan uzaq Gəncədi,
Gülləri sər pəncədi.
Ölüm dərddən qurtarar,
Ayrılıq işgəncədir.

Təbriz üstə güneydü,
Şüşələr dolu meydi.
Yardan bir kağız gəlib,
Bütün ərzi -gileydi.

Qızıl iynənin sapı,
Görsənmir sizin qapı.
Məni yardan eyləyən
Dolansın qapı-qapı.

Ahu kimi gözlərin,
Şirin-şirin sözlərin.
Mən səndən əl çəkmərəm,
Qucaxlama dizlərin.

Bir gül əkdim duvara,
Bülbül gələ suvara.
Yayı sənlən yayladım,
Qışı qaldım avara.

Araz axır qiyqacı,
Bir gülən bir cüt bacı.
Biri mənim öz yarım,
Biri başımın tacı.

Aşıq qaralar məni,
Zülfün qaralar məni.
Xəyalınla yatmışdım,
Basdı qaralar məni.

Araz buruldu getdi,
Suyu duruldu getdi.
Mən dedim yar incidi,
Demə yoruldu getdi.

Araz daşı, daş daşı,
Qələmdi yarın qaşı.
Çirkin ilə bal yemə,
Gözəl ilə daş daşı.

Ay qız adın Hürüdü,
Duman dağı bürüdü.
Sən mənə qay olmasan,
Cavan ömrüm çürüdü.

Bu bağçada bar şirin,
Heyva şirin, nar şirin.
Sağ olsun qohum– qardaş,
Hamısından yar şirin.

Gecələr yatan yerə,
Gün gedər batan yerə.
Sinəmi susan qoyam,
Yar oxun atan yerə.

Əzizim, küsmə məndən,
Ayrı su içmə məndən.
Baxma yadlar sözünə,
Yazığam keçmə məndən.

Bir daş atdım almaya,
Daş almada qalmaya.
Allah qızı yaradıb,
Oğlan subay qalmaya.

Apar məni bəndə ver,
Zülfündən kəməndə ver.
Dünya gözələ dönsə,
Mənim gözüm səndədir.

Baxçalarda saz olar,
Gül açılar, yaz olar.
Mən sənə gül demərəm,
Gülün ömrü az olar.

Gözlərim nəmdir mənim,
Yaş axar, nəmdir mənim.
Sayrıyam sağalmanam,
Hec bimən, nəmdir mənim.

Aşiqəm dər düzünə,
Dür düşmüş dər yüzünə.
Dərman deyib gəzərdim,
Düşmüşəm dərd yüzünə.

Aşiq nəvasi gəlir,
Xalın nəvası gəlir.
Səhər-səhər bülbülün,
Görün, nəvası gəlir.

Aşiq yaralar məni,
Zülfün qaralar məni.
Xəyalınla yatmışdış,
Basdı qaralar məni.

Mən aşiq, yar diyarı,
Bayqunun yar diyarı.
Bir yana durun dağlar,
Görünsün yar diyarı.

Dağlar qara zil oldu,
Yağdı, qar əzil oldu.
Səndən ayrı bir günüm
Mənə, qərəz il oldu.

Aşiq qana dəgəndə,
Qəmzən qana dəgəndə.
Sonada canım qalır,
Tərlan qanad əgəndə.

Ördək göldə üzüşür,
Calxalanur üzüşür.
Bad əsir, zülf dağılır,
Sayə düşür, üz üşür.

Aşiqəm, yara məndə,
Sızıldar yara məndə,
Ölür olsam dirilləm,
Ləbindən, yar əməndə.

## XALÇA-HANA MAHNILARI

Milat bağında yatdım,
Hər fikri başdan atdım.
Çəkmədi on yeddi gün,
Bir xalçanı çıxartdım.

Həyətdəri şaftalı,
Firəngi don baftalı.
Səndən budur xahişim,
Keçəl başın çək dalı.

Çox xoş oxur qənarə,
Çıxmamışam nahara.
Ömrüm qurtuldu Allah,
Çıxmadı bu kənara.

Alça gülü alçada,
Düşüb qaldı xalçada.
İpi yığıb qoymuşam,
O da qaldı dolçada.

Bu xana, həndi xana,
Ayağın bəndi xana.
Kəsəydim tezcə səni,
Gəzəydim kəndi xana.

Əziziyəm, yaxına,
Çörəyi ver yaxına.
Küt qayçını, bıçağı,
Qoyma gələ yaxına.

Dilimin andı, xana,
Dizimin bəndi, xana.
Yaxşı toxun, tez kəsil,
Bir gəzim kəndi, xana.

Xalçaya bax, xalçaya,
Bənzəyir axar çaya.
Sahilləri bəzənib,
Çiçək açmış alçaya.

İlmələrim gül açıb,
Buta salıb, gül açıb.
Mən xalı toxumuşam,
El qatlayıb, el açıb.

Xanam haçaq kəsilib,
Üzü saçaq kəsilib.
Üstə çinar toxunub,
Əyri budaq kəsilib.

Xalçanın gülünə bax,
İlmənin dilinə bax.
O yanda ocağına,
Bo yanda gölünə bax.

Gəvəni daraqlaram,
Əlimdə pardaqlaram.
Nəvəmin toy gününə,
Yük üstündə saxlaram.

Xalçada tağ görmüşəm,
Tağda çıraq görmüşəm.
Aydırmı, ya daşdır mı?
Yoxsa oraq görmüşəm?

Əriş, arğacım hanı?
Qardaşım, bacım hanı?
Ayda bir xana yapan,
Əvvəlki canım hanı?

Maralın izi hanı?
O qara gözü hanı?
Kirkit sən buynuzusan,
Bəs maral özü hanı?

Əzizim, yoxdur dönüm,
Yarımdan yoxdur dönüm.
Əlimdə bu sənət var,
Xalqıma yoxdur ölüm.

Nənə, telinə qurban,
Şirin dilinə qurban.
Aç xalını, toyumdur,
Gətir əlinə qurban.

Darağım, ay darağım,
Mənim ömür darağım.
Can kitabım oxunub,
Qalıb bircə varağım.

Səhralara gül düşər,
Çəmənzara gül düşər.
Saya xalça toxunsa,
Ortasına gül düşər.

Qalmazsan sən xaradan,
Atlasdan, zərxaradan.
Həşyələrin döşənib,
Qırmızıdan, qaradan.

İpləri qara çəkdin,
Ağ çəkdin, qara çəkdin.
Qurduğum xana kimi,
Eşqimi dara çəkdin.

Cehizim gəvədəndir,
Yünü nər dəvədəndir.
İlmələr çiçək açır,
Kirkitlər həvədəndir.

Xalçanı buta bəzər,
Buta buluda bənzər.
Bu yanda qırqovula,
O yanda oda bənzər.

Xalça naxış-naxışdır,
Bu bulud, bu yağışdır.
Yeri canlı bahardır,
Köbəsi qarlı qışdır.

Xalçadan dünəni sor,
Torpağa dönəni sor.
Gün təkin alışanı,
Ay təkin şönəni sor.

Bu xalça Qımıldı mı?
Naxışı alvandı mı?
Qışın loğman çağında,
Ondan gül umuldumu?

## SAYALAR

Nənəm qoyunun ağı,
Dolandı, gəldi dağı.
Çobana çarıq bağı,
Qızlara cehiz ağı.

Oğul baxar dağlara,
Sel tək axar dağlara.
Arandan dönən sürü,
Yayda çıxar dağlara.

Toxlu kəssən ət olar,
Çobana fürsət olar.
Sürüdən ayrı düşən,
Yüz qurda qismət olar.

Qoyun var, kərə gəzər,
Qoyun var, kürə gəzər.
Gedər dağları otlar,
Gələr evləri bəzər.

Saya gəldi, görünüz,
Salam verdi, alınız.
Alnı təpəl quzunu,
Sayaçıya veriniz.

Saya, saya mayadan,
Qoyun gəlir qayadan.
Sayaçıya pay verin,
Damazlığa mayadan.

Sürüdə var az qoyun,
Kef – damağı saz qoyun.
Çoban qurddan çəkinsə,
Çölə çıxanmaz qoyun.

Nənəm a xallı keçi,
Məməsi ballı keçi,
Uca qaya başında,
Tutubdu yallı keçi.

Nənəm, a qatar keçi,
Qayada yatar keçi.
Qış soyuğu gələndə,
Balanı atar keçi.

Qoyunun ucu gəldi,
Dolandı köçü gəldi.
Sürünün qabağında,
Bir ala keçi gəldi.

Çal-çevrə əbrəş qoyun,
Dağlarda yerləş, qoyun.
Işdir yerin dar olsa,
Qoynumda əyləş, qoyun.

Canım, a qəmər qoyun,
Quzusu əmər qoyun.
Yiyən sənin sayəndə
Bağlayıb kəmər, qoyun.

Nənəm a narış qoyun,
Yünü bir qarış qoyun.
Çoban səndən küsübdür,
Südü ver, barış, qoyun.

Saya-saya sayadan,
Damazlığın mayadan,
Saya gəldi gördünmü?
Salam verdi aldınmı?

Saya yaxşı sayadı.
Yeri-yurdu qayadı,
Onun gözəl sözləri,
Yatanları oyadı.

Canım, a qəmər qoyun.
Balası əmən qoyun.
Yeyən sənin sayandar,
Bağlayıb kəmər qoyun.

Canım, o ala qoyun,
Çıxıbdı bala qoyun.
Yiyən səni sayandan,
Gedər qız alar, qoyun.

Qoyunlu yerlər gördüm,
Qurulmuş yaya bənzər.
Qoyunsuz yerlər gördüm,
Qurumuş çaya bənzər.

Təkə gəlir havadan,
Qanadları yel qoyun.
Gətir təkənin payın,
Xanım, evin avadan.

Ağ qoyun, ağı göyçək,
Boynunda şalı göyçək.
Səni sağan gəlinin,
Üzündə xalı göyçək.

Ağ quzu kərə gərək,
Göy üzü kürə gərək.
Hər qoyun döl üstündə,
Bir quzu verə gərək.

Gəlinin dodağı bal,
Durub qabağımda lal.
Gəlin, tez ol pay gətir,
Sayaçını yola sal.

Qoyun deyir: qoyunam,
İçi dolu oyunam.
Qışda geyən kürkümü,
Yay olcağın soyunnam.

Qoyun deyər: kür mənəm,
Hər qapıdan girmənəm.
Girdiyim qapıları,
Bərəkətsiz görmənəm.

Bala-bala çəpişlər,
Yovşanın başın dişlər.
Gedər dağları gəzər,
Gələr aranda qışlar.

Qoyun var, kərə gəzər,
Qoyun var, kürə gəzər.
Gedər, dağları otlar,
Gələr, evləri bəzər.

Yeyər-yeyər, gərnəşər,
Ayağıyla yer eşər.
Gəzər dağlar döşünü,
Buynuz vurar düyüşər.

Qoyun gəlir, yol olsun,
Yolun sağı sol olsun,
Yaxşı otar sürünü,
Südü, yağı bol olsun,

Açdım, yazılar gördüm.
Nə tamarzılar gördüm.
Çoban dağdan yenəndə,
Çoxlu quzular gördüm.

Sürüdə var az qoyun,
Kef-damağı saz qoyun.
Çoban qurddan çəkilsə,
Çölə çıxanmaz qoyun.

Yerin dağ olsun, çoban.
Kefin çağ olsun, çoban,
Sürünü yaxşı saxla,
Üzün ağ olsun, çoban.

Nənəm, a şeşək qoyun,
Yunu bir döşək qoyun.
Bulamanı tez gətir,
Ağlaşır uşaq, qoyun.

Nənəm o nazlı qoyun,
Qaravul gözlü qoyun,
Pəniri kəsmə-kəsmə,
Qatığı üzlü qoyun.

Nənəm, a səkil qoyun.
Başındakı tel qoyun,
Ay qaranlıq gecədə,
Arğaca çəkil, qoyun.

Canım a qızıl qoyun,
Yollara düzül, qoyun,
Kəsilməsin damazlıq
Ömür elə yüz il qoyun.

Nənəm o xallı qoyun,
Məməsi ballı qoyun,
Sürü dağdan yenəndə,
Tutarıq yallı, qoyun.

Nənəm alabaş qoyun,
Qarlı dağlar aş, qoyun,
Qaranlıq gecələrdə
Çobana yoldaş, qoyun.

Sürünün gözü qoyun,
Dolan gəl düzü, qoyun.
Ildə bir əkiz gətir,
Sevindir bizi, qoyun.

Dağlardan yendi qoyun,
Dolaşdı bəndi qoyun.
Süd – qaymağı bol elə,
Sevindir kəndi, qoyun.

Qoyunun üçü gəldi,
Dolandı köçü gəldi.
Sürünün qabağında,
Bir ala keçi gəldi.

Dolandı, gəldi dağı,
Qırpar qaya qırağı.
Içər sərin bulağı,
Qoyunun yunu güldü.

Canım qərəbaş qoyun,
Qarlı dağlar aş, qoyun.
Üç gün, üç gecə keçər,
Kosaya yoldaş qoyun.

Canım a qatır keçi,
Qayada yatır keçi.
Qış soyuğu gələndə,
Balanı atar keçi.

Qoyun baxar dağlara,
Sel tək axar dağlara.
Aranda olan sürü,
Yayda çıxar dağlara.

Kosa gəlir, görün,
Salam verir, alın.
O alaqərə quzunu,
Kosaya bir pay verin.

Kosa gəlir haradan,
Səqqəli yel qavadan.
Kosanın payın gətir,
Xanım evin abadan.

Ay canım, ağbaş qoyun,
Qarlı dağlar aş, qoyun.
Yağından pilov olar,
Quyruğundan aş, qoyun.

Dağları, dərələri,
Daşları, bərələri,
Oturun qoyun sağın,
Çox olsun kərələri.

Qoyun gəlir, yol gəlsin,
Bayram ayı döl gəlsin.
Yaxşı qoyun otarın,
Südü, yağı bol gəlsin.

Nənəm qoyunun ağı,
Gedib dolanar dağı.
Gəlin yemir qaymağı,
İstəyir qoyun yağı.

Nənəm qumral, tat qoyun.
İldən ilə art qoyun.
Balalar ölməkdədi.
Gəl olma namart qoyun.

## HOLAVARLAR

Dağ döşündə yatanda,
Gün çıxar, ay batanda.
Hodaq murada çatar,
Torpaqdan bar alanda.

Qara kəlim aranda,
Çıxar gün qızaranda.
Hodaq murada çatar,
Kəlindən bar alanda.

Hay da, ay kəlim, hay da,
Dövlətim, malım hay da.
Qara şumu vur başa,
Qadanı alım hay da.

Bir dəyəlik çətənə,
Bağlanıbdır kotana.
Qara kəlim yalvarır
Kotan macı tutana.

Ay gedər ay batana,
Qalmayaq el yatana.
Xan öküzüm insaf et,
Xışın macın tutana.

Dağ döşündə yatana,
Gün gedər ay batana.
Qara öküz qarğayar,
Cütün macın tutana.

İş qalar cüt qırılsa,
Cüt öküzlər yorulsa.
Hodaq səni qınaram,
Çəkən öküz vurulsa.

İşinə diqqət elə,
Özünü al bir ələ.
Başınamı gedirsən,
Gədə belədən-belə.

Hola dedim, düşdü mac,
Göydə oynadı qırmanc.
Öküzlər ota getdi,
Qara kəlim qaldı ac.

Öküzüm gedər işə,
Qorxuram bağrı pişə.
Nola bir bulud gələ,
Göydən yerə nəm düşə.

Xəşıl parası hanı?
Hodaq havası hanı?
Yuxu tutdu yıxıldın,
Bunun qafası hanı?

Məjqəl hodağın hanı?
Daşın, torpağın hanı?
İşləyib yorulubsan,
Balın, qaymağın hanı?

Təpəl öküz, mələmə,
Yeminə naz eləmə.
Tanrı muradın versin,
Məni məğmun eləmə.

Məjqəl olan yana bax,
Bax bu gələn cana bax.
Əvvəl arıq qız idı,
Dolub ətə, qana, bax.

Xan öküzüm aladı,
Bir alınmaz qaladı.
Çək dedimmi çəkəcək,
Yaman üzüyoladı.

Öküz qıymaz canını,
Bilməz qamçı sanını.
Qayış çəkən qaşqa kəl,
İş üstündə tanını.

Qara kəl, ilim barı,
De dərdin bilim barı.
Məni məğmun eyləmə,
Açılsın dilim barı.

Öküzüm qoşa gəldi,
Yerişi xoşa gəldi.
Bir hay verdim dar gündə,
Qeyrətə, coşa gəldi.

Herik yeri, xan yeri,
Qan ayağı, qan yeri.
Tərpən, ha kəlim tərpən,
Sökülübdür dan yeri.

Arabanın təkəri,
Qara kəlin çəkəri.
Özgə işdə ağayam,
Öz işimin nökəri.

Rəhmət atana, hodaq,
Macı tutana hodaq.
Öküzün tənbəlini
Qoşma kotana, hodaq.

Qızıl öküzüm yeri,
Qoyma şum qala geri.
İti tərpən maralım,
Düşmənlər baxır bəri.

Öküz, boynun bağlaram,
Düşmən gözün dağlaram.
Payını dərin götür,
Sənə yonca bağlaram.

Başına mən dolanım,
Mən dönüm, mən dolanım.
Ölmə, ölmə yazığam,
Kölgəndə mən dolanım.

Telli mərcan, bizə gəl,
Dağdan yenib düzə gəl.
Dırnağının izilə,
Torpağımı bəzə, gəl.

Şumla, təpəl, ək, təpəl,
Torpağa tər tök, təpəl.
Boynunu mən yağlaram,
Qorxma yükü çək, təpəl.

Boynunu mən yağlaram,
Yaman gözü dağlaram.
Tez çək, maral öküzüm,
Geri qalsam ağlaram.

Yetişib yaz, öküzüm,
Eyləmə naz, öküzüm.
İşə olan həvəsdə,
Gəlib avaz öküzüm.

Qara kəlin sucundan,
Qabar getməz ucundan.
Qara şumun toz olar,
Bərk tutmasan macından.

Öküzüm birdir mənim,
Taleyim gürdur mənim.
İki oldu öküzüm,
Qaraçuxam dürdür mənim.

Kotanı sazla, oğlum,
Əkini tozla, oğlum.
Kəlini yaxşı saxla,
İşə qoş yazda, oğlum.

Tək xışım cüt öküzüm,
Cüt sürək közüm-közüm.
Öz əlim, öz əməyim,
Özgədən umma, gözüm.

Öküz qayıtdı qaşdan,
Ay Tanrı, saxla başdan.
Bədnəzər qabaqdadır,
Yolunu sal bu başdan.

Öküzüm nərdi, baxın,
İncitməz mərdi, baxın.
Dərdə düşüb eşinir,
Çəkmərəm dərdi, baxın.

Yeri öküz, yeri tən,
İşi eylə bəri sən.
Sök yerin damarını,
Xam torpağa yerisin.

Huşun başında olsun,
Əlin işində olsun.
Döyülürsən boş yerə,
Canın dişində olsun.

Dağların enişi var.
Diki var, enişi var.
Cütə gedən öküzün,
Özünün yerişi var.

Kotanın qılıncı var,
Yaxşı iti ucu var.
Xuzeyinin bizlərə,
Kəsmək üçün qoçu var.

Kotan gedər, iz açar,
Qara torpaq göz açar.
Gəlib–gedən qız-gəlin,
Məjqəldən də söz açar.

Kotanın xopu olar,
Gədənin gopu olar.
Məjqəlin də üzünə,
Açılan qapı olar.

Holay-holay holaylar,
Qalayçı qab qalaylar.
Qudrətli öküz gətir,
Batıb qalar, qolaylar.

Öküz tər tökər, gedər,
Torpağı əkər, gedər.
Tutar yerin damarın,
Bağrını sökər, gedər.

Öküzlərim naz eylər,
Quyruq bular, toz eylər.
Hər axşam gün batanda,
Kövşəndə pərvaz eylər.

Qara kəlim naz eylər,
Quyruq bular toz eylər.
Ay qaranlıq gecədə,
Kotanı pərvaz eylər.

Əkinçi əkin eylər,
Şum çəkib səfin eylər.
Öküzü arıq olan,
Hər işi çətin eylər.

Qara kəlim san gəlir,
Öküzlərdən yan gəlir.
Gecə-gündüz işləyir,
Dırnağından qan gəlir.

Hodaq yatmaz, ayıqdır,
Yüz tərifə layıqdır.
Dözər hər əziyyətə,
Deməz isti, soyuqdur.

Qara kəl boyundadır,
Buynuzu oyundadır.
Qara kəlin kallığı,
Otunda, suyundadır.

Çəkən öküz mərd olur,
Çəkməyənə dərd olur.
Tənbəl öküz yeyəsi,
Xəcil olur, pərt olur.

Haqqa bağla arzunu,
Cüt sür şumun üzünü.
Tanrı, Məhəmməd desən,
Tanrı verər ruzunu.

Oho... kotan öküzü,
Oho... atam öküzü.
İlan, çayan dişləsin,
Şumda yatan öküzü.

Qızıl öküz, xan öküz,
Dırnaqları qan öküz.
Sən kotana güc eylə,
Mən də deyim “can”, öküz.

Bizim öküz, boz öküz,
Qoparıbdı toz öküz.
Alıb yerin canını,
Çıxsın yaman göz, öküz.

Mənim kəlim, nər kəlim,
Quyruq vurar, toz eylər.
Çiyni ilə çəmən sökər,
İyəsin şahbaz eylər.

# NAPILLAR

## TÜLKÜ VƏ AYI

Biri var idi, biri yox idi, Allahdan savay bir kəs yox idi. Bir kəndin yaxınlıqlarında bir tülkü bir böyük təpənin başında yuva qurmuşdu. Kəndə keçən əhvalatdan xəbər tutub öyrəndi ki, xanın oğlunun toyudur, ona dedilər ki, gedirlər ki, o biri kəndin xanının qızını bu biri xanın oğluna gəlin gətirsinlər. Tülkünün tülkülüyü tutdu və başından hoqqalar gəlib keçdi. Axşam çağı idi, gördü ki, kəndin yuxarı başında yerləşən xan evinin qabağında aşıq dəstələri döhül və zurna çalırlar və xanın adamları at oynadıb, at çapırlar. Tülkü gəldi, kənd yolunun qırağına və yolun qırağında özünü vurdu tülkü ölümünə. O zaman tülkünün dərisi çox qiymətli bir geyim idi. At çapanların biri onun dərisindən gəlir ələ gətirmək üçün onu yerdən götürüb gəlin atının tərkinə bağladı və kəndə gətirdi. Camaat toy ənənələrinə məşğul idi ki, tülkü gəlinin toy köynəyini qovzayıb girdi altına. Dedi:

– Ay gəlin bacı, boyunbağını mənə verməsən, qışqırıb deyəcəyəm ki, ay camaat, gəlin ki gəlin, birin o...!!!

Gəlin abrının qorxusundan boyunbağını açıb ona verdi. Sonra tülkü dedi:

– Əgər qolbağılarını mənə verməsən, qışqıracağam ki, ay gəlin ha, gəlin abrının qorxusundan boyunbağını mənə rüşvət verdi ki, deməyim, gəlin çıdırda birin o...

Gəlin qolbağını da ona verir. Tülkü deyir, mənim qollarımı açmasan yenə qışqıracağam ki, gəlin çıdırda o.... gizlətmək üçün mənə rüşvət verir...

Gəlin tülkünün əl-ayağını açır, tülkü qaçıb aradan çıxdıqda qışqırır ki, ay gəlin ha, gəlin çıdırda birin o... Xanın adamları tülkünü qovalayırlar ki, tutsunlar, lakin tülküyə çata bilmirlər, tülkü qaçır aradan çıxır.

Tülkü gedir bir təpənin başında oturur, muncuqları, boyunbağıları düzür bir-birinə, bağlayır quyruğuna! Canavar oradan

ötəndə görür ki, tülkünün quyruğunda bahalı-bahalı boyunbağılar var, deyir:

– Tülkü qardaş, bunları haradan oğurlamısan?

Tülkü onun bu sözünə əsəbi olur, deyir:

– Axmağın biri axmaq, niyə töhmət vurursan, mən yeddi gecə-gündüz Qəhrəmanın qərə gölündə quyruğumu qoymuşam, suya demişən: "İncim, düzül, incim, düzül!". Sonra quyruğumu sudan çəkmişəm eşiyə, bir belə muncuq sudan eşiyə gətirmişəm. Sənin də karın karsa, sən də get belə elə.

Canavarın da ağlına batır, gedir Qəhrmanın qərə gölündə quyruğunu qoyur buzlu suya. Bir-iki gün keçəndən sonra, canavarın quyruğu suda buz bağlamışdı. Kəndin çobanı qoyununu ora suvarmağa aparırdı ki, gördü suda bir canavar var. O itləri küsgürdü və itlər tökülüb canavarı didişdirəndə canavar özünə təkan verdi ki, qaçsın. Canavar qaçdıqca quyruğu qopub buzlu suda qalır. Canavar qaçır, gəlib görür ki, tülkü bir təpənin başında yan-yörəsinə də bir az çarıqçı vəsaqili yığıb, çarıq tikməklə məşğuldur. Canavar əsəbiləşib deyir:

– Sən məni bilə-bilə Qərəmanın qərə gölünə göndərdin, çoban itləri məni bu günə qoydu, niyə mənə yalan söylədin?!

Tülkü deyir:

– Səni itlər çün qovalayıb, sənin həsirin çıxıb, ağlın işləmir. Mən heç vaxt səni görməmişəm. Neçə ildir ki, burada çarıq tikirəm. Sən deyən sözlərdən də xəbərim yoxdur.

Canavar yenə onun sözlərinə toxlanıb deyir:

– Tülkü qardaş, mənə də çarıq tikmək öyrət.

Tülkü deyir ki, yaxşı, sən dilini çıxart qoy bu çarıq gönünün üsdümə! Canavar dilini çıxardıb qoyur çarıq gönünün üsdünə, tülkü çarıq bizini qoyur canavarın dilinin üstünə, möhkəm bir zərbə vurur, canavarın dili yapışıb mıxlanır yerə. Canavar qışqıra-qışqıra qalır, özünü dartır o yan – bu yana, dili parçalanır. Düşür tülkünün ardına ki, onu tutsun, öldürsün. Tülkü də var gücüylə qaçır, görür ki, canavar ona çathaçatdadı, qaçır girir yaxınlıqda olan bir dəyirmana, dəyirmançıya deyir:

– Köpəkoğlunun ilxısına naxoşluq gəlib. Deyirlər gərək dəyirmançı beyni yesin! Gəl paltarımızı dəyişdirək, bəlkə səni görməyələr.

Tülkü ilə dəyirmançı paltarlarını dəyişirlər. Canavar yetişir dəyirmana və ucadan qışqıra-qışqıra deyir:

– Ay hoqqabaz tülkü, səni öldürəcəyəm.

Tülkü deyir:

– Sənin nə haqqın var mənə töhmət vurursan, neçə ildir ki mən burada dəyirmançılıqla məşğulam, burada o peşə ilə əhl-əyalımın çörəyini dəyirmançılıqdan çıxardıram. Qaç get işinin dalınca, yoxsa gedib kətxudaya şikayət edərəm.

Canavar bir söz deməz, bir az susandan sonra deyər:

– Tülkü qardaş, mən daha yorulmuşam, mənə də dəyirmançılığı öyrət. Bəlkə başımı saxlayım.

Tülkü deyir ki, yaxşı, gəl buraya öyrədim. Tülkü gücilən dəyirman daşını qovzayar, canavara deyər, başını qoy daşın üstünə. Canavar başını dəyirman daşının üstünə qoyar, tülkü gedər suyu dəyirman arxına qoyar ki, pər işə düşsün, dəyirman işə düşəndən sonra canavarın baş-qulağı əzilər. Tülkü işi belə görəndən sonra başlayar qaçmağa. Tülkü gedib bir təpənin başında bir az qərmə çubuğu tapıb, onlarla səbəd toxumağa başlayar. Canavar gələr, tülkünü tutar və deyər, bu dəfə səni öldürəcəyəm. Tülkü deyər ki, ay canavar qardaş, mən səni indi görürəm, axı sənin mənimlə nə işin, mən bir neçə ildir ki, səbəd toxumaq işiylə məşğulam. Burada səbəd toxuyuram, satıram çobanlara, əhl-əyalımı saxlayıram, gəl keç buradan, mənə məzahəm olma, Allaha xoş gəlməz, mənə əziyyət eləsən. Canavar daha bir söz deməz, elə orada oturar, deyər:

– Tülkü qardaş, sən Allah, gəl bu işi mənə də öyrət.

Tülkü deyər ki, eybi yoxdur, gəl keç səbədin içinə, öyrədim. Canavar deyər:

– Tülkü qardaş, bəs mən hardan çıxacayam?

Deyər:

– Mən səbədə qapı açacağam, sən nigaran olma. Səbəd toxunub qutarar, canavar qalar səbədin içində. Tülkü səbədin

çölünü zigələk suvayar, canavar qalar səbədin içində. Sonra tülkü səbədin eşigini palçığılan suvayar, canavar qalar qaranlıqda. Tülkü yaxınlıqda qoyun otaran çobanı səslər, deyər:

– Ay çoban, gəl ha, bir bal pətəyi tapmışam.

Çoban gəlib səbədi görüb inanar. Tülkü deyər:

– Bir quzu ver, bal pətəyini sənə verim.

Çoban gedib bir quzu gətirər. Tülkü quzunu alar və suvaxlı səbədi çobana verər, quzunu götürüb aradan çıxar.

Çoban suvaxlı səbədi aparıb evində saxlar, bir neçə gündən sonra onun evinə bir qonax gələr və çoban anasına deyər:

– Ay ana, o bal pətəyinin ağzını aç qonağa bal gətir.

Çobanın bacısı gedər əlini soxar ki, pətəyin içindən bal çıxartsın. Canavar qızın əlini dişlər, qız qışqırar. Qızın anası gedər, əlini səbədə salıb bal götürəndə canavar ananın da əlini dişlər. Çoban ilə dosdu durarlar, görərlər ki, səbəddə bir qara canavar var, onlar canavarı vurub öldürürlər.

Tülkü o nahiyədən çıxıb gedər. Ayrı bir yerdə otduğu yerdə görər ki, bir quyu var. Baxar görər quyunun dibində bir ağ şey var. Tülkü deyər, bəs quyunun dibində ağaran qoyun quyruğudur. O hap elər ki, onu yesin. Ağız atanda görər ki, bir ağ daşdı. Tülkü qalar quyunun dibində. Bir azdan sonra oradan bir ayı keçər, ayı görər ki, quyunun dibində bir tülkü var. Deyər:

– Tülkü qardaş, sən orada neylirsən?

Tülkü deyər:

– Sən bilməssən burda bir qoyun quyruğu var ki, mən neçə zamandır ki, yeyirəm qurtarmır.

Ayı tamahlanıb deyər:

– Tülkü qardaş, mən də acam, mən də gəlib bir qarın doya bilərəm, ya yox?

Tülkü deyər:

– Buyurun, buyurun, atılın, düşün quyuya, quyruq yeyin.

Ayı atılar düşər quyuya, istər quyruq yesin, görər ki, bir ağ daşdı. Deyər:

– Bu ki, ağ daşdı, bəs quyruq nə oldu?

Tülkü deyər:

– Sən bəd qədəmsən, bizim də ruzumuzu daşa döndərdin.

Ayı narahat olub, çəkilib quyunun qırağında oturar yerə. Bir azdan sonra oradan keçməkdə olan bir qurd balası tülkü ilə ayını quyunun dibində görüb soruşar:

– Yoldaşlar, siz quyunun tənində nə görürsünüz?

Tülkü deyər:

– Burda bir qoyun quyruğu var, neçə gündür ki, yeyirik, qurtarmır. Əgər ac olsan, gəl sən də ye.

Qurd balası atılıb düşər quyuya və başlar quyruq yesin ki, görər bir ağ daşdır, quyruq-muyruq yoxdur. Bir azdan sonra bir çaqqal və ondan sonra da doğuz macəranı soruşub quyuya düşdülər. Tülkü onları da aldatdı və bir ilan da oradan ötürdü, o da quyuya düşdü. Bir aradan sonra oradan bir xoruz keçirdi. O da qeyl-qal görüb soruşdu ki, ay tülkü bəy, orada nə səsdir?

Tülkü dedi:

– Burada toydur.

Xoruz da atıldı, düşdü quyuya. Bir-iki gündən sonra onların hamısı dedi ki, acmışıq, indi neyniyək?

Tülkü dedi ki, mən bir şeir bilirəm, istəsəniz, onu oxuyaq, hər kim axıra qalsa, onu birlikdə yeyək, hamı bu sözü qəbul elədi:

Tülkü başladı:

Tülkü, tülkü, tanbəki,
Quyruğunun ucu lənpəki,
Ayı axmaq, doğuz toxmaq,
Qurd qulavaş, çaqqal çavuş,
Xoruz bançı, ilan qəmçi...

Nobat ilana düşdü, ilanı yedilər. Bir azdan sonra ayı dedi ki, tülkü qardaş, mən çox acmışam. Yenə şeiri oxudular, nobat xoruza çatdı. Tutub onu yedilər. Sonra nobat çaqqala və sonra qurd balasına və daha sonra doğuza çatdı, onları yeyib qurtarmışdılar ki, ayı dedi, tülkü qardaş, mən çox acmışam... Tülkü dedi, səbr elə, görək başımıza nə oyun gəlir?

Tülkü qabaqcadan yedikləri heyvanların bağırsaqlarından quyunun divarlarında gizləmişdi, o, onları götürüb qoltuğunun

altına qoydu və bağırsağın ucunu aldı ağzına, başladı yeməyə. Ayı dedi:

– Tülkü qardaş, nə yeyirsən?

Tülkü dedi:

– Mən qoltuğumun dibini dəldim və bağırsağımı yeyirəm.

Ayı da pəncəsi ilə qoltuğunun dibindən bağırsağını deşdi, bağırsaqlarını eşigə tökdü, ayını qan apardı, ayı öldü. Tülkü bir neçə gün də ayının ətini yedi, Ayının əti qurtarandan sonra quyunun dibində fikirdə idi ki, çoban səsi eşitdi və özünü vurdu ölümcülliyə. Çoban gəlib gördü ki, quyuda bir tülkü ölüb. O zaman tülkünün dərisi pula gedirdi. Çoban tülkünü çıxarıb dərisini soymaq üçün yoldaşını çağırdı, o yoldaşını iplə quyuya salladı və quyudan tülkünü eşigə çıxartdı. Çoban ipi tülküdən açıb quyudakı yoldaşını çıxartmaqda idi ki, gördü tülkü ipdən buraxılan kimi durdu, qaçdı. Tülkü gedib uzaqlarda yedi-içdi, yerə keçdi. Göydən üç alma düşdü, biri mənim, biri özümün, biri də nağıl deyənin.

## CANAVARLA TÜLKÜ

Günlərin bir günündə bir dağın ətəyində, bir böyük düzdə bir canavar və bir də tülkü bir-birinin kənarında yaşayırdılar. Bunlar qardaşdıx olmuşdular. Hərdən bir heyvan şikar eyləyib bahəm yeyərdilər. Amma bir neçə gün bunların yenə dilinə bir şey gəlmir. Təsəmim tutullar ki, hərəsi bir səmtə gedib bir şikar tapsınlar. Amma bu da tülkü canavarla ora-bura bir uzun dərədən keçirdi. Görür ki, bir tələ vardı. Amma tələnin arasında bir qoyun quyruğu vardı. Tülkünün ağzı sulanır, tələnin o tərəfinə, bu tərəfinə keçir görür ki, heç imkanı yoxdur. Tayinki quyruğu götürə yeyə və qarnını doyura. Burdan vaz keçir. Yoluna ədamə verir, yarı yolda bir də görür ki, canavar qardaş gəlir. Ta canavar buna yaxınlaşa, bir nəqşə çəkir. Başlayır şaddıxa oyana hobbulur, bu yana deyir, “ay can” oynayır. Canavar qardaş soruşur ki, tülkü qardaş, nə xəbərdi, nə olub? Tülkü deyir:

– Nə təhəri olmasın. O uzun dərədə o qədər qoyun quyruğu yemişəm ki, bir məstəm.

Burda canavar qardaş deyir:

– Tülkü qardaş, heç onnan bir az qalmadı? Mən çox acam.

Tülkü deyir:

– Gedax şayəd bir az tapax.

Yola düşüb bahəm gedirlər yetişərlər o uzun dərəyə. Birdən tülkü deyir:

– Bəli, canavar qardaş. Burda bir miqdar vardı. Gəl götür ye.

Canavar qardaş tez gəlir yetişir, tayinki ağız atır quyruğa. Tələ canavarın hülqumun tutur. Canavar düşür tələyə və daha çəkmir. Quyruğ ağzınnan düşür. Tülkü qardaş gəlir quyruğu götürür aparır o tərəfdə bir daşın üstündə oturur. Naz eyləməyə başlayır. Yeyib qurtarır, deyir:

– Ax canım, ay canım, mənim ulduzum tapıldı. Mən day doydum.

Burda canavar qardaş çox çətinlixnan deyir:

– Tülkü qardaş, bəs mənim ulduzum nə vaxt tapıla?

Tülkü deyir:

– Canavar qardaş, sənin ulduzun tələ sahibi gələndə tapılacaq.

## PЭЮЭKLӘ SЭЗAN

Piюiklə siзan birlikdə yaюayэrdəlar. Bir gьn piєik siзana dedi: – Piюik qardaю, gəl qэюэmэza bir qab qovurma hazэrlayaq.

Piєik dedi:

– Yaxюэ.

Onlar qovurma hazэrlayэb yeraltэ bir anbarda basdэrdəlar. Bir gьn piюik qovurmaya yeriklədi. Fel qoюub gecə yatan zaman yalandan qulaqьlarэnэ юuю tutub dedi:

– Qapэ зalan kimdir? Gəldim.

Sora qalxэb qapэya sarэ getdi. Qayэtdэqda siзana dedi:

– Xaloplum idi, bir oplu olub, məni oraya зapэrэrdэ.

Sonra hazэrlanэb getdi. Piюik yeraltэ otapa gəlib qovurmanэn apzэnэ aзэb bir az yedi. Axэr vaxtda gəlib baюэn atэb yatdэ.

Sabah yuxudan qalxan zaman siзan piюikdən uюapэn adэnэ soruюdu.

Piєik dedi:

– Adэnэ “Baюэ aзэldэ” qoyduq.

Siзan dedi:

– Nə qəribə adэ var.

Piєik dedi:

– Hən, o tərəflərdə belənзi adlar rəsmdi.

Bir mьddətdən sonra piєik yenə də qovurmadan yemək gцylьnə dьюdь. Elə haman kələgi iюlətdi. Bu dəfə bibioplunun uюapэ olmapэnэ bəhanə tapdэ. Sabah siзan soruюdu:

– Uюapэn adэnэ nə qoydunuz?

– Adэnэ “Yarэm oldu” qoyduq.

Bir mьddətdən sora da əmioplunun uюapэn bəhanə tapdэ. O gecə qovurmanэ yeyib qurtardэ. Sabah siзan sualэnda dedi:

– Adэnэ “Qurtuldu” qoyduq.

Neзə gьn bu cərəyandan keзdi. Gьnlərin birində siзan piєiklə bərabər qovurmaya baю зəkmək ьзьn yeraltэ anbara getdilər. Siзan ilə piюik qovurma anbarэna gedib bir-birindən kьpьn apzэnэ aзmapэ istədilər. Эюin sonu siзan kьpьn apzэna atэldэ. Kьpьn qapapэn gцtьrdь. Boю kьpə rast gəldi. Siзan ьzьn piюigə tutub dedi:

– Bunlar hamisi sənin baюэn altэndadэr. Эndi bildim “Baюэ aзэldэ”, “Yarэm oldu”, “Qurtuldu” nəyə iюarə imiю.

Siзan piєigə təhdid etdi. Piєik də уьgьrьb siзanэ da tutub uddu.

## ÜÇ AYAQLI AT

Biri var idi, biri yox idi, Allahdan suvay heç kim yox idi, kasıb bir kişi var idi. Üç oğlu, üç qızı varıydı. Bir gün vax yetişir kişi ağır naxoşlayır, öləcəyin bilif, oğlanların tofluyuf yaana vəsiyyət eliir.

Deyir:

– Məni basdırdığınız günün səhərisi gün qəbrimin üsdünə gedin, qəbrimin üstündə hansı canlını görsəəz, böyük bacınızı ona verin. Soora da genə gedin ikinci gün hansı canlını görsəz, kiçik bacınızı da ona verin.

Kişi sözün deyif ölür. Oğlannarı aparıb munu basırıllar. Ölən günün səhəri bala qardaş özündən böyük qardaşlarına atasının dedihlərin deyir, vəsiyyətin xatırladır. Böyüh qardaş deyir:

– Ölünün vəsiyyəti yanında qalar. Ağlın-huşun olsun, get özünə çörək qazan.

Bala qardaş gəlir orta qardaşın yanına, deyir ki, sən gəl, atamızın vəsiyyətin yerinə yeti. Köməh elə.

Ortancıl qardaş irza vermir, bunnux olmur. Qalır belə. Xub, istəmirsiz ozuz bilin, deyir. Kiçik qardaşı görür ki, bunlardan bir fayda yoxdur. Odu ki, özü tək başına böyük bacının qolundan yapışıb atasının qəbrinin üstünə gəlir. Görür ki, qəbrin üstündə ağ dev onları gözətliyirmiş kimi dayanıb. Oğlan deyir:

– Ağ dev, burda niyə durmusan?

Dev cavab verir:

– Sənin atanın vəsiyyətini gözlürəm.

Oğlan baxır ki, dev düz danışır, odur ki, böyük bacısını ona verib geri qayıdır. Sora da genə ortancıl bacısını qara devə, kicik bacısını da sarı devə verir.

Günlərin bir günü üç qardaş iş axtarmaxdan yana səfərə çıxır. Onlar qırx gün, qırx gecə yol getdikdən sonra bir şəhərə çatıllar. Bu şəhər dənizin yaxınında idi. Onlar iş soraqlaşa-soraqlaşa bir gəmiçiyə rast gəlillər. Gəmiçi deyir:

– Mənə yuxusuna haram qatmağı başaran keşikçi lazımdı. Çünki dənizin qırağında gəmilərimizi tez-tez çapıb talayıllar.

Gecələr bu şəhərə yan almağa peşiman olurux. İndi deyin görüm, hansınız qoçaq, yuxusuzluğa dözümlüdür.

Kiçik qardaşı razılıq verir, o günnən gecə-gündüz gəmilərə keşih çəhməyə başlıyır. Bir gecə oğlan görür ki, dənizdən üç dərya atı çıxdı. Oğlan onları cilovlayıb yaxınıxdakı meşəyə aparır. Olların hər birini bir ağacın altında hörühləyib geriyə qayıdır. Günlərin bir günündə şəhərə xəbər yayılır ki, padşahın gözü-

nün ağı-qarası olan bir qızını caduçu qaçırıb. Padşah car çəkir ki, kim mənim qızımı caduçudan alıb gətirsə, onu dünya malına qərq eliyəcəm. Oğlan padşahın hüzuruna gəlib baş endirir:

– Padşah sağ olsun, mən bu işin öhdəsindən gələrəm. Ancaq mənim də öz şərtim var. Qızınızı mənə verməlisiniz.

Padşah oğlanın şərtini canla-başla qəbul eləyib, onu ədəb-ərkanla yola salır. Oğlan birbaşa meşəyə gəlir, dərya atdarından birini minib yola düşür. Dərələrdən sel kimi, təpələrdən yel kimi aşıb çöllü-biyabana çatır. Oğlan göz gəzdiriv görür ki, bir qalaça var. Gəlib qalaçaya görür ki, böyük bacısıynan ağ div burdadı.Oğlan bacısıynan öpüşüb görüşdü, devnən kef hallandı. Sonra səfərinin məqsədini onnara dedi.Ağ dev başını buladı:

– Nahaq gedirsən, caduçu ilə bacara bilməzsən.O, səni öldürəcək. Haray bu başdan geriyə qayıt.

Bacısı da ona çox yalvar-yapış elədi, ancaq oğlan onnarın sözünə məhəl qoymayıb yoluna davam elədi. Bir xeyli gedəndən sonra caducunun imarətinə çatdı. Qapıdan içəri girəndə gördü ki, o, başını qızın dizinin üsdünə qoyub xorran vurur. Oğlan qızı işarə elədi ki, onun başını dizinin üsdündən ehmalca yerə qoy, dalımca gəl. Qız elə də elədi. Çölə çıxıb oğlanın atının tərkinə mindi.Oğlan atı tərpədib yola düşən kimi həmən caducunun toxmağı tappa-turup salıb onu yuxudan oyatdı. Caducu çölə çıxıb üç ayaqlı atını mınmək isdiyəndə at dedi:

– Tələsmə, o dərya atının bir günə çapdığı yolu mən bir saata çaparam. İndi isə bir ovuc kişmiş gətir yeyim, yaman acmışam.

Caducu onun belinə qalxan kimi həmən at yel kimi uçdu. Bir az keçmədi ki, caducu oğlanın atına çatdı, əlindəki toppuzla vurub atdan saldı.Caducu onu ölmüş bildi, qızı da götürüb evə, imarətinə qayıtdı. Oğlan handan-hana özünə gəlib gördü ki, qan içindədi. Birtəhər atının belinə qalxdı. At onu kəsə yolunnan gətirəndə bir qalaça gördü. Qalaçanın qabağında dayanıb kişnədi. Sən demə, bu qalaça oğlanın ortancıl bacısı ilə qara devin imiş. Qara dev tez məlhəm düzəltdi oğlanın yarasına qoydu.Yeddi gündən sonra oğlan tamam sağaldı. Başına gələnləri başladı nağıl eləməyə.

Ortancıl bacısı da qara devlə nə qədər yalvar-yapış elədilər oğlanı yolundan döndərə bilmədilər. Oğlan onlardan ayrılıb yola düşdü. Qısa deyim ki, yorulmuyasız. Bu dəfə də oğlanın başına keçən dəfəki hadisə gəldi. Bu dəfə də dərya atı oğlanı al-qanın içində bir qalaçanın qabağına gətirdi. Oğlanın kiçik bacısıyla sarı div bu qalaçada idi. Atın kişnərtisinə onlar çölə çıxdılar. Kiçik bacı qardaşını ölmüş bilib ağlamağa başladı. Sarı dev oğlanın yarasına baxan kimi qıza toxtaxlıx verdi ki, qorxma, bu yaradan qardaşına ölüm yoxdu. O, yeddi gündən sonra tamam sağaldı. Başına gələn hal-qəziyyəti bacısıynan sarı devə nağılladı. Sarı dev dedi:

– Bu yaxınlıqda bir meşə var. Orada danışan at yaşayır. Neşə ildi ki, bala üzünə həsrətdi. Canavarlar at balalıyana macal onu güdür, balası yerə düşən kimi yırtıb yeyirlər. Caducu o atı güdüb balasını canavarlardan bir təhər qurtarsa da, atın ayağının biri canavarların ayağında gedib. Bax caducunun mindiyi at həmən üç ayaxlı atdı. İndi sən meşəyə get, atın balalaması vaxtı onu gözdən qoyma. Onu canavarlardan qorusan, ona xoş gələr, bəlkə onda sənə bir köməklik edər.

Oğlan sarı devin nişan verdiyi meşəyə gəldi. Çox axtarandan sonra danışan atı tapdı. Başladı oğrun-oğrun onu güdməyə. Bir axşamçağısı gördü ki, at sancılanıb.Oğlan atın həndəvərində tonqal qaladı, canavarları ata yaxın gəlməyə qoymadı. Danışan at oğlanın bütün hərəkətlərini görürdü. Odur ki, bu dəfə o arın-arxayın doğdu. Balası ağızlanan kimi oynaqlamağa başladı. At danışmağa başladı:

– Neçə illərdi ki, bala üzünə həsrətəm. Sən ki, mənə bu qədər yaxşılıq elədin, dilə görüm məndən nə dilərsən.

Oğlan başına ki, qəza-qədəl gəlmişdi hamısını bir bir ata nağıl elədi. At oğlanı belinə, balasını da yanına alıb üz qoydu caduçunun imarətinə sarı. Oğlan əvvəlki qaydayla işarə etdi, qız caduçunun başını dizindən yerə qoyub çölə çıxdı.

Oğlan dedi:

– Qorxma, bu dəfə səni qurtaracam. Bu at dərya atın tayı deyil, yel kimi gedib, atavın imarətinə çatacayıq.

Qız da ata minib əllərini yuxarı qaldırdı, bir ağız dua elədi. At balasının dərdindən çox yavaş gedirdi. Oğlan bildi ki, bu at dəhmərləməli at dəyil.Ona görə də at narahat olsa da, əl -ayağ tərpətmirdi.Oğlan arxasına baxıb gördü ki, caduçunun atı budu yetirhayetirdədi. Əyilib atın qulağına nəysə dedi. At ayaq saxlayıb geri döndü, üzünü üç ayaxlı ata tutub dedi:

– Sən mənim doğmaca balamsan. Hec bala da anasının üsdünə düşmən gətirər? Qaldır onu yerə elə çırp ki, yerin yeddinci qatına keçsin.

Üç ayaxlı at anasının sözlərin eşitcək şahə qalxdı. Caduçunu yerə elə çırpdı ki, param-parça olub, torpağın altina keçdi. At balasının bu hərəkətindən razı qalıb dedi:

– İndi isə sənin ixtiyarını bu oğlana verirəm. Onun bütün sözlərini canla-başla yerinə yetir, qayıt gəl meşəyə. Qardaşınla yolunu gözləyəcəyik.

Üç ayaqlı at oğlanı, qızı tərkinə aldı. Bir az keçmədi ki, oğlanları padşahın imarəti qarşısında yerə qoyub meşəyə qayıtdı. Padşah qızını görcək çox sevindi.Onlara toy elədi.

## SƏRÇƏ

Bir gün var idi, bir gün yox idi, Allahdan suvay heş kim yox idi. Bir serçə var idi. Anasının sözünə baxmazdi. Serçə küçədə o yan– bu yana atılıb düşüb yoldaşlariynən oynurdi, birdən bir tikan batdi əyağına. Ağliyə– ağliyə, inciyə– inciyə gəldi ki, "ay nənə, əyağıma tikan batıb". Nənəsi tikani çıxatdi, yerinə məlhəm qoydu, bağladi. Serçə dedi:

– Nənə, tikanımi atma haaaa eşiyə, qoy taxçada qalsın, gələcəm oynadam.

Serçənin əyağının əzabı kəsmax həman, ginə də qaçıb getdi oynamağının dalısıca. Serçənin nənəsi gəldi çörəh pişirsin, hər neynədi, təndir yanmadi. Qolunu saldi, yanmadi, qıçını saldi, yanmadı, gətirib serçənin tikanını atdı təndirə, təndir yandi! Çörəhləri təndirə yapdi, çıxardıb bükdü çörəh süfrəsinə, qoydi taxçanın içinə.

Serçə yoldaşlarıynən oynadi, oynadi, oynadi... tayinki yorulub gəldi evə:

– Nənə, mən acam, nənə, mən acam!

Nənəsi dedi:

– Əl-əyağıvi dağıtma görüm, odu ha, taxçada dəsmal, arasında çörəh var, bir tikə ye, qarnın dursun, indicə dədən gələr, nahar yiyərux.

Serçə getdi çörəh götüsün, gördi tikan orda dəyil.

– Nənə, bə mənim tikanım hani?

Nənədən cəvab çıxmadi.

– Nənə, mənim tikanım harda?

– Bala, təndir yanmırdı. Qolumi saldım, yanmadi, qıçımi saldım, yanmadi, axirdə sənin tikanını saldım, yandi.

Serçə bunu eşitmax həman özün o duvara çırpdi, bu duvara çırpdi, çörəh buxçasını dimdiyinə vırıb, "pırrrrrr" eliyib uçub getdi...

Nənəsi ha səslədi, ha hərayladı, serçə saymadı, uçub getdi. Getdi, getdi, getdiiii... yetişdi bir çobana. Çoban qoyun sütünü kasiyə sağmışdı, süfrəsini də aşmışdı, "bismillah" diyip yemağa başlırdı ki, serçə dedi:

– Çoban qərdəş, çörəyi mənnən, sütü sənnən, gəl birlixdə yiyax naharımızı.

Çoban dedi:

– Nə diyirəm, yiyax da.

Yemağa başlamamışdan serçə dedi:

– Ey vay, mənim çişim var, yemə, tez gedim eliyim gəlim.

Getdi, getdi, getdi... Yubandi, çoban da naharıni yedi, süfrəsini də yığışdırdi. Serçə gəlib dedi:

– Hani bə mənim payım?

Çoban dedi:

– Sən gəlmədin, yedim yığışdırdım.

Serçə cinnəndi, özünü o yana vırdı, bu yana vırdı, qoyunların birin aldi dimdiyinə, "pırrrr" elədi uçub getdi.

Getdi, getdi, getdi... yetişdi bir evə, gördi toy var, nə toy. Hammı düzülüb oturup, çalılla– oynulla, gəlin oturub yuxari

başda, kürəkən də yanında, şirni, miyvə– hər cür yemax da diz-dəndi. Serçə otdı damda, ev yiyəsinə dedi:

– Qoyunu mənnən, pişir-düşüri də sizdən, gəlin birlixda yemax yiyax.

Qoyunu kəsdilər, doğradılar, pişirdilər, süfrələr açıldi... “bismillah” diyip istədilər yesinnər, serçə dedi:

– Ey vay, mənim çişim var, yemiyin tez gəlim.

Getdi, getdi, getdi... yubandı. Toy əhli şamı yedi qutardi, süfrəni də yığışdırdi. Serçə gəlib dedi:

– Hani bə mənim payım?

Dedilər:

– Sən gəlmədin, biz də yiyib yığışdırdıq.

Serçə cinnəndi, özün o duvara çıpdı, bu duvara çıpdı, gəlini vırdı dimdiyinə, “pirrrrr” elədi, uçub getdi.

Serçə getdi, getdi, getdi... yetişdi bir qaval satana. Kişi qaval satır, həm də çalırdi: dınqırım dınqır, dınqır, dınqır... Dınqırım dınqır, dınqır, dınqır...

Yendi aşağa , qaval satana dedi:

– Ay qərdəş, bu gəlini versəm bir qaval verərsən mənə?

Qaval satan da dedi:

– Niyə vermirəm, hamısını da verərəm!!!

Serçə gəlini verdi, bir qaval aldı, qaval satan da kefi vıra–vıra düzəlləndi getdi işinin dalısıca! Serçə gedib otdu bir uca dağın döşündə, başladı çalıb oxumağa:

– Tikani verdim bir çörəy aldım,
Dınqırım dınqır, dınqır, dınqır...
Çörəyi verdim, bir qoyun aldım,
Dınqırım dınqır , dınqır, dınqır...
Qoyuni verdim, bir gəlin aldım ,
Dınqırım dınqır, dınqır, dınqır...
Gəlini verdim, bir qaval aldım,
Dınqırım dınqır, dınqır, dınqır...

Serçə beləcə oxurdu, dağın başınnan bir yekə daş ayrılıb dığır-dığır dığırranıp gəlip düşdü serçənin başına.

Göydən üç alma düşdü, biri nəğil diyənin, biri mənim, biri də Susənin ənnəsinin….

Yedi, işdi, mətləbinə yetişdi….

## PIS-PISLI PÜSTƏ XANIM

Bir gün var idi, bir gün yox idi, bir dana pıs-pıslı Püstə xanım var idi. Ərə getməmişdi, çox qussələnmişdi. Bir gün çadırasın örtər, dihdabannarın giyər, evdən çıxar. Gedəəər, gedəəər, yetişər bi dana pişiyə. Pişih diyər:

– Pıs-pısli Püstə xanım,
Saçı daban üstə xanım,
Saçı uzun, soray xanım,
Bırnı uzun, daray xanım,
Hara gedisən?

Diyər:

– Gedirəm ər tapbağa, gün görmağa.

Pişih diyər:

– Mənə gələrsən?

O da diyər:

– Niə gəlmərəm, amma bir gün sözümüz olsa, sən məni nəməneynən vırarsan?

Pişih diyər:

– Bu quyruğumi görüsən? Munnan çırparam başınnan!

Pıs-pısli Püstə xanım diyər:

– Yeri, yeri, yeri pisdərəcə,
Yeri, mən sənnən küsdərəcə.
Mən sənə gəlmərəm.

Küsər, düşər yola. Gedəəər-gedəəər görər bir çoban keçir. Çoban diyər:

– Pıs-pısli Püstə xanım,
Saçi daban üstə xanım,
Saçi uzun soray xanım,
Bırnı uzun daray xanım,

Hara gedisən?
Diyər:
– Gedirəm ər tapbağa, gün görmağa.
Diyər:
– Mənə gələsən?
O da diyər:
– Niyə gəlmərəm, amma bir gün sözümüz çıxsa, sən məni nəməneynən döyəssən?
Çoban diyər:
– Bu dəyənəyı əlimdə görüsən? Munnan çırparam başınnan!
Pıs-pısli Püstə xanım diyər:
– Yeri, yeri, yeri pisdərəcə,
Yeri, mən sənnən küsdərəcə.
Mən sənə gəlmərəm.
Onnan da küsər, düşər yola. Gedəəər-gedəəər yetişər bir baqqala.
Baqqal diyər:
– Pıs-pısli Püstə xanım,
Saçi daban üstə xanım,
Saçi uzun soray xanım,
Bırnı uzun daray xanım,
Hara gedisən?
Diyər:
– Gedirəm ər tapbağa, gün görmağa.
Baqqal diyər:
– Mənə gələsən?
Diyər:
– Niyə gəlmərəm, amma bir gün sözümüz olsa, sən məni nəməneynən vırassan?
Baqqal diyər:
– Elə bu çəki daşiynən çırparam başınnan.
Pıs-pısli Püstə xanım diyər:
– Yeri, yeri, yeri pisdərəcə,
Yeri, mən sənnən küsdərəcə.

Mən sənə gəlmərəm.

Küsər, düşər yola. Gedəəər-gedəəər, yetişər bir qəssaba. Qəssap diyər:

– Pıs-pısli Püstə xanım,
Saçi daban üstə xanım,
Saçı uzun soray xanım,
Bırnı uzun, daray xanım,
Hara gedisən?

Diyər:

– Gedirəm ər tapbağa, gün görmağa.

Diyər:

– Mənə gələrsən?

Diyər:

– Niyə gəlmərəm, amma bir gün sözümüz çıxsa, sən məni nəməneynən döyərsən?

Qəssap diyər:

– Bu çapacağınan vırram başınnan!

Pıs-pısli Püstə xanım diyər:

– Yeri, yeri, yeri pisdərəcə,
Yeri, mən sənnən küsdərəcə.
Mən sənə gəlmərəm.

Küsər, düşər yola. Gedəəər– gedəəər, yorular, oturar bir daş üstə. Ordan bir siçan keçirmiş. Siçan bəy diyər:

– Pıs-pısli Püstə xanım,
Saçı daban üstə xanım,
Saçı uzun soray xanım,
Bırnı uzun daray xanım,
Hara gedisən?

Diyər:

– Gedirəm ər tapbağa, gün görmağa.

Diyər:

– Mənə gələrsən?

Diyər:

– Niyə gəlmərəm, amma bir gün sözümüz olsa, sən məni nəməneynən vırasan?

Siçan bəy diyər:

– Mən səni vırmaraaaam. Mən səni döymərəəəəm. Səni pambığ arasında saxlaram. Bu quyruğumi görüsən? Aparıb batıraram xanımların sürmədanına, gətirərəm çəkərəm sənin gözələrivə!

Pıs-pısli diyər:

– İndi ki, sən məni döyməzsən, mən sənə gələəəərəm.

Pıs-pısli xanımnan siçan bəy evlənəllər. Bir gün siçan bəy diyər:

– Şahın evində qonaxlıx var. Mən gedirəm ordan yağdan, düyüdən yığam gətirəm.

Siçan bəy torbasın götürüb çıxar. Pıs-pıslı Püstə xanım da çih (çirk) paltarların yığar girdəkan qabığına, aparar su başında yumağa.

Yağış yağmışdi, atdılar geşmişdi, atdarın əyax yerləri cola olmuşdi, su yığışmışdi. Pıs-pısli Püstə xanım aparar orda paltarların yusun, əyaği züyüldər, şappıltiynən düşər colanın içinə, hər neynər çıxa bilməz.

O yannan atdılar şah evinə qonax gedirdi. Pıs-pısli Püstə xanım ordan səslənər ki:

– Tarap-turup atdılar,
Tirmə qərə börtdülər(börklülər),
Şah evinə gedərsiz,
Siçan bəyə deyərsiz,
Pıs-pıslı Püstə xanım,
Saçı daban üstə xanım,
Saçı uzun soray xanım,
Bırnı uzun daray xanım,
Dərin-dərin dəryaların içinə duşub, az qalır boğulsun,
Durmasın gəlsin!

Atdılar gedər şah evinə, təriflərlər ki, biz gəlirdix, belə bir səs eşitdix.

Siçan bəy də duvarın dalından qulağ asırmış, diyər:

– Vaxsey, evim yıxıldi! Pıs-pısli Püstə xanım dərdi-sərə düşüp.

Tez gəlib özün yetirər həman colanın başına. Əlin uzadar Pıs-pıslı Püstə xanıma, diyər:

– Pıs-pıslı Püstə xanım,
Əlini uzat çəkaaaali!

O da diyər:

– Yeri, yeri, mən sənnən kusaaaaali!
Hani qızıldan nərduvanın?
Hani gümüşdən pilləkanın?

Siçan bəy gedər sovzuçu tukanınnan bi dana yerkökü götürər, onu diş-diş elər, gətirər sallar o coliyə, diyər:

– Pıs-pıslı Püstə xanım,
Əlini uzat çəkaaaali!

O da diyər:

– Yeri, yeri, mən sənnən küsaaaaali!
Hani qızıldan nərduvanın?
Hani gümüşdən pilləkanın?

Siçan bəy görər yox babaaaa, bunun dili çox ziyadədi. Bi dana daş var idi orda. Oni dığırradar-dığırradaaaar, daş gələr düşər pıs-pısli Püstə xanımın başına.

Siçan diyər:

– Yeri yeri, mənə dil uzun arvad lazim dəyil.
Hapban, hopban ,
Yarıl, yırtıl,
Su iş, qurtul!
Yedi, işdi, mətləbinə yetişdi…

## NƏRBƏNAZİK VƏ NAZİKBƏNAZİK

Günnərin bir günündə, şah Abbasın dürbünündə, uzaq bir vilayətdə iki baci var idi. Biri Narbənazih, biri Nazihbənazih. Bir gün bu iki baci çörəh pişirirdilər. Nazihbənazih düşər təndirdə yanar. Narbənazih qollarıni qucaqlar oturar təndirin başında. Bir dana serçə qonar təndirin yanına, diyər:

– Narbənazih, sən niyə belə qussəli otumusan?

O da dönər diyər:

– Narbənazih neynəsin? Nazihbənazih düşüp təndirdə yanıp.

Serçeyi-cühcüh qussəsinnən qanatdarın tökər, oturar ağacın üstündə.

Ordan bi dana qarqa keçirdi. Qonar ağacın başına, diyər:

– Serçeyi-cühcüh, sən niyə belə olmusan?

O da diyər:

– Serçeyi-cühcüh neynəsin? Narbənazih neynəsin? Nazihbənazih düşüp təndirdə yanıp.

O da qussəsinnən dimdiyin çalar ağaca sındırar, oturar ağacın başında.

Bi dana toraqəyi-bihbih keçirdi. Toraqəyi-bihbih qonar ağacın başına, diyər:

– Qarqeyi-dimdih, sən niyə belə olmusan?

Qarqa da diyər:

– Qarqeyi-dimdih neynəsin? Serçeyi-cühcüh neynəsin? Narbənazih neynəsin? Nazihbənazıh düşüp təndirdə yanıp.

Toraqəyi-bihbih də qussəsinnən qanatdarın tökər, oturar bi dana duvarın başında.

Duvar toraqəyi-bihbihdən soruşar:

– Sən niyə belə olmusan?

O da diyər:

– Toraqəyi-bihbih neynəsin? Qarqeyi-dimdih neynəsin? Serçeyi-cühcüh neynəsin? Narbənazih neynəsin? Nazihbənazih düşüp təndirdə yanıp.

Duvar da qussəsinnən şikəst olar, yıxılar Zəmzəm suyunun içinə. Zəmzəm suyu duvardan soruşar:

– Tərri-duvar, sən niyə bu cür olmusan?

O da diyər:

– Tərri-duvar neynəsin? Toraqəyi-bihbih neynəsin? Qarqeyi-dimdih neynəsin? Serçeyi-cühcüh neynəsin? Narbənazih neynəsin? Nazihbənazih düşüp təndirdə yanıp.

Zəmzəm suyu qussəsinnən bulanar. Zəmzəmin suyu gedirdi bir xiyar bostanına. Xiyar sudan soruşar :

– Zəmzəm suyu, sən niyə belə bulanmısan?

O da diyər:

– Zəmzəm suyu neynəsin? Tərri-duvar neynəsin? Toraqəyi-bihbih neynəsin? Qarqeyi-dimdih neynəsin? Serçeyi-cühcüh neynəsin? Narbənazih neynəsin? Nazihbənazih düşüp təndirdə yanıp.

Xiyar da qussəsinnən acılaşar.

Yedi işdi mətləbinə yetişdi…

## XƏCCƏ XALA

Bir kənddə ər-arvad yaюayэrdəlar. Kiюinin arvadэ зox həyasэz idi. Kiюini yox, bəlkə qonюularэ da cana gətirmiюdi. Qonюoular arvadэn əlindən rahatlaюmaq ьзьn kiюidən istədilər arvadэn цldьrsьn. Kiєiyə dedilər:

– Əgər arvadэ цldьrsən sənə bir gцzəl qэz alacapэq.

Kiєi də qəbul etdi. Bir fel qoюub arvadэna dedi:

– Юələvi hazэrla, bir nezə gьn yuxarэ kəndə bacanapэmэzgilə qonaq gedək.

Arvad юələsin hazэrlayэb, kiюi ilə eююəgə minib bacanapэnэn evinə sarэ yola dьюdьlər. Gəlib yol ortasэnda bir quyuya зatdэlar. Kiюi arvadэna dedi:

– Eєєəkdən yerə dьє, su iзib sonra yolumuza davam verək.

Arvad kiюisinin sцzьnə baxэb eююəkdən yerə dьюdь. Quyunun baюэna yetiюmək haman kiюi arvadэnэ quyuya itələyib kəndə sarэ geri dцndь. Kiюi kəndə gəlib qonюoularэn yanэna gedib dedi:

– Mən sizin dediklərinizə əməl elədim. Indi də siz dediklərinizə əməl eləyin. Mənə arvad alэn.

Nezə gьn sovuюdu. Kiюi gцrdь qonюoular sцzlərinə əməl eləmədilər. Kiюi nə qədər зox dedi, o qədər az fayda verdi. Kiюi belə gцrьb arvadэnэn ardэyca quynun baюэna gəldi, bəlkə arvadэn quyudan qurtarsэn. Kiюi quyuya bir ip salladэ. Amma gцrdь bir ilan ipə dolaюэb yuxarэ gəlir. Kiюi qorxudan ipi kəsmək istədi. Эlan dilə gəlib dedi:

– Səni sevdigin kəsin canэna and verirəm, məni Xəccə xalanэn əlindən qurtar. O mənim gьnьmь qara edib.

Kiєi dedi:

– Bu iюin mənə faydasэ nədir?

Эlan dedi:

– Məni eюigə зэxarsan, gedib юahэn qэzэnэn boynuna dolaюaram, sən ilan oynadan ədasэ ilə saraya gəl, sən gələndə mən onun boynundan aзэlaram. Onda юah sənə yaxюэ ənam verər.

Sцz kiєinin beyninə batэb ilanэ quyudan, ya da yaxюэ desək, Xəccə xalanэn əlindən qurtardэ. Эlan da verdigi sцzə əməl edib, gedib юahэn qэzэnэn boynuna dolaюdэ. Hər kim gəldi, ilanэ qэzэn boynundan aзa bilmədi. Elə ki hamэ aciz qaldэ, kiюi ilan oynadan ədasэ ilə юahэn qэzэnэn yanэna gəldi. Ilan da verdigi sцzə gцrə qэzэn boynundan aзэldэ. Юah kiюiyə yaxюэ ənam verdi.

Эlan kiюiyə dedi:

– Mən yenə də belə bir iє gцrsəm, daha sən gəlməginən. Зьnkь sənə gцrə daha borclu deyiləm.

Эlan ayrэlэb getdi. Эlan gedib ayrэ цlkənin padюah qэzэnэn boynuna dolaюdэ. Hamэ aciz qaldэ. Qara vəzir qonєu məmləkətdə belə bir hadisənin xəbərin padєaha dedi. Padєah bir elзi gцndərdi. Qonюu padюahdan o ilan oynadan kiюini istədi. Padюah kiюini tapэb elзi ilə qonюu məmləkətə gцndərdi. Kiюi ilan oynadan ədasэ ilə юahzadənin qullupuna gəldi. Эlan kiюini gцrmək haman dedi:

– Sənə demiєdim daha borclu deyiləm.

Kiєi tez kələk curlєədirib ilana dedi:

– Sənin heз xəbərin var, Xəccə xala quyudan цzьnь xilas edib, qapэ-qapэ sənin ardэnca bura gəlib. Indi də qapэ arxasэndadэr. Эlan Xəccə xalanэn adэnэ eюidib qorxudan tez qэzэn boynundan aзэlэb qaзdэ. Юah kiюiyə dedi:

– Ay kiєi, hər diləgin var məndən dilə.

Kiюi ki юahэn qэzэndan xoюu gəlmiюdi, bir yandan da arvadэn quyuya salmэюdэ, юahdan qэzэn elзiliyin elədi. Padюah onun istədigin yerinə yetirdi.

## QARİ NƏNƏ

Bir gün var idi, bir gün yox idi, bir qarı nənə var idi. Qari nənə getdi çaydan su gətisin, ayağı züydi, tapbadan düşdi buz üstə.

Dedi:

– Ey buz, sən nə zalimsən!

Dedi:

– Mən zalim olseydim gün məni əritəməəzdi.

Dedi:

– Ey gün, sən nə zalimsən?

Dedi:

– Mən zalim olseydim, bulut üzümü örtməəəəzdi.

Dedi:

– Bulut, sən nə zalimsən?

Dedi:

– Mən zalım olseydim yağış mənnən yağmaaaazdı.

Dedi:

– Yağış, sən nə zalimsən?

Dedi:

– Mən zalim olseydim göy ot mənnən göyərməəəəzdi.

Dedi:

– Göy ot, sən nə zalımsən?

Dedi:

– Mən zalim olseydim qoyun– quzu məni yeməəəəzdi.

Dedi:

– Qoyun –quzu, sən nə zalimsən?

Dedi:

– Mən zalim olseydim qəssab məni kəsməəəəzdi.

Dedi:

– Qəssab, sən nə zalimsən?

Dedi:

– Mən zalim olseydim baqqal ətimi almaaaazdı.

Dedi:

– Baqqal, sən nə zalimsən?

Dedi:

– Mən zalim olseydim siçan pənirimi yeməəəəzdi.

Dedi:
-Siçan, sən nə zalimsən?
Dedi:
– Mən zalim olseydim pişih məni tutmaaaazdi.
Dedi:
– Pişih, sən nə zalimsən?
Dedi:
– Mən zalimәm, mən zalim.
Kürsüstü yeylağımdi,
Kürsaltı qışlağımdi,
Xanım hər nə pişirsə,
O da qeyqanaq, quymağımdı.

## QARAÇUXA

Günlərin bir günində bir fəqir bədbəxət kişi varıdı ki, həmişə şansınan nalə eylərdi ki, mən həmişə pis gətirirəm, mənim qaraçuxam yatıbdı, odur ki, mən həmişə pis gətirirəm və işim də düz gəlmir, vəziyətim də yaxçı deyil. Gərək mən gedəm qaraçuxamın və şansımın dalıncan ta ki, onu oyadam, bəlkə vəziyyətim, sərvətim yaxşı rövnəq tapa. Təsəmmimin tutur, bir az da quru çörək götürür, yola düşür. Az gedir, çox gedir, bir zəmiyə yetişir ki, orda bir əkinçi zəmidə işlərdi. Bu kişi deyər:
– Bərəkətdi olsun.
O da deyər:
– Allah ömür versin.
Bu da deyər:
– Yorulmayasan.
O əkinçi deyər:
– Allah bəndəsi, haraya?
Deyər.
– Məgər sənin şansın hardadı ki, dalısıcan gedirsən?
Deyər:
– Hətma Allaha yaxınlıqdadı. Onu bilirsən, o hardadı?
Bu, deyər:

– Bəlaxrə, mən təsəmimi tutmuşam.

O əkinci deyər:

– Əgər onu tapdın, onnan soruş ki, bəs mənim zəmi yerim əkirəm ildə yaxçı bitir, göyərir, rişəd eylər, bir az ələ gəlir, sora yanır.

Kişi qəbul eylər və deyər ki, hətma soruşaram və yoluna ədamə verir. Bir müddətdən sonra gedir yetişir bir canavara. Canavar o kişidən soruşur ki, ay kişi, haraya gedirsən?

Kişi cavab verir ki, gedirəm şansımın dalıncan, onu tapam və oyadam.

Canavar deyər ki, məgər onu sən itirmisən ki, tapasan?

Kişi deyər ki, o çoxdan yatıbdı, ona göra da mənim vəziyyətim yaxşı olmur.

Canavar deyər ki, vəqti ki, gedirsən onan soruş ki, mənim çoxdandır başım ağrır və heç əlacı da yoxdı. Mən neyləyəm ki, yaxçı olum, imanımı əlimdən alıb.

Bu kişi deyər ki, hətma soruşaram və yolına ədamə verər. Neçə ay, gün yol gedir ki, əz qəza yetişir bir xərabiyə və deyər, gedim orda bir az dincəlim və yorqunıxımı alım və yola düşüm. Bunu öz-özünə deyər, gedər xərabiyə. Vəqti ki, ora varid oldu, gördi ki, bir qoca kişi əcib-qərib bu xərabənin içində yatıbdı.

Öz-özinə deyər: "Gedim bu kişini oyadım və onnan icazə alım, burda bir az istirahət eyləyəm və şayəd də onnan bir kömək aldım".

Gedir bu yatan kişinı çağırır, bu oyanmır və cavab da vermir. O qədər çağırır ki, yorulur, vəli bir səs eşidir ki, oyat deyər, onu oyad. Genə çağır-çağır, çoxlu zəhmət eylib bunu oyadır və əma bu qoca kişi ki, yuxudan oyanır təəccüblə deyər:

– Bəli, mən neçə illərdi ki, yatmışam və bir kəs də olmuyub məni oyatsın, hala məni nə içün oyatdın?

Bu kişi deyər:

– Əgər düzün istəsən, mən istirəm yatmış şansımın dalınca gedəm.

Vəqti ki, bunu dedi o qoca kişi güldü, dedi:

– Məgər sən bilirsən o hardadı?

Kişi dedi:

– Yox, bəlaxrə taparam.

O qoca kişi deyər:

– Cavan, onu ki, istərdin tapasan, çünki mən sənin şansınam. Neçə illər bunnan qabaq yatmışam və bir kəs olmuyub məni neçə oyadsın və bəs niyazı yoxdı ki, sən şansun dalınca gedəsən. İndidən sən xəyalunu rahat eyləyə bilərsən, gedəsən.

Bu kişi çox xoşhal oldı və əma istirdi qayıdsın, o əkinçi və canavar yadına düşdi, dedi:

– Ey ağa, mənə iki səfariş eyləyiblər.

Bir əkinci macranı o əkincinin qoluncan tərif eylər, o deyər, sən bilirsən?

Bu qoca kişi deyər:

– Ona deyinən sənin zəmində bir gənc (xəzinə) var ki, o vəqti ki, günün işığı o yerdir o günün işığın və istisin özünə cəzb eylər. O bais olur ki, zəminin məhsul, gəliri yansın, az olsun. Əgər o gənci eşib götürsə, məhsulu yaxçı olar.

İkinci səfariş – canavarın başağrısı. Deyər, ona da bir axmaq adam tap və başının ağrısı yaxçı olsun.

Bu kişi o qoca kişidən təşəkkür eylər və qayıdır yolına ədamə verir. Gəlir yetişir o zəmiyə və əkinçi onun müntəziridi. O soruşur:

– Mənə nə xəbər gətirmisən?

O kişi deyər:

– Mən soruşdum, o dedi ki, sənin yerində çoxlu gənc var, ta o gənci çıxardmasan, ordan sən yaxçı məhsul götürə bilməzsən.

Bu əkinci çox xoşhal oldu, bu kişinin əlini və üzünü öpdü, dedi ki, sən bais oldun, mən buna yetişdim, gəl ikimiz bu gənci götirax və şərik olax.

Əkinçi hər nə qədər iltimas elir, yalvarır, bu kişi qəbul eləmər ki, eləmir. Deyər ki, mənim Allahım və şansım oyaxdı.

Və yolına ədamə verdi, gəldi, yetişdi canavara. Gördi ki, canavar bunun yolun gözləyər, canavar soruşdı ki, mənim sifarişimdən nə xəbər? Bu kişi deyər ki, sən əgər bir axmaq adam tapıb yesən, sənin başın ağrısı yaxçı olar.

Bu zaman canavar soruşur ki, day nə xəbər?

“Allahı sifariş xəbər yoxdi” – deyər.

– Niyə bir əkinçidə belə bir sifariş, xəbər yoxdu?

Deyər:

– Bir əkinçidə belə bir sifarişi varıdı, mən soruşdum.

O da əkinçinin yerinin cəryanın deyər.

Deyər:

– Sən niyə qəbul eləmədin?

Deyər ki, mənim şansım oyaxdı.

Canavar bir az baxır, deyər:

– Əgər sən o əkinçiynən şərik olsaydın, sən bu fəqər– fəlakətdən çıxardın. Bu şansı əldən vermisən, sənnən axmağın dünyada tapa bilmərəm.

## QIZIL TELLİ, GÜMÜŞ TELLİ OĞLAN

Bir zamanlar ucqar bir ölkədə üç bacı var idi. Onların ataları dünyadan getmişdi. O yetim bacılar çox yoxsul idilər. Günlərin bir günündə onların üçü də acmışdı, yemək üçün heç bir şeyləri yox idi. Onlar belə qərara gəlirlər ki, bir yarış keçirtsinlər, hər kim otursa, onu yesinlər. Bu anda bala bacı ağlayıb deyir:

– Mən sizdən zəifəm, qoyun bir az fikirləşim və çarə yolu tapım, tapa bilməsəm siz məni yeyin.

Bala bacı o yan-bu yan axtarmaqda olur, fikrini işə salır, onun gözü birdən-birə şahın tövləsinə gedən nökərlərə sataşır, o nökərlər şahın atlarına yem aparırdılar. O, bir yerdə özünü gizlədir və nökərlərin gözünə görükmür. Nökərlər tövlədən çıxıb gedəndə xırda bacı atların tövləsinə gedir. O, nökərlərin atlara gətirdikləri noxud, kişmişləri yığır bir torbaya doldurur, bacılarına aparır. Onlar birlikdə noxud kişmişdən yeyib, sevinirlər. Bala bacı deyir:

– Daha qorxmayın, mən hər gün sizə belə yemək gətirəcəm.

O, hər gün tövləyə gedib atların yanında gizlənir və nökərlər atlara noxud, kişmiş gətirəndən sonra o da yeməkləri qədər yığıb evlərinə gətirirdi və günlər bu sayaq ötürdü. Bir gün padşah atlarına baş çəkmək istəyir. O, atlarına baş çəkdiyində görür ki, atlar

arıqlamışlar, minməli deyillər. O, əsəbiləşir və deyir ki, atlarım nədən belə arıqlamışlar? Nökərlər deyirlər ki, padşah sağ olsun, bilmirik, hər nə qədər də yeməklərin artırırıq, günü-gündən belə arıqlayırlar. Qorxumuzdan da sizə deyə bilmirdik. Padşah deyir:

– Atlara keşikçi qoyulsun, güdün görək atlara yem verəndən sonra nə olur?

Şahın dediyinə görə, keşikçilər tövlədə gizlənirlər və görürlər ki, atları yemləyəndən sonra bir qız gəldi və noxud, kişmişləri yığışdırdı. Onlar qızı tuturlar, padşahın hüzuruna aparırlar. Padşah açıqlanıb ona hədə-qorxu gəlir, deyir:

– Düzünü deməsən, səni cəzalandıracağam, de görüm, niyə atların yeməyini oğurlayırsan?

Qız deyir:

– Padşah sağ olsun, əgər atların noxud-kişmişi olmasaydı, mən və bacılarım acılıqdan ölərdik. Yemək üçün bizim heç nəyimiz yox idi. Mən gəlirdim, atların yeməklərindən aparırdım ki, sağ qalaq.

Padşah dedi:

– Səni əvvəl dustaq edib, sonra öldürtdürəcəyəm.

Qız dedi:

– Ey padşah, məni öldürtdürmə, mənimlə evlən, sənin üçün bir oğlan doğum ki, başının bir tərəfi qızıl telli və bir tərəfi gümüş telli olsun.

Padşah qəbul etmir, məmurları gedib evdə olan iki bacını da gətirirlər və onlar da padşahdan fürsət istəyirlər və onların biri deyir:

– Mən bir kilim toxuyuram ki, üstündə neçə min adam oturmaq istəsə, yenə yer olsun.

O biri gələn deyir:

– Mən bir yumurta bişirirəm ki, neçə min adam yesə də qurtarmasın.

Padşah təəccüblənib onlara fürsət verir. Biri elə bir kilim toxuyur ki, hər ilməsində bir iynə taxır və onu yerə salır, üstündə oturmaq istəyənlər tez qıraqda dayanır və kilimin üstü boş qalır.

O biri qız isə bir dənə yumurtaya o qədər duz vurur ki, qır duz olur, yemək istəyənlər bir də yeyə bilmirlər. Onlar istəsələr də şərtlərini apardılar və onların şərti bu idi ki, aparsalar, biri vəzirin həyat yoldaşı, biri də vəkilin olsun, elə də oldu.

Padşah onların şərtlərini qəbul etdi. Və üçüncü bacı il özü evləndi. Və bir müddətdən sonra şahın arvadı boylu oldu, padşah qızıl telli, gümüş telli oğlan uşağının dünyaya gəlməsini gözləyirdi. Amma söz burasındadır ki, birinci və ikinci bacı üçüncü bacının gicigini edirdilər və belə bir qərara gəlmişdilər ki, onun doğduğu vaxtda otağa bir kimsəyə yol verməsinlər, onun doğduğu uşağı dəyişdirsinlər. Üçüncü bacının vaxtı çatdı. Uşaq dünyaya gələndən sonra, gördülər ki, saçlarının bir tərəfi qızıl, bir tərəfi isə gümüşdür. Onlar qundağı oğurluyub aparıb, dəyirmanın boğazına atdılar ki, boğulub ölsün. Və ordan da padşahın evinə gedib dedilər ki, sənin həyat yoldaşın bir it küçüyü doğub. Padşah acıqlandı və dedi:

– Onu tez öldürün.

Vəzir, vəkil yalvar-yaxar elədilər ki, onu öldürmə, dəstur ver, saraydan eşiyə buraxsınlar, gedər bir yanda acından ölər. Padşah onların istimaslarını qəbul dib, üçüncü bacını uzaq bir çölə buraxdırdı.

Sizə deyim qızıl telli, gümüş birçəkli uşaqdan. Həmən gün dəyirmançı su dəyirmanının suyuna baxmağa getmişdi. O, dəyirman arxının boğazında bir uşaq səsi eşitdi, baxıb gördü ki, suya bir uşaq düşüb. O, tez uşağı sudan tutub, görür ki, uşaq adi bir uşaq deyil, onun başının bir tərəfi qızıl, bir tərəfi də gümüşdü. O, uşağı evinə aparıb deyir ki, filan yerdə evlənmişdim, qadınım oğlan uşağı doğub. Dəyirmançı uşağı evdə gizlin bir halda böyüdür. Başını qırxıb tüklərini qızıl və gümüş dəyərində alıcılarına satırdı. Qonşulara deyirdi ki, uşağım keçəldi, utanır bayıra çıxa bilmir. O, bir mal dərisindən börk qayırıb uşağın başına qoyurdu və uşağı elə öyrətmişdi ki, uşaq onu başından götürməzdi, elə sanardı ki, elə doğrudan keçəldi. Bir müddətdən sonra uşağın anası, atası evinə qayıtmışdı. Orada təkbaşına yaşayırdı. O, bir gün bulağa gedirdi ki, evinə su gətirsin, küçədə bir neçə uşaq oynayırdı, uşaq-

ların birinin ayağı bir daşa ilişib yerə yıxıldı və onun başından dəri papağı yerə düşdü. O, uşağa kömək edib yerdən götürəndə görür ki, onun başının bir yanı qızıl, bir yanı da gümüşdü. O, görür ki, uşaq o qədər gözəldir ki, onun üzünə baxmaqdan utanır. O, belə anlayır ki, bu onun uşağıdır və gördüyü hal-əhvalları padşahın qulağına çatdırır ki, mən sənin qızıl telli oğlunu tapmışam. Padşah inanmır və belə düşünür ki, istəyirlər ona hoqqa vursunlar. O, deyir ki, adam yolla dəyirmançının evinə, uşağı gətirsinlər, sonra qəzavət edək. Məmurlar dəyirmançını və uşağı aparırlar şahın və uşağın anasının hüzuruna. Arvad dəri papağı uşağın başından götürür, görür uşağın başı par-par parıldayır, saçları qızıl və gümüşdür. Şah dəyirmançıya deyir ki, həqiqəti araya qoysun, o da olan macəranı deyir. Uşağın anasını bir daha sorğuya tutur. Ana deyir ki, mən doğduğum halda yanımda fəqət iki bacım var idi. Hər nə olsa, onların əliylə olub. Şah əmr edir ki, hər iki bacını gətirsinlər. Onlar da gəlirlər və uşağı gördükdə hər şeyi başa düşürlər, sözün düzünü deyirlər. Onlar .həsadət etdiklərini gizlətmirlər və deyirlər ki, bu bacımızbizdən kiçik ola-ola bizdən qabağa keçirdi və şah arvadı olmuşdu. Biz də kiçik etdik. Uşağı bir it küçüyü ilə dəyişdirdik.

Padşah həqiqəti öyrəndikdən sonra uşağını dəyirmançıdan alır və arvadından üzr istəyir. Saraya aparır və hər iki bacını cəzalandırmaq üçün zindana göndərir.

## İBRAHİM VƏ DÜŞVAR PADŞAH

Biri var idi, biri yox idi, Allahdan savayı heç kim yox idi. Bir böyük məmləkət var idi ki, Düşvar padşah da hökmranlıq edirdi. Onun bir dənə oğlu var idi ki, adı da İbrahim idi. İbrahimin anası bir naəlac mərizçiliyə düçar olmuşdu. Və o mərizçiliklə də dün-

yadan getdi. Ama İbrahimlə padşah bir gün dəryanın kənarında seyir vəsailə getmişdilər ki, o zaman da dərya atları dəryadan çıxıb quruluğa gəlmişdir və atların birinin yanında bir balası var idi. Bu qulunın rəngi də qara idi. İbrahim bu qulunu görür. Atasına deyir ki, mən bunu istirəm. Padşah da dəstur verir bu qulunu, yəni atın balasını kəmənd atıb tuturlar. Ama İbrahim bu atı çox-çox istirdi və bəzi mövqelərdə ikisi birlikdə dərd-dəl edərdi. Neçə ildən sonra İbrahim bir az böyümüşdü. Onu məktəbə qoymuşdular və padşah da İbrahimi çox istirdi. Ama hər gün bu arvadın həsabəti İbrahimə nisbət çoxalırdı ki, bir gün o qədər İbrahimdən şaha pis demişdi ki, daha padşah da İbrahimdən yorulmuşdu. Padşahın arvadı istir ki, İbrahimi öldürsün. Yəni, padşah bu işi görsün. Ama padşah bu işi düz bilmir və qəbul da eləmir. Ama deyir ki, (arvad) əgər sən eyləyə bilmirsən, icazə ver mən onu aradan aparım. Padşahın arvadı dəstur verir həyətdə qapının ağzında bir quyu qazsınlar və üstünə fərş salsınlar. O vaxtı ki, İbrahim məktəbdən gəldi içəri girəndə düşsün quyuya. Üstün torpaqla dolduralar. Deyər ki, İbrahim itibdir. Sübh ki, İbrahim istirdi ki, gedə məktəbə atına baş vurardı. Gedər atının yanına, görər atı ağlayır. Dedi, mənim gəşəng atım, nazlı atım, niyə ağlırsan? At dedi ki, İbrahim özümə ağlamıram. Sənin ögey nənəligin nəqşə çəkib ki, səni öldürsünnər. Quyunun qaziyəsin İbrahimə dedi. O vaxtı ki, məktəbdən qayıtdın fikrin cəm elə ki, qapının ağzına içəri üzdə quyu qazacaqlar və üstünə fərş salacaqlar.

O vaxtı ki, İbrahim məktəbdən gəldi, içəri gircək düşsün quyuya və ama getdi məktəbə və vaxtı ki qayıtdi gördü bəli, içəri, özü də qapının ağzında fərş salıblar və ama İbrahim çox huşlu idi və zərəng idi. O tərəfdən bu tərəfə tullandı. Quyunun bu tərəfində düşdü yerə. O tərəfdən nənəligi baxırdı, dedi:

– İbrahim, niyə hubuldun? Dəərsən yerə, bala.

İbrahim dedi:

– Anacan, bizə məktəbdə məşq verirlər ki, iki metr hubbulaq. Mən də təmrin elərəm.

Gecə padşah arvadınnan soruşdı. Arvad dedi ki, cəryan bu cürə oldı. Ama bir müddətdən sonra padşahın arvadı bir ayrı

nəqşə çəkdi. İstədi ki, İbrahimin yediyi xörəyə zəhər qatsın. Gecə İbrahim getmişdi atının yanına gördü genə atı ağlayır. Soruşdu ki, mənim heyvan atım, tərlan atım, genə nə olub? Mən ki, ölməmişəm. Niyə ağlayırsan?

Dedi:

- İbrahim, sənin xörəyin içinə zəhər qatıblar. Yenə onlar istirlər səni öldürsünlər.

Genə İbrahim getdi məktəbə və ama qaydan baş nənəligi dedi:

– İbrahimcan, tez gəl çörəyini yeginən.

İbrahimgilin evdə bir pişigləri var idi. Çox da qəşəng idi. Demə ki, pişig də duymuşdu. İbrahimdən aralanırdı ki, İbrahim gəldi dəstərxan başına. Xörəkdən bir qaşıq tökdü pişigin qabağına. Pişig yedi, getdi o tərəfə düşdi. Ama İbrahim xörəyin yemədi və getdi. Gecə padşah arvadınnan soruşdu ki, sən ki, istirdin İbrahimi öldürəsən. Bəs nə oldu? O mövqe arvadı dedi ki, mənə agahdı ki, o, bizim niyətimizdən mətlə olur və güman eylərəm ki, o at ona deyir. Ama bu dəfə ata bir nəqşə çəkdilər. Genə bir gün İbrahim getmişdi atın yanına, gördü at yaman ağlayır. İbrahim dedi, mənim əzizim və mənim gözümün işığı, nazlı atım, nə üçün, nə olub?

Dedi:

– İbrahim, bu gün özümə ağlayıram.

Dedi:

– Nə üçün, niyə?

Dedi:

– Nənəligin padşaha deyib ki, mən mərizəm. Doktur mənə deyib ki, əgər sən dərya qara atının ciyərini yesən, yaxçı olarsan. Buna xatir istirlər (məni) öldürələr. Harda olsan tez gəl o vaxtı ki, məni aşdılar, o zaman kişniyəcəyəm. O mövqe ki, məni gətirdilər həyətdə, bir də onda kişnəyəcəyəm. Ama üçüncü dəfə kişnəməglə, məni öldürərlər. Əgər yetişdin yetişdin, yetişmədin məni öldürəcəklər. Və amma bunu da deyim ki, nənəligin məktəbin mirzəsinə pul verib ki, İbrahimi bu güni gec ötür gəlsin evə.

İbrahim çox nigaranıydı. Ha istidi gəlsin, (evə) amma icazə vermirdilər. Etiraz elədi ki, niyə? Dedilər ki, sən inzabatlıq eləmi-

sən. Cərimən bu gün evə gec getməkdi. O zaman İbrahim atın əvvəl kişməməgin eşitdi və bir azdan sonra ikinci kişnəməgin eşidəndə ğəzəbləndi, vırdı qapını sındırdı, qaçdı. Üçüncü dəfə kişnəməkdə İbrahim özünü yetirər və özün atar atın üstünə ki, məni öldürün. O vaxt vəzir, vəkil narahat oldılar. Padşah Düşvardan istədilər ki, bunları öldürmədən ikisini də bu məmləkətdən sürgün buyura. Belə də öz doğma vətənindən calay vətən olur. Bu halda İbrahim atı ilən məmləkətdən çıxır gedir. Az gedir, çox gedir. Günə mənzil yol gedir. Öz torpaqlarından çıxıb alayı bir ölkədə bir müddət yol gedəndən sonra yetişirlər bir böyük bağa. İbrahim görür ki, bir ağsaqqal kişi bu bağın sahibidi. Gedir qabağa salam verir. Sonra istir ki, burda işləsin. Ağsaqqal kişi də görür ki, bu bir zirəng oğlandır. Rəzayət verir. Ama burda at İbrahimə deyir ki, İbrahim, əgər məni çox istirsən məni burda zindan eləmə, sən burda işlə, sən məni də azad qoy, hər mövqey ki, mənə ehtiyacın oldu bir neçə tük mənnən saxla. Hər mövqe müşkilə düşdün tutuşdur bir-birinə. Mən o zaman sənin yanında xidmət eləməgə hazıram və İbrahim bu işi görür. Atın yerin, cilovun alır götürür. Atı opür, xüdahafizləşir. At gedir. İbrahim də bir neçə illər bu ağsaqqal kişinin yanında işləyər və bunların ikisi də bir-birinin rizayətləri olur ki, bir gün bu ağsaqqal kişinin iki qızı varıydı. Gəlmişdilər bağa, ama o zaman kişinin böyük qızı atasından İbrahimi soruşar. O qız atasına deyər ki, atacan, əgər sənin rizan olsa mən istirəm İbrahimlə evlənəm. Atası riza verir, cünki atasının oğlu yox idi. Bunlar ikisi evlənirlər və yaşayışlarına davam verip və qabağa aparırlar. Qəzadan bu məmləkətə alahı bir məmləkətdən savaş meydanına gəlirlər ki, o zaman padşahın məmurları harada ki, kişi xeylağı görürdülər aparırdılar cəngə. Bir gün məmurlar gəlirlər ondan istirlər ki, İbrahimi təhvil versin ki, getsin savaş meydanına. Ama bu kişi razı deyildi. Hər nə qədər dedi, qəbul eləmədilər. İbrahim gəldi qabağa dedi:

– İradı yoxdı. Atacan, mən gedirəm inşallah da sağ-salamat da gələm.

İbrahim təsmim dutdı arvadına və arvadınnan, atasınnan xudahafizi eylədi və arada atın tüklərinən ikisini tutuşdurdu bir-

birinə. Bir ot parladı. Qara dərya atı tez İbrahimin yanında və ixtiyarında qərar tapdı. İbrahim getdi dəmirçi yanına. Bir kəsərli qılınc sifariş verdi və alahı vəsail cəngi də həmin cür sifariş verdi. Tez hazır oldu və İbrahim cəng meydanına ayaq qoydu və ama İbrahimi meydanın o tərəfinə yolladılar ki, düşmən ordan çoxlu hücum eylərdi və bu tərəfinə gətirirdi. Ama burda İbrahim qara dərya atından şücaətlə hücum gətirib, sağdan-sola, soldan-sağa bir az müddətdə düşməni tar-mar elədi və qayıtdı. Ama o zaman savaşın qızğın mövqendə şah cəngin üstən ki, baxırdı vəli bir kəs İbrahimi tanımırdı. Padşah məmur yolladı ki, bu qara atlı, yəni qəhrəman kimdir? Hansı qoşunun fərmandeyidir? Bizim ordumuzda belə bir cəsarətli və qüdrətli çapar yoxumuzdu.

Xəbər gətirirlər ki, qurban bir məmuli adamdır. O ağsaqqal kişinin yeznəsidir və ona işləyir. Padşah əmr elər ki, onu mənim hüzuruma gətirin. İbrahim gedir və ondan sorusur ki, cavan, harda dövrə görmüsən və məşq eləmisən? O at hardandı? Onu təhvil vermir. Həman zaman xəbər gətirdilər ki, o biri bölümə düşmən qoşun gətiribdir. Qoşun müqavimət eyləyə bilmir. O zaman padşah dəstur verir. Ibrahim o məntəqəyə varid olur və o qərə atılan düşməni şikəst verir. Orda padşah deyir ki, ay kaş, bu atdan bir neçəsi qoşunda olaydı. Indiyədək mən heç qoşunda belə bir at görməmişəm. Ibrahim ki, qayıdır padşahın yanına. Padşah deyir:

– İbrahim! Gəl padşahlığı qəbul elə, ya da qoşunun padşahlığını.

Orda İbrahim deyir:

– Qurban, əgər icazə versən mən qayıdım öz vətənimə.

Padşah soruşur ki, sənin vətənin hardadı?

Deyir:

–Qurban, Duşvar padşahının vilayəti mənim ana vətənimidir.

Padşah ona icazə verir, İbrahim sağ-salamat gəlir xanvadəsinə və ağsaqqal kişidən icazə alır və arvadını da götürür, yola düşür. Bir neçə aydan sonra öz vilayətinə yetişir. Öz doğma elinə və vətəninə bir daha qovuşur. Ibrahim gedir paytaxtın qoruğuna çadır vırır və qara atını da orda hörükləyir. Padşahın məmurları

görürlər ki, bir qoy pəhluvan orda çadır qurubdu. İbrahimin xanımı uzaqdan görür ki, bir atlı gəlir. İbrahimə deyir ki, bir nəfər gəlir. Ibrahim deyir, lap yaxşı, qoy gəlsin. O pəhlivan gəlir yetişir. Yaxınlaşır və haray çəkir ki, ay yağı, kimsən? Burada niyə çadır vurmusan? Bura padşahın at qoruğudur. O vaxt İbrahim deyir:

– Yaxına gəl. Səsini eşidmirəm.

Pəhlivan qabağa gəlir. İbrahim onu tutur və qulağını kəsir, qoyur ovcuna və deyir get padşah Düşvara denən ki, mən İbrahiməm. O arvadını öldür, başını mənə göndər.Yoxsa savaş meydanında hazır ol.

Padşah qəbul eləmir. Oraya bir qoşun yollanır, ama İbrahim aman vermir və onların hamısını öldürür. Və sonra xəbər verir ki, o dedigin gərək əməl ola. Bu dəfə Düşvar padşah ğəzəblənir. Özü qoşuna başçılıq eliyir. Ama İbrahim hamısını aradan aparır və bu dəfə padşahı tutur və əlin– qolun bağlayır və deyir:

– Buna xatır ki, atamsan sənu öldürmürəm. Gərəh o xəbis və həsvad arvadı öz əlinlə öldürəsən.

Padşah məcbur olur onu öldürür və başını da İbrahimə təhvil verir. Ona deyir ki, sən padşahlıq elə, mən də məmləkəti abad eləyim. Padşah bir az müddətdən sonra ölür. İbrahim özü o məmləktə padşah olur. Ibrahimin o ağsaqqal kişinin qızından bir dənə oğlu olur və onun adını qoyur Məhəmməd. Sonra İbrahim bir ayrı arvad alır və ondan da iki oğlu olur. Birinin adı Əli, o birisinin adı Hüseyn olur. Ama İbrahim Məhəmmədin anasın alahı bir yerə aparır və o birisi arvadını da bir ayrı evə və burda İbrahim bir az müddətdən sonra bir qüdrətli padşah olur. Ibrahim dəstur verir məmləkətdə məmurları gətirib böyük və əzəmətli bir saray düzəltdirir ki, misli olmasın. Bir neçə müddətdən sonra hazırlaşır ki, tüccar karvançıları, vəzir, vəkil, bazardakılar padşahın sarayının görüşünə xonça bəzədib aparsınlar. Hamı o zaman getmişdi. Bir rəsm idi. Gərəg də gedə idilər. O şəhərdə bir qoca arvad varıydı. O gəlmişdi, ona da adam yollayarlar ki, ondan nəzər alsınlar. O da gəlir. Onun da nəzərin soruşurlar o deyir ki, qibleyi-aləm sağ olsun, mən ömrümdə belə saray görməmişəm, bunun fəqət bir izadı vardı. Deyirlər, o nədi? Deyir, bir tavus quşu əgər burda

oxusa, çox gözəl olar. Deyirlər, o harda olar? Deyir o günün kürəsində olar. Ibrahim əmr elər ki, hamı yığışsın bir qoşun yollayaq gedsinlər günün kürəsinin yaxınlığında olan tavus quşunu gətirsinlər. Amma Məhəmməd bir gün gedir saraya deyir ki, padşah sağ olsun, lazım deyil, bir belə adam yollıyasan. Biz üç qardaşlar gedib onu tapıb gətirrik. Əgər tapmadıq, qayıdıb gələrik və sonra qoşun gedər. Ibrahim padşah qəbul eylər. Bir muqdar pul, at, qılınc, qalxan verərlər. Bunlar yola düşüb gedirlər və öz vilayətlərindən çıxarlar. Bir-iki yol ayrıcına yetişərlər ki, iki yol ayrıcında bir qara daşa hək olmuşdu ki, əgər bir kəs sağ yol ilən getsə gələr və ama əgər sol yol ilən getsə gəlib çıxmaz. Ama Məhəmmədin o iki qardaşları hey mərt-mərteylədilər. Məhəmməd dedi:

– Qardaşlar, dalaşmayın! Mən sol yol ilən gedirəm, siz iki qardaş o sağ yol ilən gedin.

Qərar qoyullar ki, hər kim tez gəlsə bu daşın altına nişanə qoyurlar ki, o birisinin dalınca getsin tapsın. Orda bir-birlərinnən ayrılıb yola düşirlər, ama burda o iki qardaş ki, sağ yolı getmişdilər bir müddət yol gedirlər. Bir abadıya yetişirlər. Orda qalırlar və Əli də orda bir qıza aşıq olar və evlənər, bir müddət də qalıb, sonradan yola düşüb gedib bir alahı abadıdan bir qoca arvada qonaq olurlar. Orda o vaxtı ki, genə qalmalı olurlar, o qoca arvad deyir ki, uzun gecədir, gəlin oynayaq. O qoca arvadın da bir səndəli varıydı. Biri qızıldan, biri gümüşdən və bir dənə də pişigi varıydı ki, saxlardı. Arvad qızıl səndəlin üstündə özü oturdu və gümüş səndəlin üstində onların biri, o qoca arvad bunların hər nə varlarıydı udub və özdərin də, atların da sehr və cadu eylər, daş eylər qoyar bir qutının içinə. Burda sizə kimnən deyim, Məhəmməddən. O gedər bir müddətdən sonra yetişər bir dağa. Gecə olar görər ki, uzaxdan bir işıq görsənir və o işığın səmtinə tərəf gedər yetişir görür ki, bir qoca kişi ona yer görsədir. Burda Məhəmməd soruşur ki, atacan, aya burda sən tavus quşu adından bir zad eşidmisən, ya yox? O bir az fikir edir, deyər buracan mən bir zad eşidməmişəm. Vəli mənim bir qardaşım var, o bir az mənnən uzaxdı, o, on il mənnən böyükdi, fikir elərəm ki, doxsan yaşı var. Şayəd o eyləyə bilsə, o sənə kömək eyləyər. Məhəmməd gecəni

orda yatır. Sübh yola düşür və neçə gün yol gedir.Yetişir və ona qonaq olur və ona da sual eylər, ama o da bir zad bu barədə bilmir. Məhəmmədi öz qardaşınnan böyüyün yanına yollayır ki, bunnan on il böyükdi və yüz sinni vardı. Məhəmməd gedir qabağa, səlam verir və ona gecəni qonaq olur. Burda Məhəmməd o qoca kişidən soruşur ki, atacan, sən burdaca Tavus quşunnan bir xəbər eşidmisən, ya yox? Belə deyərlər ki, günün kürəsindədir. O qoca kişi durur ayağa, gedir dalıncasından bir kitab gətirir. Kitabı aralar, baxır deyər, bəli, Məhəmməd vardı, vəli çox çətindir. Sən gərək burdan belə çox uzax bir səfərə gedəsən. Vilayətdən çıxıb gedəndə bir böyük ucu-bucağı görsənməyən bir meşə var ki, orda böyük bir gur bulaq var. O gur bulağ bir böyük dərya kimin güldür və o gülin ortasında böyük bir hündür çinar ağacı var ki, o çinar ağacının başında sümükdən bir qalaça tikilib. Orda bir böyük humay quşu yaşayır ki, hər il bir balası, yəni cücəsi olar, ama o cücə ki, bir az böyüyür və istir ki oxusun o zaman bir böyük əjdəha o güldən çıxır gedir o çinarın başına, qalacada o quşu udur yeyir. Onun anası da bir iş görə əlac bilmir. Əgər sən eliyə bilsən, o əjdəhanı öldurəsən, o quş sənə kömək eylər ki, ta gedəsən günün kürəsinin yaxınlığında o tavus quşunu gətirəsən. Ama ora tilsim olubdı o vaxtı ki, Humay quşu səni ora çatıra. Orda yeddi açıx qapı vardı. Onları örtərsən. Yeddi dənə bağlı qapı var, onları açarsan. Bir az qabaqda qirx pəhləvan vardı. Bu tərəfdə qırx dənə şir, o tərəfdə bağlanıblar gərək humay quşun qanadlarında bir neçə dənə qopardıb, orda yandırasan ki, onun işi və onları bihuş eliyə ki, sən o mövqe o imarətə varid olarsan. Tavus quşu bir xanımın o tağındadır ki, qırx dənə kənizi vardı. Burda belə (Məhəmməd) yola düşir, bir müddətdən sonra yetişər ora, görür ki, bəli, əcəb yerdi və humay quşu da çinarın başında qələcənin eyvanında oxuyur. Bir az müddətdən sonra qəfildən gördü ki, gülün suyu parçalandı, dağıldı. O tərəf qəmişdıxa baxər və ordan bir əjdahanı görür, ortasınnan bir qılınc vurur, əjdahanı öldürür. Amma əjdahanı zəhri onun halın qatır, ürəyin bulandırır. Gedir kölgədə çimənin üstində uzanır. Bir azdan sonra humay quşu gəlir görür ki, bir adamzad, isdər qanadın üstünə sala, Məhəm-

mədi öldürə, ama humay quşun balası görur, qişqırır ki, ay ana, o işi görmə. O adamzadı qoyur yerinə, qayıdır. Gəlir görür ki, gün düşüb Məhəmmədin üstünə, durur qanadların açır kölgə salır ki, Məhəmməd yatsın. O vaxtı ki, Məhəmməd yuxudan durur görür ki, elə bil başının üstində bir dağ vardı. Görür ki, humay quşudur və sonra humay quşundan kömək istir və quş da onnan təşşəkür elər və deyər ki, necə ildi əjdaha məni bala özünə həsrət qoymuşdu. Məhəmməd deyir ki, mən gərək gedim günün kürəsinin yaxınlığndan tavus quşunu gətirəm. Humay quşu deyər, Məhəmməd, bu iş çətin, nahamar bir işdi ki, bu yolu intixab eləmisən. Get üç dənə qoyun bir yan elə, uç tuluq su ta mən səni apararam ora, ta ki sən o tavus quşuni gətirəsən. Məndə gərək onları yeyəm və içəm ta eliyə biləm ki, səni qaytaram. Məhəmməd xoşhal olur. Gedir onları düzəldir gətirir. Humay quşunnan uçur gedir, çatır gedir günün kürəsinin yaxınlığında düşür. Məhəmməd gedir tez o işləri ki, o qoca kişi demişdi əncam verir.Varidi saray olur və otaqda görür o xanım yatıbdı. Bir namə yazır qoyur balıncının altına. O xanım qırx dənə libas geymişimiş, onların otuz doqquzunun bağını açır, birini qoyur qalır və tez tavus quşunu götürür və qayıdır humay quşunun yanına. Tez Humay quşu Məhəmmədi gətirir yerə, orda bir-birinən xudahafizləşirlər. Məhəmməd gəlir o yerə ki, qardaşlarınan o iki yol ayrıcında nişanə qoymuşdular. Gedir o məntəqədə bir dostu varıydı. Tavus quşun onun yanında əmanət qoyur, gedir qardaşlarının dalıncan. Gedir bir yerə yetişir. Məhəmmədnən Əli bir-birinə oxşardı. Əsla bir kəs təşhis verməzdi ki, bu Məhəmməddi, ya Əlidi. Abadıda deyərlər bəs ki, qayıdıp onı təhvil alıp və Məhəmmədi qonaq eylərlər. O zaman vaxtı ki, gecə olur-yatma olur. Əlinin arvadı gəlir Məhəmmədin otağına və ama Məhəmməd qılıncını çəkir qoyur ortaya və xırda barmağınan işarə elər ki, mən sənin deyiləm. Sabah sübh olur, sübhanə sonra Məhəmməd yola düşür, gedir yolın yarısında görür ki, üç dənə siçan oynayırlar. Məhəmməd yoldakı arvada deyər ki, qonaq istəmirsən? O qoca arvad deyər, gecə uzundur, gəl bahəm oyanaq. Məhəmməd deyər iradı yoxdur, buyur. Başlayırlar qoca arvad qızıl səndəlin üstində oturur, Məhəmməd gümüş səndəlin üstində.

Amma Məhəmməd bilir ki, hətma bu qızıl səndəlin hikməti var. Pişig də çırağı əlində saxlayıb. Məhəmməd burda o siçanları yolda tutmuşdu birini pişigin gözinin qabağında saxlar. Burda pişig ki, istirdi siçanı tutsin. O qoca arvad huşdar verdi pişig durdu. Bir az qaldı, Məhəmməd genə siçanın birini başladı oynatmağa. O zaman pişig çırağı vurdu yerə. Tez şifişdi siçanı tutdu və yedi. Həmən zaman qoca arvad durdu ki, çırağ gətirsin, Məhəmməd öz yerindən durdı, əyləşdi o qızıl səndəlin üstində. Ama burda qoca arvad etiraz eylər. Məhəmməd burda deyər ki, de görüm kişilərin məqamı yuxarıdı, ya arvadların? O qoca arvad deyər, kişilərin. Məhəmməd burda deyər, bəs danişma, bu dəfə də mən bu qızıl səndəlin üstində əyləşirəm, sən də o gümüş səndəlin üstində, söz olmasın. Bilaxrə Məhəmməd qoca arvadın nəyi varıydı aparır və deyər ki, mənim qardaşlarım sənin yanındadır. Onları mənə təhvil verməsən səni öldürərəm. Amma qoca arvad deyər ki, sən ki məni aparmısan, gəl məni özüvə arvad eylə bahəm yaşayaq. Məhəmməd qəbul eyləməz. Xəncərin çıxardır qoyur arvadın xırtdəginə. Deyər, tez mənim qardaşlarımı tilsimdən azad elə. O qoca arvad tez işə başlayar. Onları və alaların da tilsimin açır. Bir qutu gətirir ki, içində dörd daş varıydı. İkisi at olur, ikisi də Məhəmmədin qardaşları. Məhhəmməd burda o qoca arvadı öldürür və ordan yola düşərlər. Gəlirlər Məhəmməd deyər, Əli sən evlənmisən. Mən sənin arvadına qonaq oldum və tənha təmasın onnan mənim bu culu barmağımdı. Onun da dəlili budur ki, işarə eylədim ki, faslə tutub. Ona görə ki, mən sənin ərin deyiləm. Bu şəmşirnən imtahan eyliyəsən. Mənim bədənimin harası təmasda olsa oranı kəsər. Bu şəmşiri, Məhəmmədin qardaşı Əli iki dəfə şəmşiri yendirir. Ahır dəyər Məhəmmədin culu barmağına və şək bir tərəf olur və gedirlər o abadıya. Əlinin arvadın da götürürlər. Gələllər Məhəmmədin dostunun yanına ki, tavus quşunu ordan götürüb gedərlər öz vilayətlərinə. Amma yolda özlərinə və atlarına su lazım olur, çünki o məntəqə biyabanıdı. Gərək quyudan su çəkəydilər. Məhəmməd həmişə fədakar bir insanıydı. İpinən çəkir(suyu) qardaşları özləri, atları içillər və bir miqdar da tuluğa doldururlar. Məhəmməd işarə eylər ki, ipinən məni çəkin. Ama Məhəmmədin

qardaşlarının xəbis niyyətləri və həsadətlikləri yuxarı gedir, öz-özlərinə deyərlər ki, hər zad olacaq Məhəmmədə. Padşahın da yanında bizim qədrimiz olmuyacaq. Məhəmmədi çəkirlər quyının axırnıya gələndə tənab vırırlar. Məhəmməd gedir düşir quyunun təginə. Namərd qardaşları Məhəmmədi quyuda qoyub gedirlər öz məmləkətlərinə və orda da bunlar üçun böyük bir şənlik tutullar və padşahın da yanında əziz olurlar. O biri qardaşı da evlənir və tavus quşun da qoyurlar sarayda oxuyur. Ama burda sizə deyim Məhəmmədən. Bir az müddətdən sonra bir tacirin karvanı oradan keçirdi. Gedirlər ki, quyudan su çəksinlər, xidmətkarlardan birin salırlar quyuya. Orda görürlər ki, bir gözəl cavan oğlandır. Ona yetişirlər. Dərman eylərlər. Bir müddətdən sonra halı curranır. Ama bu karvanın xoşbəxtlihdən məqsədi, yolu Məhəmmədin vilayətinən keçirmiş. Məhəmməd bu tacirə xidmətkar olur. Burda Məhəmməd tacirdən icazə alır ki, qurban, mənim burda bir qoca nənəm vardı, ona bir baş çəkim çox zamandı onu görməmişəm. Burda tacir deyir ki, əgər getdin gəlmədin. Deyər, nə dəyim qurban, əgər halım yaxçı olsa və anamın da halı xoş olsa gəlləm. Əgər gəlməsəm öz böyüklüyüvə məni bağışla. Tacir qəbul eylər.

Məhəmməd yolda düşir gedir qapını vırır. Məhəmmədin anası o qedər ağlayıb natəvan olmuşdu ki, deyər bir nəfər mənə ana deyərdi orda muddətlərdi ki, yoxdı. Mənə əziyyət eləmə, ay cavan. Məhəmməd deyər, anacan, mənəm Məhəmməd, sənin oğlun. Nigaran olma, mən gəlmişəm qapını aç. Burda Məhəmməd görür ki, əsla bura heç kim yetişməyibdi və anasının da vəziyyəti yaxşı deyil. Məhəmməd bir az istirahət eylər. Anası da xoşhal olur. Ama burda sizə kimnən deyim, tavus quşunun yiyəsinnən. Günün kürəsinən sabah sübh yuxudan durur görür ki, tavus quşu oxumur. Hərasan qalxır görür ki, təmam bunun libasdarı hamısı bədəninən tökilidi, faqat bir dənə əynində namə bunun balıncının altındadır. Buna deyər ki, bir zaman bir kəsi oğru tanımıyasan. Mən Məhəmmədəm. Fəlan məmləkətdən gəldim. Sənin tavus quşunu apardım. Bizim də padşahımız İbrahimdi. Dəstur verir, ay açıx qapılar, tutun. Qapılardan cavab gəlir ki, bizə söyləməyən peyğəmbərin zamanında bizə bağlıyırdız.

Bizi açdı. Alı pəhlivanlar, şirlər tutun. Onlar da görürlər bihuş olub yerə düşüblər. O humay quşun qanadlarınan yanıx ısı bunları bihuş eləyiblər. Burda ğəzəblənib hücum gətirər Ibrahim padşahın torpağına. Deyər, ay padşah, o kəs ki, mənim tavus quşumu gətirib onu təhvil ver, ya da savasmağa hazır ol. Burda İbrahim padşah deyər ki, mənim oğlanlarımdan hər hansız tavusquşunu gətirmişsə hazırlaşsın gedax. Burda Əli deyər mən. Gedərlər şəhərin kənarına. Bu qızın qoşununun pəhləvan şirləri şəhəri mühasirə eləyib dörələmişdilər. Heç kim nə eşigə çixa bilirdi, nə də eşikdən içəri gələ bilirdi. Biri gəlip məmurrardan bunları apardı. Çadərda içəridə soruşullar ki, xub, de görax tavusquşun hardan, və nə təhəri gətirdin. Əli deyər ki, gəlmişdi bulaqdan su içərdi tutdum gətirdim. Deyər, burda gətirib onu mənə təhvil ver. Bunlar qayıdıb gəlirlər. İbrahim padşah soruşar, Hüseyn deyər, padşah sağ olsun, mən gətirmişəm. Əli fəqət ordan bir arvad alıb gətirib yola düşirlər. Gedirlər o xanımın şəhərin qırağına. Burda günün kürəsindən gələn xanım padşah soruşur ki, xub də sora tavusquşun nə cür, nə təhəri gətirdin. Deyər ki, xanım mən durbərdə gəzirdim. Sənə demədim. Burda İbrahim padşahın göndərdıxlarını çadırdan salırlar eşigə. Bu dəfə ciddi surətdə İbrahim padşaha bir pəyam yollur ki, mənim quşumu gətirəni göndər, sabah, ya axşam hücum olacaq. Ama burda Məhəmməd qazıyəni eşidir. Gedir İbrahim padşahın sarayına. Deyər, qurban tavus quşun mən gətirmişəm və qardaşlarının dastanın tərif eylər. Məhəmməd bə ittifaq İbrahim padşah gedirlər o xanımın xidmətinə ki, günün kürəsinin gəlmişdi bunlar özlərin mərif eylərlər. Məmurdar bunları aparır xanımın huzuruna. Məhəmməddən soruşar ki, nə cürə, nə təhəri mənim quşumu gətirdin? Burda Məhəmməd icazə alıb dastanı birbəbir xanıma tərif eylər. Burda günün kürəsinnən gələn xanım ki, böyük bir hökmranıydı qəbul eylər və burda da İbrahim padşah Məhəmməddən qədərdanıx, təşəkkür eylər. Xanım da ki, günün kürəsindən gəlmişdi Məhəmməddə pişnihad eylər ki, sən ki, bu şücaətlə gəlib mənim sarayıma geçibsən, sən layiq bir adamsan. Əgər razı olsan sənə gəlləm bahəm yaşamaq içün. Burda da

İbrahim padşah qocalmışdı. Öz xələf oğlun özinə canişin intəxab eylər. Qırx gecə Məhəmmədinən şaddıx eylərlər.

## MİRVARİ TƏSBEH

Bir gün vəzirnən padşah yolunan, xiyabanınan gedirdilər. Padşahınan vəzir, ikisi bir dənə mirvari təsbeh gördülər ki, yola düşüb. Bu mirvari təsbehə ağa da, bu yannan əlin atdı, vəzir də bu yannan əlin atdı, bu dedi, mənimdi, o dedi, mənimdi. Ağa, bunlar bəhs elədilər təsbeh də baha qiymətə imiş. Padşah dedi:

– Vəzir sağ olsun, sən indi zülm eləmə, sən mənnən sinnisən, sən mənim dədəmin vəzirisən. İndi gəl dastani-sərguzəştimizi danışağ, hər kəsinki şox olsa təsbeh onundu.

Vəzir qəbul elədi, dedi:

– Xeyli xub. İndi sən dastanını deyisən de, ya mən deyim, icazə vərəsən!?

Padşah icazə verdi, vəzir dastanın başladı. Vəzir dedi:

– Qıbleyi-aləm sağ olsun! Sən, sənün dədün rəhmətdik şah idi, mənnən də xiyabanınan gedeydim. Bir dənə quru kəllə atıler, deyer, mən qırx qan eləmişəm, qırx birin də eliyəcəyəm. Bu mənə yekə gəldi, ölən köpöyoğlunun quru sümüyü! Qırxın öldürübsən, qırx birin də eliyəcəhsən!? Mən mını gətdim, acığımnan tökdüm dəstə dibəgə, dəstə dibəgdə döydüm, mını tökdüm valadan ələdim, tökdüm bir dənə şişiyə, qoydum rəfə. Ağa! Bu qaldı burda. Bir gün mənim bi dənə qızım var idi, övdə bakirə qızım var idi. Bir gün bu qız dedi, mən sancılanmışam, baba. Sancılanmışam, öleyrəm. Da ö cür oldu ki, biz day bunı qifillədik övdə, qapbacanı bərkitdik, o cür bizə əziyyət elədi munun naləsi. Bu qız bura-ora əl atır, o şüşədə o davanı görər, onnan götürər, bi tikə tökər əlinə, atar ağzına, munın ağrısı toxtar, sancısı toxtar. Sancısı toxtar, ağa. Biz gəldik, dedilər ki, qızın səsi kəsilib, biz xoşhal olduq. Soruşduq, qızım, nooldu sənə?

Dedi:

– Ağa! Siz davanı qoyubsuz orda məni öldürəsiz.

– Nəmənə davası!?

Dedi, odey bax, şüşədəki ağ dava. Mən bildim ahvalat nəmənədi. Mən bildim ki, burda bir iş var. Ağa, beş gün, on gün, qız hamilə oldu. Qız oldu hamilə. Neylədi bi dənə oğlu oldu. Bu yannan bu oğlanın dədəsi yoxdu, mənə toxundi, o yannan da ki xub, olub da onu Allah yaradıb, mən neynim axı! Ağa, beş gün, on gün oğlan yekəldi, oldu on beş, on altı sinnində, oldu təqribən cavan. Cavan oldu, padşah dedi ki, bir dənə yuxu görmüşəm. O yuxu mənim yadımnan çıxıb və onun təbiri də mənim yadımnan çıxıb. Əgər istiyəsüz vəzir, vüzəra, vəkil bu boyda ki, mənnən huquq aleysiz, yeyesiz bunu tapasuz gərəh da. Xub, mənki bir zad bilmirəm, siz ki vəzirsiz biləsiz gərək də.

Kişi, biz nə bilək, yuxuda sən nə görübsən. Ağa, bizə otuz beş gün vədə eləmişdi, vəx vermişdi, qırx gün vəx vermişdi. Otuz beş günnükdə mən ağleydım ki, bizi öldürəcəh da. O oğlan dedi:

– Baba! Niyə ağleysan?

Dedim, əh baba, cəhənnəm ol sən də, geş o yana.

Dedi:

– Baba! De da, de mənə də.

Mənim o söz yadıma gəldi, o quru kəllənin deyişi. Dedim, burda bir hesab var. Dedim, belə, oğlum! Başımıza bəla gəlib, şah bir dənə yuxu görüb, bizdən ister onun həmi-əslin, həmi – təbiri, biz bilməyirik. Beş gün qalıb ölməmizə.

Dedi:

– O bir zad döör ki, onu mən bilirəm.

– Hə, övün dağılsın bala! De da.

Dedi:

– Mən sənün başüvü uca elərəm, narahat olma. Padşah ki, sizi istiyəcək ki, məclis quracağ, səfir, kəbir, qeyri yığılacağlar, o, deyəcək , deyin. Sən deyərsən, qıbleyi-aləm sağ olsun! Mən sən deyən sahatı bileydim, vəli, mən bu vəzir, vüzəranun, vəkillərin gördüm helə, bifehmi var, ya yox! O qəddə evdə demişəm ki, bu uşağ örgənib, o gəlsin sənin için desin.

Dedi, qaçun, oğlanı gətirün! Belə fərraşlar getdilər oğlanı gətdilər. Qədim məmurlara fərraş deyərmişdər axı. Oğlanı gət-

dilər, çox izzet tamamınan, munun libas -mibası da mərbut idi. Xub, mənim evimdəydi də, vəzirəm, varım idi. Gəldi, şah dedi:

– Oğlum, de görüm, mən nəmənə yuxu görmüşəm!?

Dedi:

– Qıbleyi-alem sağ olsun! Sən gördün, bir dənə mejməyə gətdilər, qoydular sənin qabağuva ( qədimdə süfrə yoxuydu ki, mejmeyəydi, tabaxçeydi məsələm), mejmədə qırx bir dənə qayrılı loxma var, bu qırx bir dene qayrılı loxmanın sən qırxın yedin, birinə gələndə bir it atıldı, loxmanı götdü, sənün qabağunnan qaşdı. Dedi:

– Hə, barakalla! Ele odu, odu, sağ olsun vəziri, əcəb deyib, sen örgenibsən. Xub, bunun təbiri nəmənədi?

Deyər ki, qurban, sən onda məjlisi mürəxxəs ele, qoy getsin, babam qalsın, sən qal, mən deyim. Şah məclisi mürəxxəs elədi, gedənnər getdilər.

Dedi:

– Xub! De görək!

Dedi:

– Vallah ! Mənim deməyim ibarətdi ona ki, sənin qırx bir dənə aravadun var. Qırxı sənə həlaldı, biri nacizdi. Zirzəmidə, fərşin altında qapısı var, ordan pillə gedir, burda qırx saxlayır, qoçubaşı saxlayıb, cavan saxlayıb. Olardan istifadə eylir. Axırda səni öldürücək.

He, belə, tez şah şəmşir-zad bağladı, mən vəzir idim mənə də verdi, oğlana da verdi. Ağa, bu arvadi ki, burda oturub, bunun lap o baş hərəmidi, sən demə, elə bu cür oturan yerin altı qapıdı, qatdama qapı. Dedi, dur o yana! Dedi, e, noolub? Bahanalarına qail olmadıx, bunu qovzadıx, atdan qapını aşdıx, endik getdik aşağı, gördük belə.. Oğlan deyən düzdü, düzdü. Şah əmr eledi ki, oğlum, sən indi buların qırxının da başın kəs (qırx nefer harami var idi burda). Bu qırx nəfər haraminin ki başın kəsdi, çıxanda dedi, bu arvadın da başın kəs. Bu oldu qırx bir dənə qan. Vəzir dedi:

– Qıbleyi-aləm sağ olsun! Mənim sərgüzəştim, əcayib sərgüzəştim bıdı. Səninki nəmənədi?

Dedi:

– Ay beynava vəzir! Mən aparacağam təsbehi, mənim sərgüzəştim çoxdu.

Vəzir dedi:

– Xub, de da, səninki çox olar aparарsan.

Belə otdux bir ağacın dibində padşah dedi:

– Vəzir sağ olsun, mənim izahımı qoy sənə deyim, mən qara günə qalmışam, məni tazı eləyiblər, it eləyiblər. Mən qara günə qalmışam. Mənim bir dənə xanımım var idi ki, biləsən, bi qara eşşəkdi, onnan daş daşıyıllar o mənim arvadımdı. Bu kişinin qızı, sən demə, elə məni yuxuya verər, durar. Mənim iki dənə atım var idi, çox qəvi heykəl at, Türkmən atı, yel kimin. Minər, gedər orda bir dənə zağa var, zağada haramılar var, harambaşıynan bu cürrəşib, özləri də təsmim tutullar ki, bu şahı könde sal, biz öldürək. Bir gece, beş gecə, üç gecə mən görərdim soğuq-soğuq bu arvad girdi mənim yanıma, övün dağılsın hardeydün? Deyərdi, eşig yoluna gedeyrəm, yəni isala. Mən şəkkələdim, şəkkələdim, mən bir gece barmağımnan bir az yaraladım, duz basdım, yatdım, yuxum gəlmədi, xırımı çəkdim. Gördüm belə, bir az ki, bu arvad məni itələdi, gördü hər gecəki kimin yatmışam, durasan durdu ayağa. Durdu ayağa, mən xırımı çəkdim. Bu durdu, atı mindi. Meytər də gördüm qapıda deyir ki, axı xanım, sən hər gecə atdarı aparersan, bu atdar arıx düşəllər. Şah mənim dədəmi yandırar axı, öldürtdürər məni. Dedi:

– Heş eliyəmməz. Şah mənim yanımda sənə neyliyə bilər? P.... yeyər şah öldürər səni.

Arvad buna deyir. Elə bu ki həyətdən çıxdı, mən dedim:

– Ay meytər! O biri atı çək.

Dedi:

– Ay qıbleyi-aləm sağ olsun! Qoy yeerim.

Dedim, ay qurumsağ oğlu, elə bü cür, çuleynan çək. Çuleynan çəkdi. Allah tərəfi mənim bi dənə örgənmiş tazım var idi. Bu tazı mənnən getdi, getdik. Bu at o atın hasıynan, havasıynan getdi. Dağın böyründə biz gördük belə bir daş var, çıxdılar, aşırdılar. Bi dənə yekə daşdı, qapı kimin aşırdıla, burda işıq var. Şəm qoyubla, neyləyiblə, biləxirər burdan keşdik. Mən burda

keşik çəkdim, gördüm arvad keşdi içəri. O qədə qaldım qapıda ki, bu arvad mənim gözümün qabağında bular için oynadı. Bular için oynadı, annan o harambaşı dedi:

– Mən deyirəm qoy gedək, bu köpəkoğlunu öldürək, gətirək sərvətin burda yeyək.

Dedi:

– Hə, az qalıb, elə yoxunlaşıb, elə bu günner öldürtdürem, narahat olma. Biləxəre, bular qırx nəfərdiler. Qıx nəfərdilər saneyram. Bular otuz doqquzu bu mənzildə yatdılar, arvadınan haram başı keşdi içəridə yatdı. İçəridə qapılar var idi. Mən buların rədifin bəllədim, onunkun bilmədim hayandadı. Ağa! Elə bular bi curtdadılar, xob bular da məst adamıydı da, çurtdadılar, mən keşdim, buların otuz doqquzunun başın kəsdim. Keşdim içəri, dolaneydım, ayağım ayağıma dəydi, bular bildilər. Mən o kişiyə hərif idim, vəli arvat məni əhatə elədi, arvad ona köməy elədi. Məni o kişi yıxdı, yıxanda Allah tərəfi dalıdan mənim tazım ağız atdı munun bu (bağışlayın) xayasına, bunu çəkdi, anqırtdı saldı yerə. Tazı bunu öldürdü. Mən bunun da başın kəsdim. Bunun başın götdüm, föri çıxdım eşiyə, arvada dinmədim. Mindim atı, getdim keçirtdim içəri. Bir pulo qazanı var idi, yarımçılıq pulo var idi içində, başı qoydum pulo qazanına. Keşdim uzalandım, yatdım. Gördüm belə arvad gəldi çox kəhəlliyə-kəhəlliyə, çox titiriyə-titiriyə. Belə soğuqdu ki, bu əsəbani halında gəlir narahat, misliinki dədə-babası da ölüb elə. Belə, arvad yetişdi. Mən dedim:

– Ay övün dağılsın, mənim dədəmi yandırdın, sən hardasan? Niyə belə elirsən.

Dedi:

– A kişi, bilmeysen, bu gecə o qədə eşik yoluna getmişem, ölürəm.

Dedi, xub, lap yaxçı. Bir az uşdu mənim yanıma, bir az istiləndi, dedi:

– Valla! Mən belə acıxmışam, belə acıxmışam! Gör hələ qəzun var, bir tikə ver mənə.

Ağa! Bu keşdi, qazanı götdü, gördü baş burda. Bu bildi mənəm. Yavaş-yavaş, yanı-yanı yerdi. Bir böyük sandıx var idi,

ağaş sandıx– zad qədim olarmış, şahlıxdı da, varımış. Bunun dalından bir dənə çubux götdü, vırdı muna, dedi, ol, tazı– köpəy ol. Mən oldum bi dənə tazı, qəşəh bi dənə alagöz tazı. Ona məntər çubuğu deyərmişlər, ona bir dua oxumuşumuş. Bunun nənəsiynən bir arvadın nənəsi şagird imiş, bu molla bu çubuğa dua oxuyub, verib bulara, hər kəsə vursan, ne desün o olar. Vırasan, deyəsən daş ol, olar, vırasan deyəsən it ol, olar. Ağa! Mən oldum bi dənə it. Çağırdı: ay qulam, kəniz, köpəy uşağı it niyə keçib şahın otağına. Ağa! Məni çıxartdılar eşiyə. Bu tazılar daraşdı mənim canıma. Bu gülüfünnən çıxdım, burdan, ordan getdim, bir dənə Allah tərəfi, bir hasarda bir su gilifi vardı, hasardan su çıxardı eşiyə mən soxuldum bura. Soxuldum bura, gördüm yox da, burda da it-mit yoxdu, da məni burda boğan yoxdu. Burda xırımı çəkdim, səhər oldu. Burda bir dənə xanım gəldi, burda paltar zad yumağa, houzları var idi, munun bi cavan da qızı var idi. Belə beş-altı gün keçib, mənim bura gəlib çıxmağımnan. Mənim bu it olannan sonra day səs düşüb şah itib, məmləkətə səs düşüb, ağa! Munun bu qızı gəlib durdu mənim qabağımda (mən də düşmüşəm bura, bular da paltar yuyellar) dedi, oy nənə, bu tazının gözləri bizim şahın gözlərinə oxşayır.

Nənəsi dedi:

– Kəs qız, bi dənə itdi, şaha oxşayar?

Dedi:

– Nənə, and olsun Allaha, dayım canı…!

Munu arvad eləyib e. Ağa! Arvad ələyib! Bu arvad gəldi baxdı, dedi, canın yansın bala, deyəsən də bizim şahdı. Soruşdu:

– Səni o arvad elədi?

Başımnan dedim:

– Hə!

– Səni çubuğunan vırdı?

Dedim, hə.

Dedi:

– Xub! Mən sənə nicat verəcəyəm.

Ağa, getdi mənə bir dənə dava yaxdı, döndü bu səfər bi dənə çubuq (dedi, qıza get, o yükün dalındakı çubuğu mənə gəti)

vırdı, dedi, ol adam, köpəyin iti. Oldum şah, durdum ayağa. Özüm çox xoşhal oldum, istədim bu arvadın ayağınnan, zadınnan da öpəm, torpağınnan da öpəm. Dedi:

– Narahat olma, gedəcəksən, bu çubuğu verirəm sənə, gedəcəksən vəli o arvad bu səfər səni vırsa day sənə əlac olmaz a! Gözlə, vırmasın səni. Sən qabaxla, onu vır. İndi hər nə desün de, denə, ol eşşək, ol ayı, hər nəmənə desün, o olacax. Dedi, bu səfər onun dədəsin yandırram. Biləxre men getdim çıxdım evə. Ağa! Həmən tutdular, şah gəldi, şah gəldi. Çıxdım, bu arvad mənə baxdı, heyrətzədə oldu: bu ne cür olub gəlib. İstədi yan–yan gedə sandığa sarı, o çubuğuna sarı, yüyürdüm muna bir çubuq vırdım, dedim ol eşşək, köpəyin qızı. Bir dənə oldu eşşək, maça eşşək. İndi ki, yük daşıyillar, daş daşıyıllar, həman eşşək mənim arvadımdı. Vəzir dedi ki, qıbleyi-aləm sağ olsun, sənin dastanın çox oldu, təsbeh səninkidi. Olar yedilər, içdilər, mərdi-murada yetişdilər, inşallah, siz de yetişəsiz.

## YEDDİ QARDAŞ, BİR BACI

Biri var idi, biri yox idi, Tanrıdan başqa bir kəs yox idi. Bir ev varıdı, bu evdə ər-arvad bir kişi, bir qadın varıdı. Kişinin adı Tumac idi, onın baş yoldaşı, qadının adı Umac. Bu iki nəfər evlənib ev qurandan, var qazanandan sonra başladılar uşax qazanmağa. Bunların ilk uşaxdan ta yeddinci uşağaçan hamısı oğlan uşağı oldu, qız uşaxları olmadı. Oğlan uşaxları da yekəldilər hamısı başarıxlı, işcil və avçı oldular. Onların adları yaş düziminən belə başlayır: Arxaxan, Artaxan, Yağar, Yapar, Yonqar, Yonar və Saymaz xan. Böyüdü qardaşdar. Bunnar biri-birinə və ata-analarına çox istəkli imişdər. Bir gün yeddi qardaş və ata-anaları evdə nahar yeməyə başlamışdılar. Günorta yeməyin yeyəndən sonra o yan-bu yandan söz düşdi, qardaşlar ata-anadan soruşdular ki, niyə bizim bacımız yoxdu? Ata dinmədi.

Ana dedi:

– Utanmaqdan keçib, mən boyluyam, şayəd boynumda olan uşağ qız olsun və sizə bacı.

Oğlanlar inanmadılar və pərtdəşdilər. Axırda acığ elədilər, evdən getdilər. Ancax ata-analarına tapşırdılar ki, biz gedirix, əgər bizdən sonra oğlun olsa, xış alatı qoyarsız damın üstinə. Əgər qızın olsa da yun darağı damın üstinə qoyun, ta əgər qız olsa bacımızdan ötrü qayıdıb evə gəlax. Bu sözdəri deyib geddilər.

Ağa, demə ki qonşunın qızı və oğlu bu sözdəri eşidirmiş. Güdüllər, yeddi oğlanın anası qız doğur, onın adın Arqaç qoyurlar, aparır dam üstinə yun darağı qoyur ki, bəlkə oğlanları bilsin bacıları olub. Qonşının uşaxları ki, keçən sözin axımın və baxmın eşidib və bilirdilər, sürtüşmaq içün yun darağın götürdülər, yerinə xış alatı qoydular. Qardaşlar gəldilər dam üstində xış alatı gördilər, day evə gəlmədilər, qayıdıb geddilər. Bu yannan qız başqa uşaxlar kimi bala-bala yekəldi.

Bir gün kəndin uşaxlarıynan oynamağa gedmişdi. Uşaxlarnan bilə daş yığdılar, topladılar, divar hördilər və evcik tikdilər. Uşaxların birinin ayağı toxundı, evcigin divarı uçdu, töküldü. Uşaxlar evciyin yıxılmağın bir-birinin boynuna saldılar. Hər kimnən soruşdular, biri dedi anamın, o biri dedi atamın, başqaları dedi bacımın və qardaşımın canına and olsun, o evciyi yıxan mən deyiləm.

Arqac xanım çün bilmirdi qardaşı vardı, dedi:

– Ala inəyimizin canına and olsun, evciyin divarın uçurdan mən deyiləm.

Qız inəyin canına and içəndə o biri qızdar gülüşdülər, Arqac xanım bu cur gülüşdən incidi. Tez evlərinə anasının yanına qayıtdı, qızdarın ona gülmağın anasına bildirdi. Soruşdu, niyə mənim qardaşım yoxdı?

Anası dedi:

– Sənin yeddi qardaşın var, əma bacıları yoxıydı, sən dünyayə gəlməmişdən qabax evdən küsüb gediblər və hələ də qaytmayıblar.

Qonşunın sürtüşmaqın da qızına duydurdu və qız müharibə geyimi geydi və lazım olan şəmşir, ox, yay və ayrı silahlardan gətirdi, bir köhlən ata minib ata-anasınan rüsxət alıp qardaşların tapmaq içün bir böyük yomağ da qatma ipi götürüb yola düşdü. Neçə mənzil, neçə ağac yol gedəndən sonra yoruldu, yornuğun almaq və dincəlmək içün bir yamac qəlbi və uca otlu qecəlin

döşində bir dupduru bulağ axırdı, burda atdan düşdü, atı otladı, su içdi, özi də çörək yedi. Bir az dirsəkləndi, uzandı mürgüləndi, dincəldi. Durdu atı minə gedə, ip yumağı əlindən düşdü, yamac üzü aşağa diyirləndi, əma yumağın ipinin ucü dolaşdı çirtkan otuna qaldı. Yumaq dırandıqcan ipi açıldı, yumaq geddi, qız ipi özbaşına buraxdı, yumağın qatmasının ucı ki cirtkannan qanqal otuna sarınmışdı, açdı aldı əlinə ipi yumaxlaya-yumaxlaya üzi aşağa geddi. Xeylax yol gedəndən sonra baldırqanlı, şur-şurlı dərin bir dərənin içində yonqar daşdan tikilmiş bir ağ saraya yetişdi. Gördü yumağın da artıx qalanı ki açılmeyib, bu sarayın bacasınan içəriyə düşüb. Qız içəri keçdi, baxdı gördü bu sarayda adam yoxdı, ancaq hər yan tör-tökilinti, qatmaqarışıx və pinti bir vəziyyət var. Bir də gördi difardan düziminən yeddi qəbəzə yaynan xədəng oxı və avçılığın başqa zumar silahı asılıb. Qız yeddi silahın görümindən duydu ki, bura qardaşlarının sarayı olecax. O yumağın qalanın yığıb götürəndən sonra başladı evin içərisin sil-süpürməyə. Onların yeyintilərin yemək bişmişin hazır elədi. Gördü ki, uzaxdan qaraltıları gəlir, qız tələsik yemək-içəməyin yedi, içdi. Bir qarzinka qutusı varıdı, qapısın qavzadı, girdi qutunın içinə, ağzın bağladı. Qardaşları gəldi evin dəyişilmiş vəziyyətinə və quruluşına baxdılar, dəbərixdilər ki, kim gəlib bu işdəri görüp, evi yığıb-yığışdırıp, yemək pişirib?

Olmuya gözəgörünməz cinlər, şəyatinlər gizdincək sehr və caduynan bu işdəri görüblər? Qurtaranı bu işdərin olacağınan baş çıxardanmadılar. Bacıları da qarzinkanin içində yırtıxdan baxıb qardaşlarının boyun oxşayıb və sevincinnən xısın gülürdü, neçə vaxt bu sayaqınan keçindilər. İşin axımınan baş tapanmadılar, sonra söz qoydular böyük qardaş qalsın evdə, busquda olsun, ta hər kim gəlib evə girip bu işdəri görsə, xirddəgin tutsun və niyə bu işdəri görmağın səbəbin soruşsun?

Bu işi gördilər, böyük qardaş evdə qaldı, ta olacağdan baş tapsın. Qalan qardaşlar da işə və ava geddilər. Böyük qardaş çıxdı dam üstində ağac kölgəsində uzanıp qapını güdürdü, ta bir kəs gəlsə görsün və kimliyin bilsin. Demə, oğlan yorğunmuş, mürgiliyə-mürgiliyə qalın yuxu oğlanı tutur və elə yatır ki, dünyadan

xəbəri olmur. Bacısı, qardaşı oğlanın yatmağın duyur gizdənc yerindən eşigə çıxır, evın-eşigin bir qolay və başdansavdı və səmtinə yetişir, onnan sonra yavaş addım atmağınan dam üstində qardaşına sarı gedir. O qız anlamışdı ki, oğlanlar onun qardaşıdı. Qız yatan qardaşın sevincək-sevincək öz dilinən və yatımınnan sevər, telin siğaler, başın darır, doyuncan baxır və göz arzusın və istəyin qardaşınnan alır, bir yol duyur ki, o birisi qardaşların evə qayıdıb gəlmax çağı yaxnlaşıb. Tez qaçıb gedib qarzinkanın içi gizdincək yerində gizdənər. Qardaşların hamısı toplanır və böyük qardaşın duymamağından təəccüb eylərlər. Qardaşların hamısı bir-bir və hərəsi bir gün gözətçi olub busquda yatırlar, ancağ heç birisi işdərinən nəticə alanmırlar. Nöbə yetişir balaca qardaşa. Ona bir az gülüllər, ağır söz toxuyullar ki, böyük qardaşlar bir şey görmədi, sənin əlindən nə iş gələr və nə duya bilərsən?

Bala qardaş növbətin savmağı boynuna aldı, səhər oldu və səbah açıldı. Böyük qardaşlar işə, şikara geddilər, xırda qardaş busquçı və gözətçi qaldı. O biri qardaşları təkin çıxdı dam üstə, ağacın kölgəsində uzandı, gələni güdə tuta. Gördü yuxusi gəlir, gətirdi barmağın birin bir az kəsdi və düz basdı ki, göynərtisi qoymasın yuxuya geçə. İşi nəticə verdi, gördi bir qız evdən çölə çıxdı, addımların yavaş atarkən gəldi dam üstə. Oğlan özün yuxuya vırdı, qız gəldi oğlanı sevdi, başın, üzin-gözin sığalladığı yerdə oğlan əl atdı qızın biləyin tutdu.

Hardan gəlib, hara getmağın, kim olub, niyə bu işi görmağın soruşdu. Qız əvvəldən axıra mən sizə dediyim kimi oğlana söylədi və onlara bacı olmağın qandırdı.

Oğlan olacağı böyük qardaşlarına anlatdı, onlar toplaşdılar sevincdən dərilərinə sığışmırdılar. Böyük toy və şənlix toplumu tutdular, sonra bacılarına tapşırdılar təkcə çölə çıxma. Bu həndəvərdə bir kəl buynuzdu, dəvə dizdi, fil qulaqlı sırtıx üzdi Qanqar adlı heyvərə bir div vardı. Səni görsə əl çəkməz, istəksiz işə qoyursan, onın acığı tutanda qan kimi qızarar, ya da qar kimi ağarar. Qız "hə" deyərkən qardaşlar arxayın oldular. Neçə vaxt bu sayaq keçdi, qardaşlar işıq ertəsi durub işə-şikara gedib qazanc gətirirdilər. Bacıları da evi silip-süpürüp təmiz saxlayıp, yemək pişirirdi. Neçə

vaxt bu sayaq keçdi, o yandan div qızın iysin alıp hənürtüsün anlamışdı. Qızı ələ gətirmağa yol tapanmırdı, axı devlərin zorı olar, ama zor deməyı olmaz. Bir də sehr və cadusı olar. Qəzəbdən div bir gün bir pişiyi cadu elədi, göndərdi qızın evinə. Pişiy sübh ertəsi qızın evində ocağın çalasında həman qoylanan odun və qorun üstinə işədi, söndürdü. Qız odsuz və ocaqsız qaldı, axı qədim çağlarda indiki kimi kibrit yoxıdı, odı çaxmax daşınnan törədərdilər ki, qız bacarmadı çaxmax çalsın. Sönik ocaq üstə qaldı, evdən eşigə çıxdı, baxdı gördü bir uzax dağın döşində tüstü qalxır. Tüstü qalxan yerə sarı yönəldi, yetişəndə gördü tüstü bir damnan qalxır, içəri girdi, bir kimsəni tapmadı. Bir çala daşın üstində od gətirdi, geri qayıtdı. Demə, bu damğa devin eviymiş, dev adam törəməsinin iyin almağınan duyux düşdü ki, od aparan, od istəyən qızdı. Tez yeddi günlüx yuxusından yarımçıx ayılıp oyandı. Bir nərə çəkdi, burnu şişdi, ağzı köpikləndi, gözdəri qızardı, divlərin qadasınan tənürə çəkip düşdi qızın arxasına və qışqırdı:

– Ay adamızad, məndən izn almamış mənim odumu niyə aparırsan?

Qız qaçıp evlərinə girip qapını daldan bərk bağladı. Div gəlib day qızın qapısın açmadı, onu sözünən aldatdı. Yalanan dedi:

– Anan bir üzük göndərip, mənim əlimdədi, çölə barmağını qapının cırığınnan çıxar da eşigə, üzüyi taxım barmağına. Sonra barmağını çək içəri, mən də qayıdım gedim.

Qız inandı, barmağın qapı cırığından eşigə çıxardı, div qızın barmağın tutdu, saldı ağzına somurdu, bədənində hər nə qanı varıdı, çəkdi. Axırda qız dəyanətin əldən verib özindən geddi, yerə yıxıldı. Div də gəldiyi kimi qayıtdı, geddi.

Qızın qardaşları axşam gəldilər gördülər qapı bağlıdı. Bacılarından da səs-səmir yoxdu. Qapunı güclən açıb gördülər bacıları qapının dalında sapsarı saralmış yıxılıb, özindən gedib. Qız cana və dilə gəlib olacağı və başına gələn oyunu qardaşlarına söyləyib genə də özindən gedib yıxıldı.

Qardaşları yenidən bacılarına ürəg davamı və artım verməginən üstinə həkimbaşı gətirip, cürbəcür yeyintilər və yemişlər, meyvələr və başqa qan artıran və qan törədən yeməklər gətirib və

bacılarına yedirtməyinən onı yenidən ilk sağlam döranına qaytardılar. Sevindilər, yenidən şadlıx-şənlix qurdular. Sonra qızın qanqar divdən bacılarının göz dağın almaq içün bir toplum da bular çəkdilər ki, divnən döyüşsinnər. Bu muna bəstə püşk atdılar, püşk böyük qardaşın adına düşdü, böyük qardaş devin döyüşinə geddi.

Ona(divə) anlatdı ki, qanın sümürdiyi qızın qardaşıdı, gəlib vuruşmağa. Qanqa dev ona yalvardı ki, qayıt get, sən mənim hərifim deyilsən. Qəbul olmadı, meydan sulandı, ol qızın qardaşı Arxaxan yaradanı yad eylər, girər meydana. Sonra Qanqar dev gəlir, bir-birinə göz ağartması verməginən döş-döşələrinən güclərin göstərillər, sonra tutaşıllar, çox əlləşənnən sonra bu döyüş başa çatmır. Zor-zora, güc-gücə, davam-davama bərabər olur.

Divnən adam neçə gün, neçə sahat əlləşir, heç biri yıxılmır, göydən məlakələr, quş donunda gəlib quruldamağınan, qanad çalmağınan yaradanın iki yaranmışına yalvarıllar ki, bir-birindən ayrılsınlar. Bunlar quşdarın dəbərişin başa düşmüllər və əlləşməkdən əl çəkmirlər. İşdəri ədama və uzandımaya çəkir, axırda insanın nəfəsi divin nəfəsiynən qabaxlaşanmır, qızın qardaşı Arxaxanın nəfəsi az gəlir və devə məğlub olur. Arxaxan devin üstinə qışqırır ki, öldür məni, sənə məğlub oldum. Div deyər:

– Mənim gücüm var, əma acığım yoxdi, indiyə kimi də nahaq qan tökməmişəm, səni öldürmürəm.

Sehr və caduynan iki barmaqlarınnan bağlayb əsir eləyib və qəzəmətə saldı. Qəzəmət bir yerdi ki, hər yana baxırdın uca və nəhəngdir, divar hörgisidi, qapısı, yol-yolağası da yoxdu. Amma divarın içində qalax-qalax damxa və dəyə varıdı ki, qəzəmətçilər orda yaşayış eləsinlər. Onların yemək və içmək cirəsin də dev cadu-cənbəlinən və qarqa-quş və başqa başarışıxlı heyvanat vəsiləsinən içəri göndərirdi ki, ta acınan və susuzdan ölməsinlər. Div Arxaxanın başqa qardaşların duyux saldı ki, qardaşınızı məğlub eliyib qəzəmətə salmışam. Öziz də ürpənməyin ki, mən onu öldirməyəcəyəm. Bu xəbərdən və duyqudan qardaşların hamısı çaxnaşdı bir-birinə düşdi ki, böyük qardaşın buraxılmaqına nə eliyib və nə iş görməliyix, yol tapanmırdılar. Sonra yığıncaqda bu nəticəyə yetişdilər ki, gərək divnən genə də döyüşsünlər.

Püşk atdılar, bu yığıncaqda devə əsir olub tutulmuş Arxaxandan xırda Arqtaxanın adına düşdü. O tezlikdə divnən döyüşməyə yaraq-yasaqın götürdü, bacı və qardaşlarıynan öpüşdü və görüşdü, yola düşdü. Nəticə mənzil neçə ağac yol gedəndən sonra gedib devin mağarına yetişdi. Daş qapını dabannan açdı, gördü, dev yeddi günlük yuxuya yatıbdı. O istədi divi yuxuda öldürsün, sonra qorxdu, çün bilirdi ki, devlərin yeddi canı olar, yanı hıkının yeddi yerində və nöqtəsində canı gizdənər. Əgər o nöqtələrin yeddisinə də zərbə vurmasan, div ölməz. Əgər ölsə də, qardaş olan qəzəmətxananın tilsim divarının qapısın açan olmaz. Bir də yuxuda birin vurmaq kişilikdən deyil, əgər dev məni öldursə də, onu yuxudan oyatmalıyam və savaşmalıyam. Divi əlinən tərpətdi və çağırdı oyanmadı, qışqırdı, çığırdı-bağırdı, qulaxlarından tutub çəkdi, döşinin, qarnının, qıçının üstünə çıxdı, tapdaladı. Genə də dev ayılmadı, eşitmədi, devlərin bir pay canı da dabanında olar. Gedib silah, xəncərin götürdü, divin dabanın oydı, onı yuxudan ayıltdı, əma devin canının bir qisməti dabanından eşigə uçub və təhlilə geddi, vəli dev çox yuxusuz və yorğundu, canının və dabanının ağrısın duymadı.

Artaxan onu düşünürdi ki, mən sənin qəzəmətxananda olan Arxaxanın qardaşı Artaxanam. Gəlmişəm sənnən savaşam, qardaşımı burax. Div dedi:

– Ola sən, ya qardaşın mənə hərif deyilsız və gücüz mənə çatmaz. Əgər bir zaman məni yıxsaz da, ya öldürsəz də qardaşız qəzəmətdə qalıb ölməlidi. Çün qəzəmətin divarı tilsimnən hörülüb və qapısı da sehr-cadu rəmzinən və bilgiynən açılır. O sehr-cadu rəmzın də məndən başqa bir kəs bilmir. Bəs yaxçı olar ki, əlim sənə dəyməmiş burdan qayt ged. Bir də istəsəz siznən barşam, gərək bacızı mənə verəsız, onu gözüm tutubdı.

Artaxan devin sözdərinə qulaq asmadı, öz istəyində dirəşdi. Div də onın istəyinə qol qoymadı, nəticədə meydan quruldı, iş açıldı. Döş-döşə gəldilər, qol-qola verdilər, güc sınandı, gücləri bir ölçidə, əma nəfəsdər bir ölçi-biçidə deyildi. Divin nəfəsi tən kimi durum dayanatı artıxlıq göstərirdi, ancax Artaxan da dirəşgən, güclü, vəli döşi tutqun, nəfəsi dar, özü yorqun. Güləşmağa

tutaşdılar, qardaşı təkin neçə gün, neçə sahat vaxt bilinmədən güləşdilər, əma heç birisi yıxılmadı. Artaxan bir qıvrax dəbəriş elədi yıxmağa div büdrədi. Qanqar dev acıxlandı, o acıxlananda ol qan kimi qızarıb, sonra da qar kimi ağarardı və işi bu yerə yetişəndə bədənində və hiykəlində yeddi gizdənən canın hərəsinə yenidən bir dev gücü gələrdi. Qanqar dev gördü, altı devin güci gəldi, dabanının güci gəlmədi. Duydu ki, dabanı dəlinib oyulub və güci göyə uçup getmədə. Ümidin əldən verib başarığın buraxmadı. Bilirdi ki, altı devin güci heykəlini artrırdı. Dev dərindən nəfəsin dəyişdi, Artaxanın dizin yerə gətirdi. Çünki dəbərişdə arxasın yerə yendirdi, Artaxan qışqırdı:

– Mən yıxıldım, məni öldür, ölməyə hazıram. Yox mən bacımı devə verməyəm.

Div dedi:

– Mən nahaq qan tökmürəm. Ancağ mən yuxuda olarkən sən mənim dabanımı xənçəlinnən dəlip gücümü bir pay göyə buraxmsan. Onı da sənin cavan igıd yaranal olmağına bağşladım. Bir də bunu bil ki, məndə güc var. Birinə gücsüzdəməy və ona gücinən söz yedirtməy yoxdu. Sənin bacının özünün könlü olmayıb "hə" desə də, mən o "hə" deməyin altına getmərəm.

Artaxan dedi:

– Sən də bilmiş ol ki, bacımın sənə istək, könlü yoxdu. Özü də çox bilici və hammızdan güclü və arxası yerə gəlməz bir yaranaldı. Məni, biz yeddi qardaşı sındırsan da, mən əminəm və bilirəm ki, tək oni sındıranmazsan. Onın gücünün qabağında yerə çökməlisən.

Sözdəri sona yetişdi, Qanqar dev Artaxını da qardaşı Arxaxan kimi iki barmağınan sehr-caduynan bağlıyıb qardaşı olan qəzəmətxanaya saldı və o birisi qardaşların da xəbərdar və duyux saldı.

Qardaşları işi biləndən sonra bir-bir gəldilər, tutulan qardaşları kimi Qanqar devin əlində məğlub oldular. Hər nə qədər güc vırdılar, əlləşib-güləşəndən sonra axırda yıxılıb sınıxlıq verib Qanqar devin avının əlinnən qəzəmətə düşmişdülər.

Axırda növbət yetişdi qıza, yəni oğlanların bacısı Arqac xanıma. Arqac xanım çox huşdu-başdı, bilikli, fərasətli zirəng və

gücli yaranal bir qızıdı. O özi bilirdi ki, gücü devin gücünə davdı, avını yıxıb sındırmalıdı. Divin səhər cadusınan qabaxlaşanmaz, gərək binörəli fikirləşmək və işi yaxçı başa vırıb və sona yetirməy gərəkdi. Bu cərəyan olan yerin və məntəqənin adı Yanar-donar məntəqəsidi, yani orda hər nə əkip tökəsidilər qışda donardı, yazda donu açılıp yayda yanardı. Fəqət yaznan payız aylarında bəzi məhsul əkilib tükəlim verip oranın əhalisi faydalanardı.

O məntəqənin Daşqın xan adında bir hökmranı vardı. Çox mehriban, istəkli, insaflıydı, yoxsulun, acizin əlindən tutan, özin yazığların dərdinə qatan, bilicini çox istiyən, rəiyyətin tox istiyən, deyir “çəkəli zor demin, qolı gücli zor yemin” yaranal güclü bir hökmrandı. O, öz məntəqəsində başardıxcan zülmin, zorın kökin kəsib yerində ədalət və insaf ağacı əkdi. Zülmkarın zülm, ayrılıq, dağıncaqlıq, inciklik, didərginlik axtıdığı arxın bulanın pozıp, o arxın yerində istəyliy, igitliy, toplumluq, birlik, canqardaşlıq axımın axıdardı.

Arqaç xanım qardaşları Qanqar devin əsiri və tutqunu olandan sonra bu adlı-sanlı və bəlli-başlı hökmranın adın eşidərkən onu görmək istədi. Köhlən kəhər atın yehərlədi, ayaq üzəngiyə qoyub ata mindi. Çox geddi, az geddi bilmirəm, hökmranın yaşayışı – qəlaçasına və mağarına yetişdi. Atdan yerə yendi, qəlaçanın qapısın vurdu, gözətçilər gəldilər qapını açdılar. Qapının dalında bir ucaboy, ağdərili, yerli-yöndəmli, gözəl bir qızınan tuşbatuş və qabağ-qabağa çıxdılar. Qız gözəllıyınnən ay kimi parlayıp, gün kimi yanırdı. Ağ yanaq üstündə göy gözdər işıqlı dan ulduzı təkin seyərişib parıldaşırdı, yanırdı. Ağ yanaq üstində iri kəmanı, çatmaqaş, açıx alın, ox kiprik, badamı, alagöz, süzgin, yaraşıqlı, düzgin burun, qönçə dodağ, inci düzim, ağ dişdər yöndəmli çənə üstində təbiətin qara xalı, uca şivərək boy, enli kürək, mərmər sinə, bəlli buğaq, incə kəmər və xatuna saysız-hesabsız bir güzəllık törətmişdi.

Gözətçilər öyüncə utandılar, bu gözəl qızdan kimliğini və nə istəmegini sorqu-sual elədilər, axırda qız özi dilə gəlip soruşdı:

– Bura Daşqın xanın qalaçası və mağarıdırmı?

Gözətçi "hə" dedi. Arqac xatun Daşqın xannan işi olmaqın gözətçiyə bildirdi.

Gözətçi "dayan" deyib geddi içəri. Xannan təzə qonağın evə gəlməyinə izn istədi. Xan icazə verirkən öz baş yoldaşı Bəzək xatunnan gələn qonağın qabağına çıxdılar.

Gözətçilər atın tutub töyləyə aparıp, ot, su, saman, arpa, yonca verməyinən köhlən kəhər atdan muğayat oldular.

Arqaç xatun da Bəzək xatun və onun həyat yoldaşı Daşqın xannan birlikdə qəlaçanın baş tikilisi– saraya girdilər. Orda "xoş gəldin, səfa gətirdin" edəndən Daşqın xan və Bəzək xatun qızdan adın, işmin, kimliyin, hardan gəlib hara getməyin soruşdular. Qız adın və kimliyin deyib və özün tanıtdırannan sonra başdarına gələn olacağı əvvəldən o çağacan mən sizə dediyim təki söyləyib, yeddi qardaşları Qanqar devin əlində əsir və tutqun olmağın bildirdi.

Sonnan da qardaşlarının buraxılmağına imkan olan yerəcən xannan və xatunnan əlbirlik və kömək istədi.

Xan fikirə getdi, hər nə biliyin, beynin, ağlın işə tutdu. Gördü yox, yalannan özün və qonağı yozdurmaq olmaz. O, Qanqar devin adın, gücün, dəyanatin eşitmişdi. Bilirdi ki, bir güclü pəhləvan və yaranal tapıb onı yıxsa da, əma onın sehricadusınan can çıxardmaz.

Fikrinin arasında beyninnən bir söz törəndi. Yada düşdü, əma qorxurdu ki, qız qonağın xətrinə dəyə, təmam hörməti hədər ola. Bir yannan da gərəkidir ki, beyninə düşən sözü qızınan araya qoysun, bəlkə bir başarıx yolı tapılsın, ta qızın əsir və tutqun qardaşları buraxılsın.

Xan Arqac xatuna dedi:

– Mənim son züriyətim, yeni nəslim və törəməm Aşmaz xan adında tək bir oğlum var ki, Qanqar devə təkcə o qələbə gəlib və onı aşıra bilər. Amma aşırandan sonra sən o devin cadu-cənbəlinə bir iş görərsənmi?

Qız dedi:

– Hələ aşırsın, görəx nə qabağa gəlir, ancağ mən özüm də o divi yıxa bilərəm, vəli çün məni istir, istəmirəm əlim əlinə deysin. Bir de görüm oğlan hardadı, gözə sataşmır.

Xan dedi:

– Gedip şikara av vırmağa, harda olsa gəlib tapar. Qızım, bir də sənə başqa bir sözim var. Əgər incimƏzsən, onu sənlən araya qoyum, əgər səlah və düz fikir olsa, “hə” desən və divi sındıra bilsək, o işimizi də başa vırax.

Qız olcə (əvvəlcə) dəbərib huyrqandı, sonra dedi:

– Görax, nə mənə deyərsən?

Xan utana-utana dedi:

– Qızım, o curakı sənə söylədim, mənim tək bir nəfər oğlum var, qızım da yoxdu. Oğlum da güclü, pəhləvan adlı, yaranal və gözəl-göyçək, sənə layiq bir oğlandı. O gəlsin, bir bizə baxın, əgər bəyənsəz, sən də mənə həm qız yerində ol, həm də gəlinim ol.

Qız dedi:

– Xan sağ olsun, mən adaxlımı yuxuda görüb ona qul, evlənmax və həyat yoldaşı olmağa söz vermişəm. Yəni mənə yuxuda vergi veriblər, başqa bir oğlana getmirəm.

Xan bala-bala dediyi sözə peşman olurdı ki, niyə bu sözi dedi, ta sözü yerə düşsin? Bu zaman oğlan evə qayıtdı, qız oğlanı, oğlan da qızı gördü. Qız tanıdı ki, yuxuda gördüyü oğlandı. Demə, oğlan da qızı yuxuda gördüyünən qızı tanıdı.

Hər ikisi eşq və məhəbbət əlaqə adınnan ürəkdən bir-birinə vuruldu. Qıznan oğlan sözün üstün açdılar, yuxuda eşq-əlaqə vergilərin böyük xana və xanıma duydurdular.

Hamı sevincəkdi, fəqət qalmışdılar ki, devin şərinnən nə cür qurtarıp və qızın qardaşların nə cür buraxsınlar? Qız oğlannan evlənməyə istək şərtin və mərcin pişnhad elədi ki, əgər başarsa və qəbul eləsə, qabağa gəlsin. Oğlanın ata-anası qızın istək pişnhadın soruşdular, qız deyir ki, qardaşlarımı buraxdırmaq üçün devi yıxa bilsən, onu öldürməməlisən. Çün o özü nahaq qan tökməyip, mənim qardaşlarımı öldürməyip və biz də gərək onu öldürməyək. Bu sözdər qurtarandan sonra deyir ki,mənim özimnən də gərək güləşəsən. Əgər məni də yıxsan, sənə həyat

yoldaşı olaram, yoxsa yox, oğlan. Oğlan bu sözdərin axımına və icrasına boyun yola qoydu. Genə də yaradana yalvarıp bəxtinə bağlanıb quluna qərahlanıb “hə” deyip, sonki günü azuqa zumarların, müharibə silah, yaraqın və bir az da yemək-içmək götürüp atların çəkib ayaq üzəngiyə qoyub yola düşdülər. Yolı qırdılar, yolun damarın dartıb-didib yorğun-yornux çağlarında Qanqar devin mağarı olan qalaçiyə yetişdilər. Qapu döyüldü, gəlip açan olmadı, qızın adaxlısı Aşmaz xan o yekəlihdə daş qapını yüngül vəziyyətə qavzadı, yerindən götürüb qırağa qoydi.

Keçdilər içəri, gördülər genə də dev yuxuya yatıb, çağırmağınan yuxudan ayılmadı. Bu dəfə devin qarnın ayaqlayıp, qulağın burub burnuna qalın tüstü verməyinən oyatdılar. Div bunları görcək işin duydu, bildi ki, bunlar gəliblər devi sındırmağınan qızın qardaşların qəzəmətdən qurtarsınlar.

Div titrədi, əsmeciyə düşdi, bunlara qorxu gəldi ki, qayıdın gedin, siz mənlən başarmazsız. Sizi də yıxıb, tutub qəzəmətə salaram. Aşmaz xan devin dediyinə və diləyinə qulaq asmadı, dedi:

– Uzun sözün güdəyi, biz tutaşmalıyıq.

Meydan açıldı, artdandı, sulandı meydana giriş elədilər, genə əl-ələ, qol-qola, döş-döşə dəydi, zor sınandı. Barmaqlar bir-birinin arasına geçip qarmaqlandı, bir-birin dalı-qabağa sarı çaxnaşdılar. Dev büdrədi, genə də acığlandı qan kimi qızarıb, qar təkin ağardı, altı devin gücüni yenidən gücünən üstinə artırdı, çün qızın qardaşı devin dabanınnan oyub canının bir payın göyə uçurtmuşdı. Day yeddinci güc yerinə gəlmədi, Aşmaz xan da acığlandı, gözdəri göyərdi və rəngi bətəb yamyaşıl olarkən tüklərinin dibindən yaşıl boyağda damcı-damcı axılı və zəhərli tər damırdı. Bu çağda Aşmaz xanın gücünin üstünə yeddi yaranal gücü artdı. Divi alıb başına, yerə çaxdı. O diz üstə dayandı, özün tapdı, yenidən tutaşdılar. Aşmaz xan çox acığlandı, bu dəfə devi top kimi tulladı aşağa, yenə də arxasın yerə basıb buynuzdarınan yapışıb dizi üstə düşəndə çəkdi, dedi:

– Cadu-cənbəli poz, tilsim divarın yar, yeddi tutqun qardaşları burax.

Div istəyin altına gedib “hə” demədi, Arqac xatunın yadına gəldi ki, gəlib dev damxasınan od aparan zaman taxçada görünməz şəkildə və şamayılda bir şüşə görmüşdü. Tez duydu ki, olmuya devin canı o şüşədədi. Tez qaçdı içəri, gördi o şüşə taxçada – yerindədi. Onu götürüp eşigə qayıtdı, dev şüşəni gördi, qışqırdı:

– Oni apar yerinə qoy, mənim canım şüşədədi, dəli. Sındırsan, ölləm.

Qız dedi:

– Canın olan şüşənin sınmağın şərti və mərci budur ki, tilsimi və cadu-cənbəli sındırıb pozmaq fənd-felin bizə öyərədəsən. Biz onu sınayarıq əgər düzgin öyrətsən, biz də şüşəni sındırmarıq.

Dev bacarqsız və çarəsiz qalıb sehr-cadu və tilsim duvarının pozulmaq rəmzin oğlana, qıza öyrətdi.

Onlar işin düzgün olmağın sınadılar, inandılar və arxayın oldular. Ol duvarın tilsimin və başqa cadu-cənbəlin pozulmağın başladılar, düz çıxdı.

O ucalıqda divar göz yönindən itdi və hər yer hamar göründü. Yeddi əsir və tutqun qardaşlar görüşdü, bacı-qardaşlarınan görüşdü. Sevinc ağlaşması və toy tutuldı, qız Aşmaz xanı və qardaşların bir-birinə tanış etdi, devi də buraxdılar. Ama can şüşəsin vermədilər. Dedilər nə vaxtaçan bizə və başqa günahsızlara sürtüşməyəsən, sənin can şüşən sağlıx və sağlamatlığınan bizim yanımızda amanat və tapşırıx adınan qalmalıdı. Ama əgər istib, dizəmırıq eilyib bizə və ayrı günahsızlara vəyşi olmuyanlara sürtüşsən, qorxu-qəbahət yaratsan, biz də sənin can qəlbi olan şüşəni sındırarıq.

Söz sona çatdı, hamı xanın sarayına sarı yola düşdü. Qız başarıxlı şəkil rəssamı və çəkiciydi. O Aşmaz xannan Qanqar devin güləşməyin, avının Aşmaz xana yıxılmağının şəkilin qara kömürnən ağ toxuncağ parça üstində çəkib başqa buraxılan əsirlərin birinin vəsiləsilən Daşqın xana və Bəzək xatuna muştuluq göndərib yaxınlıqda ora yeddi nəfər buraxılmış qardaşınan qonaq gəlməyin xəbər verdi.

Xan və xatun sevincək qəlaçiyə yaxın yolun daş-qiyəsın, kol-kosun, səsər-şevəlin arıtdatdı, su səpdi, payəndaz və ayaqaltı döşətdirdi. Qonaqları Aşmaz xan yetişdilər, qabaqlarında qoyun qurban kəsdilər. Oxucular, oyunçılar çalqıçılar böyük şənlix məclisi qurdular, neçə günlər şənliy davam tapdı.

Adam göndərdilər, yeddi qardaş bir bacının ata-anasın da yer-yurdunan gətirdilər, hörmət elədilər, sonra Daşqın xan və Bəzək xatun, oğlanları Aşmaz xan içün Arqac xatunı ata-anasınnan və yeddi qardaşınan elçiliy elədilər. Ata-ana, qardaşlar qohumluğun sözün qızın özinə tapşırdılar. Qız büyüklərə hörmət qoyandan sonra dedi:

– Mənim şərtim və mərcim budur ki, oğlanınan güləşəm, əgər mən onı yıxdım, yoxsa yaşayış yoldaşdığımız tutmaz.

Oğlan qızın sözünə baş endirdi. Meydan sulandı, iki nəfər əmud, ad-adaxlısı zər libasın geyib mərci aparmaq içün meydana girdilər. Birinci yol əl-ələ verməyinən ərk-əşqin və əlaqəsində bir-birinə pay göndərdilər. Çəkiş-bərkiş güləş binörəsi başlandı.

Oğlan qızın qolunnan tutdi, özünə sarı dartdı, qız yerindən dəbərmədi. Qız əl atdı oğlanın biləklərinnən yapışdı, göyə tulladı. Oğlan qızın başının üstindən aşıb arxasından yerə düşdü, ama yıxılmadı. Qız geri çönüb oğlanı arxasında ayaq üstə gördü, qabaqqabağa var-gəl elədilər, qız duydi ki, gücü oğlanın gücünə davdı, vəli istəmirdi onu yıxa və incikliyə çəkə.

Qız genə oğlanın əlindən və qolundan tutub güləşmək adına və mahnasına onu çəkib əp bağrına basdı, yavaşcadan qulağına pıçıldadı:

– Qəbul elərsən gücüm gücündən artıxdı, ta güləşməyi buraxıb bir-birimizin olaq.

Oğlan sevincək “hə” dedi. Qız göz vurmaqınan ata-anasın və böyük xan xatunı qandırdı ki, onları bir-birindən ayırd eyləsinlər, ta iş acığa və inciməyə çəkməsin.

Böyüklər gəlib dəxalət edip və işə qarışmağınan orda bir-birinə ömür boyu yaşayış yoldaşı olmaqların dilə gətirib qərar elədilər. Gücün acılığı, küdurəti yerin verdi səfa, səmimiyət və istəkliliyə.

Oğlanın ata-anası, oğlu və gəlini içün yenidən bir qəlaçə saldırdı. Qəlaçə başa gələndən sonra bəy oğlannan gəlin xatun, onların ata və yeddi qardaşlarının sağlığına yeddi gün toy tutuldı. Sözüm sona yetişdi, iş də birliydə yetişdi. Sağ olun.

## TÜLKÜDƏN QORXAN NƏZƏR

Biri var imiş, biri yox imiş. Bir kənddə bir kişi var imiş. Ona "tülküdən qorxan Nəzər" deyirmişlər. Buna görə ki, tülkü-dən çox qorxarmış. Onun bir xanımı var imiş. Bir gecə Nəzəri peşəb yandırır. Yavaşcasına xanımın oyadar, ona deyir:

– Ay xanım, dur qapıda, mən bir duru su üstünə çıxım.

Xanım ki, Nəzərin bu işlərindən cana gəlmişdi, təsəmum tutar onu qapıdan eşiyə salıb qapının dalına sala. İkisi birgə qapının ağzınacan gedərlər. Orda arvadı deyir ki, durmuşam burda sən çıx işini gör, qayıt.

Nəzər qapıdan çıxmaq həmin qapının dalın salar. Nəzər çox hay-haray salar, amma qapını açan olmaz. Üz qoyar qaçmağa. Qaçar, qaçar, kənddən çıxar. Qaranlıqda ayağı bir daşa ilişib yıxılıb huşdan gedir. Səhər olar, günəş işığını yayar dağ-daşa. Milçəhlər, arılar, qurd-quşlar daraşarlar Nəzərin canına. Nəzər yuxdan ayılan kimi əlləri ilə bir neçə milçəh, bir də arı öldürür. Qalxıb oturar, əlin salıb cibindən bir kağız, bir qələm çıxardar, belə yazar:

Mənim adım pəhlivan Nəzər,
Bir yumuruqda qırxın əzər.
Qırxı da yarımcan gəzər,
Burda bir aslan öldürdüm.

Kağızı qoyar başının üstünə, yatar. Az qəza bir dev ova çıx-mış imiş, dolanarkən gözü nəzərə sataşar. Sevincək yemək həvəsi ilə özünü ona yetirər. Yeməkdən öncə onun başı üstə bir kağız görər. Kağızda belə yazılıbmış:

Mənim adım pəhlivan Nəzər,
Bir yumuruqda qırxın əzər.
Qırxı da yarımcan gəzər,
Burda bir aslan öldürdüm.

Dala-dala çəkilər, öz-özünə deyir ki, bu bir pəhləvandır, zorum çatmadı bəlkə, yaxşı olar ki, onu oyadım danışırsa yeyərəm, ya da aparıb özümüzə qardaş eləyirik. Nəzəri qorxa-qorxa oyadır. Nəzər durduqdan sonra bir az qorxar, sonra "nə istəyirsən" deyir?

Dev deyir:

– Sən pəhləvansan? Əgər doğru söyləməsən səni yeyib qurtaracağam.

Nəzər bir az fikrə gedər, deyər:

– Olsun, əvvəlcə sən öz gücünü göstər, əlini vur bu daşdan toz qalxsın, sonra mən deyim kiməm.

Dev neçə dəfə əllərini daşa güpsəyər, əllərindən qan süzər, amma toz qalxmaz. Nəzər devin gözündən gizlin yerdən bir az torpaq yığar əllərinə, əlini çalar, daşdan toz qovzanar. Dev dala çəkilib deyir ki, ay pəhləvan, gəl mən ilə qardaş olaq. Biz altı qardaşıq, sən ilə olarıq yeddi qardaş, istəsən gedək bizə, qonaq qal bir neçə gün. Nəzər qəbul edər, gedərlər devin qardaşlarının yanına. Neçə gün orda qalandan sonra bir gün Nəzərə deyirlər:

– Sən qal evdə şam hazırla, biz də gedək ov ovlayaq.

Bunlar evdən çıxandan sonra Nəzər əlini atar qaşığa, gücü çatmaz, əlini atar qazana, gücü çatmaz, heç bir zadı yerindən tərpədə bilməz. Götürər baltanı, hər nə qab-qaşıq var idi, vurar sındırar. Axşam devlər qayıdanda görərlər heç bir zad salim deyil. Əhvalatı soruşurlar, Nəzər deyir:

– Vallah, mən hər bir şeyə əl vurdum sındı, ona görə də şam hazırlaya bilmədim.

Devlər Nəzərin zurunun çox olduğuna inanarlar, təsmim tutarlar. Gecə yarısı onu öldürsünlər. Bir-birinə deyirlər ki, "gecə onun yerini damda salaq, o yatandan sonra hamımız gedib onun işini qurtaraq". Nəzər bu sözləri eşidər. Gecə Nəzərin yerini salandan sonra o gedər bir ərik ağacının kötüyünü tapıb gətirər, uzaldar yerinə, yorqanı çəkər üstünə, özü gedib tayada gizlənər. Bir azdan sonra gecə yarısı altı dev gəlib o ki kötəkdi, o kötüyə vurarlar. Enib gedərlər. Səhər günəş çıxanda devlər təndir salıb yemək hazırlayan zaman Nəzər qapıdan girər. Az qalar devlərin odu sönsün. Nəzər deyirdi ki, Allah atalarına

rəhmət eləsin, yaman qulunc olmuşdum, gecə bilmədim, kimsə gəlib dalıma beş altı yumruq vurdu. Bir az toxdamışam. Devlər lap qorxarlar, səslərini çıxartmadan qardaşlarından istərlər, Nəzəri aparıb gətirdiyi yerdə buraxsın. O da qəbul eləyir. Nəzər minər devin boynuna gedərlər. Yolda Nəzər deyir:

– Dev qardaş, gedək bir neçə gün də bizdə qonaq qalaq.

Dev qorxusundan bir söz deməz. Nəzər yolda bir kimsəni görüb deyir:

– Bizim evə xəbər yetir, Nəzər bir qonaq gətirir. Nahara yarma pişirsinlər.

Kəndə hay düşər ki, tülküdən qorxan Nəzər tapılıb, gəlir. Xanım bir qazan yarma pişirər. Camahat görəllər Nəzər bir devin boynuna minib gəlir. Gələr-gəlməz kəndə yetişər, kəndin küçələrindən birtəhər sovuşarlar. Gəlib Nəzərin evinə çatarlar. Evin istisi bir tərəfdən, yarmanın da iyi ayrı tərəfdən devi huşdan çıxardar. Dev yetişən həmən yügürüb çıxardar. Onun yeli Nəzəri qovzayıb tirbəndin dibində saxlayar. Dev o yan-bu yana baxıb Nəzəri göydə görər, deyər ki, orda nə qayırırsan, qardaş? Nəzər deyir:

– Atamdan mənə vəsiyyətdir hər kimsə bizim evdə yarma yeyib çıxarsa, burda bir qılınc var, onu soxacıyam qarnına.

Dev bunu eşidcək yerindən qalxıb dam-duvarı sökə-sökə evdən qaçıb kənddən çıxar. Tuvaraq qaçırkən yolda bir tülküyə tuş gələr. Tülkü deyər:

– Ay dev, hara qaçırsan? Niyə belə harasansan?

Dev deyir:

– Burda bir evi yıxılan Nəzər var. İstəyir mənim qarnımı cırsın.

Tülkü deyir:

– Baba, o, məndən yaman qorxar, qaçma, gəl şalının bir ucunu dola mənim boynuma, bir ucunu da öz boynuna, gedək onun dədəsin yandıraram.

Tülkü devi qaytarar. Gəlhagəl, kəndə yaxınlaşarlar. Nəzər damdan baxırmış, uzaqdan bunları görər, səslənər:

- Ay tülkü qardaş, rəhmətlik atanın mənə altı dev borcu var idi. Birini gətirdin, qalır beşi.

Dev bunu eşidcək qayıdıb qaçar və tülkünü də sürüyə-sürüyə boğarkən Nəzərin gözündən itir.

## TƏNBƏL ƏHMƏD

Günnərin bir günündə bir tənbəl Əhməd var idi. Əlini ağdan-qəriyə vırmazdı. Səhər-axşam təndir dibində yorqan-döşəyinin içində böyrü üstə uzanaxlı qalardi. Hərdən bu yan– o yana dığırranardi, amma yerinnən qaxmazdı. Yerinin içində yiyərdi, içərdi,... yazıx anası zara gəlip təngişmişdi onun əlinnən. Dilə tuturdi, yalvarırdi, savaşırdi, hərbə– zorba gəlirdi... intahasi tənbəl Əhməd heş vədə ipə-sapa gələn dəyildi. Bir gün tənbəl Əhmədin nənəsi getdi qonşulara ki, "əlim ətəyizə, gəlin bu tənbəl Əhmədi təndir başınnan qalxızın bir təhər, daha mən öhdədar ola bilmirəm, qocalmışam".

Qonşulardan biri dedi:

– Sən ona pis adət vermisən, neçə gün onun yemağ– işmağıni kəs, qoy ac-susuz qalsın.

Əhmədin anası dedi:

– Ay rəhmətdiyin qızı, qıx gün, qıx gecə də ac və susuz qalsa, yanını dəbərtməz, onu mən tanıram!

Qonşu dedi:

– Olsun, sən oni bir neçə gün ac saxla, mən diyim bil və neynə.

Tənbəl Əhmədin nənəsi üş gün, üş gecə ona heş zad vermədi. Tənbəl Əhməd yalvardı, yaxardı, ağliyıp lələdi, çığır-bağır saldi, həray–bidat elədi... amma nənəsi saymadi ki, saymadi. Ürəyi dözməsə də, bağrına daş basıp dözdi, saymadı biləsini. Dördümüncü gün tənbəl Əhmədin nənəsi qonşu örgədən kimin neçə dana baləcə küftə saldi. Tənbəl Əhmət küftəni bəh söyərdi. Nənəsi gətirip küftənin birin qoydi otağın arasına, çıxdi getdi. Tənbəl Əhmət baxdi, baxdi... acınnan ölürdi, qarni qur-qur quruldurdı. Əlini uzatdi, yetişmədi, qoluni uzatdi, yetişmədi, zoran-gücən dığırranıp küftəni götürüp yedi. Ama qarni doymadi, küftə çox balaceydi. Birdən gözü sataşdi qapı ağzındaki küftiyə.

Gücənə-gücənə süründi, süründi... Elə yatdıx yerdə, əlin uzadıp o küftəni də götürüp basdı ağzına. Baxdi gördi, biri də hovuzun qırağındadi. Zıqqına-zıqqına bir təhər özünü ona da çatdırıp onu da basıp ağzına ikini sayınca aşırdı. Qarni doymuşdi, amma gördi küçə qapısında da biri var. Öz-özünə dedi,“indi gəlip oni götürəllə, qoy özüm götürüm, acanda yiyərəm”. İməhliyə-iməhliyə gedip küçə qapısınnan eşiyə çıxdi, əlin uzatdi küftəni götüsün, nənəsi qapı dalınnan çıxıp qapıni onun üzünə çıpdı:

– Heyvan!

Tənbəl Əhməd başladı yalvarıp yaxarmağa. Ağladi, zarıdi, ləlidi... amma nənəsi qapıni aşmadi. Ürəyi dözməsə də, aşmadı. İstədi haaaa aşsın, qonşular yapışıp qoymadıla ki, "sən bu uşaği əzdirip buna zülm eləmisən, da bəsdi."

– Nənə, mən ölüm aş daaaa ...qoy gəlim evə...qutdar bu-daraaa biləmi...

Nənənin ürəyi qana döndi, ağladı, özün döydü, üzün diddi, amma aşmadi qapını. Qapı dalınnan dedi:

– Qoşul, uşaxlarınan get meşədən ot yığ gəti.

– Getməsəm nolar? Mən başarmıram axi.

– Onda qalassan qapi dalında qut-quşa yem olasan.

Tənbəl Əhməd sərələnip uzandı küçədə, ağladı-ağladı oxşadi... Axi o indiyəcan meşəyə getməmişdi. Bəh qorxurdi, təndir dibində yatmaği söyürdi.

Tənbəl Əhməd gördi uşaxlar gəlip ordan keçillə getsinlər meşədən odun yığmağa. Nənəsi uşaxlari səslədi:

– Uşaxlar, Əhmədi də özüzünən aparın meşiyə. Aparsaz mən də sizə şahdaneynən qovurqa verərəm.

Uşaxlar dedilər, “eybi yox”. Tənbəl Əhmədin nənəsi uşaxların hərəsinə bir uvuc arınmış şahdana-qovutqa verdi, tənbəl Əhmədə də arınmamışın verdi ki, bir az zəhmətə düşüb arıtsın, hamısın tez höpütdəməsin.

– Di dur, bu uşaxlarınan get, xan oğlan!

Tənbəl Əhməd durup sallana-sallana, sürünə-sürünə uşax-larınan yola düşdi. Gedip-gedip meşiyə yetişdilər. Yetişmax həman uşaxlar hərəsi bir tərəfə dağılışıp başladılar odun yığ-

mağa. Tənbəl Əhməd də otumuşdi bir tərəfdə şahdana– qovurqalarını ovcunda arıdıp yiyirdi. Elə ki, yemaxdan baş aşdi bir çöp götürüp başladı yeri qutdalamağa. Qutdaladı-qutdaladı, gördü çöp boşa gedir. Torpaxlari, yərpaxları eşəliyip çəkdi kənara, gördi barmağına bir şey yapışıp. Barimağın yaladi, şipşirin idi. Bətər söyündi, bildi ki, bal tapıb. Çığırdi:

– Gəlin, uşaxlar, mən bal tapbışam.

Uşaxlar odunlari atdılar bir tərəfə, qaça-qaça gəldilə gördülə bəli, tənbəl Əhmət bir quyu tapıb, içı doli balınan!

Tənbəl Əhməd dedi:

– Uşaxlar, siz odunlarızdan mənə versəz, mən də qoyaram siz bu baldan yiyəsiz.

Uşaxlar dedilər:

– Eybi yox.

Başladılar bal yemağa. Yedilər, yedilər, yedilər.

Canım sənə desin, balı yedilər, amma bal qurtulmax bilmirdi. Tənbəl Əhməd dedi:

– Uşaxlar belə olmaz. Mən burda otumuşam, siz gedin qab gətirin doldurup aparax evə.

Uşaxlar qəbul elədilər. Odunnarını çatdıla kürəhlərinə, getdilər evlərinə. Tənbəl Əhməd də otumuşdi, barmax-barmax bal yeyirdi.

Bir azdan uşaxlar gəldilər, hərəsinin əlində bir qab. Əhməd qabları alıb bir– bir balınan doldurup sahabına verirdi. Tənbəl Əhməd yavaş– yavaş cumurdu quyunun təkinə. Bir handa gördi quyunun lap təkindədi. Ordan səsləndi:

– Hoooooyyyy! Uşaxlar, bir ip verin, doliyim belimə, məni çəkin üstə.

Uşaxlar öz aralarında fikirləşdilər ki, tənbəl Əhməd quyudan çıxsa balların hammısın alacax, bəs elə qoyax qalsın quyuda, anasına da diyax Əhməd meşədə itdi.

Sora da yavvəccənə qablarını götürüb ordan süzülüp getdilə evlərinə. Tənbəl Əhməd nəqqədə bağırdi, çağırdi, heş kim səsinə gəlmədi. Axirdə yoruldi, çömbəlib otdi qərənlıx quyunun təkində. Təndir yanında yorqan-döşəyi yadına düşdi. Nənəsi yadına düş-

di... ürəhləndi, ağladi. Bir az geşdi acıldı. Quyunun duvarlarında qalan-qulan balı barmağıynən siyirip yalırdı. Bir də gördi duvarda bir baca açıldı, ordan işıx gəldi içəri. Barmağıynən qutdaladi, qutdaladi baca gənəldi, əliynən duvari söhdi, söhdi, birdən çıxdi bir gələn-gavaz çölluğa. O yan, bu yana baxa– baxa baş alıp elə belə gedirdi... Az getdi, çox getdi, birdən gördü bir yekə qərə ilan yumuldu balaca bir ağapbağ ilanın üstünə. Baləcə ilana ürəyi yandi, əyilip bir yekə daş götdi, nə ki güci var çıpdi qərə ilanın başına. Qərə ilan ordaca öldü. Birdən ağ ilan cildinnən çıxıp oldi bir gözəl qız. Tənbəl Əhməd qutunnan qurudu, əli yapışdi üzünə...

Qız dedi:

– Ey bəni-adəm, bilmirəm kimsən, amma mənim canımı qutardın. Bu ilan məni öldürürdi. Mən ilanlar şahının qıziyəm, gəl səni öz şəhərimizə aparım.

Əhməd düşdü qızın yanına, getdilər yetişdilər bir gözəl abad şəhərə. Yekə, əzəmətli bır qəsrin qabağında durdular, qız dedi:

– Bura mənim atamın qəsridi.

Əhməd qorxusunnan yerişini itirmişdi. Hər yana baxırdı, ilan görürdi, yerdən, göydən ilan yağırdi. Yetişdilər böyüh bir səraya, sərayın yuxarı başında cəlallı bir təxt üstündə ilanların şahi otumuşdi. Qız dedi:

– Ata, bu gün bu iyit mənim canımi qutardı.

Sora da hər şeyi dədəsinə tariflədi. İlanların şahi çönüp oldu bir qoca kişi. Əhmədə dedi:

– İndi ki, qızımın canıni qutarmısan, qızımi sənə verirəm. Mənim oğlum da yoxdu. Mənnən sora sən bu məmləkətin şahı olasan.

Əhmədin qorxusi bir az tökülmüşdi. Üzün tutdi şaha, dedi:

– Padişah sağ olsun, mənim əlimnən gəlməz belə işlər. Mənim bir qoca nənəm var, yolumi gözlür. Mən istirəm öz vətənimə qeyidəm.

Şah Əhmədin bu sözünnən bəh xoşu gəldi. Sağ-solundaki ilanlara bir işarə elədi, ikisi də adama döndülər, şah əmr elədi, gedip bir doli mejmeyi qızıl-gumuş, cəvahir gətisinlər Əhmədə. Sora da Əhmədə dedi:

– Mənim adamlarım səni öz şəhərivə aparacaxlar.

Əhməd qıznan da, şahnan da xudafizləşdi, şahın adamlariynən getdi meşəlığa tərəf. Az qalmışdi yetişşinlər, şahin adamları dedilər:

– Sizin şəhərizə az qalır, biz sənnən gəlsax dərdi-sərə düşəsən. Al bu qızılları, yolun kəsrin özün get.

Əhmət mejmeyini aldi, çox ağır idi, kefi bistini vıra-vıra getdi evlərinə sarı. Qapını döydi, nənəsi gəldi qapiyə, qucaxlaşdıla, öpüşdülə, görüşdülə... Əhmət otdu bitinnən sirkəsinəcan olanlari nənəsinə təriflədi.

Əhmədin yoldaşlari eşitdilər ki, Əhmət gəlip, utana-utana gəlip Əhmədinən həlallaşdılar, dedilər, bizi bəğişlə, pis iş görmüşux. Onnan sora da heş kəs ona tənbəl Əhəməd demədi, hami igid Əhəməd səslərdi biləsini.

Yedi, işdi, mətləbinə yetişdi.

## GÜNDƏN QORXAN ƏHMƏD

Biri var idi, biri yox idı, Allahdan savay heç kim yox idi. Bir gündən qorxan Əhməd varıydı ki, bunun ikı arvadı varıydı, yeddi-səkkiz xırım-xırda uşağı varıydı. Əsla Əhməd işə getmirdi və çölə çıxmırdı ki, mən gündən qorxuram. Əgər eşigə çıxsam, ölərəm. Əma bir gün Əhmədin arvadlarının səbri qurtardı. Buna görə ki, ac və susuz qalırdılar.Təsəmim tuturlar Əhmədin zorla əl-ayağın bağlayır və gətirirlər qoyullar həyətdə günün qabağında yerə. Əhməd ki, çox qorxmuşdu, qışqırdı və “haray dad-bidad, ay öldüm, partladım”, əmma bir kəs Əhmədin köməyinə gəlmir və bir neçə sahat keçir. Əhməd görür ki, günün əsla Əhmədlə işi yoxdu. Günün istisindən ləzzət apardı, bədəni də ki yumuşaldı. Bu cür oldu ki, Əhmədin təmam qorxusu töküldü, daha Əhməd gündən qorxmurdu. Çağırdı ki, gəlin mənim əlimi və ayağımı açın. Mən daha gündən qorxmuram. Əmma evdə heç kim inanmırdı. Əmma bir az Əhməd yalvardı, arvadları gəldilər və gördülər daha Əhməd qorxmur. Əhmədin əlini, ayağını açdılar. O zaman Əhməd arvadlarına dedi ki, mən daha gündən

qorxmuram. Sizə söz verirəm ki, gedəm işə və sizə pul və alahı şeylər də alam gətirim.

Buna görə Əhmədin arvad və uşaqları Əhmədi apardılar evə bir az yemək-içməkdən sonra Əhməd dedi:

– Mənə bir az sudan-çörəkdən qoyun, mən gərək gedəm iş ardınca.

O zaman Əhmədin arvad-uşaqları çox xoşhal olurlar. Əhmədə bir az sudan-çörəkdən qoyurlar. Əhməd arvadlardan və uşaqlardan ayrılır və yola düşür. Az gedir, çox gedir axşamüstü hava qaranlıqlayanda yetişir meşədə böyük bir mağara. Bir az fikirləşir, deyər yaxşısı budur ki, gecəni burda yatam və yırtıcı heyvanların əlindən sağ-salamat qalam. O, keçir mağara əmma görür ki, burda heyvanat rəddi vardı. Deyər, Allah mən canımı sənə tapşırıram, mənə kömək elə. Ta bu gecəni burda gizlənim. Bu tərəfə, o tərəfə baxdı gördü ki, bir böyük sal daş vardı. Getdi onun dalısında gizləndi və bir cur da gizləndi ki, görə bu mağarda nə ittifaq və xəbər olacaq.

O zaman Əhməd ki qorxusundan nəfəsin çəkip sinəsində gizəltmişdi, səsi çıxmırdı, qəfildən bir ayaq səsi gəldi. Gördü ki, bir canavardı.Və canavar öz-özünə deyər ki, elə bil burdan adam-zad iyisi gəlir. O zaman Əhməd qorxusundan az qalırdı ki, bağrı çatlasın.

Sonra genə bir ayaq səsi gəldi, gördü ki, bir tülküdür.Ondan sonra yavaş-yavaş heyvanlar da gəldilər, yığışdılar. Şir, pələng, ayı və genə canavar sözünü təkrar elədi ki, adam-zad iyisi burnuma dəyir. Əmma heyvanlar onu məsxərə elədilər və dedilər ki, adamzadın burda nə işi var? Sən elə bil divanə olmusan. Əmma canavar daha bir söz demədi və heyvanlar yavaş-yavaş yuxuya keçdilər.

Canavarla tülkü bir-biriynən danışırdılar. Tülkü dedi ki, canavar qardaş, heyf ki, mən adam deyiləm. Canavar soruşdu ki, necə yəni? Tülki dedi, mən bir əsrar(sirr) bilirəm ki, heç kəs onu bilmir. Onda canavar deyər ki, o sirrdən mən də bir az bilirəm, mən də deyim.

Burda tülkü deyər, canavar qardaş, gəl biz bir-birimizin razından xəbərdar olaq. Sən əsrarını mənə de, mən də sənə deyim ki, nə iş görək. Orda tülkü deyər, bəs qulaq as. Canavar deyər,

qulağım səndədir. Əmma Əhməd də qulaqlarını şəhləmişdi ki, eşidsin ki, nə var, nə yox?

Tülkü belə deyir, fəlan dağın ətəyində bir mişavıl vardı ki, çoxlu qızıl-gümüşü və gövhəratı vardı. Hər gün yolum oradandır. Orda bir yerdə gizlənirəm. Mişavıl təmam qızılları və cuvahıratı gətirir eşigə, tökür günün qabağına və onlarla oynayır və gözləyər, günortadan da sonra təmam qızılları çəkir aparır evlərinə. Arzum budur ki, kaş adam olaydım və bir gün o mişavılı qovaydım və təmam qızılları, gümüşləri və cuvahıratı götürəydim. Bir ömur şad və xürrəm, azad yaşayardım.Vəli əfsüs ki, adəm deyiləm.

Sonra tülkünün sözü qurtardı və əmma canavar tülkü bəyə dedi:

– İndı qulaq as, mən deyim. Bu ki, bir şey deyil. Tülkü qardaş, bir məmləkətdə bir padşah vardı ki, dunyada fəqət bir qızı var və o qız da lal və kardı. O padşah təmam məmləkətləri dolanıb ki, qızın müalicə etdirə. Əma buraca heç təbib ona məalicə eyləyə bilməyib. Və buraca da neçə təbiblər canlarını əldən veriblər. Axı o padşah hər kimi ki, gətirir onu dərman eyləyə, dərman olmur, padşahın qəzəbi tutur və onları öldürür.

Əmma o qızın dərmanın mən bilirəm. Həmişə arzu eylərəm ki, kaş insan olaydım və padşahın qızını dərman edəydım və o padşahlığı o qızın atasından alaydım.

Tülki soruşdu ki, o qızın davası nədir? Canavar dedi ki, fəlan kəndə fəlan şəhərin yaxınlığında bir böyük sürü qoyun vardı. O qoyunların içində bir qərə qoyun var ki, dırnaqları ağdı və başının rəngi də ağdı. O qoyunun beyini o qıza dərmandı. Əgər mən adam olsaydım, hətma gedip o qoyunu alıp və onun beyinin aparıb o qızı dərman edərdim. Əmma əfsus...

Əmma Əhməd bu danışıqları eşidib və bilib və ümüd bağlayır ki, burdan sağ və salamat çıxıp gedib onların hesablarına yetişərəm.

Burda bəli yavaş-yavaş canavarla tülki də yuxuya keçdilər. Əmma Əhməd sübh işıqlanınca oyaq qaldı və gördü ki, sübh bütün heyvanlar birbəbir durdular, gedillər meşəyə, yemək dalınca. Gündən qorxan Əhməd rahat nəfəs çəkdi və daşın dalısından

çıxdı eşigə. Gəldi və öz-özününə fikirləşdi və dedi, burda gərəh mən şansımı bir imtahan eyliyəm, gedim ora ki, tülkü təriflədı.

Əhməd getdi o dağı ki, tülki demişdi, nam-nişanilə tapdı. Bir təpənin dalısında gizləndi və gördü ki, bəli o sarı təlayi rəngli mişavıl çıxdı eşigə, bir o tərəfə boylandı, bir bu tərfə boylandı. Gördi bir kəs yoxdu, başladı qızılları, gümüşləri və cuvahıratı evindən çıxardı, sərdi günün qabağına və başladı onlarla oynamağa və gözləmağa.

O zaman Əhməd bir daş atdı mişavıl qaçdı, Əhməd getdi təmam qızılları və gümüşləri və cuvahıratı yığdi torbaya, atdı kürəyinə, düşdü yola və biçarə mişavılın da əlindən bir iş də gəlmədi. Quyruğun tavladı saldı boğazına. Özunu öldürdü. Amma gündən qorxan Əhməd şad və xuraman getdi evinə tərəf və Allaha da şükr elədi ki, mən arvad və uşaqlarımın yanında şərməndə olmadım. Əhməd yoluna ədamə verdi, gəldi yetişdi evə yenə.

Əhəmədin uşaqları gördi ki, Əhməd gəldi. Analarına xəbər verdilər. Arvadlar uşaqları apardılar evə və qapını da məhkəm bağladılar. Axı onlar istəmirdilər Əhmədə evə yol versinlər. Əhməd hər nə qədər qapı vurdu, qapını onun üzinə açmadılar ki, sən nə tez gəldin, sən heç beş gün deyil iş dalıncan getmisən, nə olubdi ki, sən tez qaytmısan?

Əhməd çox iltimas elədi, qapını Əhmədin uzünə açdılar. Əmma arvadlar Əhmədin sözünə qulaq asmadılar, getdilər otağa qapını örtdülər. Əhməd qaldı həyətdə və Əhməd yavaşcasına qızıllardan bir-ikisini qapının cırığından arvadlara görsətdi və dedi qapını açın. Arvadlar o qızılları gördulər, tez qapını açıb Əhmədin dövrəsinə kəpənək kimin dolandılar və onu içəri apardılar. Əhməd qızılları-gümüşləri və cuvahıratı tökdü arvadların qabağına. Arvadların ağzı elə açıla qalmışdı və Əhməddən soruşdılar ki, cərəyan nədi? Əhməd açdı macəranı dedi, arvadlar daha bilmirdilər ki, gündən qorxan Əhmədə nə cür hürmət eləsinlər.

Əhməd bir az qızıllardan apardı bazarda satdı və ayiləsinə xərc elədi və onlara dedi ki, mən bir böyük səfərə gedirəm. Siz ki, məndən məxalif deyilsiz, arvadlar çünki bu dəfə cuvahırat,

qızıl bunların ağzında məzə eyləmişdi dedilər, Əhmədcan, sən özün ixtiyar sahibisən.

Budur ki, Əhməd səfər yükünü çatdı və tədarükünü gördü və özünə də bir neçə dəst yaxşı paltar aldı və bir döktür çantası və döktür vəsaylı da aldı və sonradan öz evindən ayrılıb yola düşdü.

Getdi-getdi ta yetişdi o canavar deyən məntəqəyə. Oranı tapdı, getdi o çobanı və qələni də tapdı və qoyunu qələnin içində tanıdı və çobanı çağırdı. Çoban gəldi Əhməd döktürün yanına, dedi nə istirsən? Əhməd dedi:

– Səndə bu namda və bu nişanda bir qoyun var. Onu istirəm. Çoban dedi:

– Axı, o mənim deyil.

Əhməd dedi:

– Mən iki bərabər pulunu verirəm və ətin də verirəm sənin özüvə.

Əhəməd qoyunu aldı, çoban tez qoyunu kəsdi, soydu. Qoyunun beyinin çıxardı verdi döktür Əhmədə. Əhməd onu tökdi şüşənin içinə, ağzın da bağladı, düşdü yola.

Gedi o məmləkətə ki, canavar tərifləmişdi. Bir neçə ay çəkdi, ta yetişdi o padşahın məmləkətinə ki, qızı lal və karıydı. Ama o şəhərdə bir az dolandı və bir-iki nəfərdən soruşdu ki, aya, bu məməlkətin padşahının qızı mərizdi (xəstə), ya yox?

Xoşbəxtanə Əhməd düz gəlmişdi. Dedilər, bəli, əlbəttə.

Bunu da deyim ki, döktür Əhməd özinə də bir şagird tütmuşdu ki, ona kömək olsun. Döktür Əhməd öz şagirdini yolladı saraya və o getdi sarayda padşahın hüzuruna. Dedi:

– Qibleyi-aləm sağ olsun, bir alahı vəlayətdən bir döktür gəlip, istir sənin qızını təbabət eləsin. İzn verirsən həzuruza şərəfyab olsun, ya yox?

O zaman padşah deyər ki, o döktür ki, mənim qızıma istir təbabət eləsin, əmma mənim bir şərtim var. Döktür Əhmədin şagirdi soruşur ki, qurban, nə şərti? Deyir, əgər o müəffəq olmasa təbabət eyliyə, mən oni öldürrəm və neçəsini də mən öldümüşəm. Şərtim də var ki, hər hansı döktür mənim qızımı təbabət edsə, qızımı ona verəcəyəm.Özün də özümə vəziri– əzəm elə-

cəm. Əgər şərti qəbul eləsə gəlsin və əgər də qəbul eləməsə qayıtsın gəldigi vəlayətə. Bir kəsin də onunla işi olmaz.

Doktur Əhmədin şagirdi deyir, qurban, mən sənin fərmayişini ona deyirəm.

Şagird qayıdır gəlir macəranı Əhmədə deyər. Əhməd qəbul edər və gedər saraya padşahın hüzuruna, ərz-ədəb eylər və ondan icazə istər ki, padşahın qızının yanına gedsin və onu təbabət eyləsin. Əmr olunar, padşahın tərəfindən əmr icra olunar. Əmma döktür Əhməd deyər ki, heç kəsin icazəsi yoxdur ki, qızın otağına gələ və Əhməd tək gedər qızın otağına və Əhmədin də dəstüri icra olunar. Döktür Əhməd gedər qızın otağına və bir qaşıq məcun beyindən verər qıza. Qız yeyər, bir azdan sonra qız bir kəlmə danışar. Sonra döktür Əhməd beynin hamısını verər qız yeyər, qızın dili və qulağı açılar. Şahın qızı eylə bil bülbül kimin danışar. O zaman döktür Əhməd otağının qapısını açır, deyir padşaha müjdə verin, qızın dili və qulağı açıldı. O vaxtı ki padşah bu xəbəri eşitdi, ol inana bilmədi. Dedi ki, gərəg özum görəm və danışam, düzdi, ya yox?

Padşahın qızı döktür Əhmədlə birgə gedillər padşahın hüzuruna və qız başlar danışmağa. Padşah o qədər sevindi, xoşhal oldu ki, gəl görəsən. Bilmirdi ki, nə iş görsün. Əmma döktür Əhmədə verdigi sözə əməl elədı. Qırx gün, qırx gecə şən tutdular.

Əlbəttə, döktür Əhməd qorxusundan icazə istədi, padşaha dedi ki, mənim iki arvadım vard və yeddi-səkkiz də uşağım. Padşah dedi, eybi yoxdur.

Şərti gərəg icra olsun və padşah əmr elədi ki, tezlikdə xəbər verin döktür Əhmədin əhli-əyalı buraya gəlsinlər. Daha döktür Əhməd burda qalmalı oldu. Həm vəziri-əzəm və həm padşahın yeznəsi oldu. Əmr icra olundu, hamı yığışdı bir yerə, şadxuraman yaşadılar.

## MƏRDİNƏN NAMƏRD
## (Ərdəbil)

Biri var idi, biri yox idi. Qeyrəz Allah… bir Mərdinən Namərd bir-birinə darış gəlir. Mərd dedi, Namərdə ki, ağa, sən namərdsən, mən mərdəm, sənnən mənim yoldaşlığım tutmaz. Dedi:

– Niyə tutmaz?

Dedi:

– Tutmaz.

Dedi:

– Tutar, mən sənnən əl çəkmərəm.

Dedi:

– Əl çəhməsün gərəh mənnən qardaş olasan sən. Qardaş olasan xeyirə-xeyir, şərə-şər. İndi hər birimizin ovumuza nə gəlsə, sənün ovua gəlsə mənnən qardaş, mənim ovuma gəlsə sənnən qardaş. Dedi, baş üstə. Dedi, indi sən mənnən day qardaş düşdün ki, bu Mərd dedi Namərdə. Bi dənə yol idi bular gedirdilər, dedi, indi Namərd qardaş, nə deyirsən, əvvəl sənin çörəyin yeyəcik, ya mənim? Namərd dedi:

– Yox! Əvvəl sənin çörəyin yeyək, annan məninkin yeyək.

Dedi:

– Baş üstə.

Getdilər, bi yerdə ajlıx qələbə verdi bulara. Ajlıx qələbə verdi, dedi, indi qardaş, yeyək çörəyi.

Dedi, yeyək. Mərdün çörəyin yedilər, qutardılar. Ginə bir middət yol getdilər. Getdilər, day Mərdin çörəyi qutarıb Namərdin çörəyi qalıb. Dedi:

– İndi, Namərd qardaş, gə səən çörəyin yeyək.

Dedi:

– Mən çörək vermərəm.

Dedi:

– Necə verməsən? Sən mənnən yoldaş oldun, xeyrə-xeyir, şərə-şər.

Dedi:

– Yox! Mən çörəh vermərəm.

Dedi:

– Verməssən!?

Dedi:

– Yox.

Dedi ki, bəs mən sənnən yoldaş olmaram, gə burda ayrılaq. Dedi, ayrılaq. Çün bunun çörəyi var idi, bu çörəyinə arxeyin idi, Mərdün çörəyi yox idi. Dedi, day mən sənnən yoldaş olmuram. Dedi, olma. Mərd dedi, Namərd qardaş, gə ayrılax. Dedi, ayrılax. Dedi, xub, de görüm, sən birahə yol gedəssən? Rahə yolnan gedəssən? Xeyr! Mən rahə yolnan gedirəm, Namərd dedi. Dedi, eybi yoxdu. Bu Mərd berahə yoluna düşdü, Namərd rah yoluna düşdü. Bu berahə yoluna düşdü biabanarnan. Mərd getdi, bunun qabağı bi dənə cəngələ darış gəldi, gördü bu cəngəlin vəsətində bi dənə xaraba dam var. Bu dam xaraba qalıb, köçüblə, gediblə, heş kim yoxdi, ama burda bi dənə buxari yeri var, elə bil puş yeri var, amma, bura elə xərxəşəl tökülüp ki, heyvanat gəlip qalıp burda. Baxdı bu yana gördü, burda bi dənə buxarı yeri var. Dedi, çox gəşək, mən girim buxari yerində qalım, görüm bura nəmənə gələcəh? Geşdi çıxdı buxarı yerində qaldi, gizləndi, oldu axşam. Qaş qaraldi, gördü üş dənə heyvanat gəldi bura, bi dənə şir, bi dənə qurt (qurt, yani bizim dilimiz), bi dənə də tülkü. Bular yetişdilər, otdular bələ. Bu yannan söz düşdi, şir də bu heyvanatun böyügüdi, bu aslan dedi ki, indi indi biz bi söhbət eliyək, mənim başım ağrır, bəlki baş ağrım toxdadı. Dedilər, eliyək. Dedi, hansuz icazə veresüz qabaxca danışa. Tülki dedi, valla, icazə veresüz qabaxca mən danışım. Dedi, buyur. Tülki danışdı. Dedi:

– Aslan qardaş! Mən alan bir aydı, burda giriftaram, heş yana gedə bilmirəm.

Dedi:

– Niyə, nəyçin?

Dedi:

– Burda ki, yığışmışıx, bunun dalında solax var, yanı siçan solağı, dəlik. Burda bi dənə siçan var bu siçanın, mən pulunan işim yoxdi, bunun yüz dənə pulu var. Pulu gətirir, qəşəh bi dənəbi dənə düzür, gün dəyir, şafax düşür, bu siçan oynur, oynur. Mənim pulunan işim yoxdu, istirəm o siçanı tutam yeyəm, tuta bilmirəm, qaçır girir dəliginə. İndi onun giriftyariyam.

Bu bunu danışdı. Mərd də ordadı, buxarı yerində eşidir. Dedi, valla, mənim giriftarçılığım burdadı. Qurt dedi:

– İndi icazə verəsüz, mən də bi söz danışam.

Dedi:

– Buyur.

Qurt dedi:

– Valla! Bu şəhrün kənarında bi alacıx var, orda bi dənə yaylaxnişin var, onun beş yüz qoyunu var. Mən gedirəm, o qoyunu içində bi dənə qara qoş var, bi dənə , üzüzdən irağ, qara it. Mən hay istirəm oları yeəm, yeə bilmirəm. Bi aydi oların sərgərdanıyam.

Aslan dedi:

– Xub! Olarda nə hikmət var, sən oların giriftarısan?

Dedi:

– Oların hiküməti çoxdi. O ki, qara qoş, üzüzdən irağ, qara it burdadı, bu məmləkətin bi dənə şahı var, bu şahın bi dənə qızı var, qız fələc olub, bi parça ətdi. İndi ona əlaş tapılmır. Hər dük-tür gəlir əlac eliyə bilmir, şah bunu öldütdürür. Bu şah Allahınan peyman bağleyib, bu qızı hər kim diriltsə, bu şah olacağ, yerində şah eliyəcək. O qara qoçunan, qara itün beynin vıralar bir-birinə, sürtələr qıza, qız yaxçi olur. İstirəm onu sürtəm, o qızı mən alam. Odu mən giriftaram.

Dedi:

– Lap qəşək. Xub!

Dedi:

– Mən də, bu şəhrün kənarında bi dənə təpə var, o təpədə bi dənə səbz ağaş var, köyüldi alti. Mən gedirəm orda yatıram. Bir aydı orda qalıram. Orda bi dənə xazana var, belə na xada desün xazana qutulan döy. Mən deerəm, hər kim gələr çıxadar, ona görə qalıram orda, o xazananı gözlürəm. Mən də ona görə giriftaram.

Da bu söz oldi, səhər oldi bular çıxdılar getdilər. Getdiləri, Mərd dedi, xub, hələ mən görüm bu tülki düz olsa, bu sözün hamısı düzdi, yalan olsa, bil ki, yalandi. Tülki geşdi, həmən xa-raba damın dalında otdi, gördi gün çıxdı, bi dənə həmən dəlik-dən siçan çıxdi, bi baxdi bu yan, o yana, gördi heş kim yoxdi

qəyitdi. Qəyitdi, bu puldan bi dənə gətdi qoydi ora, getdi birin gətdi, gətirəni də bu sanır, gördi bəli, düz yüz dənə sanadi. Mərd gördi siçan düzdü, gün düşdü bərqəbərq vırır, bunun üstə bina elədi oynamağa. Bu gəldi ki, siçanı tuta, bu sıçan qaşdi. Mərd o yannan çıxdı, tülki qaşdı. Tülki qaşdı, bu, pullari yığdi. Yığdi bu Mərd pulları, qoydu cibinə. Buna da çox ajlığ qələbə elədi. Getdi yavaş– yavaş yetişdi gördi bi dənə qoca kişi az– çox tükan açıb vəsail qoyub orda, yetişdi, səlamüm əleykim ağa!

– Əleyküs səlam!

Dedi:

-Qoca əmi! Burda yeməkdən-işməkdən bi şey olar mən yeəm?

Dedi:

-Niyə olmaz! Bura şəhəridi. Burda hər nəmənə olar, hotel var, tükan var, bazar var, qəhvə var.

Dedi:

- Mənə bikə yeib– işmək verəsən, bəs gedək orda bir nahar yeək, sənün nahar pulun da mənim öhdəmə.

Bular durdular, getdilər yetişdilər bi dənə hotelə. Dedi, ağa, iki dənə bizçin nahar gət gə. Hotelçi nahari gətdi, bular yedi. Durdu, bu puldan bi dənə apardi o hotelçiyə, dedi ki, ağa, bizim hesabımızi elə. Hotelçi baxdi buna, dedi:

- Qardaş! Bu pula mənim böccəm yetirməz, bəs burda bi dənə hücrə var, aparasan orda xırdalayasan, mənim elə xırdam yoxdi, puluun artığın verəm.

Dedi, çox gəşək! Dedi, indi, qoca əmi, du sən mənnən gedək, bu pulu apar sən, xırdala gət gə də, da mən getmirəm. Qoca durdu, apardi hücrəyə bu pulu, dedi ki, ağa, bunu biz çin xırdala. Bu adam, bu hücrə sahabı bunu xırdaladı, gördü, ə dədönnən, bi dənə siyəzi xırda pul oldi o dörə. Dedi, ağa, bu sənün pulun. Bu aldı. Mərd də oturub həmən qəhvəxanada, gördi, ə dədönən, bu bi tay pul gətdi bura.

Dedi:

– Ağa! Sənün pulun bi belənə çıxartdi.

Dedi, lap gəşək! Bunnan bir ovuç götdi, verdi qəhvəçiyə.

Dedi:

– Ağa! Mənim pulum bi beləm eləmir!

Dedi:

– Ağa! Mən Mərdəm, mən verirəm səən nə işüə, mənim pulum çoxdu.

Bir avuç da bunnan verdi həmən bu qociya.

Qoca dedi:

– Baba, mən …!

Dedi:

- Yox, ağa! Mən Mərdəm. Mən verirəm, sənün nə işüə.

Dedi:

– Xub! İndi day sən mənnən ki, əvvəl süftə yoldaş oldun, bırda mənçin eliyə bilərsən, bi dənə mənzil bırda danışasan, mən qalam.

Dedi, niyə eliyəmmərəm, elə bu hotelün üsti mənzildi, misafirxanadı. Çıxdılar, dedi, ağa, bi dənə bu ağaya dərbəs tükan verəcəksən. Mənzil bu burda bını dərbəst tutar, qıfılın verəsən bına. Dedi, çeşb!

– Ağa! qeyməti?

Dedi, bi belənə. Bu çıxatdı, dobli qeymətin verdi. Gördü baba! Bu elə yüz deyir, yüz bağışler. Mənzili tutdu. Dedi, xub, ağayi -sahabxana! Dedi, bəle! Dedi, bırda sənnən bi söz xəbər alacağam, bırda deyellər bi alacıx var, onu mənə nişan verəsən, mən gedəm, orda heyvan alacağam, çodaram mən. Dedi, valla, özüm gedəmmərəm, sənə yoldaş qoşaram, ama o alaçığın bi dənə (üzüzdən ırağ) iti var, it o hududda ki, geşdün it gələr qalar hudutda, əgər, hududu geşdin, it sənün, orda sənün qarnuyi sökər. Gərək qalasan (heç itə youx gedəmməz), alaçığ sahab özi gələ, səni rədd eliyə apara, heyvan alasan, yoxsa heş kim geçəmməz. O yercək səni aparram, day onnan o yana mən sənə qol verəmmərəm. Dedi, eybi yoxdu, bi dənə adam ver mənə, mən sənün dobli puli verim. Ginə həmən qocani qoşdula bunu apardi dedi, bəle ağa, bura alaçığ, hududu da buradı, bunnan o yana mən eliyəmmərəm geçəm. Buna da çıxatdı dobli pul verdi qəyitdi, bu qaldı orda. Gördi, it gəldi, durduhudutda. Təkan da

yeyəmmədi. İt hudutda qaldı, səddə, həmən adam qaldı bu tərəfdə. Alaçığ sahabı otumuşdu xanımıynan, dedi:

– Xanım.

Dedi:

– Bəle.

Dedi:

– Bi dənə it getdi bizim hududa, hələ dürbün götürüm, orda kim var ki, it qalıb orda. Labud adam gəlib.

Dürbünü vırdı gözünə, gördü, aha, bi nəfər gəlib durub orda. Dedi:

– Bi nəfər orda var, gəlib durub, gedim görüm nəyçin gəlib.

Alaçığ sahabı gəldi yavaş-yavaş gördü bi nəfər durub orda, it də durub bu tərəfdə, qoymur təkan yeə.

– Ağa! Əmrün!?

Dedi:

– Ərbab, vallah xan, mən bi dənə çödaram, eşitmişəm səndə heyvan var, gələm sənnən heyvan alam.

Dedi, buyur, gə içəri. Bını apardı, da it dillənmədi, apardı. Heyvan gəldi, axşam. Geşdi gördü, belə həmən qara qoş da bu heyvanın içindədi. Dedi:

- Ağa, mən heyvanın hamısın satıram. Pulun var, satsam, hamısın satıram.

Dedi, qimətin de. Dedi, məsələm, dobli qiymət dedi. Bu birə yüz çıxartdı pulun verdi. Gördü, baba! Bu bi dənə puldar adamdi. Dedi, ağa, məəm pulum çoxdu, mən hələ bi dənə pulumu xəşlirəm, hələ doxsan doqquzu qalıb. Bu heyvanı aldı, həmən qara qoş da ki, bunun içindədi. Gördü, it qaldı. Dedi, ərbab, bu iti də verəsən mənə? Dedi, ağa, o it mənim yani dolanışığım itinəndi. Mən iti sataram …Dedi, qimətin de. Dedi, qiyməti bu heyvan naxadadi, e beləm də itimün pulu. Dedi, bu da sənün itün pulu. Gördü, ədə bu qoçça oğlu, elə bu nə deyir, dobli puli verir, iki qat pulu verir. Dedi, xub, ərbab! Bu iti ki mən apardım, bu itünnən qorxuram, sən bu çobanun da mənə verəsən məni bi yana yetirə. Hax danışıram itdən qorxuram. Çobana dedi, ağa,

gedərsən? Dedi, gedərəm, gedim arvadımnan icazə alım gəlim. Dedi, ged al. Getdi icazə aldı, dedi:

– Ay arvad! Bi dənə gözü qıfıllı oğlan darış gəlib ərbaba, dobli heyvanın aldı birə iki, iti də alıb. İndi qorxur itdən, mənə də deyir, sənə dobli verrəm pul, birə iki verrəm, məni bi yana çıxadasan, icazə verisən?

Arvad çoxbilmiş , dedi:

– Kişi! Onu Allah bizə yetirib, bəs əl çəkmə, gedək. Get, denə gederəm.

Gəldi, dedi, bəle ağa, mənim xanımım icazə verdi.

Dedi, bu gecə icazə verəsən biz burda istirahət eliyək, vəli, gecənin bi zamanı gələsən, məni çıxadasan bi tərəfə, tez durasan gələsən, məni çıxadasan. Dedi, baş üstə. Gecə getdi çoban yatdı. Gecənün bi zamani gəldi, arvad dedi:

– Kişi, sən gedəndə mən də, oşaxlarımız, özümüz gedək.

Dedi:

– Baba! Mən səni danışmadım, mən özümü danışdım.

Dedi:

– Bədbaxd! Onu Allah biz için yetirib. Biz gedək ona yalvar -yaxar eliyək, məneliyək, mən yıxıllam onun ayaxlarına, deyərəm, ağa, səni at verrəm o inanduğuva, bu ərim o xədə bu dağlarda heyvan otarıb, tamam ayaxları qabar olub. Mən özüm o xədə bun için qazan götürüb qazan qoymuşam, tamam mənim qarnım… narahatam rudələrim partdıyıb. Bizdən sənə, sənnən Allaha, sən bizə nəcat verəsən, bizi də apara.

Dedi:

– Xub, gedək da.

Bu, həman adam da qorxurdu ki, bu ərbab dəbbə eliyə. Gəldi bəle heyvanı çıxartdıla. Dedi, çoban. Dedi: hə! Elə bil dedi, məsələm bureynam gedəcəm, ərbaba deyib belə aparacam, amma çobana dedi, ağa sən məni belə sür. Ərbaba dəbbələsə, gəlsə, məni tapbasın. Dedi, baş üstə. Sürdülə, sürdülə, üzüzdən irağ itinən də bu qara qoş heyvanın içində. Bular getdilə. Bərədən geçirdilər, dedi, geç, heyvanın qabağın kəs. Dedi:

– Bu arvadun hara gedir?

Arvat dedi:

– Ay ərbab! Səni and verrəm Allaha, biz bu cür giriftar… bunun zülmunan bizi qutar, bu ərbabın, bu o xədə heyvan otarıb, day qara gün çəkib, mən oqqədə burda qazan götürüb, qazan qoymuşam özüm də ölürəm, bizi bunun zülmunnan qutar.

Dedi:

– Bəs! Sürün heyvanı.

Getdilər, bi bərəni geçirdilə, dedi, geç, heyvanın qabağın saxla. Bu keşdi, heyvanın qabağın saxladı. Dedi, bu itün əvvəl başın kəs. Bu çoban itün başın kəsdi. Dedi, o qara qoçun da başın kəs. Qara qoçun da başın kəsdi. Dedi, mən buları istirəm, bu heyvan, süz. Get ama, evün dağılsın, get, özün yetir bi yana, ərbab gəlib bilsə, sənnən tutub alacağ. Bu burda qalı, giriftar oldu, heyvanı sürmədi. Dedi, ağa, sür da. Bu da, axı inanmır bu heyvanın hamısın, bəş yüz heyvanı müft verə. Dedi, qal orda görüm, hətmən pulun yoxdu, bu heyvanı aparasan, gəl a sənə pul da verim, heyvan sənün, mən elə buları istirdim, götü aradan çıx. Bular söyünə-söyünə pulu da aldı, heyvani sürdi. Arvat dedi:

– Gördün, kişi, bunu Allah biz için yetirib, bədbaxt. Mən sənə deyirdim gedək, deyirdin yox.

Bular sözün sonu, heyvanı sürdü, apardı. Bu itün kəlləsinən, qoçun kəlləsin götdü gəldi həmən mənzilinə. Getdi bi dənə həvəkdəstə aldı, gətdi. Qəşəgcə, buları da danışmışdı, ağa, mən burda nəmənə eləsəm, sən mənə muzahim olmıyasan, hotel sahaba dedi. Dedi, xeyir ağa, mən əslən sər-qıfıl vermişəm sənə, əslən sənnə işim yoxdu. Dedi, lap yaxçi. Getdi həvəkdəstə aldı, gətdi, bu itün dərisin, kəllələrin soydu, buları tökdi, biri-birinə, döydü, neçə şişə aldı, gətdi, töhdi şişələrə, töhdi, düzəltdi.

Getdi, bi də dühtür libası aldı. Libası aldı, gətdi. Geşdi, hotel sahaba dedi, ağa! Dedi, bəle! Dedi, ağa, mən düktürəm, deyillər burda bi dənə şahın qızı fələşdi, mənə rahnama olasan, gederəm, ona tababətlik eliyəm, mən düktürəm. Dedi, ağa, sən bayağdan çodar idin, indi olubsan düktür. Dedi, mən hər şey ola billəm. Dedi, cənabun deyir, mən hər şey ola billəm. Dedi, bəle, bi dənə bu məmləkətün şahı var, onun bi dənə qızı var. Bi nəfəri

(dedi) mənə qoş, dərbarı mənə nişan versin. Ginə bi nəfər danışdı, qoşdu buna, doblu bunun pulun verdi. Getdi, durdu bu zadun qabağında, dərbarun. Ağa, sərbazdan, nigəhbannan dedi:

– Ağa, əmrün?

Dedi:

– Ağa, mən düktürəm. Bəs icazə verəsüz, eşitmişəm şahun qızı mərizdi, gəlmişəm tababətdig eliyəm.

Dedi, xub, qal burda, geçəg icazə alağ. Bular geşdi, belə, şah, vəzir– vəkil, vüzəra oturblar salam verdi, bəd-əz salam, şah əvəzin yetirdi. Dedi, bəs qıbleyi-aləm sağ olsun, bi dənə düktür gəlib, deyir, mən eşitmişəm, gələm burda şahun qızı mərizdi, təbabətdig eliyəm ona. Dedi, gedün, çağırun, gəlsin görəh. Girdi, gördü bi dənə düktür. Dedi, ağa, callad amadə olsun, düktürün başın vırsın. Dedi, qıbleyi-aləm sağ olsun, düktürün başın niyə vırasan? Dedi, baba, o xədə sənin kiminnər gəlib mənim qızıma tababətdig eliyəmmiyib da incimişik, qıza əlaç yoxdi. Dedi, mən sənnən şərt eliyəcəm, əgər, mənim şərtimi qabul eləsün, qanım sənə hazır, halal olsun, başım səhlidi, lap qanıma saman təp. Dedi, nə şərt idi. Dedi, mən bu şərtinən şərt elərəm qızua. Dedi, nə cür şərt elərsən? Dedi, mən qızun ki, görməmişəm, çi karədi, nə cürdi, mərizdi, göyçəhdi, pisdi, nəmənədi, əvvəl qızun adın oxuyasan mənə ola halalım, onnan sonra geçəsən bi dənə hamam eliyəsən, qızun aparasan qoyasan o hamada, mən gedəm qızua tababətdig eliyəm, qızun dirildi, öz halalımdı, öz namusumdu, dirilmədi, ağa, mənim başımı da kəsdir, dərimə də saman təp. Vəzir, vüzara dedi:

– Qıbeyi-aləm sağ olsun! Bu sözü heş kim deməmişdi. Bu bi dənə qanuni-şəri-peygumbərin sözün sənə dedi, da bu sözə zad yoxdu ki.

Dedi:

– Ədalətuə zor eləmə ki, mən sənnən şərt bağlıram.

Dedi:

– Bi dənə qazi gətürün, kəbini kəsün.

Getdilər bi dənə qazi gətdilər. Qızun kəbinin kəsdirdi, verdi bına. Verdi, bəle bi dənə hamamı xəlvət elədi, qızı apardıla qoydula hamama. Dedi, indi geş, get. Geşdi getdi gördü, bəle, qız da

elə bi dənə qızdı, amma elə bi parça ətdi, elə mat-mat baxır, nə danışır, nə deyir, nə bir tərpənir, elə bi parça ət düşüb ora. Bu qəşəglikcək bütün şişələri də doldurub qəşəg qoyub bi dənə kifə, kif də yanındadı. Qızı loxt elədi, üryan, anadan olma soyundurdu, gətdi bu bütri şişəsinnən bi dənə bunun bədəninə sürtdü ta dırnaxlarıneycax. Sürtdü, gördü qız tərpəndi, birin sürtdi verdi, qız danışdı, sürtdi bunun bədəninə, gördü qız gözün aşdı, bi dənə də gətdi sürtdü gördü qız danışdı, birin sürtü, gördü qız durdu otdi.

– Ağa, sən kimsən?

Dedi:

– Narahat olma, xanım. Mən sənün sahibinəm.

Ağa! Birin də sürtdü, qız durdu oldu öz halində bi dənə həmən adam.

Dedi, Allaha şükür, nəcət tapdın? Dedi, bəle! Bi nəfər də qapıda var idi, çıxdı dedi, ağa, gedün indi şaha müjdə verün, qızın diriltdim. Xəbər getdi, qıbleyi-aləm sağ olsun, həmən düktür qızua nəcat verdi.

– Necə nəcat verdi?

Dedi, verib da! Ağa! Bu şah, xanımı, eli, famili töküldü gəldi, gördi, baba, qız elə həmən elə bil dünyaya bu gün gəlib sapasağ, nə fələç, nə qeyri. Dedi, ağa, məni istiyən düktürə ənam… Dedi, ağa, mən ənam istəmirəm, mən hələ bi dənə pulumu xəşlirəm, mənim pulumun doxsan doqquzu qalıb, mənim pulum qutaran döy ki. Dedi, hes zad istəmesən? Dedi, əslən ənam-mənam mənə lazım döy. Bular çox şad oldular. Dedi, indi ki sən mənim damatım oldun, qızımı da ki, nəcat verdün, səni eliyəcəm bəs fərmandəhe leşgər. Dedi, xeyir ağa, mən fərmandəhe leşgər olmaram. Dedi, ağa necə, ixtiyar məndədi, səni fərmandəhe leşgər özüm elerəm. Bunu elədi fərmandəhe leşgər, qızıın toyun elədi, verdi buna. Bi dənə qəşəg saxtuman verdi, otdular. Bi gün bi dənə nama yazdı ki, qıbleyi-aləm sağ olsun, bi leşgər mənə sərvaz verəsən, mən istirəm bi gedəm, şikara gedəm. Dedi, baba, sən əmr elə iki leşgər sərvaz, sərvaz sənün ixtiyarundadı da, fərmandəhe leşgərsən. Ağa! Bi leşgər buna sərvaz verdi. Dürbünü qoydu, gördü, bəle, bi dənə həmən ki, bu şəhrün kənarında təpə var, orda bi dənə

köyül ağaş var, yoğun bi ağaşdı, köyüldi. Getdi dəstur verdi, dedi, o ağacı dörhədör muhasirə eliyəcəhsüz, ətdən qala çəkəcəhsüz, burdan bi dənə aslan çıxacax, əgər hər kimün tərəfinnən ki getdi, məsul odi, qoymıyacaxsuz təkan yeyə. Bular dörhədör zəncir çəkdilər, həmən ağaci muhasirə elədilər. Şir yatmışdi, bi zaman oyandı gördü, dədəm vay, bi leşgər sərvaz ətdən duvar çəkilib, day burda. Xub, bunun birin öldürər, bəşin öldürər, onun öldürər, axır bunu öldürəcəhlər, gördü bi nəfər də fərmandəhe leşgər dəstur verir bulara. Dedi, əlaci budi (bu aslan dedi), mən gedim, deyəllə, böyüg adamın həmməşə ətəyi gen olar, gedim təzimə, onun əl-ayağına yıxılım, mənə nəcat versin, pul cəhənnəm, mən burdan saf çıxım. Elə ordan çıxdı, elə dizin-dizin dik getdi, yıxıldi fərmandəhe leşgərün, həmən ki, Mərd idi, Mərdün əl -ayağına, dedi:

– Sərvaz!

Dedi:

– Bəle!

Dedi:

– Sərvaz! Mənə yol verin keçim.

Dedi, bunda işüz olmasın, yol verün, qoyun bu getsin. Ağa, aşdılar, şir aradan çıxdı. Dedi, (şir) baba, mən özüm ölmeyim cəhəndəm, mən sirvəti neynirəm. Xub, mən bunun beşin öldürərdim, hamısın öldürəmmərəm ki. Qəyitdi, dedi, xub ağa, bu yer kimündi? Bu yerün sahibin gətirəsüz mənim yanıma. Dedilər, valla, bu yer bi dənə qoca kişinindi. Dedi, gedün, onu gətirün. Getdilər, qoca kişni gətdilər, bu da fərmandəhe leşgər, dedi, ağa. Dedi, bəle! Dedi, bu yer sənündü? Dedi, bəle mən zarehəm o yerə. Dedi, xub, sən o yerün qiymətin deyəsən mənə. Aslan da demişdi bu ağacun qabağı xəzanədi, neçə dənə burda xəzanəyə qədim, məsələm o dörənün pulu var. Dedi, fərmandəhe leşgər, bu nə fərmayişdi, mən çikarəyəm sənnən pul alam, yerdə nə ərziş var. Dedi, mən istirəm burda saxtuman düzəldəm, sən bunu pulun de. Dedi, olmaz. Dedi, dədə, mən Mərdəm, namərd döyrəm, nə xada desün, sənə verəcəm, özün də burda bimə eliyəcəm. Buna bir miqdar pul verdi ki, naqqədə yeyə, dedi, Allah sənə ömür versin.

Bəle bunu da razi saldı, bu yerə gəşəh dörhədör gətdi, cızığ çəhdi, gəldi dedi:

– Xub, qoca! Gə mənnən.

Gəldi. Dedi:

- Xub! Sən bu şəhridə mühənnisdən, məhmardan əliyə bilərsən tutasan, karigərdən? Mən burda bi saxtuman düzəldirəm.

Dedi, bəle, pulun var? Dedi, pulum çoxdu, mən hələ bi dənə pulumu xəşlirəm, doğsan doqquza qalıf, puldan qorxma, bi dənə pul xəşlirəm, doğsan doqquzu sabit qalıf yərində. Dedi, çox qəşəh. Bu getdi, mühənnis tutdu, karigər tutdu. Dedi, ağayə mühənnis. Dedi, bəle. Bu şinasayi elədi, gördü ki, o yeri ki, mizan dəyiflə xəzanə orda. Dedi, ağa, ba, bu yərə sən külüh vırdırmıyacaxsan, mənə saxtuman düzəldəcəhsən burda neçə tabağa, bunu salacaxsan vəsətdə qalacax. Bura istəsən bi külüh vırsun dədün yandırram. Dedi, baş üstə. Bular da bilmillə ki, onun vəsətdə nəmənə var. Ağa, bunu saxtuman nəçə tabağa düzəltdi, həmən xazanəni saldı saxtumanın vəsətinə. Gördü ,ədə, bu da düzdi, həmən şir diyən də düzdi, tülki diyən də düzdü, qurt diyən də ki düz oldu, həmən kəllələri tafdı. Ağa, burda bi dənə gəşəh saxtuman düzəltdi, day, xub, fərmandəhe ləşgərdi, sərvaz, təşkilat buna səvaz qoudular. Xanımın gətdi, otdu orda. Sənə hardan xəbər verim, həmən Namərddən. Namərd gətdi, dolandı, çün namərd idi, işi düz gəlmədi üz qoydu qədaylığa, day bu yolçuluğ elir. Ağa, yolçuluğ elədi, elədi, gəldi şəhri dolandı, gördü o təppədə bi dənə böyüh saxtuman. Dedi, ələ orada bi gədim, Allaha təvəkkül, bəş on tümən də orda allam. Bu yavaş-yavaş gəlirdi, bu da xanımıynan Mərd oturfla qəşəh saxtumanda şahın qızıynan. Dürbünü saldı, gördü ə, bunun yoldaşı namərt yolçuluğ eləyir, çiynində xurcunu gəlir. Fori adam yolladı aşağı, ağa, pasivan, nigəhvan. Dedilə, bəli! O adam ki gəlir, gəldi, onun ələl üstə gətirəcəhsüz fərməndəhün, mən fərmandəhə ləşgərəm mənim otağıma. Dedilə, baş üstə. Ələ bu yətişdi yolçi bu qapıya tutdula bunu.

- Ağa! Məni hara aparısuz? Xub! Nəmənə vərəsüz vərün, vərməsüz…

Dedi:

– Hara? Səni fərmandəhəə ləşgər istir.

Dedi:

– Baba, mənim fərmandəhe ləşgərinən işim yoxdu ki, mən yolçuluğ elərəm, mənə köməhlig eləsüz eliyün, eləməsüz baba villiyün.

Dedi:

– Olmaz, gərəh səni aparağ üstə.

Ələlüstə bunu gətdilə, çıxdı üstə. Elə qapını açdı, içəri girəndə bu duru, e afəli qardaş, sənün kökün, nəyisən, nə qəyirisən!?

Dedi:

– Baba, yolçinan fərmandəhə ləşgərün nə qardaşlığı?

Dedi:

- Əvün dağılsın, məni tanımısan?

Dedi:

– Xeyir!

Dedi:

– Mən həmən Mərdəm çörəyi ki, vərmədün yəyəm. Həmən adam mənəm. Eybi yoxdu, sənün işün tutmıyıb, mənim işim tutub, narahat olama, na xada yəək varımız.

Dedi:

– Mən istəmirəm, elə Allah vərsə, mənim özümə verər də, sənün pulun nəynirəm?

Dedi:

– Bədbaxt adama Allah həməşə vərməz. Sən Namərtsən sənə vərməz, mənə verib, xeyirə xeyir, şərəm sənnən, sərvəti sənnən yarı böləcəm.

Dedi:

– Ağa, istəmirəm, sən fəqət onu mənə denən, hardan barındun, mən də gedim ordan barınım, puldar olum.

Dedi:

– Əvün dağılsın, sən həmşə puldar olammasan.

Dedi:

– Ollam.

Na ğada dedi, pul vərdi namərt qabul eləmədi. Dedi, gərəh gedəm o yərdə mən də gələm, puldar olam. Dedi, xub, indi pul

istəmisən? Dedi, xeyir ağa! Həş birin istəmirəm. Dedi, eybi yoxdu, istəmisən, çox gəşəng!

Dedi:

– Mənnən o yerdə ki, sən çörək vərmədün, ayrıldıx o yeri tanısan?

Dedi:

– Bəle!

– Mən ki, ordan döndüm sən rahə yol, mən birahə yol gətdim, tanısan?

Dedi:

– Bəle!

Dedi:

– Gedərsən, ordan gedərsən cəngəli biyabanın içində bi dənə xaraba dam var, mən orda barınmışam. Gedərsən orda bi buxarı yəri var, orda gizlənərsən, orda bi əlamət görərsən, sən də sirvətmənd olarsan.

Dedi, xub, bunu də mənə də, mən sənün sirvətün nəynirəm. Dedi, ay bəd baxt, get, sən Namərtsən, sənün işün düz gəlməz. Getdi, həmən yerdən döndü, gətdi, gördü həmən bi dənə biyabanda, cəngəlün içində bi dənə xaraba dam, baxdı gördü, bi dənə buxarı yeri var. Dedi, buna bax a, filan-filan şüdə gəlib burda… bunnan-onnan kəməm bə. Mən də qallam burda puldar ollam da. Bu da çıxdı qaldı buxarı yərinə. Qaldı, oldu gecə, gördü, aha, üş dənə həyvanat gəldi, bir aslan, bir qurt, bir, tülki. Gəldilə, bəle, otdular. Namərd də burda gizlənip. Aslan dedi:

– Xub, yoldaşlar, bəs mənim dişim ağrır, bir söbət əliyəsüz mənim şayəd dişim toxtuya.

Tülkü dedi:

- Qibleyi– aləm sağ olsun! Bizdə nə icazə var danışaq.

Dedi, yox, ələ, danışun, nobəynan.

Tülki dedi, xub, icazə vərsüz, mən danışım. Qıbleyi– aləm sağ olsun, danışmalı döy ki… Dedi:

– Necə!?

Dedi:

– Baba, yər qulaxlıdı, o tarixdə ki, biz danışmışdıx, sübh mən durdum gördüm bi dənə adam-zad o yannan gəldi, oturub orda. Demirəm siçanı özüm də yədim, sözüm onda yox, amma siçan ki, düzdü pulları ora, gün dəydi, bərqəbərq vırdı, o yannan bi dənə adamzat çıxdı. Siçan gətdi, girdi həmən dəliginə, yuvasına, pulları götdü apardı. Demirəm siçanı mən yədim.

Qurt dedi:

– Qibleyi-aləm sağ olsun, bu dəyən haqdı, yər qulaxlıdı, mən də gətdim, həmən o alacığa ki gətdim, bi dənə yərdən gəçirdim gədəm alacığa, gördüm dərədə o qoçu da kəsib başın atıflar ora, o itün də başın atıflar ora. Demirəm oları da yədim, amma məəm nəzərimdi o kəllələri aparam o qızı alam. O aparıb qızı yaxşı əliyib, indi olub fərmandəhe ləşgər, danışmalı dör. Aslan dedi:

– Düz dəyəsüz, o tarix ki, biz danışdıq, mən bi zaman yatmışdım həmən ağacun köylündə, bi zaman oyandım gördüm, dədəm vay, ətdən duvar çəkilib. Dedim, xudaya, xudabənda, xub, mən bunun birin öldürrəm, bəşin öldürrəm, hamısın ki, öldürəmmərəm. Gördüm, bi dənə fərmandəhe ləşgər bularun qabağında dəstur vərir. Bular dörhədör duvar çəkilib. Dedim, xub, mən bunun nəçəsin öldürüm, ələc oldu ki, böyüg adamın ətəgi gən olar, mən ələ gədim, ələ yıxılım, pənah gətirim. O fərmandəhe ləşgər şayəd məni azad eliyə. Elə o cür də elədim. Gətdim yıxıldım onun əl-ayağına, o məni azad elədi. O adam indi oranı saxtuman, nəçə tabağa əliyib, o pulu da salıb saxtumanın vəsətinə.

Tülki dedi, qibleyi-aləm sağ olsun, burda adam-zad var. Sən icazə verəsən, biz buranı gəzək, görək burda kim var, bizim sirrimizi apardı. Ağa, bu yannan, o yannan, tülki də çoxbilmiş olar axı, atdan baxdı gördü, aha, bi nəfər oturub. Dedi, qibleyi-aləm sağ olsun, tafdım oğrumuzu, ba, ba, bu adam bizim sirrimizi bəyan əliyib. Ağa, tutdula bunu çəkdilə, cırdıla, öldürdülə. Namərd orda aradan getdi. Mərd getdi sərvətmənd oldu.

## SƏLİM CƏFAYXURUŞ
## (ƏRDƏBİL)

Qədimdə bi padşah var idi. O padşahın başi o qədir dəhşətdi ağrıdı, çarəsi olmadı. Vəzirə dedi ki, mənim bu başım toxtamır, neyniyək? Vəzir deyir ki, zindanda bir Səlim Cəfayxuruş var, o başının sərgüzəştəsin desə, sənün başun toxtuyar, zindandadı. Getdilər, mını zindannan çıxatdılar. Gördülər day aradan gedib. Bi cavan oğlandı, zindanda çox qalıb.

Şah dedi:

– Səlimi-Cəfaxuruş! Başıın sərgüzştəsin deyəcəksən. Deyillər, sən söbət eliyəndə mənim başımın ağrısı çəkilər, toxtuyar.

Dedi, baş üstə. Dedi, şah sağ olsun, mən bu şəhrin filan tərəfində əmim qızı namzədim idi, gəlin gətiməmişdim. Bi əmiqızı qalmışdı, bi xanəvadəm bi əmi oğlu. Yeddi qardaş var imiş bu şəhərdə, demə munun biri mənim o əmim qızına aşıq -məşuqmuş. Gecə yatmışdım, gördüm məni tutdular, gözümü bağladılar. Biri bu tərəfdən yapışdı, biri o tərəfdən. Dedilər, köpoğlu, dinsən qəməni soxdux qarnuva. Məni o qədir gecə -günüz gözü bağlı apardılar. Bi dənə cəngəlin içində, məni bu cəngəldə biri o tərəfdən səs eley, biri bu tərəfdən. Bir də gözümü aşdım, gördüm bulardan səs yoxdu, çəkdim gözümü aşdım. Gördüm, xudaya, bi göydə Allah görür ki, bu yerdə heç nəmənə yoxdu. Bu yana baxdı, o yana baxdı gördü, cəngəldi. Dedi, burda məni vəyşi heyvan zat yeyər. Qaşdı, göl var idi, gölün yanında ağacın içi tökülmüşdü, girdi ağacın içinə. Ağacın içinə girmişdi, gördü üç dənə quş gəldi, hər biri bir qoyun yekəligdə gəldilər düşdülər. Düşdü, gördü, ədə, pencək kimi əbadı çıxatdı, gördü üç dənə qızdı. Üç dənə qızdı bular. Bular göldə çiməndə yavaş-yavaş enib, şah sağ olsun, deyir mının birinin o geymişdiki əyninə, qantı var idi, onu oğurradım, apardım ağacın başına, ağacın içinə. Mını ikisi durdu, geyindi, bu tapmadı, o yana qaşdı, bu yana qaşdı, o yana qaşdı yoxdu. Bular çıxdı getdi. Deyir, dedi, səni and verirəm o yerinən göyü yaradana, o bir olan Allaha, ay mənim cilidimi aparan, mən burda qaldım, məni vəhşı heyvan yeyər, bəni-adəm olsan gəti. Ağaşdan endim, əlimdə gətdim. Dedi:

– Bəs, bəni-adəm! Bə sən mənim bu zadımı niyə oğurladın? Bə sən adam dəəysən? Allahı tanımırsan?

Dedim, Allahı qəşək tanıyıram, mən də burda girdaba düşmüşəm. Diyir, paltarın geyincək tutdum qıçınnan ki, qaçar. Dedi, möhkəm yapış qıçımnan, möhtəbər yapış qıçımnan deyif, qalxdı. Məni qalxızdı qeynağında qaraquş kimi apardı. Göyünən bi yerdə gördüm bi dənə böyük şəhər var. Şəhrin qırağında məni saldı. Dedi, du qapıda, mən keçim. Demə, bu padşah qızıymış. Dədəsi dedi:

– Qız, hardeydın?

Dedi:

– Cilidim bəni-adəm əlinə düşmüşdü.

Dedi:

– Necə oldu?

Dedi:

– Gətimişəm, qapıdadı.

Dedi:

– Get onu bura gəti.

Dedi:

– And ola Allahın əzəmətinə, səni belə-belə doğruyub şişə taxardım, çunki qapıya gəlibsən, biz qapıda adam öldürmərik, bu qapıya gəlibsən. Qapının ehtiramı ayrıdı.

Getdi, molla gətdi, qızın ağıdın oxutdurdu, verdi bu qızı buna. Bunun iki uşağı olmuşdu, bunun zadı yadına düşdü, öz vətənnəri. Şah sağ olsun, deyər, oturdum, hay-hayınan ağladım. O qədər ağladım, padşah məni çağırtdırdı.

– Bala, niyə ağleyersan?

Deyir, dedim, vətən yadıma düşüb, evimiz yadıma düşüb. Bir yekə qara qaraquş çağırdı. Yanı, bu adam qaraquş cilidində, cilit onunkudu. Dedi, munu apararsan öz şəhərrərinin qırağına qoyub gələrsən. Mənə kağaz verdi, bir aydan sonra yolluyacam gələrsən. Bir ay icazə verdi mənə. Bir ay mənə icazə verdi. Göyünən məni gətirir, alıb iki qanatının arasına, deyər, Səlim Cəfayxuruş, gülmə ha, gülsən oda düşərsən. Şəhərə lap yaxınlaşdı, gördü uşağın biri qaşdı-tutdu oynur, biri küştü tutub, biri güləşir, oynayan kim, oxuyan kim. Bunun dediyi yaddan

çıxdı, qah-qah çaldı güldü. Həmin saat deyir, qaxdı göyə. Oq qədə qalxdı, qalxdı, qalxdı, qalxdı, bir moqəy baxdım yer kəmqəlbir kimi görükür. Bir vəqti baxdım gördüm tamam dəryadı. Tamam göz işlətsən dəryadı. Bu cür fırlandı, nə qədər möhkəm yapışdım əlim munun qanatdarınnan qopdu, göydən rədd oldum. Bullana-bullana gəldim dəryanın arasında quma düşdüm. Buracan (belinə qədər) batdım xam quma. Allah lütf elədi hes zad olmadı mənə, salim qaldım. O yana gedirdim, bu yana gedirdim gördüm bir meymin. Meymin məni görəndə qaşdı. O zaman çəkmədi, gördüm o qədər meymin gəldi, qarışqanın sayı var, meyminin sayı yoxdu. Məni apardılar, bi qırmızı yekə meymin gətdilər, qoydular mənim böyrümdə. Bular oynadı düşdü, gördüm bular mənə meyminnən xanım alır. Deyir, ilahi, mən nə günə qaldım, meyminnən mənə xanım aldılar. Bunın məqqarəsi var, qaldım bu meyminin yanında. Bir zaman meyminnən gəldi mənim bi oğlum oldu.

Padşah qah-qah çaldı, güldü, dedi:

– Yaxşı iş eləyibsən, meyminnən oğlun olub.

Padşah baxdı mənə, güldü. Şah sağ olsun, deyir, meyminnən zindigi eləməkdən ölmək yaxşıdı. Getdim o Arazın qırağı kimi, o burqunun, civirin uzunluğuna, bişdim (pıçağım var idi) bi belə dəriz gətdim, başladım bi səbəd toxumağa. Böyük səbədi elə yarısınacan toxumuşdum, gördüm xanımım meymin uşağı götürüb gəldi. Gəldi, məni apardı. Sabah getdim, munun g….. toxudum, iki dənə də üsdən halqa atdım civirdən, qoydum dəryanın qırağına. Qışlarımı qoydum, "Allah, Məhəmməd, ya Əli, sənnən mədəd" səbədi itələdim, səbəd getdi dəryayə. Səbəd də batmaz, kəşti kimi olar. Onda meymin məni gördü. Hay düşdü, meymin necə töküldü, necə töküldü gəldilər dəryanın qırağına çatanda atıldı, batdı, qayıtdı, o atıldı batdı, qayıtdı. Gətdilər o uşağı ortadan cırdılar. Yarısın, o mənə oxşarın dəryaya dalımcan atdılar, öz tərəflərin götdülər, getdilər. Allah saxlıyana ölüm yoxdu. Hay elə maşalla, yeddi gün ac və susuz dəryanın üzündə səbəd getdi. Bir vaxdı, gecə gördüm səbəd civirə dayanıb, nəm yılqındı, söyütdu, əlimi atdım, çıxdım. Otdum, ışıqlandı. İşıqlananda bura da adadı,

qabaq dəryadı, ağladım, ilahi məbudə, gənə qabağım dəryadı? Dolanırdım, qarqı bitib, şam söyüdü bitib adada, gördüm bi kömə var. Qarqıdan bi dənə kömə tikiblər. Dedim, dədə vay, burda vəhşi heyvan-zad olacaq, bu nəmənəsə məni öldürəcək. Otdum, gizləndim. Dedim, görüm burdan nə çıxır. Gördüm burdan uca bi zənən çıxdı, paltarının təbi qolları qalıb, buraları (önü) qalıb, tökülüb, tuman bağı burdan (beldən) qalıb, lütdü zənən, paltar tökülüb. Munu görəndə durdum ayağa. Ayağa duranda qaşdı, oğlan, Allah səni hayannan yetirdi, hardan gəldin, göydən düşdün, yerdən çıxdın? Duz kimi məni yaladı, dolandı başıma. Bə, xanım, sən burda nəçikarəsən, sənə noolub? Dedi, oğlan, mənim dərdim çoxdu, mən padşahın qızıyam. El bayramı idi, oynamağa çıxmışdım, özüm də kəşti sürürdüm, kəşti dəryayə qarq oldu, taxtanın üstündə mən çıxdım bu tərəfə. Dədəm, nənəm bilmir mən bu adada qalmışam. Yeddi ildi burdayam. Ağaç qurusunnan, otdan-ələfdən yeyib qalmışam. Bilən də yoxdu, olar batdı dəryayə, naqqalar utdu, qutardı. Bunnan bi həftə qaldıx. Dedi, nəqqədə ömürüm var sənə xanım olacam, məni gör bu dəryadan çıxarda bilərsən? Dedi, mən iki səbəd toxyuacam, ya naqqa balıq utacax bizi, ya dəryayə qarq olub öləcəyik, ya çıxacayıx. Gətdim iki səbəd toxudum, səbədi bir-birinə burquladım möhkəm üş-dört yerdən möhkəm səbəd toxudum, ağzına iki yerdən halqa atdım, gətdim, qoydum dəryanın qırağına. Dedim, xanım, qıçıvu qoy dəryayə geç səbədə. Birdən qıçın səbədə qoyanda dedi, mənim yeddi ilin badi-xərəcinnən dədəm qızıl gərdənbəd düzəltmişdi o kömədə qalıb. Dedim, baba, qızıl nə kardadı, bəri gəl. Dedi, yox ey, heyifdi qızıl. Baba! Bəri gə. Elə səbədi orda saxlamışdım, dəryanın dalğası gəldi, on metir getdi kənara, qayıdanda çəkdi apardı məni dəryanın vəsətinə. Qız qaldı çığıra-çığıra. Nə qədə gözüm işləydi, elə qız çığırırdı, qız çığırırdı.

Padşah ağladı, dedi, onun bər-həqqində zülm olub. Dedi, qısməti o cürmuş da, puldan ötürü. Altı gün dəryanın üzündə gecə-gündüz səbəd getdi. Altı günnən sonra gecə gördüm dayanıb qırağa. Qırağa dayananda baxdım, gördüm, dağlar görükür, day çıxmışam, Allah çox şükür, xudaya çox şükür, Allah çox şükür,

çıxdım. Çıxdım, deyir, az qaşdım, çox qaşdım, gördüm ədə, Təhran kimin şəhər var. Amma şəhərdə cannı -cinni heş nəmənə yoxdu. Xudaya, bə munun adamı necə olub? Şəhri dolandım, dolandım, dolandım, gördüm, hes zad yoxdu. Tükan dolu, hər nəmənə dolu, elə bil, bu bazar kimi hər zad mücəhəz, ancaq bəşər yoxdu. Deyir dedim, hətmi burda bi iş var. Gecə bi iki təbəqə bir dam var idi (dəryanın qırağıdı ancağ) çıxdım bu tutabnağan üsdə yatdım, axşamnan bir az keçəndə dərya şaqqılladı, gördüm heyvanat çıxdı dört gamış boyda dəryadan. Şəhri dolandı, dolandı, tək-tək tula var, pişik var, it var, oqqədə fırrandı, gəldi bu damın böyründə təpədə nırıldadı, nırıldadı, nırıldadı, gürha döydü, döydü, atıldı dəryayə, işıqlananda getdi. Deyir, dedim, vay, bu şəhəri bu yeyib, qalanı da qaçıb. Yenə də sən Səlim Cəfaxuruş olasan, muna çarə eləmiyəsən. Getdim, gəzdim gördüm bir ümdə tükan tey barıttı. Barıtdan bi yüngül təlis götdüm gəldim, qoydum damın qabağına. Qayıtdım getdim gördüm pambığı mahlıç eləyiblər, dənəsin çıxarıblar, ənbizi var. Pambıxdan gətdim, munan belə dolaqacınan doladım, dört sicim boyu doladım bu yoğunnuğa, (barmaq qalınlığında) düyünnədim uc-uca, götdüm tükanın qabağınnan gəldim. Bir qəbir kimi çapal qazdım, barıdı qoydum o çapala, pambığın ucun qoydum pambığın vəsətinə, üstünə ağaşdan döşədim, külü verdim, küləşi verdim, külü verdim üstünə, ələfi verdim, üstün bastırdım, nərivannan çıxatdım apardım qoydum damın üstünə. Gün batanda çıxdım damın üstündə (yaz günüydü, isti günüydü) uzanmışdım gördüm həniz heyvanat dərya şaqqıldadı çıxdı. Oqqədir dolandı, bilmir mən burdayam tama bi çiyin versə, dam-zad dayanan dəyil, belə bi heyvanatdı, dəryadan çıxıb. Dolandı, dolandı səhərə yaxun gəldi, o külün üstə yatdı, nırha verdi. Kirbidi yavaşcalı dalbadal çəkdim vurdum pambuğa, atdım yerə. İşığa qaşdı, işıq getdikcən bu getdi, işıq getdikcən bu getdi, işıq ki, elə ki getdi külün altına, yatdı üstünə, ağnadı. Ağnıyanda xudaya, ot ki yetirdi baruda nenedi elə bil dağ uşdu, munun hər tikəsin göydə bi tərəfə apardı, para-para elədi munu. Mən dedim ki, olduğum dam da uçacax, elə qudrətinən patdadı barut. Səhər durdum gördüm day hes zad yoxdu, bi şəmşir götdüm, bi çətir "Allah, Məhəmməd, ya Əli,

sənnən mədəd” üz qoydum, yol aldım elimə. Ancan bilirəm ha tərəfdən qılbədən, ya şimaldan, gəldiyim vətəni bilirəm hayandadı. O qədir yol gəldim, gəldim gördüm gün batdı (tey çinar, meşə ağacı dəryanın qırağında. Bu Astaradan, Məşəddən gələn yol kimi tey yol dərya qırağı gəlir), çıxdım gördüm çalağan yuvası var çinarda. Dedim, məni qurt -quş yeyər, çıxdım o yuvada otdum.

Şah sağ olsun, o yuvada otdum, axşamnan ayın qarannığıdı biyəz keçmişdi gördüm dərya şaqqıldadı bir heyvanat… Dedim, vay dədə, öldürdüyüm nə isə gəlir, məni ağaşdan öldürə yeyə, yəqin o öldürdüyümün yoldaşıdı. Gəldi, mənim o ağaşda ki yuva var idi, orda endi. Elə bil, belə (lamba işığı) işıq saldı, meşə oldu günüz, elə bil gün çıxdı. Ot burdandı (dizdən) yedi, yedi, doydu. Səhərağzı gəldi, otdu, atıldı dəryayə, çıxdı getdi. Deyir, dedim, ədə, sən Səlim Cəfayxuruş olasan muna bi çarə eləmiyəsın. Getdim dəryanın qırağında torpağ apardım sarı torpaxdan yeddi belə papax qayırdım, gətdim yığdım ağacın dibinə. Bir-bir qoydum başıma çıxdım ağaca, bir -bir qoydum başıma çıxdım ağaca orda yeddisin də topaladım elədim belə. Ay Allah, bu gecə də o gəleydi! Axşamnan biyəz geçmişdi dərya şaqqılladı, şaqqılayanda gördüm həniz heyvanat çıxdı, gəldi həniz işığı saldı həniz yerində. Başladı otdu, otdu, getdi uzağa, endim açağa şaxadan elə zığı belə apardım qəfildən atdım işığın üstünə, zığ süpürdü basdı, işıq qaldı altında. O heyvanat bi fişarınan gəldi, gəldi çınarın yeddisin vurdu (nə qudrətdə heyvanat idisə) sındı ağaş, dayandı bir-birinə, “vay” elədi aşdı. Səhər gördüm bu heyvanat dört gamış boydadı, şişib hadavadan çıxıb. Düşdüm çəkişinən vurdum qıçın sındırdım, qolun sındırdım, başın əzdim işığı çığartdım. Bu işığı çığardanda munun bədəni tərpəndi, demə, dərya nuru, dərya nuru buyumuş. Gətdim onu büktüm paltara-zada, qoydum həybəmə, “Allah, Məhəmməd, ya Əli!” yolu aldım əlimə. Azacıx gəlmişdim, gördüm ağacın dibində bi kişi oturub. Dedim, ay əmi, əviiz hardadı? Dedi, bala, bala, bala! Qadaan alım, məni dala götür, bu tirin dalı bizim əvimizdi, elə bu tirin dalı bizim əvimizdi. Mən deyir, götdüm munu dalıma, yeriyə bilmirəm, irizin kimi yapışdı mənə. Dedim, əmi,

bə niyə belə eliyisən? Dedi ki, sənnən məninki getdi qıyamətə. Dedi, bizə qayışpaça deyəllər, hər kəsin dalına minsək, nə yesə, işsə elə bizi, o dalında nə qədər ömrü var… çölə də getsə bahəm gedərik. Nə qada yalvardım, dedi,” getdi qıyamətə”. Ay Əbəlfəz, mən gəldim nə yavazı dəyişdim, otdum ağladım, Allaha yad-bud elədim, on iki imamı, yüz iyirmi dört min peyğəmbəri çağırdım. Bu gəldi mənim kürəyimə yapışdı, mən nə cür eliyəcəyəm. O yerə gəldim çıxdım, gördüm burdan elat gedirmiş, oba gedirmiş, köşk tikilmişmiş, alaçıq tikirmişlər. Gördüm boranı dənəsi düşüb bu boyda bi boranı, ağ boranı munu götdüm başın kəsdim, için qazıdım susuyanda muna munnan su verirəm, ağacın qurusunnan yığıram (teymiş ağacının), bu da yeer, mən də yeerəm. Bi yerdə getdim gördüm yük daşının dibinə bu belə ağı düşüb. Allah, çox şükür qərib currandı. Ağını qoydum cibimə, bu da kürəyimdə yuxluyub. Munu oqqədə dolandırdım dağda yedi, işdi susadux, dedi, gedək su içək. Suya gələndə yavaccalı o ağını saldım o boranıın içinə, əzdim barmağımnan, suyunan yarısınacan doldurdum, öz ağzıma gətirəndə məni vurdu – ver mən içim. Ağını verdim muna işdi, o zaman başın saldı dişliyəndə tutdum, əllərin tutdum, atıldı düşdü, düşdü yerə. Əzdim qolun qıçın, öldürdüm, avıq-avıq elədim. Bir həftə yol gəldim, gecə gəldim qapımıza. Dedim:

– Əmi qızı, qapını aç, mən Səlim Cəfayxuruşam.

Dedi, oqqədə Səlim Cəfayxuruş gəlib məni alladıb axırı sənsən, axırı sənsən, heş vədə mən qapını açmaram, get kirpit al, gəti qapıda çək görüm, ya çırağ al, görüm Səlim Cəfayxuruşsan qapını açım. Demə, şəhərdə adam öldürmüşümüşlər. Şəhər hökməti 94 nizam imiş, gəşti var imiş, şəhəri dolanırmışlar, getdi, çırağ alanda tutdular. Adam öldürən, qatil, şəhri yaranın biri budu. Məni onnan gətirib zindana salıblar, şah sağ olsun, şah gətdi ona cayzə verdi. Şahın da başının ağrısı toxdadı, o, dərya nurun da verdi şaha. Sağ olub, şad yaşıyasız. Allah sizi sağ eləsin, bəhəqq-i Hüseyn, işizi irast gətisin.

# PADŞAH VƏ ÜÇ OĞLU

Biri var idi, biri yox idi. Allahdan savayı heç kim yox idi. Bir padşah var idi ki, çox qocalmışdı. Bu padşahın üç oğlu var idi. Təsmim tutdu ki, özünə və taxt-tacına sahab eləsin. Hər nə qədər fikirləşdi, nəticəyə çatmadı. Çünki gördü ki, hər hansını seçsə, o birisi narahat olacaq və bunların arasında düşmənlik olacaq. Ona görə, təsmim tutdu ki, bunları imtahan eləsin. Hər hansı layiq oldusa onu inticab eləsin. Ona görə də oğlanlarını cəm elədi. Bir-bir dedi ki, mən istərəm sizin birinizi özümə canşın edəm. Amma bir şərtim vardı, o da budur ki, sizi bir ayrı ölkəyə yollayam. Hərənizə də bir iş tapşıram. Hər hansınız yaxçı yerinə yetirsəz, o mənim yerimdə oturmalı olacaqdır. Padşahın oğlanları qəbul elədilər. Müəyyən bir vaxtda hazırlaşdılar və ayrı ölkəyə yola düşdülər. Az gedirlər, çox gedirlər, bir neçə aydan sonra yol gedirdilər, gördülər bir qəribə kişi özünü tələm-tələsik yetirdi və bunlardan soruşdu ki, siz mənim dəvəmi gördünüz, ya yox? Padşahın iki oğlu dedi bir neçə müddətdir ki, biz bu mahalda yol gəlirik, dəvə görmədik. Amma padşahın o biri oğlu kişiyə deyir ki, niyə, gördüm. Sonra padşahın oğlu gənə kişidən soruşdu ki, aya sənin dəvənin ağzındakı sağ dişi düşübdü, ya yox? Kişi deyir:

– Bəli.

Sonra gənə padşahın oğlu soruşur ki, aya sənin dəvənin yükü bir tayı bal idi, ya yox? Bu kişi deyir, bəli. Gənə padşahın oğlu soruşur ki, aya sənin dəvəni minən bir arvaddı, ya yox? Bu kişi deyir, bəli. Gənə padşahın oğlu soruşur ki, aya sənin dəvəvin o biri tayı yükü əmcək yağıdı, ya yox? Bu kişi deyir:

– Bəli. Tamam nişanələr düzdü. Bəs mənim dəvəm hanı?

Sonra padşahın oğlu deyir, ay qoca əmi, sənin dəvən bizdən qabax burdan sovulub, gedib. Bu qoca kişi haray, dad-bidad eylər ki, siz mənim dəvəmi oğurlamısınız. Bəs, mənim dəvəmi verin. Amma padşahın o biri oğlanları bu kişiyə deyirlər:

– Əmican, bunun sözünə baxma, bu sənə yalan deyir. Çünki o da bizimlə birgə yol gəlir. Bəs biz niyə görmədik?

Amma o halda padşahın oğlu deyir:

– Əmican, sənin dəvən bizdən qabaq burdan keçib, gedib. Sən tez qaç dəvənin dalısıncan ki, onu tapa biləsən.

Amma o halda o kişi narahat dəvəsinin dalıyca yola, düşüb gedir və amma bu üç qardaş da yollarına da ədamə verdilər. Padşahın o iki oğlu qardaşıyla davalaşdılar ki, sən o qoca kişiyə niyə yalan dedin. Az qala o bizə oğruluq ləkəsi də vurmuşdu. Amma o halda padşahın oğlu deyir ki, mən dəvəni gördüm. Qardaşları deyir ki, sən divanə olmusan! Əsla bəlli deyil ki, sən nə deyirsən. Yenə yollarına davam edirlər. Yetişdilər padşahın sarayına və bir vilayətdə sarayın nəgahbanlarından istədilər ki, biz bu gecə burada qonaq olacağıq. Ölkənin padşahı izn verəcək, ya yox. Nəgahəbanların biri xəbər aparır padşaha və deyir qibleyi - aləm sağ olsun, ayrı vilayətdən üç nəfər gəlib və istəyirlər ki, bu gecə sənin sarayında qonaq olsunlar. Padşah əmr elədi ki, onları mənim hüzuruma gətirin. Nəgahbanlar onların üçünü də padşahın hüzuruna apardılar. Onlar padşahın məhzərində ərz elədilər. Padşah bunlardan soruşdu ki, siz niyə istərsiz bu sarayda qalasız? Bunlar dedilər ki, qibleyi-aləm sağ olsun, biz ayrı məmləkətdən gəlmişik və burada da əmin yer sənin sarayını bildik. Biz burada qəribik və yerimiz də yoxdu və biz də filan padşahın oğullarıyıq. Padşah əmr elədi ki, bunlar üçün sarayda bu gecə qonaqlıq olsun və əmr elədi ki, çoban sürüdən bir yaxçı kök qoyun gətirsin və bunlara kabab, şərab ilə qonaqlıq versinlər. Padşahın əmrini yerinə yetirdilər və bunlar şamdan sonra gedirlər yatsınlar. Padşahın bu kiçik oğlu qardaşlarına dedi ki, istərəm sizə bir söz deyim. Qardaşları dedi ki, de görək nə olub? Deyir ki, o kababı ki, yedik o qoyun it südü əmib və şərabdan ki, işdik onu da qəbiriastandan gətiriblər. Padşahın oğlanları qardaşlarının üstünə əsəbləşdilər ki, biz bilmərik sənin başına nə oyun gəlib, sən istəyirsən bizi ölümə verəsən! Padşah bu sözü eşidsə hatma bizi öldürər. Padşahın oğlu deyir ki, siz narahat olmayın, mən sizə dedim padşaha demərəm. Gənə qardaşları bununla davalaşdılar. Gecəni yatdılar. Sabah ki, işıqlandı, oyandılar gördülər ki, o kişi ki dəvəsin itirmişdi sarayın qabağında durub dad-bidad edir ki, bu kişilər mənim dəvəmi oğruyublar. O zaman padşah gəldi bu

qonaqlardan soruşdu ki, aya bu kişinin dəvəsini siz oğurlamısınız? Aya, bu düz deyir? Padşahın oğlanları dedilər:

– Qibleyi-aləm sağ olsun, biz onun dəvəsini oğramamışıq. Bu dəvəsinin dalınca gəzirdi bizdən soruşdu. Bizim qardaşımız nişanələrin düz dedi. Indi bu kişi deyir, bəs biz bunun dəvəsini oğurlamışıq.

O zaman padşah deyir ki, sizin qardaşınız dəvəni görməyibsə, nə cür nişanələri düz dedi? Qardaşları dedi:

– Vallah-billah, biz də bilmirik. Bizim qardaşımız bir sözlər danışır ki, əsla ağıla gəlmədi.

Padşah deyir:

– O oğlanı mənim yanıma gətirin.

Bu, oğlandan soruşdu ki, aya, sən bu kişinin dəvəsini gördün, ya yox?

Deyir:

– Qurban, mən görmədim.

Deyir bəs nə cür görməmisən ki, dəvənin nişanələrini necə düz deyirsən?

Deyir:

– İzn verin danışım.

Padşah deyir:

– Qulaq asıram, danış!

Padşahın oğlu deyir:

– Qibleyi-aləm sağ olsun, mən və qardaşlarım ata minib, yol ilə gəlirdik. Mən gördüm ki, bir dəvə buradan keçib. Çünki onun qığları mənə bəlləndirdi ki, bu dəvədi və sonra bir az diqqət elədim gördüm ki, yolun sol tərəfinin otunu otlamayıb, sağ tərəfini yeyib. Bildim ki, dəvənin sol gözü kordur. Sonra başa düşdüm ki, dəvə rədif ilə otlayanda bir rədif ot aradan qalıb, bildim ki, dəvənin ara dişi düşüb ki, otları qırpmayıp və sonra gördüm ki, yol qırağına bir tərəfdən milçək yığışıb və o biri tərəfə qarışqa yığışıb. Bu əlamətlərdən bildim ki, dəvənin yükünün bir tayı baldı və bir tayı əmcək yağıdı. Bir də bundan bildim ki, dəvəni minən bir qadındı. Buna görə ki, dəvə yolun bir tərəfində yatıp yerə və dəvəni minən rahat dəvədən piyada

olub, çünki əgər kişi xeylağı olsaydı, hopulub düşərdi və qoca bir adam da dəvənin üstündə otura bilməzdi. Buradan bildim ki, o qadın boylu imiş. Mən bu nişanələrinin dedim ki, sənin dəvəni gördüm. Indi, bu kişi deyir ki, siz mənim dəvəmi oğurlamısız!

Amma o kişi hey deyirdi ki, o yalan deyir, o mənim dəvəmi oğurlayıb. Sonra padşahın oğlu deyir:

– Qurban! Qibleyi-aləm sağ olsun, mən gecə sənin qonaqlığından da bir şeyləri bildim və amma səndən qorxuram. Fikir edirəm ki, sən inanmayasan bu kişi kimi və məni öldürsən.

Padşah deyir:

– Sən denən, əgər düz olsa mənim səninlə işim yoxdur və amma mən bunu düşündüm ki, siz bu kişinin dəvəsin oğurlamamısız.

Burada padşahın oğlu deyir ki, qurban, o kababı ki, biz gecə yedik, o qoyun it südü əmmişdi. Ikinci bu ki, sən padşah oğlu deyil, bir aşbaz oğlusan. Üçüncü bu ki, o şərabı ki biz işdik onu qəbirsatanlıqdan gətirmişdilər.

Padşah bir az fikirləşdi və dedi ki, sözün qurtardı, ya yox? Padşahın oğlu deyir, bəli, qurban. Padşah deyir:

– Sənin sözün düz olsa, səni özümə yeznə tutacağam. Bir tək qızımı sənə verəcəm və sonradan sən mənim tac-taxtımın sahibi olacaqsan.

Bunu deyir, əmr eliyir ki, çobanı gətirin. Çobanı məmurlar gətirdilər. Padşah çobandan soruşdu ki, çoban, dünən gecəki qoyunun başını kəsdin, nə cür idi? Çoban deyir:

– Qibleyi-aləm sağ olsun, qoyundur da. Sən əmr eylədin, mən də sürünün yaxçı qoyunun gətirdim.

Çoban çox qorxmuşdu. Padşah soruşur ki, aya, o qoyun it südü əmmişdi, ya yox?! Çoban qorxusundan danışa bilmirdi. Dili tutulmuşdu. Padşah deyir:

– Əgər yalan desən, sənin boynuvu verəcəyəm cəlladlar vursun. Əgər düzünü desən, səninlə işim yoxdur.

Çoban deyir:

– Qurban, o mövqe ki, bu qoyun anasından olmuşdu, mənim işim çox idi. O vəxdi qara qancıq da balalamışdı. Bir vaxt gördüm ki, quzu girip qancığın altındadır. Onun südün bir az əmib.

Padşah əmr elədi ki, sən get. Çoban getdi, amma padşah qəzəblənmişdi. Əmr elədi ki, anasın gətirdilər. Anasından soruşdu ki, ana, mən kimin oğluyam? Anası deyir:

– Padşah sağ olsun, sən padşahın oğlusan.

Padşah deyir:

– Anacan, əgər düzün desən, səninlə işim yoxdu. Əgər yalan desən əmr edəcəm ki, sənin boynuvu vursunlar. De görüm, mən kimin oğluyam? And içirəm. Padşahın anası deyir:

– Mənim oğlum, mən sənin atandan boylu olmurdum və bu tərəfdən qorxurdum ki, tac –taxta da ayrısı sahib ola və mən də bədbəxt olam. Bu dəlilə sarayımızda bir aşbaz var idi. Sən onun oğlusan.

Sonra padşah deyir, sənin günahından keçdim, bunu aparın. Əgər yalan desəydin, səni tapşırcağdım cəllada. Bu zamanda nobət yetişir şərabçını gətirdilər. Şərabçıdan soruşur ki, gecəki şərabı hardan gətirdin? Deyir, qurban, şərab anbarından. Deyir:

– Düzünü deynən, əgər yalan olsa səni verəcəyəm cəllada.

Şərabçı deyir:

– Qurban bir dəfə duyux düşdüm ki, anbardan şərab qurtarıb, məcbur oldum qəbirsanlıqdakı basdırılan şərabdan gizlincə gətirdim ki, qonaqlardan şərməndə olmuyam və sənin də əmrini yerinə yetirəm.

Padşah deyir:

– Sən də get.

Sonra üzün tutur padşahın oğluna deyir:

– Bala! Sən bunları hardan bildin?

Padşahın oğlu deyir:

– Qibleyi-aləm sağ olsun, adam o vaxt ki kabab yeyir, ağzının suyu quruyur. Amma o vaxt ki, bu kababı mən yedim, ağzımın suyu çoxaldı və sənin də qiyafənnən bildim ki, sən aşbaz oğlusan, aşbaza oxşuyursan. O müqəddəki adam şərab içir, o adama bir xoşluq və şadlıq üz verir, sərməst olur. Amma bunu deyim ki, biz bu şərabı içəndən sonra qəmgin olduq və bizə ağlamaq üz verdi. Burdan bildim ki, bu şərabı qəbirstanlıqdan gətiriblər.

Padşah bu mövqeydə bilmirdi nə desin, bir azdan sonra deyir ki, sən bilikdə və bu təcrübədə, bu sinində məni heyrətdə qoydun, sənin kimi bir adama bizim məmləkətdə niyaz vardı. Sən layiq bir padşahsan. Mən yeganə tək qızımı sənə verirəm, səni özümə yeznə bilirəm. Əmr elədi ki, mərasim dəbləri səslənsin. Amma o zaman padşahın oğlu padşaha təzim və öz təşəkkürünü bildirdi ki, qurban, padşah sağ olsun, bizim atamız bizi yollamışdı ki, hər kəs məmur itini yaxşı yedirsə o taxt və taca varisdi. Sən icazə ver mən qardaşlarımla öz məmləkətimizə gedək və atamızdan icazə alaq və sonra gələk. O zaman padşah deyir:

– Sən muxtarsan, gedin. Hər vaxt təsmim tutdun qayıdın. Mən öz sözümün üstündə varam.

Padşahın oğlanları öz məmləkətlərinə qayıtdılar və tamam başlarına gələni atalarına söylədilər. Ataları çox xoşhal olur və deyir bəs bundan yaxçı olmaz. Mən özüm varis, tac və taxtam və çox da xoşhal oluram ki, oğlum da başqa bir ölkənin padşahı ola. Sonra padşahın xırda oğlu padşahdan və qardaşlarından ayrılır, gedir o məmləkətə ki, orda onun intizarında idilər. Yetişər o məmləkətdə padşahın yeganə tək qızı ilə evlənir və tac-taxtda sahib olur. Padşah da o dəvə sahibinə deyir ki, sən get dəvə dalınca, hətma taparsan. Bu dəvə oğrusu deyil.

## ЄAH ABBAS

Şah Abbas bir çobanın qızına aşiq olur, adam göndərir qıza elçilik eləsin. Qız soruşur:

– Əlinin sənəti nədir?

Deyirlər ki, o, şahdır, bütün məmləkət onundur, sənət onun nəyinə gərəkdir?!

Qız israrla deyir:

– Əlinin sənəti olmasa getmərəm.

(Amma doğurdan da cəsür qız imiş. Mən hələ də ki var, indinin indisi də o nağıldakı çoban qızının ağıl, fərasət və dərrakəsinə, həm də şucaətinə heyranam!)

Şah Abbas qızın ağıllılığını görüb onu lap çox sevdiyi üçün gedib fərş toxumaq öyrəşir, bir xalça toxuyub qıza göndərir. Qızı özünə gəlin eliyir.

Şah Abbas bədəl paltar geyinib vilayətləri gəzərmiş görsün rəyyətinin hal-ruzgarı necədir, xalqın nə təhər keçinəcəyindən xəbərdar olsun. Günlərin bir günündə, bir kəlləpəz (kəllə-paça pişirən) tükanında tutub onu, sərdabaya salıb orda dustaq eliyirlər. (Kəlləpəz adamları kəsib ətlərini satırmış guya.)

Şah Abbas deyir:

– Məni öldürmə, mənim əlimin elə sənəti var ki, sənə çoxlu pul qazandırar.

İp gətirirlər, dar qururlar. O, bir nəfis xalça toxuyur, dustaq olduğu yerin nəm-nışanını onun naxışlarına qatır. Kəlləpəzə deyir:

– Bunu apararsan, şahın arvadına verərsən. O, böyük bir pula bunu alar səndən.

Arvad xalçanı açıb baxcağın, şahın verdiyi nəm-nişana qoşun yollur. Beləliklə, şahın canı hətmi ölümdən qurtulur.

## ALЭYƏ ЭLƏ ƏMЭOPLUSU

Biri var idi, biri yox idi. Bir єəhərdə iki qardaє var idi. Bцyьk qardaюэn ьз oplu var idi. Kiзik qardaюэn da ьз qэzэ. Bцyьk qardaю həmiюə kiзik qardaюэ təhqir edib ona deyirdi:

– Mənim ьз oplum vardэ. Sabah qocalэq vaxtэ əlimin зəligi olacaq.

Bir dəfə kiзik qardaє təhqir olduqdan sonra evə gəldi. Kiюini bцyьk qэzэ Aliyə atasэn narahat gцrьb əylətin soruєdu. Atasэ cərəyanэ tərif edəndən sonra Aliyə atasэna dedi:

- Get əmiyə deginən oplanlarэnda birini mənlə səfərə gцndərsin. Gцrьnsьn ki, kim zirəkdir.

Aliyənin atasэ bu iюə mьxalif oldu. Amma Alyənin israrэn qardaюэna dedi, kiюinin qardaюэ da qəbul etdi. Bцyьk oplunu Aliyə ilə səfərə gцndərdi. Aliyə ilə əmioplusu yol bopзalarэn gцtьrьb ev əhli ilə xьdafizləюib yola dьюdьlər. Bir az yol

gedəndən sonra iki yolayrэmэna yetiюdilər. Aliyə əmioplusuna dedi:

– Əmioplu, burada bir-birimizdən ayrэlmalэyэq. Hər kəs bir юəhərə getsin. Hər kəs nə vaxt qayэtsa bu apacэn yarэpэnda gizlətdiyim ləзəgi gцtьrsьn. Onda yubanan o birisinin qayэtdэpэnэ bilər.

Ayrэlandan neзə gьn sonra Aliyə bir юəhərə yetiюib юəhərin meydanэnda iю tapmaq ьзьn dayandэ.

Bir varlэ kiюi nцkər axtarэrdэ. Meydanda gцzь Aliyəyə dьєdь. Aliyə səfərin əvvəlindən kiюi paltarэ geymiюdi. Tacirə də цzьn Əli kimin tanэtdэ. Varlэ kiюi Aliyəni цzьnə nцkər gцtьrdь. Aliyə neзə il ərbab evində Əli adэ ilə nцkər iюlədi. Ərbabэn oplu neзə il Aliyəni gцz altэnda saxlamэюdэ. Gedib anasэna dedi:

– Anacan, bizim bu Əli artэq qэza oxюayэr. Hərəkətləri, oturub durmasэ da qэzlara bənzəyir.

Ana dedi:

- Oplum, mən də sənin kimi fikirləюirəm. Istəyirsən arxayэn olaq, onu bazara gцtьr.

Oplan Aliyəni bazara aparэb Aliyədən istədi bir юey alsэn. Aliyə bazardan atasэ ьзьn bir bэзaq aldэ. Evə qayэdandan sonra oplan anasэna Aliyənin bir bэзaq aldэpэnэ dedi. Ana oplundan istədi sabah onu bəzzazlar bazarэna gцtьrsьn. Gцrsьn bəzzazlar bazarэndan nə alacaq. Bəzzazlar bazarэnda Alyə fəqət anasэ ьзьn bir зadra aldэ. Ərbabэn oplu yenə də Aliyənin oplan, ya qэz oldupunu bilmədi. Oplan anasэnэn sцzь ilə bir gьn də Aliyəni Qэzэlзэlar bazarэna apardэ. Oplanэn israrэna baxmayaraq qэz heз zad almadэ. Onun sabahэ ərbabэn oplu anasэnэn istəgi ilə Aliyəni hamama gцtьrdь. Hamamda oplan Aliyədən istədi paltarlarэn зэxarэb hamama daxil olsun. Aliyə dedi:

- Mən sizdən qabaq hamama daxil olmaram. Siz əvvəl paltarэzэ зэxarэb hamama girin. Mən sizin paltarэzэ yerinə qoyub iзəri gəlim.

Ərbabən oplu paltarən зэxarəb hamama girdi. Aliyə bir kapэz зэxarəb yazdэ: ” Yeddi il sizdə iє gцrdьm. Dьz gəldim, dьz getdim. Oplan gəldim, qэz getdim”.

Aliyə yazdэpэ kapэzэ, цz yaюadэpэ yerin niюanэnэ paltar soyunulan yerə qoyub, зэxэb vilayətlərinə sarэ yola dьюdь. Nезə gьndən sonra əmioplusundan ayrэldэpэ yerə yetiюdi. Aliyə ləзək yerində oldupundan bildi, hələ əmioplu qayэtmayэbdэr. Aliyə əmioplu gedən єəhərə yola dьєdь. Əmioplusun axtarэb onu bir юəhərdə yolзuluq etdigi halda tapdэ. Aliyə bir at, bir də paltar əmioplusuna aldэ. Bərabər kəndə yol sarэ dцndьlər. Az getdilər,ьz getdilər, gəlib yol ortasэnda bir quyuya зatdэlar. Əmioplu Aliyə dedi:

- Əmiqэzэ, en bir su izək, sora yola dьєək.

Atlarэndan yerə dьюьb əmioplu bir kəndir ilə əmiqэzэnэ su gətirmək ьзьn quyuya salladэ. Əmioplu yarэda kəndiri цtьrdь. Aliyə quyuya dьюdь. Aliyə цzьnь quyunun su olmayan gцzьnə зəkdi. Əmioplu Aliyənin pullarэ, aldэpэ sovqatlarэ gцtьrьb єəhərlərinə sarэ yola dьюdь. Əmioplu gəlib evə зatdэ. Pul ilə sovqatlarэ gцstərib Aliyədən də xəbərsizliklərin dedi. Amma bu tərəfdə bir karvan Aliyəni quyudan зэxardэ. Aliyə gəlib evlərinə зatdэ. Sovqatlarэn niюanэnэ verməklə əmioplusunun həyatэnэn ьstьnь aзdэ.

Həmin gьnlər Aliyənin ərbabэ oplu Aliyədən elзilik etmək ьзьn Aliyənin evinə gəldilər.

Beləliklə, Aliyə və ailəsi rahətləpa зatэb əmisinin minnəti və dil yarasэndan qurtuldular.

## NOXUDUN NAPILI

Biri var idi, biri yox idi. Bir uzaq kənddə ər-arvad iki bəndə var idi. Bu ər-arvadэn uюapэ olmurdu. Bir gьn arvad dərdin qapэya gələn falзэya dedi. Qarэ dedi:

– Gecə yatanda bir kasa noxudu suda isladэb baюэn ьstьnə qoy. Səhər yuxudan qalxan zaman sənin uюaqlarэn olar.

Arvad gecə yatan zaman falзэ deyən kimi bir kasa noxud isladəb baюэ ьstə qoydu. Sabah yuxudan qalxan zaman arvad gцrdь, noxudlar hamisi uюaq olub, evdə hər tərəfə səpələniblər. Arvad uюaqlarэn sayэnэ зox gцrъb onlarэn əlində qaldэ. Uюaq-larэn зэpan-mэpanэ da arvadэ zara gətirdi. Arvad keзdi təndiri yandэrэb hamэsэnэ təndirə saldэ. Amma uюaqlardan biri цzьnь təndirin kьlfəsinə atэb orda gizləndi. Arvad bu iюdən sora зoxlu peюman oldu. Цz-цzьnə dedi: "ora bax, uюaqlarэn birini də saxla-madэm". Heз olmasa dədəsinə nahar aparsэn. Цzьn kьflədə gizlədən uєaq ordan səsləndi:

- Nənə, mən цzьmь burada gizlətmiєəm, nə iєin var, mənə deginən.

Arvad зoxlu sevindi. Uюapэ kьflədən зэxarэb adэnэ Noxud qoydu. Sora bir kasa aє verib dedi:

– Bunu зцldə dədənə apar.

Arvad aюэ eююəgin ьstьnə qoydu, ancaq uюapэ eююəgin ьstьnə nə təhər qoydu, o zьyьb yerə dьєdь. Noxud dedi:

- Nənə, mən цzьmə yer taparam.

Noxud bunu deyib eююəgin qulapэna atэldэ, orda oturdu. Noxud зцlə sarэ yola dьюdь. Yol ortasэnda bir kiюiyə rast gəldi. Kiюi noxudu gцrməyib eююəgin ьstьndəki aюdan neзə qaюэq iзdi. Uюaq eююəgin qulapэndan səsləndi:

- Tamahэn dьюdь, bir qaюэq, iki qaюэq, ifrat elədi ьз qaюэq, ac dədəmə heз nə qalmadэ.

Kiєi heз adam gцrmədiyi ьзьn dedi:

- Bəs bizdən yeylərdəndi ki, səsləndi.

Qorxudan qaюэpэ, aюэ buraxэb qaзdэ. Noxud gəlib dədəsi iюlədigi yerə зatdэ. "Dədə, huy" bapэrarkən dədəsin tapdэ. Cərəyanэ dədəsinə deyib, aюэ ona verdi. Sora atasэna dedi:

- Ata, nə iєin varsa mənə deyinən.

Kiєi dedi:

- Oplum, sən gцrəcək iюim yoxdur.

Noxudun zorlamasэ ilə dədə зarəsiz qalэb dedi:

– Єah mənə bir abbasi borcludur, get onu al.

Noxud юahэn sarayэna sarэ yola dьюdь. O, bir az gəldikdən sora bir зaya rast gəldi. Noxud gцrdь зaydan kезə bilməyəcək, dedi:

- Hap gu.... vəm, hup gu vəm. Bu зayэ ud gu... vəm.

Uюapэn gu.... зayэ udub ordan rədd oldu. Bir az da gəlib yolda bir qurda rast gəldi. Noxud qurdu da elə зay kimi ortadan qaldэrdэ. Yenə yoluna davam verdi. Az getdi, ьz getdi, gəlib bir tьlkьyə rast gəldi. Onu da зay kimi aradan gцtьrdь. Юahэn sarayэna зatdэ. Noxud iзəri gəlib єaha dedi:

- Sənin dədəmə bir abbasi borcun var, onu almaq ьзьn gəlmiєəm.

Єah dəstur verdi, dedi:

- Bu uюapэ toyuqlar yuvasэna atэn, bəlkə toyuqlar onu dənləsin.

Uюapэ toyuqlar nininə (hin) saldэlar. Toyuqlar yuvasэnda uюaq dedi:

- Hap gu.... vəm, hup gu vəm, uddupun tьlkьnь at, gu… vəm.

Toyuqlar tьlkьnь gцrmək həmən hərəsi bir buзaqda susdu. Noxud eюigə зэхэb yenə də юahэn yanэna gəlib dədəsinin alaзapэnэ istədi.

Bu dəfə юahэn əmri ilə quzularэn yanэna saldэlar. Orda noxud həmən sцzь deyib qurdu eєigə atdэ. Quzular da qurdu gцrьb dalэ oturdular. Noxud yenə də зэхэb юahэn yanэna gəlib atasэnэn alacapэnэ istədi.

Єah bu dəfə əmr edib noxudu qэzэn toyuna gələn adamlarэn ayapэ altэna tulladэlar. Toy evində noxud həmən sцzlə зayэ eюigə atdэ. Qonaqlarэ sel gцtьrdь. Noxud yenə юahэn yanэna gəlib dədəsinin bir abbasisin istədi. Axэrda юah onun əlindən aзiz qalэb dedi:

– Buna bir abbasi verin getsin.

Noxuda bir abbasi gətirdilər, amma qəbul etməyib dedi:

– Bu mənim dədəmin abbasэsэ deyil.

Noxuda ayrэ abbasi gətirdilər, amma yenə qəbul etməyib dedi:

- Bu da mənim dədəmin abbasisi deyil.

Hər abbasi gətirdilər, Noxud qəbul etmədi. Axərda юahən əmri ilə onu xəzanəyə (xəzinə) saldəlar, bəlkə dədəsinin abbasəsən цzь tapa. Noxud xəzanədə bir abbasi gцtьrьb dedi:

– Hap gu.... vəm, hup gu vəm, bu xəzanəəni ut gu...m.

Noxud eюigə зəxəb dədəsinin abbasəsən юaha gцstərib saraydan зəxdə. Bir abbasini aparəb dədəsinə verdi. Sora evlərinə gəldi. Evdə dedi:

- Nənə, mən damən bucapənda oturacapam. Sən mənim gu... mu bir heyirə ilə qurdala qəzəllar tцkьləcək.

Noxudun israrə ilə nənəsi noxudun dedigin elədi. Qəzəllar tцkьldь. Qonюu arvad belə gцrьb o da uюapən dam bucapəna qoydu. Heyrə ilə gu... o qədər qurdaladə, uюapə цldь.

## SULEYİN BABA

Bir gecə Suleyin baba durur getsin oğruluğa. Yolda it rast gəlir. Soruşur ki, Suleyin baba, hara gedirsən? Suleyin baba deyir:

– Gəl düş yanıma, gedək də!

Bir az yol getmişdilər ki, toyuq rast gəlir, o da Suleyin babanı sorğu-suvala çəkdikdən sonra, onlara qoşulur, habelə qarğa suval – cavabdan sora dördüncü yoldaş olur. Yavaş-yavaş yol gedib, bir müddət sonra qoz olan evə çatırlar. Suleyin baba iti qoyur həyət qapısında, toyuğu qoyur od ocağı başında və qarqanı da qoyur daç başında, sonra gedir qoz oğurluğuna. Ev sahibi qozların səsin eşidən kimi, öz-özünə deyir ki, evə oğru gəlib, ona görə tez qaçır ki, həyət qapısın açıb və qonşuları göməyə çağırsın. İt var gücü ilə hürür və qoymur ev sahibi çölə çıxsın. O, qapıdan qayıdıb gəlir ki, ocaqdan od götürüb piltəli çırağı yandırsın, toyuq qanad çalır, küllər dolur gözlərinə, başın quvzur göyə ki, görsün sabah azanı olub, ya yox, qarğa qarıldayıb damdan s... ağzına.

## TƏRƏKƏMƏ İLƏ QIŞ

Günlərin bir günündə tərəkəmə ilən qış qardaşlıq oldu. Tərəkəmə qışa dedi:

– Qərdəş, hər vəqt istəsən gələsən, bir-neçə gün qabaq mənə xəbər ver ki, mən mal-heyvanımı yerbəyer eləyim.

Qış qəbul etdi. Bəli, yavaş-yavaş gün keçdi, şadman keçdi, qış vaxtı oldu, qar yağmağın vaxtı çatdı. Qış öz-özünə dedi ki, indi gərək mən tərəkəmə qardaşıma xəbər verəm. Sübh açılandan tərəkəmə durdu dağa sarı baxdı, gördü dağın başına qar düşüb. O, başa düşmədi ki, dostu gəlməsini xəbər verir. Bir neçə gündən sonra bir gecə qar dağın sinəsinə düşür və dağın yarıdan yuxarısı qar altında qalır. Sonra da bir gecə qar kəndin qıraqlarını alır. Amma tərəkəmə başa düşmür ki, qış gələr. Bir gecə sonra macal vermədən hər yerə dizədək qalın bir qar yağır. Dan açılandan sonra tərəkəmə yuxudan ayılıb durur görür ki, hər tərəfi qar alıb, çox əsəbiləşir, dostu qışa deyir:

– Qardaş, mənim başıma nə oyun gətirdin? Qərarımız belə idi ki, sən qışın gəlməsin mənə xəbər verəsən.

Qış dedi:

– Mən neçə dönə xəbər verdim, sən başa düşmədin. Bir dəfə dağın başına, bir dəfə ortasına, bir dəfə də ətəklərinə gəldim, sənə möhlət verirdim. Sən diqqətli olmadan vaxt keçirdin. Atalar demişkən: “Hər zad vaxta baxar, vaxt heç zada baxmaz”.

## BAYRAM ƏMİ

Bir gün var idi, bir gün yox idi. Bir alverçi kişi arvadı ilə yaşayırdılar. Kişi bir gün bir çuval kişmiş alıb evə gətirdi. Arvadı kişmişlərdən yeməsin, bayrama qalsın deyə arvada dedi:

– Ay arvad, bu kişmişlər Bayram əminindir, gəlib aparacaq. O zaman bir az kişmişlərdən bizə verər.

O günün sabahından arvad çıxıb qapı ağzında dayandı, gəlib gedən kişidən soruşdu:

– Bayram əmi sizsiniz?

Neçə gündən sonra bir hiyləçi kişiyə rast gəldi. Kişi arvada dedi:

- Hən, mən Bayram əmiyəm!

Arvad dedi:

- Ey kişi, niyə gəlib kişmişləri aparmırsan? İndi hardan gəlirsən?

Kişi dedi:

- Cəhənnəmdən gəlirəm.

Arvad dedi:

- Cəhənnəmdə nə xəbər?

Kişi cavab verdi:

– Sənin ata-ananı fələkə bağlamışlar, nə yemisən turşulu aş, kötək vururdular.

Arvad başına çırparaq dedi:

- Ay kişi, onları cəhənnəmdən necə çıxarmaq olar?

Kişi cavab verdi:

- Şayəd pul-pələ ilə qurtarmaq oldu.

Arvad tez gedib kişisi dal yana qoyduğu pulları gətirib Bayram əmiyə verib dedi:

- Bu pulları al, tez gedib mənim ata-anamı cəhənnəmdən qurtar. Həmi də kişmiş çuvalını da apar. Sağ ol.

Kişi pulları alıb, kişmiş çuvalını arxasına götürüb yola düşdü. Kişi yavaş getməsin deyə, arvad arxadan səsləyib dedi:

- Ay kişi, gəl bir at verim. Bu yavaşlığa ki, gedirsən, ata-anamı cəhənnəmdə yandırıb kül edərlər.

Arvad kişisinin atın gətirib Bayram əmiyə verdi. Kişi arvadın daha sadəliyin bilib dedi:

– Ay bacı, bir kilim də gətir, ata çul eyləyim, bəlkə kişmiş çuvalı zuyub düşməsin.

Arvad tez bir kilim də gətirib Bayram əmiyə verdi. Bayram əmi kilimi alэb palan edib, kiюmiю зuvalэnэ ata зatэb pullar da cibində yola dьюdь. Gьnorta зarэ kiюi evə qayэtdэ. Arvad sevincək ərini qarюэlayэb dedi:

– Ay kiєi, dedin Bayram əmi kiєmiєləri aparanda bir az da bizə verəcək. Hamэsэnэ apardэ, ancaq bizə heз zad vermədi.

Kiюi iюin necə oldupundan xəbərdar olandan sonra baюэna dцyьb dedi:

- Ay axmaq arvad, kiєmiє цzьmьzьn idi. Indi de gцrьm, kiєi hardan gəlib, hara gedirdi. Tez de, dalэsэnca gedim.

Arvad sadəliklə dedi:

- Cəhənnəmdən gəlirdi. Deyirdi cəhənnəmdə mənim ata-anamэ fələkə baplayэb dцуьrlər. Sənin izninlə o dal yana qoydu-pun pullarэ o kiюiyə verdim, gedib ata-anamэ cəhənnəmdə fələkdən qurtara.

Kiюi sцzləri eюidən kimi tez istədi atэnэ minib Bayram əminin ardэnca getsin, ancaq gцrdь sadə arvadэ atэ da o kiюiyə veribdi. Kiюi gцrьr baюэna bцуьk bцrk kезib, tez kезib qonюu-nun atэnэ aldэ, hiyləзi kiюinin ardэnca getdi. Цzьnь Bayram əmi adlandэran kiюi pullar, kiюmiю зuvalэ, kilim və atэ heзdən əlinə keзirməsindən sevinə-sevinə gedirdi. Yolun ortasэnda зцnьb dalэna baxanda gцrdь bir atlэ зaparaq gəlir. Hiyləзi kiюi fərasətlə anladэ, bu gələn atlэ o arvadən əridir. Tez hiylə qurub o yaxэnlэqda olan dəyirmana keзdi, dəyirmanзэya dedi:

– O gələn atlэnэ gцrьrsən? Юahэn adamэdэr. O bir keзəl axtarэr, baюэn юaha aparsэn. Əgər istəyirsən baюuvu qurtarэb salim qalasan, paltarlaruvu mənlə dəyiю. Цzьn də o su yolunda gizlən. Mən də onu baюdan eylərəm gedər.

Dəyirmanзэ kiюi geyimlərin hiyləзi kiюi ilə dəyiюib su yoluna keзdi. Hiyləзi kiюi dəyirmanзэnэn geyimlərin geyib dəyirmanda iюə baюladэ. Atlэ dəyirmanзэya зatэb Bayram əminin sorapэn tutdu. Bayram əmi dəyirmanзэ geyimi əynində əli ilə yolun gцstərdi.Yanэ, Bayram əmi ordadэr. Kiюi su yoluna girdi. Dəyirmanзэ kiюidən istədi, eюigə зэxsэn. Dəyirmanзэ kiюi də əlindəki bэзарэ baюэna зэrparkən dedi:

- Səndən də eylərəm, цzьmdən də.

Kiєi soruєdu:

- Ay kiєi, nə deyirsən?

Keзəl dedi:

- Bu keзəl baюэ юaha da vermərəm, səndən də eylərəm, цzьmdən də.

Kiєi keзələ dedi:

- Oplan, єah kimdir? Sənin keзəl baєuvu kim neyləyir?

Dəyirmanзэ dedi:

- Məgər sən mənim kezəl baюэmэ юaha aparmaq ьзьn gəlməmisən?

Kiюi fərsətlə bildi, eюikdəki kiюi haman yalanзэ Bayram əmidir. Onlarэn ikisini də tovlayэbdэr. Dəyirmanзэya dedi:

- Ey kiєi, su yolundan eюigə зэx, o kiюi ikimizi də tovlayэbdэr. Səndən də eyləyibdir, məndən də.

Onlar eюigə зэxэb gцrьrlər kiюi dəyirmanзэnэn da pullarэnэ gцtьrьb aradan зэxэbdэr.

## SƏFEH ARVAD

Bir gün var idi, bir gün yox idi. Allahdan suvay heş kim yox idi. Bir kasıb kişi var idi. Yazıx kişinin qərə bəxtinnən səfeh bir arvad çıxmışdi uğruna. Allah əğil payliyəndə o nəm haralarda quş uçudurmuş. Benava kişi hər neynirdi arvadı əğillənmirdi ki, əğillənmirdi.

Dilə tuturdi, nəsihət elirdi, hərdən də savaşırdi, yeri düşsə bir şapalax da çəkirdi... Amma arvadın heç vecinə də deyirdi.

Günlərin bir günündə kişi yol üstə xeyləh yün alıp gətdi evə, arvadına dedi:

– Ay arvat, yorqan-döşəyimiz çox köhnəlip, lap da licimnən düşüp. Bu yünnəri sabah apar çeşmədə yu, gəti sər günə qurusun, ağacınan çıp, bir dəst taza yorqan-döşəh tut biləmizə.

Arvad dedi:

– Eybi yox.

Sabah oldı, arvat yünnəri yığdi yekə bir təştə, aldi başına evdən çıxıb getdi çəşmə başına. Burux-burux, dar-düttəh küçələrdən getdi, getdi, getdiii...yetişdi şəhərin eşiyindəki çaya. Təşti yerə qoydi, bir az dincin aldi, başladı yünnəri yumağa. Bir az yudiu bir az yumadı, hövsələsi qaşdı, darıxdı. Çayda qurbağalar qarraqurrunan bu yan-o yana atılıb düşürdülər. Arvad bir az oların quruldamaqlarına qulax asıp dedi:

– Nə qarraqur salmısız, qurbağa bacılar?! İstisiz yünnəri yumaxda mənə mədəd verəsiz? Da muna hay-bıdırıx salmax lazim dəyil ki, galiyin bu da yunnər! Fəqət, təmiz yuvunaaaaa… yoxsa

ərim savaşar biləmi! Sabah səhər tezdən gəlip yünnəri allam sizdən.

Səfeh arvad yünnəri ağnatdi çayın arasına. Boş təşti qoydi başına qeyitdi evə.

Sabahısı gün, səfeh arvad təşti götürüb ginə də getdi çaya. Çay qırağında ən getdi-boy getdi, o yana baxdı, bu yana baxdi... yünnərini tapanmadı. Su axıp bütün yünnəri götürüp aparmışdı öziynən.

Səfeh arvad mısmırığını salliyıp dedi:

– Qurbaa bacılar! Belə danışmamışdux aaaaaa, mən yünnərimi sizə tapşırmışdım, siz də aparıp hammısini nəm kimə satmısız! İndi ki, belə oldi, mən də sizdən küsüp dəyirman daşızi götürüp aparram, məətəl qalasız.

Çeşmənin içində yekə bir daş varıdı, par-par parıldırdı, arvad əyildi, gücü billahınan o daşi götürüp qoydu təştin içinə. Təşti hınqına– hınqına qalxızıb qoydı başına, qeyidip gəldi evə.

Gecə oldi, əri gəldi, yünnəri soraxlaşdi:

– Arvat, yünnəri yudun qurutdun?

Səfeh arvad dedi:

– Ehhhh, soruşma kişi! Qurbağa bacılar mənim yünnərimi oğurliyip, apardılar satdılar! Mən də acığımnan, onların dəyirman daşını götdüm gətdim evə!

Kişinin iki əli oldı, bir təpəsi:

– Ay səni görüm nədim olasan, ay sənin əğəlivə dua yazım, ay mirdəşir yumuşun qızı, bə sən havax əğillənəcaxsan?!

Durdi getsin daşə götürüp tulazlasın küçiyə, baxdi gördi daş qızıldandı. Hirsi yatdi, gəlip dedi:

– Arvat! Allah yetirip, Rəməzanın ruzusi çıxdı.

Rəməzan ayına az qalırdi. Kişi söyüncax düşmüşdi ki, daşı satıp onun puliynən oruşluği rahatlığınan geçinəllər. Arvadın cınqırı da çıxmadı.

Həəən, biyol, sabahısi gün səfeh arvad otdi küçə qapısının dalında, qapının cırığınnan gəlib– gedəni güddi. Hansi kişi geçəndə, onun adın soruşurdı. Bir az geşdi, bir qoca kişinin güzərı düşdi səfeh arvadgilin küçəsinə:

– Ay doşaaaaab, ay doşaaaaab, kişmiş doşabıdi... ay doşab alan!

Arvad dedi:

– Əmican, adın nədi?

Qoca kişi dedi:

– Məşədi Rəməzandi, qızım.

Səfeh arvad dedi:

– Əmcan, sənin bir əmanətin var bizdə. Du burda, gedim gətirim!

Nə başızı ağrıdım, səfeh arvat gedip qızıl daşi zıqqına-zıqqına evdən götürüp gətdi küçədə verdi qoca kişiyə.

Qoca kişi söyüncağınnan dedi:

– Baci, sən ki mənim əmanətimi verdin, gə mən də sənə doşap verim.

Arvat gedip bir bala qab gətdi, doldurdu doşabınan elə orda hammısini çəhdi başına.

Qoca kişi soruşdi:

– Bə, ərivə saxlamısan?

Səfeh arvat dedi:

– Ağzımın içində saxlaram!

Qoca kişi gördü bu arvadın əğli topuğundadı, yolunu tutup getdi. Arvat ağzi dolı doşap gəldi həyətə, gördü toyux-xoruzlar yığışıplar qapı ağzına, indicə çıxacaxlar küçiyə. Ağzın aşdi oları kişələsin, doşap ağzınnan töküldi yerə.

Neçə gün geşdi... bir gün əri dedi:

– Arvat! Rəməzana az qalır, o daşi gəti qoy ələ, sabah aparım satım.

Arvat dedi:

– Qəzadan neçə gün munnan qabax Məşədi Rəməzan özü gəlmişdi. Daşi verdim apardi!

Sora da bitinnən sirkəsinə kimi hər şeyi ərinə təriflədi.

Kişi nə aldi-nə satdi, durdi arvadı nə yemisən, turşulu aş, o ki var, döydi! Səfeh arvad həm küsdi, həm acığ elədi, durdi ağliyə– ağliyə evdən çıxıp getdi. Küçələrdə süvəllənə-süvəllənə sürünürdi. Az getdi, çox getdi... Şəhərdən eşihdə yetişdi bir xə-

rabəlığa. Bir yekə daş gördi, yorqun– arqın yanın basıp otdi daşın üstündə.

Bir az geşdi, bir pişih balasi miyoldiyə– miyoldiyə urdan geçirdi. Səfeh arvat pişiyi görüb dedi:

– Miyomiyo baci! Ərim səni göndərip dalımca?! Annamiyip göndərip, mən küsmüşəm onnan, bir də qeyitmərəm onun evinə!

Bir azdan sora bir əprimiş it, löhliyə-löhliyə gəlip sümsündü oralarda. Səfeh arvad itə dedi:

- Haf-haf baci! Niyə zəhmət çəkip gəlmisən dalımca? Mən ərimin əlinnən bərk acıxliyəm, bu asanlıxda barışmaram, qoy çıx get!

Günorta geşdi, az qalırdi gün batsın, bir dəvə tapılıp gəldi, sallana-sallana girdi həman xərabəlığa! Demə, bu dəvə padşahın kərvanınnan ayri düşüp yolun azmışimiş.

Səfeh arvad dəvəni görüp dedi:

– Dodaxlari laflaf baci! Əyaxlari yapyap baci! Bi yol da ərim bir belə yüh– yapınan səni göndərdi dalımca? Miyo-miyo bacıni göndərmişdi, getmədim, haf-haf bacıni göndərmişdi, getmədim, amma indi ki səni göndərip, sözüvü yerə salmıram, çıx gedax evə!

Arvat durdi əyağa, yapışdi dəvənin ovsarınnan, suyu süzülmüş evə sari yola düşdi. Qapıni döydi, kişi gəldi qapiyə, gördi arvat bir dəveynın gəlip, nəm nə ağırlıqda da yüki! Söyündu-ğunnan arvada bir söz demədi.

Dəvəni soxdi həyətə, ovsarıni bağladi ağaca. Yazıx kişi qorxusunnan ki arvadına dedi:

– Arvat, göy bəh tutulup, doli yağacax! Gə hərəmiz bir təndirə girip gizlənax!

Arvad dedi, yaxci. Girdi təndirdə gizləndi. Kişi qaçarapba gedip bir mejmeyi gətdi qoydi təndirin başına, bir ovuş da buğda səpdi içinə, toyux– xoruzları gətdi qoydi mejmeyidəki buğdalari dənnəsinnər.

Toyux-xoruzlar mejmeyini dimdihlədıxca, tıx-tıx səsi gəlirdi, arvat diyirdi bəs doli yağır, yerinnən tərpəşmirdi! Kişi tər–tələsih dəvənin yüh-yapıni boşatdi, başın kəsdi, ətin doğriyip qo-

vurma elədi, basdi küplərə, küplərin də üstün bərk-bərk bərkitdi ki, arvadı tapa bilməsin. Sura mejmeyini təndirin başınnan götürüp arvadi çıxatdi eşiyə.

Bu yannan şahın carçıları şəhərdə car saldılar ki, padişahın qızi dəvə ətinə yerihliyir. Hər kimdə dəvə əti var, padişahın qızına yerihyana gətirib şahdan ənamını alsın. Səfeh arvat bir həsüs annamışdi ki, əri dəvəni kəsip basıp küplərə. Yavvəccənə gedip biraz o ətdən əhdi, ərinin gözünnən irax, gizlincax apardi şah evinə.

Demə, bular hammısi şahınan vəzirin nəxşəsiymiş ki, itən dəvəni tapsınnar. Səfeh arvat əti verdi şahın adamnarına, dözdi ki, ənamını alsın. Şah çağırtdırdı biləsin, soruşdi:

– Bu əti hardan gətimisən?

Səfeh arvad dedi:

– Ərim, yazıx dodaxlari laf-laf, əyaxlari yap-yap bacının başın kəsdi. Onun ətidi.

Sora da başdan dibə hər zadi şaha tərif lədi.

Padişah əmr elədi, kişini qulluğuna gətirtdilər. Kişi hər çi elədi ki, babam, mənim arvadım səfehdi, əğli naqisdi, yalan diyir, nə şah, nə də vəzir qəbul eləmədilər. Kişini tutub saldılar zindana.

Kişi zindana gedə-gedə, arvadına dedi:

– Arvat, gördün işlərivi?! Məni aparılla zindana, bari evin qap– pəncərəsinnən muğayat ol, oğru-zad gəlip aparmasın.

Arvat əli qolunnan uzun, kor– peşman qeyidip gəldi evinə.

Bir-iki ay dözdi, ürəyi bəh sıxıldi. Əri düşdi göylünə. Durdi giyindi-geçindi, istədi yola düşə, yadına düşdi əri diyip qap– pəncərədən muğayat olaaaaa! Getdi teşə gətdi, bel-külüh gətdi, qap-pəncərəni çərçuvasınnan söküp çıxatdi, asladi boynunnan, şahın evinə sarı yola düşdi.

Şah otumuşdi, dürbününnən baxırdi. Gördi uzaxdan bir arvat boynuna qap-pəncərə asliyip, ağliyə-ağliyə, gücü billahınan gəlir şahın evinə tərəf. Arvat yaxınlaşanda şah onnan soruşdi:

– Arvat, bə niyə bə belə eləmisən?

Səfeh arvad dedi:

– Ərimi zindana salmısız, gəlmişəm ərimi görəm. Ərim tapşırmışdi qap-pəncərədən göz olam, oğri-zad gəlip aparmasın.

Mən də çərçuvadan çıxardıp boynumnan asladım ki, oğrülar apara bilməsinnər. Padşah gördü xeyir, bu arvat xeyləh səfehdi, öz-özünə fikirləşdi ki, labüd dəvə başı kəsmağı da özünnən qurşaliyip. Əmr elədi, getdilər kişini zindannan çıxardıb azad elədilər.

Kişi arvadın o vəzdə görüb bildi nəyin nəsidi, başın tovladi, yapışdi arvadının əlinnən, getdilər evlərinə.

Yedi, işdi, mətləbinə yetişdi.

## LƏYƏNŞURUN NAĞILI

Bir tacirin uşağı olmazdı.Tacir hamıya köməklik edib yoxsula, yetimə yetişərdi. Ancaq Tanrıdan huşlu-başlı bir uşaq istərdi. Allah bunun sözünü eşidir, buna bir oğlan uşağı verir. Oğlan yekəlir, qoyullar məytəbə. İki il-üç il oxuyur. Bir gün tacir deyir, gedim görüm bu oğlan necə oxuyur. Gedir məktəbxanaya girir bu, görür oğlu çox ləyənşurundu, hər kim yetişir buna bir qapaz salır. Hər kimin bir zadı yerə düşə götürər verər, onnan bir dənə də şapalax yeyər.Tacir əllərin göyə qovzayıb deyir:

– Ay Allah, mən sənnən bir huşlu-başlı uşax istədim, bu nəydi mənə verdin? Gərək aparam bunu satam.

Tacir uşağı aparır qul meydanına satmağa. Oğlu deyir:

– Dədə, yaxçı adamam, məni satma.

Atası deyir:

– Yaman huşlu-başlısan, hələ deyirsən ki, satmayım?

Uşaq atasına deyir:

– Əgər məni satirsansa, üç tümənə ver.

O zaman qulun yaxşısı bir tümən imiş. Ata uşağını hər bazara apardı, üç tümən dedi, qaçdılar. Bir gün şah ordan keçirdi, gördü bir oğlan var, üç tümənə deyirlər. Deyir:

– Axı, bunda nə var üç tümən deyirsən?

Dədəsi oğlundan soruşdu:

– Axı, ləyənşurinsən, səni öləsən, sənin nəyin var? Mən indi muna nə deyim?

Uşaq deyir:

– Dədə, deginən yaxçı at tanıyır, yaxçı adam tanıyır, həmi də yaxşı qızıl tanıyır.

Şah üç tümən verib bunu alıb apardı. Bunu tapşırdı bir vəzirə.Vəzir də apardı uşağı işlətməyə.Tazı otartdı, göyərçin uçurtdu. Gün o gün oldu şahın bir dostu şaha bir at pay verdi. Hamı gəldi baxdı dedi, yaman atdı. Şahın birdən yadına düşdü ki, bulların bir ləyənşuru var ki, o, deyirdi yaman at tanıyır. Şah oğlanı çağırtdı, gəldi. Oğlan ata baxıb dedi:

– Qurban, yaxşı atdı, amma.....

– Amması nədi?

Dedi, amma bunu minsən, çayı atlayanda yatır suya. Şah əmr elədi, bir nəfər atı minib sudan keçə. Atı minif sudan keçəndə at yatdı, durmadı. Şah soruşdu:

– Bu niyə yatır suya?

Deyir:

– Qurban, buna gamış südü əmizdiriblər.

Şah adam yolladı, atı verəni gətirdilər. Şah dedi:

– Yaxşı, bu eyibli atı mənə niyə vermisən? Suya yatır, durmur.

Deyir:

– Vallah, bunun nənəsi öldü. Gamışın südüylə yekələnib.

Şah dedi:

– Ləyənşuru, biri düz çıxdı.

Ləyənşuru indi də aparıb verillər vəkilə.Vəkil də elə it otartdı. Bir gün bir nəfər gümüş gətdi ki, qızılla dəyişə.Tərəziyə nə qədər qızıl yığdılar, elə tərəzi göydə qaldı, gümüş yerdə. Bunlar qaldılar gümüşün əlində. Kimə dedilər, carə tapılmadı. Şahın birdən yenə yadına düşdü ki, axı bizim bir ləyənşurumuz var. Adam yolladı, onu vəkilin yanından gətirdilər. Bu gəldi, azca gümüşün üstünə torpaq qoydu, bərabər gəldi. Dedi:

– Bunun əsası torpaxdı.Torpax onu yüngül elər.

Ləyənşuru bu imtahannan da çıxdı. Şah bunu tapşırdı gizirə. O, da apardı mal-heyvana yolladı.

Bir gün şah dedi:

– Vəzir, vəkil tədbir tökün. Axı mənim bir belə millətim var, bilmirəm onnarın hankısı yaxşıdı, hankısı pisdir.

Dedilər:

– Şah, sənin bir ləyənşurun var, qoy o, seçsin.

Gedib ləyənşuru gətirillər, deyillər, gəl bunnan yaxşı-pisin seç – gör kim yaxşıdı, kim pisdi.

Ləyənşuur deyir :

– Şəhərin tamam camaatını yığın meydana, mən deyim kim nə cürdü.

Şahın buyruğuna sabahı hamı yığışır meydana. Ləyənşur qılıncın bir sağa tutur, bir sola deyir:

– Tanıdım, gedin.

Şah deyir:

– Kimdi?

Deyir:

– Toyux deyil ki, mən deyəm kimdi, nə cürdü. Qoy hamı mənə imza versin.Vəzir,vəkil, cəllad, millət hamı mənə imza versin ki, mən kimi desəm başını vursunlar.

Gətirif ona imza verillər, deyir:

– Şahın boynun vurun!

Şah deyir:

– Oğlan, niyə?Mən hardan pis oldum?

Deyir:

– Bir nəfər bir nəfəri üç tümənə ala, bu qədər də iş başara, gətirəsən ona tazı otartdırsan, gövərçin uçurdasan, vəzir-vəkilə tapşırasan mal-heyvan otartdıra elə pis sənsən-sən. Məni gətirib burda iş vermək əvəzinə yolladın köpək otartdırmağa, atdın ora-bura. Cəllad, bunun başın vurun!

Şahı öldürdülər.

Deyir:

– Gedin filan taciri gətirin!

Tacir qorxusunnan üç güməni saxlamışdı ki, oğlan indi bir iş görəcək, gətirib verəcəklər özünə.Tacir əsə-əsə, üç tümən də əlində gəlir.

Oğlan deyir:

– Məni tanıyırsan?

Tacir deyir:

– Yox, oğlum, mən səni hardan tanıyıram?

Deyir:

– Mən sənin ləyənşur oğlunam, mən şahlığı almışam. Sən çıx şahlıx elə, mən də sənin vəzirin olum.

# LƏTİFƏLƏR

## MOLLA NƏSRƏDDİN

### AXIR YERİ BURADIR

Bir gün mollanın evinə oğru gəlir və onun yorğanın götürüb bağa tərəf qaçır. Molla da evdən çıxıb, qəbristana qaçır.

Qəbristan gözətçisi bilib soruşur:

– Molla, oğru bağa getdi, sən nə üçün qəbristana gəldin?

Molla deyir:

- Onun axır yeri buradır.

### İNŞALLAH, MƏNƏM

Molla Nəsrəddin eşşək almaq üçün bazara getmək istəyir. Arvadı soruşur:

– Hara gedirsən?

– Gedirəm eşşək alam!

– De, “inşaallah”.

Molla deyir:

– Nə inşallah? Pul cibdə, eşşək də bazarda, daha inşaallah istəməz!

Arvadı deyir:

– Hər işdə “inşaallah” de!

Qəzadan bazarda mollanın pulunu oğurladılar. Molla korpeşman evə döndü. Qapını çaldı, arvad qapı dalısından deyir:

– Kimdir?

Molla deyir:

- İnşaalllah ki, mənəm.

### ƏGƏR BU PİŞİKDİ, ƏT HANI,<br>ƏGƏR BU ƏTDİ, PİŞİK HANI?

Molla Nəsrəddin bir batman ət alıb arvaddan istər küftə bişirsin. Arvad əti dədəsi evinə göndərir və gecə mollanın qabağına yavan çörək gətirib sufrəyə qoyur. Molla deyir:

– Arvad, bəs küftə hanı? Niyə bəs yavan çörək?

Arvad deyər:

– Əti pişik apardı!

Molla hirsli qalxar, pişiyi tutar deyər:

- Bu bir batman! Əgər bu pişikdir hanı ət, əgər ətdir hanı pişik?

## DAVA MOLLA NƏSRƏDDİNİN YORĞANI ÜSTÜNDƏ İDİ

Bir qış gecəsi Molla Nəsrəddin küçədən hay-küy, dava səsi eşidib yorğanı başına atıb küçəyə çıxır. Savaşanlardan biri mollanı görmək haman yorğanın qapıb qaçır. Molla evə gəlir, arvad soruşur:

– Dava nə davası idi?

Molla deyir:

- Dava Molla Nəsrəddin yorğanı üstündə idi.

## SƏNƏ "NƏÜZBİLLAH" HAMISINDAN YAXŞIDIR

Əmirlərin biri bir gün Molla Nəsrəddindən soruşdu:

– Abbası xəlifələrinin zamanından sonra rəsm idi xəlifələrin və əmirlərin bir ləqəbləri olsun ki, "billah" ilə qurtular. Məsələ, Mətükəlbillah və Mötəsimbillah kimi. Sizin nəzərizcə, mənim üçün nə ləqəb münasibdir?

Molla cavab verdi:

- Sənə "nəüzibillah" hamısından yaxşıdır.

## GİRDƏKAN AĞACI BU YEKƏLİKDƏ, QARPIZ AĞACI......ALLAHU ƏKBƏR

Molla Nəsrəddin qoz ağacının dibində oturmuşdu, öz-özünə fikirləşirdi ki, əgər bu girdəkanlar qarpız yekəlikdə olsaydı, nə gözəl olardı! Onda bir ağacın girdəkanı bir kəndin ruzisu olardı. Elə bu fikirdə idi, göydən başına bir şey düşüb bətər incitdi. Baxıb gördü girdəkandı. Ağlına gəldi bəlkə adamın başına qarpız yekəlikdə bir girdəkan düşə, onda nə olar? Baxdı girdəkan ağacının yekəliyinə qarpız ağacın təcəssüm edib dedi:

- Girdəkan ağacı bu yekəlikdə, qarpız ağacı ...Allahu əkbər!

## MOLLA VƏ TÜLKÜ

İki tülkü bir kəndə girir. Kəndin kənarında mollanın evi varmış. Birinci tülkü deyir:

– Mollanın toyuqları qorumasızdır, gəl bir neçəsini alıb qaçaq.

İkinci tülkü:

– Yox, yox, sən ağlını qaçırtdın?

Birinci:

– Niyə?

İkinci tülkü:

– Ay ağılsız, molla bilsə onun toyuqlarını biz tülkülər yemişik, bir fətva çıxarıb ətimizi halal edər. İnsanları saldırıb nəslimizi kəsərlər.

## ARVAD, SƏN İÇƏRİDƏN, MƏN EŞİKDƏN YAXŞI EV OLURUQ

Bir gün Molla Nəsrəddin ev əsasını satmaq üçün bazara apardı. Bazarda neçə nəfər toplanıb Mollanı karıxdırdılar, ev əsasını dəyər-dəyməzinə aldılar. Molla bazardan dönən kimi nahar sufrəsi başında arvadının qolun yalın görüb soruşdu :

– Arvad, bəs bilərziklərin hanı?

Arvad dedi:

– Kişi, xəbərin yox, küçəyə ləbləbiçi gəlmişdi, baxdım tərəzi daşları az çəkirdi.Yavaşca bilərziklərimi tərəzi daşlarının arasına soxdum, bəlkə ləbləbi az gəlməsin.

Molla dedi:

– Yaxşı, bəs niyə qoluna taxmamısan?

Arvadı dedi:

– Kişi səsini çıxarma, elə bilərziklər daşların ortasında qaldı.

Molla soruşdu:

– Niyə bəs götürmədin?

Arvad dedi:

– Dedim bilərziklər elə daşların arasında qalsın, həm qonşu – məhəllə adamlarına da xeyrim gəlsin, həmi də tamahkar ləbləbiçinin dədəsini yandırım.

Molla bir az fikrə cumub arvada dedi:

– Deyirəm arvad, sən içəridən, mən eşikidən yaxşı ev olluq.

## ÖZGƏSİNİ ALDADAN ÖZÜ DƏ ALDANAR

Uşaqların hay-küyündən zara gələn Molla Nəsrəddin küçədə oyunayan uşaqların səsini kəsmək üçün qapıya çıxıb yalandan uşaqlara dedi:

– Uşaqlar, baxın ...filan küçənin başında xurma paylayırlar!

Molla sabah küçəyə çıxıb bu dəfə də yalandan uşaqlara dedi:

– Uşaqlar, bəhman küçənin dibində pul da verirlər!

Molla belənçi sözlərlə hər gün uşaqları aldadıb onları küçədən dağıdırdı. Bir gün Molla taza bir yalanla uşaqları aldadandan sonra uşaqlar qaçan kimi özü də uşaqların dalısıca dediyi yerə qaçdı. Qaçanda qonşu rast gəldi.Qonşu Molladan qaçmağın soruşdu. Molla Nəsrəddin qəzanı qonşuya dedi. Qonşu Molladan soruşdu:

– Axı, məyər doğrudan küçə başında . . . halva paylayırlar ki, sən də ora qaçırsan?

Molla dedi:

– Kim nə bilir, bəlkə də elə paylayırlar!

## HAKİMSƏN Kİ VARSAN

Hakim molla Nəsrəddini çağırdı dedi:

– Molla, bu günü kefim çox sazdır, sənə nə bağışlayım ürəyindən olsun?

Molla dedi:

– Qibleyi-aləm sağ olsun, sən hər nə bağışlasan mənim ürəyımdən olar.

Hakim dedi:

– Molla, on dənə sikkə, ya bir at, ya bir surü qoyun, ya da bir bağ, hansını seçirsən?

Molla cavab verdi:

– Mənim ürəyimdən keçir, sən çoxlu ədalətpərvür şahsan!

Hakim dedi:

– Necə?

Molla dedi:

– Mən qızılları cibimə qoyub atlanıb, qoyunları bağa sarı surüb getsəm, sənin ədalətpərvərlüliyini göstərər.

Hakim dedi:

– Molla, verməsəm necə olar?

Molla dedi:

– Əlhəq elə hakimsən ki, varsan!

## CAVANLIQDA DA ELƏ BİR P... DEYİLDİN

Molla Nəsrəddin bir gün bazara gedib eşşək aldı. Evə dönəndə nə qədər çabaladı eşşəyə minə bilmədi. Baxdı hamı ona baxır, utanıb deyəsən, öz – öz ilə danışır, uca səslə dedi:

– Ay cavanlıq, harda qaldın?

Molla “ay cavanlıq” deyər gənəcliyi yadına düşdü, bir sağına baxıb, bir soluna baxıb yenə də öz – özünə amma yavaşca dedi:

– Özmüzük, amma cavanlıqda da elə bir p..... deyildin!

## BİLMƏYƏNLƏR BİLƏNLƏRDƏN SORUŞSUN

Molla Nəsrəddin bir gün minbərə şıxır. Danışmağa bir söz tapa bilmədiyi üşün minbər ayağındakılardan soruşur:

– Camaat, bilirsiz bu günü nə deyəcəyəm?

Camaat cavab verir:

– Yox, molla, bilmirik.

Molla dəyir:

– Əyər bilmirsiz, bəs o zaman niyə danışım.

Bələsinə molla o gün yaxasın qurtarıb minbərdən düşüb gedir.

Sabah olur, molla minbərə çıxır, bu günü də eyni sualı camaatdan soruşur:

– Camaat, bilirsiz nə deyəcəyəm?

Camaat keçən günün təcrübəsindən dərs alıb tez deyirlər:

– Hən, bilirik.

Molla deyir:

– Əyər bilirsiz bəs o zaman niyə danışım?!

Molla o gün də yaxasını qurtarıb, minbərdən düşüb gedir.

Sabah olur, molla gəlib minbərə çıxır. Bu günü də mollanın danışmağa sözü olmadığı üçün camaata deyir:

– Camaat, bilirsiz nə deyəcəyəm?

Camaat keçən günlər qazandığı təcrübəyə görə minbərin bir tərəfi «yox, bilmirik» deyir , ikinci yarısı, yanı minbərin o biri tərəfi də « hən, bilirik» deyir.

Molla deyir:

– Yaxşı, o zaman bilməyənlər bilənlərdən sorüşsun. Mənim danışmağımın daha lüzumu yoxdu.

Beləsinə molla o gün də yaxasını qurtarıb, minbərdən düşüb gedir.

## YAVAN ÇÖRƏK

Bir gün mollanın arvadı qonax gedirmiş. Götürər peyniri qoyar sandığa, ağzına da qıfil vurar. Əzan olar, mollanın arvadı

qeyidar görər mollanın əlində bir parça çörəh, hey qopardır sürtür qıfıla qoyar ağzına. Soruşar:

– Nə qeyirirsən?

Molla deyər:

– Heç nə. Qızıl çörəh yeyirəm!.

Mollanın arvadı bir çıxardıb deyir:

– Evin tikilsin, ay başı xeyirli, bir gün yavan çörəh yeyə bilməssən?

## SƏNDƏN ÇOX RAZIYAM

Molla Nəsrəddinin oğlu yanına gəlib deyir:

-Ata, yuxuda sən mənə bir dinar pul vermisən.

Mola Nəsrəddin cavab verir:

-Bir oğul kimi səndən çox razıyam, oğul, odur ki,verdiyim o dinarı geri almaq fikrində deyiləm.

## EHTİYATI ƏLDƏN VERMƏ

Biri molladan soruşur:

– İtdərin cummasına düşdüm, nə edim?

Molla:

– Tez "kəlbəhüm" ayəsini oxu. Amma ehtiyatı da əldən buraxma, bir çubuğ özünlə götür, bəlkə it ərəbi bilmədi.

## ALLAHIN EVİ

Biri mollanın qapısın döyür. Molla soruşur:

– Kimsən?

Döyən:

– Allah qonağı.

Molla deyir:

– Allahın evi bir az yuxarıda, beşinci qapıdı.

## NOVDAN MƏŞQİ

Bir gün də molla oturub-durub iki əyağını bir başmağa soxmuşdu ki, görəsən adam o novdanın başına çıxsa noolar? Arvadı da deyir ki, nolaçax, adam düşər, qol-qıçı sınar, qanına qəltan olar. Amma genə də molla əl çəhmiyib hər gün novdana baxıb həsrətnən deyərdi: – Bir o novdanın başına çıxsaydım!.

Bir gün mollanın arvadı çıxıb gedər mərsiyəyə, qaş qaralan vaxtı gələr, görər molla həyətdə yıxılıb, tir– tap uzanıb, novdanın ağzında qanına bələnib.

Deyir:

– Vaxsey, kişi! Axırda daşı saldın başıva?! Bə demədim yıxılsan qol-qıçın sınar?

Molla deyir:

– Olsun, arvad, əvəzində novdan məşqindən düşdüm!

## XOCA VƏ QIZI

Bir gün xoca qızın göndərər su gətirsin, əlbəhəlim bir sillə də qoyur qulağının dibindən və deyir:

– Kuzəni sındırmıyasan.

Soruşurlar, nədən vurdun o ki hələ kuzəni sındırmayıb.

Xoca deyir:

– Sındırandan sonra sillənin hasili nədir.

## ÖLÜMÜNÜ ARZULA

Xocanin arvad pilovsuzlamışdı, xocaya deyir:

– Qonşluqda bir toy da olmur ki, dolu qarın pilov yeyək.

Xoca:

– Ay yazığın qızı, hec olmasa, qonşuların birinin ölümün arzula.Onda pilov azı necə kərə – bir şami-qəribanında, bir yeddisində, bir qirxında bir də ilində yeyərik.

* * *

Molladan sorşurlar:

– İlin hançı çağı yaxşıdır?

Molla:
– Toxlara hammısı yaxşıdır, aclara hammısı pisdir.

## ƏRDƏBİLLİ ŞEYX MƏHƏMMƏD

## DƏLİ VƏ AĞILLI ŞEYX MƏHƏMMƏD

Meydan tacirlərinin birisi illər boyu şeyxin ağzından çıxan sözləri özünə yömən etmişdi. Bir gün qəhvəxanada şeyxə xitab edib deyir:

– Dəli Məmməd, bu il pulumu nəyə verməliyəm?

Şex deyir:

– Get pulunu ver soğana, sarımsağa, illah kavara.

Şexin bu tapşırığı ağla sığmayır, özü-özünə deyir: ” Hələ soğan, sarımsaq bir yana, kavarı ki anbar edib saxlamaq olmaz” Həmən günün sabaxısı yenə onu qəhvəxanada görüb soruşub:

– Ağa şex Məhəmməd, buyurun bu il puluma nələr almalıyam?

– Get pulunu ver dəmirə, kömürə, illah da yer al.

Şexin dünənki və bu günkü tapşırığını fərqli görərkən soruşur:

– Dünən sən mənə soğan, sarımsaq, kavar almağımı tapşırdın. Amma bu gün dəmir, kömür və yer almağımı istədin, bunların səbəbi nədir?

Şex deyir:

– Dünən onu sənə tapşıran Dəli şex Məmməd idi, amma bu gün Ağa şex Məhəmməd belə məsləhət bilir.

## BARI MUNU RAHAT YEYİM

Şex Məhəmməd əlində bir pendir-çörək dürməsi, bazarda gəzirmiş birdən dayanıb özünəməxsus bir pozayla günbəzlərin birisinin başından göy aləminə baxıb deyir:

– Bu çörək-penir sən verdiyin nemətdərdən sayılır, çox-çox yeməli, sevməli bir ruzudur.

Birdən-birə qaşlarını düyünləyib, acıqlı bir halda deyir:

– Di qoy, barı munu rahat yeyim.

## DƏMİR ULDUZ

İkinci Pəhləvi şahının “İnqilab Səyid” adlı hərəkatından sonra bir gün tükan qarşısından qadın ilə bərabər bir əfsər keçirdi. Qadın tayfası o günədək başına nazık çadra örtməmişdir. Həmin qadının başı açıq idi. Xanım əri ilə birgə qarşıdan keçər, qəzadan şeyx Məhəmməd onlarla üzbəüz gəlir. Şex o qadına baxa-baxa həmişəki kimi öz-özü ilə danışmağa başlayır. Əfsər onu tanımadığından bilə güman etdi ki, bu qoca kişi onun arvadını lağa qoyub. Ona söz atır. Odur ki, yetişən kimi güclü gücü ilə ona bir sillə vurdu, yazıq kişi yerindəcə bitir. Qabağa yeriyib əfsəri onun halından xəbərdar edirlər. Əfsər davranışından peşiman olub cibindən bir dəstə pul çıxardıb ona vermək istəyir. Şeyx əfsərdən pul almaqdan çəkinib ona xitabla deyir:

– Gecələri heç bir göy aləminə baxıbsan? Minlərlə ulduza sahib olan bir Allah heç bir günah sahibini vurmayır, sən çiynivə üç dənə dəmir ulduz taxmaqla məni niyə vurursan?..

## ŞEYX MƏHƏMMƏD VƏ AXUND

Bir necə uşaq Şeyx Məhəmmədin dalınca düşüb və “Şeyx Məhəmməd, ruzi ver” şeriylə onu lağa qoyurlar. Şeyx Məhəmməd onların əlindən qurtulmaq üçün bir dəftərxanaya pənah aparır. Axund onu görən kimi deyir:

– Şeyx Məhəmməd, bura niyə gəlibsən?

Şeyx deyir:

– Sən oxuduğun nigahların törəmələrinin əlindən bura sığınmışam.

## NİYƏ PİLƏYİRSƏN

Bir gün şex Məmməd bir yeniyetmə oğlanın barmaqlarının arasından siqara işarə edib ona deyir:

Əgər acıdı, niyə çəkirsən, əgər şirindir içində saxla. Bəs niyə piləyirsən?

## EVƏ SAHİB DURASSAN

Qonşuların birisi öz damlarına suvax saldırır, bir az saman palçığından artıq qalır. Ev sahibi işçisinə deyir:

– Suvağın qalanın Məmmədin damına sal.

Şeyx həyətə girən kimi, suvaxçıya və onun başı üstə dayanan qonşusuna baxıb deyir:

– Əl saxla, bu gün bu dama suvax salsan, sabah da bu evə sahib durarsan!

## BARI EŞİK OL

Yaz çağında neçə gecə-gündüz aralıqsız yağış yağırdı. Elə olur ki, Şeyx Məhəmmədin yaşadığı damdan bütünlüklə yağış süzməyə başlayır. Şeyx Məhəmməd par-parasını yığıb yük yerinə pənah aparır gecə-günüzü ilə orada yaşayır. Yeddinci gün hava açılmışdı, amma Şeyx Məhəmmədin hələ evinin damı süzməkdə idi. Qonşulardan biri ona yemək gətirib deyir:

– Şeyx Məhəmməd, hava daha açılıb, yük yerindən çıxa bilərsən.

Şeyx damcılar altından soxulub həyətə sarı gedir və görür ki, göydə buluddan bir iz qalmayıbdı. Üzünü evin tavanına tutub deyir:

-Sən ki mənə dam olmadın, barı çöl (eşik) ol.

## BU XALQI NİYƏ TARDA QIRIRSAN?

Hələ qorabişirən ay çıxmamışdı ki, Ərdəbilə ağır şaxta düşür. Şəhərin yeməyini təmin edən dükanlardan başqa bir çox dükan bağlı qalır. Şeyx Məhəmməd bir tikə çörək ələ keçirdib onu yeyə-yeyə Allaha xitabən belə deyir:

– Min ilin Allahısan, hələ də payıznan qışın yerini tayı-dəyişik salırsan.

Bir neçə addım atıb yenə də deyir:

– Özün Məkkədə isti yerdə əgləşibsən, bu xəlqi niyə tarda qırırsan?

## MÜXTƏLİF LƏTİFƏLƏR

### ONLARIN BİRİ XORUZDUR

Əkinçilik mühəndisinin qərib bir yolda otomobili xarab olur və gecəni yol qırağında tək başına yaşayan bir qadının evində qalır. Mühəndis səhər evdən çıxarkən toyuq hinində 10-15 xoruza bir toyuq görüb qadından soruşur:

– Xanım, yaxşı, bir toyuğa 10-15 xoruz var, belə də iş olarmı?

Qadının ki, gecə mühəndisdən yaxınlaşmaq intizarı daşa dəymişdi, deyir:

– Onların biri xoruzdur, qalanı mühəndisdi!

### ÖL QARDAŞLIĞINI SÜBUT ELƏ, SONRA ƏRS-MİRAS İSTƏ

Bir dərviş açıq bir qapıda tabıt görüb ah və nalə səsi eşitdi. “Bəlkə burda əhsan-xeyirat olar” deyə, içəri getmək istədi. Qapı dalısından görüb eşitdi ki, dua eləyirlər itib-batmış qardaşın tapılmasın ki, gərək ərs-mirasını verələr.

Dərviş içəri girib oğlanı qucaqlayıb dedi:

– Mən qardaşınam. Gəl atamızı basdıraq, sonra gəlib ərs ilə mirasımızı bölək.

Oğlan qızıb dedi:

– Öl qardaşlığını sübut elə, sonra ərs-miras istə!

### ORDA MƏNİ TANIYARLAR

Birini xan evinə toya çağırmışlar. Kişi qonaq gedən zaman yolda dostlarından birinə rast gəldi. Dostu dedi:

– Məni də özünlə apar.

Kişi utanıb onu da özüylə götürdü. Yol boyu başqa bir tanışa rast gəldilər. O da kişiyə qoşulmaq istədi. Kişi dedi:

– Axı, orda nə deyim, deyərəm bu qonağımdı, onu da gətirdim, amma sənə nə deyim?

İkinci yoldaş dedi:

– Orda məni tanıyarlar. Bəlkə də elə xan gördüyündə səndən təşəkkür edər və deyər “bu yadımdan çıxmışdı, yaxşı oldu gətirdin”.

Bilaxrə, o da onlara qoşuldu, yollandılar. Xan evinə girən kimi xan soruşdu:

– Bu kimdir?

Kişi dedi:

– Vallah, qonağım idi, bunu da gətirdim.

Xan dinmədi. Amma ikinci kişini görüb qızdı, dedi:

– Yaxşı, bu qurumsaq kimdir?

Kişi cavab verməmiş ikinci qonaq dedi:

– Demədim, orda məni tanıyarlar!

## OLMASA, ONU DA SÖZ ELƏ

Bir gənc oğlana elçiliyə gedirlər. Qız adamları hərəsi oğlana bir eyib qoyurlar.

Birisi deyir:

– İşi yoxdur!

Birisi də deyir:

– Evi yoxdur!

Başqa birisi deyir:

– Hələ əsgərlik də etməmişdir!

Qızın qardaşı deyir:

– Deyirlər, elə bil əfəldi də?!

Oğlan bunu eşidən kimi coşub deyir:

– Olmasa, onu da söz edin!

## BU DA BU DƏRDLƏ ÖLMÜŞ

Bir yaraşıqlı çoban var imiş, arvadla elə arası yoxdu və arvad işlərinə qarışmazdı. Kənd arvadlarının da neçəsi çobanı sevib baş yasdığa qoymaq istərdilər, amma çoban bir şey anal-mayıb başa düşməzdi. Arvadlardan biri özün saxlaşdıra bilməz, gəlib girər davar sürüsü içinə. Çoban sürü içində gəzəndə gözü buna sataşar sanar ki, ölübdür.

Çoban irəli gəlib dəyənəkin arvadın fərcinə basar ,“bura bax, bu da bu yara ilə ölüb” deyər yoluna davam verib gedər.

## BURADAN ÖTÜRSƏM, EVƏ GEDƏR

Bir kişi uşağına kimlik almaqda yubanmışdı, belə ki uşaq 5-6 yaşına gəlmişdi. Bir gün kimlik idarəsinə kimlik almağa gedir. İdarədə soruşurlar:

– Uşaq neçə aylıqdır?

Deyir:

– Vallah, yalan danışammaram, buradan ötürsəm evə gedər.

## BUNU DA MƏN QINQITMIŞAM

İran-rus savaşlarında Abbas Mirzə qərar verir, hər kəs bir əsgərin başını gətirsə, ona bir əşrəfi qızıl pul ənam veriləcək. Bir gün görürlər bir sadə elat başsız bir leşi sürüyə-sürüyə Abbas Mirzə qərargahına gətirir. Kişi leşi qərargahın qapısında salıb, gəlib Abbas Mirzəyə deyir:

– Qurban, bunu mən qınqıtmışam!

Abbas Mirzə soruşur:

– Yaxşı, bə sənin bu qınqıtdığın əsgərin başı yoxdur?

Elat deyir:

– Qurban, elə başı yoxdur ki, mən onu qınqıtmışam da, başı olsa idi o məni qınqıdardı.

## BİRİSİ İSTƏR SƏNİN HALINA AĞLASIN

Dilənçi qapyıa gəlir. Qapını çalır. Arvad qapyıa gəlir. Dilənçi bir az para istəyir. Arvad "yoxumdur" deyir. Dilənçi deyir:

– Elə də nahar yeməyindən ver, yeyim.

– Naharımız yoxdu. Hələ nahar qoymamışam.

– Yaxşı, elə də bir az quru çörək ver, yeyim.

– Evdə çörək yoxdur. Kişi gəlsə göndərəcəyəm, çörək alsın.

– Kişin bəs hardadı?

– Qohumlarımzdan ölmüşdü, gedib ona ağlasın.

Dilənçi dedi:

– Biri istir sizin halınıza ağlasın.

## CƏDDİMİN SUDA ƏLİ YOXDUR

Kəndli tələbə şəhərə gəlib bir ustad yanında şagird qaldı. Tələbə hər gün çaydan keçib gəlməyə qorxurdu. Ustad dedi:

– Hər gün bir salavat çevir. Əgər xalis niyyətlə desən, suyun üzərində elə yer kimi yol gedərsən!

Tələbə hər gün xalis niyyətlə salavat çevirib su üzərində gedib-gəlirdi. Günlərdən biri xoca tələbənin kəndinə qonaq oldu. Çaydan keçəndə şalvar paçaların qatladı. Tələbə dedi:

– Xocam, çırmalanma, mənə öyrətdiyin kimi "bismillah" deyib su üzərində yola düş.

Tələbə bunu deyib "bismillah" deyib su üzərində yola düşdü.

Ustad belə görəndə dedi:

– Vallah, cəddimin suda əli yoxdur.

## HEYF BU ZƏMİYƏ

Kişi arvadı ilə kənd yolunda gedirmişlər. Bir sünbüllü zəmiyə rast gələrlər. Kişi zəmiyə baxıb ürəkdən heyfslənib deyər:

– Heyf, bu zəmiyə.

Arvad deyər:

– Niyə heyf?

Kişi deyər:

– Axı, mən sənlə yaxınlıq eləmək istiyəcəyəm, sən də imtina edəcəksən. Mən də səni qovub bu sünbüllərin içinə basacağam!

## XEYİR, NÖVBƏT BİZİMDİR

Oğlan atası ilə bağda işlərkən küzədən su içərək atasından soruşdu:

– Bu cür ki, işləyirik, deyəsən, bağ bizimdi.

Ata başını qaldırmadan alma ağacının qol-budağını kəsərək dedi:

– Xeyir, növbət bizimdi.

## DÖZ, İNDİ PİŞİK GƏLİR

Ata oğluna deyir:

– Oğul, düş həyətə, gör yağış yağır?

Oğlan tənbəllikdən deyir:

– Döz, indi pişik gələr, üstu yaş olsa bilərik yağır!

Ata bir azdan oğlana deyir:

– Dur, o batman daşını gətir, bu girdəkanları çəkim!

Oğlan deyir:

– Döz, indi pişik gələr, o elə bir batmandır!

## DUA ELƏ BUĞDALARIN DARTILSIN

Dəyirmançı dartacağı buğda tayların dalısına zahidin gətirdiyi buğda tayın qoydu.

Zahid dedi:

– Mənim buğdamı öncə dartmasan, qarğıyacağam eşşəyin daş ola!

Dəyirmançı dedi:

– Əgər belənçi duası keçərli bilisən, dua et buğdaların dartılsın!

## SƏN YAXŞI BİLİRSƏN, YA ALLAH PEYĞƏMBƏRİ

Birinin bir qoca nənəsi var imiş, bir gün qoca nənə naxoşlayır, oğlu onu aparır peyğəmbərin yanına. Peyğəmbər zarafatyana deyir:

– -Nənən ər istəyir.

Oğul narahat olub deyir:

– Axı nənəmin bu zamanında....?

Nənə deyir:

– Oğul, sən yaxşı bilirsən, ya Allahın peyğəmbəri?

## SİZİN DALANDA

İki yeniyetmə oğlan bir-birinə gop basıb yekə danışırmışlar. Biri deyir:

– Bizim bir dalanımız var, bir yandan davar sürüsu içəri gələr, o bir yandan eşiyə çıxana kimi yarım gün gələr.

O biri oğlan da deyər:

– Bizdə bir heyrə ağacı var, atam o ağacla buludları tərpədər, elə ki bizə yağış yağan buludu o yanlıq edər, bəlkə evimizə yağış yağmasın.

O oğlan istər ikincinin yalanın çıxarsın, soruşur:

– Atan o boyda heyrəni harda yerləşdirir?

İkinci oğlan deyər:

– Sizin dalanda.

## QURDU OLMASAYDI AĞACDA NEYLƏYİRDİ

Çöl-bayırda uşaq ağacdan yıxılar. Uşaq atası nigaran qalıb uşağını həkimə götürür.

Həkim sərxoş olduğu üçün qabaqkı xəstə ilə uşağı dəyişik tutub uşağa qurd davası yazar.

Kişi mat-məəttəl qalıb soruşar:

– Həkim, axı bu ağacdan düşüb, yaxşı bəs qurd davası yazdın?!

Həkim taza baydırmağın bilib deyər:

– Ay kişi, axı bunun qurdu olmasa idi ağacda neyləyirdi?

## GEDƏ BİLSƏYDİM ÖZ EVİMİZƏ GEDƏRDİM

Biri keflənib yıxılıb yol qırağında qalmışdı. Şəhər darğası rast gəlib dedi:

– Qalx, divanxanaya gedək.

Sərxoşluq edən dedi:

– Mən gedə bilsə idim, öz evimizə gedərdim.

## NƏYƏ ORA YAZMISAN?

Bir gün bir nəfər döhtür məntəqnin qabağınnan keçirmiş. Baxır görür tablosunda yazıb "guş, həlq, bini və ğeyrə”. Şəstinən girir içəri, bir şumarə alır, nobəsi çatanda döhtür soruşur:

– Nəyindi, haran ağrır?

Kişi diyir:

– Aa döhtür, vəğeyrələrim ağrır!

Döhtür soruşur:

– Vəğeyrə haradı?

Kişi səsin atır başına ki:

– Bə özün də bilmisən, niyə orda yazmısan axi?!

## ÖSGÜRMƏ ŞƏRBƏTİ

Bir gün evin oğlu girir otağa, yavəccə qoltuq cibinnən aldığı açıq ərax şüşəsini çıxardıb dolabçiyə qoyanda nənəsi görüb soruşur:

– Bu nədi, oğul?

Oğlan əl– əyağa düşür, dil dodağını dolaşdırır ki:

– Heç nə aba, ösgürmə şərbətidi!

Bir-iki gün keçir, oğlanın nənəsinə soyux ilişdirir, boğazi qovuşur, sinəsi xır-xır xırıldır, ösgürmə qərarını kəsir. Durur gedir oğlunun dolabçasındaki şüşəni götürüb axşamacan qurtum–qurtum yarısına kimi çəkir başına.

Axşam olur, oğlan kefi saz, damaği çağ, əlində bir balaca pakat şor, püstə, bir dana xarici şagalat gəlir evə. Görür abası çadıra başında, səccadə üstündə çiltik çalıb burcudur, oxur:

– Ehtinəs siratəl müstəqim!...Ehtinəs– siratəl müstəqim!...

Da heç zad daaaaaa, oğlan baxır görür ərax şüşəsi taxçada yarı olub, iki əli olur, bir təpəsi!...

## DOKTOR VƏ XƏSTƏ

Bir gün də bir kişi sancıdan doğrana-doğrana gedir döhtürə. Döhtür bu yan, o yanıni mayna eliyənnən sora biləsinə nusxə yazıb verir əlinə, diyir:

– Buni al apar qeynət, gündə üş yol çəh başıva. İki gün sora da gəl əhvala.

Kişi gedir, iki gün sora ginə də qıvrıla-qıvrıla gəlir döhtürün başına. Döhtür soruşur:

– Bə sən toxtamamısan?

Kişi diyir:

– Əziz canuva and olsun, a döhtür, lap sən buyuran kimin nısqani saldım qazançada qeynədib gündə üş yol çəhdim başıma, hələ qalanını da üzsüzluxdi ev yaxdi başına! Amma bilmirəm niyə heş birimiz toxtamamışux?

Döhtür hirslənib bir ayri nusxə yazıb dedi:

– Bu nusxədəki şərbəti gedib davaxanadan alıb gündə bir qaşıx içəsən, başıva yaxma haaa, iş getsin qarnıva. Lazim olsa xanımın da bir qaşıx işsin.

İki gün sora kişi gəlir əhvala. Döhtür görür kişinin rəng–rufu açılıp, zərafətyana soruşur:

– Həə, de görüm əhvalın necədi?

Kişi diyir:

– Vallah, a döhtür nə elədi ki, al qaşığa çəh başıva, nə də elədi ki sındır, için ye!

## ÇİRKİN ARVAD

Bir çirkin arvaddan soruşdular:
– İstiyirsən Allah səni gözəlləşdirsin, ya da gözəlləri sənin kimi eləsin.
– İstəyirəm Allah onları mənə tay eləsin. O gözünən ki, onlar mənə baxıblar, mən də onlara o gözdə baxım.

## DÜŞ QURTAR

Bir şair çıxır şeyir oxumağa, oxuyur:
– Mən bir ağac kimi kəsili düşdüm, düşdüm, düşdüm..
Bir nəfər qalxır deyir:
– Ay kişi, bayaqdan deyirsən ki, ağacdan kəsildim düşdüm, di düş qurtar da..

## DƏDƏVÜN SAATINI QORURDU

İki gopcu goplamadan mərcləşdilər. Birinci gopçu:
– Dörd il qabax dədəmin saatı quyuya düşdü, o gün cəxartdıx, hələki indi də işləyir.
İkinci:
– Mənim dədəm dörd il qabaq düşdü quyuya neçə gün qabax sağ-salamat çıxdı.
Birinci:
– Orda neynirdi?
İkinci:
– Heç zad sənin dədəvin saatını qorurdu.

## İNDİ BU YOL ...MƏNƏ BAXIR

Qədimlərdə bir kişi varimiş, bir gözü məsnoi imiş. Hər gecə gözün çıxardıb salarmış istikanda suya. Bir gecə susuzlur, yuxu havasına durub həman istikani çəkir başına, göz gedir qarnına.

Bir-iki gün keçir, pəndam olur, qarnı burur, sancılanır, eşiyə gedə bülmür. Gedir döhtürə, döhtür diyir:

– Gərəh mədəzi mayna eliyəm.

Kişi baş tapbır, soruşur :

– O nədi, a döhtür?

Döhtür diyir:

– Şalvarı çək əşağə g... baxım.

Kişi çox təəcübünən diyir:

– Bağışla, a, döhtür, vallah mədə adında g... eşitməmişdim indiyə kimin.

Xülasə, şalvarın siyirir, döhtür baxıb çox-çox təəcübünən diyir:

– Sən bəğişlə, qərdəş, iyirmi ildi mən ... baxaram, indi bi yol ... mənə baxır!

## BU AT QURTARDI

Bir kişi bir ata mindi ki, sürsün, at gedəndə kişi dalıya süydü, az qalırdı düşsün, qorxa-qorxa səsləndi:

– Bu at qutardı, ayrı at gətirin!

## AXI, MƏN OCAQ BAŞI QOYMAMIŞAM

Bir tülkünün gözü ağrırmış, gedər həkimə. Həkim baxar deyər:

– Təmiz bir ocaq başının torpağınnan gözlərinə salsan toxdar.

Tülkü başlıyar başına döyüb ağlamağa. Həkim soruşar:

– Niyə bəs ağlıyırsan?

Tülkü deyər:

– Axı mən ocaq başı qoymamışam, ona görə ağlayıram.

## HƏR KİMƏ ÇƏKDİNİZ AZDI

Bir gün bir ər-arvad savaşar, arvad acıqlanıb əri salar eşiyə. Ər çıxar damın bacasından baxar, görər arvad şam süfrəsin

döşədi, uşaqlara qəza çəkdi, bir qabda da qəza çəkib qoydu qırağa. Kişi bacadan səslənər:

– Düzdü, mən küsməmişəm, amma o qəzanı hər kimə çəhdiz azdı!

## QİSMƏT OLSA

Qədim zamanlarda bir tacir varımış. Gedib Yəmənnən parça alıb gətirib satırmış. Bir gün aldığı parçaları top-top bardana doldurmağa məşğul idi. Yəməndəki tacir bir badam sındırır, içini ağzına qoymaq istəyir. Badam içi tacirin dodağından suyur düşür bardanın içinə. Tacir çıxır gəlir öz şəhərlərinə, parçaları bardandan çıxardanda, tacirin oğlu bir badam içi görür, götürüb atır ağzına. Tacir deyir:

– Qismət olsa gələr Yəmənnən,
Qismət olmasa, düşər dəhənnən.

## NƏNƏNİN MƏSLƏHƏTİ

Bir gün bir qızı çox kiçik yaşında ərə verirlər. Nənəsi qorxur ki, qeyin-qudası onu kiçik görüb incidərlər. Qızın ər evinə gedən günü olur. Nənə qızına nəsihət verir ki, qızım, balacasan, huşuvu yığ başına, yuxarılarda əyləş, yekələrdən danış. Toy gecəsi qız gedib dırmaşır oturur taxçanın içində, oğlan qapını açıb içəri gələndə qız bağırıb deyir:

– Duhhhhh.....fiiiiil......!!!

Oğlan huyuxur, gedir nənəsinə deyir:

– Ay nənə, bu qız səfehdi. Mən bunu istəmirəm, apar ötür dədəsi evinə.

## HƏLƏ HARASIDIR

Canım sizə desin ki, qədim zamanlar kişilərin tumanına aralıq salarmışlar. Aralığın parçası tumanın parçasınnan fərqli

olardı. Pullular aralığı bahalı zərbəft parçadan salardılar. Tumanın aralığı nə qədər bahalı parçadan olsaydı, bir o qədər tuman sahibinin var-dövlətli olduğunu görsədərdi. Günnərin bir günündə betər dövlətli bir kişi istir varlı-karlı bir yerə elçiliğa getsin. Bir şalvar tihdirir, çox betər bahalı parçadan da ona aralıq saldırır. Demə, aralığın tikişi boş imiş. Bir az sökülür, bu bilmir. Gedir qızgilə, buyurur qızın dədəsinin qarşısında oturur.

Kiçi qışlarını aralayıb lap gen-bol acub bardaş qurur ki, aralığı görünsün. Aralığın söküyü gedir başa, kişinin iç-altı görünür...! Qızın dədəsi qızara-bozara baxır bunun qıçının arasına, heç nə də deyə bilmir. Elçi görür qeyinata betər baxır onun aralığına, deyir:

– Haçağa, hələ harasıdı... Yarısı da qalıb evdə taxçada!

## BİR İŞİ DƏ ÖZÜNÜZ GÖRÜN

Bir evdə neçə uşaq varıydı. Biri çox tənbəl idi. "Oğul, dur gör yağır, ya kəsir?, – desəydin biləsinə, əlini çəkərdi pişigin kürəyinə, yaş olmasaydı, "yox, yağmır" – deyərdi.

"Dur, oğlan, batman daşın ver mənə", – desəydin, "gala, bu pişih düz elə bir batmandı" – deyərdi.

"Dur, bir içim su gəti mənə" – deyəndə, deyərdi: – "Aaaah.... hər işi mən gördüm, dur bir işi də özün gör daaaa".

## HEÇ EŞİTMƏMİŞDİM

Dəlixanada dəlinin biri ağacın altında şaqqanaq çəkib gülür. Dostu yaxınlaşıb soruşur:

-Nəyə gülürsən?

-Heç! Mən həmişə öz-özümə gülməcə deyib gülürəm. Ama bu birini heç eşitməmişdim

## BİR EŞŞƏK TAPILIR

Kişi arvadına deyir:

– Siz qadinlar heyvanat aləminə minnətdar olmalısınız.

– Necə ? Başa düşmədim...

– Tülkü sizə palto üçün, timsah çantanız üçün, ilan ayaqqabı üçün dəri verir. Axırda da bir eşşək tapılır ki, bütün bunların pulunu verir....

## SİZİN KÖLGƏNİZDƏ YAXŞIYAM

Bir yolçu isti əlindən qaçıb eşşəyin kölgəsinə sığınır. Ordan keçən xan bu kişini görüb sorurşur:

– Necəsən?

Yolcu cavab verir:

– Xan sağ olsun, sizin kölgəzdə yaxcıyam.

## QORXU YOXDUR

Xəsdə deyir:

– Döhdür, döhdür, nəqqədər şansım var düzələm?

Döhdür:

– Vallah, saya (amar) göstərdiyinə görə, bu xəstəlikdə itgi ona birdir. Mənim doqquz xəsdəmdən indiyədək biri ölübdür, pəs demək ki, sizə heç bir qorxu yoxdur.

## HƏLƏ BİR ŞEY VERMƏMİŞƏM

İki kişi danışır:

– Bu arvad daha lap məni təngitdi (zara gətirdi). Səhər–axşam "pul ver, pul ver".

İkinci kişi:

– Axi necə yanı ver, ver. Bu pulları neylir?

Birinci kişi:

– Vallah, bilmirəm ki, indiyəcən hələ bir şey verməmişəm.

## ÇOX OXŞAYIR

Bir xanımın ekiz uşağı olur. Qeynanasi gəlir yoluğuna (əyadətinə). Gəlin deyir ki, uşaqlar bir-birinə nə oxşurlar. Qeynana da deyir:

– Hə, balam. İllah bu sağdaki çox oxşur ta soldakına.

## TƏQVİMƏ ÇEVİRSİN

Arvad ərinə :

– Nə oleydi ki, tarım məni bu kitabların birinə çevirəydi, ta həmməşə mənə baxeydin.

Əri arvada:

– Tanrı səni bir təqvimə çevirsin, ta ildə dəyişə bilə.

## SƏNLƏ DEYİLƏM

Biri qucağında bir hunduşqa ilə küçədən keçirdi. Birisi soruşur:

– Bu eşşəyinən hara gedirsən?

– Bu eşşək deyil, hunduşqadır.

– Sənlə deyiləm, hunduşqaynanam.

## EŞŞƏYƏ VERİRİK

Alıcı satıcıya:

– Əmi, xiyar neçədi?

Satıcı:

– Kilosu on tümən.

Alıcı:

– Çox bahadır.

Satıcı:

– Yox bala, biz ucuz xiyarları eşşəyə veririk.

## ÖZÜM DƏ MATAM

Məçiddə bir oğlana deyilir:
– Qğlan, bəs bu taykeşik corablar nədir?
– Vallah, özüm də matam, elə evdə də bir cüt beləsi varımdı.

## ƏRİMİ DƏYİŞDİM

Bir xanım ərinə qızıl aldırmaq istiyirdi, alınmırdı. Bu xanım yoldaşına da ərindən gileylənirdi. Bir gϋn bu iki xanım raslaşarlar:
– Hən, nə gözəl qızıllar aldırtmısan, yəqin ərinin fikrin dəyişdirmisən?
O biri deyir :
– Yox, canım, ərimi dəyişdim.

## İKİ QONŞU

Birinci:
– Nədən gileylisən, niyə deyinirsən?
İkinci:
– Deyinmiyim, neyniyim? Beş qızım var, bir kϋrəkənim. Birinci:
– Mənim bu yöndən gileyim yoxdur, bir qızım var, beş kϋrəkənim.

## XAN AZ TAPILANDI

Bir xan şəhərin qiymətlərin nə yerdə olduğun yoxlamağ ϋçϋn, geyimin dəyişir, kəndi çıxır kϋçə– bazar gəzişməyə. Bir qəhvəxanıya keçir. Yumurta, çörək yeyir. Sandığa keçir, yumurtanın qiymətindən məətdəl qalır. Qəhvəçidən soruşur:
– Sizin şəhərdə yumurta bir belə tapılmıyan şeydir. Qəhvəçi deyir:
– Yumurta yox, burda xan az tapılandı.

## İKİ ÇÖRƏK VERİN

Gecə yarı bir qoca yolçu yolüstü bir evə düşür. Ev yiyəsi yemək yemişdi, qonağı da yemiş bilir. Qocaya çox yumuşaq yorğan-döşək saldırır, yatırlar. Qoca neylir, acından yatanmır, hey dəbərcələnib qurcalanır. Sonda ev yiyəsin çağırır ki, ay balam, mən bir yoxsul qocayam, bu yumuşaq yorğan– döşək mənim canımı ağrıdır. İki çörək verin mənə, birin yastığ eləyib, birin də yumşaq yorqan edib, üstümə sarıb yatım, siz də dinc, mən də dinc olaram.

## POLİS VƏ SÜRÜCÜ

Polis bir maşını saxlayır və sürücüyə deyir:

– Siz ilk adamsız ki, bu yol qaydanı pozmadan keçdiniz...təbrik edirəm, bu da sizə 100 manat hədiyyə...

– Ooo, çox sağ olun, indi o pula özümə sürücülük vəsiqəsi alaram.

– Nə? Sizin vəsiqəniz yoxdu?

Bu anda arvadı deyir:

– Çənab polis, fikir verməyin o, sərxoşdu, nə danışdığını bilmir!

– Nə? Sərxoşdu? Siz nə danışırsız?

Bu anda qaynana səslənir:

– Alçağ!! Sənə demişdim axı bu oğurlanmış maşınınla heç yerə gedib çıxa bilmərsən!!!

– Nəəəəəəə? Oğurlanmış maşın? Başıvıza hava gəlib??

Bu anda baqajnikdən səs gəlir:

– Eeeee,nooldueee, hələ sərhəddi keçməmişik?

## BİRDƏFƏLİK KAFƏR OL

Oğul:

– Oruc tutmursan tutma, daha nə üçün obaşdan durursan?

Oğul:

– Müsülmançılıqdı da!.... Namaz qılmıram, oruc tutmuram, obaşdan da durmuyum, elə yerli dibli, birdəfəlik kafər ol da de.

## VƏSİYYƏT

Bir pullu kişi vəsiyyətsiz ölür. Arvadı istir ki, kişidən qalan sovğanın hamısın özü höpürdətsin. Belə bir kələk işləyir. Onların məhəllələrində bir pinəçi tanışı varıdı ki, ərinə çox oxşayırdı. Arvad tələsik gedib pinəçiyə olanı danışıb, ondan kömək istəyir ki, əgər, sovğanı qapsamaqda kömək eləsə, samballı bir para verəcək. Pinəçi qəbul edir. Arvad pinəçinin üz-gözün basırıb, ərinin döşəyində yatızdırır, ərinin ölüsün də bir yerdə gizlədib, qaçır mollaya ki, ərim ölüm ayağındadır, səni çağırır. Mollanı götürüb, yolüstü bir-iki kişi də tanıq kimi götürüb evə tələsir. Gəlirlər pinəçinin başı üstünə. Pinəçi, ərin səsin yansıdıb, zarıldıya -zarıldıya belə deyir:

– Ay molla, daha mən ölürəm, son nəfəsimdir, çün arvadımı çox sevirəm, malımın yarsın ona bağışlayıram, yarısının beşdə birin sənə ki, bir ömür tanrının savçısı olmusan, qalan beşdə dördün də, bizim o pinəçi qonşumuza ki, həm qocadır, həm də yoxsul, bir sürü də çoluğ -cocuğu varıdır. Bəlkə allah mənim günahlarımdan keçdi. Elə bu sözləri deyib artıq susub gözlərin axdırır. Arvad görür ki, bir söz desə, işin üstü açılıb, o yarısı da ona yetişməyəcəkdi, əlacsız qalıb bir söz daha deyənmir.Vəsiyyət də böyləsinə işə keçir.

## ANADAN DOĞMUŞ KİMİ BURAXIB

Günlərin bir günü, biri tiryək çəkmək istəyib, gedib bir otçudan alıb çəkir. Gedir hamama. Hamamda düşünür ki', ədə bu tiryək heç təsir görsətmir axı. Lüt çıxır gedir otçunun yanına, deyir:

– Dədə, bu sənin bu zadın nəşə vermir axı.

Otçu:

– Qoca! Nəşə verməsə də, səni anadan doğmuş lüt cocuğ kimi buraxıb.

## QUŞ HƏDDİNƏ DÜŞDÜ

Bir gün bir kiçi bir hacıleylək tutur. Gətirib hacıleyləyi qoyar qabağına, o yana döndərər, bu yana döndərər, ha baxar, onu o biri quşdara bənzədənməz. Gətirib iki qıçını da kəsib qısaldar. Baxar, deyər:

– Hə, ... indi quş həddinə düşdü baaa...!

## ÜŞ AY MƏN SƏNƏ GƏLƏLİ, ÜÇ AY SƏN MƏNİ ALALI, RƏCƏB, ŞƏBAN , RƏMƏZAN, BU DA DOQQUZ

Kişi evləndiyindən üç ay sonra, arvadının uşağı oldu. Kişi arvada şəkk edib dedi:

– Arvad, mən bildiyim qədər uşaq ana bətninə düşəndən doqquz ay sonra doğular, axı biz üç aydır evləmişik !

Arvad özünü haqqlı adamlar kimi göstərib dedi:

– Niyə üç ay? Bax , üç ay mən sənə gələl, üç ay sən məni alalı, Rəcəb, Şəban, Rəməzan, bu da doqquz ay !

## BELƏ OTLAMISAN HANI YAL QUYRUĞUN?

Keçi qoyunu danlayırdı:

– Bir az g... başını çək, əl – ayaq elə mənim kimi qabağa düş otlardan, göyərtilərdən yaşıllarını, yaxşısını ye.Dalı qalırsan, mənim, ya o birilərin artığını yeyirsən, ondan sənə nə olacaq ?

Qoyun keçiyə dedi:

– Bəs belə otlamısan hanı yal quyruğun?

## BU AYAQDAN DƏVƏ UŞAQ İMİŞ

Bir kəndin düzündə bir dəvə, bir inək, bir qoç otlayırdılar. Bunlar bir parça yaxşı, yam-yaşıl ota tuş gəldilər. Hərəsi bu otu sadəcə özü yemək istədi. Kim yesin, kimlər yeməsin, dəvə dedi:

– Gəlin hər hankımızın yaşı çox oldu, o yesin .

Quzu dedi:

– Mən elə haman həzərəti– İsmayılın yerinə göndərilən qoçam. İkizim, hər ikimiz də bir nənədən sud əmmişik !

İnək baxdı ki , qoç çox yaşlı oldu. Fikrləşib dedi:

– Mən cənnətdə otlayırdım, yeri şuxumlamaq üçün cənab həq məni " həzərəti– Adəm " hicri əthaf edib yerə göndərdi !

Dəvə gördü, ay balam, bunlar çox yekə danişdılar, sıçrayıb tez otları yedi dedi:

– Elə də bu ayaqdan dəvə uşaq imiş.

## BURADA BELƏ ELƏSƏ, GÖR FİTİLBÜRGDƏ NƏ EYLİR!

İran Rus savaşlarında, qoşun topçularından biri Abbas Mirzənin yanına gəlib “qurban, elə bir top düzəltmişəm Fitilbürgü də vurub dağıtmaq olar” dedi.Abbas Mirzə əmr verdi, topu hazırlayın sınayaq. Topçu gəlib hazırlıq apardı.Elə ki, Abbas Mirzə gəldi, topçu çaxmağı alişdırıb topu atdı. Güman top bir az irəlidə yerə düşüb hər yeri toz – torpaq bürüdü. Toz – torpaq çəkiləndən sonra Abbas Mirzə dedi:

– Əcəb yaman toz – torpaq salır.

Topçu ki, baydırdığın hələ özü də bilməmiş imiş dedi:

– Qurban, burda belə eləsə, gör Fitilbürgdə nə eylir ?

## AZ OLUR KÜSÜR, ÇOX OLUR QUSUR

Neçə nəfər düzən qurmuş, sərxoşluq edirdilər. Biri saqidən tez-tez bardağın doldurmağını istəyirmiş. Saqı bir-iki dəfə bardağı doldurdu, amma sonra özün eşitməzliyə vurdu. İçkı tələb edən üzünü turşadır küsdü . Küsəndə saqı hirslənib dedi:

– Az olur küsursən , çox olur qusursan, mən bəs neyliyim?

## AĞACAN, EŞŞƏK– EŞŞƏKDƏN DE (AĞACAN EŞŞƏKDƏN DANIŞ)

Bir axşam kişi arvadı ilə söhbət edirdi:

– Arvad, maşallah oğlan evləndirəməli olubdur. Elə yavaş – yavaş oğlanı evləndirmək fikrində olmalıyıq.

Arvad dedi:

– Kişi, evləndirəmk üçün pul – pələ lazımdır, necə evləndirək?

Kişi dedi:

– Arvad, yorğanı sıxma, eşşəyi satıb pulunu toya xərc edərik.

Elə bu sözdə oğlan evə gəldi. Kişi oğlunun üzü açılmasın deyə, sözü çevirib başqa şeydən danişdı. Amma deyəsən oğlan qapı dalısında sözləri eşitmişdi. Neçə müddət keçdi,oğlan gördü evləndirəməkdən söz-sorağ yoxdur. İstədi atasının yadına salsın, amma utandı, dedi:

– Ağacan, eşşək – eşşəkdən de. ( Ağacan eşşəkdən danış. )

## AĞACAN, BU İL BİRİMİZİ EVLƏNDİR, GƏLƏN İL DƏ DADAŞI

Bir axşam kişi arvadı ilə söhbət edirdi:

– Arvad, maşallah, oğlanlarımız evləndirəməli olublar. Elə yavaş – yavaş oğlanları evləndirəmək fikrində olmalıyıq.

Arvad dedi:

– Kişi evləndirəmək üçün pul-pələ lazımdı, necə evləndirək?

Kişi dedi:

– Arvad yorğanı sıxma, eşşəyi satıb pullunu toya xərc edərik.

Arvad dedi:

– Axı, kişi ikisin bir yerdə evləndirəmək mümkün deyil!

Oğlan ki, qapı dalısında sözləri eşidirdi, içəri gəlib özünə çarə yolu qılanlar kimi, haqlı göstərib dedi:

Ağacan, bu il birimizi evləndir, gələn il də dadaşı!

## DEYİNƏN ONUNKU QALIB ALLAHA

Bir kişi şələ-şulasın bağlayıb ova çıxmaq istədi. Arvadı soruşdu:

– Bir belə şey götürübsən, məyər nəmənə ovlayacaqsan ?

Kişi dedi:

– Tülkü.

Arvad soruşdu:

– Məyər tülkünü nə cür ovlayacaqsan?

Kişi dedi:

– Ol oxu quyacağam yaya, tülkünü ovlayam, ox dəyməsə de neyliyəcəksən?

Arvad dedi:

– Neyliyəcəksən?

Kişi dedi:

– Tüfəng ilə ovlayacağam, əyər güllə dəyməsə, de neyliyəcəksən?

Arvad soruşdu:

– Neyləyəcəksən?

Kişi dedi:

– İti kuşqurdacağam, əyər ovlaya bilməsəm, de neyliyəcəksən?

Arvad soruşdu:

– Neyləyəcəksən?

Kişi dedi:

– Tülkü ki, yuvasına qaçdı, yuvada cida ilə onu ovlayacağam, əyər olmasa de, neyləyəcəksən?

Arvad dedi:

– Neyləyəcəksən?

Kişi dedi:

– Bu ağacları yuvanın ağzına düldurub odlayacağam, tülkü çıxanda tutam.

Arvad dedi:

– Bu dəfə deginən onunku qalıb allaha.

## DAHA HEÇ ZAD

Qoca bir kişi düzəltdiyi küp-kuzələri eşşəyə yükləyib satmaq üçün şəhərə sarı yola düşdü. Qoca gəlib şəhərə çatdı. Şəhərin dərvazasından içəri gələndə qapı gözətçisi əlindəki ağacını möhkəm eşşəyin yükünə çırparaq qocadan soruşdu:

– Əmi, yükün nədir?
Qoca dedi:
– Daha heç zad.

## HƏR GÖZƏLİN BİR EYBİ OLAR

Keçmişlərdə oğlanın birinə bir qız alırlar. Sabahısı gün oğlan gəlir anasının yanına ki, bu nədi mənə almısız?

Anası deyir:

– Nəydir ki, bala?

– Laldır.

– Olsun, eybi yoxdur, çox danışıb başımızı ağrıtmaz!

– Gözünün biri kordur, biri çeri!

– Yaxşı da, eybimizi görməz !

– Axı, topaldı da !

– Olsun, qapı-qapı gəzməz !

– Bəs keçlliyinə nə deyirsən?

– Ay oğul, hər gözəlin bir eybi olar da !

## HƏLƏ OCUDUR (HƏLƏ İŞİN ƏVVƏLİDİR)

Bir fil ilə serçə əldəyişik etmək istirlər. Serçə işə başlayanda fili ilan sancır. Fil hay-bidırıq salır. Serçə deyir:

– Hələ ocudur (hələ işin əvəllidir).

## HƏLƏ HARASIN GÖRMÜSƏN?

Bir oğlanı evləndirmişlər. Oğlan qızı ilk dəfə görüncə fikirləşir ki, qoy buna bir iş deyim dursun bəlkə ayağa qalxsın boyuna – buxununa baxım. Onun üçün qıza deyir :

– Ay xanım, dur mənə bir çay gətir!

Qız durub gedəndə oğlan görür ki, qızın bir ayağı axsayır. Qız handan-gecdən rəngsiz bir çay süzüb çalxalana-çalxalana

gətirib oğlana tütür. Oğlan çayı götürəndə qızın bir əlinidə altı barmaqlı görüb, soruşur :

– Bu nədir ?

Qız cəvab verir:

– Hələ halasın dülmüsən.

## ARVAD SÖZÜNƏ BAXMAĞIN FAYDASI

Yezid zamanı bir kişi arvadıyla damda yatmışdılar.

Arvad dedi:

– Kişi, çəkil bu yana düşərəm yerə.

Kişinin yadına mollanın sözü düşdü ki, deyirdi: -Arvad sözünə baxmayın.

Arvadın sözünə baxmadı dalı çəkildi. Arvad yenə dedi:

– Külbaş,az qalır düşəsən yerə, bu yana çəkil.

Kişi yenə dalı çəkilir. Üçüncü dəfə dalı çəkiləndə damdan düşüb qıçı sındı. O gecənin sabaxısı yezidin əmriylə camaəti yığıb İmam Hüseynə qarşı savaşa aparırdılar. Bu kişinin qıçı sındığına görə aparmadılar.

## O QƏDƏR İŞİM VAR Kİ, ARVAD BOŞAMAĞA DA VAXTIM YOXDUR

İşsız bir kişi ış tapmaq üçün şəhərlərinin tərkin qılıb başqa şəhərə yollandı. Kişi gəldiyi şəhərdə ışçilər meydanında gəlib felə aparmaq üçün intizarında dayandı. Bir azdan sonra kişi gördü elə bil bir cinəqli daş belinə dəydi. Dönüb baxanda gözü bir qadına sataşdı. Öz-özünə "şayəd səhv edirəm" deyib başını aşağa tikdi. Bir-iki dəhqədən sonra yenə bir cinəqli daşın belinə dəydiyin hiss etdi. Bu dəfə öz-özünə "daha belə səhv ola bilməz" deyər, dönüb arvada dedi:

– Bacı, burax mən iş üçün bura gəlmişəm.

Arvad dedi:

– Qardaş, mənim pulum – param var, amma ərım yox, gəl mənlə evlən sənin pulun olsun, mənim də ərım. Daha sən iş axtarma, mən də ər!

Kişi öncə dedi, bəs arvad şüxlüq edir, amma sonra arvadın ciddi olmağın bilib arvada hən cavabı verdi və arvad ilə evləndi Bunlar, bir müddət arvadın pul– parası ilə yaşadılar. Bir müddət sonra arvad kişiyə dedi:

– A kişi, axı sadəcə mənim pulum – param ilə yaşamaq olmaz, ancaq bir gün bu pul qurtarar. Gəl bir ış sahibi ol !

Kişi dedi:

– Arvad, məsəla, nə işi görüm ?

Arvad dedi:

– Gəl bir az yeralması bişirəm, get qəlyan altı zamanı üstu örtülü çarşıda dayan sat!

Beləliklə, arvad bir az yeralması bişirib verdi, kişi nahara qalmış üstu örtülü bazarda dayanıb yeralmaları satdı.

Bir müddət keçdi arvad dedi:

– A kişi, axı sadəcə yeralması satmaq ilə keçinmək olmaz . Gəl bir az da noxud bişirəm bunu da yeralma satandan sonra haman bazarda dayan sat!

Beləliklə, sabahdan arvad bir az noxud bişirib kişisinin əlinə verdi, kişi də yeralma satandan sonra dayanıb noxudu da satdı.

Bir müddət keçdi, arvad kişisinə dedi:

– Kişi, deyirəm elə sadəcə yeralması, noxud satmaq ilə ev dolanmaz, gəl bir az da ləbləbi bişirim dayan yeralması – nuxuddan sonra axşam çağı elə həmin bazarda ləbləbini də sat.

Beləliklə, arvad sadəcə yeralma, noxud və ləbləbi yox, bəlkə beş-altı iş kişiyə bəndlədi və kişi səhər yuxudan qalxandan axşam beyvaxta kimi işlədi.

Bir gün iş vaxtında kişinin işsız vaxtı iş axtaran düstlarından biri rast gəldi. Onunla bərabər iş axtaran düstu, bunun işə keçə biləcəgindən soruşdu. Kişi təmam qəzayanı düstuna danişib arvadının əlindən dad bezişdiyindən danışdı. Dostu dedi:

– Qardaş, əyər belədir, arvadı boşa qurtul!

Kişi dedi:

– Allah, o qədər işim var ( başım o qədər şülüq dür ) ki, arvad boşamağa da vaxtım yoxdur!

## BİR KEÇİ TAPMIŞAM

Bir kişi şöldə keşi tapıb evinə gətirdi. Arvadı dedi:

– Kişi , bu keşi özgə malıdır, sahibini tap sahibinə qaytar.

Kişi keçi tapmaq hökmünü öyrənmək üşün hakimə gəldi. Hakim dedi:

– Bir güzarda dayan, keçinin tapdığını ucadan səslə camaata bildir. Əyər sahibi tapıldı keçini sahibinə qaytar, yoxsa sahibi tapılmasa keçi sənin özünə çatar.

Kişi gəlib, bir güzarda dayandı, uca səslə « bir keçi .. . » bağırıb sonra davamında yavaşcadan da « . . . tapılıb» deyirdi .

Kişinin arvadı rast gəldi, dedi:

– Kişi, niyə sözün bir azın uca səslə, bir azın da yavaş səslə deyirsən?

Kişi dedi:

– Arvad, səsini şıxarma, belənşi həm hakimin əmrini yerinə yetirirəm, həm də özümüzə bir keçi qazandırram.

## BELƏ Kİ YEL ƏSİR, HEÇ ZAD

İsfahanlı at üstə gedərkən, pulk yeyirmiş. Birdən yel qopdu, yel isfahanlının əlindəki pulkələri yavaş -yavaş sovurdu. Yoldaşının gözü bunun yemyinə sataşarkən soruşur:

– Nə mənə yeyirsən?

İsfahanlı deyir:

– Belə ki, yel əsir, heş zad!

## BİZƏ NƏ QALDI?

Molla minbərdə cənnətin hər bir nemətin kişilərə müjdə verirmiş ki, arvadlardan biri molladan soruşdu:

– Molla, bəs biz arvadlara nə qaldı?

Molla bir az fikrə cumub dedi:
– Açıq ağız!

## P..... YEMƏYİ BƏS DEYİL, HƏLƏ HƏDİS DƏ DEYİR

Səhər erkən tülkü yol alıb gədirmiş ki, təzək dimdikləyən bir qarğaya tuş gəlir. Tülkünün ürəyi bulanıb deyir:
– Ay qarğa, bu nə işdir ?
Qarğa deyir:
– Təzək də mənim yeməyimdir. Tülkü, eşitməmisən dəyərlər, «subh çağının tikəsi bədənə mix kimidir »
Tülkü deyir:
– P...... yemağın bəs dəyil, hələ hədis də deyirsən?

## DAĞ GƏLMİR, MƏN GEDƏRƏM

Biri peyğəmbərlik iddiası edir, camaat deyir:
– Möcüzə göstər!
Kişi deyir:
– Nə möcüzəsi?
Camaat deyir:
– O dağı çağır yaxına gəlsin!
Kişi dağı çağırır, xəbər olmur, yenə təkrar dağı çağırır, amma dağdan xəbər olmur. Görür yalanı üz olur, deyir:
– Peyğəmbərlər şikəstə nəfs olar, dağ gəlmir mən gedərim!

## DEMƏSƏYDİ ELƏ TÜKLÜ – TÜKLÜ YEYƏCƏKDİM

Bir arvad kişisin zorlayır ki, o dur ba hamı padşaha töhfə aparır, o da yaxşı xələt verir. Ya Allah, sən də bir töhfə apar, bəlkə ilxısından sənə də bir atdan – zaddan verə.
Kişi deyir:
– Axı, nəmənə aparım?
Arvad deyir:

– Nəmənə aparacaqsan, dur dünənki ovladığın sonanı götür apar!

Arvadın sözləri kişinin qafasına batıb ovladığı sonanı götürüb saraya yollanır. Kişi gəlib saraya çatır, izin alır. Ovcu kişi padşahın yanına gəlir və sonanı padşaha verir. Padşah baxır ki, kişinin əlbisəsi cırıq– dağıqdı, yazıqlığı gəlir, sonanı özünə qaytarıb, deyir:

– Bu sonanı aparacaqsan evinə, verəcəksən arvadın tüklərin yolacaq, yolandan sonra qarənin təmizləyib yuvacaq, ondan doğrayacaq, sonra bişirib birlikdə yeyəcəksiz.

Ovcu kişi sonanı qoltuğuna vurub, saraydan çıxaraq « sən deməsəydin elə tüklü – tüklü yəyəcəkdim ! » deyir, narahatlığını padşaha bildirir.

## GÖY MUNCUQ KİMDƏDİR, MƏNİM GÖZÜM ONDADİR

Bir kişinin iki arvadı var imiş. Bunlar tez-tez kişidən suruşurdular ki, hankımızı şox istəyirsən?

Kişi bu sözün cavabın rahat deyə bilsin, yavaşca hər arvada bir göy muncuq verib dəyir:

– O biri arvad bilməsin, mən səni şox istədiyim üşün bünü sadəcə sənə verirəm.

Ondan sonra nə vaxt arvadlar soruşurdular, hankımızı şox istəyirsən? Kişi deyirdi:

– Göy muncuq kimdədirsə, mənim gözüm ondadır!

## ALLAHA QURBAN OLUM BİR EVDƏ İKİ HOA VAR

Qədimlərdə əv-əşik tikmə imkanı olmayanlar bir otağı neçə yərə bölüb, iki, ya bəzən də üç ər-arvad yatardılar. Bir ifritə arvad otağa gəlib pərdə arxasında qızı və ərinə baş çəkir. Bunlar bir az aralı yatmışlar. Arvad qızı və ərinə deyir :

– Otaq soyuqdur, bir-birizə yaxınlaşın, bəlkə üşümüyəsiz.

Sonra pərdənin o bir tərəfinə keçib oğlu və gəlinin görür ki, qucaqlaşıb yatıblar. Arvad qısqanıb onlara xitabla deyir :

– Gözətləyin bu ısı hovada süyüq alarsız. Bir az fasiləhli yatın da, nə xəbərdi

Gəlin ki diqqətlə qabağkı sözləri eştmişdi, deyir :

– Allaha qurban olum, bir əvdə iki hoa var.

## BOSTAN OLUB

Bir kişi xəstə olur, oğlun çağırıb deyir :

– Oğul, get həkimə de atam xəstələnib, dərmanımı al gətir .

Oğlan soruşur :

– Atacan, əhvalatını necə deyim?

Kişi deyir :

– Deginən barmaqları şişib xiyar kimi, gözləri eşigə pıtlayıb bamadur kimi, başı yellənib qarpız kimi ......

Elə bələ deyəndə oğlan atasının sözünü kəsib deyir :

– Dədə, onları yadda saxlamaq yerinə bir dəfəlik deyrəm dədəm bustan olub.

* * *

Bir oduncu eşşəyin yüklüyüb şəhərə sarı gedir.Yolda iki alverci onu görüb soruşdular:

– Görəsən, bu eşşək indi nə düşünür?

Oduncu:

– İndi düşünür ki, yük daşımaqdan yorulub getsin alver eləsin.

* * *

Dədə oğula :

– Oğul, nə düzəldirsən?

– Dədə, palçıqla oynuram.

– Olsun, nə düzəldirsən?

– Məktəb.

– Məəllimi də olcaq?

– Palçığım çatsa (olacaq).

* * *

Biri yoldaşından soruşur:

– Neynirsən?

– Yoldaşıma kağaz yazıram.

– Adresi varındı?

vYazıram göndərsin.

* * *

Bir qadın uşağı döhdürə götürür:

– Bu uşağın nəyidir?

Döhdür yoxlayandan sonra soruşur.

– Xanım, bu uşağın yeməyi azdır, soyunun.

Döhdür qadını yoxlayıb belə deyir:

– Xanım, sütüz azdır?

Qadın:

– Döhdür, mən uşağın xalasıyam.

* * *

Bir nəqqaş tələsik duvarı rəhlirdi. Soruşdular ki, nədən belə tələsirsən. Dedi:

– Qorxuram boya qurtula, işim yarımçılıq qala.

* * *

Biri dosduna bir söz danışır, deyir ki, kimsəyə deməsin. Ertəsi gün birincisi deyir ki, sənə deməmişdim ki, ona (bir başqasına)demə.

İkincisi cavab verir ki, bəs mən ona demişdim ki, sənə deməsin.

* * *

Qazi suçluya:

– Sən necə qıydın bu adam ki, sənə belə inanırdı, başına börk qoyasan?

Suçlu:

– Axı, sən de görüm, mən necə eliyə billəm, mənə inanmayanın başına börk qoyam?

* * *

Birisi (bir nəfər) yoldan keçən birini saxlır deyir:

– Mən sizi Urmuda görmüşəm.

O biri:

– Mən indiyədək Urmuya gedməmişəm.

– Necə olur, mən də heç gedməmişəm.

* * *

– Əzizim, de görüm, sənin ilk eşqin mənəm?

– Əlbətdə ki, sənsən. Amma mat qalmışam ki, nədən hammı kişilər bunu soruşurlar.

* * *

Kişi arvadından soruşur:

– Neçə uşaq istiyirsən?

– Dörd.

– Nədən?.

– Çünki deyillər, yer üzündə doğulan uşaqların beşdə biri çinlidir.

* * *

Bir kor evlənir, yoldaşı gəlir görüşünə, deyir:

– Tarı qorusun, xanımın "gül" kimidir.

Kor:

– Mən də elə hiss edirəm.

Yoldaşı:

– Sən onu necə hiss edə bilirsən?

Kor:

– "Tikan" larından.

* * *

Bir ata oğluna öyüd verirdi:

– Oğul, onunla nə işin var, niyə ayaq qoyursan quyruğuna? Oğul:

– Dədəm, onun quyruğu hər yandadır. Sən ona de, quyruğun mənim ayağ altımdan çəksin.

* * *

Bir qız da varmış, yaşı keçmişdi, gəlin olur. Nənəsi qorxur ki, qeyin-quda bunu təpəqarama eləsinnər. Ər evinə aparanda nənəsi biləsinə deyir:

– Ay qız, aşağılarda əyləş, kiçiklərdən danış.

Toy gecəsi qız gedib oturur dalanın astanasında. Oğlan gələndə ağzını əyib deyir:

– Hə, bax, iytislaya, göy nə balacadıləy...! (gəl bax ulduzlara, gör nə balacadılar).

Oğlan da gedir nənəsinə ki, ay nənə, bu qız səfehdi, mən bunu istəmirəm.

## XALQ TƏBABƏTİ

## ARALIQ DƏRMAN VƏ ƏLACLARI

- Behdana ( boğaz ağrısı olanda verilir, ağızda isladılır).

Boğazgəlmə dərmanı: qurdun kəsilmiş əlini boğaza çəkərlər, boğazgəlmə toxtayar.

- Buz– °uvərən (yayda isti vuranda verərlər).
- Çartuxum (öskürək zamanı verilir).
- Dağ nabat (soyuqdəymə, ishal halında istifadə olunur).
- Ənnab, piy-zəncəfil (ağrı olan nahiyyəyə çəkilir və ağrını götürür).
- Göyzaban-bənövəşə (soyuq dəymədə istifadə olunur).
- Girdə keşniş, raziyanə, nanəərağı (ürək bulanması üçün istifadə olunur).

Quymaq xəmiri: Sarı yağı qoyarlar dağlanar. Ona azca un atarlar, qoyarlar soyuyar, götürənə yaxın bir dənə yumurtanın sarısın vurarlar, ondan sonra qoyarlar yanığın üstünə.

- Məkə teli – gilas çöpü (böyrək daşı xəstəlikərində isifadə olunur).

Sancılanmanın dərmanı: Hər kim sancılansa bir üşağın peşəbindən onun qarnına sürtərlər, sancısı toxtanır.

- Sərin şirə, reyhan toxumu, müxəh cövhəri (diş ağrısında istifadə olunur).
- Süt aşı: Süt aşın bişirib qoyarlar qolun, ya qıçın tutulan damarının üstünə bağlayarlar.
- Şanəstərən (soyuqluq və qarın sancısı üçün istifadə olunur).

* * *

**Badkəş salmaq** – Bir adama soyuq dəyib kürəyi ağrıyanda kürəyinə badkəş salardılar. İndi də az-çox bəziləri salırlar. Kiçik tikələrinin içinə kül doldurar, uclarını yığıb sapla boğar, başını nəftə batırıb kürəyə qoyar, kibrit çəkib od vurarlar. Əlbəhim istəkanı üzüqoylu onun üstünə qoyardılar. İstəkanın içində hava

az olduğuna görə kürəyin ətin sorardı. Beləliklə, görərdin on-on beş badkeş salıblar. Bəziləri bala küpədə salardı ki, əlbəttə, təhlükəli idi və hərdən çəkib kürəyin sümüyünü də əmərdi.

**Baş ağrısı** – Başı çox ağrıyan adama saman suyunu qaynadıb, buxarın verərdilər.

**Boğaz gəlmək** – Bir adamın boğazı gəlsə idi, bir bilən adama aparardılar ki, boğazını bassın. O adam bunun boğazını piyləyib sığallayardı.

**Böyrək daşı** – Böyrək daşı olan adama qərə turp yeməyin xeyri vardır.

**Dalaq** – Gecələr yerinə işəyən uşağa dananın dalağını kəbab edib yedirdər və deyərdilər, bunu yeyirsə, beli bərkiyər, yerinə işəməz.

**Diş qamaşmağı** – Bir adam ərik paxlası yeyib dişləri qamaşarsa əriyin yarpağını çeynəyərdi.

**Döşü gəlmək** – Bəzən süt verən avadın döşünün biri şişir və bərkiyib ağrıyır.Onun ağrısından belə arvad üşütmə-gizmə (qızdırma, təb və ləvəz) tutur. Belə olunca deyirlər: “sən umubsan və döşün gəlib. Belə durumda ana ağrının şiddətindən körpəsini əmizdirə bilməz. Bu süd uşağın sağlamlığına ziyan verər. Süd verən ana bir yerdə yemək iyisini duyub, o yeməyi arzulayıb göylündən keçirtsə,amma ona əl çatmasa döşü gələ bilər. Bu durum hər kəsin başına gələ bilər, amma süt verən ananın döşünün gəlməsinə nədən olur. Döşü gələn şəxsin döşünün yaxşılaşmasından ötürü özü bilmədən bir ayrı şəxs bir yumurtdanı (ayrı yemək də ola bilər) suda bişirib, onu soyub, çörəgin arasına qoyub, onun evinə gedir.O şəxs özü bilmədən ona yaxınlaşıb, yeməgi onun kürəginə vurub, diksindirir və deyir: ”Umacağını gətirmişəm!” Sonra yeməgi ona verib yeməsini istəyir. O şəxs yeməgi yeyib yaxinlaşır və döşü qayıdır.

Mal-heyvan belə olanda, onun əmcəginə (məməsinə-yelininə) qurd əlinin dırnaqlarını, yoxsa çaqqal oxunu üç dönə vurub, heyvanı diksindirirlər, deyirlər, “əmcəgi qayıdar” .

**Gözdə xarici şey** – Böyük uşağın gözünə xarici bir şey düşərdisə, gözünü yavaşca övkələyir və deyərdilər: “çucucu”...

**Gil** – analar körpə uşaqların qıçları bələkdə bişməsin deyə, qıçlarının biri-birilə təmas tapan yerlərinə gil yaxıb bələyərdilər.

**Həcəmət almaq** – Qədim zamanlarda yaz fəslində həcəmət alardılar. Həcəmət məxrut şəklində bir içi boş yontanmış buynuz idi. Həcəmət aldıran adam hamamın aşağı başında yanın yerə qoyub oturar, hamam dəlləyi onun kürəyinin ortasına neçə yerdən məvazi çırtardı. Dəllək həcəmətinin gen başını onun kürəyinə elə yapışdırardı ki, çırtılan yerlər içəridə qalsın. O birisi başının dibindən çıxan qanları həcəmətin gen başıyla sivirib neçə dəfə eyni əməli təkrar edərdi. Deyərdilər ki, həcəmət aldıranda bədənin qanı çıxar və bu əməl sağlamlıq üçün yaxşıdır.

**Həsbə** – Yer qurdunu torpaqdan çıxardar, azar həsbəsi olan adama yedirdərdilər.

**Xına əlac üçün** – Barmaq dırnaqları tilişkələşəndə, əl və ya ayaq dərisi, məxsusa barmaqlar qabıq qoyanda əlac üçün xına yaxardılar. Əllərin bərkiməyi üçün də xına yaxar və hərdən xınaya maz və göy girdəkan qabıyının suyunu qatar və yaxardılar. Qoca arvadlar ağ saçlarını, qoca kişilər ağ saqqallarını boyamaq üçün xına qoyardılar.

**Xoruzək** – Bir adamın dediyinə görə, xoruzək tutan adamın başının üstünü çırtar və soğan qoyardılar.

**İsti vurmaq** – Söyüd yarpağı, pərpinə(bir cüt ot), binəbaşı və yeddi meyvə ağacının (hər meyvə olarsa olsun) yarpağını bir qazan suda qaynadar, soyuyandan sonra isti vuran adamı bu suda çimizdirərdilər.

**Kiprik seyirmək** – Gözün qapağı sıyıranda bir yüngül çöp, məsala saman çöpünü eşikdən gözün qapağına yapışdırardılar.

**İsti vurmaq** – Söyüd yarpağı, pərpinə(bir cüt ot), binəbaşı və yeddi meyvə ağacının (hər meyvə olarsa olsun) yarpağını bir qazan suda qaynadar, soyuyandan sonra isti vuran adamı bu suda çimizdirərdilər.

**Qızılca** – Qızılca tutan adama eşşək südü içirdərdilər.

**Suluk salmaq** (zəli) – Qırx neçə il bundan əvvələrdə bir bala küpəyə su doldurar , içinə ac suluklar salar, bir kişi gətirib küpəni dolandırıb satardı. Arvadlar o suluklardan alar, şüşə bir qabın içində özlərinə qoyardılar. Kəris və ac suluk ətə yapışar və adamın qanını sora-sora getdikcə şişərdi. Suluk haldan düşəndə çəkib atardılar. Qulağın dibi və qıça da suluk salardılar. Məsəla, deyərdilər ki, ağrısı toxtayar, bədənin murdar yilin çəkər. Deyilənlərə görə, bəziləri suluk salandan sonra qulağı batıb, ya qıçı tutulmuşdur.

**Tin vurmaq** – Tin vuran adam alnını sirkə ilə yuyarlar.

**Tüstü** – Körpə bələk uşağı dalbadal vəngildəyib sakit olmayanda böyüklər deyirdilər ki, bəs qulağı ağrıyır, qulağına tüstü verərdilər. Ata və ya başqa bir adam siqarın közərən başını öz ağzına soxar, o birisi başını uşağın qulağına tutar və püfləyərdi. Beləliklə, uşağın qulağına tüstü gedərdi.

# MƏRASİMLƏR

## Cillə

Böyük çillə: Qış fəslinin və Novruz bayramının ən birinci və başlanış şənliklərindən və komediya – dram mərasimlərindən biri olan çillə mərasimdir. Bu çillə sözünün və adının mənası üstündə də fikir ayrılığı vardır. Məsələn, bizlər deyirik ki, çillə kəlməsi cehel-qırx deyil və çiləmək sözündəndir.

Kiçik qardaş (kiçik çillə) böyük qardaşdan (böyük çillədən) soruşur: – Sən gəlibsən, neyləyibsən? Əgər mən gələrsəm:

Şaxtami kəndə salaram,
Ağacları catladaram.
Hər yanı buz bağladaram,
Tamam xalqı ağladaram.

Bu sözlərin qabağında böyük qardaş (böyük çillə) cavab verər:

Qabağın yazdı sənin,
Ömrün azdı sənin.
Hərbə – zorba demə çox,
Fikrin doyardı sənin.

Ay çillə-çillə, qardaş,
Atın qamçıla, qardaş.
Bir gəldin danışmadıq,
Qəlbim açıla, qardaş.

# AXIR ÇƏRŞƏNBƏ BAYRAMI

**Axır çərşənbə axşamında od yandırmaq**

İlin son çərşənbəsinin (çərşənbə axşamı) Miyana və kəndlərində yaşayan ellərin həyatında özəl bir yeri var. Bu gündə keçirilən gözəl adətlərdən biri tonqal qalamaqdır. Deməli, "çərşənbə axşamı" mərasimi Miyananın bütün kəndlərində günortadan sonra başlanır. Ailə birlikdə günəş batana yaxın bayram paltarlarını geyinib, dam üstünə çıxarlar. Damın ətrafını bir dəmir şey ilə

cızıqlayırlar. Bununla da öz ailələrini şeytanın, pis ruhların qəsdindən qorumağa çalışırlar. Sonra günəş batdıqdan sonra böyük tonqal qalayarlar. Birlikdə bu odun dövrəsinə yığışıb, şənlik edib, odun üstündən atlanarlar. Özəlliklə qızlar atlananda deyirlər:

Atıl-batıl çərşənbə,
Baxtım açıl, çərşənbə.
Ağırlığım-uğurluğum,
Düş bu odun üstünə.
Ağırlığım od olsun,
Oddan yanan yad olsun.

Bu od yandıranlar odun üstündən neçə dönə o yana-bu yana atılarkən dəfələrlə şeirlər, sözlər oxuyarlar və oda-şöləyə deyərlər:

Məsələn:

Saxlasın Allah bizi,
Sən sarı, mən qırmızi.

Və ya:

Dərdim, bəlam diş ağrım,
Ağırlığım, bağ ağrım.
Tökülsün oda yansın,
Mənim bəxtim oyansın.

Və ya:

Nəduvara, ha nəduvara!
Tonqalı xırda duvara.
Nədara ha nədara,
Şah getdi Qəndəhara.

Miyananın bəzi kəndlərində od yandırmağın bir daha rəsmi var. Əgər qapı-qonşuda o ildə dünyadan köçmüş varsa qonşular o ailənin damına yığışıb onlarla birgə od yandırarlar.

Azərbaycanda “çərşənbə axşamı”nın lap görkəmli dəblərindən biri də **“şal sallamaq**”dır ki, hər kəs öz yaxın qohum və ya qapı-qonşusuna gedib bacadan bir şal sallayar. Ev yiyəsi də corab, boyalı yumurta və başqa yeməli şeylər qoyar. Amma ev yiyəsinin şala sallayanı tanımaması çox önəmlidir. Bu dəbə Miyanada və dövrə kəndlərində “qurşaq sallama” deyirlər.

“Çərşənbə axşamı” kəndin yaşlı adamlarının evinin damına çıxıb və bacadan bir az su tökərlər və onlara aydınlıq diləyərlər. Evin böyüyü də su tökənlərə tanrıdan istəklərinə çatmaqlarını istəyir.

* * *

İl bayramında səhər tezdən qəbir üstünə gedib və ölülərə fatihə oxuyandan sonra qayıdıb görüşə başlayarlar.

İl təhvil olduqdan sonra hər kimsə əvvəlcə ən çox sevdiyi adam ilə görüşər, niyə ki, yeni ili xoş il olsun deyər.

Yeni ildə ev görüşlərində uşaqlara və gənc qızlara böyüklər tərəfindən şax pul hədiyyə verilər.

Bayram günü: su, səbzi, səməni, güzgü, dəmir pul, şirni, qovurqa, iydə, alma və başqa yeməli bir zadlar süfrədə olar. Bayram günü bir çox ailələr evdən çıxıb və bağata gedər, orda nahar bişirib çölün göy-göyərtilərindən dərib aş bişirərlər. Onlar bayram balıqlarını və evdə göyərtdikləri səbzini suya verib arzularına çatmağı Tanrıdan istərlər.

* * *

İlin təhvilindən 2 saat qabaq ağsaqqallar Quran oxuyarlar. Cavanlar və uşaqlar kəndin məscidinə yığışıb və orda Quran oxuyanlar bir qazan suyun çevrəsində 40 dəfə yasin surəsini oxuyarlar və bir-bir ilin təhvil duasını oxuyub və dua eləyirlər. Məscidə bir radio gətirib radyodan ilin dəyişilməsini eşidəndən sonra qalxıb bir-biri ilə öpüşüb və yeni ili təbrik edirlər, sonra o sudan hər kimsə bir qab pay aparıb evdəkilər ilə bahəm içərlər və qapı-bacaya da səpərlər. Bu suya xalq dilində “çileyləsin” suyu deyərlər.

## QOVUTLUQ BAYRAMI

Qışın oğlan çağında, iki çillənin arasında (kiçik çillənin son cümə axşamında) kənddə o ailələr ki, qız övladlıdılar, yəni qız uşaqları çoxdur və tanrıdan oğlan istədikdən sonra onlara bir oğlan ilin son günlərində qismət olub, bu ailələr, oğlanları sala-

mat qalsın deyə, bir az buğdanı qovurub və qovurqanı dəyirmana aparıb, orda dartıb un eləyirlər. Yaxın qohumları da çağırarlar. Gecə çağrılan qohumlar hamısı təzə paltar geyib evə gəlirlər.

Köməkləşib iydənin ununu çıxardıb və dəyirmandan gətirlənən una qatıb, bir az da doşab, ya şəkər qatıb undan umac ovarlar və boşqablarına töküb qonaqlarla bahəm yeyib və şənlik edərlər. Evin böyük anası qonaqlar gedəndən sonra o qovutdan bir məjməyə yığıb bir guşədə qoyub və yanına bir fanus yandırıb qoyar və qabağına bir qara çadra çəkər. O yavaşdan əlini o qovuda basar, barmaqlarının izi düşər. Bunu uşaqlar bilməsin gərək. Uşaqlar inanmalıdırlar ki, o barmaq izləri Xıdır Nəbinin barmaq izləridir. Guya o, gecə qovud aparmağa gəlmişmiş. Beləliklə, o qovutdan pay-pay bölüb qonşulara pay verirlər və qonşular da o payın yerinə kibrit, qənd, düyü və başqa zadlar qoyub, qovud gətirənə verirlər.

## DAĞÇILAR BAYRAMI

İlin son həftəsində cümə günü Miyananın qaflantı dağlarının "Keçilik" adlı bir zirvəsinin yamaclarında görkəmli bir mərasim tutular. Bu mərasimdə bütün dağçılar, öz ailələrini hüzur tapıb və il bayramını alqışlamaq niyyəti ilə dağda aşıqların sazlarını dinləyərək, bahara "xoş gəldin" deyərlər. Bu mərasim sabah saat yeddidən başlayar. Dağçılar sabahını yedikdən sonra keçilikdə bir yerə yığışarlar. Çalan kim, oxuyan kim, oynayan kim bütün dağa gələnlər bir-birlərinə qarışıb şənlik edərlər. Bahara yaxın zirvəyə çıxıb enəndən sonra evlərinə qayıdarlar.

## TOY MƏRASİMLƏRİ

### XINA GECƏSİ
### (TƏBRİZ)

Kəbin kəsdikdə oğlan adamı qız üçün qızıl taxımlar, ya da sikkə alardılar.Oğlan toyu olanda hamı fikrə düşərdi: Görəsən, neçə xəşliyəcağıq? Toyanalıq neçə salacaqlar, deyə kişilər

hazırlıq aparardılar. Xonçabaxma və kəbin görüşlərində hərə bir pay alıb, qız, ya oğlanın xonçasına hədiyyə etməliydi.Cahaz baxmada ev hacatlarından qıza hacaz payı aparılmalıydı. Bəndəyi təxtdə də otaq görmə deyə bir şey alıb aparardılar. Ancaq toy başlahandan qurtarana kimi çoxlu pul xərclənib hərə ürəgini sərinlətməg üçün “Olsun Allah, yaman gün göstərməsin, elə adam belə yerlərə xəşləsin”-deyərdilər. Amma bunlar belə toy olanda hər evdə bir noy gərginlik yaşanardı. Bu da biz uşaqları çox incidərdi. Ata-anamız dartınıb deyinərdilər.

Qız hənası Təbrizdə tutulan gözəl və xərcsiz mərasimlərdən biri idi.Yadıma gələni qız hənasında bir gərginlik yaranıb yaşanmazdı. Həna gecəsi oğlan adamı qız evinə gəlib qısa bir müddət oturduqdan sonra qayidib gedərdilər. Damad da qız hənasına gəlməzdi. Bu üzdən xanımlar başardıqca gözəl geyinib, bəzənərdilər. O gecə qızın ata evində qız olaraq son gecəsi olduğunu dəyərləndirib səhərə kimin şənlik edərdilər. O gecə yaşlı qadınlar və xırdaca uşaqlardan başqa kimsə yatmazdı. Yatanın da yerinə su töküb oyadardılar .Ya da üz-gözünə qatıq sürtüb gülməli şəkilə salardılar və ya yatan kimsəni yatağına tikərdilər. Qız hənası bunlardan savayı ayrı bir gözəl gələnəklə yadımda qalıb o da, qadınların neçə saatlıq özlərinə qayıdıb, toplunun dövrlərinə cizdigi sınırları keçib, əylənib xoş olmaqları idi. Həna gecəsində gəlin oynayandan sonra oğlan adamları yığılıb gedərdilər. Uzaq qohum-qonşu da getdikdən sonra həna gecəsi ayrı bir şənliklə davam edərdi. Qadınlar qaval götürüb, çalıb-oxuyuyardılar.Qadınlardan ikisi ayrı bir otaqda özlərini olduqca gülünc və əyləncəli kişi-arvad heybətinə salıb, sonra gəlib hacıməliqızı(haciməlih)nümayişini icra edərdilər. Hacıməliqızı nümayişində “uşaqlar qəbahətli sözlər eşidib pis hərəkətlər görməsinlər”,deyə həna gecəsinin sonuna saxlanardı.

Bu müddətdə uşaqlar da yorulub yatardılar.

Həna gecəsində qavalnan oxumaqların hamısını xatırlayamadığımda, uzun zamanlardır yeniyetmələrin bəyənmədigi səbəbdən mərasimlərin yeni səpkidə keçirilməsinə baxaraq haqlı-

yam. Həm də kecmişdə mən həman yatırdılan uşaqlardan biri olduğuna görə, sadəcə qavalnan oxunan oxumaqları görmüşəm.

“Sərvanlar”, “Əlibala”,”Gülüstan bağı” və s. oxumaqlarını həna gecələrində dinləmişəm, yadıma gələnləri də siz ilə paylaşacağam. Onları da həmişəki kimi hörmətli baldızım Zinət hanım Əmani bir-bir yadına salıb, yazıb və folklor qaynağımıza artırmaqda bizlə ortaq olublar.

Yadımnan çıxmaz, o zamanlar xanımlar oxumağa başlamazdı. Əvvəl bir az utanıb çəkinməkdən sonra qavalı ələ alıb ”Sərvan” ları oxuyub toya dad-duz qatmaq ilə başlanardı:

Gedər yolun yarısına,
Dönər baxar dalısına.
Dalısına baxan yarı
Sərvan, tapşırmışam tarısına.

Get gələsən sağlığınan,
Əldə bir cüt yaylığınan.
Bacın istər yaylığınan,
Sərvan, yarın istər sağlığınan.

Yoluva qoymuşam iydə,
Dön boyuvu görüm bir də.
Nəzir elərəm sən gələsən,
Köynəyim verəm seyidə.

Yoluva qoymuşam kahı,
Sən çəkmə, mən çəkim ahı.
Ay Xorasan padişahı,
Sal Sərvanım yola gəlsin,
Boynuna şal dola, gəlsin.

Yoluva qoymuşam qəndi,
Gedib ürəyimin bəndi.
Həzrət Qasım kəməndi,
Dolansın beluva, qoy gəl.

Yoluva qoymuşam xurma,
Sərvan, padiganda məyus durma.
Səni and verrəm bir Allaha,
Əfsər, nişanlı sərbazı vurma.

Yoluva qoymuşam penir,
Hənuz evdən səsin gəlir.
Nəcəf şahı həsrət əmir,
Sərvanı səndən istərəm.
Üz tuturam qibləgaha,
Məzlum Həsəndən istərəm.

Yoluva qoymuşam alma,
Soy qabağın yerə salma.
Səni and verrəm bir Allaha,
İki ildən artıq qalma.

Yoluva qoymuşam üzüm,
Yollarında qalıb gözüm.
Bir gün sənsiz dözənməzdim,
Sərvan, iki ili necə dözüm?

Ay dədənin bir balası,
Gəl qapıdan gir qadası,
Boyuva üzərlik salım,
Sərvan, tüstüsündə dur, qadası.
Aş gəl, aş gəl budaqları,
Sərvan, ovud mən qərib ağları.

Otağıva qoydum qətdan(qənddan),
Sərvan, dəyqa çıxmırsan yaddan.
Əgər özün gələnmirsən,
Sərvan, bir kağız yaz, göndər yaddan.
Aş gəl dağlar arasından,

Sərvan,öpüm qaşın arasından.

Padiganda işmə aşı,
Sərvan, daldalanıb tökmə yaşı.
Xeyri olsun o bacının
Sərvan, hər cümə gələr qardaşı.

Sən Təbrizin ağı,daşısan,
Sərvan, qızıl üzüklər qaşısan.
Sənə sərvazlıq yaraşmaz,
Sərvan, sən bacılar qardaşısan.

Padiganı veran qalsın,
Ala qarğa yuva salsın.
Görürəm sərvanım gəlib,
Qərib yerdə köylüm alsın.
Aş gəl, aş gəl,səhər oldı,
Mən yedigim zəhər oldı.

Büyün ayın doqquzudu,
Qurbanlığın ağ quzudu.
Dur gəl dolanıb başına,
Sərvan, deməsinlər yad qızıdı.

Hankı dağlar dalındasan,
Ulduz kimi parıldarsan.
Yaz mənə bir kağız göndər,
Sərvan, görüm kimin yanindasan.
Aş gəl, aş gəl, sabah oldu,
Yandı bağrım, kabab oldu.

Qasid gəlir hənir-hənir,
Qamçısının oxu dəmir.
Qasid, səni həzrət Əmir,
Dur, altıva döşək salım,
Öz yarımı xəbər alım.

Sən gedəndən üş gün idi,
İşim mənim müşkül idi.
Sənin bu sərbaz getməyin
Qiyamətin nisgiliydi.
Aş gəl,aş gəl bu zəmanda,
Qalıb yarım əl-amanda.

Sərvazlar qəfədə yatar,
Tüfəndin baş-başa çatar,
Cibində xəşliyi(xərcliyi)olmaz,
Çiyninin doşqasın satar.

Sərban gəlir qatar-qatar,
Allah, yorğun olub yolda yatar.
Tüfəngin qoy başın alta,
Tellərivə torpaq batar.

Yoldan gəlib yorulmusan,
Sərvan, niyə durub soyunmusan?
Gəl çıxardım corablarun,
Sərvan, öpüm yorğun əyaxlarun.

Sərvanları nisgillərlə yanaşı oxuyandan sonra bir çalıb, oynayıb, deyib-gülən xanım "Ay qız, bağrızımı çatdatdun,ver mənə görüm"deyə qavalı alıb bir şən hava çalıb belə oxuyardı:

Eynəyi(egnəgi)qərə,
Qərə getmə şəhərə.
Getsə şəhərə,
Gedərəm ərə.

* * *

Eynəyi şüşə,
Sürüşüb düşə,
Baisi görüm
Pis dərdə düşə.

* * *

Eynəh aldirram,
Şüşə saldırram.

Gedərəm yada,
Səni yandırram.

Təbrizin həna gecəsinin dumanlı-nisgilli havası sanki orda yaşayan hər bir kəsin ruhunu etkiləndirirdi. Həman çalıb-oynayan xanım nəhayətdə kədərli oxuyardı:

Şüşədən çəkdirrəm teşdi,
Yazı yazan, bu nə işdi?
Yazıbsan, poza bilmirəm,
Cəvanam, dözə bilmirəm.

Suyu çəkdim gül qazana,
Qəynədi,qaldı azana.
Qulaq ver yazı yazana,
Yazıları yazan Allah,
Yazıbsan, çözə bilmirəm,
Cəvanam, dözə bilmirəm.

Suyu çəkdim dolda  (dolçada) qaldı,
Allah, gözüm yolda qaldı,

Cəvan ölmüş, üzü dönmüş,
Durum görüm harda qaldı.

Suyu çəkdim aftafıya,
Dəyqədə çıxdım qapıya.
Gözlədim,yarım gəlmədi,
Az qalır bağrım çatdıya.
Yazıları yazan Allah,
Yazıbsan poza bilmirəm,
Cəvanam, dözə bilmirəm...

Və bu arada yarın Tehrana getməgi və ondan ayrı qalan yarının bu qədər acı çəkdiginin səbəbi nə imiş? Amma kəsinliklə yar-yarını yalnız qoyub Tehrana getmək məzmununda oxumaq həna gecələrində oxunardı:

Gedirsən Tehrana, get gözüm üstə,

Paltarın qoymuşam evdə miz üstə.
Gələndə gələrsən məzarım üstə,
Göz yaşın tökərsən baş daşım üstə.

Gedirsən Tehrana, gəlim ötürüm,
Ağırdır çəmədan,ver mən götürüm.
Səni qürbət yerə necə ötürüm?
Getmə Tehrana, gəlmişəm cana,
Sənə Tehrandır, mənə qəmxana.

Gedirdin Tehrana mənə diyəydin,
Şirni bağladardım, yolda yiyəydin.
İndi ki, demədin, cavan öleydin.

Gedəndə demədin mənə,
Çörəh yaptıram nənəmə.
Üç çörəh qoydu dəstmala,
Belinə bağladı getdi,
Sinəmi dağladı getdi...

Həna gecəsində yavaş-yavaş xanımlar utanmağı qırağa qoyub hər kəs oxuyub-oynamaqdan nə başarırdısa, ortaya qoyardı.

## GƏLİN HAMAMI

Canım sənə desin ki, toydan bir gün qabax, beş-on nəfər qız evinnən, beş-on nəfər də oğlan evinnən gəlini aparardılar hamama. Məni də elə təmə-təyyar aparmışdılar. Varlılar hamamı qoruğ elərdilər. Oğlan evinnən mis mejmeyilərdə gəlinə holə, qətfə, dəmpaya, paltar, mis camda ətirri sabın, nüşür, dərax... xonça tutup gətirərdilər. Qız evi də mivə, qənnati şirnisi apararadi; alma, əmrut, üzüm, heyva, nar ağaşlarda bar nə olseydi onnan. Qənnati şirnisi də nazih olardi, ya da livadiyyədən, piçennihdən, məşədi şirnisinnən zatdan. O zəman indiki kimin bollux dəyirdi ki.

Dəsteynən hamama girəndə, holə vernnər camlari alıp "toylar mubarəh"ləri çalardılar:

Gəlin gəlir yavaş – yavaş,
Qoltuğuna vırıb lavaş.

Toylar mubarəh,
Mubarəh badə!
Ey gülü-reyhan,
Reyhan biçərəm mən.
Oğlan yolunda,
Cannan geçərəm mən.

Gəlin gəlir yeyin – yeyin,
Qoltuğuna vırıb .......
Lülülülülülülüüüü….. !

Girdəkan qabıxlarına mum tökərdilər, içinə piltə quyardılar. Şəm kimin yandırıp ötürərdilər xəznədə suyun üzünə. Çoooox görməli olardi.

Çalardıla, oxiyərdilə, oyniyərdilə... yekə camda həna tutardıla, hammi barmağın basardi həniya. Ya da qaşlarına– saşlarına həna quyardıla. Dallah gəlip gəlini yuvundurardi, saşlarıni darardi. Hamamnan çıxanda da gəlinə üzərrih salardıla.

O gün nahara hammı qız evinə qonağ olardı.

Hamamın eşiyində də oğlan evi gəlinə qurbannıx kəsərdi.

Kəhər atın qulunu,
Məxməl edin çulunu.
Biz gəlmişik aparaq,
Sizin bağın gülünü.

Gəlin gəlir, xan gəlir,
Bizim evə can gəlir.
At gətirin, çullayın,
Tokuş nəqşi yollayın.

At gətirin, atlansın,
Atı kəhər yar-yar.
Gəlin gəlsin tez minsin,
Adı gövhər yar-yar.
Üç bacıdan birisi,

Atlandı yar-yar.
İndi onun günüsü,
Patlandı yar-yar.

Bazardan aldım seyini,
O seyini, bu seyini.
Yaşasın ağam gelini,
Toylar mübarək, mübarək badə.

Ey gülü-reyhan,
Reyhan biçərəm mən.
Oğlan yolunda
Candan keçərəm mən.

# MİYANA BÖLGƏSİNDƏ TOY DƏBLƏRİNDƏN

## Dördevlər kəndində gəlinin başından alma atmaq

Gəlin gələn yolda bəy bir uca dama çıxar və üç alma götürər, ta gəlinin başından atsın, gəlinin dalısıyca gələn cavanlar qoymazlar ki, bəy olan dama çox yaxınlaşsın. İstərlər bəyin qolunun zurun imtahana çəksinlər. Bəy almaları nə gücü var atar, gəlinin başından sovuşub yerə düşər. Bu almaları hər kimsə göydə tuta bilsə deyərlər ki, “nubə sənə yetişib, bəylik sənin nubəndi”.

## Gülmeşə kəndində gəlin atının qabağını kəsmək

Öncələr gəlini kürsü üstündən ata mindirib bəyin evinə tərəf gətirərdilər. Gələ-gələ gəlinin adamlarından atın qabağını kəsib bəydən ənam istərdilər, ya da ənam umidinə bəydən istərdilər ki, güləşməyə çıxsın. Bu arada bəyin adamlarından biri güləşməyə meydana girər, iki adam güləşərlər. Gəlin adamı bəyin adamın yıxa bilsə, bəydən ənam alıb gəlinin atının yolun açardı.

# TOY MAHNILARI

## DUR GEDƏK

Bazardan aldıq məkəni,
O məkəni, bu məkəni.
Sağ olsun oğlan əkəni.
Qızım, dur gedək, dur gedək,
Bacım, dur gedək, dur gedək.

Nənəvin hisli olanı,
Tökülsün əti, əndamı.
Qız deyir, qaldı nənəm,
Qeynanan sənin nənən.
Qızım, dur gedək, dur gedək,
Bacım, dur gedək, dur gedək.
Gəlinə getdik biz cüt qoyun,
Qız adamı yeyin, doyun.
Gəlinin başmağın qoyun,
Bizi yola salın, gedək.
Boynuna şal dola gedək.
Gəlin dur gedək, dur gedək,
Bacım, dur gedək,dur gedək.

Bəy corabın bağlıdı,
Gəlin başmağın sarıdı.
Geymə, dabanın ağrıdı,
Qızım, dur gedək, dur gedək,
Bacım, dur gedək,dur gedək.

**(MARAĞA)**

Gəlin, başmağın sarıdı,
Geymə, dabanın ağrıdı.
Maşın qapıda hazırdı,
Gəlin, dur gedax,dur gedax,
Bacım,dur gedax,dur gedax.

Gəlin,başmağın qərədi,
Geymə, əyağın tərlədi.
Damad qapıda çərlədi,
Gəlin, dur gedax, dur gedax,
Bacım, dur gedax, dur gedax.

Gəlin gəlir yavaş-yavaş,

Qoltuğuna vurub lavaş.
Ağa qəyin, azca savaş,
Bu sənin bala gəlinindi,
Qaş-gözü qara gəlinindi.

Gəlin gəlir yeyin-yeyin,
Qoltuğuna vurub şeyin.
Ağa geyin, azca deyin,
Bu sənin bala gəlinindi,
Qaş gözü qara gəlinindi.

## XOŞ GƏLDİN

Nənən sənə yaş tökər dənə-dənə,
Öz qaynanan sənə nənə.
Gəlin, xoş gəldin, xoş gəldin,
Bacım, xoş gəldin, xoş gəldin.
Gəlin deyir, bacı,bacı,
Başından götdülər tacı.
Öz baldızın sənə bacı,
Gəlin, xoş gəldin, xoş gəldin,
Bizim ellərə xoş gəldin.

Bazardan aldıq şeyini,
O şeyini, bu şeyini.
Sağ olsun ağa bəyini,
Gəlin, xoş gəldin, xoş gəldin,
Bacım, xoş gəldin, xoş gəldin.
Öz elivin tərkin qıldın,
Durna tellərə xoş gəldin, xoş gəldin.

Bazardan aldıq soğanı,
O soğanı, bu soğanı.
Sağ olsun oğlan doğanı.
Gəlin, xoş gəldin, xoş gəldin,

Bacım, xoş gəldin, xoş gəldin,
Öz evinin tərkin qıldın,
Bizim ellərə xoş gəldin.

## ƏLİBALA

Əlibala, başmaxların yağlaram,
Sənə qurban, üstünə gül bağlaram.
Əlibala, mərəxəslığ almasan,
Sənə qurban, zulum-zulum ağlaram.

Əlibala, peykanıvın şəstinə,
Sənə qurban gül bağlaram üstünə.
Əlibala, eşitdim evlənmisən,
Sənə qurban, məni də al üstünə.

Əlibala, bağa girmə, görəllər,
Sənə qurban, boyun güldi, dərəllər.
Əlibala, dostdan çoxdu düşmənlər,
Sənə qurban, səni mənnən eləllər.

Əlibala, ağ alma, qızıl alma,
Sənə qurban, yollara düzül alma.
Əlibala, bilsəm ki, mən səninəm,
Sənə qurban, saxlamaram yüz il alma.

* * *

Ayınan ulduz,
Ay xanım baldız.
De gəlsin yarım
Qalmayım yalqız.

Söz bu yerlərə çatanda həm gəlin, həm də ana-bacısı kədərlənib doluxsunardılar.Yenə də bir hay-küylü xanım qavalı alıb havanı dəyişdirərdi:

Alma verdim yiyəsən,
Vermədim əyliyəsən.
Ət rəngi corab allam,
Azadlıqda geyərsən.

* * *

Sevgilim oturub bah (bank) qabağında,
Qızıl istikanda çay qabagında,
Qırmızı matihi var gül dodağında.

Nar yemə, nar yemə, nar şirəlidi,
Atadan, anadan yar irəlidi.

Nar yemə, nar yemə, nar şirin olur,
Atadan, anadan yar şirin olur.

Nar yemə, nar yemə, nar mənə dəydi,
Nə dedim, sevgimin xətrinə dəydi.

* * *

Təbrizin çüçələri(küçələri),
Banlamaz beçələri.
Yatasan yar qoynunda,
Payızın gecələri.

* * *

Ayın sarısı, günün sarısı,
Gəl gir qoynuma gecə yarısı.

Ay hesab eylə, gün hesab eylə,
Gəl gir qoynuma, yar hesab eylə.

Ay bir də bizdə, gün bir də bizdə,
Gəl gir qoynuma, üp biz də, biz də.

* * *

Qızıl üzüh (üzük) lahladı,
Verdim anam saxladı.
Anama qurban olum,
Məni tez adaxladı.

Qızıl üzüh,dar barmax,
Başarmıram tar çalmax.
Mənim nə vəxtimiydi,
Yad oğluna yer salmax.
Mənim nə vəqtimiydi
Yad oğluna yalvarmax?

Qızıl üzüh firuzə,
Gedin deyin xoruza.
Bu səhər banlamasın,
Yarım gələcax bizə.

## DOĞUM

Yeni doğmuş uşaqa və anasına əbəçi adlı bir bilici arvad baxırdı. Belə ki, uşaq dünyaya göz açan çağınnan yanında olurdu, uşağı tuturdu, onu yuyub və göbəgini kəsib, sonra bələyib anasına verərdi. Əbəçi üç gün zahı arvada və uşağına baxırdı. Bu üç gündə anaya quymaq verirdi və uşağı pərpiləyirdi. Aralıqda birinə acıqlananda deyərlər, ”onu pərpilədim”. Amma “pərpi” sözü burda özəl olaraq işlənir. Əbəçi uşağın üç günündə qollarının qatlanacağının, əllərinin-ayaqlarının üstün, belin, alnın ortasın və çənəsin tiyğə və ya ülgüc kimi başqa bir iti diləklə çərtib qan alır, sonra bu qanın bir varağı ilə onun belini ovurdu. Beləliklə, uşağı pərpiləyirdi. Əbəçi uşağı büzməcə azarından qorumaq üçün onu qarına çəkirdi. Qarın qalın olsaydı soyurdular.Yoxsa quzu və balaca qoyun qarnını soyundan uşağı üzündən başqa bükürdülər və təxminən bir saatdan sonra uşaq tərləyən kimi çıxarırdılar. Əbəçi uşağın ağzına baxırdı.

Ağsız (büzməcə) olsaydı, onu iynə ilə bir-bir deşib götürürdü, yoxsa büzməcə uşağın əmməsinə əngəl olub onu öldürürdü. Bir də uşağı bu azardan qorumaqdan ötürü, onu başqa bir təhərdə pərpiləyirdilər. İki sacı baş-başa verib üç dönə onun arasından keçirirdilər.

Ana və uşağı pis qövmələrdən və gözdəymədən (nəzərdən) qorumaq üçün onların üzərindən müxtəlif muncuq asırdılar. Muncuqlar bunlardan ibarət idi:

Sarılıq: Gözəl sarı boyalı bir muncuq uşağı sarılıq azarından qoruyur.

Şəvvəl: Ananı vəhmiyyət və qarabasmadan qoruyur.

Gözmuncuğu: Onları gözdəymədən qoruyur.

Qanmuncuğu: Doğan çağı ananı qan aparması deyə onu boynundan asırdı.

Almuncuğu və algöbəyi: Onları al arvadının şərindən qoruyur. Bu çağlar arvad öləndə deyərlər, için al çəkib.

Göyərtmə: Bu muncuq uşağı göyərib ölməkdən qoruyur. Deyirlər, bu muncuğu iki barmağın arasında tutub muçğuranda rəngi tünd göy olur, sonra rəngi azalır.

Bunlardan başqa baba qolu, qurd muncuğu, balıq qulağı və başqa türlü-türlü muncuqlar, müxtəlif hədəflər üçün ana və uşağın yaxasından asılırdı. Muncuqlar uşaq olmamış evdə olmalı idi. Uşaq olandan sonra muncuqları evə gətirməli olsaydılar, öncə uşağı çölə çıxarıb muncuqdan sonra evə gətiriridilər.

Uşaq olan kimi bir gözdə (evin hər bir otağına göz deyilir) zahu qadın və körpəsinə yer salınırdı. Onları al arvadından qorumaq üçün, iti bir dəmirlə otağı dövrə çizib, o çiziği ağız-ağıza yapışdırırdılar. Arvadın yerinin dövrəsinə qəzil ciyə (keçi qəzilindən toxunmuş ip) sərib və ciyəni ağız-ağıza yapışdırırdılar. Əygə (igə təxminə30 santım uzunluğu olan,cəhrə adlı ip əgirmə vəsiləsində işlənən düz və oxu iti bir məftil) taxılmış bir soğanı və bir təndir şişini ananın yerinin yanına qoyurdular. Bir də yun darağını bacanın ağzında iynələri çölə sarı vəziyyətdə qoyurdular.

Bunlar zahı arvad yerdən duruncaya qədər (on gün) onun yanında qalırdı. Bu on gündə ananın yeməgi xəşil olurdu. Doğan arvadın qızması olanda,ya halı dolananda, bir kəsər götürüb, su qırağına gedib və o kəsərlə suyu “qılınc”layırdılar. Ondan sonra bir ətək daşı bir-bir suya atırdılar. Bu iş arvadın yaxşılaşmasından ötürü edilirdi. Sanki ananı qorxudan və pis duruma düşürən qərə su imiş.

Bu işlərdən başa belə hala düşən arvadı oturub ətəginə arpa tökürdülər və ərkək atı gətirirdilər onun ətəgindən arpa yeyirdi. At kişnəsəydi arvadın yaxşılaşacağına inanırdılar.

Bundan əlavə, həyətdə qəbir enində bir çapal(qəbirə oxşar məkə formunda qazılan bir çuxur) qazırdılar və halı dolanmış zahı arvadı o çapaya yatırıb, evin qoyun sürüsünü onun üstündən keçiridilər.

Qirxina kimi uşaq olan evə qonaq gələndə uşağı otaqdan eşiyə götürürdülər. Hər bir səbəb üzündən bu işi görə bilməsəydilər, qonaq gedəndən sonra uşağın baş bələgi üsdünə bir ələk tutub, ələyin içindən üç dönə böş bəlgə su səpirdilər və beləliklə uşağı "uşaq üstünə gələn" adamın ağırlığından qoruyurdular.

Bu su səpmə işini uşağı çilədən çıxaranda, yəni uşağın qırxı çıxanda edirdilər.

Deməli, qırx gün ana evdə oturdu və özünü ağır işdən və isti-soyuqdan gözləyirdi. Xalq arasında belə bir deyim var: "Doğan arvadun qəbrinun ağzı qırx gün açıq qaley". Ona görə də qırxı çıxmaq həm uşağa, həm də anaya önəmlidir.

Uşağın ili dolanandan sonra çölə işləsəydi(ishal tutmaq), diş çıxartmaq, ya boğazında çöp qalmaqdan olmasaydı çölə işləyən uşağı ocaq-tanınmış evə qaralatmağa aparırdılar. Qaralayan şəxs bir kömürü əzib uşağın buğunları (əzaların qatlanan yerləri), alnını qaralardı. Sora burnunu tutub sızardı. İki dönə bu işi görərdi, yaxşılaşmasaydı, üçüncü dönə bir az göy sapı yandırıb onun külünü barmağında götürüb uşağın boynunun ardına basardı. Hər kimin qucağında uşağı olsaydı, onu qaralamqdan qayıdan uşağın qabağına aparması lazım idi, yoxsa o da çölə işlərdi (ishal tutardı). Görərdin, uşağını qaraltmaqdan qaytaran ana kəndə girməyə bir az qalanda dayanıb və qonum-qonşuya səs salıb ki, "mən uşağı qaraltmaqdan gətirirəm".

Yemək kimi quymax verillər. Suva un töküb qarışdırırlar. Kərə yağı bir qabda əridib qaynar edirlər.Qaynar yağın içinə az-az su unu töküb, qarışdırırlar. Quymaq azarınca qarışdırmağa davam edirlər. Quymağın üstünə acı-ucu(darçın, istiot, zəncəfil, quluncan kökü) səpib zahı arvada yedirdirlər. Bundan başqa kərə yağı, istiotu, kişnişi qaynadıb zahıya içirirlər.

## YAĞIŞ YAĞMA MƏRASİMLƏRİ

Yekanatda yağış çox az gələr. Su azlığı İranın çox yerlərində xalqın böyük müşkilatı sayılır, Yekanatda isə daha da artıq. Ona görə Allahdan yağış istəmək üçün hər işə əl vurarlar. Arvadların el ocağında oxuduqları şeirlərdən biri də budur ki, Qala dağına xitab edərək deyərlər:

Qala dağının buludu,
Yetimlərin ümidi.
Allah, bir yağış yetir,
Dəmyələrimiz qurudu.

Bu ayrı rəsmdə "Çömçə xatın" çıxartmaqdır. Bu rəsmdə bir-iki nəfər libaslarını dəyişərək bir uzun taxta qaşıq, ya çömçə ilə gəlib evlərin qabağında oxuyaraq pay alarlar:

Qışdan çıxdıq, yaza girdik,
Açıldı dərvaza, girdik.
Bir pul verin, tuman alaq,
Kimdən alaq?
Ağadan alaq,
Xanımdan alaq.

Bu sözləri oxuyanda çömçəni su ilə doldurub adamların üstünə səpərlər:

Çömçə xatın nə istər?
Allahdan yağış istər.

Məmulən el arasına çıxanlar səməni, ya aş pişirərlər. Bir seyid tapıb suya basarlar, ya isladarlar. Evinin şoratanın çıxardıb yandırarlar. Bir buğdayıbəniz arvadı tərsinə eşşəyə mindirib dolandırarlar. Hər halda, yağışdan ötrü çox işlərdən çıxarlar. Lakin yenə də yağış yağmaz.

## MİYANADA QƏDİM HAMAMLAR

Aman zaman ıзində
Xəlbir saman ıзində,
Dəvə dallahlэx elir
Kцhnə hamam ıзində.
Qarэюqa юэllaq atdi,
Dəvənin budi batdi.
Hamamзэнэn tasi yox,
Odunзinin baltasi yox.
Bazara bir tazi зэxdi
Boynunda xaltasi yox.

Hən, bala, canэm sənə desin ki, qədim hamamlarda indiki kimi nьmrə olmazdi. Nьmərə soradan зэxdэ. Эmumi hamam olardэ. Onnan da qabax xəznə var idi. Riza єah axirlərdə xəznələri baplatdi. Məni gəlinnэxda xəzniyə aparэplar. Hamam səhəri tezdən, dцtdə-zatda kiюilərinkiydi, səkgiz doqquzdan da o yana da arvatdarэnkiydi. Qədim adamnar əvam olardəlar. Diyərdilər cinlər gecələr уэрэюэр hamamda toy tutalla, diyəsən yer qutulup! Hər kim səhəri tezdən hamama getsə cinlərə rast gələr diyərdilə, onda “bismillah” desən cinlər qorxar, gцzdən yox olar. Mən belə səfeh sцzlərə inanmaram. Gцzьmnən də hes zat gцrməmiєəm.

– Xəznə nə сьr olardi?

– Pillələri эюapiyə yenəndə soyunan yer olardi; dцrt dцrə ənlэ səkəkiydi, arasэnda da yekə bir hovuz varэydэ. Soyunulan yerin dцt guюəsinin ikisi “əlitaslэlar”эn, iki guюəsi də “xalзani-юinlər”inki olardi. Эki tərəfə fərю salardəlar, kasəblara kilim, ya da həsir salardəlar.

Nabələd adam gələndə, kasэb olseydi, usta (hamamзэya usta deyardux) diyərdi:

– Ay bala, ora sənin yerin dəyi, ora xalзanieinlərindi!

Əlitaslэlar hamam məndəllərini, həm də tasэ, ya da məюə-kəfəni qoltupuna vurub цziynən hamama gətirərdi. Xalзanieinlərə məєkəfə verərdilər. Hamam yerlərini də nцkər–

kьlfət aparэр sьzənini sərərdi səkkiyə, buxзanэ da азardi sьzəninin ьstьnə. Məюkəfəni, cami, bir də hamam əsbabэn kьl-fət, ya da nцkər aparardэ hamamэn iзinə. Məqsudiyədə "Meydan hamami" varidi. Orda adam, adam ьstə oturardi nobiyə.

Hamamэn iзinə girip yuvunub, sьrtьnьb, liflənənnən sora, xəznənin əvvəl pilləsində oturardux, abgir gəlip su tцkərdi, giləюir elərdi.

Mənə bьtьn bu sцzlər əfsanə kimi gəlirdi. Abgir məєkə-feynən su tцkərdi, diyərdi: baюэvэ ovюdur, qoluvu yu, qэюlarэvi bir də təmizlə, qulaxlarэvэn iзi qaldi, qoltuxlarэva da bər əlivi зəh.... Pəsab зэxannan sora xəzniyə girərdilər. Xəznədən зэxannan sora abgir gəlip ginə su tцkərdi, pahlanэb зэxardэx.

Xəznə iki dana olardэ, birinin altэnda tiyan yanardi, suyu issi olardi. Su зox qэzэюseydi, soyux xəznədən suyu азardəla, issi xəznənin suyunu birərdilə. Su mizan olanda, sərin xəznənin yolun baplardəlar.

Эndi xəznə yoxdu ki, qadan aləm. Amma bir– iki imumi hamam hələ qalэr. Юah xiyavanэnda "Əli hamami" var, səni bir gьn aparram ora. Nə diyirdim?... hən, o vaxtlar indiki kimin sabэn, nə bьlьm юampo-zad olmazdэ ki. Baюэmэzi gilinən yuvardэx. Ya da Marapa sabэniynən.

– Gil nəmənədi?

– Gil, belə kьndə-kьndə bir юey idi, torpax rəhdə, boz rəhdə; sabэn kэmэn kəflənərdi. Napərhizləx eliyəndə də "kiюvəri sabэn" iюlədərdux! O da bir сьr ətirri sabэn idi, Mahabaddan gətirərdilə. Hələ– hələ tapэlmazdi.

Hamam məndəsinə ap зilvardan lif tikip qoyardux. Cuva-nazənnər liflərə iє tikərdilə. Bir dana da təxtə dərax qoyardux. Dallah gəlip hцrьyь азardi, uzun saзlari təxtə dərapэnan darardi. Sora məюkəfeynən su tцkьp isladardəla. Əyanlarэ dallah yuvun-durardi. Ya da, sən baюэvi yuvanda, dallah da əyax daюiynən əyaxlarэvi sьrtərdi. Эmumi hamamda nə qədər oturusan uti, indiki nьmrələrdə, amma “tax– tax– tax” dцyьllə ki, "saat dьzəl-

di!"…Canəm sənə desin ki, bir gьn bir nəfər gedər hamama, puli cibində yoximiю. Hey yuvuna-yuvuna Allaha yalvarar ki, "Allah məni biabər eləmə! hamamnan зэxanda hamamзi mənnən pul istəsə neyniyəcam? Цzьn məni qurtar!, diyip yalvarar Allahya. Xulasə, зэxэр giyinir, Allah– Allah diyə -diyə gəlir реюxanэn qabapэnnan geюsin, birdən hay qopur ki, hamam yatэr. Hammэ qaзэr, bu da qoюulur hammiyə qaзэr. Bir az uzaqlaюannan sora dцnьb baxэr, diyir: " Ey bir юahэdan цtьr hamam damэn уэxan Allah!". Elə o viladan bir ata-baba sцzь зэxэr ki, " Allah o Allahdi ki, bir юahэdan цtьr hamam damэn yatэrdar".

Hamam yerində can kisəsiynən nьюьr də ulardi. Yaxci kisəni Kьrdьstannan yollardэlar, cecimnən olardi. Nьюьгь də evlərdə dьzəldərdilər. Əla nьюьr həram ilihdən duzələr. Hər kəs цziynən iki cam apardi, mis cam-biri bala, biri bцуьh. Camda həna isladэр baюэmэza-qaюэmэza yaxardux, oturardux dallah gəlsin canэmэzi sьtsьn. Arada da bir məюkəfeynən su axэdardux canэmэza, canэmэz islansэn. Nobəmiz olanda gedip oturardux can sьrtən yerdə, dallah gəlip nьюьr yaxardi can kisəsinə, kisə зəkərdi. Hansi dallah yaxci piltələndirip зih зэxatseydi, hammэ ona sьrtdьrərdi canэn, yaxcэ da ənam verərdi. Fitə baplardэx da belimizə…Hamama əyax yalэn girərdux, pahlanэb зэxanda təxtə baюmax verərdilər giyərdux. Giyinən yerdə bir hovuz olardi iзinin suyi səpsərin olardi. Təxtə baюmapэnan bu baюdan girərdux hovuzun iзinə, o baюdan зэxardux. Usta həraylardi:– "Bala, o suzənini зəh qabapa, xanэm otusun"

Oturardux sьzəninin ьstьndə, əyaxlarэmэzi qurulardux, зэ-xardux sezəninin ьstьnə. Qətfəni salardux зiynimizə. Qurulanэр giyinərdux."Saatdarэz olsun!", "sizin də saatdarэz olsun!" diyərdux bir-birimizə, sora da yemax məndəmizi aзэр bir -birimizə tutardux.

Qurbanam цzьm sənə,  
Hekmətim, sцzьm sənə.  
Эюэxli ulduz kimin  
Tihmiєəm gцzьm sənə.

Balэx suda yan gedər,
Aзma yaram, qan gedər.
Yazэx təbib neynəsin
Əcəl gələr, can gedər.

## İNANCLAR, SINAMALAR

Ayaqlarının başı yorğandan eşikdə qalan oğlanın deyərlər, evlənmək vaxtı yetişib.

Ay batanda mis qab, ya da təndir duvağı kimi qızıl qablar çalarlar.

Aydan olmaq – Deyərdilər, uşağı qoymayın Aya baxsın. Yoxsa Aydan olar. Aydan olan uşaq eynəməz, sısqa qalar, sum olar və çığırardı. Axşama yaxın uşağı aparardılar bilən arvada. Arvad qurd əllə (qurdun qabaq əli) uşağın əlinin dalından iki nəzər damarını, bir də alnını cızardı. Qan çıxarmasaydı deyərdi ki, nəmdir. Naxır gələn vaxtı uşağı qucağa alıb gətirib üz üstə saxlayardılar. Naxır gedəndən sonra uşağı aparardılar evlərinə. Bu əməl üç gün təkrar olunardı.

Ayın əvvəlində aya baxıb birinin üzünə baxmazlar, çünki o tərəfin işi düz gəlməz.

Başmaq tayları daban-dabana dursa ağzıacılıq olar.

Bir nəfər ayrı adamın saqqızını ağzına alıb çeyniyirsə, deyərdilər, camahatın məhəbbəti ona azalar.

Belə inanarlar ki, xəstəlik, naxoşluq günün hansı saatında gəlmişdisə, elə o saatında da naxoşun canından çıxıb gedəcək.

Bir adam evin qapısını daraxlarsa, (əllərini açıb qapı çərçivəsinin iki tərəfinə dayayarsa) deyərlər ki, qapını daraxlama, adamı darıxma basar.

Bir adam dalbadal eşqırarsa deyərdilər, kəhliyi azıbdır. Eşqıran adamdan bir şey soruşarlar ki, fikrə dalsın və eşqırmaq fikrindən çıxsın. Məsəla, soruşarlar: -Evdən nəmənə oğurlayıbsan?

Bir adamın üstünə gərnəşilsə xəstəliyi onun üzərinə tökər. Gərnəşərsə, gərnəşəndən sonra yumruğunu öz döşünə tapdayar.

Bir evdən ölü çıxarılsaydı, dalınca küçə qapısından eşikdə çölmək sındırardılar. (Bir çölmək ki, gündə içində qəza bişər və ocağın üstündə qərəlmiş olar).

Bir qadının həyat yoldaşı həyatını dəyişsə o, üç ay on gün matəm, yas saxlayandan sonra uşaqları analarının yenə ərə getməsinə əngəl olmadıqlarını bildirmək üçün onun qarşısında başmaqları cütlərlər.

Bir nəfər çox gülərsə, güləyənin yaxasını qovzayıb bədəninə püşləyirlər (yaxasına püşləyir) ki, ta çox gülməyin ziyanın çəkməsin.

Bir nəfərə cadu edilərsə, cadunu batil etmək üçün o adamı murdarlayarlar. Gah da özü bilmədən bədəninə, ya üstünün bir yerinə nəcis sürtərlər. Bir arvadın əri beləsini istəməzdirsə, deyərdilər ki, günüsü buna cadu edibdir. Həmzad arvadın südünü suya qatıb bu cadu olunan arvadı o murdar suda çimizdirərdilər ki, cadu batil olsun.

Bir kimsənin ürəgində hacəti olursa nəzir edər, hacəti qəbul olunca imam Hüseyn əzalarında, ya da mərsiyələrdə qonaqların başmaqlarını cütləyib nizama salar.

Bir kimsənin boğazı, ya döşü gəlsə (şişsə) onu dərman etmək üçün Araz çayından keçən bir şəxsin başmağını xəstənin boğaz, ya da döşünə sürtərlər.

Bir işi başlayanda işin üstünə bir adam gələrsə, o iş tez qurtarsa, deyərlər, o adamın ayağı yüngüldür. Gec qurtararsa deyərlər, ayağı ağırdır.

Birinin ayağını ayaqlayarsan, o da gərək sənin ayağını ayaqlaya, yoxsa evində adam ölər.

Birinin başmaqları bir-birinin üstünə çıxarsa, o, yola çıxacaq.

Birinin başmaqları uc-uca dayanırsa, yaxınlarının onun haqqında danışmaq əlamətidir.

Birinin başmaqları dal tərəfdən bir-birinə dayansa, kimsə onu arxasıyca pisləyib, qeybət edər.

Birisinin evinə xoşlamadığı bir qonaq gəlirsə, tez evdən çıxıb getsin deyə qonaq bilmədən başmağının içinə bir az duz tökərlər.

Birinin payını yeyənin dilinə dil payı çıxar.

Cin dəmirdən qorxar.

Çayın üstündə tilif çöpü gəlirsə, tilif sayda qonaq gələcək. Qonağın gəlməsini istəməsələr tilifi alıp başın dişlərlər.

Çeçiyəndə sovğat gələr.

Çox saysan bərəkət qaçar.

Deyərdilər, bir adamı xərçəng tutub dişləyəndə, qanaq eşşək anqırmayınca ötürməz.

Deyərlər: İlan ulduz görməyincə can verməz.

Deyərlər, bir adamı büvə sancarsa, büvə gedər məzarlığın ağzında durar, deyər, indi gətirib buradan keçirdəcəklər.

Deyərlər ki, əgər süpürgəni başı yuxarı qoyarsan, o evdən ölü çıxar. Buna görə heç vaxt süpürgəni başı yuxarı qoymazlar.

Dolu yağanda dolu kəsilmək üçün dolunu düzləyib dama atardılar.

Dırnaq tutanda qoymazdılar ki, dağılsın, deyərdilər: dırnağın dağılarsa, adamın huşu dağılar.

Duanı sürməyə oxuyub püləsələr, evsiz adamın bəxti bağlanar.

Eşqıran adama deyərdilər ki, sovqat yeyəcəksən.

Gec duran qonağın başmağına duz tökərlər.

Gecə novdan altında durmazlar.

Gecə işləməzlər, məleykələr qarğış eliyərlər.

Gecələr dırnaq tutmazlar, ömür azalar.

Gəlin gələndə nəlbəki sındırmağı uğurlu olar. Ayağı inciməsin deyə nəlbəkini mis qabın altına qoyarlar. Gəlin qabı ayaqlamaq ilə nəlbəkini sındırar.

Gəlin gələn evdə sübhədək çırağı söndürməzlər.

Hər kimin ovucu qaşınarsa, ya dırnağının mayasına ağ ləkə gələrsə, deyərlər, əlinə pul gələcək.

Hər kəsin bir ulduzu var, bir ulduz axanda bir adam ölür.

Xəkəndaz ilə süpürgəni bir-birinin üstünə qoysan dalısında şeytan gizlənər.

İki arvadın arasından keçən kişinin sözü keçərli olmaz.

İki adam baş-başa dəyəndə hərəsi öz başını qaşıyar və yerə tüpürərdi ki, başlarına keçəl düşməsin.

İki tay başmaq qarşı-qarşıya dursa başmaq yiyəsinin başqa yerdə qiybəti olunur.

İldırım çaxan yerdə almas düşər.

İlin axır çərşənbəsi dırnaq tutar və dırnağın tilişkələrin hamama axıdardılar. Bəzi arvadlar saçlarının ucundan bir az qayçılayıb su ilə axıdardılar.

İsti su səpərkən «bismillah» de, cinlər eşidib özlərini qorusunlar.

İsti suyu gecə yerə tökməzlər, çünki cinin balaları yanar.

İstəkanı üzüdik qoymazlar.

İstəkan, ya nəlbəkidə tökülmüş çayın içində qərə çox durarsa, qonaq gələr.

İstəkanları çayla doldurub yerə qoyanda öz-özlərinə bir birinin dalınca düzülərsə, evə qonaq gələr.

İt ulayanda deyərlər, göydən bəla keçir.

Kimsənin iradəsindən asılı olmayaraq qab-qacaq bir sıraya düzülsə, qonaq gələcək.

Küçədən bir evə gəlin aparanda oğlanı bağlamaq niyyətilə bıçağın ağzını bağlayarsan. Deyərdilər, o gəlin gecəsi oğlan gəlinlə bir iş görə bilməz. Oğlan gəlinə yaxınlaşa bilməyəndə çıxardıb qəbristanlığı dolandırardılar.

Qadın başına tərsə çadra salsa sığə axtarır.

Qapıdan eşigə isti su səpməzlər.

Qaynar suyu yerə tökəndə deyərlər, cin vurub.

Qazanın dibini yalayanın toyunda qar yağar.

Qəbir üstünə gedəndə yerdən bir balaca daş götürər, baş daşını iki xətt şəklində cızardılar.

Qəfildən qorxulu dolu yağsa onun kəsilməsinə bir dəmir atarlar şirnovun qabağına.

Qorxan adamın balıncı altda duz qoyarlar. Sübh yuxudan durandan sonra duzu mejmeyiyə salıb altına od yandırarlar. Tökülüb yayılan duzu qorxu qaynağı kimi yozallar.

Məkkə, Kərbəla ya da Şam ziyarətindən qayıdan bir qadının pişvazına gedən qadınlar onun başmaqlarını, xüsusən sağ tayını ayaqlarına geyməgə çalışarlar. Başmaq tayını ayağına geyən qadın az bir zamanda ziyarətə yollanacağına inanar.

Neçə bacısı olan tək oğlan bic olar.

Ölünü quylayandan sonra məzarı üstə bir saxsı səhəngdə su gətirib sındırarlar.

Ölünün məzarı üstə əvvəlki axşam od yandırarlar.

Ölünün kəfənin başqa kəsə vermək doğru deyil.

Paltarlarda cin iz buraxmasın deyə onu sancaqlarlar.

Pişigin üstünə su atmazlar, pişik cin olar.

Pondı (buxarını) yığışdırandan sonra yenidən qursan şaxta gələr.

Səfərə gedənlərin dalısınca su səpərlər.

Su aydınlıqdır.

Süpürgə dəstəsilə yerə qoyulsa evdən bərəkət qaçar.

Şirnov qabağında yatmazlar, cin vurar.

Şuluxluq ikən ara sakit olarsa, «Cəbrayıl keçir» deyərlər!

Tək asqıran işində dözməlidir.

Toy gecəsi (gəlin bəyin evinə gedən gecə) qapının girişində, astanada bir nəlbəki qoyarlar. Gəlin evə girərkən onu ayağı ilə sındırmalıdır. İnanırlar ki, nəlbəki gəlinin ayağı altında sınarsa, özü də sınıb o evdə qalacaq.

Toy gecəsi gəlin evdən çıxanda bəy onu qarşılayan zaman gəlin onun ayağını ayaqlaya bilsə bəyin dili həmişə gəlinə qısa olacaq, tərsinə bəy bu işi görə bilsə, gəlinin dili ona qısa olacaq.

Təzə gəlin, ya da kürəkən yeni ailəyə ayaq qoyduqlarından sonra az bir zamanda o ailəyə yaramaz bir olay üz versə inanırlar ki, bu olay gəlinin, ya ayağının ağırlığı və ya günün əlamətidir. Belə inanc yeni dünyaya gələn uşaq üçün də var. Bunun tərsi də ola bilər. Gəlin, bəy və uşağın gəlişindən sonra işlər avandlaşıb yaxşı olaylar üz versə, onların ayaqlarının yüngüllügünü səbəb gətirərlər.

Təzə doğan qadını tək qoymazlar, cinlər gəlib ciyərini çıxardıb apararlar və bu qadının ölümünə səbəb olar.

Uşağı güzgüyə göstərməzlər, dəli olar.

Uşaqlar qarpızı yeyib çeçəsin gəmirəndə böyüklər deyərlər: ceçəsini gəmirmə, başına keçəl düşər.

Üzünə sap salan xanımın sapı qırılsa əri onu çox sevir.

Yatanın üstünə qara çəkməzlər.

Yağış yağıb ardınca günəşin zərli saçları dağlara yayılarkən deyərlər: “Dağlarda qurd balaladı”.

Yuxunu qarışıq görəndə səhər tezdən qalxıb itə bir çörək atarlar.

Zahı qadının əmcəkləri şişib bərkisə, qurdun əlini çəkərlər.

Ziyili təmizləmək üçün təzə aya baxıb, onu süpürgə ilə süpürərlər.

## ANA VƏ UŞAQLARLA BAĞLI İNANCLAR

- Boylu qadının başına özü bilmədən duz tökərlər, əlini başına çəksə uşağı oğlan, burnuna çəksə qız olar.
- Boylu qadın qəbir üstə getməz, getsə uşağı ağırlıq basar.

Boylu bir xanım ayağa qalxıb ilk addımda sağ ayağını götürsə, deyirlər ki, oğlu olacaq.

- Boylu qadın iki namaz arasında bir ağ parça açıb nar dənələyib yesə, uşağı gözəl olar.
- Boylu arvad ov (ceyran əti yesə) uşağı qorxaq olar.
- Boylu arvad qurd ürəyi yesə, uşağı qorxmaz olar.
- Boylu arvad bir yeməkdən umub yeməsə, uşağın gözləri çəri (sarı) olar.
- Boylu qadın hamiləlik vaxtı alma qoxularsa, uşağı gözəl olar.
- Boylu qadın kəllə-paça çox yesə, uşağı fırtıqlı olar.
- Boylu qadın hər adamın xörəyini yeməməli və yedikləri xörəklərə diqqət etməlidir. Çünki uşağın tikəsi pis adamdan düşərsə və haram çörəkdən olarsa, naxələf övlad olar.
- Hamilə olduğunu bilən zaman ana günəşə baxsa uşağı oğlan, aya baxsa qız olar.

## UŞAQ DOĞULANDAN SONRAKI İNANCLAR

Arvad doğanda çətinlik çəkərdisə, gecə olsun, gündüz olsun çıxıb damda azan verərdilər.

- Bevaxt yeriyən uşağı aparıb evin astanasına qoyub və üç gün evi süpürdükdən sonra evin zir-zibillərini uşağın başı üstündən eşiyə tökərmişlər.

Bəzi yerlərdə bir arvad çox qız uşağı doğarsa, axırıncı qızın adını “Qızbəs” qoyarlar. Yəni qız bəsdir, bunun dalı oğlan olsun.

Bir uşaq nanəciblik edərsə deyərlər ki, tikəsi filan nanəcib adamdan düşüb, odur ki, yerikləyən arvad, nəhayət çalışar ki, pis adamın əlindən tikə alıb yeməsin.

Bir uşaq ayaq tutub yeriməgə geciksə, uşağı bir xəlbir, ya da bir ələk içinə qoyub ayaqlarının baş barmaqlarını bir ip ilə bir-birinə bağlayıb, qarşısına şokolad, ya şirni töküb onu üç yolun ayrıcına qoyallar. İlk yoldan ötən şəxs uşağın ayaqlarına bağlanan ipi kəsib şirnilərdən birini yeyib yollanar, inanırlar ki, ondan sonra uşaq ayaq tutub yeriyəcək.

• Gec dil açan uşağa quş yumurtası verərlər. Onda tez dil açar.

Gecə zamanı dünyaya gələn uşağın ayağı ağır, gündüz dünyaya gələnin isə ayağının yüngül olmasına inanarlar. Bir işə başlayan zaman, məsələn fərş toxumaq, corab toxumaq zamanı ayağı yüngül olan uşağın ayağı ilə başlarlar (uşaqdan istərlər ki, iş başlanan yerdə dolansın).

Körpənin ağzını torbə (nəmaz möhürünün tozu) ilə açardılar.

• Körpə uşağı diş çıxardınca, eşşəyə mindirmək olmaz, çünki dişləri eşşək dişi kimi böyük çıxar. Körpə uşağın dişlərinin kiçik olması üçün balaca quzuya mindirərlər. Beləliklə, dişləri quzu dişi kimi incə və gözəl olar.

• Qırxlı uşağa ət gətirsələr, uşağın boynu qıcayar (dalıya dönər).

• Qırxlı uşağı ayaxları üstə saxlamazlar və qoymazlar ki, ayaxlarını yerə basa, belə inanarlar ki, uşağın gözləri çəri olar.

• Qırxlı uşaq böyüklər yemək yeyən zaman çox ağlasa, deyərlər ki, elə bil atasının çörəyini yeyirlər.

• Qız uşağı deyər: "Anam – atamı Allah saxlasın, mənim bələyimi bərk bağlasın".

• Qız uşağı deyər ki, atam – anam məni qırx günə eşiyə atmasalar, mən özümü onnara istədərəm.

• Qorxan uşağını tez işədib duz yaladarlar.

Qucaq uşağını evin taxçasına qoyub oturtsalar anası, ya bir başqası deyər ki, uşağı taqçaya qoyma, dəyişik düşər.

Muğanda bir arvadın uşağı olmadıqda, ya uşağı olub qalmadıqda, çətinliklə bir uşaq taparsa (doğarsa) nəzər dəyməsin deyə, uşağa camaatın xoşuna gəlməyən bir ad qoyardılar. Məsələn, "Dilənçi" adı.

Oğlan uşağı qazan dibi yalayanda deyərlər: qazan dibi yalama, toyunda qar yağar.

- Oğlan uşağı qazan dibi yalasa toyunda qar yağar.
- Uşağa anası gərək iki döşündən də süd verə.
- Uşağa bal versən, uşaq daha dil açmaz.
- Uşağa gül verməzlər, uşaq gül kimi solar.
- Uşağa gərək dişlik bişirilsin. Belə deyirlər ki, uşaq diş çıxardan zaman çox sancı çəkər. Buna görə deyərlər ki, uşağın dili olsa, deyər: – "Atam, anam, kaş mənim beşiyimi satıb mənə dişlik bişirələr".
- Uşağa xaşxaş gülü aparmaq pis olar.
- Uşağa qırx gün qırx saxlarlar. Yəni, qırxından sonra bəlli olar ki, uşaq gecə ağlardı, ya gündüz.
- Uşağa pənir versən, korafəhim olar.
- Uşağı ağac dibinə işətməzlər, cinlər qarqış edərlər.
- Uşağı bələdikdən sonra uşağın anası əllərini üç yol yerə çalıb, uşağın belinə vurar və deyər: "Hamının yuxusu sənin olsun". İnanca görə, uşağın yuxusu ağır olub, yaxşı yuxulayar. Ananın əllərin yerə vurmaq şəkli də belə olar ki, əllərin iki dəfə çarpaz və bir dəfə də düz bələyin üstünə qoyar.
- Uşağı çox güldürməzlər, əti tökülər.
- Uşağı güzgüyə görsətməzlər, uşaq özünü görüv qorxar.
- Uşağı qəbir üstə aparmazlar, belə inanc var ki, uşaqlar qəbirlərin içini görə bilərlər və ona görə qorxarlar.
- Uşağı qırx gün evdən eşiyə çıxarmazlar.
- Uşağı oxluqla döyməzlər, uşağın ömrü azalar.
- Uşağı ölən arvad balasının qəbrinə getməməlidir, belə inanarlar ki, mələklər uşağı sürüyərək anasının ayaqları altına gətirərlər.
- Uşağı taxçaya və rəfə qoymazlar, deyərlər ki, əcinnələr uşağı dəyişər.
- Uşağı yorğan-döşək üstünə və yük yerinə qoymazlar, belə inan var ki, uşağı əcninnələr dəyişər.

Uşağı yükün üstünə qoysalar ayaq açmaz.

- Uşağın başından vurmazlar, vursan yetim qalar.
- Uşağın bir yaşına kimi başına qayçı vurmazlar. Oğlan, ya qız, fərq etməz.
- Uşağın boynundan öpməzlər, yoxsa uşaq küsəyən olar.
- Uşağın boğazına yemək və içmək zamanı bir şey qaçsa və öskürək tutub keçinsə, deyərlər ki, hamısı sənin olsun.
- Uşağın damağı türbət torpağı ilə götürülsə uşaq doğru danışan və ağzı təmiz bir adam olar.
- Uşağın göbəyini kəsdikdən sonra onu hara quylasan, uşaq böyüyəndə oraya çox gedər. Oğlan uşağının mömin olmağına görə çox məscidlərə quylarlar, ev uşağı olmaq üçün də evdə quylarlar; savadlı və dərs oxuyan olmaq üçün məktəbdə, ya mədrəsədə quylarlar; əkinçi olmaq üçün də göbəyi bağlarda, ya zəmilərdə quylarlar. Qız uşağının göbəyini təndir küvləsinə salarlar, beləliklə, qız uşağı ev qızı və bacarıqlı ev xanımı olar.
- Uşağın nənnisini pis salsan, uşaq ölər.
- Uşağın qabaq dişləri aralı olmuş olsa, ruzulu olar.
- Uşağın qırxı çıxdıqdan sonra hamama aparıb qırxlıq qüsulu tökərmişlər.
- Uşağın ovcunu yumazlar. İnanca görə, uşağın ovcunun çirki onun yuxusudur, yusan yuxusu qaçar.
- Uşağın üstündən atlanmazlar, atlansan uşağın ömrü qısalar.

Uşağın nənnisin boş-boş tovlamazlar, sancılanar.
- Uşaq anasını tanıyan zaman anasının tükləri tökülər.
- Uşaq diş çıxardan zaman gözəl üzlü adamla üzbəüz olursa, (ilk dişini görən adam) rahatlıqla diş çıxardar, çirkin üzlü adam görsə, çətinliklə diş çıxardar.
- Uşaq iməkləyib qapı astanasından keçdikdə, deyərlər, uşağın başı bərkiyib və qulağı daha ağrımaz.
- Uşaq qorxmuş olsa, onu "bəndai"yə aparar, bəndçi qorxuluğunu götürər, "pitik" yazar.
- Uşaq qorxsa, "damağını götürürlər". Belə ki, bir arvad əlinin içini möhkəm yerə çalıb, orta barmağı ilə uşağın ağzına salıb damağını basar.

- Uşaq odla oynasa, gecə yerinə işiyər.
- Uşaq olduqdan sonra on günə kimi uşaq olan otağa əl gətirməzlər; Əgər bilməyə-bilməyə uşaq olan otağa əl gətirsələr, gərək əl üstünə su töküb sonra bu su ilə uşağı yuyalar.
- Uşaq uca yerdə və dam qırağında dursa şeytan itələr.
- Uşaq üst ənginnən diş çıxartsa, ruzusu az, alt ənginnən çıxartsa, ruzusu bol olar.
- Uşaq üst tərəfdən diş çıxartsa, gərəh bir qurbanlıq kəsilə, yoxsa evdən bir ölü çıxar.
- Uşaq üstdən diş çıxartsa, uşağı uca bir yerə çıxardıb aşağıda açılan bir çadır içinə atarlar.
- Uşaq yatanda ağlasa, şeytan yuxusunda ona deyər ki, anan ölüb.
- Uşaq yuxuda gülsə, deyərlər, məlakələr ona süd verir.
- Uşaqlar xəbərçin (bir cür gül toxumudur ki, göydə uça-raq saçılar) tutub yaxşıca bir söz deyərlər ki, sonra onu üfləyib göyə uçurdarlar və deyərlər ki, get bu xəbəri filankəsə yetir.

# OVSUNLAR

## QORXU ÇIXARMA

...Atam gedəndən sonra "nənəm məni qibləyə sarı uzatdı, üstümə bir çadra çəkdi, bir istikan suda iki qaşıq duzu əritdi. Anam mis xəkəndazı gətirdi, qoydu od üstündə qızışsin. Mən bir az qordxum, düzün istəsəz. Tüklərim biz – biz durdu. Anam dağlanmış xəkəndazı gətirib tutdu başımın üstünə. Ənnəm dedi:

– Insdən, cinsdən, bəni -adəmnən, heyvannan, hər nəmənədən qorxub, qorxuluğun götürürəm.

Sonra duzlu sudan bir az tökdü xəkəndaza, "çıssss" səsi çıxdı, ginə dağladı, ürəyimin üstündə çısıldatdı, bir dəfə də ayaqlarımda! Demək, beləliklə, qorxduğum şey başımdan girən kimi, ayaqlarımdan çixdı və naxışı da düşdü xəkəndaza! Su, dağ xəkəndazda buxar oldu, duz quruyub naxış saldı. O naxışı bir şeyə bənzədib dedilər:

– Həən bala, budu baaaaa itdən qorxub!

– İtdən qoxmusan?

– Yooooooo!

– Budu baaa, bu başi, bu da quyruği...

## ÜZƏRLİK OVSUNU

Nəzər dəyməsin deyə uşağa, ya böyüyə, ya ev əhlinin hamısına üzərlik salarlar. Evin arvadı üzərliyi ovcunda tutar, bir-bir ailə üzvlərinin başına dolandırar və üzərlik olan əlini onun kürəyinə tapdayar. Axırda üzərliyi o birisi əlindəki xəkandaz içindəki odun üstünə tökər. Çırtaçırt yanar tüstü qovzanar:

Üzərrihsən havasan,
Min bir dərdə davasan.
Dərd qapıdan girəndə,
Sən bacadan qovasan.
Üzərrih danə– danə,
Çəkilsin kəhkəşanə.

Aya baxanın,
Günə baxanın,
Alagöz,
Qərə göz,
Sarı göz,
Şənbə olanın gözi,
Şənbə sabahi olanın gözi,
Həftə üçi olanın gözi,
Çərşənbə axşamı olanın gözi,
Çərşənbə olanın gözi,
Cümaxşami olanın gözi,
Cümə olanın gözi,
Küllü -cəhanın gözi,
Qohum ola, yad ola
Çatdasın onun gözi.
Saldım ota üzərrih,
Görüm hökmün, üzərrih!
Bir, iki, üş, döt,
Beş, alti , yeddi,
Yeddi min ilacan
Qada– bala qoydi getdi.
Üzərliksən, havasan,
Hər bir dərdə davasan.
Haça-haça üzərlik,
Damdan uca üzərlik.

Uşağa göz dəyməsin deyə, börkünə çeşitli şeylər dikərdilər ki, aşağıda bir neçəsi qeydə alınır: yeddi goz (göy rəngli daş, üstündə ağ çallarla), dağdağan, pitik (kağız üzərinə yazılmız dua). Xoyun kəndlərindən olan Dizədiz və yan-yörəsində uşaqların kürəyinə heykal dikərdilər. Bu, toxunmuş bir ip idi ki, ona muncuq, qotaz, yeddi qardaş, göz mıncığı, bir şahlıq, ya bir qıranlıq kimi qulplu pullar, dua-pitik və biləncu şeylər dikərdilər.

Göz – nəzərdən ötrü yeddi qonşunun küçə qapsından çöp yığar, üzərliklə qatıb, uşağa üzərlik salarlar. Onun külünü aparıb küçə qapısının iki tərəfinə tökərlər.

Bədnəzər bir şəxs birinin evinə qonaq olursa, o gedəndən sonra ev yiyəsinə bir nəzər toxunsa başqa dönə həmin şəxs onlara qonaq gəlirsə, onun başmağının altından, (o şəxs bilmədən) daban tərəfindən kəsib üzərliklə birgə evdə yandırarlar.

## SANCI OVSUNU

Uşaq elə ki, çox yeyib qarın sancısı tutsa, anası onu qucağına alıb nələr yediyini soruşar, sonra qarnına əl çəkib o sayan yeməkləri iğraq ilə sayıb toxtaq verər. Örnək üçün belə deyər:

– Balam səhər sübhanəyə on dənə əl çörəyi,
Beş küpə pəyniri yeyibdi: sivirin gəl!
On çaynik çay içibdi: sivirin gəl!
Nahara bir qazan aş yeyib,
On boşqab əriştə pilovu yeyibdi: sivirin gəl!
Altı güyüm su içibdi: sivirin gəl!
Bir tay əppək yeyib, iki tuluq süsmə yeyibdi: sivirin gəl,
Sama on sehin sorba içib,
İyirmi çanaq əyran içibdi: sivirin gəl!

* * *

Qoyun-quzu sürüdən ayrılıb gecə çöldə qalsa dua yazanın qapısına gedib bir dua yazdırıb pıçağa piliyərlər.

Pıçağı bağlayıb bir qatma ilə sarıtlayarlar, qoyarlar taqçada qalar. Beləliklə, qurdun ağzı bağlanı, çöldə qalan qoyun-quzu salamat qalar.

* * *

Bir uşağın boğazı ağrıyanda böyüyü əli ilə boğazını sığallayıb bu ovsunu oxuyarlar:

Gecə gəlmisən, gecə get,
Günüz gəlmisən, günüz get.
Nə vaxt gəlmisən, o vaxt qayıt.

* * *

Bir şey itirdikdə onu axtaranda deyirlər:

– Tapıl-tapıl, pul verim,
Tapılmasan, çul verim.

# MİFOLOJİ MƏTNLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

## CİNLƏR HAQQINDA

### ERKƏN HAMAMI

Qədim zamanlarda bir kişi çox tezdən yuxudan durar, deyər bəs səhər açılıb. Gedər hamama, soyunar, içəri girər və yuyunmağa başlayar. Bir müddət keçər, görər heç hava işıqlanmayır. Hamamın dəlləyindən soruşar, görəsən səhər olmayıbdır? Kişi huylənib qorxar, xəznədə durulanıb çıxar. Paltarların geyinəndə hamam ustasına deyər ki, evin yıxılmasın, dəlləkdən vaxdı soruşdum, o uzandı, uzandı başını damın bacasından eşiyə çıxartdı. Hamam ustası deyər, bu bir şey deyil ki, enlənər, enlənər az qalar o yekəlikdə otağın hər yerin tutsun.Yazıq kişi qorxusundan elə geyinər ki, bilməz haçan geyinib. Birdən görər küçəylə qaçır. Demə, bəs onlar cin imişlər.

### QARA PİŞİK

Bir kişi səhər tezdən açılmamış yuxudan durar, hamama gedər. Soyunub içəri girər, görər bəs bir çal-çatlasındır ki, gəl görəsən! Bildiyin qarnında. Kişi əyləşər, bir də görər, booooy, evdəki qara pişikləri də burdadır. Özü də arvadının donunu geyibdir. Cinlərin toybəyi üzünü bu pişiyə tutub deyir:

– Dur oyna, məstan.

Pişik durub orada oynayar, nə oynayar? Kişi əlini pilovun yağına batırar, zahirdə təşviq etmək üçün əlini Məstanın kürəyinə çalar. Səhər açılacağın cinlər gözdən itərlər. Kişi hamamda yuyunub evə qayıdar. Hal-qaziyəni arvadına danışar. Sandığı açarlar, görərlər bəli, arvadının donunun kürəyində kişinin yağlı əlinin yeri qalıb. Oturallar çay-çörək yeməyə. Kişi üzünü pişiyə tutub deyər:

– Dur oyna, məstan!

Pişik qeyzlə kişiyə baxar, çıxıb gedər.

## KÖŞŞƏN KÖŞŞƏNİN ÜSTÜNƏ

Qədim zamanlarda İbrahim adında bir köşkəkli kişi var idi. Gecə, səhər açılmamış yuxudan ayılır, gecənin aydınlıq olduğundan elə bilir səhər olub. Hamama gedər. Demə o gecə cinlərin hamamda toyu imiş. İbrahim kişi onların şənliyinə qarışıb münasib vaxtda orada oynayar. Cinlərin padşahı bu əməldən xoşu gələr, əmr edər:

– Bu kişinin köşşəyini götürün!

Və götürəllər.

O gündən İbrahim kişi rahatcasına yaşamağa başlayar. O şəhərdə bir ayrı köşşəkli adam var idi. İbrahimdən soruşur:

– Əşi, sənin də köşşəyin varıydı, bəs nə cür oldu ki, yaxşılaşdın?

İbrahim hal-qaziyəni açıb deyər. Köşkəli kişi bunu eşidir, səhər açılmamış, gecənin bir vaxtı durub gedər hamama. Bu yazığın şansından o gecə cinlərin yası imiş. Kişi hamama gircək başlayar oynamağa. Cinlərin padşahı qəzəblənər, əmr edər ki, İbrahımin köşşəyini götürün qoyun bunun dalına. Cinlər İbrahimin köşşəyini gətirib o kişinin köşşəyinin üstünə qoyarlar. O gündən bu fələkzədə iki köşşəklə əzablı yaşamağa məcbur olar.

## ŞEYTAN HAQQINDA

## ŞEYTAN AFTABA İŞİNDƏ

Deyirlər, qədim zamanlarda peyğəmbərlərin biri camaatı şeytanın əlindən rahat etmək üçün şeytanı tutub aftabaya salır. Birdən cəmaət dünyanın hər zadından əlaqəsini üzür, bir külüng götürür, gedib özlərinə qəbir qazmağa başlayırlar. Peyğəmbər cəmaəti belə gördükdə şeytanı aftabadan azad edir. Cəmaət lapdan özünə gəlir. Buy, səfehləmişik?! Bu nə işdi görürük? Adam da özünü quylayarmı? Külüngü yerə atıb ev-eşik və gündəlik işlərinə qayıdırlar.

## BİC VƏ ŞEYTAN

Deyirlər, bir bic ilə şeytan bağlaşdılar ki, görsünlər onların hansı çox cinayət edə bilər. Hərəsi şəhərin bir hissənə düşdü. Bic şəhərin bir tərəfini çalxayıb bir-birinə vurdu, çəkdi qanlar axıtdı. Dedi gedim görüm şeytan neyləyib. Şəhərin şeytan olan tərəfinə getdi. Gördü hər yer sakit və aram, hər zad öz yerindədir. O yana şeytan, bu yana şeytan, axırda şeytanı bir evdə tapır. Gördü ki, hələ təzə istəyir bir gənci (cəkanı) bir arvadın divarından boylandırsın. Şeytana deyir:

– Elə bu? Get gör mən nələr etmişəm, nə xəyanətlər işləmişəm. Adamları odla qanın içində necə ax-vaya salmışam.

Şeytan zaqqıltıyla gülməyə başladı və dedi:

– Mən istəyirəm bu gənclə bu arvadı bir-birinə yaxınlaşdıram, ta sənin kimi biri dünyaya gəlsin.

## QARAÇUXA

Deyirdilər, hərənin bir qərə çuxası vardır ki, onun işlərini səhmana salar və xeyrinə bais olardı. Bir evin də mümkündür qarə çuxası olsun. Məsəla, bir ilan həmişə gəlib pəyədə atın yanaçağının üstündə qıvrılıb yatar, ata sədəmə vurmazdısa deyərdilər ki, o ilan evin qərə çuxasıdır və onu öldürməzdilər.

## AL ARVADI

Deyilənə görə, Al arvadı bir arvaddır ki, əmcəklərini çiyinlərindən dalına atar, dəmirdən qorxar və zahı arvadların ürəyini aparar. Buna görə zahı arvadların yanına təndir şişi qoyar, bəzən də şişin başına soğan keçirərdilər. Bəzi arvadlar Al arvadını tutar, özlərinə külfət edərmişlər. Al arvadı qaçmasın deyə yaxasına sancaq taxarmışlar. Deyirlər, Al arvadı bir gün küçə uşağına deyir ki, bu sancağı mənim yaxamdan çıxar. Uşaq sancağı çıxartcağın Al arvadı qurtulub qaçır. Həmzad arvad deyərdilər, həmzad arvad (ömrüboyu uşağı olmayan) hər kimin uşağının üstünə gedərsə, o uşaq ölər.

## ƏZRAYİL

Deyirlər, Əzrayılın boyu elə ucadır ki, ayaqları yeddi yerin təkində və başı Allahın yanındadır. Bir nəfərin canın alanda içəri girməz, içəri baxmaqla adamın canın alar.

## QULAQ CİNGİLTİSİ

Hərdənbir adamın qulağı öz-özünə cingildəyər. Bunun səbəbin belə izah edərdilər ki, bir yekə ağacda hər adamın bir yarpağı vardır. Hər kim ölərsə, yarpağı ağacdan düşər, yolu üstə hansı yarpağa dəyərsə, o adamın qulağına səs gələr.

## ULDUZLAR

Hərənin göydə bir ulduzu vardır. Göydə bir ulduz axanda deyərdilər ki, bu ulduz hər kimindirsə o adam öldü.

## TOYUQ NİYƏ UÇMUR?

Deyirlər, Nuh tufanı yatandan bir müddət sonra, Həzrəti Nuh toyuğu (toyuq bir quş idi) yerə göndərdi ki, xəbər gətirsin, yer quruyub, ya yox? Toyuq gəlib orada çox dən gördükdə dənlənməyə məşğul oldu, xəbər aparmaq yadından çıxdı. Həzrəti Nuh toyuğun bu yubanmağına görə onu qarğıdı. Odur ki, toyuq uçanmaz.

## KEÇİNİN NİYƏ QUYRUĞU YOXDUR?

Deyərdilər, keçinin əvvəllər davar kimi quyruğu varıydı. Həzrəti Nuh zamanı, onda ki, Allahın əmriylə dünyanı su tutacaqdı, Həzrəti Nuh bir gəmi qayırıb, hər heyvandan bir cüt gəmiyə götürdü. Elə ki, su hər yeri tutdu, gəmi suyun üstündə salamat qaldı. Keçi gəmidə çox o yan, bu yana qaçırdı. Gəminin qırağında az qaldı suya düşsün. Həzrəti Nuh əlin atdı keçinin quyruğundan yapışdı. Keçi çəkdi, Həzrəti Nuh çəkdi, Həzrəti

Nuh çəkdi, keçi çəkdi. Həzrəti Nuh bir də zor verdi ki, keçini içəri salsın, keçinin quyruğu qopdu qaldı Həzrəti Nuhun əlində. O zamandan keçinin quyruğu yoxdur.

## ŞƏBANİN YARISI GECƏ

Deyilənlərə görə, şəban ayının yarısı gecəsi ağaclar səcdəyə gəlir. Qədimin xoşzövq adamları buna bir hekayət də quraşdırıblar. Həmin bu gecə bir nəfər atla şəhərdən gəlir. Gecənin bir vaxtı evinə çatır. Evinin qabağında qələməni yıxılmış görür. Atını qələmə budağına bağlayır. Özü də yorğun olduğundan gedib başın atıb yatır. Səhər durub həyətə çıxanda görür, at göydə qələmənin başındadır.

## BAZAR ÇÖRƏYİ

Mollalarımız deyirlər, Molla Zeynalabdin Nəvayi təxminən yüz yetmiş il bundan əvvəl Xoyun Nəvayi kəndində yaşayan, çox müqəddəs, düzgün, təmiz və Allah adamı imiş. Rəvayət edərlər o, bir gün gəlir ki, Seyid Yəqub ağanın evinə getsin ( bu ev indi də məqbərədir). Bazardan keçəndə görür, pəho, dükanda tərəzinin dalında bir donuz, bir it oturub. Huyuxur. Seyid Yəqub ağanın evinə yetişir və hal-qəziyyəni deyir. Ağa deyir:

– Get bazardan bir az çörək al gətir.

Alır gətirir və naharda Molla Zeynalabdın da yeyir. Qayıdanda hamını adam şəklində görür.

# YER ADLARI HAQQINDA RƏVAYƏTLƏR

## TƏRPƏŞƏN DAĞ

Qədim zamanlarda bir dağ varmış. Ona əl vurar, and içərmişlər. Əgər adamın sözü düz olsaydı dağ tərpənərmiş. Yalan olsaymış sakin qalarmış. Bir arvadın oynaşı varmış. Əri bu arvada bədgüman olur, deyir:

– Gərək gedək dağa and içək.

Arvad oynaşı ilə qərarlaşır. Kişi səhər arvadı eşşəyə mindirir. Dağa sarı yola düşürlər. Yolun yarısında oynaşa rast gəlirlər. Oynaş da qoşulur bunlara, yola davam edirlər. Lapdan arvad özünü eşşəkdən yıxılan kimi edir. Oynaş arvadla qoyduqları qərara görə tez əlin atır, yapışır arvaddan ki, məsəla, qoymasın yıxılar. Gedər dağa yetişərlər. Arvad əlini dağa vurar, deyər:

– Bir ərim, bir də bu kişidən sonra heç kimin əli mənə dəyməyib.

Dağ partlayır darmadağın olur.

## QƏZƏNFƏR DAĞI

Qəzənfər dağı Xoyun güneyində Xatun köprüsündən o yana yerləşir. Uca bir dağın adıdır. Xoyun içindən baxanda bu dağın başı çuxur kimi görünər. Deyərlər: Həzrət Əli düşmənlərdən olan Qəzənfərin boynuna bir qılınc vurub. Qəzənfərin başı gəlib bu dağın qülləsinə dəyib, gedibdir.

## ŞAH TƏPƏSİ

Gərmi şəhərinin günbatan tərəfində "Şah təpəsi" adında kənd vardı ki, batıdan Xoruzlu mahalına dayanır. Qabaqcalar Ərdəbildən gələn maşın yolu bu kəndin yanından keçər, İncilli kəndindən belə tovlanıb Gərmiyə dönərdi. Yeri gəlmişkən qoy bunu da deyim ki, yağış yağanda maşın gərək gəldiyi yerdə dayanaydı. Yer təpiməyincə maşın hərəkət edənməzmiş. Yoxsa palçıq dolub təkərləri tutulacaqdı. Bu kənd dağlarla əhatələnmiş bir düzdə yerləşibdir. Kəndin qüzeyində çox böyük və əzəmətli bir təpə vardır.Yerli kəndlilərin dediyinə görə, Nadir şahın qoşunu padşahın əmriylə hərəsi bir torba torpaq tökərək bu təpəni yaradıblar. (vucuda gəlib)

## ƏRK QALASI

Eşitdiklərimizə görə, belə deyirlər ki, Təbrizin Ərk qalasının inşasında yumurta və küldən istifadə olunub. Bu qədər

möhkəm olmağı da ondan olub və bu günə qədər davamlı durub. Onun düzəlişinə görə gözəl bir nağıl vardır:

Deyirlər ki, Ərki düzəldən zaman orda bir işləyən var imiş ki, yerdən tək canına o ucalıqda divarlar üstə işləyənlərə kərpic atardı. Bu işçinin bu qədər güclü olmağının səbəbi bu idi ki, onun bir arvadı var idi ki, axşam başları əri işdən dönəndən sonra ona o qədər hörmət edərdi ki, kişinin bütün yorğunluğu canından çıxardı və əslən heç bir yorğunluq bilməzdi. Beləliklə, Ərkin divarları ucalarkən, günlərin bir günü Əli şah vəziri ilə birlikdə Ərkin işinə baş çəkmək üçün Ərkə gedər. Orada işə baxarkən şahın gözü kərpic atan işçiyə düşər və onun bu qədər güclü olmağın təəccüblənib vəzirindən bu işin sirrini soruşdu. Vəzir də bilirdi ki, onun bu qədər güclü olmağının səbəbi onun arvadındadır. Səbəbini şaha söylədi və dedi ki, qibleyi-aləm sağ olsun, sözün düzü, bu kişinin bir arvadı vardı ki, işdən sonra o qədər yaxşılıq edər ki, o da arvadın könlünə görə bu qədər yaxşı işlər. Şahın ağzı sulanıb vəzirinə deyər:

– İndi ki, bunun belə bir yaxşı arvadı var, yaxşı olar ki, onu alım özüm üçün. Belə bir arvadın inanmıram, dünyada tayı olmuş ola.

Şah vəzirini göndərdi arvadı razı eləsin, ta onunla evlənsin. Vəzir də gedib arvadın yanına onu razı elədi ki, şahnan evlənsin, arvad da sevincək düşüb öz könlündə arzular qurmağa başladı. Gecə əri evə gəldikdə arvad ərin heç hesaba qoymayıb, əslən ona qulluq da eləmədi. Kişi bu işdən çaşıb, arvadından ona nədən qulluq etməməsini soruşdu. Arvad da üzün tutub rişxəndinən dedi:

– A kişi! Nə zamanacan sənə hörmət eləyəcəyəm. Bu gün baş vəzir məni şahın olmağımı istədi!

Kişi gördü ki, əlindən heç bir iş gəlmir, başın qoyub yatdı. Səhər işə gedib başladı işləməyə, amma nə qədər çalışdı, bir kərpic də yuxarı ata bimədi. Üstəki bənna enib nədən işləyə bilməməsini soruşdu. Kişi də cavabında dedi:

– Sözün düzü, gecə evə getdikdən sonra bildim ki, arvad məndən əl üzüb və daha istəmir ki, mənnən yaşasın. Ona görə də mənim də işləməyə əl-qolum gəlmir, qalmışam nə edim?

Usta memar çox hüşlu-başlı bir kişi idi. Dedi:

– Mən sənə bir yol öyrədib bu işi düzəldərəm. Sən mən deyəni elə, ondan sonra görərsən ki, arvad səni bir daha qoyub getmək istəməz.

Usta memar ona bir öyüd verib yola saldı. Kişi evə döndükdən sonra ustası öyrətdiyi işə üz qoydu. Evə yetişərkən düz gedib malavada oturdu, bir az sonrası da malavadanın lüləyini götürüb sındırdı və başladı ağlamağa ki, vay, lüləyinim sındı. Bundan sonra mən neyləməliyəm? Başıma nə kül tökəcəyəm? Ey dad! Ey vay!

Arvad özünü yetirib kişiyə dedi:

– A kişi, nə hay-miy salıbsan bir lüləyindən ötrü, bu qədər özünü pərişan etmə. Məgər bundan savaye day ayrı bir lüləyin yoxdu?

Kişi ağlaya-ağlaya dedi:

– Axı bilmirsən ki, mən bunca ili bu lüləyə nə cür adət eləmişdim! Bilirdim ona nə qədər su töküm. Bundan sonra nə cür olar, mən ayrı bir lüləyi tapıb ona necə adət edim?!

Bu söz arvadda əsər qoydu ki, kişinin nə dediyini anladı və düşündü ki, mən bu qədər illər bu kişiylə yaşayıb ömür sürmüşəm.

Beləliklə, arvadın ağlı başına gəldi ərilən şirin-şirin yaşayış sürdü, Ərk qalası tikildi.

## DİNİ VƏ TARİXİ ŞƏXSİYYƏTLƏR HAQQINDA RƏVAYƏTLƏR

### HƏZRƏT ƏLİ

Həzrət Əli bir nəfər mömünlə yoldaş olub gedirdilər. Yol üstündə bir it yatmışdı, başını qovzayıb baxdı və yenə başını yerə qoydu. İtin çoçuqları hürməyə başladılar. Həzrətin yoldaşı soruşdu:

– Sənə fəda olum, bu nə vəziyyətdir?

Həzrət buyurdu:

– Gələcək nəsillərimizin böyükləri oturub, uşaqları dinəcəklər.

Yollarına ədamə verir, gedib bir yerdə iki böyük qazana rast gəldilər. O qaynayıb daşır, bu birisinə tökürlər, bu qaynayıb daşır, o birisinə tökürlər. Ancaq arada bir balaca qazan "yandım" deyib, ah-vay edirdi. Bu heyrətli işin sual-cavabında Həzrət buyurdu:

– Gələcək nəsillərimizin varlıları bir – birinin əlindən tutub yardım edər, yoxsullar isə ax-vay edəcəklər.

Gedib bir yerə yetişərlər ki, ağ quşlar enib bir ölü at cəmdəyinin ətindən yeyib, uçub göydə rəqs eləyirdilər. Həzrət buyurdu:

– Bunlar da gələcək nəsillərimizin haram mal yeyib, zikr eləyəcəklərinə işarədi.

## ALƏM NƏZƏRİNDƏ HƏZRƏTİ ƏLİNİN GÜCÜ

Deyirlər, bir gün Cəbrayıl Həzrəti-Əlinin gücünü yoxlamaq üçün dünyanın ağırlığını bir çuvala yığmış, Həzrəti– Əlinin yolu üstə durmuş idi. Həzrət gəlib yoldan keçəndə Cəbrayıl dedi:

– Bu tayı bir qovza mənim dalıma.

Həzrət taydan yapışıb qovzadı, amma çox zora düşdüyünə görə bir gözünə qırmızı gəldi. O gündən Həzrətin bir gözündə qırmızı varıydı.

## İSGƏNDƏRİN ÖLÜMÜ

Sizə hardan xəbər verim, az danışanlardan, qara dinməzlərdən, mərd-mərd arvadlardan, hürməyən itlərdən, ulamayan çaqqallardan, çox danışmayanlardan, eşidib əməl etməyənlərdən, bizov minib çay keçənlərdən, yaba ilə dovqa içənlərdən, xoruz belində bostan əkənlərdən, kosa saqqallardan, zər -zər gələrdən, nə bilimnən, lənət quyruqlu yalana, rəhmət quyruqsuz düzə, bir göz göz pozana, iki göz düşənə, rəhmət yazana, lənət pozana, söz qalsın, insan getsin, yaxşılıq qalsın, pislik getsin, dost var olsun, ağıllı yesin, ağılsız hesablasın.

Deyənlər belə demişlər ki, İsgəndər bütün dünyanı fəth edir gücü aşıb-daşdığından daha ayrı bir yer qoymamışdı ki, ona bac verməmiş olsun. Ondan ötür yaraqlanıb qoşunu ilə yola düşər, ta

gedib “günəşdən bac alsın”. Uzun bir müddət yol getdikdən sonra İsgəndər öz vəzirinə deyir ki, kitablara bax gör ki, mən bu qədər yaşadıqdan sonra harda və nə vaxt öləcəyəm? Vəzir kitaba baxıb dedi:

– Ay, gün görsətmir. Ancaq elə bir vaxt öləcəksən ki, altın daş, üstün polad olacaq.

İsgəndərgil genə at üstündə bir müddət yol getdilər. Elə bir yerə gəlib çatdılar ki, günəşin istisindən nə yerimək, nə də nəfəs çəkməyə taqət qaldı. İsti İsgəndəri lap canından bezdirmişdi. Nə bir kölgə, nə də bir ağaclıq görünmürdü, ta bir az orda dincəlsin. Axırda isti İsgəndəri vurub naxoşlatdı. Qoşun əhli hər nə qədər yer axtardılar, ta İsgəndəri uzatmaq üçün bir yer tapa bilmədilər. Naçar bir daş, qaya üstünə uzadıb, öz qalxanlarını İsgəndərin üstünə tutdular, ta bir az kölgə olub istidən qurtulsun. Bu halda İsgəndər xəbər aldı:

– Vəzir, bu nə yerdi?

Vəzir də dedi:

– Həmən dediyim yerdi ki, qabağımıza çıxdı! Altın daşdan, üstün poladdan olan yer budur.

İsgəndər dedi:

– İndi mənim yəqin ölüm zamanımdır. Anama deyin ki, mənim ehsanıma bütün ölkədən şahları, tacirləri, fəqirləri çağırsın. Məni adıma görə dəfn etsin.

İsgəndər vəsiyyət edib öldü. Qoşun onun meyidini öz yurduna qaytarıb anasına elədiyi vəziyyəti yerinə yetirmək istədilər.

Anası İsgəndərin cənazəsini gördüyündə “vay balam!” deyib başına vurdu, saçın yolmağa başladı. Çoxlu şivən elədikdən sonra İsgəndərin dediyi kimi, bütün ölkədə yaşayan şahları, tacirləri, fəqirləri bir araya yığıb İsgəndərin cənazəsini ləl və cəvahirlərlə bəzətdirdi. Sonra dedi:

– Mən icazə vermərəm ki, böyük İsgəndərin cənazəsini qara torpağa qoysunlar!

Hər nə qədər dedilər ki, belə iş olmaz, İsgəndərin anası qəbul eləmədi ki, eləmədi. Çox götür-qoydan sonra vəzir dedi:

– İndi ki, oğlunun basdırılmağına razı olmursan, bəs elə də bizim məsləhətimiz budur ki, onun cənazəsilə səni bir otağa qoyaq, sən də onun yanında oturasan. Bu şərtlə ki, heç bir şey yemiyəsən.

İsgəndərin cənazəsiylə anasını bir otağa saldılar. Anası üç gün, üç gecə bir şey yemədə, baxıb ağladı. Dördüncü gün arvad ağlamaqdan az qalmışdı ki, həlak olsun, amma elə bərk acıxmışdı ki, bütün bədəni yarpaq kimi əsirdi. Arvad zorakı ayağa durub otağı dolandı ki, ta bəlkə bir yemək tapsın. Sən demə, ağıllı vəzir də bir parça çörəyi otağın lap uca yerindən asılmasını əmr eləmişdi. Arvadın gözü bu asılan çörəyə sataşdı, nə qədər çalışdı, gördü əli çatmır ki, çatmır. Arvad gördü ki, lap acından ölüm halındadır. Otaqda da heç bir şey tapılmırdı ki, ayaqlarının altına qoysun, ta bir parça çörəyi götürüb yesin. Axırda əlacı hər yerdən üzülüb çıxdı oğlunun meyidinin üstünə. Çörəyi endirib yerə düşdü. Demə, sarayın adamları da arvadı eşikdən güdürmüşlər. Arvad çörəyi endirib düşən kimi onlar içəri girib dedilər:

– Ay xanım, gördün ki, biz haqlıyıq. Heç kim dünyadan doymayınca burdan əl çəkə bilməz.

Anası dedi:

– Siz düz deyirsiz, amma qoy yasa gələn qonaqlardan xəbər bilim, onların da heç öləni olub?

Vəzir dedi:

– Yaxşı, bir tədbir qılıb bunu da bildirəm.

Belə əmr elədi ki, iki cür yemək hazırlayıb qonaqlara gətirsinlər. Sonra da, dedi ki, ölüsü ölən bu qabdan yesin, ölüsü olmayan bu biri qabdan.

Hamı birinci qabdan başladı çörək yeməyə.

Vəzir dedi:

– İndi gördün ki, dünyada hamının bir ölüsü vardır və təkcə balası ölən sən deyilsən!

Bu hal İsgəndərin anasına bir az təsəlli verdi. Ağlamaqdan əl çəkdi. Sabahısı gün böyük İsgəndəri cəlal ilə şəhərdən çıxartdılar, ta aparıb quylasınlar. Tabutu yerə qoyan zaman gördülər ki, İsgəndərin sağ əli tabutdan eşikdə qalıb. Nə qədər çalışdılar

ki, sağ əlin tabuta qoysunlar, başara bilmədilər. Genə təzədən İsgəndərin əli eşikdə qaldı.

İsgəndərin anası bu əhvalı gördüyündə dedi:

– Oğul, dilə gəl, görək nə istəyirsən?

İsgəndərdən cavab gəlmədi. Anası “oğul, anan qurvan”, – deyib başladı ağlamağa. Vəzir dedi:

– Bəlkə, qılıncın istəyir?

Gətirib qılıncını verdilər, amma kar olmadı. Tacirlər dedilər:

– Bəlkə, pul və var-dövlət arzusundadır!

Amma o da genə kar salmadı.

Fəqirlər də dedilər:

– Bu dünyadan ac olmuşdur! Çörək verin, əl çəksin!

Bu iş də qayda vermədi. Belə deyirlər ki, “dəlidən dolu xəbər”. Bu qədər camaat və qoşun arasında bir dəli varmış, o da yas günündə əlində bir sümük gəmirə-gəmirə qəbiristana gəlmişdi. Dəli görürdü ki, hamı çalışır İsgəndərin sağ əlin tabuta qoysun. O, adamları aralayıb zorakı halda özünü İsgəndərin yanına çatdırdı. Qabağa keçib bir az yerdən torpaq götürüb İsgəndərin ovcuna qoydu. Bu halda İsgəndərin sağ əli möhkəm yumulub içəri çəkildi. İsgəndərin əllərini sinəsi üstünə qoydular, hamı bu işə heyran qaldı.

Dəli əlində sümük uzaqlaşdı. İsgəndərin anası dedi:

– İndi gördüm ki, oğlum dünyadan doymayıbdır. Ey vay!!

Beləcə, İsgəndəri dəfn edib çıxıb getdilər. Bir neçə gün sonra anası “oğul, oğul!”, – deyə – deyə qəbristana döndü. “İsgəndər, İsgəndər!” çağırmağa başladı. Heç bir yerdən cavab almadı. Bir də çağırdı. Qəbirlərin birindən səs gəldi:

– Ey yazıq, nə “İsgəndər, İsgəndər!” çağırırsan? Bizi nədən rahat buraxmırsan? Burda o qədər İsgəndər vardır ki, biz nə bilək sən hansını çağırırsan? Biz nə bilək hansının anasısan?!

İsgəndərin anası başına dögüb dedi:

– Mən elə bilirdim ki, dünya üzündə mənim oğlum İsgəndərdən başqa İsgəndər yoxdur. Demə, dünyaya yüz min oğlum kimi İsgəndər gəlib getmişdir!

O gündən sonra İsgəndərin anası bir daha ağlamayıb İsgəndərə az-vay eləmədi.

# XALQ MƏSƏLLƏRİ İLƏ BAĞLI RƏVAYƏTLƏR

## İMAM HÜSEYN GÖR NECƏ YAZIQ OLUB "ƏBİL QARA" DA ONA ŞAXSEY VURUR

Deyirlər, qədim zamanlar bir işsiz-gücsuz , dinsiz-imansız hər gecə-gündüz kefli olan Əbil adlı bir kişi varimiş ki, ona qaraşın olduğu üçün " Əbil qara " deyərmişlər.

Əbil qara bir gün məhərəmlikdə axşam " şaxsey " sırasına qoşulub şaxsey gedirmiş, onun şaxsey getməsin görən və şaxseyəylə müxalif olan biri deyir:

– İmam Hüseyn gör necə yazıq olub " Əbil qara " da ona şaxsey vurur!

## İMAM SADIQ DEYİR, BAŞMAQLARINI DA ÖZÜN SAXLA

Ərbab qulunu da özü ilə bərabər getdiyi məclisə aparır. İçəri girəndə başmaqların qulamın qoltuğuna verir. İçəridə ərbaba qarpız gətirirlər. Ərbab qarpızı kəsib yeyəndə İmam Sadiqdən bir hədis oxuyub deyir:

– İmam Sadiq deyir qarpız gözlərin işiğın çoxaldar.

Qarpızın özün yeyib, sonra aşağısın yeyəndə İmam Sadiqdən yenə bir hədis oxuyub deyir:

– İmam Sadiq deyir qarpız böyrəklər üçün yaxşıdı.

Sonra qarpızı İmam yeyib bitirəndə bir hədis oxuyub deyir:

– İmam Sadiq deyir qarpızın suyu qarnı işlədir və bağırsaqlar üçün yaxşıdır.

Sonra qarpızın qabıqların qaşıyanda başqa bir hədis oxuyub deyir:

– İmam Sadiq deyir, qarpızı qaşımaq dişləri də ağardar. Benava qarpızdan uman qulam öz – özünə " heç olmazsa ərbab qarpızın qabığını da verər mən gəmirəm" deyərmiş. İşi belə görəndə başmaqları ərbabın yanına buraxıb " İmam Sadiq deyir başmaqlarını da özün saxla " deyib, çıxıb gedir.

## ARVAD ELDƏNDİR, OĞUL BELDƏN, ARADA DUST TAPILMAZ

Deyirlər, padşahın arvadı ölər. Padşah arvadına sadə yas tutar qurtular. Bir gün Padşahın oğlu ölər. Padşah oğluna da sadə bir yas tutar bitər. Amma bir gün xəbər verilər ki, sənin filan düstun ölübdür. Padşah neçə günlər yas tütüb ağlar, sısqar.

Vəzir bu işə heyran qalıb padşahdan soruşar:

– Qibleyi-aləm, bu işin hikməti nədir? Oğlun, arvadın öldü sadə bir yas tutdün, amma dustuna günlər yas – təziyə tütüb, indi də xatir saxlayırsan?

Padşah deyər:

– Arvad eldəndi, oğul beldən, arada düst tapılmaz!( arvad eldəndir, oğul beldən, dost ürəkdən).

## AĞAC TUTAN BAŞ YARANDAN ÇOXDUR

Məhərəmlikdə "qanli köynək", ya haman "baş yarma" rəsmində baş yaranların dust, qardaşları əllərində bir ağac, baş yaran ilə bərabər dəstə yanında dolanarlar, bəlkə baş yaran tanışları baş yaranda bir-iki qəmə vurub-vurmayıb, tez ağaclarını, baş yaranın qəməsi önünə tutalar. Bu sıralarda bəzən bir nəfər baş yaran üçün üç-dörd kişi baş yaran dəstəsi ilə bərabər dolanarmışlar. O zaman baş yaran dəstəsində baş yaranlardan çox ağac tutan olanda “ ağac tutan baş yarandan çoxdur” deyərdilər.

## AĞALAR , BELƏ Kİ ƏYLƏŞİBSİZ, YAXŞI ƏYLƏŞİBSİZ

Deyirlər, Əsgərin oğlu "Naib Kazım" Dəvəçi məhəlləsi lotularıyla bir gün dustları ilə düzən (oturaq) qurmuş yeyib – içib sərxoşluq edirdilər. Naib Kazımın başı qızır, sərxoşluq aləmində dustların qonaq çağırmaq istəyir. Məclisdəki hacırlara öz tütüb deyir: “Ağalar, belə ki əyləşibzinis”, Naib Kazım elə bu anda sözünün ortasında birdən başını çevirib hazırların çox – çox olduqlarını başa düşür, bir yandan daha onları qonaq çağırmasın

və bir yandan da sözünü yarımçılıq buraxmasın deyə, sözünü belə bitirir : “ yaxşı əyləşibsiniz”

“Ağalar belə ki əyləşibsiniz. . . yaxşı əyləşibsiniz “

## ELƏ BİR CABİRİN KEÇİSİDİR

Rəvayətdir, Cabir bir gecə Həzərət Rəsulu qonaq çağırır. Cabir gecə üçün keçi qurban edib yemək hazırladır. Həzrət Rəsul axşam çağı qonaq gedərkən yolda neçə nəfərə rast gəlir və onları da özünə qoşub Cabirin evinə qonaq aparır. Cabir qonaqları görüb ”bəlkə yemək az oldu” fikri ilə ürəyi sixilır. Amma Həzərət Rəsulun bərəkətindən hamı kifayət qədər keçidən yeyib bəlkə də artıq da qalır.

## İP BAŞQASININ (GEDƏ-G........) ƏLİNƏ KEÇİBDİ

Biri var ıdı, biri yox idi, tanrının bəndəsi çox idi. Bir dana da sadə bəndəsi varıydı. Bu sadə bəndənin atası padşah idi. Padşah öldü və tac və taxtı bu sadə oğluna qaldı. Bu sadə padşah danışanda çaş – baş deyib baydırırdı. Padşah bir gün vəzirindən baydirəmağına tədbir istədi.

Vəzir fikirləşib padşaha dedi:

– Qurban, izin ver sənin ayağına bir ip bağlayaq harada sözü çaşdırdın, mən ipi çəkim tez sözünü təshih et!

Padşah qəbul etdi. Bir gün saraya qonşu məmləkətdən neçə elçi gəldi. Padşah bunlar ilə danışanda, hər çaşdıqda vəzir ipi çəkirdi və padşah tez sözünü təshih edib davam verirdi. Bu iş neçə dəfələr təkrar oldu və vəzir hər dəfə ipi çəkdi. İp çox çəkildiyi üçün padşah sözün bitirib daha davam verə bilmədi. Elçilər padşaha dedilər:

– Qibleyi– aləm, xəstəsənsə danışıq sonraya qalsın?

Padşah hirslənib dedi:

– Yox, xəstə deyiləm ip başqasının (gedə – g......) əlinə keçibdi.

## TÜKAN ÖZÜNÜZÜNDÜ, AMMA 5 TÜMƏNƏ SAQQIZ OLMAZ

Tufarqanda çarşı adlı bir guzarda Abbas adında baqqal var idi. Bu baqqal hər kimsə aldığı şeyin parasın soruşan zaman "tükan özüzündü" deyər müştəridən cavab eşitməmiş elə ol ki, sözünün dalısıca da o satdığı şeyin qiymətini deyərdi. Əskilərdə beş tümənlik saqqız var imiş ki, bu saqqızın qiyməti birdən beş tüməndən 25 tümənə artmişdi. Qiymətdən xəbəri olmayan müştərilər 5 tümənlik saqqız havası ilə Abbas əminin tükanına gəlib 5 tümənlik saqqız istəyəndə, Abbas adəti əsasında " tükan özüzündü" deyər, dalısıca da dayanmadan " amma 5 tümənə saqqız olmaz" deyərdi. O zamandan " tükan özünüzündü, amma beş tümənə saqqız olmaz" sözü ağızlara düşüb məsəl olur. (Abbas əmı 15 – 20 il bundan əvvəl dünyasın dəyişir).

## ERMƏNİ BADIMCANI SATMAĞI BƏS DEYİL, ÖZÜ DƏ HACI KAZIM MƏSCİDİNİN QIRAĞINDA

Qırmızı badımcan son yüz ilin əvvəllərində və farsı adı göstərdiyi kimi, Avropadan Azərbaycana gətirilmişdi və ona görə də Tufarqanda əskı zamanlar erməni badımcanı adı ilə şöhrət tapmişdir. Bu adda şöhrət tapması səbəbi ilə bir para təssublü müsəlmanlar tərəfindən qırmızı badımcan alış – verişi və faydalanması yaxşı qarışlanmırdı.

Deyirlər, Tufarqanda "haci Kazım" məscidinin qırağında bir meyvə satan gənc varımış ki, bu gənc bir gün meyvələrinin yanında bamadur da satırmış. Qəzadan elə o günü oğlanın atası rast gəlir. Ata oğlunun bamadur satmağın görən halda qızıb, bağırır:

– Erməni badımcanı satmağı bəs dəyil , özü də hacı Kazım məscidinin qırağında!

## ÖPMƏYİN YOX , SƏVMƏYİN YOX, MAĞIL-MAĞIL ELƏ ACI DİŞLƏMƏYİN VAR

Açiqgöz bir oğlan qoca nənəsinin əlindən bezib zara gəlmişmiş. Neylirəm, deyər nənəni azdırmaq fikrinə düşür. Nənəyə deyir:

– Nənə, sənə yaxşı bir ər tapmışam, hazır ol aparım biləsini gör.

Oğlan gecə zamanı gözü görməz, qışları tupal nənəni şuvala basıb, arxasına alıb gətirir şöldə bir yerdə buraxır. Qarı oğlunun döndüyün başa düşmüş elə orda ər intizarında dayanır. Bir az dan bir ac qurd gəlib dişin çuvala keçirdir. Yavaş – yavaş qurdun dişi qarıya batanda qarı qurdu ər intizarında dayandığı kişi zənn edib ona deyir:

– Bax görüm, öpməyin yox, sevməyin yox, mağil-mağil elə acə dişləməyin var?

## HƏR EŞŞƏGiN SÜRƏN DEYİR, «MƏN DƏ MAMAĞANLIYAM»

Qacar hökümətinin son zəmanlarında Rəhmanbəy adlı biri yol kəsirmiş. Rəhmanbəy mamağanlı olduğu üçün mamağanlı yolcularla işi olmayıb onlara vəd vərərmiş. Rəhmanbəyin bu işi, yəni mamağanlılara vəd verməsi yavaş-yavaş yolçuların qulağına çatır.

Zəkalı yolcular Rəhmanla qarşılaşanda " mamağanlıyam" deyib, canların və malların onun dəstəsinin əlindən qurtarardılar.

Lakın bir gün Rəhman bəy başa düşür ki, elə bil gələn - gedən mamağanlıyam deyib pul – pələsin Rəhman bəyin əlındən qurtarır və onun bazarı günü – gündən kasadlaşır.

Bir gün Rəhman bəy bir yolcunun yolun kəsmişimiş ki, yolcu "mən də mamağanlıyam" deməklə özünü bu adamların əlindən qurtarmaq istəyir.

Rəhman bəy belə eşidəndə şaşıb özündən çıxır, bağırır:

– Hər eşşəgin sürən deyir, mən də mamağanlıyam.

Beləsinə bu söz Rəhman bəy, dəstəsi tərəfindən qarşılanıb və yolcular « mən də mamağanlıyam» deyəndə işə bağlanır və zəmanla xalq içində yayılır.

## XÖRƏKLƏR

**Ağız** – davar doğanda birinci sağımı (südü) bərk olar, bu da çox dadlı xörəklərdəndir.

**Boranı** (nimru) – sarı yağ, ya kərəni əridib yumurtanı içinə sındırarlar. (Yumurta yağa salmaq)

**Bulamaş** (farsca koçı) – yağ ilə undan düzələr. Qüvvəli və yumuşaq olduğu üçün zahi arvadlara verilər.

**Cız-bız** (cuğur və bəğur)– ağ ciyər, şirin bağırsaq və bəzən də qaraciyər doğranıb yağda qızardılar və müxtəsər su ilə pişirilər.

**Cızlıq** – qovurma bişirəndə bu başdan əlavə cızlıq da çox çıxar. Cızlıq qoyunun quyruğunu doğrayıb, od üstə qoyub, yağını çıxardarlar qalanıdakı hələ də yağlıdı, çox xoşməzə olar.

**Çürutmə** – Doşabı qaynadıb yumurtanın içinə sındırarlar, bu xörək qüvvəli olduğuna görə naxoşlamış adama tez ayağa durmaq üçün verilər.

**Əriştə aşı** – əriştə plovu yeməli xörəklərdəndir. Əriştə plovuna ləpə qarışsa, daha da yeməli olar.

**Omac aşı** – məmulən, evdə soyuq dəymiş adam olanda pişirilir. Düyü-aşı bu da evdə kefsiz adam olanda çox bişirilir.

İran aşı bu da yazda, yayda çox bişirilir.

**Halva** – bu da un, yağ və doşab ilə düzələr. Əvvəlcə un yağda qızarılar, sonra doşab qatılar. Bu xörək bərk olduğuna görə çox müddət saxlanıla bilər və çörək arasına bükülsə (novala) yumşaq qalaraq, o yan, bu yana aparmağı da rahat olar. Bayram günləri görüşə gələnlərin qabağına açılan süfrələrdə hətmən halva olar. Ərəfə günü də hər evdə çalınıb qəbir üstünə aparılar.

**Kakulə aş** – Bəzən pəncər aşına xalis kükulə tökülər. Bu zaman ona kakulə aşı deyilər. O biri pəncərələrdən qazayağı, əvəlik, kələm, kəşir, yarpız, parpuna, nanə və atmaq olar. Kakulə aşı bəzən kakuləsiz bişirilir. Bir-iki yumurtada çalınsa daha da ləzzətli olar.

**Kəllə-baş ayaq (kəllə-paça)** – Bu da gec bişən xörəkdir. Məmulən təndir yanan günləri pişirilir və davarın ciyarı, qarnı, böyrəkləri, ürəyi, şirin bağırsağı da başayaq ilə birlikdə satılar.

(Bəzən böyrəklər ayrı satılar.) Amma öküz qarnı tək satılar. Qarın içini çaylaqda boşaldıb arxda yuyub apararlar.

**Köftə** – Köftə də ləzzətli xörəklərdəndir, xüsusən Qurban bayramı və “yeddi ləvin axşamı” hər evdə pişirilir. Amma köftə pişirmək doğurdan da çox çətin işdir. Məmulən köftəni sığırın qara yerindən düzəldirlər. Bu əti ağac toxmaq ilə sal daş üstündə (ət daşı) döyürlər və içində olan kəndirlər (pey və asab) çəkilər. Əti döydukdə ət narinləri o yan, bu yan atılar, odur ki, daşın altına dəri süfrə salınar. Ət o qədər döyülər ki, xəmir kimin olar, bu köftələrə döyülmüş ləpə də qatılar pəncər qurusunu da qatışdırarlar. Yekən köftələri Təbriz köftələri kimin çox böyük olmaz.

**Kökə** – yumurta, un və yağ ilə bişirilir. Bəzən pəncər qurusu ilə bişirlir. İstilikverici olduğundan kefsiz adamlar üçün tez-tez bişirilir.

**Qatıq** – buna yovut da deyərlər. (Təbriz ləhçəsi ilə yoğurt deyilir). Qatıq doşab ilə çox yeməli olar.

**Qayqanaq** – yumurta və qənd narını, ya doşab və qənd narını, ya da təkcə doşab ilə bişirilir. Qonaqlıqda həmən süfrəyə qayıdar.

**Sütdü borş** (şirbirinc) – süt və aş düyüsündən bişirilir, doşab, ya qənd narın qatılsa yeməli olar.

**Şorva**-şorva yeməyi də çox məmul olan xörəklərindəndir. Ət ilə hazırlanması “əlit şorvası” (əbkəsut) deyilir. Başqa şeylərdən olunsa adlanmaz və hər nə tökülsə, o ad ilə çağırırlar. Məsələn, yağ şorvası, qovurma şorvası, yumurta şorvası, ləpə şoravası bu xörəyin əsli onun suyudur ki, çörək doğrayıb “tilit” edib yeyərlər.

**Tərək** – (tər halva) un, dosab və yağ ilə düzələr. Halvadan bir az soyuq (əbki) olar, qaşıq ilə yeyilər.

**Torba qatığı** – qatığı torbaya doldurub asarlar ki, suyu getsin, buna “bərk qatıq” da deyilər. Beləliklə, həm çox saxlamaq olar, həm də çörək arasında qoyub səfərə çıxanda aparmaq olar.

**Yarma aşı** qışda bişirilir. Çəkilmiş yarmadan olar. Yarma düyü kətəsi kimin bişirlir və suyunu çəkər içinə, soğan da bütövlüklə soyub salarlar. Bu xörək çox dağ olar və oğul – uşağın ağzını yandırar. Amma sinəni yumşatmaq üçün çox faydalı olar.

**Zing** – Öküz qıçıdır, dırnaqlarını çıxarıb qazana qoyurlar. Bu xörək gec bişdiyinə görə təndir yanan günləri bişirərlər. Bu xörəyin əti demək olar ki hazırlanmış ola, qalıb soyusa “lastik” kimin bir şey olar və pıçaq ilə kəsirlər. Ruslar bu xörəyin sarımsaq vurulmuş və soyumuşuna “xalades” deyərlər və soyuq-soyuq yeyərlər.

## SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT

Behşəti Vəli, Miyananın Qoşabulaq kəndi, 60 yaşında, savadsız. Söylədiyi mətn: İnanclar(bir hissəsi). Toplayan: Mina Səlavatizadə, Feyzəli Bəxtiyari.

Bəxtiyari Əhməd, Miyananın Qoşabulaq kəndi, 68 yaşında, savadlı, Söylədiyi mətnlər: Ata-baba deyimləri (bir hissəsi). Toplayan: A.Məhəmmədi.

Bəxtiyari Mehnaz, Miyana, 31 yaşında, savadlı. Söylədiyi mətn: Inanclar(bir hissəsi). Toplayan: Mina Səlavatizadə, Feyzəli Bəxtiyari.

Cəfərzadə Fatimə xanэm, Tufarqan, 33 yaıoэnda, savadlэ, Sцylədiyi mətn: "Piєiklə siзan".

Davudi Orəng, Miyananın Haçaçı kəndi, 25 yaşında, savadlı. Toplama yeri: Qoşabulaq – Miyana şəhəri – böyük Suma-Haçaçı. Söylədiyi mətnlər: İnanclar (bir hissəsi).

Əsgəri Vahab, Qızıldərə kəndi,1942-ci il, orta təhsilli, əkinçi. Söylədiyi mətn: "Mərdinən Namərd" nağılı. Toplayan: Gülcan Gülməz.

Hərimi Şukət, Miyana, 57 yaşında, savadsız. Söylədiyi mətn: İnanclar(bir hissəsi). Toplayan: Feyzəli Bəxtiyari.

Hüseynzadə Cəfərqulu, Ərdəbil, 1934, savadsız, çoban. Söylədiyi mətn: "Səlim Cəfayxuruş" nağılı. Toplayan: Gülcan Gülməz.

Xalqı Şirinqız, Miyananın Qoşabulaq kəndi, 60 yaşında, savadsız. Söylədiyi mətn: Xalq deyimləri(bir hissəsi). Toplayan: A.Məhəmmədi, A. Davudi.

Xaliqi Əli, Miyana,49 yaşında, savadlı. Söylədiyi mətnlər: Inanclar (bir hissəsi).

Xaliqi Turan, Miyananın Qoşabulaq kəndi, 50 yaşında, savadsız. Söylədiyi mətn: İnanclar (bir hissəsi).

Xəsrəvi Zeynəb, Miyana, 33 yaşında, savadlı. Söylədiyi mətnlər: Deyimlər (bir hissəsi).

İsmayili İsmayıl, Xudafərin mahalı, Heydərəkanlı kəndi. Söylədiyi mətnlər: "Tərəkəmə ilə qış".

İsmayili Göhər, Tikantıpı, 68 yaşında, savadsız. Söylədiyi mətn: “Ha pişdə, pişdə, pişdə”.

Эsmayili Hacэ Əliəkbər, Tufarqan, savadsэz.(dьnyasэnэ dəyiюib). Sцylədiyi mətn:” Bayram əmi” napэlэ.

Qədri Əqdəs, Marapa, 3ilan kəndi, 60 yaю, savadlэ. Sцylədiyi mətn: Toy mahnэlarэ. Toplayan: Rəqiyyə Vəhidi.

Məhəmmədi Murtuz, Ərdəbil, 1927-ci il, savadsız, əkinci. Söylədiyi mətn: “Mirvari Təsbeh” nağılı. Toplayan: Gülcan Gülməz.

Məhəmmədi Məhəmməd, Miyananın böyük Suma kəndi, 65 yaşında, savadsız. Söylədiyi mətn: Deyimlər(bir hissəsi).

Miranə Bacıqız, Miyanənin Qoşabulaq kəndi, 70 yaşında, savadsız. Söylədiyi mətnlər: Deyimlər (bir hissəsi).

Məcidi Xanım, Ərdəbil, Gərmi, 70 yaş, savadsız. Söylədiyi mətn: Doğum. Toplayan: Əli Məhəmməd Xəlqi Zəngir.

Məhəmməd Rəzayi, Məzkin, Qurdtəpə kəndi, 60 yaş, VI sinif təhsili var. Söylədiyi mətnlər: Atalar sözləri(bir hissəsi).

İsmət xanım Nəvadeyi Rəzi, Təbriz (1286-1361), Söylədiyi mətnlər: “Qarı nənə”, “Pıspıslı Püstə xanım”,”Narbənazik və Nazikbənazik”, “Tənbəl Əhmədin nağılı”,” Səfeh arvad”, Sərçə” nağılı, “Şah Abbas”ın nağılı, ovsunlar(bir hissəsi), atalar sözləri (bir hissəsi), tapmacalar, “Qədim hamamlar”, “Gəlin hamamı”, “Ha puşala, ha hapuşala”, ”Üşüdüm, ha üşüdüm”, “Lülü lülü lülü hovzəli”, “Keçəl-keçəl bamiyə...”, lətifələr (bir hissəsi). Toplayan: Susən xanım Nəvadeyi Rəzi.

Pourxalil Maral, Urmiya şəhəri, 82 yaş, savadsız. Söylədiyi mətnlər: Bayatılar (bir hissəsi). Toplayan: Mətanət Abbasova.

Salmanpur Naznın, Bağvəzir, 75 yaşında, savadsız. Söylədiyi mətn: İnanclar(bir hissəsi). Toplayan: Məryam Xədabəndi.

Səlavatizadə Mina, Miyana, 24 yaşında, savadlı. Söylədiyi mətn: İnanclar.

Siyadi Fatimə, Miyananın Böyük Suma kəndindən, 60 yaşında. Söylədiyi mətn: Inanclar.

Şakiri Əzizə, Miyana, 45 yaşında, savadlı. Söylədiyi mətnlər: Deyimlər.

Məşədi Zeynal kişi, Xudafərin bölgəsi, Heydərkanlı kəndi, 86 yaş. Söylədiyi mətnlər: "Qızıl telli, gümüş telli oğlan", "Tülkü ilə ayı", Toplayan: Qənbər Seyfi.

Zarəyi Raviyə, Gərminin Alazar kəndi, 64 yaş, savadsız. Söylədiyi mətn: Döşü gəlmək. Toplayan: Əli Məhəmməd Xəlqi Zəngir.

# LÜĞƏT

**A**

Ağnamax (d) – uçmaq, yıxılmaq, tökülmək (yeri qazıb nəm-neçə metr aşağı getmişdilər, birdən torpax ağnadı, gəldi üstlərinə).

Ağraiş (d) – ağ rənginə çalan parça, açıq rəngli paltar və.s (bu parça çox ağraişdi).

Altaylıx – altı aylıq, tez dünyaya gələn uşaq; altı aylıq, məcazi mənada: çox tələsən adam.(nə xəbərdir heç bizə macal vermisən, olmiya altaylıxsan?)

Araqapı (d) – iki başqa evin arasında olan qapı (ay oğlan, get araqapını döy).

Aralığ (aralığ adam)(d) – etibarsız adam, əsl-nəsibsiz adam. (niyə adam tapmırdı gedip bir aralığ adamnan şərik olursan?)

Asqı – şalvarı, çiynə bağlayan bağ, kiçik uşaqların şalvarı üstə tikili , kişilərin də şalvarına bağlanar.

**B**

Balaqol(d) – kiçik meydanlar, ya da küçələrdə oynanan bir növ futbol oyunu (uşaqlar küçədə balaqol oynuri).

Balaxana (d) – kiçik otaq (Balaxananı kirayə vermax lazəm, ağılsız olma).

Bara(d) – gülünc, yalnışlıq (çox danışan adam, çox da bara qoyar).

Basmarramax(d) – birinin üstünü paltar, ya da yorğan ilə tutub, bərkitmək (uşağı elə ki sən basmarramısan, issidən pişəcax)

Bəlid(ə) – qanmaz, axmaq

Bən(f) – xal

Bənam(f) – adlı

Bərəmum(d) – əldə çeşitli şəkillərə düşə bilən bir növ mum (dohtur əlimin gecin açannan sura dedi ki, bir – iki həftə əlində bəramum götürüb oynatmalısan ki, əlivə güc gəlsin).

Bərgəşt(f) – dönmə, tərsinə çevrilmə

Bərkimax(d) – müamilə işində ilk sözünün üstündə durmaq (fərşə müştəri gətirəcəğəm, bu alandı, sən də gərəh qiymət üstə bərkimiyəsən ki, satax getsin).

Bəsa(f) – çox, xeyli

Bəzrəvan qurdu(d) – qara, yöndəmsiz və qara adam.

Biqolay(d) – bir az, müxtəsər (sandığı biqolay dəbtədim, altınnnan bicə alem bor-bocah çıxdı).

Biyol – bir dəfə.

Böyüşə vermax(d) – mübaliğə etmək, özündən demək, özünü böyütmə.

Budulğa(d) – dolçadan kiçik, su bardağından böyük qab.

Bürgələmax(d) – kağız, ya da parçanı ovuç içində burub, kiçiltmək, bəzilər buna burkəlmax da deyirlər, bütün kağazları burkələdi basdı cibinə.

**C**

Camaki(d) – dükanın qabaq şüşəsi, pəncərə (Gözlük taxan birisinə söz atmaq istəsələr deyirlr ki, elə bil eşşək camakidən baxır).

Car(d) – çağ və zaman

Cehləşmək(d) – dava həngi dəyişmək

Cəmam(d) – bilək sümüyünün çıxıntısı (o qəddə ağır yük daşımışam ki, sağ biləğimdə cəmam çıxıp).

Cığ(d) – darı çörəyi.

Cırmax(d) – qorxub yavaşca aradan çıxmaq.

Cida(f) – istək, iradə

Cici– baci(d) – bir qadının səmimi qadın dostu (olar bitər cici bacıdılar, ya bu oların evindən, ya o buların evində olar).

Cihnə(cinhə təpbax) – çığırmaq.

Cim-cilax(d) – tamamilə islanmış.

Cırmax(d) – qorxub,yavaşca aradan çıxmaq.

Cirg(d) – yeməkdə olan yararlı materiallar, bədənin rüşdünə yardımçı olan.

Cor(d) – zəhərin bir növüdür. Xəstəliyə də deyərlər.

Cuvə(d) – xırım-xırda yeməklər (Uşax boyun hava-cuva yeyib, qatışdırıb, indi xəstə düşüb).

Cübürtdəmax(d) – kiçik bir şeyi yavaşca oğurlamaq.

Cümbüşləmax(d) – yerində durub oturmaq, nadinc olmaq.

Cümbüşlü(d) – nadinc.

Cürrəşmax(d) – bir-birilə müvafiqləşmək.

Cüzvə (d) – kiçik kitab, əlyazma; məktəbdə ana kitab əldə olmayınca müəllim tərəfindən şifahi olaraq danışılıb, şagirdlər tərəfindən yazılan dərslərin mətni.

**Ç**

Çaqqi(d) – balaca cib pıçağı

Çaqqışdırmax(d) – yumurta döyüşdürmək

Çilis(d) – xəsis, pul xərcləməyən adam

Çiltih(d) – hər hansı bir musiqinin ritmilə barmaqla çalınan kiçik zərbə (biri çiltih çalır, biri oynur).

Çim cızdıq(d) – yağlı, lap yağlı şeylər.

Ço(d) – şayiə, dildə – dişdə dolanan söz.

Çovuşma(d) – ziyarətə gedən şəxsin adına uca səslərlə məzhəbi şeirlər oxunması.

Çubalti(d) – çubuğ altı

**D**

Dabbə(ə) – minik və ya yük heyvanı, yırtıcı heyvan

Damənə(f) – dağ ətəyi, yamac

Darat(f) – dəbdəbə, cəlal

Dəbbağ(ə) – dərici, dəri aşılayan

Dəli-dolu(d) – tez əsəbləşən adam

Dəstur(f) – göstəriş

Dətdənmax(d) – yemək

Dırqır(d) – şəxsiyyətsiz

Dib (d) – bakirəlik əlaməti

Dik(f) – qazan

Dilpərvər(f) – ürəyə yatan

Diltəng(f) – qəlbi sıxılan, darıxan

Dulab adam(d) – dolaşıq adam, dərd-sərə salan adam.

Düm(f) – quyruq

Düruğ(f) – yalan, aldatma

Doqquz-donu(d) – Qaradağda vəhşi meyvə növü. Darıya oxşar qırmızı rəngli olur.

Dözd(f) – oğru

**E**

Eşik(d) – bayır

Eyd(ə) – bayra

Eydgah(ə) – bayram keçirilən yer

Eyham(ə) – kinayə

**Ə**

Əbəd(ə) – bitməz, tükənməz vaxt

Əbir(ə) – ətir, ənbər

Əkmax(d) – yavaşca oğurlamaq

Əkbər(ə) – daha böyük, ən böyük

Ələm(ə) – dərd, qəm, ağrı

Əlәniyyət(ə) – aşkar olma, ümumilik

Əlavxar(d) – yerdə qalmış, yemin töküntüsü.

Əmarə(ə) – əlamət, nişanə

Əzillənmax(d) – şitlənmək, duzguzcasına əzilmək (uşağa hər nə deyisən əzillənir)

**F**

Fanus(ə) – fanar

Faris(ə) – atlı, süvari

Faş(ə) – acıq-aşkar

Fərz(ə) – vacib, lazım

Firib(f) – aldatma, hilə, fırıldaq

Füzul(ə) – yersiz danışma,haqsız iş və ya hərəkət

**G**

Gala(d) – ala (gələ bu boyluğu sapla).

Gərd(f) – toz

Gərdan(f) – boyun

Gərma(f) – bərk isti, bürkü

Gəc(f) – əhəng

Gələndavax(d) – acıq-saçıq (əl-ağuvı yığışdır, belə gələndavax oturma. Qoy bizə də yer açılsın oturax).

Gökgə(d) – götür-gəl (bəzilər buna gökdə deyirlər)

**H**

Həşdi(d) – xalq memarlığında nisbətən varlı ailələrin küçədən görünməsin deyə həyət qapısı və həyət arasında tikilən otaq, küçə və həyətin arasındakı filtir(onlar qapılarına pərdə asmışdılar, amma bir neçə il sonar həşdi tihdirdilər, da indi həyətləri əsla görsənmir).

Hoqquş(d) – eşşəyə dayanma əmri

Hortuldatmax(d) – sulu bir yeməyi tələsərək hort-hortla yemək.

Hövüşmə(d) – təşviş, iztirab (Gecə qəbristandan keçəndə məni elə hovuşmə basdı ki, gəl görəsən. Hovuşmədən ürəyim elə çırpınır ki, az qalır eşigə çıxsın).

**X**

Xabidə(f) – yatmış

Xali(ə) – boş, dolu olmayan

Xanədan(f) – ailə, ocaq

Xafaxaf(d) – qəfil.

Xazin(ə) – xəzinadar, xəzinəçi

Xəbərçin – bir kitabın, xüsusilə də Qurannın oxunan yeri ilə oxunmayan yerini itirməmək üçün onun səhfələri arasında kağızdan fəlş şəklində qoyulan əlamət.

Xədəng(f) – ox, silah

Xəm(f) – əyilmiş, bükülmüş

Xəyyat(f) – dərzi

Xoddamaq(d) – xortlamaq

Xoşnud(f) – razı, məmnun

**İ**

İanə(ə) – pul və bir şeylə yardım

İbrət(ə) – nümunə, öyüd, nəsihət

İqamə(ə) – qaldırma, göstərmə

İqrar(ə) – etiraf etmə, boynuna alma

İldih(d) – ayağın ucuyla yol gedən,ya da qaçan birisini yerə vurmaq üçün ayağına ilişdirmə.

İrbelə(d) – o qədər, çox miqdar.

İnzibat(ə) – nizam

İntixab(ə) – seçmə

**K**

Kah(f) – qəsr, saray, qala

Kahil(ə) – cəld olmayan, ağır tərpənən, tənbəl

Karıxmax(d) – tələsdiyindən səhv etmək

Kaşanə(f) – yaşayış yeri, ev, məskən

Kəbir(ə) – böyük, ulu, iri

Kəmyek(d) – qəməri aylarda 29 gecəli ay

Kəpir(d) – qab yumağa yarayan bir növ təbii torpaq

Köh(d) – durum, vəziyyət

Kökəlmax(d) – əsəbləşmək

Köpüşkəmək(d) – orağın və ya başqa kəsirin ağzının xarab olması. Deyərlər, ocağın ağzı köpüşkədi.

Köşkülləmək(d) – yavanlığı çörəyin arası doldurub yemək.

Közmə(d) – qan quruyandan sonra yerində laxtalanan qan

Külə çərşənbə(d) – ilin axır çərşənbəsindən qabaqkı çərşənbə

Külləmək(d) – yal-quyruğunu qırxmaq

**Q**

Qaim(ə) – ayaq üstə duran, mövcud olan

Qarınpa(d) – qarın qulu, yeyimcil

Qəryə(ə) – kənd

Qəht(ə) – quraqlıq, qıtlıq

Qıtmır(d) – xəsis

Qolçax(d) – insan, ya da hər hansı bir heyvan şəklində uşaqlar üçün düzələn gəlincik

Qövm(ə) – tayfa, xalq

Quşq olmax(d) – yuxudan olmaq

**L**

Lailac(ə) – əlacsız, çarəsiz

Lanə(ə) – quş yuvası, yuva

Laf(f) – boş danışma, faydasız söhbət

Lahut(ə) – ruhaniyyət, mənəvi aləm

Ləhləmax(d) – susuzluq, ya da havasızlıqdan dolayı nəfəs-nəfəs vurmaq ( Məs: Eynəli dağında susuzundan ilan ləhlir)

Ləyənşur (d) – bir iş bacarmayan

Linc(d) – əzilmiş (yeməli göy qalıb altda, linc olup)

Löhləmax(d) – dəvə qaçışı kimi qaçmaq, ümumiyyətlə ağır gövdəli adamların qaçmasına deyirlər.

Liqa(ə) – üz, sima, görüş, görüşmə

**M**

Maal(ə) – mahiyyət, əsil məna, nəticə

Mavəra(ə) – bir şeyin arxasında, o tərəfində olan

Mazi(ə) – keçmiş

Mahtab, məhtab(f) – ay işığı, aydınlıq

Məriz(ə) – xəstə, naxoş

Məsalik(ə) – məsləkər

Məhzər(ə) – məclis

Məf-maf(d) – istehkam, davam

Mıcılmax(d) – meyilsizcə, yavaş-yavaş yemək (Məs: elə bil mən pişirən xörəyi sövmədin, baxıram ki, micilisən).

Mığavva(ə) – insan, ya da hər hansı bir heyvan şəklində uşaqlar üçün düzənlənən oyuncaq.

Mırt(d) – şuxluq.

Mehr(f) – sevgi, məhəbbət

Mehriyyə(ə) – kəbin bahası

Metdaşmax(d) – bir-birilə baş-başa qoşmaq, tərəfli şuxluq etmək.

**N**

Nadim(ə) – peşman olmuş, peşman

Nagah(f) – vaxtsız, qəfildən

Nam(f) – ad, isim

Nan(f) – çörək

Nədamət(ə) – peşimanlıq

Nəf(ə) – mənfəət, xeyir, qazanc

Nəverim(d) – az miqdar, dəyərsiz mal.

Nıxnanmax (d) – bir qabın, ya otağın basabas dolması

**O**

Ovbaş(ə) – alçaq adam

Ovrəng(f) – taxt

Oxumax – danışılan hər hansı bir yalan əhvalata uyub, onu ciddi sayaraq, təpki göstərmək.

**Ö**

Övnə(d) – yemək

**P**

Palax(d) – alaq növü

Payə(f) – rütbə, dərəcə

Pampalamax(d) – iri tikələr götürüb çox yemək

Papış (f) – ayaqqabı (Deyim: cinə papış tikmax)

Pəl vurmaq(d) – 1) Birinin işinə zərər yetirmək, mane olmaq; 2) Heyvanın aşa-aşa getməsi, dığırlanması.

Pənd(f) – nəsihət, öyüd

Pərtöv(f) – ziya, nur, parlaqlıq.

Pərxəşləmək(d) – ara vurmaq, savaşmaq

Pişnihad(f) – təklif

**R**

Rah(f) – yol

Rahzən(f) – quldur, yolkəsən

Rədif(ə) – sıra, nizam

Rəz(f) – meynə, tənək

Rizq(ə) – azuqə, qida, yemək-içmək

Rütbə(ə) – dərəcə

**S**

Sağər(f) – qədəh

Sasımax(d) – əylənmək

Salmança(d) – bitki növüdür, ayran aşında istifadə olunur.

Sal(f) – il

Səbəq(f) – dərs

Səbz(f) – göy, yaşıl

Səbil(d) – çox, bol

Silpəh(d) – saçaq, kök

Sinişmax(d) – bir yerə öyrənmək, bir nəfərə adət eləmək.

Sinn(ə) – diş, ömür ili, yaş

Sürur(ə) – sevinc, şadlıq

Süxən(f) – söz,nitq

Südlü sümük– oyundur, gecə aydınlıqda oynayarlar. Ağ sümüyü atarlar yerə, sonra onu axtarıb taparlar.

Sümü gəlmək(d)– qorxutmaq.

**Ş**

Şepih (d)– rahat ayaqqabı, tərlik

Şəllənmax(d) – qarın sallamaq

Şərməndə(ə) – utanan, utancaq

Şıxta(f) – biçim, qılıq

Şirbaz(d) – yaltaq

Şırtı(d) – suyu səliqəsiz işlədib hər tərəfə daşlandıran adam

Şəbələmax(d) – gizlinpaç oyununda işlənən bir ifadə, tələsik bir yerə baş vurub, durmadan qayıtmaq

**T**

Talan(f) – qarət, soyğun

Tayar(d) – imkanlı adam, hər nəyi olan adam.

Təbah(f) – puç, heç, boş

Təbər(f) – balta

Tənəb(ə) – ip,örkən

Təpcih(d) – parçanı tikmək üçün kök vurmaq

Tıxmax(d) – yemək

Tolazlamax(d) – bir şeyi fırlada-fırldada atmaq

Topərəbi – top ilə oynayan bir oyun

Toralmax(d) – kökəlmək, rəng– ufun açılması, dirçəlmək, canlanmaq

Tüli(d) – üst-başı bicimsiz və sırtıq adam

Tüntünmax(d) – o əl, bu əl edib yubanmaq

**Ü**

Üqdə(ə) – düyün, çətin məsələ, müəmma

Ülya(ə) – əla, ən uca

Üryan(f) – çılpaq

Ücrət(f) – muzd, əmək haqqı

**Z**

Zetdamax(d) – basmaq

Zorhaylama(d) – zor hay-küy və basqı altında bir işi gördürmə

Zotdaşmax(d) – iki nəfərin öz aralarında davası

# ƏDƏBİYYAT

1.Atalar sözü, elin gözü. (Toplayan: Həsən bəy Hadi), Təbriz, 2005.

2. Ataların hekmetli sözləri və kökləri. (H.M Cəfərzadə). Tehran, Şərif Universiteti öyrənci dərgiləri nəşri, 2013.

3. Ata-bablar deyiblər. ( Hazırlayan: Əli Zəfərxah), Təbriz, 1987.

4. Atalar sözü. Atalar deyir. (İşləyən: Həsən bəy Hadi), Təbriz, 2013.

5. Azərbaycan şifahi xalq ədəbiyyatı. (Toplayan: doktor Məmmədhəsən Pedram), Təbriz, 1963.

6. Azərbaycan bayatıları. (Toplayan: Niqabi), Təbriz, 1984.

7. Bayatılar. (Toplayan: Hüseyn Hüseyni Qara Ağac), Təbriz, 1991.

8. Bayatı bulağı. (Hazırlayan: Cəmşid Şeybani), Təbriz, 1999.

9. Deyimlər. Aralı-soralı sözlər. (Həsən bəy Hadi), Təbriz, 2005.

10. Gül gülə gülər. (Toplayan: Həsən bəy Hadi), Təbriz-Turuz, 2012.

11. Mir Hidayət Hesari. "Seyri dər folklor Azərbaycan bər əsas munuqrafi-e məntəq-e Yekanat", Tehran, Taban, 1969.

12. Heyət C.Türk dilləri və ləhcələri tarixinə bir baxış. Tehran, Əndişeyeno nəşriyyatı, II cap, 1987.

13. Qoca Təbriz. Təbriz bayatıları. (Toplayan: İbrahim Təbib), Təbriz, 2005.

14. Şancanlı Xürrəm. Ədəb xəzinəsi. Tehran, 1980.

15. Əli Zəfərxah."El biligi sərvətimiz". Təbriz, 1962.

16. Zöhre Vəfai."Folklor gəncinəsi", Təbriz-Yaran, 1990.

17. Zöhre Vəfai. Tapmacalar, Təbriz, 2004.

18."Azərbaycan El Bilimi" dərgisi, Baş redaktor: Əhəd Fərəhməndi.

19. Azari Eldili@yahoo. com ("Azəri" jurnalı, Baş redaktor: Behzad Behzadi)

20. Bayrammzangan@gmail. com ("Bayram" dərgisi, Baş redaktor: Əli Məhəmməd Bəyani.

21. www.Khudafarin.ir ("Xudafərin"dərgisi, Baş redaktor: Hüseyn Şərqidərəcik (Soytürk).

## BAŞLIQLAR


**ÖN SÖZ**........................................................................3
**UŞAQ FOLKLORU**
Laylalar........................................................................12
Müxtəlif uşaq nəğmələri..................................................28
Yanıltmaclar..................................................................35
Tapmacalar....................................................................38
**OYUNLAR**
Atlanmaq........................................................................45
Kürd gəldi.......................................................................45
Eşşəyi suvardın?..............................................................45
Silim, süpürüm?...............................................................46
Pişibdi............................................................................46
Tapadan tapaya...............................................................46
Aldırma...........................................................................46
Çilik dəstə........................................................................47
Əl-ələ..............................................................................49
Yerdə qalan qurd.............................................................49
Qurd oyunu.....................................................................50
Zaqqı-zaqqı......................................................................50
Çoban-çoban...................................................................51
Haqışda...........................................................................52
Ana, məni qurda vermə....................................................53
Getdi gələ ha, getdi gələ..................................................53
Danqala piştov.................................................................54
Açıl-açıl...........................................................................54
İynə-iynə oyunu..............................................................55
Zolaq atmaq....................................................................56
Girdəkan dığırlatmaq.......................................................56
Rəngə kəsmə...................................................................57
Üzümdən su çıxartmaq....................................................57
Nar dənəsi.......................................................................57
Küs oyunu.......................................................................57
Üzük-üzük.......................................................................58

Qaçmadaş ... 58
Ha pişdə, pişdə, pişdə ... 59
Gəlincikləri hazırlamaq ... 60
**ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR ... 61**
**DEYİMLƏR ... 100**
"Baş"la bağlı deyimlər ... 113
"Əl"lə bağlı deyimlər ... 115
"Ürək"lə bağlı deyimlər ... 116
**BAYATILAR ... 118**
Xalça mahnıları ... 148
Sayaçılar ... 151
Holavarlar ... 155
**NAPILLAR**
Тьlkь və ayэ ... 159
Canavarla tülkü ... 164
Pişiklə siçan ... 165
Üc ayaqlı at ... 166
Sərçə ... 170
Pıs-pıslı Püstə xanım ... 173
Narbənazik və Nazikbənazik ... 177
Xəccə xala ... 179
Qarı nənə ... 180
Qaraçuxa ... 182
Qızıl telli, gümüş telli oğlan ... 185
Эbrahim və Dьєvar padєah ... 189
Mirvari təsbeh ... 200
Yeddi qardaю, bir bacэ ... 206
Тьlkьdən qorxan Nəzər ... 220
Tənbəl Əhmədin ... 223
Gündən qorxan Əhməd ... 227
Mərdinən namərd ... 233
Səlim Cəfayxuruş ... 248
Padşah və üç oğlu ... 255
Єah Abbas ... 260
Aliyə ilə əmoğlusu ... 261

Noxudun nağılı ........................................................ 263
Süleyin baba ........................................................ 266
Tərəkəmə ilə qış ........................................................ 266
Bayram əmi ........................................................ 267
Səfeh arvad ........................................................ 269
Ləyənşuur ........................................................ 274
**LƏTƏFƏLƏR**
**Molla Nəsrəddin**
Axər yeri buradər ........................................................ 278
Эnюallah, mənəm ........................................................ 278
Əgər bu piюikdir, ət hanэ, əgər bu ətdir, piюik hanэ? .... 278
Dava Molla Nəsrəddinin yorpanэ ьstə idi ........................ 279
Sənə "nəьzbillah" haməsəndan yaxюэdər ........................ 280
Girdəkan apacэ bu yekəlikdə, qarpэz apacэ...Allahu əkbər 280
Molla və tülkü ........................................................ 280
Arvad, sən içəridən, mən eşikdən yaxşı ev oluruq .......... 281
Özgəsini aldadan özü də aldanar ................................. 281
Hakimsən ki varsan ........................................................ 282
Cavanliqda da elə bir p....deyildin ................................ 283
Bilməyənlər bilənlərdən soruşsun ................................. 283
Yavan şörək ........................................................ 284
Səndən çox razıyam ........................................................ 284
Ehtiyatı əldən vermə ........................................................ 284
Allahın evi ........................................................ 285
Novdan məşqi ........................................................ 285
Xoca və qızı ........................................................ 285
Ölümünü arzula ........................................................ 286
**Ərdəbilli Şeyx Məhəmməd**
Dəli və ağıllı Şeyx Məhəmməd ...................................... 286
Barı munu rahat yeyim ................................................ 287
Dəmir ulduz ........................................................ 287
Şeyx Məhəmməd və axund ........................................... 287
Niyə piləyirsən? ........................................................ 288
Evə sahib durassan ........................................................ 288
Barı eşik ol ........................................................ 288

Bu xalqı niyə tarda qırırsan? ..........................................289
**Müxtəlif lətifələr**
Onların biri xoruz deyil..................................................289
Öz qardaşlığını sübut elə, sonra əks-miras istə ...............289
Orda məni tanıyırlar .......................................................290
Olmasa, onu da söz elə...................................................290
Bu da bu dərdlə ölmüş....................................................291
Buradan ötürsən evəcən gedər.........................................291
Bunu da mən qınqıtmışam..............................................291
Birisi istər sənin halına ağlasın.......................................292
Cəddimin suda əli yoxdur...............................................292
Heyf, bu zəmiyə ............................................................293
Xeyr, növbət bizimdir.....................................................293
Döz, indi pişik gəlir........................................................293
Dua elə buğdaların dartılsın ...........................................293
Sən yaxşı bilirsən, ya Allah peyğəmbəri? .......................294
Sizin dalanda .................................................................294
Qurdu olmasaydı ağacda neyləyirdi? ..............................295
Gedə bilsəydim, öz evimizə gedərdim ...........................295
Niyə ora yazmısan? ........................................................295
Ösgürmə şərbəti.............................................................296
Doktor və xəstə..............................................................296
Çirkin arvad...................................................................297
Düş qurtar......................................................................297
Dədənin saatını qoruyurdu .............................................297
İndi bu yol......mənə baxır...............................................298
Bu at qurtardı.................................................................298
Axı, mən ocaq başı qoymamışam....................................298
Hər kimə çəkdiniz azdı...................................................299
Qismət olsa....................................................................299
Nənənin məsləhəti ..........................................................299
Hələ harasıdır ................................................................300
Bir işi də özünüz görün ..................................................300
Heç eşitməmişdim..........................................................300
Bir eşşək tapılır..............................................................301

Sizin kölgənizdə yaxşıyam ........ 301
Qorxu yoxdur ........ 301
Hələ bir şey verməmişəm ........ 301
Çox oxşayır ........ 302
Təqvimə çevirsin ........ 302
Sənlə deyiləm ........ 302
Eşşəyə veririk ........ 302
Özüm də matam ........ 303
Ərimi dəyişdim ........ 303
İki qonşu ........ 303
Xan az tapılandı ........ 303
İki çörək verin ........ 304
Polis və sürücü ........ 304
Birdəfəlik kafər ol ........ 304
Vəsiyyət ........ 305
Anadan doğmuş kimi buraxıb ........ 305
Quş həddinə düşdü ........ 306
Üç ay mən sənə gələli, üç ay sən məni alalı, rəcəb, şəban, rəməzan, bu da doqquz ........ 306
Belə otlamısan hanı yal quyruğun? ........ 306
Bu ayaqdan dəvə uşaq imiş ........ 306
Burada belə eləsə gör Fitilbürgdə nə eylir ........ 307
Az olur küsür, çox olur qusur ........ 307
Ağacan,eşşək-eşşəkdən de ........ 307
Ağacan, bu il birimizi evləndir, gələn il də dadaşı ........ 308
Deginən onunku qalıb Allaha ........ 308
Daha heç zad ........ 309
Hər gözəlin bir eybi olar ........ 310
Hələ işin əvvəlidir ........ 310
Hələ harasın görmüsən? ........ 310
Arvad sözünə baxmağın faydası ........ 311
O qədər işim var ki, arvad boşamağa da vaxtım yoxdur ........ 311
Bir keçi tapmışam ........ 313
Belə ki, yel əsir heç zad ........ 313
Bizə nə qaldı? ........ 313

P.....yeməyi bəs deyil, hələ hədis də deyir.......................314
Dağ gəlmir, mən gedərəm ...............................................314
Deməsəydin elə tüklü-tüklü yeyəcəkdim ........................314
Göy muncuq kimdədir, mənim gözüm ondadır...............315
Allaha qurban olum, bir evdə iki hoa var........................315
Bostan olub....................................................................316
**XALQ TƏBABƏTİ.........................................................320**
**MƏRASİMLƏR**
Cillə ..............................................................................324
Axır çərşənbə bayramı....................................................324
Qovutluq bayramı...........................................................327
Dağçılar bayramı ............................................................327
**Toy mərasimləri ............................................................328**
**Toy mahnıları.................................................................338**
**Doğum ...........................................................................343**
**Yağış yağma mərasimləri..............................................346**
**MİYANADA QƏDİM HAMAMLAR.................................347**
**İNANCLAR, SINAMALAR ...............................................350**
**OVSUNLAR**
Qorxu çıxarma................................................................360
Üzərlik ovsunu ...............................................................360
Sancı ovsunu...................................................................362
**MİFOLOJİ MƏTNLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR**
**Cinlər haqqında**
Erkən hamamı.................................................................363
Qara pişik ......................................................................363
Köşşən köşəyin üstünə ...................................................364
**Şeytan haqqında**
Şeytan aftaba içində.......................................................364
Bic və şeytan .................................................................365
Qaraçuxa........................................................................365
Al arvadı ........................................................................365
Əzrayil ...........................................................................366
Qulaq cingiltisi ..............................................................366
Ulduzlar .........................................................................366

Toyuq niyə uçanmaz?.....................................................366
Keçinin niyə quyruğu yoxdur?........................................366
Şəbanın yarısı gecəsi ......................................................367
Bazar çörəyi....................................................................367
**Yer adları haqqında rəvayətlər**
Tərpəşən dağ...................................................................367
Qəzənfər dağı ..................................................................368
Şah təpəsi........................................................................368
Ərk qalası ........................................................................368
**Dini və tarixi şəxsiyyətlər haqqında rəvayətlər**
Həzrət Əli ........................................................................370
Aləm nəzərində Həzrəti-Əlinin gücü ..............................371
İsgəndərin ölümü.............................................................371
**Xalq məsəlləri ilə bağlı rəvayətlər**
İmam Hüseyn gör necə yazıq olub "Əbil Qara" da
ona şaxsey vurur .............................................................375
İmam Sadiq deyir başmaqlarını da özün saxla................375
Arvad eldəndir, oğul beldən , arada dust tapılmaz..........376
Ağac tutan baş yarandan çoxdur .....................................376
Ağalar, belə ki, əyləşibsiz, yaxşı əyləşibsiz ....................376
Elə bil Cabirin keçisidir...................................................377
İp başqasının (gedə-g........) əlinə keçibdi........................377
Tükan özünüzündü, amma 5 tümənə saqqız olmaz.........378
Erməni badımcanı satmağı bəs dəyil, özü də Hacı Kazım
məscidinin qırağında......................................................378
Öpməyin yox, səvməyin yox, mağil-mağil elə
acı dişləməyin var? .........................................................378
Hər eşşəyin sürən deyir, «mən də mamağanlıyam» ........379
**XÖRƏKLƏR...............................................................380**
**SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT............383**
**LÜĞƏT........................................................................386**
**ƏDƏBİYYAT..............................................................396**

**Güney Azərbaycan folkloru,**
**V kitab.**
Bakı, Elm və təhsil, 2015.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompyuterdə yığan:
**Ruhəngiz Əlihüseynova**

Kompyuter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 60/84 1/32
Mətbəə kağızı: №1
Həcmi: 404 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompyuter Mərkəzində yığılmış, səhifələnmiş,
“Elm və təhsil” NPM-də ofset üsulu ilə
Hazır deopozitivlərdən çap olunmuşdur.